Professor Səlim Cəfərov isimlərin -lıq,-lik,-luq,- lük şəkilçisi ilə düzələn on bir məna qrupunu qeyd etmişdir: bir cismin çox olduğunu bildirən atributiv isimlər (dağlıq, üzümlük və s.), geyim şeylərini ifadə edən, yemək və zamana mənsubiyyəti olan isimlər (paltoluq, günlük və s.). mənəvi keyfiyyətləri özündə əks etdirən isimlər (insanlıq, igidlik və s.), təbiət hadisələrinin uzun müddət davam etdiyini bildirən isimlər (yağışlıq, quraqlıq və s.) (6, s. 155-156). Bu isimlər arasında müəyyən peşə, sənət və ixtisas sahibi bildlrən isimlərin cəmdə işlənə bilməsi potensialını ən aşağı hesab etmək olar (müəllimlik, dülgərlik, həkimlik və s.).

Toplu isimlər arasında –at şəkilçisi ilə düzələn bir neçə isim vardır. Bu şəkilçinin mənşəyi məsələsi mübahisəlidir. Ərəb mənşəli hesab olunan bu şəkilçinin

türk mənşəli olduğunu iddia edən dilçilər də vardır. Məsələn, professor F. A. Cəlilovun – at şəkilçisinin türk mənşəli olması fikri ilə professor Buludxan Xəlilov da razılaşır (10, s. 237). Həqiqətən də "gedişat, içalat, elat, bağ-bağat və s." sözlərin tərkibindəki sözü gedən şəkilçi hər halda onun türk dilinə xas sözlərdə də işləndiyini sübut edir. Ümumiyyətlə, Azərbaycan dili özünün qrammatik quruluşuna assimilyasiyaya, xarici müdaxilələrə qarşı güclü müqavimət qüdrətinə malik olan bir dil kimi bir çox hallarda alınma sözlərin tərkibindəki cəm şəkilçilərini neytrallaşdırır və həmin sözlərə -lar,-lər şəkilçisi artırılır. Məsələn: əşya (ərəb dilində "şey" sızünün cəmi) - əşyalar, ətraf (tərəflər) - ətraflar və s. Bu nöqteyi-nəzərdən tərkibində -at şəkilçisi olan sözləri iki qrupa bölmək olar: a) ancaq təkdə işlənənlər (camaat, nəbatat, heyvanat), b) həm tək, həm də cəmdə işlənənlər (məlumat, ləvazimat, təfərrüat və s. Deməli, birinci qrupdakı sözləri ancaq təkdə olan isimlər hesab etmək olar.

Ümumiyyətlə, qeyd olunduğu kimi, bu qrup isimlərin cəm şəkilçisi qbnul etməməsi bilavasitə onların semantikası ilə bağlıdır (lüğəvi məna cəmdə işlənməyə imkan vermir) və onlar dilin inkişafının müəyyən mərhələsində cəmdə işlənə bilmək potensialına malikdir.

Ədəbiyyat

1. Ağamusa Axundov. İngilis və Azərbaycan dillərində kəmiyyət kateqoriyası (tipoloji tədqiqat təcrübəsi) / Kontrastiv morfologiya (Elmi əsərlərin tematik məcmuəsi). Bakı: Azərbaycan Dövlət Universiteti nəşriyyatı, 1987, s. 3-8
2. Aslan Aslanov. Müasir Azərbaycan dilində inkarlıq və kəmiyyət kateqoriyaları. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1963, 92 s.
3. Bağırov Ə. A. Azərbaycan dilinin üslubiyyatı. Morfologiya. Bakı: ADU nəşriyyatı, 1985, 79 s.
4. Зарифа Будагова. Азербайджанский язык. Баку: Элм, 1982, 140 с.
5. Будагова З. И. Основы грамматики современного Азербайджанского языка (морфология). Баку: Элм, 1987, 188 с.
6. Səlim Cəfərov. Müasir Azərbaycan dili. Leksika. Bakı: Şərq-Qərb, 2007, 192 s
7. А. Д. Данияров. Категория множественности в современном казахском языке. АКД, Алма-Ата, 1965, 30 с. ---8
8.Ə. Dəmirçizadə. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Azərbaycan Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı Nəşriyyatı.
9. Muxtar Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Şərq-Qərb, 2007, 280 s.
10. Buludxan Xəlilov. Müasir Azərbaycan dilinin morfologiyası. I hissə. Bakı: Elm, 2007, 280 s.
11. З. З. Гатиатуллина. Сравнительная типология родного (татарского) и английского языков. Казань, 1979, 109 с.
12. Qənbərov Vaqif Ağası oğlu. Müasir ingilis dilində ismin kəmiyyət formalarının kontekstual-funksional təhlili. Filol. elm. nam. dissertasiyası. Bakı: 2008, 147 s.
13. Грамматика ногайского языка. Часть первая. Фонетика и морфология. Черкесск: Карачаево- Черкесское отделение
14. Грамматика современного башкирского литературного языка. Москва: Наука, 1981, 495 с.

15. Грамматика современного якутского литературного языка. Москва: Наука, 1982, 496 с.
16. N. Məmmədov, A. Axundov. Dilçiliyə giriş. II nəşri. Bakı: Maarif, 1980, 316 s.
17. Məmmədov N. Azərbaycan dilçiliyinin nəzəri əsasları. Bakı: Maarif, 1971,368 s.
18. Müasir Azərbaycan dili. II cild. Morfologiya. Bakı: Elm, 1980, 512 s.
19. Seyidov Y. M. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı: Bakı universitetinin nəşriyyatı, 2000, 403 s.

Shirmammad Qulubayli

The notion of singularity as a component of the functional-semantic field of number in modern Azerbaijani

Sammary

This article deals with the investigation of the notion of singularity. Different opinions about the category of singularity are generalized and the disputable questions connected with this notion (expression of plurality by the nouns in the singular form, the nouns of singularia tantum in Azerbaijani) are discussed. Here the notion of singularity is investigated as the component of the functional-semantic field of number in modern Azerbaijani.

Ширмаммад Гулубайли

Понятие единственности как компонент функционально-семантического поля числа в азербайджанском языке

Resume

Статья посвящена исследованию понятию единственности. Разные мнения о категории единственности обобщаются и основные спорные вопросы, связанные с этим понятием (выражение множественности именами существительными в форме единственного числа, существительные singularia tantum в азербайджанском языке) обсуждаются. Здесь понятие единсТвенности в Азербайджанском языке исследуется как компонент функционально-семантическое поля числа в азербайджанском языке.

Rəyçi: Sevindik Vəliyev
filologiya üzrə elmlər doktoru, professor

NURİYYƏ RZAYEVA
Filologiya üzrə fəlsəfə doktoru

AZƏRBAYCAN DİLİNDƏ İNGİLİS DİLİ MƏNŞƏLİ TERMİNLƏRİN LEKSİK VƏ SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: Dil, termin, tərcümə nəzəriyyəsi, qrammatika, fonetika
Key words: Language, term, theory of translation, grammar, phonetic.
Ключевые слова: язык, термин, теория перевода, грамматика, фонетика.

Məqalədə dilə daxil olan alınma terminlərin terminoloji sistemli zənginləşməsindən, dildə leksik alınmaların sayının artmasından bəhs olunur. O cümlədən dilə yeni gələn sözün dilin normalarına uyğunlaşmasının mürəkkəb linqvistik proses olduğuna görə sözlərin mənimsənilmə dərəcələri də müxtəlif səviyyədə özünü göstərməsi qeyd olunur.

Həmçinin semanik derivasiya prosesində mənanın genişlənməsi əsas yer tutmasından, alınma sözlərdə mənanın genişlənməsində ilkin leksik-semantik variantın arxiseminin mumiləşməsi baza sözlərdə leksik-semantik paradiqmasının hdudlarından kənara çıxması da mühüm rol oynaması araşdırılır.

Dilə daxil olan alınma terminlər terminoloji sistemli zənginləşdirir, dildə leksik alınmaların sayı artır. Dilə yeni gələn sözün dilin normalarına uyğunlaşması mürəkkəb linqvistik proses olduğuna görə sözlərin mənimsənilmə dərəcələri də müxtəlif səviyyədə özünü göstərir.(1,s.75) Bəzi sözlər dilə yeni gəldiyinə, yaxud müəyyən dildaxili səbəblərlə bağlı məhdud dairədə işləndiyinə görə yarım mənimsənilmiş alınmalar hesab olunur. Azərbaycan dilindəki ingilis mənşəli ***absentizm*** (absenteeism), ***aqnostizm*** (agnosticism), ***buklet*** (booklet), ***doker*** (docker), drenaj (drainage), ***dissident*** (dissident) ***klan*** (clan) və s. alınmalar belə sözlərdəndir. Bu tip leksik vahidlər semantik cəhətdən birmənalı olur, daha чox «özgə» reallığı əks etdirir və yeni anlayışların, əşyaların hadisələrin dilimizdə ifadəsində xidmət edir. Linqvistik təhlil göstərir ki, əsasən terminoloji leksikaya aid olan həmin alınmalar semantik cəhətdən sabitdir, müəyyən funksional sahələrdə işlənir. Onlarda semantik dəyişmələr nadir hallarda baş verir. Azərbaycan dilində geniş dairədə istifadə olunan, hətta ümumişləklik qazanaraq dil daxil olan kifayət qədər ingilis mənşəli sözlər vardır. Belə alınmalar sözün leksik sistemində özünə möhkəm yer tutmuşdur. Büdcə, vaqon, vazelin, boks, yumor, eksport, finiş, park, mağaza, kofe və s. alınma terminlər dilimizdə geniş işlənməkdədir. Bu sözlərin çoxu həm fonetik, həm də qrammatik cəhətdən assimilyasiyaya uğramışdır. Bu tip alınmalar tam mənimsənilmiş leksik vahidlərdən sayılır. Dil əlaqələrinin linqvistik problemləri dəfələrlə diqqət mərkəzində olsa da, alınmaların semantik mənimsənilməsi hələ də kifayət qədər tədqiq olunmasıdır. Məsələn, tədqiqatçılar alınma sözlərin «yerli» dildəki semantik inkişafını iki mərhələdə götürmüşlər: sözün alınması və onun tam mənimsənilməsi. Halbuki, leksik alınma mürəkkəb və çoxfazalı prosesdir. Bir sıra hallarda leksik alınma dildəki lüğə-

vi mənasından başqa sıozalan dildə yeni mənalarda işlənə bilər. Məsələn, ictimai-siyasi leksikada işlənən *baykot* termininin işlənməsində də semantik dəyişiklik hiss olunmaqdadır. Məlumdur ki, bu söz Azərbaycan dilinə siyasi və iqtisadi mübarizə formasını bildirən termin kimi daxil olmuşdur. Müasir dilimizdə *"baykot"* leksik vahidi özünün terminoloji mənasını saxlamaqla yanaşı, semantik tutumunu da genişləndirmişdir. Həmin alınma ictimai-siyasi termin sahəsindən çıxıb məişət çərcivəsində işlənməklə, ümumədəbi dilin fəal leksik vahidinə çevrilmişdir. *"Baykot"* leksemi müxtəlif sahələrin terminoloji sistemində də özünə yer almışdır. Diplomatiya termini kimi, baykotun mənası "bir dövlətin başqa dövlətlə, ya bir qrup dövlətlə ticarət əlaqələri yaratmaqdan və saxlamaqdan imtina etməsi"dir. Diplomatiya terminləri lüğətində tərkibində baykot sözü olan aşağıdakı termin-birləşmələr vardır: *«beynəlxalq münasibətlərdə baykot», «baykot elan eləmək»,«baykotu ləğv etmək», «baykota məruz qalmaq», «baykot siyasəti», «siyasi baykot», «baykota əl atmaq», «baykota çağırmaq»* və s.

Dilin başqa dildən aldığı sözlər müəyyən anlayışların, əşyaların, hadisələrin adlarını ifadə etməyə xidmət edir. Alınma ilkin dövrdə konkret semantikaya malik olur. Adətən söz adi olduğu halda dildə bir sıra mənalara malik olursa, kecdiyi yeni dildə onun bu mənalarından çox vaxt biri istifadə olunur. Zaman keçdikcə, alınma söz yeni mənalar qazana bildiyi kimi, əvvəlki mənasını itirə bilir. Alınma obyekt dildə semantik transformasiyaya məruz qalır. Semantik transformasiya dilçilikdə araşdırılmış məsəllərdəndir. Obyekt dildə alınma sözün mənasının genişlənməsi və ya daralması, onun məcazi mənada işlənməsi semantik transformasiya kimi başa düşülür.

Bir sıra tədqiqatçılar alınma sözlərə yalnız onların mənalarının daralmasının, bu sözlərin məcazi mənalarda işlənməsinin xas olmasını qeyd etmişlər. Bu fikir sonralar tənqid olunmuşdur (2,s.18) Alınma sözlərin yeni keyfiyyət qazanması cəmiyyətdə baş vermiş dəyişikliklərlə millətlərarası əlaqələrin, o cümlədən dil əlaqələrinin genişlənməsi ilə bağlıdır. Masir dıovrdə sıozlərin semantik strukturunun genişlənməsi, onların yeni mənalarının yaranması müşahidə olunur. İngilis dilində alınmaların semantik cəhətdən genişlənməsi onların həyatımızın müxtəlif sahələrinə nfuz etməsi prosesində baş verir. Termin alınan dildə ictimai-tarixi şəraitlə əlaqədar ilkin təbiətindən uzaqlaşmış, yeni məna kəsb etmişdir. Məsələn "server" və "servis" terminləri: 90-cı illərdə həm servis, həm də server sıozlərinin semantikasında dəyişmə baş vermişdir. Terminlər indi sosial-iqtisadi və başqa sahələrə aid anlayışları ifadə edir. *Server* - «kiçik və orta biznesdə istifadə olunan, əsas məlumatları saxlayan və ötürən kompyuter» mənasındadır. ***Servis*** söznün daha iki mənası yaranmışdır: 1. məhsulun istehlakı və satışı sisteminin təkmilləşdirilməsinə yönəlmiş kompleks xidməti təmin edən marketinq fəaliyyətinin alt sistemi; 2. sosioloji sorğu. Eyni hadisə öznü ***server*** termininə mnasibətdə də göstərir. Bu termin də yeni məna qazanmış, mxtəlif sölərlə yeni terminoloji birləşmələr əmələ gətirmişdir. İndi ***server*** «internet şəbəkəsinə qoşucu kompyuter» mənasında işlənir: İnternetə girmək üçün əvvəlcə serverə qoşulmaq lazımdır. Bunun üçün serverin telefon nömrəsi yığılmalıdır» («Media Press» qəzeti, 25 iyul, 2011). Alınma leksika, o cümlədən ingilis dilindən alınma sözlər dilin leksik

sistemində gedən proseslərdə fəal iştirak edir.Ümumişlək leksik vahid kimi alınmış söz terminləşə bildiyi kimi, alınma terminin xüsusi leksik vahid səciyyəsini qazanması də mümkündür. Müasir dövürdə terminoloji mənanın itirilməsinin tez-tez baş verməsi tədqiqatlarda qeyd olunur. İngilis dilindən alınma sözlərdən publisistik mətnlərdə, mətbuatda tez-tez istifadə olunması onların semantikasına əsaslı təsir göstərir. Mətbuatda işlənən alınma sözlərin semantik strukturunda dəyişmə baş verir. Sözün məna həcminin genişlənməsi yeni semlərlə zənginləşməsi özünü göstərir.Belə hallarda determinləşmə semantik genişlənmənın təzahr amilidir. Bir çox innovasiyalar məcazi mənada istifadə olunur, yeni mənalı söz mxtəlif semantik qrupun sözləri və söz birləşməsi tərkibində işlənir. Semanik derivasiya prosesində mənanın genişlənməsi əsas yer tutur. Alınma sıozlərdə mənanın genişlənməsində ilkin leksik-semantik variantın arxiseminin mumiləşməsi baza sözlərdə leksik-semantik paradiqmasının hüdudlarından kənara çıxması da mühüm rol oynayır. Məsələn: ***Treninq*** yarış dövür üçün orqanizmin maksimal hazırlığını təmin etmək üçün edilən məşqlər nəzərdə tutulur. Arxisema «idman məşqidir». Masir dövürdə sözün mənası genişlənmiş və müxtəlif fəaliyyət sahələrində işə hazır olmaq üçün məşqləri, formanı saxlamağı əhatə etməyə başlamışdır. *Reytinq* fərdi və komanda fəailiyyətlərinin ədəbi göstəricisidir. İlk əvvəl şahmata, sonralar tennisə aid olmuşdur. Hazırda həmin təkbətək mübarizə komanda idman növlərində istifadə olunur. Qiymətləndirmənin ədəbi göstəricisi arxisemində dəyişmə baş vermişdir. Ədəbi göstərici əsas götürülmür. Hazırda reytinq sözünün semantikası genişlənmişdir: «FİFA dnya yığmalarının sentyabr ayı üçün reytinq cədvəlini dərc edib» («Olimpiya dnyası», qəzeti, 9-11.10.2011). *Monitor* - Bu termin informatikada "1. emal sistemlərində əməliyyatları idarə və nəzarət edən, yoxlayan maşın proqramı; 2.proqramlaşdırma dillərində ümumi vasitələrdən istifadə etmək üçün proseslərin sinxronlaşdırılması və əlaqələndirmə mexanizmi; S.sistemi idarə edən displey" kimi mənalarında işlənir. Kompyuterin insan məişətində geniş yer alması onun dəstəsinə daxil olan *monitor* söz də ümumişlək leksik qata daxil olmuşdur. Bununla yanaşı, monitorun *«ekran»* mənası da vardır. «Kompyuter dəstinə yeni kvars monitoru daxildir. Belə sıozlər, bir qayda olaraq etnoqrafık, tarixi, coğrafı, bədii mətnlərdə işlənir. Realiyalar bu və ya digər mətndə ilk dəfə istifadə olunanda tərcüməçi və ya müəllif onun haqqında əlavə izah verir. Sözün sonrakı istifadəsi belə izahı tələb etmir. Alınma söz müxtəlif müəlliflərin əsərlərində və müxtəlif mənbələrdə rast gəlinirsə və bu zaman alınma sözün semantikası haqqında əlavə izah verilirsə, onda həmin sözün semantik mənimsənilmə dövrünün başlanması haqqında danışmaq olur. Alınma terminin dildə istifadə olunma tezliyi, ümumişləkliyi artdıqca onun yeni dilin leksik sisteminə uyğunlaşma dərəcəsi artır, alınma termin dildə işləələklik və yeni semantik çalar qazandığı zaman özünün əvvəlki mənasını da saxlayır. Bu zaman termin semantik cəhətdən tam mənimsənilir, ümumişlək sözə çevrilir, söz yaradıcılığında fəal iştirak edir. Bəzən də termin kimi yox, dilimizə söz kimi daxil olur və etimon dildən fərqli olaraq leksik-semantik məzmun dəyişərək terminoloji səciyyə qazanır. Məsələn, ərəb dilində ümumişlək olan xəta, əmsal, hədd, təcil, srət dilimizdə riyazi sahədə terminləşmişdir. Alınma

terminlərin mənimsənilməsi prosesində dəyişmələr müxtəlif mərhələlərdən ibarətdir. Tədqiqatçılar qeyd edirlər ki, əcnəbi söz semantik cəhətdən əvvəlcə okkazionalizm kimi götürülür və mətndə xsusi izahat tələb edir. Sonra əcnəbi söz bir qədər mənimsənildikdə və məzmun planının vahidi ilə onun yeni ifadə üsulu arasında əlaqə başa düşüldükdə əcnəbi söz resipientin passiv ehtiyatının vahidi hesab edilir və yalnız bundan sonra aktiv ehtiyata keçərək tam mənimsənilmiş sayılır [4,s.6].

Beləliklə də, alınma sözlər dilin öz sözləri kimi dəqiqləşir, aydınlaşır. Dil daşıyıcıları arasında yayılır. Alınma söz yeni dilin leksik-semantik və qrammatik sisteminə uyğunlaşır. Söz müxtəlif leksik, frazeoloji sintaktik birləşmələrdə istifadə olunur, sözdüzəldici morfemlərlə işlənmə imkanları artır, determinləşmə və terminləşmə prosesində iştirak edir. Azərbaycan dilinə keçən belə terminlərin çoxu ümumişlək leksik vahidlər cərgəsində yer almış, mənimsənilmiş, dilimizin müxtəlif sözdüzəldici şəkilçilərini qəbul edərək, yeni sözlər yaratmışdır. N.Məmmədli yazır ki, alınma terminin söz yaradıcılıq məhsuldarlığı, müntəzəm işlənməsi, məna anlamının genişlənməsi və s. əlavə əlamətləri törəmə kimi qəbul edilməlidir. (3,s.38) A.R.Mayorovun fikrincə, «alınma söz təkcə yeni mənalarını və ya söz yaradıcılığı məhsuldarlığını genişləndirməsi ilə deyil, dil sisteminə daxil olduğu üçün bu keyfiyyətləri qazanması yaxud qazana bilməsi ilə dildə möhkəmlənir. (5.s.8) Y.R.Krısin isə qeyd edir ki, sıozn funksional aktivliyini semantik mstəqillik təyin edir. Azərbaycan dilində də alınmaların mstəqillik qazanması, dildə sabitləşməsinin ən mühüm səbəbləri dubletlik yaratmaması,mənaca differensiallaşmasıdır. Son dövrlərdə komp-yuterin insan məişətinə daxil olması hesablama texnikasının srətli inkişafı bu sahədə alınmaların sayının günbəgün artmasına zəmin yaradır. Kompyuterin məişət texnikasına чevrilməsi alınma sıozlərin də hesablama texnikası terminləri olmasına baxmayaraq ümumişlək leksik qatda yer alması ilə şərtlənir. Məsələn, *drayver, monitor, sayt, klaviatur, bord, fotoşop, veb-sayt, veb-dizayn, internet, internet-klub, intert-klass* və s. Masir Azərbaycan dilində ingilis dilindən ardıcıl və artan sayda sözalma terminologiya sahəsində getdikcə artır. Müxtəlif elm sahələrinin inkişafı onlarda terminoloji bazanın zənginləşməsinə səbəb olur. Dilin terminoloji sisteminə, yeni terminlərin gətirilməsinə müxtəlif aspektlərdən yanaşmaq mümkündür. Yeni terminə yaranan tələbatın ödənilməsi üçün istifadə olunan termin yaradıcılığı yollarından biri də terminalmadır. Terminalma terminin başqa dildən hazır alınmasıdır. Azərbaycan dilinə son illərdə yeni terminlər hazır şəkildə ingilis dilindən alınır. Siyasi, iqtisadi, sosial sahələrə aid terminlərin dilimizə keçməsi artmışdır. Bunun əsas səbəbi ıolkənin yeni demokratik inkişaf yolunu seçməsi, yeni iqtisadi siyasəti qəbul etməsi ilə əlaqədardır. Lakin Azərbaycan dilinə ingilis dilindən gələn terminlər yalnız bu sahələrlə məhdudlaşmır. Müxtəlif elm sahələrinə aid terminoloji lüğətlərin araşdırılması zamanı son dövrdə ingilis dilindən alınmaların srətlə artması öznü göstərir. Ancaq dilin quruluş baxımından fərqliliyi ingilis dilindən alınma terminlərin unifıkasiyasına xsusi diqqət tələb edir.

Ədəbiyyat

1. Sadıqova S.A. Masir Azərbaycan ədəbi dilində termin yaradıcılığı prosesi, B., 2010, 244 s.
2. Sadıqova S.A. Azərbaycan dili terminologiyasının nəzəri problemləri, B., Elm, 2002.
3. Məmmədli N. Alınma terminlər B., Elm, 1997.
4. Гасанов Б.С. Процесс заимствования и особенности освоения заимствованных слов в языке (на материале тюркских лексических элементов в немеком языке). Автореф. дисс. на соиск. канд. филол. наук. Б., 1975.
5. Майоров А.П. Заимствования в лексике семантической системе языке. Автореф. дисс. канд. филол. наук. М., 1967, 12 с.

N.Rzayeva

Semantics of the borrowings terms in the modern
azerbaijan language
Summary

The article is deal about the appropriation process new English term-words is used in Modern Azerbaijan language. In this process the most stage loan-term-words was compared national words including semantic, graphic, phonetic, morphological sides. Also in article is took basis appropriation level of loan-term-words phonetic, graphic, grammatical, orthographical and semantic accommodation. Including is took information about being grouped on composition phonetic and method of writting English words which used in Modern Azerbaijan literary language.

Н.Рзаева

Семантика присвоенных терминов
в азербайджанском языке
Резюме

В статье говорится об использовании в азербайджанском языке новых английских слов-терминов и их присвоении. Важным этапом в этом проессе является сопоставление полученных терминов с наиональными словами с семантических, фонетических, графических, а также морфологических точек зрения. В статье основной акент делается на фонетические, графические, грамматические, орфографические и семантические адаптаии в проессе присвоения слов-терминов. Кроме этого, в статье говорится об использовании в современном азербайджанском литературном языке английских слов, их правописании и группировании по фонетическому составу.

Rəyçi: Rəfiq Cəfərov
filologiya üzrə fəlsəfə doktoru, dosent

DİLARƏ HƏMİDOVA
AzTU

MÜASİR İNGİLİS ƏDƏBİ DİLİNDƏ FELİN ŞƏXSSİZ FORMALARI SİSTEMİNDƏ MƏSDƏRİN YERİ

Açar sözlər: Fellər, ingilis dili, məsdər.
Key words: Verbes, enqlish, inifinitive.
Ключевые слова: Глаголы, английский язык, инфинитив.

Müasir ingilis dilində məsdər özünəməxsus yer tutan felin şəxssiz formalarından biridir. Onun əsas göstəricisi «*to*» ədatıdır. Məsdər tarixən fel kökündən düzələn isim olub. Müasir ingilis dilində məsdərin iki formasının («*to*» və «*to*»-suz) mövcudluğu onunla izah olunur ki, onlar iki müxtəlif hal formasına malikdir. Qədim ingilis dilində məsdərin iki halı var idi: adlıq və yönlük. Məsələn, adlıq hal – *ceansan*, yönlük hal *ceasenne* (to choose – «seçmək» mənasında); adlıq hal – libban, yönlük hal – libbene (to live – «yaşamaq» mənasında); adlıq hal – sprecan, yönlük hal – sprecenne (to speak – «danışmaq» mənasında).

Yönlük halında olan məsdər adətən məqsəd və istiqamət bildirən «*to*» sözönü ilə işlədilirdi. Məsdərin sonrakı inkişafında hər iki suffikslər (-an, -enne) ixtisar olunmuş və bir forma «*to live*» halına gəlib çıxmışdır. Məsdərin hal sonluğu və «*to*» sözönü ilə adlıq hal xüsusiyyətlərinin itirməsi nəticəsində, «*to*» sözönü onun əsas göstəricisinə çevrildi.

Qeyd etmək lazımdır ki, qədim ingilis dilində məsdərin ismi xüsusiyyətləri onun feli xüsusiyyətlərindən daha qabarıq şəkildə görünürdü. Onun feli xüsusiyyətləri bəzi funksiyalarında özünü göstərirdi. Felin şəxsli forması kimi, məsdər vasitəli tamamlıq götürə bilirdi və onlar zəfrlər ilə təyin oluna bilirdi.

Məsələn: *Ne can ic hoht sinzan (I can´ t sing) – Mən, oxumağı bacarmıram.*

M.Y.Bloxun fikrincə: «*By virtue of its general procces naming function, the infinitive should be considered as the head – form of the whole paradigm of the verb.* (Məsdərin əsas funksiyasını, yəni hərəkətin adını göstərdiyinə görə və onun bütün fellərin paradiqmalarına görə əsas forma kimi hesab olunmalıdır). Bu keyfiyyətə görə yaxşı inkişaf etmiş dillərdə məsdər ismin adlıq halına oxşadıla bilər». A.A.Şaxmatov ismi məsdəri «*verbal nominative*» adlandırmışdır.

Baxmayaraq ki, məsdər mənşəcə ismi feldir, lakin dilin inkişafı nəticəsində o, felin xüsusiyyətlərini alıb və indi fel və isim arasında bir vasitədir. Bu da onun sintatik funksiyasında özünü biruzə verir.

İsim kimi məsdər cümlədə mübtəda funksiyasında işlənir.

Məsələn, *<u>To skate</u> is pleasant.*

Bundan başqa isim kimi tamamlıq, predikativ funksiyasında işlənir.

Məsələn, *Her greatest joy was <u>to receive</u> letters every week and to write lon replies.*

Baxmayaraq ki, məsdər feli xüsusiyyətlərini daha sonra qazanmışdır, indi o, daha böyük əhəmiyyət kəsb edir. Məsdərin aşağıdakı feli xüsusiyyətləri var. Felin şəxsli formaları kimi məsdər zaman, tərzi növ kateqoriyasına malikdir.

Tense and aspect	Active voice	Passive voice
İndefinite	to speak	to be spoken
continuous	to be speaking	-
Perfect	to have spoken	to have been spoken
Perfect continuous	to have been spoken	-

Əvvəllər məsdərin ancaq bir forması var idi. Onun məchulu sonradan inkişaf etdi. Qədim məsdərin məlum növünə müasir dövrün cümlələrində rast gəlinir. Məsələn: *They were to blame = to be blamed*

Məsdərin zaman kateqoriyasına gəldikdə isə onu demək olar ki, felin şəxsli formalarından bir o qədər də fərqlənmir. Belə ki, məsdərin qeyri-müəyyən zaman forması onun ifadə etdiyi hərəkəti şəxsli formada işlənən felin ifadə etdiyi hərəkətə eyni vaxtda icra edildiyini bildirir.

Məsələn: *I saw him come into the room*.

İndiki zamala əlaqədar olan «*to expect, to hope, to intendent, want, to wish*» kimi fellərlə qeyri-müəyyən məsdər hərəkəti gələcəyə aid olur.

Məsələn: *I expect to go there tomorrow. I hope to find him in the town.*

Məsdər modallıq ifadə edən «*to want, to try, to long*» kimi felləri «*niyyət, istək*» mənasında işlənir.

Modal fellər və onların ekvivalentləri ilə bağlı olan qeyri-müəyyən məsdər gələcəyə aid olan hərəkət bildirir.

Predikat məsdər ifadə etdiyi hərəkətin felin əsas fel ilə ifadə olunduğu hərəkətdən əvvəl icra olunduğunu bildirir. Məsələn, *I am glad to have taken your advice.*

Məsdərin davam forması ifadə etdiyi hərəkətin əsas fel formasının hərəkti ilə eyni vaxt icra olunduğunu göstərir. Məsələn: *She seemed to be listening.*

Beləliklə, bütün təbiət və cəmiyyət hadisələri kimi, dil də öz yaranışı, mənşəyi, inkişaf tarixi və müasir mənzərəsi etibarı ilə olduqca zəngin hadisə və qanunauyğunluqlarından, rəngarəng vahidlər sistemindən ibarətdir. Bu cür mürəkkəb bir prosesin elmi təhlilini vermək, buradakı obyektiv hadisə və qanunauyğunluqları aşkar etmək, hər hansı bir dilin spesifik xüsusiyyətlərini müəyyənləşdirmək və s. problemlər dilçilik tədqiqatlarında aşkar olur.

Dilçilik elminin bütün elmlər kimi tarixi vardır. Dilçiliyin yaranma tarixi eramızdan əvvəlki əsrlərdən başlayır və bu elm təxminən iki min beş yüz illik inkişaf tarixinə malikdir. Dilçiliyin müxtəlif şöbələrindən biri də qrammatikadır. Qrammatika problemləri müasir dilçiliyin ən aktual məsələlərinə çevrilmişdir. Qrammatika dilçiliyin tam müstəqil şöbəsi kimi qədimdir.

Qrammatika termini yunanca «*gramma*» sözündən olub, hərfi yazısı savad mənasını verir. Qrammatika uzun müddət dil haqqında bilik elmi kimi başa düşülmüş və dilçilik elmini bütövlükdə əhatə etmişdir. Buna görə də dilçilik sözünün sinonimi olmuşdur. Müasir dövrdə isə qrammatika dilin konstruktiv səviyyəsini öyrənən dilçilik sahəsi olub, onun formalarından, onların dəyişmə və birləşmə formullarından bəhs edir. Müasir mənada qrammatika dilin qrammatik quruluşu haqqında elm sahəsi kimi başa düşülür.

Məlumdur ki, qrammatika dilin tacıdır. Qrammatikanın mühüm və geniş sahələrindən biri felin şəxssiz formalarından olan məsdər və məsdər tərkibləridir. Həm Azərbaycan, həm də ingilis dillərində məsdər və məsdər tərkibləri həmişə dilçi alimlərin əsas tədqiqat obyektlərindən biri olub. Məsdər və məsdər tərkiblərinin dildə oynadığı rolu nəzərə alaraq hər iki dildə onun müqayisəli şəkildə tədqiqinə ehtiyac duyulur. Məsdər və məsdər tərkibləri tədqiqat obyekti kimi seçilməsində əsas məqsəd onların dilçilikdə işıqlandırma dərəcəsini və onun ingilis və Azərbaycan dillərində oynadığı rolu müəyyən etməkdən ibarətdir. İlk baxışdan onlar nə qədər sadə görünsələr də öz qrammatik quruluşuna görə, semantik xüsusiyyətlərinə görə çox müxtəlif və geniş imkanlara malikdir.

Bildiyimiz kimi, ingilis və Azərbaycan dilləri müxtəlif dil ailərinə mənsubdurlar. İngilis dili analitik (flektik), Azərbaycan dili isə agglütinativ dil qrupuna daxildir. Buna görə də bu dilləri bir-biri ilə tutuşdurmaq ümumi və fərqli cəhətəri aşkar etmək çətin məsələdir. Buna baxmayaraq hər iki dildə felin şəxsiz formalarından olan məsdəri müqayisəli şəkildə öyrənmək vacibdir. Bu mövzu ilə əlaqədar rus, ingilis dillərində əhəmiyyətli dərəcədə elmi ədəbiyyat olduğu halda felin şəxsiz formaları haqqında Azərbaycan dilində verilən məlumatlar elmin bu sahəsinə olan tələbatı ödəmir. Buna görə də tədqiqat mövzusu öz aktuallığı ilə diqqəti cəlb edir.

Məlum olduğu kimi Azərbaycan dilinin lüğət tərkibində olan sözlərin böyük bir qismini fellər təşkil edir. Azərbaycan dilinin qrammatiksında müstəqil nitq hissəsi kmi tanınan fel bəhsinə hərəkəti bildirən, yəni əşyanın işini, halını, hərəkətini, vəziyyətini az və ya çox qabarıq və ya cüzi, dinamik və ya qeyri-dinamik şəkildə ifadə edən sözlər daxildir.

«Fel» temini bizim dilimizə ərəb dilindən keçib. Qeyd etmək lazımdır ki, fellər özünün leksik-semantik, morfoloji, sintaktik, üslub, fonetik və digər xüsusiyyətləri ilə başqa nitq hissələrindən əsaslı şəkildə seçilir.

Ədəbiyyat

1. И.П.Иванова, В.В.Бурлакова: «Теоретическая грамматика современного английского языка». Изд.: «Высшая школа». Москва-1981. стр.172-176.
2. В.Б.Касавин, В.С.Храковский: «От пропозиции к семантике предложения». Типология конструкций с предикатными актантами. Ленинград. Наука. 1985. стр.17.
3. O.Musayev: «İngilis dilinin qrammatikası». «Maarif» nəşriyyatı. Bakı-1979. səh.225-226.
4. M.Hüseynzadə: «Müasir Azərbaycan dili». Bakı-1983. «Maarif» nəşriyyatı.

Д.Гамидова

Без личных глагола английском языке

Резюме

Рол инфинитива в беэ личных глагола английском языке роль и место инфинитива в беэ личных глагола существенно заметен. В соврешенном английском языке безличные глаголы играыет особую роль в морфологической системе и крепко связань неопределенной формой глагола. В предлоне-

ениях безличные глаголы открывают новую формуыупотребления и иногда-меняет значение мысли в предложниях и дают иные, зависсимые отченки глагола.

D.Hamidova

The role of infinitive in impersonal verbs in English

Summary

The role and the place of the infinitive in impersonal verbs in English is essentially noticed.En modern English impersonal verbs play a special role in morphological systemand is closely connected with the indefinite from of a verb.Impersonal verbs in sentences create the new from of usage and sometimes change the meanings and thoughts in sentences and thoughts in sentences and give another dependant touch of the verbs.

Rəyçi: Rəfiq Cəfərov
filologiya üzrə fəlsəfə doktoru, dosent

ÜLKƏR MUSAYEVA
Bakı Avrasiya Universitetinin müəllimi
cicekhuseynova@mail.ru

AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ KƏMİYYƏT BİLDİRƏN ƏLAMƏTLƏR

Açar sözlər: İsim, əvəzlik, say, zərf, qoşma
The key words: noun, pronoun, numeral words, adverb, postposition.
Ключевые слова: существительное, местоимение, числительное, наречие, послелог (постпозиция).

İnsanın əşya haqqqındakı anlayışlarından biri də onun kəmiyyətidir. Əşyanı hərtərəfli dərk etmək prosesi onun azlıq-çoxluğunu, ondakı əlamətin qədərini bilməyi də tələb edirdi. Ona görə də insan əşyanı dərk etmək üçün onun mücərrəd kəmiyyətinə də nüfuz etməli olmuşdur. Hələ qədim insanlarda əşyanın konkret miqdarını hesablamaq, bunun üçün hansı ədədi etalon götürmək kimi biliklər olmadığı vaxtlarda onun qeyri-dəqiq kəmiyyəti haqqında anlayışlar olmuşdur. Bu onu göstərir ki, konkret saylardan daha əvvəl kəmiyyət anlayışı yaranmış və o hər bir dilin özünəməxsus vaitələrilə ifadə edilmişdir. Kəmiyyət anlayışı aqqlütinativ dillərdə daha asan üsulla-konkret qrammatik forma ilə ifadə edilir. (2, s.372)

Qeyd edildiyi kimi kəmiyyət dedikdə kəmiyyətin yalnız şəkilçilərlə ifadəsi nəzərdə tutulmur. Kəmiyyət həm leksikologiyada, həm morfologiyada və həm də sintaksisdə özünü müxtəlif şəkildə göstərir. Məsələn: zərflərdə, saylarda, əvəzliklərdə, isimlərdə kəmiyyət bildirən sözlərin olması, isimlərdə, fellərdə kəmiyyət bildirən şəkilçilərin olması, uzlaşma əlaqəsi, tabeli mürəkkəb cümlələrdə kəmiyyət budaq cümləsi və s. kəmiyyətin müxtəlif üsul və vasitələrlə ifadəsinin göstəriciləridir.

Müasir dövrdə kəmiyyət kateqoriyasından danışarkən aşağıdakı şəkilçilər nəzərə alınır:-lar, (-lər), -lıq (-lik,-luq,-lük), -lı (-li,-lu,-lü), -q (-k), -iq (-ik, -uq,-ük), -ız (-iz, -uz,-üz).

Lakin tarixən kəmiyyət, topluluq bildirib, indiki zamanda isə sözlərin tərkibində daşlaşmış şəkildə mövcud olan formantlara aşağıdakıları nümunə göstərə bilərik. –an,-ın (Turan, aran, bodun-xalq,qoşun), -ar (xəzər,avar, suvar), -aq (topluluq bildirir-dırnaq, barmaq, yığnaq; cütlük çaları bildirir- qulaq, dodaq, dirsək, yanaq, topuq), -iz (topluluq bildirir-oğuz,qırğız,qaqauz), -z (cəmlik bildirir- biz, siz, işiniz; cütlük bildirir- üz, göz, diz, əkiz, buynuz) və s. (14, s.187). Beləliklə müasir dövrdə topluluq, kəmiyyət bildirən sadə sözlərin tərkibində tarixən kəmiyyət şəkilçilərinin olduğunu görə bilirik.

Qeyd etdiyimiz kimi ədəbi dilimizdə kəmiyyət yalnız şəkilçilər vasitəsi ilə deyil həmçinin çoxluq bildirən sözlərlə də ifadə olunur. Qədim türk dilində sözün təkrarı çoxluq anlayışını bildirmişdir. Məsələn: ağca-ağca, qat-qat və s. Bu xüsusiyyət müasir dilimizdə də müşahidə olunur. Məsələn: kənd-kənd, çadır-çadır, ev-ev və s. (14, s.187)

Kəmiyyət kateqoriyası yalnız isimlərə məxsus deyildir. Bunu biz digər nitq hissələrində də müşahidə edə bilərik.

Dilimizdəki isimlərin müəyyən qismi məzmunca həm tək, həm də cəm kimi dərk edilir. Belə isimləri mətndən xaricdə tək və cəmə ayırmaq qeyri-mümkün olur.

Üzüm, tut, alma, gul, balıq, daş və bu kimi sözlər həm bütövü, həm də onu təmsil edən bütövün ayrı-ayrı vahidini bildirir. Məsələn: Üzüm faydalı meyvədir; Biz tut yedik; Şərif bazardan alma aldı; Bağçada gül əkmişlər; Dənizdə balıq tuturdular; Uşaq çaydan daş yığırdı kimi cümlələrdə bütövün vahidi olan tək bir üzüm, tut, alma, gül, balıq və daş dərk edilmir, eyni zamanda bütöv də dərk edilir. (5, s.42)

Ə.Dəmirçizadə cəm şəkilçisinin üslubi məqamda işlədilməsi və bununla da üslubi norma yaradılmasında iştirakı ilə əlaqədar fikir və mülahizələrini aşağıdakı kimi ümumiləşdirir: "heç bir şəkilçi qəbul etmədən bir ismin həm çoxluq, həm də təklik bildirməsi ilə məna çalarlığı meydana çıxdığı kimi, cəm şəkilçisi qəbul etmiş isimlərlə cəm şəkilçisi qəbul etməmiş isimlərin kəmiyyət anlayışına görə sinonimliyi də yaranmış olur ki, bu da üslubi imkanı doğurur. Məqsəddən asılı olaraq cəm əşkilçisinin işlədilməsi və ya işlədilməməsi ilə əlaqədar üslubi imkanlar bu şəkilçinin, xüsusən, məna çalarlığı və hansı sözə bitişərək işlədilməsi ilə üzvi surətdə bağlıdır. Çünki cəm şəkilçisi bütün isimlərə eyni dərəcədə bitişdirilmir və bitişdiyi hər isimdə də çoxluq anlayışını eyni rəngdə, eyni dərəcədə ifadə etmir. Bir sıra isimlərdə isə cəm şəkilçisi, ümumiyyətlə, əşyanın qeyri-müəyyən çoxluluğunu deyil, dolayı yollarla əlaqədar olan başqa bir anlayışın çoxluluğunu, bəzən də tamam başqa bir anlayış çalarlığını ifadə edir" (4,s.190)

Ümumi isimlərin çoxu tək bir sözdən ibarət olub, ayrı-ayrı varlığın adını bildirdiyi halda, bir qismi də cəmlik şəkilçisi qəbul etmədən tək bir sözlə varlığın topluluğunu-çoxluğunu bildirir: adam, quş, at (təklik bildidrir), xalq, el, cəmiyyət, ordu, sürü, naxır, ilxı (topluluq bildirir)

Topluluq bildirən adlar şəkilcə başqa ümumi adlardan fərqlənmədiyi kimi, morfoloji əlamət qəbul etdiyi zaman da onlardan fərqlənmir. Onlar da cəmlik şəkilçisi qəbul edib, xalqlar, ellər. cəmiyyətlər, ordular, sürülər, naxırlar, ilxılar şəklində işlənə bilir. Cəmlənmiş toplu isimlərdə topluluq məzmunu sözün kökündə özünü saxlayır və -lar,-lər cəmlik şəkilçisi bu məzmunun qeyri-müəyyən miqdarının artmasını bildirir.

Toplu isimlərdə kütləvilik anlayışı əks olunur Bu isimlərin qrammatik cəmlik əlaməti qəbul etdikdə topluluğa aid çoxluq təsəvvürü yaradır: el-ellər, dəstə-dəstələr, qoşun-qoşunlar,

Y.Seyidov topluluq bildirən isimlərin xarakter xüsusiyyətini izah edərkən onları təklik bildirən sözlərlə qarşılaşdırır. "İsimlərin bir qismi öz leksik-semantik mənalarına görə eyni əşyaların yığımını bildirir: sürü, naxır, ilxı. Belə isimlər çox deyil, lakin onlar hər halda var və varsa, deməli, təklik bildirən isimlərlə qarşı-qarşıya dayanır" (13s.227)

Azərbaycan dilində cəmlik, əsasən, aşağıdakı morfoloji vasitələrlə ifadə olunur.

1**.-lar (-lər)** morfemi Azərbaycan ədəbi dilində kəmiyyət kateqoriyasının əsas morfoloji göstəricisi hesab olunur. Orxon-Yenisey abidələri (oğlanlar, bəglər), M.Kaşğarinin "Divan"ı (urağutlar-qadınlar, kişilər-adamlar), Yusif Balasaqunlunun "Qutadqu Bilig" poeaması (yığaclar-ağaclar, işçilər) və digər qədim türk mənbələrində işlənən –lar[2] şəkilçisi Azərbaycan dilinin bütün dövrləri üçün səciyyəvi olmuşdur (14,s.186): Souq-souq suları sorar olsan (11,s.59), Qatar-qatar dəvələri sorar olsan (11,s.59), Buynuzu burma qoçlarımız aldığı yox (8,s.61), hay demədən başlar kəsən cəlladı olur (8, s.72), Gümbür-gümbür nağaralar çalındı (8, s.73), Başlarda bəlani çox görüb əql (8, s.107), Sözlər dersən ki, bilməzəm mən (8, s.31), Arslanla-

rın oldu pişvası, Qaplanların oldu müqtədası (8,s.159). Bu nümunələrin hər birində -lar[2] şəkilçisi çoxluğu bildirir. Dilimizdə -lar (lər) şəkilçisinin ümumilik, mücərrədlik məzmunu ifadə etməsinə də rast gəlinir: Bir qədəm bas ki, toy öz toyundur, **Toylar** yaraşığı sənin boyundur və s.(14, s.187)

–lar (-lər) cəmlik şəkilçisi hansı bir nitq hissəsinə əlavə olunursa, qeyri-müəyyən çoxluq məzmunu yaranır. Məsələn: Onlar istədiklərini edirdilər (9, s.191), Onlara çörəyi cirə ilə vermirlər (9, s.184), İlyas bəy dayananlara baxdı (9, s.159), Onlar yolun kənarına çəkildilər, dərəyə sarı endilər. (9, s181), Qapıda kəndlilər gözləyirdilər (9,s.159), Yasovullar onu qucaqlayıb qapıya atdılar (9, s.159) və s.

Lakin bəzi hallarda isim abstrakt məfhum ifadə etdikdə –lar (-lər) şəkilçisi həmin abstraktlığı nisbətən konkretləşdirir. Məsələn: Daş bərk cisimdir dedikdə daş sözü müəyyən bir daşa deyil, dünyada olan bütün daşlara aid olur. Daşlar yerin şumlanmasına mane olur cümləsində isə daşlar sözü dünyada olan bütün daşları deyil, yalnız müəyyən yerdə müəyyən miqdarda olan daşları əhatə edir. Deməli bu misallardakı daş sözü daşlar sözündən daha ümumidir.

–lar (-lər) şəkilçisi xəbərlik kateqoriyasında həm isimlərin, həm də fellərin üçüncü şəxsin çoxluğunu göstərə bilir. Məsələn: Onlar tələbədirlər, tələbələr hazırlaşırlar. (5,s.43)

2.**–q,-k** ünsürləri heç bir başqa samitlə (ünsürlə) birləşmədən müvafiq saitlər vasitəsilə -iq,-ik,-uq,-ük şəklində ismi cümlələrdə cümlənin şəxs bildirən xəbərlik dərəcəsində birinci şəxsin kəmiyyətcə çoxluğunu ifadə edir. Bu ünsürlər bütün şəxsləri deyil, yalnız birinci şəxsin cəmini bildirir.(5, s.43). Məsələn: Gecə ikən biz bu kənddən **çıxmalıyıq**. (9, s.147), Bir şey olmayıb, ana, heç nədən də **qorxmuruq** (9, s147),Sağlıq olsun **görüşərik** (9, s149), Suren əmim qonaq gələndə biz də quş **kəsək** (9, s.155), Biz kasıbçılıqla **məşğuluq** (9, s.167 Bunu bilsək özümüz **axtarardıq** (9, s.167) və s.

Deməli, -lar (-lər) şəkilçisi əşyanın çoxluğunu göstərdiyi halda, -ıq, (-ik,-uq,-ük) şəkilçisi ismi xəbərdə əksini tapan əlamətin şəxsə görə çoxluğunu bildirir. Bu şəkilçi fellərdə də birinci şəxsin cəmini ifadə edir. (5, s.44) Məsələn: Hələ o qədər ac **qalmamışıq** (9, s.366), Şirin və təmiz olan uşaqlıq günlərimizi **xatırlayırdıq**. (9, s.370), Biz stansiyaya **yollandıq** (9, s.378), Bir-birimizdən ayrı **düşdük** (9, s.381), Biz də ona səs **verərik** (9, s.396)

3.**-ız (-iz, -uz, -üz)** şəkilçisi yalnız şəxsin çoxluğunu ifadə edir. Mənsubiyyət şəkilçisi olarkən birinci və ikinci şəxsin cəmini (atamız, anamız), xəbərlik kateqoriyası şəkilçisi olarkən ikinci şəxsin cəmini (tələbəsiniz), fellərdə şəxs kateqoriyası şəkilçisi olarkən yenə də ikinci şəxsin cəmini (yazırsınız), feli sifət şəkilçisinin tərkibində olarkən mənsubiyyətcə həm birinci, həm də ikinci şəxsin cəmini (aldığımız, aldığınız) ifadə edir. (5, s.44) Məsələn: Yaxşı olardı ki, siz Şərəbanı arvadı **tanıyaydınız** (9, s.397), Burda səs **verəcəksiniz** (9, s.397), Yaxşı olar ki, sonra özünüz gəlib **görəsiniz** (9, s.408), **İstədiyiniz**, **bəyəndiyiniz**, **tanıdığınız** təmiz, vicdanlı adamları **seçərsiniz** (9, s.409), Yusif kimi qabil **işçilərimiz** (9, s.413), Bizim **qaydamıza** lap tuş gəlir (9, s.424), Sizin bugünkü **səhvinizin** üstündən keçmək olar (9, s.424), Ailəli **olduğunuz** üçün sizə təqaüd də verərlər (9, s.435)

4.-lıq (-lik,-luq,-lük) şəkilçisi əşyalılıq bildirən sözlərə qoşulub müxtəlif məna çalarlığı əmələ gətirir. S.Cəfərovun qeyd etdiyi 11 məna çalarlıqdan yalnız biri kəmiyyət, çoxluq anlayışına aidir. Məsələn: ağaclıq, dağlıq, bağlıq, odunluq, üzümlük, meşə-

lik, çiçəklik və s. (3, s.183). Maşının gurhagur səsi dayananda qamışlıqda xışıltı eşidildi (9, s. 200) cümləsində də **qamışlıq** sözündə -lıq[4] şəkilçisi çoxluq bildirir.

5.-lı (-li,-lu,-lü) şəkilçisi isimlərə qoşulub sifət əmələ gətirir və əmələ gələn sifətlərdə çoxluq, kəmiyyət anlayışı müşahidə edilir. Məsələn: yağlı, sulu, çirkli, pullu, daşlı və s. (3, s.185)

Say bir qrup sözdən ibarət olub, öz daxili məzmununa görə əşyanın miqdar və ya sırasını bildirir. Miqdar bildirənlərin morfoloji əlaməti yoxdur. Miqdar sayları yaranış etibarı ilə sayıla bilən maddi varlığın bir əlaməti kimi yaranmışdır (5,s.124). Sayın növlərindən biri olan miqdar saylarının müəyyənlik bildirən miqdar sayları, qeyri müəyyənlik bildirən miqdar sayları və kəsr sayları kimi növləri əşyaların və hadisələrrin kəmiyyətini bildirir. Azərbaycan dilində normaya uyğun olaraq birinci tərəfdə çoxlıuq bildirən miqdar sayı işlədildiyi zaman ikinci tərəfdə cəm şəkilçisi işlədilmir. M.Hüseynzadə saylara məxsus bu normanın səciyyəvi cəhətini aşağıdakı kimi izah edir: "İsimlərin təklikdə kəmiyyətcə xüsusi şəkilçisi (-lar[2] şəkilçisi) vasitəsi dəyişməsinin saylarla birgə işləndiyi zaman mümkün olmaması onların saylardan asılı olmasından başqa bir şey deyildir; çünki müəyyən kəmiyyət bildirən saydan sonra isimlərin qeyri-müəyyən kəmiyyət şəkilçisini qəbul etməsinə Azərbaycan dilinin məntiqi də imkan vermir. Beş kitab birləşməsində kitab sözünün cəm şəkilçisi qəbul etməməsi həmin sözün konkret miqdarını bildirən beç sözünün tələbindən irəli gəlir ki, bu da bir tərəfdən, sayın sintaktik cəhətdən isimdən asılı olmamasını, digər tərəfədən, sifətdən tamamilə fərqləndiyini göstərir." (5, s.104-105)

Azərbaycan dilində bəzi say vahidləri vardır ki, onlar müəyyən tarixi, ictimai hadisələrlə, inamlarla, adət ənənlərlə bağlı olaraq seçilir, təsəvvürdə fərdiləşir. Müəyyən hadisələrin motivi əsasında fərdiləşə bilən saylar motivləşmiş saylar sırasına daxil edilir. Belə saylar qrammatik cəhətdən cəm şəkilçisi ilə işlədilsə də, onlar məntiqə görə fərdilik bildirir, bu fərdiliklə də başqalarından seçilir. M.Hüseynzadə motivləşmiş sayların xüsusiyyətlıri haqqında aşağıdakı fikri irəli sürmüşdür. "sayların təklikdə hal və kəmiyyətcə dəyişməsi onların cümlə daxilində müəyyən bir əşya kimi təsəvvür edilməsindən irəli gəlir. Üçlər yaxud iyirmi altılar dediyimiz zaman kəimyyət təsəvvüründən artıq əşya təsəvvürü dərk edilir. "(5, s. 104)

Zərflərin növlərindən biri olan kəmiyyət zərfi hal-hərəkətin və əlamətin kəmiyyətini bildirir və neçə?, nə qədər?, neçə-neçə? suallarından birinə cavab verir. Məsələn: çox, az, xeyli, təkrarən, nisbətən, təxminən, təqribən, təxmini təqribi, az-az, çox-çox, az-çox, bir-bir, qat-qat, təkrar-təkrar, az-maz, birə-iki, o qədər, yüz dəfə və s. Məsələn: Şübhəsiz ki, hələ **lazımınca** maariflə işıqlandırılmamış ailələr var (9, s.437), Rayonda tibbi təbliğatı da **çox** genişləndirirdik (9, s. 437), Bu müdhiş və ağır hadisənin təsirilə **tamam** sarsılmışdım (9,s.438) və s.

Əvəzlik başqa nitq hissələrinin (isim, sifət, say və zərfin) yerində işlənən, mənaca onu əvəz edən və həmin sözün funksiyasını yerinə yetirən nitq hissəsidir. Əvəzliyin növlərindən olan şəxs əvəzliyi, qeyri-müəyyən əvəzliyi və təyini əvəzliyinin içərisində də kəmiyyət bildirən əlamətlərə rast gəlinir. Şəxs əvəzliyindən bəhs edərkən I,II və III şəxsin cəmini bildirənlər. Məsələn; biz, siz və onlar. Qeyri-müəyyən əvəzlikdən hamı, hamısı, hər kəs, təyini əvəzlikdən isə bütün sözü mənaca, mahiyyətcə kəmiyyət bildirir.

Qoşmaların lüğəvi mənası olmasa da, onlar qoşulduqları sözlərlə birlikdə, qoşulduqları sözlərin mənasından asılı olaraq kəmiyyət məzmunu da ifadə edə bilir.

Məsələn: -ca,-cə qoşması isim və işarə əvəzliklərinin sonuna artırılır. **Qədər** qoşmasının tam sinonimi olur. Məsələn: **Məcnunni-həzincə** dərdi yoxdur (Füzuli), Təzvir ilə çəkmə **bunca** ahi (Nəsimi) (6, s.317)

Uzlaşma əlaqəsi cümlənin mübtəda və xəbəri arasında olur. Bu əlaqədə əsas tərəf mübtədadır. Mübtəda hansı şəxsdə olsa, xəbər də həmin şəxsdə olur və həmin şəxsin şəkilçisini qəbul edərək olunla uzlaşır. Mübtəda tək olduqda, xəbər də tək, cəm olduqda, xəbər də cəm olur. Məsələn: Mən gözləyirdim (9, s.365), Biz istəmirik (9, s388), Sən xoşbəxtsən (9, s.406), Siz gələcəyin günəşlərisiniz (9, s.385), **O**, şəklini toxuyacağı adamı tanımaq **istəyirdi** (9, s.454), **Onlar** illərdən bəri qurtuluş yolunun Bakı fəhləsindən **öyrənmişlər** (9, s. 324),

Y.Seyidov qeyd edir ki, uzlaşma əlaqəsində tabe edən tərəf (mübtəda) insanlara aiddirsə, tabe tərəf (xəbər) əksər hallarda onunla uzlaşır, bəzi halarda uzlaşmır. Tabe edən cansız varlıqlara aid olarsa, tabe söz əksər hallarda onunla uzlaşmır. Məsələn: Soyuq dağ küləkləri könlünün mətləblərinə, arzularına süpürgə çəkirdi (9, s.194), Quzular otdan çəkildi (9,s.136), Canlılar cansızlara sığınırdı (9, s.18)

Xəbərin mübtəda ilə həm şəxsə, həm də kəmiyyətə görə uzlaşması tam uzlaşmadır. Məsələn: Mən sizin birlik, səadət və qələbə bayramınızı ürəkdən təbrik edirəm (9. s. 328), Sən gərək oxumağı yaxşı biləsən (9, s.391), Onlar ayrılmalı idilər (9,s.32), Məhbuslar sement dözəməli dalana yığıldılar (9, s.17) və s.

I və II şəxslərin tək və cəmində uzlaşma həmişə tam olur, yəni mübtəda mən, sən, biz, siz sözləri ilə ifadə olunduqda xəbər onlarla hər iki cəhətdən uzlaşır və uzlaşma heç vaxt pozulmur. Mübtəda III şəxsin təkində olduqda da uzlaşma heç vaxt pozulmur. Kəmiyyətə görə uzlaşma yalnız III şəxsin cəmində pozula bilir. Kəmiyyətcə uzlaşma insan məfhumu ilə bağlı formalaşıb, ona görə də I və II şəxslərdə pozulmur, III şəxsin cəmində isə insandan cansız varlığa doğru getdikcə zəifləyir.

Kəmiyyət budaq cümləsi baş cümlədəki iş və hərəkətin icrasının kəmiyyət, miqdar və dərəcəsini göstərir və buna görə də baş cümlədə işlənən **o qədər, o dərəcədə** sözünün məzmununu izah edir və nə qədər sualına cavab olur.(1, s.368)

Kəmiyyət budaq cümləsi daha çox baş cümlənin feli xəbərinə, keyfiyyət, miqdar bildirən başqa üzvlərinə aid ola bilər. Məsələn: Nə qədər çox qazansan , o qədər sevinirsən, nə qədər desən material da var, nə qədər desən, istiotu da var, Kitablar Nəcəfi özünə o qədər cəlb etmişdi ki, o, dərsarası tənəffüslərdə də onlarla maraqlanırdı (1, 368) və s.

Beləliklə Azərbaycan dilində kəmiyyətin ifadə formalarının özünəməxsus və zəngin olduğunu görə bilirik.

Ədəbiyyat

1. Azərbaycan dilinin qrammatikası, II hissə, Bakı, Azərbaycan Elmlər Akademiyası nəşriyyatı, 1959
2.Babayev A. Dilçiliyə Giriş, Bakı, Nurlan, 2004
3.Cəfərov S. Müasir Azərbaycan dilində söz yaradıcılığı, Bakı, BDU, 1960
4.Ə.Dəmirçizadə. Azərbaycan dilinin üslubiyyatı, Bakı,Yazıçı, 1962
5..Hüseynzadə M. Müasir Azərbaycan dili, Bakı, Maarif, 1973

6..Mirzəzadə H. Azərbaycan dilinin tarixi morfologiyası, Bakı, Azərbaycan Dövlət-Pedaqoji ədəbiyyatı nəşriyyatı,1962
7. M.Hüseynzadə. Müasir Azərbaycan dili. Bakı, 1983
8.M.Füzuli. Seçilmiş əsərləri, Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1988
9. M.Cəlal. Seçilmiş əsərləri, I cild, Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1986
10. Kazımov Q.Ş. Müasir Azərbaycan dili, "Ünsiyyət", 2000
11. Kitabi Dədə Qorqud, Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1962
12. Seyidov Y. Sintaktik əlaqələr, Müasir Azəarbaycan dili, Bakı, Maarif, 1972.
13. Seyidov Y. Sözün sirri, Bakı, Maarif, 1981
14. Tanrıverdi Ə. Azərbaycan dilinin tarixi qrammatikası, Bakı, Elm və Təhsil, 2010

U.Musayeva

Features expressing the quantity in the literature azerbaijani language

Summary

One of the concepts of person about the object is quantity. The quantity shows itself both in the lexicology, morphology and syntax in various forms. While talking about the categories of the quantity in the modern period, the following suffixes are being taken into consideration: - lar, (lər), -lıq (-lik, -luq, -lük), -lı (-li, -lu, -lü), -q (-k), -iq (-ik,-uq,-ük), -ız (-iz,-uz, -üz). The quantity is expressed not only by the suffixes but also by the words expressing the majority.

У.Мусаева

Признаки, обозначающие количество в литературном азербайджанском языке

Резюме

Одним из понятий человека о предмете является количество. Количество выражается в разных формах и в лексикологии, и в морфологии и, в том числе, в синтаксисе. В современный период, говоря о категориях количества, нижеследующие окончания принимаются во внимание: - lar, (lər), -lıq (-lik, -luq, -lük), -lı (-li, -lu, -lü), -q (-k), -iq (-ik,-uq,-ük), -ız (-iz,-uz, -üz). Количество выражается не только с помощью окончаний, но и словами, обозначающими множество.

Rəyçi: Cəmil Babayev
filologiya üzrə fəlsəfə doktoru

ELDAR AĞAYEV
AMEA Nəsimi adına Dilçilik İnstitutunun dissertantı

SLENQ – DİLÇİLİK TERMİNİ KİMİ

Açar sözlər: slenq, jarqon, ədəbi dil, termin, varvarizm.
Ключевые слова: сленг, жаргон, литературный язык, термин, варваризм.
Key words: slang, jarqon, literary anguage, termn, barbarism.

Dilçilik termini slenq-ingilis dilində "tullamaq" və ya "səpələmək" mənasını bildirir."İzahlı tərcüməşünaslıq terminləri lüğəti"-ndə bu termin haqqında belə yazılıb: "Slenq-müəyən peşə, yaxud sosial təbəqə nümayəndələrinin tərəfindən istifadə edilən söz və ifadələrdir. Ümumi və xüsusi slenqlər olmaqla iki yerə bölünür". (1.s101)

Bəzən slenqləri varvarizmlərlə,jarqon və arqo sözlərlərlə eyniləşdirirlər. Əslində bunlar müxtəlif mənalar daşıyan dilçilik terminləridir.

Rus dilçisi Raisa İosevna Rozina bu söz qrupları arasındakı fərqi göstərərək belə yazır:"Slenq jarqona nisbətən daha neytraldır və o,mənfi çalarlı olmur"(2.s93)

Jarqonlar, adətən, məhdud çərçivədə müəyyən sosial qruplara daxil olan adamlara məxsus,maraqları,vərdişləri,məşğuliyyətləri,sosial şəraitləri yaxın və ya eyni olan insanlar tərəfindən işlədilir.Slenq isə çoxsaylı sosial təbəqənin işlətdiyi sözlər və ifadələrdir. Slenqlər varvarizmlərdən,jarqon və arqo sözlərdən fərqli olaraq ədəbi dilin dairəsində fəaliyyət göstərir. Bəzən də ədəbi dilə keçə bilirlər. Məsələn, mənası "lazımsız əşya", "tullantı" olan "şparqalka" ifadəsi bir vaxtlar slenq,sonralar ədəbi dilə keçmiş söz sayılır.Xaos,krizis,mitinq sözləri də ədəbi dilə slenqlərdən keçib.

Slenqlərdən daha çox 15-25 yaşlarında olan gənclər istifadə edirlər.Lakin bu heç də o demək deyil ki,slenqləri digər yaş dövründə olan insanlar başa düşmür. Məhz bu xüsusiyyətinə görə slenqlər jarqon və arqo sözlərdən fərqlənir.Jarqon və arqo sözlər nisbətən məhdud çərçivədə olan qruplara aiddir. Məsələn, musiqiçilərin, oğruların işlətdiyi jarqonları buna nümunə göstərə bilərik. Musiqiçilər qıza "civi",pula "kərvə",arağa "məsi",yoxdur "xasdır", qurtar "buğur elə" və s."Manısın kərvəsi xasdır, buğur elə." Yəni ,"Bu adamın pulu yoxdur ,musiqini tamamla." Oğrular isə bıçaqlamaq əvəzinə "şoşqalamaq", narkotikə "mal",narkotikdən istifadə etməyə "mallanmaq", mübahisəyə "sxodka", həbsxanaya "zon",narkotik alverçisinə "barıqa", ləqəb "kliçka",pay "qrev", xərac "dolya", polis "ment" və s. bu kimi jaqonlardan istifadə edirlər. Jarqon-müəyən məqsədlə öz fikirlərini geniş kütlədən gizlətmək üçün bəzi adamların yaratdıqları uydurma,süni dil. (3.s108)

A.Qurbanov yazır:"Jarqon məhdud sosial işləmə dairəsinə malik söz qrupudur.Jarqon latın və fransız dillərində quş civiltisi,qarğa dili mənalarında işlədilir. (4.s263)

Gənclərdə bu vərdişləri tərgidmək üçün aşağıdakıları etmək olar:

1) Jarqonlardan istifadə edən gənclərə başa salanda ki,bu sözləri oğrular, canilər, kücə adamları işlədir,onların bir qismi bu ifadələrdən imtina edirlər.

2) Valideynlər özləri də bu sözləri zarafatyana işlədib,tədricən mahiyyətini başa salıb, bu ifadələrdən onları uzaqlaşdırmalıdırlar.

3) Uşaqlarda bədii ədəbiyyat oxumaq vərdişi aşılanmalıdır. Çox kitab oxuyanın nitqi rəvan və zəngin olar.

Jarqonları hamı başa düşməyə bilər,amma slenqlər əksəriyyət tərəfindən başa düşülür. Gənclər arasında işlədilən slenqlər həmyaşıdları tərəfindən şərhsiz başa düşülür. Məsələn, əladır əvəzinə "efirdi",qız xasiyyətli oğlanlara "şampunçik", kənddən şəhərə gələnə "qıjı","kəntoş",səhv etdi əvəzinə "quşdadı", "yandırdı","xoruz buraxdı",onunla əlaqəni kəs "qırıl ondan",işi çətinə düşüb "təkərə düşüb", taleyinlə zarafat etmə "həyatınla klas-klas oynama",kiminsə pis vəziyyətə düşməsi "filənkəs qaralıb", aciz, maymaq adama "lox" imkanlı adama "bərk gedən" və s.ifadələr buna əyani misaldır. Tədricən bu slenq sözlər, slenq cümlələrlə əvəzlənir. Məsələn: "Əzrayılla bilyard oynama", "Ver qırağa saxla", "Onun diski var məndə", "Burnunu çək, lövhəni görüm" və s.Bunlar müasir gənclərin əksəriyyəti tərəfindən başa düşülüb işlədilən ifadələrdir.Bu ifadələr dəbdə olan slenqlər sayılır.

Slenqləri dil və söz oyunu, söz yaradıcılığı hesab edənlər də var. Həyatımızın, demək olar ki,bütün sahələrində bu tip sözlərə təsadüf etmək olar. Slenqlər danışıqda emosionallığı,intensivliyi və ekspressivliyi artırır. Slenqləri canlı orqanizmə bənzətmək olar, daima dəyişir və yeniləşir.Məsələn ,50-60-cı illərdə kənddən şəhərə gələnlərə "fezo", "fezoşnik","fezo uşağı"70-80-ci illərdə "çuşka", 90-cı illərdə "kəntoş", indi isə"qıjı" deyirlər. Deməli slenqlər də əvvəl neologizm, sonra ümumişlək söz və nəhayət arxaizmə çevrilirlər. Müasir gənclər "qıjı" slenqini başa düşdükləri halda ,"fezo" slenqindən xəbərləri yoxdur.

Rus linqvist alimi Qalperin İlya Romanoviç "Вопросы языказнания"-nın 6-cı sayında "Slenq termini haqqında" ("О термине сленг") məqaləsində slenqin jarqon, arqo, loru sözlərdən fərqli müstəqil dilçilik termini olması haqqında qeydlər edir. O bildirir ki,hələ XIX əsrin əvvəllərində ingilis leksikoqrafları "slenq" terminindən geniş istifadə edirdilər. Slenqin etmologiyası da çox mübahisə doğurmuşdur. C.B.Qrinou və C.L.Kittridj slenq haqqında deyirlər ki, bu avara dil ədəbi dilin ətrafında dolanır və daima ən yüksək ictimayətə can atir.

Məşhur ingilis leksikoloqu və leksikoqrafı Q.V.Fauler və F.Q. Fauler "The kings English" kitabında bu termn haqqında belə deyirdi ki,slenqin həyatda yeri var, ən azı yazılan əsərlərdə personaj və tiplərin xasiyyətlərini daha təbii canlandırmaq üçün onlar əvəzsizdir. Məsələn, yazıçı V.Səmədoğlunun senari müəllifi olduğu "Bəxt üzüyü" filmində Moşu Göyəzənlinin Seda ilə diaıoqu buna əyani misaldır:

" Seda: - Bunun qadınnan danışmağına bax ey, qrubiyan, çuşka.

Moşu:-Çoşka olanda nolor a çılpaq gözəl. Az, Bakıdakı heykəllərin hamısı elə çoşkalardı da.Nizami də,Füzuli də.Gün gələr mənim də heykəlimi ucaldarlar."

Vebster lüğətində slenqi yazı normalarına uyğun gəlməyən, ancaq nitqi canlı edən sözlər hesab edir.

Rus linqvisti N.O.Orlov «Ярославский педогогический вестник» məcmüasında qeyd edir ki, slenq anlayışı müasir filologiyanın daha çox maraq dairəsindədir. İndi slenq haqqında müxtəlif, hətta bir-birinə zidd fikirlər də mövcuddur.O da slenqin jarqonla sinonim olmasının əleyhinədir.Onları ayrı-ayrı dilçilik terminləri hesab edir.

Şifahi ingilis dilində slenq ifadəsinin ilk dəfə nə vaxtdan işləndiyi məlum deyil, ancaq yazılı şəkildə o artıq XIX əsrdə mövcud idi. Təqribən 1850-ci ildən bu termin yazıda öz əksini tapıb.

Olqa Serqeyevna Axmanovnanın slenq haqqindakı fikirləri çox maraqlıdır. O deyir ki, slenq avtomobilin ehtiyat təkərinə və şüşətəmizləyəninə bənzəyir. Avtomobili bu hissələri hər an lazım olmasa da, onlarsız da keçinmək olmur. Slenq rəsmi danışıqlar üçün yararsız olduğu halda işgüzar adamların danışığında faydalı hesab olunur.

V.A.Xomyakova bu termn haqqında deyir ki, slenq müəyyən bir müddət üçün nisbətən davamlı , geniş istifadə olunan ,sadə danışıq dilinin ekspressiv komponenti, ədəbi dilə daxil olmağa cəhd edən söz qrupudur. Slenq danışıq dilinə xüsusi bir rəng,çalar,emosianalliq və ekspressivlik verir.Slenqlər zarafatyana, ironiyalı və gülməli də ola bilər.Məsələn, zəif, balaca boy bir adama " maşallah qardaşımız lap fil kimidir" deyəndə zarafat; səsi olmayan müğənniyə "əjdaha sənətkarsan" deyəndə ironiya; məclisdə yersiz danişan adama "deyəsən bir balaca quşdadun" ifadəsi gülməli sayılır.

Slenq ədəbi dilə daxil olmayan canlı,hərəkətdə olan , zamanın nəbzi ilə üst-üstə düşən,cəmiyyətdə baş verən bütün hadisələrə aid olan dildir.Amerika leksikoqrafları slenqlərin hərbi, idman, teatr,tələbə, parlament, dini və s. növləri olduqlarını qeyd edirlər.

Azərbaycanda isə, əsasən, kompüter və gənclərin slenqləri daha çox fəaliyyət göstərir. Müşahidələr göstərir ki,yazılı dilin müasir forması olan "internet yazışması" ədəbi dil normalarının kəskin pozulması şəraitində inkişaf edir. İnternet yazışmalarında sözlər təhrif olunmuş şəkildə,heç bir qayda-qanuna tabe olmayan formada aparılır. Bunlar müasir dilçilikdə kompüter slenqləri adlanır. Məsələn, "SLM"-salam, "TWK"-təşəkkür, "NCSN?"-necəsən?, "XG"-xoş gəlmisən, "HMM"-razıyam, "BYE"-sağ ol,hələlik, "NCNC"-təəccüb ifadəsi, "VOV"-heyrətlənmək, "NHB"-nə xəbər, "SBH"-sabah, "LOL"-əla, "BRO"-qardaş, "Usss"-şirin bala, körpə. İnternetdə hər hansı bir fikrə müsbət münasibət bildirməyə "layk etmək", İnternet yazışmasına - "çat", "çattaşmaq" deyirlər. "Xakker", "aytişnik", "perezaqruska","maus" və s.kompyüter slenqləri dilimizə başqa dillərdən olduğu kimi keçib. "Maus" slenqi bəzən "mışka" və ya özləşmiş "siçan"şəklində işlənsə də ədəbi dildə "maus" yazılır. Məsələn, bu söz M.Salmanova, M.Əlizadə, E.Seyidzadənin "İnformatika mövzuları, suallar və testlər" kitabında "maus" kimi verilib.(8.s48)

Kompüter slenqlərindən ən ziyalı təbəqə belə istifadə edir.Məsələn,"qeymer"-kompüter oyunlarında istifadə edilən ingilis slenqi, "abort" - hər hansı bir əmrin yarıda kəsilməsi və s.Bəzi kompüter slenqləri tədricən özləşir. Məsələn, "xard drayver", "xard disk" indi "sərt disk" kimi ifadə olunur.

Kompüter slenqləri əsasən fonetik və qrammatik cəhətdən transformasiyaya uğramış ingilis sözləridir.Məsələn, "yuzer"-istifadəçi, "smayıl"- şəkilli işarələr, "admin"- adminstrator, "çat" - internet yazışması, "nikneym"- ləqəb və s.

Slenqlər müxtəlif dövrlərdə gənclərin danışıq dilində fəaliyyət göstərib. 1917-ci il inqilabından sonra ata - anasız qalmış uşaqların sayı çox idi.Bunların əksəriyyəti küçələrdə avara - avara dolanıb o dövrə məxsus slenqlərdən istifadə ediblər. Məsələn, "frayer"- aciz,maymaq, "patsan"-yeniyetmə oğlan, "qəmin kəm"- başın sağ olsun, "liqavı"- polis,milis və s.

50-ci illərdə "stilyaqalar" peyda oldu və onların yaratdığı slenqlər öz dövrü üçün dəbdə idi.Məsələn, "xippi", "cazmen", "blatnoy" və s.

Müasir dövrdə gənclərin slenqi 15-25 yaş həddini əhatə edir.Əsasən şəhər mühitində yaşayan, fəaliyət göstərən gənclər tərəfindən yaranıb yayılır.Gənclərin slenqləri fonetik,leksik və qrammatik əsasda yaradılır. Əksər gənclər üçün "nə demək" yox, "necə demək" aktualdır.Onlar danışıqlarını bir növ "dəbdə olan slenqlərlə" ifadə etdikdə özlərini daha müasir,daha işgüzar hesab edirlər.Gənclər əsasən slenqlərdən istifadə etməklə yaşlı nəsli özlərindən təcrid edirlər. Məsələn,"buralarda ol", "uç burdan", "sən xətdə qal", "yeri var", "İtə tökdür", "bomba oğlandır", "qırıl ondan", " filənkəs özünü lezvalıyır" və s.

Ordu cəmiyyətin ayrılmaz bir hissəsidir. Burada da əsgər və zabitlərin işlətdikləri slenqlər mövcuddur.Onları hərbi slenqlərə aid etmək olar.Üç aya qədər xidmət edən əsgərə "maladoy", altı aya qədər xidmət edənə "zelyonnıy", xidmətinə üç ay qalan əsgərə "dembel", əsgəri xidmətinin bitmə əmrini alanlar "ded" , nizamnamədən kənar münasibətlərə "dedovşina",səliqə-səhmanına fikir verməyən, mənəviyyatını itirən əsgərə "çmo", briqada komandirinə "kombriq" deyirlər. Bu nümunələrin sayını istənilən qədər artırmaq olar.Qeyd etmək lazımdır ki, hərbi slenqlərin əksəriyyəti sovet dövründən qalmadır.

Son zamanlar avtobus sürücülərinin özünəməxsus slenqlərdən istifadə etməsinə də təsadüf etmək mümkündür. Məsələn: "20 Yanvardan AZİ-yə pres gəldim" , "Filənkəs dartanşikdir", "Bayaq maşın kubik idi" və s.

Slenqlər müxtəlif yollarla yaranır:

Başqa dillərdən söz ya olduğu,ya da qismən dəyişmiş şəkildə dilə gəlir (əsasən ingilis və rus dillərindən). Məsələn," happy birthday to you" (həppi böz dey tu yu), "thanks you very much" (senk yu veri maç), "thanks you" (senk yu), "пака" (paka) və s.

Sözləri qısaltma və ya ilkin mənasını dəyişmək yolu ilə. Məsələn, "ləzzət verir" əvəzinə "ləz verir",xala əvəzinə "xalaşka".

Kobud ifadələrlə. Məsələn, "Bas bayıra", "vızqırt burdan"

Metafora,metonimya yolu ilə.Məsələn,dollara "yaşıl",kriminal aləmdə narkotikə "ot"; "yandırdı", "quşdadı" və s.

İronya ilə.Məsələn, kiçik boylu adama "fil",zəif adama "əjdaha" və s.

Gənclərin bəziləri bildirirlər ki, həmişə ədəbi dildə danışmaq darıxdırıcıdır. Həm də onlar böyüklərin başa düşməyəcəyi bir dildə danışmağı daha üstün sayırlar.

A.Qurbanov yazır ki, ədəbi dil ilə danışıq dili arasında möhkəm əlaqə vardır. Danışıq dili ədəbi dil üçün əsas mənbədir. O, ədəbi dilin hərtərəfli inkişafına yardım edir. Eyni zamanda,ədəbi dil də, öz növbəsində, danışıq dilinə təsir göstərir, onu inkişaf etdirir.Danışıq dili ədəbi dilin,əsasən, lüğət tərkibinin zənginləşməsində xüsusi rol oynayır.Bu mənbədən sözlər bir növ süzgəcdən keçirilərək götürülür; belə ki, hər bir söz cilalanır və normalara uyğunlaşdırılıb ədəbi formaya salınır. Ədəbi dilə hər sözü gətirmək olmur. Onun xəzinəsinə başlıca olaraq hamıya məlum olan, hamının düzgün başa düşə biləcəyi dil vasitələri yol tapa bilir. Danışıq dili ədəbi dilin, əsasən, leksik cəhətdən zənginləşməsinə xidmət etdiyi halda,ədəbi dil danışıq dilinə hər cəhətdən, yəni fonetik, leksik və qrammatik cəhətdən təsir edir və onu inkişaf etdirir. Hazırki dövrdə ədəbi dil ilə danışıq dilinin səciyəvi cəhətlərini müəyyən etmək ,fərqləri aşkara çıxarmaq və bunların əlaqələrini dəqiq aydınlaşdırmaq dilçiliyimizin qarşısında duran çox mühüm məsələlərdəndir.(4.s 45)

Azərbaycan dilini öyrənən xarici vətəndaş yalnız ədəbi dili bilməklə kifayətlənə bilməz.O,mütləq danışıq dilini də öyrənilməlidir.Bu baxımdan slenqlərin tədqiqi, aşkara çıxarılması vacib məsələ sayılır.

Ədəbiyyat

1) R.Manafoğlu,N.Tağısoy,R.Kamal "İzahlı tərcüməşünaslıq terminləri lüğəti" B.,2009
2) Раиса Иосефна Розина «Семантическое развитие слова в русском языке и современном сленге» Москва,2005.
3) M.İ.Adilov,Z.N.Verdiyeva,F.M.Ağayeva "İzahlı dilçilik terminləri"- B.,1989.
4) A.Qurbanov "Müasir Azərbaycan ədəbi dili" I cild-B.,2003.
5) M.Salmanova, M.Əlizadə, E.Seyidzadənin "İnformatika mövzuları,suallar və testlər"-B.,2012.
6) J.B.Greenough and G.L.Kittridge,Words and Their Ways in English Specsh, Nev York,1929
7) Н.О.Орлов «Ярославский педогогический вестник» 2004№3
8) И.Р.Гальперин «Вопросы языказнания» 1956 №6.
9) О.С.Ахманова «Словарь лингвистических терминов-М.,Советская Энциклопедия,1968.

Эльдар Агаев

Сленг – термин языкаведине

Резюме

В этой статье говарится о сленге. Сленг термин языкаведине. Можно сказать, что молодёжь пользуется такими сленгами, каторые искажают нормы языка. Автор подчеркивает,что сленги бывают: компьютерные, военные, молодёжные и.т.д. В последнее время эта тема становится еще боле актуальной.

Eldar Agayev

Slang – is the term of lingwistics

Summary

This article is about slangs. Slang is the term of linguistics. We can say that the youth use such slangs, which distort the norm of language. Auther notices that, slangs eanbe for computers, for military, for youth and etc…

Recently this topic is besoming more topical.

Rəyçi: İ. Kazımov
filologiya elmləri doktoru, professor

LALƏ RZAYEVA
ADU

BƏDİİ MƏTNDƏ PERSONAJ NİTQİNİN LEKSİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: bədii mətn, müəllif nitqi, xarakterologi nitq, dialekt, leksik xüsusiyyətlər
Key words : literary text, author`s speech, characterological speech, dialect, lexical features
Ключевые слова: художественный текст, авторская речь, характерологическая речь, диалект, лексические особенности.

Xarakteroloji nitqin leksik tərkibi özünün zənginliyi ilə diqqəti cəlb edir. «Müəllifin dili ədəbi dilimizin bütün qanun və normalarını özündə eks etdirdiyi halda, obrazların dili, onların xarakteri, dünyagörüşü, peşə və məşğuliyyəti, ətrafdakılara münasibəti ilə əlaqələndirildiyi üçün müəllifin dilindən fərqlənir. Çünki tipin işlətdiyi hər bir söz onun xarakterinin müəyyənləşməsində müstəsna rol oynayır. Onlar ana dilində danışsalar da, yeri gəldikcə, hamı tərəfindən işlənməyən və başa düşülməyən sözlərdən də istifadə edirlər. Bu baxımdan onların dili məişət üslubuna daha çox yaxın olur» [2, s. 80]. Burada ancaq şifahi nitqdə işlədilən danışıq sözləri, okkazionalizmlər, emosional-ekspressiv çalarlı sözlər, terminlər və sənət-peşə leksikası, nidalar, loru sözlər, dialektizmlər, jarqonlar, klişelər, varvarizmlər və s. oxucu (tamaşaçı-dinləyici) diqqətini personajın nitq xüsusiyyətlərinə cəlb etmək üçün işlədilir. Belə zənginlik müəllifdən düzgün söz seçimi qabiliyyətinin olmasını tələb edir: dəqiq sözişlətmə müəllifin sənətkarlıq səviyyəsini niümayiş etdirir. Bu zaman nitqin az işlənən nadir sözlərlə yüklənməsi nitqin düzgün qəbul edilməsini çətinləşdirir. Deməli, «müəllifin sözişlətmə qabiliyyəti» dedikdə, onun təkcə hansı sözləri seçib işlətdiyi deyil, həm də belə sözləri nə qədər işlətdiyi nəzərdə tutulur. Əlbəttə, əksəriyyət etibarilə personaj nitqində işlədilən sözləri adresat başa düşür və asanlıqla qəbul edir. Çünki nitqin bu cür ekspressiv formaları «təkcə subyektiv-xarakteristik və ideya qiymətləndirilməsini əks etdirmir, təkcə şəxsiyyətin, sosial qrupun nitq üslubunu ifadə etmir, həmçinin asanlıqla intellektual dilə tərcümə oluna bilir» [3, s. 181].

Həqiqətən də bədii əsərin yazılması zamanı müəllifin qarşısında külli miqdarda məlum dil və nitq faktları durur. Müəllif onlardan öz üslubuna xas olan bir şəkildə istifadə edir və personaj nitqində hansısa bir fikri məhz həmin məlum dil hadisələrinə istinad etməklə generalizasiya yaradır. Ancaq burada «məlum fakt» dedikdə, hansısa bir faktın bütün oxucu -tamaşaçı – dinləyici kütləsinə aydın olduğu nəzərdə tutulmur: bu faktlar ümumiyyətlə dil fondu üçün məlum olub, ədəbi dil hüdudlarından kənarda və ya ədəbi dilin periferiyasında yerləşə bilər. Buna görə də tam haqla deyə bilərik ki, hər bir müəllif bədii təxəyyülünü kağıza köçürərkən ana dilinin lüğət fondunda, o cümlədən dialektlərdə, şivələrdə, jarqonlarda, terminologiyada və s. sahələrdə məhz «məlum olan» dil faktlarından istifadə edir; hətta hər hansı bir müəllifin quraşdırıb dildə işlədilməsi üçün təklif etdiyi hər hansı bir neologizm özü də əslində boş yerdən götürülmür, məlum dil faktları əsasında tərtib edilir. Beləliklə, ucsuz-bucaqsız dil faktlarının hansı tərzdə istifadə edilməsi hər bir müəllifin yaradıcılıq axtarışlarının nəticəsi kimi qəbul edilə bilər. Bu isə bədii söz ustasına dilin istənilən sahəsindən, istənilən qatından söz və ifadə götürüb işlətməyə imkan verir.

Buna görə də bədii əsərin müəllifinə dilin lüğət fondunda mövcud olan hansısa bir sözü niyə istifadə etdiyinə irad tutmaq olmaz. Onun ana dilindən bütövlükdə istədiyi kimi faydalanmaq səlahiyyəti vardır. Onun bu səlahiyyəti hansı şəkildə icra etməsi isə yazdığı əsərin bədii keyfiyyətini və oxunaqlığını müəyyənləşdirir. Əksinə, yazıçının hamı üçün deyil, yalnız müəyyən zümrə üçün məlum olan dil faktından istifadə etməsi onun (yazıçının) həmin faktı bədii ədəbiyyat vasitəsi ilə ədəbi dildə məşhurlaşdırması kimi – müsbət hal kimi qiymətləndirilə bilər. Burada isə həmin cür faktların personaj nitqində işlədilməsi onların geniş oxucu kütləsi üçün daha da şəffaflaşdırılmasına imkan verir, çünki belə sözlər müəllif nitqində işlədilərkən müəyyən dərəcədə «üstündən keçildiyi halda», personaj nitqində işlədilərkən müəyyən izahla aydınlaşdırılması imkanına malik olur. Hərçənd ki, buna qarşı çıxan dilçilər də vardır. Məsələn, V.V.Veselitski yazır ki, loru dil sözlərindən ədəbi dili zəif bilən və ya ona saymazyana yanaşanlar daha çox istifadə edir; digər tərəfdən, loru və dialektlərdən alınmış sözlərdən həm də uğursuz yerə nitqi «dirçəltmək», ona daha çox obrazlılıq vermək istəyənlar istifadə edirlər. Jarqonizmlərdən və vulqarizmlərdən istifadə edənlər dahaçox nitqdə orijinallıq etmək, «dəb sözləri» işlətmək istəyənlərdir. Zənnimizcə, bu fikir bədii əsərlərə münasibətdə haqsızlıq sayıla bilər. Hər şeydən başqa ona görə ki, bədii mətndə personaj nitqi personajın mənsub olduğu zümrəni təmsil etməyəndə, bir qayda olaraq, əsərin dili həddən artıq normalaşdırılmış olur və ağırlaşır.

Deməli, bədii ədəbiyyatda loru dil sözlərindən, dialektizmlərdən, jarqonizmlərdən və s. istifadə edilməsi heç də yazıçının «şıltaqlığı» ilə əlaqələndirilməməlidir, əksinə, bu hal bədii mətnin reallıqla əlaqəsini daha da gücləndirir, oxucunu «inandırmağa» kömək edir. Şekspirin təqdimatında təlxəklərin hamısı yalnız nəsrlə danışır. «Maqbet»də qapıçının və ya «Hamlet»də qəbirqazanların poetik dildə danışdığını təsəvvür etmək çətindir. Deməli, nitq situasiya ilə də sıx əlaqədar olur, təkcə danışanın deyil, həm də vəziyyətin səciyyələndirilməsinə xidmət edə bilir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, yaratdığı personajları fərdiləşdirərkən Şekspir hər kəs üçün ayrıca spesifik leksikadan istifadə etməmişdir (Şekspir dövründə xarakteroloji nitq yaradılması hələ ədiblərin diqqətini cəlb etmirdi). Yalnız tək-tük komik personajların dilində leksik fərqlər özünü göstərir. Bir qayda olaraq, xarakteroloji leksika Şekspir əsərlərində ayrıca leksikadan daha çox, obrazların qəlizliyi ilə əvəz edilir. Bununla belə, bəzən hər halda leksik xarakterologiya da özünü göstərir. Məsələn, Yaqonun nitqində dənizçilik metaforlarından və müqayisələrindən istifadə edilmişdir. Görünür, Yaqo keçmişdə dənizçi olmuşdur [1, s. 56].

Eləcə də Yaqonun əsərin qəhrəmanlarına tələ qurduğu səhnələrdə poetiklik sıradan çıxır, Yaqo «normal» nəsr dili ilə danışır. Məsələn, müq. et:

Yaqonun səhnəyə ilk gəlişindəki nitqindən parça:

Iago.
Despise me, if I do not. There great ones of the city,
In personal suit to make me his lieutenant,
Off capp'd to him: - and, by the faith of man,
I know my price, I'm worth no worse a place: -
But he, as loving his own pride and purposes,
Evades them, with a bombast circumstance
II aktda Roderiqo ilə söhbətindən parça:

Iago. Lay thy finger thus, and let thy soul be instructed. Mark me with what violence she first loved the Moor, but for bragging, and telling her fantastical lies: and will she love him still for prating? Let not thy discreet heart think it. Her eye must be fed; and what delight shall she have to look on the devil? When the blood is made dull with the act of sport, there should be - again to inflame it, and to give satiety a fresh appetite - lovelyness in favour, sympathy in years, manners, and beauties; all which the Moor is defective in: now, for want of thes.

Ümumiyyətlə, əsərdə Yaqonun nəsrlə danışdığı belə epizodlara tez-tez rast gəlirik. Bu, bir tərəfdən, Yaqonun nitqinin pafosunu aşağı salmağa, onu başqa-larının nitqindən fərqləndirməyə (xəyanəti yüksək pafoslu poetik nitqlə quraşdırmaq çətin və görünür, lazımsızmış), digər tərəfdən, başqa epizodlardan fərqlənən nitq situasiyası yaratmağa xidmət edir. Ancaq eyni personajın danışığında poetik nitqdən tez-tez nəsrə keçid özü də Yaqonun nitqini xarakterolojiləşdirir, onu başqalarının nitqindən ayırır, tipik bir hala çevirir.

Bəzən personajın nitq strukturu poliqlossiya amili əsasında da qurulur. Tomas Mannın qəhrəmanları içərisində qoca İohann Buddenbrokun nitqi ədəbi dil, aşağı alman dialekti və fransız dili elementlərinin struktur-leksik qatışığı şəklində təqdim edilmişdir. E.Ştrittmatterin qəhrəmanı vaxtilə bir qədər tibb təhsili almış meşəqıran Ramşın nitqi təbabət terminləri ilə ingilis söyləmlərinin və leksik vahidlərin qatışığından ibarətdir. Hər iki halda personajların bu cür nitq strukturu müəlliflər tərəfindən qəhrəmanın xarakterologiyasının verilməsi məqsədi güdür. Ancaq birinci halda öz dövrünün nəslini təmsil edən qoca İohannın nitq xarakterologiyası sosial-tipikləşdirilmiş və fərdi-obrazlı nitq strukturunu əks etdirirsə, ikinci halda poliqlossiyadan qəhrəmanın ən parlaq sifətlərini kinayəli səsləndirmək məqsədi ilə istifadə edilmişdir. Bununla yanaşı, hər iki halda personajların nitqi onların səciyyəsinin tipoloji modelini müəyyənləşdirən əlamətdar xüsusiyyətlərlə əlaqələndirilir [4, s. 112].

Şivə ünsürlərinə, əcnəbi sözlərə, arqo vo jarqon ifadələrinə, söyüş səciyyəli leksik vahidlərə «yalnız bədii üslubda rast gəlmək olur, özü də sırf gərgin üslubi məqsədlə əlaqədar: personajların nitqinin fərdiləşdirilməsi, yerli, ya milli koloritin və s. yaradılması üçün». Dialekt və şivə elementlərinin, məhəlli sözlərin personaj nitqində işlədilməsi hər şeydən əvvəl həmin nitqi söyləyən personajın regional mənsubiyyəti haqqında siqnal verir.

T.Drayzerin «Amerika faciəsi» romanından aşağıdakı epizoda baxmaq olar:

In the meantime, Clyde, in tow of this new mentor, was listening to a line of information such as never previously had come to his ears anywhere.

"You needn't be frightened, if you ain't never worked at anything like dis before," began this youth, whose last name was Hegglund as Clyde later learned, and who hailed from Jersey City, New Jersey, exotic lingo, gestures and all. He was tall, vigorous, sandy-haired, freckled, genial and voluble. They had entered upon an elevator labeled "employees." "It ain't so hard. I got my first job in Buffalo t`ree years ago and I never knowed a t'ing about it up to dat time. All you gotta do is to watch dc udders an' sec how dey do, see. Yu get dat, do you?"

Clyde whose education was not a little superior to that of his guide, commented quite sharply in his own mind on the use of such words as "knowed," and "gotta" - also upon "t'ing," "dat," "udders," and so on, but so gratefulwas he

for any courtesy at this time that he was inclined to forgive his obviously kindly mentor anything for his geniality.

Klayd yol yoldaşından daha savadlı idi, beynində onun *knowed, gotta, t'ing, dat, udders* kimi sözləri səhv tələffüz etməsi və jarqon sözlərindən istifadə etməsini qınayırdı.

Eləcə də nəzərə almaq lazımdır ki, real nitq heç də ancaq dialekt ünsürlərindən ibarət olmur. Burada dialekt loru dillə çulğalaşır ki, bu da özlüyündə bir normadır, ancaq qeyri-ədəbi bir normadır. Əgr belə çulğalaşma olmasa, yalnız dialektdə işlənən sözlər özlüyündə hamı tərəfindən başa düşülməz, loru dildə işlənmə dialekt ünsürlərini ədəbi dilə yaxınlaşdırır, onları anlaşıqlı edir.

A.Ueskerin «Köklər» pyesində Biti Londondan Norfolkdakı öz doğma kəndinə gəlir. Burada dramaturq çox böyük cidd-cəhdlə yerli dialekti verməyə çalışır. Biti öz qohumları – kənd təsərrüfatında çalışan fəhlə Cimmi və onun arvadı Cenni ilə söhbət edir:

Jenny: ...Did Jimmy tell you he've **bin** chosen for the Territorials' Jubilee in London this year?

Beatie: What's this then? What'll you do there?

Jimmy: Demonstrate and parade **wi** `arms and such like.

Beatie: Won't do you any good.

Jimmy: Don't you recon**? Gotta show** we can defend the country, you know. Demonstrate arms and you prevent war.

Beatie: Won't demonstrate anything **bor**... Have a hydrogen bomb fall on you and you'll find the things silly in your hands.

Jimmy: So you say **gal**? So you say? That'll frighten **them other buggers** though.

Beatie: Frighten yourself y'mean...

Göründüyü kimi, mətn parçasında Norfolk kəndlərindən birinin əhalisinin yerli nitq xüsusiyyətləri fərqləndirilmişdir. Əsərin qəhrəmanı Biti də qayıtdığı doğma kəndinin danışıq xüsusiyyətlərini öz nitqində bərpa etməyə çalışır.

Again a series of ejaculations went up.

"Sure!"

"Would your daughter like to learn Chinese?"

"Hey, I can speak Italian! My mother was a wop."

"Maybe she'd like t'learna speak N'Yawk!"

"If she's the little one with the big blue eyes I can teach her a lot of things better than Italian."

"I know some Irish songs—and I could hammer brass once't."

Mr. Washington reached forward suddenly with his cane and pushed the button in the grass so that the picture below went out instantly, and there remained only that great dark mouth covered dismally with the black teeth of the grating. (F.Scott Fitzgerald)

Verilmiş parçada *"Maybe she'd like t'learna speak N'Yawk!" = to learn to speak New York -«Nyu York dilində danışmağı öyrənmək»* deməkdir; qəribədir ki, bu sözlərin özü də Nyu York loru dilini əks etdirir.

Bununla məlum olur ki, dialekt ünsürləri hətta personaj nitqi – müəllif nitqi ədəbi dil inkişaf xəttini keçərək ədəbi dilin leksik tərkibinə daxil ola bilir. Bunun

üçün ilk növbədə belə sözlərin bədii əsərdəki personajın nitqinə yol tapması, onun personaj nitqində işlənmə tezliyinin yüksəlməsi və bununla kütləviləşməsi, müəllif nitqinə yol tapması əsas şərtdir. Lakin dialekt ünsürlərinin bu cür inkişaf xəttini keçməsi üçün uzun bir zaman kəsiyi tələb olunur; dialektizmlərin ədəbi dilə keçməsini hansısa bir nəsil açıq-aşkar hiss etmir, bu hadisə nəsillər arasında gizli şəkildə cərəyan edir; xalqın müəyyən bir nəslinin nümayəndələri belə dialektizmlərin yalnız yazıya gətirilmə prosesini izləyə bilirlər. Buna görə də dialekt və loru dil sözlərinin işlədilməsi əsasən xarakteroloji nitq üçün səciyyəvi sayılır.

S.İ.Vinoqradov XIX-XX əsrin əvvəllərinin rus ədəbiyyatında personajları səciyyələndirən xarakteroloji nitq əlamətlərini aşağıdakı şəkildə ümumiləşdirmişdir:

1) səhv və ya yersiz xarici dil sözlərinin işlədilməsi;
2) bədahətən meydana çıxan təbii danışıq nitqi elementlərinin işlədilməsi;
3) qeyri-ədəbi dildə, loru dildə, dialekt və şivələrdə, jarqonlarda və sənət-peşə leksikasında mövcud olan leksik və frazeoloji vahidlərin işlədilməsi.

Göstərilən leksik qatlara məxsus nominasiyaların işlədilməsi personajların fərdiləşdirilməsinə, obrazın daha parlaq və tam dramatik təcəssümünə kömək edən vasitə rolunu oynayır.

Beləliklə, leksik xarakterologiya dedikdə, bir tərəfdən, ədəbi dil hüdudlarından kənarda yerləşən danışıq dili sözlərinin, digər tərəfdən isə, ədəbi dilin özünə məxsus leksik vahidlərin köməyi ilə nitqin fərdiləşdirilməsi və bununla personajın nitq vasitəsi ilə səciyyələndirilməsi başa düşülür.

Ədəbiyyat

1. Qazıyeva M.Ə. Səhnə və ekran nitqinin linqvistik və kulturoloji xüsusiyyətləri. Bakı, Mütərcim, 2001, 160 s.
2. Paşayev A, Cəfərova E. Bədii üslubda obrazlılığın ifadə imkanları. Bakı, Mütərcim, 2006, 124 s.
3. Виноградов В.В. О языке художественной литературы. Москва, Худ. лит-ра, 1959, 656 с.
4. Гогулан М.В. Роль фразеологических единиц в формировании авторской и персонажной модальности. Москва, 1988, с.121-128.
5. Гончарова Е.А. Пути лингвостилистического выражения категорий автор-персонаж в художественном тексте. Томск, 1984, 150 с.
6. F.Scott.Fitzgerald. Selected Short Stories. Moscow, Progress Publishers, 1979.

Лала Рзаева

Лексические особенности речи персонажа в художественном тексте

Резюме

Для придания характерологичности речи персонажа автор в основном использует так называемые непопулярные слова из периферии литературного языка. Лексический состав характерологической речи вызывает внимание богатством своего арсенала. Здесь в определенно максимальной дозе употребляются чисторазговорные слова, окказионализмы, слова с эмоционально-

экспрессивной окрашенностью, термины и образцы профессиональной лексики, междометия, диалектизмы, жаргонизмы, клише, варваризмы и т.п., которые и определяют характер персонажа с разнообразных ракурсов.

Lala Rzayeva

Lexical features of personage speech in a literary text

Summary

For making personage`s speech characterological the author mostly uses unpopular words from periphery of the literary language. Lexic content of characterological speech attracts attention of rich arsenal.

Conversational words are used in maximal dose, occasionalisms, the words with expressive colouring, terms and the patterns of occupational lexics, dialecticism, interjections, slang, barbarisms, etc, which determine the character of personage from different point of view.

Rəyçi: Dosent Leyla Cəfərova

SƏBİNƏ QULİYEVA
AMİ

MÜASİR TƏHSİLİN MƏZMUNU VƏ ONUN HƏYATA KEÇİRİLMƏSİ

Açar sözlər: təhsilin məzmunu, müəllimin peşəkarlığı, texnologiya və məzmun, kurikulum, öyrənənlər kontingenti
Key words: the content of the education, teacher's professionalism, technology and content, National Curikulum, learners' contingency
Ключевые слова: содержание образования, профессиональностучителя, технология и содежания Национальный Курикулум, контингент учащихся

Cəmiyyətdə təhsilin rolu mürkkəb və ziddiyyətlidir. Xüsusilə, formalaşan yeni ictimai, iqtisadi münasibətlər cəmiyyətin inkişafında əvəzsiz rol oynayan təhsilin qarşısında daha mürəkkəb vəzifələr qoyur. Bu səbəbdən öz həyat və fəaliyyətini düzgün təşkil etməklə cəmiyyət üçün faydalı olan, ömürboyunca təhsilini davam etdirməyi bacaran, icma ilə təmasdan çəkinməyən, tənqidi düşünən fəal, tədqiqatçı, ictimaiyyətçi, idarəçi, bir şəxsiyyəti, demokratik cəmiyyətin vətəndaşını yetişdirmək təhsilin qarşısında duran əsas vəzifəyə çevrildi. Qeyd olunan vəzifəni həyata keçirmək üçün Azərbaycanda bir sira düşünülmüş islahatlar həyata keçirildi, təhsilimizin kursu müəyyənləşdi və həmin kurs uğurla davam etdirilir. Aparılan islahatların ilk günündən milli liderimiz Heydər Əliyevin tövsiyələri əldə rəhbər tutulmuşdur. O deyirdi: "Mənim sizə tövsiyəm ondan ibarətdir ki, islahatları düşünülmüş qaydada aparasınız, formalizmə, konyunkturaya yol verməyəsiniz, Azərbaycanın milli ənənələrinin üstündəm keçməyəsiniz. Bunlar həqiqətən lazımdır ki, həm Azərbaycan təhsilini dünyanın inkişaf etmiş ölkələrinin təhsili səviyyəsinə ardıcıl surətdə çatdırsın, həm də burada səhvlər buraxılmasın, mövcud yaxşı işlər pozulmasın". (1, 3)

Azərbaycanda təhsilin məzmunun və onun keyfiyyətinin müasir tələblərə cavab verməsini təmin etmək üçün atılan uğurlu addımlardan biri təhsil standartlarının tətbiqidir. Təhsil standartı ictimai idealı əks etdirən, bu ideala nail olmaq üçün şəxsiyyətin və təhsil sisteminin real imkanlarını nəzərə alan və dövlət təhsil normaları kimi qəbul edilən əsas parametrlər sistemidir.(4, 124). Təhsil standartları əksər ölkələrdə tətbiq olunur və daim yenilənir. Təhsil standartları aydın şəkildə müəyyən qaydalar toplusu kimi məktəb kurikulumlarının məzmunu təşkil edir, yəni məcburi minimum bilik və bacarıqların məcmusudur ki, ölkənin bütün şagirdləri ona sahib olmalıdır.

Təhsilin məzmunu. Uzun müddət didaktika anlayışının mənsını izah etmək üçün deyirdilər: o aşağıdakı suallara cavab verir: nəyi və necə öyrətmək? Bu suallar öz aktullığını saxlasa da, günün tələblərinə uyğun olaraq təhsilin qarşısında yeni sualar yaranıb: nə üçün öyrədim(məqsəd), kimi öyrədim (obyekt). Əgər bu sualları birləşdirsək 4 sualdan ibarət bir zəncir yaranacaq: kimi öyrədək?(öyənənlər kontingenti), nə üçün öyrədək(məqsəd), nəyi öyrədək(məzmun) və necə öyrədək (metod).

Təhsilin məzmunu pedaqoji ədəbiyyatlərda müxtəlif cür izah edilir. Təhsilin məzmunu-bilik, bacarıq, təcrubə, yaradıcı fəaliyyət, dünyaya emosional münasibə-

tin pedaqoji uyğunlaşması olub və onların mənimsənilməsi insan şəxsiyyətini formalaşdırır.

Təhsilin məzmunu-müəyyən tip tədris müəsissələrində öyrənmək üçün seçilmiş biliklər sistemi başa düşülür(4, 125)

Təhsilin keyfiyyətini yüksəltmək üçün aşağıdakı məsələlər daim diqqət mərkəzində saxlanılmalıdır.

1. Müəllimin peşəkarlığı: Təhsildə həyata keçirilən köklü islahatlar müəllimin də düşüncələrində və fəaliyyətində dəyişikliklər edilməsini tələb edir.

Müəllimlik peşəsində üç növ növ üslub müşahidə olunur; avtokratik, liberal, demokratik. Bu üslublar içərisində demokratik üslub mühüm yer tutur. Demokratik üslub şagirdlərin maraqlarını, fərdi xüsusiyyətlərini nəzərə alır, məslələri kollektivin fəal iştirakı ilə müzakirə edir, hər bir şagirdə şəxsiyyyət kimi baxır. (7, 127)

Müasir müəllim bilməlidir

- Öyrənənlərin tədqiqat fəaliyyətini təmin edən tematik plan tərtib etməyi
- Təhsilalanları təlim layihələri və ya tədqiqat fəaliyyəti ilə məşğul olmağa necə hazırlamağı
- Məlum tədqiqat işini öz məktəbinin, sinfinin imkanlarına uyğunlaşdırmağı
- Təlim layihəsini və tədqiqat işini hazırlamağı
- Bu layihələrin və tədqiqat işlərinin nəticələrini qiymətləndirməyi
- Həyata keçirəcəyi layihələr və tədqiqat işləri ilə bağlı kiminlə məsləhətləşməli olduğunu
- Ölkənin təhsil siyasətini və idarəetmə məsələlərini
- Daim öz ixtisasını artırmağı və əməkdaşlıq etməyi və s.
- Yeniliyi qəbul edən və yeni texnologiyalardan estifadə etməyi

Bu keyfiyyətlərə nail olmaq üçün müəllimə metodik köməkliyin formaları çoxdur

1. Elmi-metodik konfranslar, dəyirmi masalar;
2. Öyrədici seminarlar, təlim məşğələləri;
3. Dərs dinləmələr, təcrübə mübadiləsi.
4. İxtisasartırma kursları və s

Hazırda ölkəmizdə ixtisasartırmanın geniş şəbəkəsi yaradılmışdır. Indi ixtisasartırma müəsissələrində tədris planı və proqramı müəllimlərin istək və arzularına, tələbərinə münasib hazırlanır.

2. Texnologiya və məzmun : Tenologiya məzmuna yeni üsullarla yaxınlaşmaq və onu yeni üsullarla təşkil etmək imkanı verir, məzmunu başqa yolla mümkün olmayan tədris etmək imkanı yaradır. Bizə məlumdur ki, uzun müddət təhsil tariximizdə mövcud olan çox mühüm texnologiya kimi sinif lövhəsi və kütləvi tirajla çap edilən dərs kitabları çıxış edirdi. Aydındır ki, informasiyalaşmış cəmiyyətdə lövhə, təbaşir və dərslik keyfiyyətli təhsil üçün kifayət deyil. Ənənəvi təlim sisteminin ən mürəkkəb problemlərindən biri istifadə olunan pedaqoji texnologiyaların konservatizmi, qeyri-çevik olmasıdır. Müasir informasiya– kommunikasiya dövründə elmin müxtəlif sahələrində toplanmış bilik kütləsi elə sürətlə artır ki, təlimin ənənəvi sxem və prinsiplərinə əsaslanaraq onları həm öyrənənə çatdırmaq, həm də mənimsətmək, əslində qeyri-mümkün işə çevrilir. Əgər əvvəllər bilikləri əldə etmək üçün şagirdi iki əsas bilik mənbəyi (müəllim və dərslik) qane edirdisə, bu gün həmin mənbələr çoxsaylı məlumat mənbələri ilə müqayisədə uduzur. Bu səbəbdən müasir təlimin

başlıca vəzifələrindən biri öyrənməyi oyrətməkdir, yəni şagirdləri bilikləri müstəqil əldə etməyə yiyələndirməkdir.

Ə.X. Paşayev və F.A. Rüstəmov "Pedaqogika" dərsliyində təlim və tərbiyənin təşkilində kompyuteri mühüm vasitə kimi dəyərləndirilmiş və bunun aşağıdakı iki yeni prinsipə əsaslandığını göstərmişlər:

- Tərbiyənin şəxsiyyət yetişdirmək istiqamətində qurulması;
- Şagirdin müstəqil fəaliyyəti.

Müəlliflər hesab edirlər ki, elektron hesablayıcı maşınlar bu prinsipləri həyata keçirmək üçün əlverişli şərait yaradır. Onlar yazırlar: "Onların (EHM) tərbiyə prosesinə tətbiqi, tərbiyənin şəxsiyyət yetişdirmək istiqamətini həyatakeçirməyətam imkan verir.uşaq hiss edir ki, elektron tərbiyəçinin yeganə və başlıca qəyyumu yalnız onun özüdür. "Elektron müəllim" şagirdi situasiyalardan çıxış yolu axtarmağa, baxışları, fikirləri, saf-çürük etməyə, davranışın müxtəlif variantlarını seçməyə və yoxlamağa, həmin anda bu və ya digər hərəkətlərin nəticələrini görməyə məcbur edir" (4, 237-238)

Nurəddin Kazımov "Məktəb pedaqogikası" dərsliyində yazır "Orta və yuxarı siniflərdə bütün fənlərin tədrisi ilə əlaqədar kompüterdən istifadə etmək imkanı vardır. Məsələn, kompüterdə botanikanın tədrisi üzrə bitki quruluşunun modeli alınır; tarix dərslərində xronoloji cədvəl tərtib edilir və s. Kompüter vasitəsilə şagirdlərə deyilməli məlumatları əyaniləşdirmək, onlara tapşırıqlar, çalışmalar vermək olar... Kompüterdən nəinki əyaniləşdirmək, həm də öyrətmək və mənimsəməyə nəzarət etmək vasitəsi kimi də istifadə etmək imkanı vardır ". (6, 179)

3. <u>Kurikulum (məzmun) və təhsilalanlar kontigenti :</u> Təhsilin məzmunu ilk öncə təhsilalanlar kontingentindən asılıdır: ibtidai və ya yuxarı sinif şagirdləri, məktəbəqədər və ya tələbələr kontingenti. Hər bir kontingent üçün təhsilin məzmunu və məqsədi spesfikdir.

Afət Süleymanova "Ədəbiyyat dərslərində İnformasiya və kommunikasiya texnologiyalarından istifadə" metodik vəsaitində yazır: "Dünyanın qabaqcıl ölkələrinin təhsilində şagirdlərin düşünmə vərdişlərinin inkişafına çox diqqət yetirildiyi müşahidə edilir. Bu da ondan irəli gəlir ki, bizim müasir texnologiyalaşmış cəmiyyətimiz dəyişiklikləri başa düşən, informasiyaları tətbiq edən, problemləri təhlil edən, onların həlli yollarını tapan və onu dəyərləndirən insanlara ehtiyac duyur". (5,15) Ölkəmizin kurikulum islahatları gənclərin göstərilən bacarıqlara malik şəxsiyyət kimi yetişməsində rolu əvəzsizdir. Milli Kurikuluma görə ümumi təhsilli şəxsdən gözlənilən nəticələr aşağıdskı kimidir: "Ümum təhsil –insanın, ailənin, cəmiyyətin və dövlətin marağına, milli və ümumbəşəri dəyərlərə, dünyəvilik, sistemlilik, varislik, inteqrativlik, demokratik prinsiplərinə əsaslanan, nəzəri və təcrübi fəaliyyət vasitəsi ilə şəxsiyyətin formalaşmasına, onun intellektual, fiziki və sosial inkişafına, təhsilin davam etdirilməsinə, əmək fəalyyətinəbaşlaması üçün zəmin yaradılmasına yönəlmiş məqsədəuyğun proses olub şagirdlərin yaş, fizioloji, psixoloji, fərdi xüsusiyyətləri və potensial imkanları nəzərə alınmaqla sürətlə dəyişən dünyada gedən prosesləri, problemləri və inkişaf tendensiyalarını başa düşmək və qiymətləndirmək, zəruri bilik, bacarıq və vərdişlər əldə etmək, öyrəndiklərini tətbiq etmək, sərbəst surətdə əlavə biliklər almaq bacarıqlarını,bazar münasibətləri şəraitində cəmiyyətin məhsuldar üzvünə çevrilə bilmələrini, şəxsiyyətin azad inkişafını təmin edir".

Kurikulum ənənnəvi təhsildən fərqli olaraq məzmunyönümlü deyil, nəticəyönümlü təhsilə əsaslanır.

Ənənəvi təhsil

Təlimin məqsədi

↓

İnformasiya

Nəticəyönümlü təhsil

Təlim nəticəsi

İnformasiya | Fəaliyyət

Yəni hər bir təlim nəticəsində aydın göstərilir: şagird nəyi bilir və bildiyini necə nümayiş etdirir. Şagirdlər təlim nəticəsində (standartda) göstərilən fəaliyyəti nümayiş etdirən zaman müvafiq informasiyalara yiyələndiyi məlim olur. Çin atalar sözünə görə "Mənə danış unudum, göstər yadımda saxlayım, fəaliyyət göstərməmə imkan ver mən öyrənim". Göründüyü kimi bütün dünya təcrübəsində yaddaşa yox, fəaliyyətə əsaslanan təlim üstünlük təşkil edir. Nəticəyönümlü kurikulumlar da yaddaşın yoxlanılmasına istiqamətlənmiş tapşırıqlar verməyib, daha cəlbedici tapşırıqlar vasitəsilə şagirdlərin bilik və bacarıqlarının səviyyəsini qiymətləndirməyə istiqamətlənmişdir. Belə yanaşma nəticəsində insan passiv informasiya qəbuledicisindən, yəni onun obyektindən özünütəhsilə qadir olan subyektinə çevrilir.

Bu deyilənlərdən aydın olur ki, bu gün təhsildə maraqlı olan hər bir insanın üzərinə böyük bir tarixi misiya düşür: Ölkə təhsilini yenidən qurmqq və onu uğurla həyata keçirmək. əgər hər birimiz "təhsilimizə nə kimi xidmət göstərə bilərik?" sualı üzərində düşünməsək və fəaliyyət göstərməsək bu mürəkkəb, amma şərəfli vəzifənin öhdəsindən gəlmək çətin olar.

Ədəbiyyat

1. H.Ə. Əliyev, Təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasının yekun nitqi // Azərbaycan məktəbi, 1999, №5 s3
2. Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulum)
3. Azərbaycan Respublikasının Təhsil Qanunu 19 iyun 2009 s 6,10
4. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika Bakı-2007
5. Süleymanova A.Y. Ədəbiyyat dərslərində İnformasiya və kommunikasiya texnologiyalarından istifadə Bakı-2011
6. Kazımov Nurəddin Məktəb Pedaqogikası 5-ci nəşr Bakı-2009
7. Y. Talıbov, Ə. Ağayev, A. Eminov, İ. İsayev Pedaqogika. "Adiloğlu" Bakı-2003

S.Quliyeva

The content of the education and some issues of the educational reforms

Summary

The article deals with the content of the education and some issues to be paid attention: the educational reforms implemented by the government, educational standards, the reguirements given to the modern teacher, teachers'professionalism

and the ways of raising the professionalism, the importance of the use of ICT and the content of National Curikulum

С.Гулиева

Содержании современного образования и о некоторых вопросы
о реаформах в сфере образования

Резюме

В этой статье говорится о содержании современного образованияи о некоторых вопросах которые позволяют их осуществлению: о реаформах осуществляемым государствам в сфере образования и стандартах образования, требованиях предъявляемых современному учителю, о профессиональности и повышении этой профессиональности, значении использоания ИКТ в образовании и содежания Национального Курикулума.

Rərçi: Z.M.Əzizova
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

ГЮЛЬШЕН АББАСОВА
доктор философии по педагогике
старший преподаватель кафедры
лингвистического обеспечения туризма
Азербайджанского Института Туризма

РАЗВИТИЕ РЕЧИ СТУДЕНТОВ ПРИ ОБУЧЕНИИ РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ

Açar sözlər: nitq mədəniyyəti, müasir rus ədəbi dilinin norması, nitqin inkişaf şərtləri, dil tələffüzünü formalaşdıran meyarlar, sözün leksik və qrammatik mənaları.
Ключевые слова: культура речи, норма современного русского литературного языка, условия развития речи, критерии формирования лингвистического мышления, лексичкеское и грамматическое значения слова.
Key Words: Culture of speech, norms of modern Rusian literary language, conditions for the deverlopment of shrrch, criteria of lingvistiks formation Munking, lexical and grammatical meaning of the vord.

Одной из наиболее важных задач на современном этапе обучения студентов является развитие речевой деятельности, культуры русской речи. Это направление должно стать ядром, основой содержания обучения русскому языку (1; 2; 4).

«Речь конкретного человека – это отражение его общей культуры, поэтому она должна отвечать определенным требованиям, а конкретнее, в речи необходимо соблюдать правильность, т.е. не нарушать нормы современного русского литературного языка» (3, с. 7).

При изучении русского языка на компетентностной основе у студентов формируется особая структура познавательной деятельности. Студенты, сталкиваясь с новым языковым или речевым явлением осознают мотив и определяют цель предстоящей деятельности, ориентируясь в её условиях, планируют этапы своей деятельности и отбирают необходимые для неё средства, осуществляют эту деятельность и сравнивают полученные результаты с ожидаемыми. Такое сходство познавательной и речевой деятельности ещё раз подтверждает целесообразность особого внимания к разряду *речь* в обучении русскому языку как иностранному и возможность реализации компетентностного подхода при совершенствовании речевой деятельности студентов-азербайджанцев.

Речь возникает из потребности человека общаться, высказаться, а высказывания человека порождаются различными побуждениями, т.е. определенной мотивацией.

Мотивация речи, т.е. «ради чего я говорю», возникает у студентов при наличии эмоций, связанных с яркими впечатлениями, интересом к той или иной деятельности. Значит, потребность общения – это первое условие развития речи. Однако общение возможно только с помощью общепонятных знаков, т.е. слов, их сочетаний, различных оборотов речи. Следовательно, студен-

там следует дать образцы речи или создать речевую среду. Это второе условие развития речи. От того, какая у студента речевая среда, во многом зависит богатство и разнообразие его речи. Богатство речи во многом зависит от обогащения студента различными представлениями и понятиями, от его способности и умения использовать в своей речи полученные знания. Это третье условие успешного развития речи.

Выделяют четыре уровня работы по развитию речевой деятельности: произносительный, лексический, грамматический, уровень текста (3).

В речи студентов-азербайджанцев наблюдаются следующие типичные орфоэпические ошибки: произношение *чт, чн* в словах *что, чтобы, конечно, нарочно, что-нибудь, яичница, булочная* и т.д.; произношение: *гк, гч* в словах *мягкий, мягче, легкий, легче* и т.д.; произношение *его, ого* в словах *первого, летнего, моего, летающего* и т.д.; произношение звука [г] в словах *сегодня, итого, сегодняшний* и т.д.; неправильное произношение твердых и мягких согласных, сочетаний согласных и т.д. Кроме указанных ошибок, наблюдаются также прерывистость речи, интонационное однообразие, нерасчлененность речи, когда главная мысль не отделяется от дополнительных мыслей ни интонацией, ни логическим построением. Эти и подобные типичные произносительные ошибки вызваны несоответствием звукового и буквенного составов слов и распространены не только в озвученной письменной, но и в естественной разговорной речи студентов.

Задача преподавателя русского языка как иностранного состоит в предупреждении и устранении отрицательного воздействия написания как ведущей причины отклонений от орфоэпических норм. Студентов следует учить орфоэпически правильно читать написанное и грамотно записывать орфоэпически правильно диктуемое.

Одна из важнейших задач обучения русскому языку как иностранному заключается в том, чтобы, «опираясь на содержание обучения, активно воздействовать на умственное развитие учащихся»(4, с. 29), формируя у них лингвистическое мышление. При этом важнейшими критериями, на наш взгляд, являются следующие: 1) наличие определенного запаса структурированных лингвистических знаний (лингвистических понятий и языковых фактов); 2) выработка комплекса специальных лингвистических умений: а) анализировать, сравнивать, сопоставлять, классифицировать языковые факты; б) соотносить явления внеязыковой и языковой реальности; в) выделять соотношение «форма – значение», что является одним из определяющих умений при изучении языка; г) различать в слове лексическое и грамматическое значения.

Процесс формирования лингвистического мышления студентов предполагает работу в нескольких направлениях, важнейшим из которых является работа над пониманием студентами различий между лексическим и грамматическим значениями слова. Вначале (совершенно уместно и правомерно) студентам предлагать сведения о том, что «при образовании однокоренных слов получаются слова с различным лексическим значением» (5, с. 38), а затем давать примеры слов, различающихся не только лексическим, но и грамматическим значением: *звонить, звонкий, перезвон.* В данном случае было бы уместнее привести в качестве примера однокоренные слова, грамматическое

значение которых одинаково, например: *дом – домик, кот – котик, звон – звонок, зазвонить – перезвонить.*

Следует отметить, что «при изменении слова получаются формы этого же слова; изменяется только его грамматическое значение, а лексическое остается тем же самым»(2, с. 95). Например: *звонить, звонит, звонят; правильный, правильная, правильные; телефон, телефона, телефону.* Для понимания студентами сущности грамматического значения необходимо обратить их внимание на систему падежных форм имени существительного, имени прилагательного и парадигму спряжения глагола; например:

вод*а*	подводник	□дн*ый*	я прочита*ю*	мы прочита*ем*
вод*ы*	подводник*а*	водн*ого*	ты прочита*ешь*	вы прочита*ете*
вод*е*	подводник*у*	водн*ому*	он прочита*ет*	они прочита*ют*
вод*у*	подводник*а*	водн*ый*	я чита*ю*	мы чита*ем*
вод*ой*	подводник*ом*	водн*ым*	ты чита*ешь*	вы чита*ете*
о вод*е*	о подводник*е*	о водн*ом*	о он чита*ет*	о они чита*ют*

Такая расстановка акцентов позволила бы более четко дифференцировать в сознании студентов, с одной стороны, различия в лексическом значении между однокоренными словами и, с другой стороны, различия в грамматическом значении между формами одного и того же слова. Это целесообразно еще и потому, что знания об особенностях процессов, происходящих при изменении слова, должны опираться на полученные ранее знания о том, что «кроме лексического, слово имеет и грамматическое значение» и что «… у существительных можно определить род, падеж, число, у глаголов – время, лицо и число» (6, с. 74).

Поскольку овладение лексическими значениями связано с формированием представлений о реалиях окружающего мира, оно проходит более успешно, нежели овладение грамматическими значениями, которые относятся к явлениям абстрактно-логического ряда. Именно поэтому усвоение знаний о грамматических значениях требует достаточного уровня сформированности абстрактного мышления.

Одним из эффективных приемов работы по развитию лингвистического мышления студентов являются познавательные задачи, активизирующие учебный процесс. Рассмотрим некоторые из подобных заданий.

I. Как вы думаете, каким значением – лексическим или грамматическим – различаются выделенные слова в следующих предложениях? Докажите свой ответ.

1) На руке у девушки красовалось *бирюзовое* колечко.
2) Мы пришли на пляж и увидели *бирюзовое* море.

Не менее спорным является вопрос о включении факультативных глубинных падежей в семантическую структуру. «Оно во всяком случае не согласуется с обычным представлением о том, что имеются логико-семаннтические открытые позиции, заполнение которых на поверхностной структуре – в соответствии с контекстом- может быть только факультативным. Это явление мы называем « факультативной валентностью». При этом имеются в виду актанты, которые могут быть опущены.»

Вопрос субкатегоризации является наиболее трудным. Данный вопрос ставит целью различить то, что должны ли время, место, исходная точка, цель и т.д. рассматриваться как семантические падежи или не должны ли быть подключены кроме этих падежных ролей дополнительно модификаторы или дефиниторы, статус которых не совпадает со статусом аргументов, необ-ходимых с точки зрения семантики предиката.

Следует отметить, что список падежных ролей много раз изменялся и вопросы их разграничения окончательно решены не были.

Наконец, возникновение терминологических трудностей из-за того, что употребляемые названия семантических падежей частично совпадают с терминами определённых поверхностных падежей, частично – с обозначениями членов предложения. По этой причине – это, действительно, только терминологический вопрос, который ничего не меняет в сущности дела.

Таким образом, семантическая валентность рассматривается как потенциальная сочетаемость словарных единиц при наличии одного определенного семантического признака в слове. Что касается теории падежей, важно отметить, что хоть она и имеет много нерешённых проблем, данная теория внесла огромный вклад в развитие языкознания и, особенно, в развитии теории валентности.

Литература

1. Кацнельсон С.Д. К понятию типов валентности. Вопросы языкознания , № 3, 1987
2. Rozentalğ G.D., Telenkova M.A. «Slovarğ-spravoçnik linqvistiçeskix terminov», 1985
3. Cemenök M.P. Urovni issledovaniə valentnosti. Leksiko-qrammatiçeskaə soçetaemostğ v qermanskix əzıkax. Çeləbinsk. 1977.Vıp. 2.
4. Stepanova M.D. Çasti reçi i problema valentnosti v sovremennom nemeükom əzıke. Moskva, 1978.
5. Tenğer L. Osnovı strukturnoqo sintaksisa./ Perevod s franüuzskoqo İ.N. Boquslavskoqo i dr./. Moskva: Proqress, 1988 (str. 250-271)
6. Ch. Fillmore The Case for Case. 1968. In Bach and Harms (Ed.): Universals in Linguistic Theory. New York: Holt, Rinehart, and Winston, 1-88

X.E.Süleymanova

Semantik valentlik və Ç. Filmorun hal nəzəriyyəsi

Xülasə

Hazırkı məqalə dilçilikdə mövcud olan semantik valentlik və hal qrammatikası anlayışlarına həsr olunub. Məqalənin əsas məqsədi bu iki anlayış arasındakı əlaqəni və ən maraqlı məqamları oxucunun nəzərinə çatdırılmasıdı. Bildiyimiz kimi dilçilər valentliyin üç səviyyəsini qeyd edirlər: semantik, sintaktik və məntiqi. Yalnız bu məqalədə biz semantik valentliyin təhlilin aparırıq. Müxtəlif köklərin olmasına baxmayaraq, valentlik və hal qrammatikası arasında bir bağlılıq var. Təsadüfi deyil ki, semantik valentlik ayrı bir səviyyə kimi dilçiliyə hal qrammatikasın inkişafı

dövründə daxil olmuşdu. Qeyd etmək vacibdir ki, Ç.Filmorun nəzəriyyəsi dilçiliyin inkişafında çox mühüm rol oynamışdı.

Kh.E. Suleymanova

Semantic valency and Ch. Fillmore's case theory

Summary

The article deals with the problems of the semantic valency and case grammar in linguistics. This paper aims to highlight the connection between valency and case grammar, the most interesting points of this problem. As it's known, there are three levels of valency in linguistics: semantic, syntactic and logical. But this article deals with the semantic valency. In spite of different roots, there is connection between valency and case theory. It's not occasional that semantic valency as a separate level was introduced into linguistics at the same time with the development of case grammar. It's important to mention that Ch.Fillmore's case theory with all its shortcomings made a great contribution to linguistics.

Rəyçi: Nigar Vəliyeva
filologiya elmləri doktoru, professor

MƏLAHƏT MƏHƏRRƏMOVA
Azərbaycan Dillər Universiteti

SÖZ YARADICILIĞI PROSESİNDƏ KİŞİ CİNSİNƏ AİD YARIMSUFFİKSLƏRİN ROLU

Açar sözlər: Alman dili, Azərbaycan dili, yarımsuffiks, kişi cinsi, söz yaradıcılığı, isim, sifət, feil.
Key words: German language, Azerbaijan language, semi suffix, muscular genre, wordbuilding, noun, adjective, verb.
Ключевые слова: немецкий язык, азербайджанский язык, полусуффикс, мужской род, словообразование, существительное, прилагательное, глагол.

Yarımsuffikslər adlarda və zərflərdə olur. Zərflik yarımsuffikslər semantik kateqoriyaların ifadəsində məhdudiyyəti ilə seçilir: mövcudluq, bolluq (-voll, -reich), yaxud əksinə, çatışmazlıq, hətta nəyinsə tamamilə olmaması (-arm, -leer, -frei, -los), həmçinin uyğunluq, qabiliyyət, dəyər (-gemäß, fähig, -fertig, tüchtig, -wert). Nitqlərin yarımsuffiksləri, əsasən istiqaməti göstərir (-wegen, -willen, -maβen, -halber və s.). İsimlərin yarımsuffiksləri daha çoxsaylı və semantik cəhətdən müxtəlifdir. Onların köməkliyi ilə bir sıra geniş kateqoriyalar ifadə olunur: *şəxsiyyət* (-mann, -frau, -bild, -person; *şəxs adlarından:* -fritze, -hans, -liese, -meier, -peter və başqaları), *topluluq* (-werk, -zeug), müxtəlif növ *abstrakt anlayışlar* (-mut, -lust, -sinn, -kunde, -sucht və s.); onlar həmçinin isimlərə digər kateqoriyalı məna verir, məsələn: təklik (-stück) və s.

Ümumiyyətlə, mürəkkəb sözlərin ikinci komponenti adlanan yarımsuffikslər öz konkret leksik mənalarını itirərək sözdüzəltmə üsulunda müxtəlif mənaları ilə birləşir... zəif vurğu, ikinci dərəcəli vurğu daşıyır.

Ümumiyyətlə, isimdüzəltmə prosesində iştirak edən yarımsuffikslər bunlardır. Alman dilində bu Halbsuffixe adlanır:

-affe, -amt, -bild, -bruder, -bulle, -bursche, -dame, -fex, -frau, -fräulein, -freund, -fritze, -geist, -gut, -hals, -hans, -hase, -held, -hengst, -hof, -knecht, -kopf, -kraft, -kram, -lappen, -kunde, -liese, -lust, -mädchen, -mädel, -magd, -mamsell, -mann, -maul, -meier, -meister, -mensch, -michel, -mut, -ochse, -narr, -person, -peter, -sack, -schirm, -schwester, -seele, -sinn, -stoff, -stück, -suse, -tier, -trine, -vogel, -volk, -weib, welt, -werk, -wesen, -zeug, -statt, -stätte, -sucht.

İsimdüzəltmədə iştirak edən bu şəkilçilər ümumi olaraq, yəni kişi, qadın və orta cinsi bildirmələri göstərilmişdir. Həmin yarımsuffiksləri cinsə görə qruplaşdırsaq aşağıdakı kimi təsniflənəcəkdir.

Kişi cinsinə aid yarımsuffikslər.

Qadın cinsinə aid yarımsuffikslər.

Orta cinsə aid yarımsuffikslər.

Müasir alman dilində isimdüzəltmədə kişi cinsinə aid yarımsuffikslər aşağıdakılardır: -affe, -bruder, -bulle, -bursche, -fex, -freund, -fritze, -geist, -hals, -hans, -hase, -held, -hengst, -hof, -knecht, -kopf, -kram, -mann, -meier, -meister, -mensch, -michel, -mut, ochse, -narr, -peter, -sack, -schirm, -sinn, -staff, -vogel, -volk.

-affe [-afə] yarımsuffiksi. Der Affe 1) meymun; 2) *ədəbsiz söz kimi* -axmaq, gic sözünə uyğundur. Yarımsuffiks kimi isimlərə artırılaraq şəxsin xüsusiyyətini, əsasən də mənfi keyfiyyətə malik şəxsi bildirir və ən çox danışıqda işlədilir. Məsələn: Menschenaffe (meymunabənzər insan), Brüllaffe (ulayan, çığırğan meymun), Lackaffe, Zieraffe (modabaz adam).

-bruder [-bru:dər] yarımsuffiksi. İsimlərə və feillərə artırılaraq şəxsin əlamətinə əsasən də mənfi keyfiyyət bildirir. Trinkbruder (içki yoldaşı) ← trinken (içmək), Bierbruder (içki yoldaşı) ← das Bier (pivə), Bettelmann (dilənçi) ← betteln (dilənmək), Bacchusbruder (içki, şərab yoldaşı) ← der Bacchus (içki), Saufbruder (içki yoldaşı) ← saufen (içmək) (heyvanlar haqqında).

-affe [-afə] yarımsuffiksi isimlərə artırılaraq qohumluq münasibəti bildirir:

Mutterbruder (dayı); Vatersbruder (əmi); Zwillerbruder (əkiz qardaş); Blutsbruder (qan qardaşı); Sriefbruder (ögey qardaş).

-bulle [-bulə] yarımsuffiksi isimlərə artırılaraq bir işlə məşğul olan və məşğuliyyətə işə həvəsi, meyli olan şəxsi bildirən isim düzəldir və danışıq üslubunda işlənir.

Dorfbulle (kənddə damazlıq buğa) ← das Dorf (kənd), Kammerbulle (hərbi hissədə ərzaq və hərbi sursata baxan işçi) ← die Kammer (balaca otaq), Küchenbulle (*hərbidə:* aşpaz) ← die Küche (mətbəx), Kantinebulle (yeməkxana işçisi, xörəkbişirən) ← die Kantine (yeməkxana, bufet (*fabrikdə, idarədə*), Sanitätsbulle – (sanitar) ← die Sanität (sanitariya, sağlamlıq).

-bursche [-bur□ə] suffiksi isimlərə və feillərə artırılaraq şəxsin məşğul olduğu məşğələnin növünü bildirən yeni isimlər düzəldir:

Reitbursche (minici) ← reiten (at üstündə getmək), Laufbursche (kuryer, kağızpaylayan oğlan) ← der Lauf (qaçma) + laufen (qaçmaq), Jägerbursche (ovçuluqla məşğul olan oğlan) ← der Jäger (ovçu), Wanderbursche (səyyar usta köməkçisi) ← der Wander (səyyar, mövsümi), Müllerbursche (dəyirman işçisi, dəyirmançı) ← der Müller (dəyirmançı).

-fex [-feks] yarımsuffiksi ismin əsasına artırılaraq şəxsin maraq dairəsini, meylini bildirən isim əmələ gətirir; danışıqda işlədilir:

Modefex (modabaz) ← die Mode (dəb, moda),

Schachfex (şahmat düşkünü, şahmat həvəskarı) ← der Schach (şahmat).

-freund [frɔØnt] yarımsuffiksinin işlənmə dairəsi genişdir və müxtəlif semantik mənalar kəsb edir. -freund yarımşəkilçisi ilk növbədə abstrakt isimlərə artırılaraq hər hansı bir cəmiyyətə, təşkilata, partiyaya yaxud ictimai-siyasi cərəyana olan münasibəti bildirir:

Heimatfreund (ölkəşünas) ← die Heimat (vətən), Parteifreund (partiya üzvü) ← die Partei (partiya), Friedenfreund (sülh tərəfdarı) ← der Frieden (sülh).

- freund [-freunt] yarımsuffiksi ismin əsasına artırılaraq hər hansı bir şəxsdə nəyəsə meyilin, həvəsin güclü olduğunu bildirir. Məsələn: Fuβballfreund (futbol həvəskarı, azarkeş) ← der Fuβball, Basketballfreund (basketbol həvəskarı) ← der Basketball, Literaturfreund (ədəbiyyat həvəskarı) ← die Literatur (ədəbiyyat), Autofreund (avtomobil həvəskarı) ← das Auto (avtomobil) və s.

-fritze [-frıtsə], -hans [-hans], -meier [mær], -michel [-mıxəl], -peter [-pe:tər] yarımsuffiksləri kişi şəxs adlarındandır. Bu yarımşəkilçilər arasında cüzi fərqlər olmaqla yanaşı, ümumi bir məna da daşıyırlar. Bu komponentin hər biri ismə, feilə

artırılaraq mənfi keyfiyyətə malik şəxsi bildirən isimlər əmələ gətirir və danışıqda işlədilir. Məsələn: Heulmeier, Heulmichel, Heulpeter sözləri eyni mənanı bildirir. Danışıqda kinayə ilə işlədilir. Hər dörd sözün mənası "ağlağan, zır-zır uşaq" deməkdir – heulen (ulamaq) feilinə artırılmaqla düzəlmişdir.

Quackelen (boşboğazlıq etmək, çərənləmək) sözündən Quackelfritze, Quackelhans sözləri yaranmışdır ki, mənası "çox danışan", "zəvzək", "naqqal" deməkdir. O cümlədən həmin mənada quasseln feilindən Quasselfritze və Quasselpeter isimləri əmələ gəlmişdir. Eyni mənada yenə Schwabbelfritze və Schwabbelmeier isimləri törəmişdir.

Yuxarıda göstərilən ümumi mənadan çıxış edərək ayrı-ayrılıqda həmin suffikslərdən düzələn isimlərə aid bir neçə misal göstəririk: nörgelen (bəhanə axtarmaq) ˙ → Norgelpeter (bəhanəçi), der Klotz (*məc.* kobud adam) ˙ → Klotzmichel (gic, səfeh), der Quatsch (cəfəngiyat, mənasız) ˙ → Quatschmeier (naqqal, çoxdanışan), prahlen (öyünmək) ˙ → Pralhans (lovğa, özünü öyən) və s.

Digər yarımsuffikslərdən fərqli olaraq -fritze elementi isimlərin əsasına artırılaraq satıcılıq işi ilə məşğul olan adamın sənətini, peşəsini bildirən isimlər əmələ gətirir: Das Holz (odun) ˙ → Holzfritze (odunsatan), die Kartoffel (kartof) ˙ → Kartoffelfritze (kartofsatan), die Blume (gül) ˙ → Blumefritze (gülsatan) və s.

-feist (-gæst) yarımsuffiksi. Der Geist (1. ruh; 2. ağıl – leksik vahidinə uyğundur. Bu komponent isimlərə, feilə və keyfiyyət bildirən sifətlərə artırılaraq mənfi yaxud müsbət keyfiyyətlərə malik şəxsi bildirən isimlər düzəldir:

-frei (sərbəst, azad) ˙ → Freigeist (azad, sərbəst düşüncəli), schön (gözəl) ˙ → Schöngeist (ədəbiyyat həvəskarı), flattern (1. yellənmək, 2. *məc.* hərdəmxəyal olmaq) ˙ → Flattergeist (yüngüldüşüncəli adam).

-hals [-hals] elementi -geist elementindən fərqli olaraq yalnız mənfi keyfiyyət bildirir: ismə, feilə, bəzən sifətə artırılır: der Hals (boyun, boğaz) sözünə uyğundur: die Gans (qaz) ˙ → Gänsehals (qazboğaz, boğazı uzun), das Pferd (at) ˙ → Pferdehals (atboyun), die Schlange (ilan) ˙ → Schlangehals (ilanboğaz), lang (uzun) ˙ → Langhals (uzunboğaz), schreien (qışqırmaq), → Schreihals (danışıqda: çığırqan) və s.

-hase [-ha:zə] yarımsuffiksi. Bu komponent isimlərə artrıılaraq bir şeyə olan arzu, meyil və həvəs bildirən isimlər düzəldir. Der Schi (*ayaq xizəyi*) ˙ → Schihase (xizək həvəskarı), der Film (film) ˙ → Filmhase (film həvəskarı), der Fuβball (futbol) ˙ → Fuβballhase (futbol azarkeşi) və s.

-held [-helt] yarımsuffiksi. Bu element der Held (1. qəhrəman; 2. *danışıqda kinayə ilə işlədilir*: heç nə bacarmayan adam). -held komponenti də məhz 2-ci mənaya uyğun gəlir. Bu komponent isimlərə artırılaraq insanlarda mənfiliyə meyil bildirən isimlər əmələ gətirir:

das Messer (bıçaq) → Messerheld (başkəsən), das Bier (çaxır) → Bierheld (əyyaş, içki düşkünü).

-hot [-ho:t] yarımsuffiksi – ismə, ikilikdə isim və feilə artırılaraq hər hansı bir müəssisənin adının yerləşdiyi yeri bildirən isimlər düzəlir: der Bus (avtobus) Bushof (avtobus parkı, avtobus vağzalı), der Gast (qonaq) → Gasthof (kiçik mehmanxana), die Maschine (maşın) → Maschinenhof (maşın parkı), die Wirtschaft (təsərrüfat) → Wirtschaftshof (təsərrüfat müəssisəsi).

-knecht [-kneçt] yarımsuffiksi. Bu komponent isimlərə artırılaraq hər hansı bir məşğələnin növü ilə məşğul olan şəxsi bildirən isimlər əmələ gətirir; bəzən

ortada bitişdirici element də olur. Der Ochs (öküz) → Ochsenknecht (öküzsaxlayan), das Pferd (at) Pferdeknecht (mehtər, atabaxan), das Haus (ev) → knecht (ev qulluqçusu, ev qarovulçusu).

-kopf [-kopf] yarımsuffiksi. Bu element der Kopf (bas) leksik vahidinə uyğundur.

-kopf yarımsuffiksi sifətlərə, nadir hallarda ismə artırılaraq şəxsin xarici əlamətini bildirən isimlər düzəldir.

kahl (keçəl) → Kahlkopf (dazbaş, keçəl), kraus (qıvrım, buruq-buruq) → Krauskopf (qıvrımsaçlı), flach (1. dayaz; 2. yastı) → Flachkopf (*məc*. küt adam), rot (qırmızı) → Rotkopf (sarışın), der İgel (kirpi) → İgelkopf (kirpibaş, qıvrımsaç).

-kopf yarımsuffiksi ismin, sifətin və feilin əsasına artırılaraq mənfilik xüsusiyyəti bildirən isimlər düzəlir:

Das Tier (heyvan) → Tierkopf (heyvanbaş, qanmaz, axmaq), das Holz (odun) → Holzkopf (anlayışı az), drehen (hərlətmək, fırlatmaq) → Drehkopf (işdən başı çıxmayan), brausen (şiddətlənmək, coşmaq) → Brausenkopf (dəliqanlı), hitz (qızğın) → Hitzkopf (qızğıntəbiətli), toll (1. qudurmuş, quduz; 2. dəli) → Tollkopf (məc. ağılsız; dəlisov), schlau (hiyləgər) → Schlaukopf (hiyləgər, bic, çoxbilmiş) və s.

-kram [-kra:m] yarımsuffiksi. Bu element isim və sifətə artırılaraq cəm ifadə edən cansız əşyalara aid topluluğu bildirən isimlər əmələ gətirir.

Das Papier (kağız) → Papierkram (köhnə kağız, tullantı kağız), der Frödel (cır-cındır; əski-üskü) → Frödelkram (şeytanbazar), grün (yaşıl) → Grünkram (göy-göyərti).

-kram elementi abstrakt məfhumlu isimlərin əsasına artırılaraq topluluq mənası bildirən isimlər düzəlir.

Das Gedächtnis (haddaş hafizə) → Gedächtniskram (pozulmuş yaddaş).

-mann [-man] yarımsuffiksi. Bu komponent müasir alman dilinin söz yaradıcılığında çox məhsuldardır və çoxişləkdir. Der Mann leksik vahidinə uyğundur. Der Mann sözünün semantik cəhətdən aşağıdakı mənaları vardır – 1) kişi; 2) ər; 3) adam.

-mann yarımsuffiksi isimlərə, ikilikdə ismə və feilə artırılaraq şəxsin sənətini, peşəsini, məqsədinin növünü, əlaməti, nadir hallarda ailə münasibətləri bildirən isimlər düzəlir:

Das Gemuse (göyərti) → Gümüsemann (göyərtisatan), das Eis (yumurta) → Eismann (yumurtasatan), die Zeuting (qəzet) → Zeitunqsmann, das Geschäft (mağara) → Geschäftsman (mağaraçı), der See (dəniz) → Seeman (dənizçi), das Schift (gəmi) → Schiftmann (gəmiçi); die Wache (qarovul) + wachen (ayıq olmaq) → Wachman (qarovulçu, növbətçi), der Handel (ticarət, alver) + handeln (hərəkət etmək) → Handelsmann (alverçi, tacir), das Spiel (oyun) + spielen (oynamaq) → Spilmann (çalğıçı şeypurçu).

-mann yarımsuffiksi ilə müxtəlif mənalı isimlər düzəltmək mümkündür. Bir neçəsinin adını çəkirik: Zimmerman, Dienstmann, Schlagmann, Tormann, Schnttmann, Werkmann, Kirchenmann, Ordensmann və s.

-meister (-mæstər) yarımsuffiksi. Bu komponent eyni adlı leksik vahidə uyğundur. Der Meister sözü bir çox semantik mənaya malikdir: 1) usta; 2) maestro; rəssam; 3) alim; 4) *idmanda*: çempion, usta; 5) cənab; müəllim.

Həmin mənalara uyğun deyə bilrik ki, -meister yarımsuffiksi isimlərə, az halda, ikilikdə isim və feilə artırılaraq der Meister sözünə uyğun mənada işlənərək

insanlarda olan ixtisas, peşə, sənət, vəzifə əlamətləri bildirən yeni isimlər əmələ gətirir:

der Bäcker (çörəkbişirən, çörəkçi) → Bäckermeister (çörəkçi usta), der Fleischer (qəssab) → Fleischermeister (qəssablıqda usta), der Bau (tikinti, bina) → Baumeister (memar, tikinti mühəndisi), das Ballet → Bulletmeister (balet ustadı, balet müəllimi).

-mensch [-men□] yarımsuffiksi. Bu komponent də der Mensch (adam, insan) leksik vahidinə uyğundur.

-mensch yarımsuffiksi isimlərin əsasına artırılaraq, ilk növbədə, məşğuliyyət növü bildirən isimlər düzəldir; bəzən bitişdirici element də tələb edir:

das Buch (kitab) → Büchermensch (kitab ticarəti işçisi), der Beruf (sənət) → Berufsmensch (sənətkar), der Bau (tikinti, inşaat) → Baumensch (tikinti mütəxəssisi), die Kraft (güc) → kraftmensch (pəhləvan) və s.

-mensch yarımsuffiksi də -mann yarımsuffiksi kimi isimdüzəltmədə məhsuldardır və müxtəlif sahəni əks etdirən sözlər yarada bilir. Məsələn:

Das Gemüt (xasiyyət) → Gemütmensch (üzüyola), die Herde (sürü) → Herdenmensch (kollektivin fikri ilə hərəkət edən adam), die Kultur (mədəniyyət) → Kulturmensch (mədəniyyətli *kimsə*), die Brille (gözlük, eynək) → Brillenmensch (gözlüklü *kimsə*) və s.

-mut [-mu:t] yarımsuffiksi. Der Mut leksik vahidi "cəsarət", "mərdlik", "igidlik", "qoçaqlıq" kimi tərcümə olunur.

-mut yarımsuffiksi sifətlərə, isimlərə, bəzən feilə artırılaraq daxili vəziyyəti, keyfiyyəti, insan əhval-ruhiyyəsini, cəsarəti və s. bildirən isimlər düzəldir. Azərbaycan dilində -lıq[4] şəkilçisi ilə eynidir.

der Held (qəhrəman) → Heldenmut (qəhrəmanlıq), das Leben (həyat, yaşayış) → Lebensmut (gümrahlıq, həyat sevinci; frei (boş, azad) → Freimut (ürəyiaçıqlıq, səmimilik), lang (uzun, uzunmüddətli) → Langmut (səbirlilik, dözümlülük), schwer (1. ağır, 2. çətin) → Schwermut (məyusluq, dərd, kədər) və s.

-ochse [-ɔksə] yarımsuffiksi. Der Ochse sözünə uyğundur: 2 mənada işlənir – 1) öküz; 2) kobud söz kimi axmaq, gic, tərcümə olunur.

-ochse şəkilçisi də 2-ci mənaya uyğundur. Bu şəkilçi isimlərin və feillərin əsasına artırıldıqda mənfi, pis xüsusiyyətlərə malik şəxsi bildirir: das Heu (quru ot) → Heuochse (axmaq, gic), brummen (mırıldanmaq, donquldanmaq) → Brummochse (axmaq, gic) və s.

-narr [-nar] yarımsuffiksi. Der Narr (dəli, axmaq, gic) sözünə oxşasa da, isimdüzəltmədə tam başqa məna ifadə edir.

-narr yarımsuffiksi isimlərə artırılaraq bir şeyin həvəskarı, aludəsi mənasını bildirən isimlər düzəldir:

Die Blume (gül, çiçək) → Blumennar (çiçək dəlisi), das Buch (kitab) → Büchernarr (kitab həvəskarı, aludəsi); Hans (şəxs adı) → Hansnarr (bəzək), der Hund (it) → Hundemann (itpərəst, itbaz, it həvəskarı), das Kind (uşaq) → Kindernarr (uşaqpərəst, uşaq dəlisi), die Musik (musiqi) → Musiknarr (musiqi həvəskarı, musiqi dəlisi) və s.

-sack [-zak] yarımsuffiksi. Leksik vahid olan der Sack sözünün iki semantik mənası vardır: 1. kisə; cib; 2) *məc.* kök, tosqun adam.Üslubi baxımdan məhz 2-ci mənaya çox uyğun gəlir. Bu yarımşəkilçi sifətə, feilə, nadir hallarda isə ismin özünə

artırılaraq şəxsin mənfi keyfiyyətlərə malik olmasını, xüsusilə də xarici görkəmini əks etdirən isimlər əmələ gətirir; danışıqda işlədilir:

fett (yağlı, tosqun) → Fettsack (şişbədən, şişman, tosqun). O cümlədən də həmin mənada dick (yoğun, dolu) sözündən Dicksack (kök, tosqun adam) sözünü də göstərmək olar, lügen (yalan danışmaq, aldatmaq) → Lügensack (yalançı, yalan danışma, aldatma), → Lügensack (yalançı, yalan dağarcığı), fressen (yemək) Freβsack (*kinayə ilə işlədilir*: acgöz, qarınqulu) və s.

-schirm [-□irm] yarımsuffiksi. Bu komponent der Şirm leksik vahidinə uyğundur. Der Şirm sözünün bir çox semantik mənası var: 1) çətir, günlük; 2) şapkanın qabağındakı günlük; 3) ekran, pərdə; 4) *məc.* müdafiə.

-schirm yarımşəkilçisi də çox hallarda der Schirm sözünə uyğun gəlir, isimlərin əsasına artırılaraq cansız əşyalar üçün, əsasən də bir şeyi nədənsə qorumaq, müdafiə etmək məqsədi daşıyan isimlər əmələ gətirir. Məsələn:

Der Regen (yağış) → Regenschirm (günlük, zontik), die Wand (divar) → Wandschirm (dam, taxtapuş), die Leuchte (fənər, işıq) → Leuchteschirm (rentgen ekranı), das Auge (göz sipər), Augenschirm (göz qoruyucusu) və s.

-sinn [-zin] yarımsuffiksi. Der Sinn leksik vahidi kimi: 1) duyğu, hiss; 2) məna, əhəmiyyət məfhumları bildirir. -sinn yarımsuffiks kimi sifətlərə, isimlərə və feilə artırılaraq isimlərə müsbət və mənfi xüsusiyyətlər, həmçinin insanların bacarıq və qabiliyyətini, ürək fəaliyyətini bildirən mənalar verir.

-Das Gehör (eşitmə; eşitmə qabiliyyəti; musiqini dinləmə qabiliyyəti) → Gehörsinn (eşitmə hissi, eşitmə qabiliyyəti, der Jrre (1. dəli) → Jrrsinn (dəlilik), fein (nazik; incə) → Feinsinn (incə fikir), trüb(e) (bulanıq; 2. *məc.* qəmgin, tutqun) → Trübsinn (ümidsizlik, qəmginlik), tasten (əllə hiss etmək, əlləmək) → Tastsinn (toxunma hissi; toxunmaqla hiss etmə), flattern (1. yelləmək; 2. *məc.* hərdəmxəyal olmaq) → Flattersin (dəyişkən fikir; meymun iştallı kimsə) və s.

-stoff [□t□f] yarımsuffiksi. Leksik vahid olan der Stoff sözünün fəlsəfə termini kimi materiya; substansiya; fizika və kimya termini kimi maddə, cisim, material, toxuculuq termini kimi parça, material və məcazi mənada şey, əşya, mövzu kimi semantik mənaları vardır. Elə bu mənalara da uyğun -stoff yarımsuffuksi sözdüzəltmədə çox məhsuldar olmaqla, ilk növbədə, isimlərə, sifətlərə və feillərə artırılaraq kimyəvi birləşmələr məfhumu bildirən isimlər əmələ gətirir. Misal: das Wasser (su) → Wasserstoff (*kim.* hidrogen), der Şaum (köpük, kəf) → Schaumstoff (köpüklü, plastik), das Mineral (mineral) → Mineralstoff (mineral maddə), sauer (turş) → Sauerstoff (*kim.* oksigen), das Gift (zəhər) → Giftstoff (zərələyici maddə), roh (1. bişməmiş; 2. xam) → Rohstoff (xammal, xam maddə), heizen (yandırmaq) → Heizstoff (yanacaq), kleben (yapışdırmaq) → Klebstoff (yapışqan) və s.

-schaff [□af] yarımşəkilçisi, həmçinin bəzi isimlərə artırılaraq toplu formasında parça materiallar mənasını bildirən isimlər əmələ gətirir: das Kleid (paltar) – Kleiderstoff (əlbəsəlik qumaş), die Baumwolle (pambıq) → Baumvollestof (pambıq parça), der Futter (astar) → Futterstoff (astarlıq parça), der Anzug (kostyum) → Anzugstoff (kostyum parça).

-stoff yarımsuffuksi isimlərə və feilə artırılaraq təhsillə, yaddaşla, musiqi və s. bağlı məna bildirən isimlər düzəldir: das Gedächtnis (yaddaş, hafizə) → Gedächtnisstoff (öyrənilmiş maddələr), ona sinonim olan Lehrstoff sözünü də bura əlavə etmək olar. Gespräch (şöhrət, danışıq) → Gesprächsstoff (danışıq), lernen

(oxumaq) → Lernstoff (oxu (dərs) materialı), die schule (məktəb), die Schulestoff (məktəb ləvazimatı), der Unterricht (dərs) → Unterrichtsstoff (dərs danışma, dərs nəqletmə) və s.

Ədəbiyyat

1. Словарь словообразовательных элементов немецкого языка. Москва. 1979.
2. Степанова М.Д. Словообразование современного немецкого языка. Москва. 1953.
3. Almanca-azərbaycanca lüğət. Bakı, 1971.
4. Deutsch-Türkisch Wörterbuch (Mevlut Sarı). İzmir.

Malahat Maharramova

The role of semi suffixes about muscular genre in wordbuilding

Summary

The presented article deals with semi suffixes existing in the process of wordbuilding in contemporary German language; such as: -affe-; -bruder-; -bulle-; -fex-; -freund-; -hals-; -hans. Generally in the given article there are more than 30 suffixes and examples with their explanation and translations into Azerbaijani an language.

Малахат Магеррамова

Роль полусуффиксов, относящихся к мужскому роду, в словообразовании

Резюме

В статье даются сведения о полусуффиксах, участвующих в процессе словообразования в современном немецком языке, среди которых особое внимание уделяется полусуффиксам, относящимся к мужскому роду. К этим полусуффиксам относятся -agge, -bruder, -bulle, -fex, -freund, -hals, -hans и др. В целом, в статье приводится с выше 30-ти полусуффиксов и дается их перевод на азербайджанский язык.

Rəyçi: Sərxan Abdullayev
filologiya üzrə elmlər doktoru, professor

NİGAR HƏSƏNOVA
XALİDƏ ZAMANOVA
AzTU

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ELLİPTİK CÜMLƏLƏRİN TƏSNİFATI

Açar sözlər: mətn dilçiliyi, koheziya, ellipsis, ellipsisin növləri
Key words: text linguistics, cohesion, ellipsis, types of ellipsis
Ключевые слова: лингивистика текста, когезия, эллипсис, типы эллипсиса.

Müasir dilçiliyin ən aktual məsələlərindən biri də mətn dilçiliyidir. Müvafiq olaraq mətn dilçiliyinin tədqiqat obyektini mətn təşkil edir. Mətni xarakterizə edən, ona spesifik bir sıra əlamət və xassələr vardır. Bunlardan biri kimi mətnin tamlığını, bütövlüyünü qeyd etmək olar. Mətnin bütöv olması onun hərtərəfli dərk olunması üçün lazım olan başlıca tələblərdən biridir. Mətnin bütövlüyünü, tamlığını da şərtləndirən bir sıra amillər vardır. Bütöv olmaq üçün mətn eyni zamanda əlaqəli olmalıdır (1).

Mətndaxili əlaqələr, onların struktur semantik parametrləri mətn dilçiliyi üçün vacib əhəmiyyət kəsb edir. Bu səbəbdən onların öyrənilməsinə bir çox linqivistik tədqiqatlar həsr olunmuşdur. Bu tədqiqatlar içərisində M.A.K. Halliday və R.Hasanın əsərlərini vurğulamaq olar. Müəlliflər öz əsərlərində mətndaxili əlaqəliliyi bildirmək üçün koheziya (cohesion) terminindən istifadə etmiş, koheziv vasitələrin əhatəli təsvirini vermişdir (2).

Burada irəli sürülən əsas konsepsiya və konseptual əsasda koheziyanın leksik və qrammatik üsullarının təsnifatı çox böyük uğur qazandı. Lakin bununla yanaşı qeyd etmək lazımdır ki, həmin konsepsiyanın bütün müddəaları bütün linqivistlər tərəfindən qeyd-şərtsiz qəbul edilmədi.

De Boqrand və Dreslerin koheziya termininin izahı ilə bağlı fikirləri mövcuddur. Sözü gedən dilçilər və onlara həmfikir bəzi dilçilər yuxarıda qeyd olunan konsepsiyanı tənqid edərkən haqlı olaraq göstərir ki, M.A.K. Halliday mətn əlaqələrində dərinlik və səthi planlar arasında həddi düzgün müəyyənləşdirmir (9).

Müəyyən məlumatın maksimal dərəcədə səmərəli ötürülməsi üçün mətn sintaktik və semantik çərçivəyə malik olmalıdır. Mətn həm də daxili təşkilatlanmaya, orqanizasiyaya malikdir (3).

Mətnin səthi struktur elementləri olan dil ifadələri arasındakı əlaqələrdən, yəni koheziyadan danışmaq lazım gəlir (8). Koheziya linqivistik cəhətdən eksplisitdir və mətnin elementləri arasında semantik əlaqələri vurğulamaqla özünü göstərir. Ardıcıl cümlələr arasında semantik bağlar koherensiya və koheziya üçün fundamentaldır. Fikrimizcə burada tematik ardıcıllıq, qanunauyğunluq olmalıdır. Məhz bu cür ardıcıllıq və qanunauyğunluq koheziya ilə koherensiyanın qarşılıqlı əlaqəsini və onların birinin digərini vurğulamasını şərtləndirən amillər sırasına daxildir.

Ulla Connor koheziyaya aşağıdakı təyinatı verir: " Koheziya cümlələr və mətnin hissələri arasında əlaqələri göstərmək üçün istifadə eksplisit linqivistik vasitələrin işlədilməsidir. " Bu cür koheziv vasitələr oxucunun öncəki müddəaları müvafiq olanlarla əlaqələndirməyə köməkçi olan ifadə və sözlərdən ibarətdir. (4)

Mətn tekstuallığın tələblərinə cavab verən kommunikativ hadisədir. Mətnin tamlığını təyin edən standartları mövcuddur ki, bunlara koherensiya (mətnin alt qatlarından bəhs edir, o, mətn istifadəçiləri arasında koqnitiv proseslərin məhsuludur.), intersionallıq və koheziya aiddir. Qeyd edildiyi kimi koheziya mətnin üst qatının komponentlərindən, yəni bizim eşidib yaxud gördüyümüz real sözlərin əlaqə daxilində qarşılıqlı birləşməsini bildirən yollardan bəhs edir. Fikrimizcə əsas olaraq bunlardan aşağıdakıları vurğulamaq lazımdır: qrammatik-referensiya; substitusiya; ellipsis; leksik-qrammatik-bağlayıcı; leksik koheziya;

Biz bu məqalədə qrammatik koheziyanın növlərindən biri olan ellipsisdən danışırıq.

Generativ dilçilikdə ellipsis termini bir sıra hadisələrə aid edilir, onların dərk edilən mənası linqivistik formalarla ifadə edilən mənasından daha əhatəlidir. Ellipsis o zaman yaranır ki, struktur cəhətdən vacib olan buraxılmamış, deyilməmiş olsun. (5)

Ellipsis leksiko-qrammatik kateqoriyadır. Mətnə xas olan bu hadisə zamanı adətən mətn vahidlərinin, yəni sözlər, birləşmələr, budaq cümlələr və s. işlədilməməsi baş verir. Ellipsisdə əvəz etmə mümkündür. Ellipsis anaforik səciyyə daşıyır, nadir hallarda katafori ola bilir (4). Bu fenomenon həm yazılı, həm də şifahi mətnlərə xas tipik cəhətdir, baxmayaraq ki, o daha çox danışıqda peyda olur, çünki danışıq daha az eksplisit olmağa meyllidir. Ədəbiyyatda, bədii əsərlərdə dialoq, danışıq əlavə edilirsə o, ellipsislə zəngin olur.

Ellipsis danışığa xas, situasiyadan doğan tipik hadisədir. Bu məqsədyönlü şəkildə edilən bir vasitədir. Ellipsis hadisəsi zamanı söz və ifadələri cümlələrdən bilərəkdən, məqsədəuyğun şəkildə buraxılır, baxmayaraq ki, məna başa düşülə bilir. Adətən o söz ifadələr buraxılır ki, onlar lüzumsuzdur, onların adı artıq əvvəl çəkilir və qeyd olunur. Ellipsis birləşmələrdə, qısa cavablarda və s. müşahidə olunur. Kiçik bir nitq nümunəsinə nəzər salaq:

A. Where are you going?

B. To town

Tam cavab belə olmalı idi. “ I’m going to town ”

Ümumiyyətlə ellipsis anlaşılması sadə, mətnin əlaqələnməsində isə olduqca mühüm əhəmiyyətə malik dil fenomenidir. Onun unikallığı lazımı dil vahidinin işlənmədiyi hallarda mətnin bütövlüyünün təmin olunması, məzmunu ötürücünün niyyətinə müvafiq olaraq çatdırıla bilməsidir.

Ellipsis bu və ya digər mətndə hər hansısa bir mətn vahidinin (sözlər, cümlələr, birləşmələr, budaq cümlələr) işlədilməməsi və yaxud məqsədəuyğun şəkildə buraxılması, asanlıqla bərpası mümkün olsa da, buna ehtiyacın duyulmadığını, əsasən şifahi şəkildə ifadə olunan mətnlərə xas, nitqə yüngüllük gətirən, lakin mənaya xələl vurmayan danışanın zaman və dil vahidlərinə qənaət niyyətindən irəli gələn, əvvəlki ifadədən və ümumi mənadan asanlıqla bərpa oluna bilən çox mühüm koheziya vasitəsidir.

Ellipsisin 3 növü vardır: Nominal ellipsis; Klausal ellipsis; Feli ellipsis;

1-ci növ ellipsis nominal birləşmə daxilində sözün buraxılmasıdır.

Məsələn, The teacher went to the board and (he\ the teacher) wrote on it.

Feli ellipsis dedikdə feli birləşmə daxilində mövcud hansısa elementin buraxılması nəzərdə tutulur.

Məsələn, Have you been swimming? Yes, I have (been swimming üçün boşluq qoyulmuşdur.)

I could tell you, but I won't.

Elliptik feli birləşmənin mənasının birləşmədəki sözlərdən anlamaq olur. Buraxılmış sözlərin yeri bir növ dolu olur.

Klauzal ellipsisdə ellipsisə fərqli yanaşılır. Budaq cümlə başlanğıc nöqtəsi kimi götürülür. İngilis dilində budaq cümlə müxtəlif nitq funksiyalarının (təsdiq, sual, cavab və s.) ifadəsi kimi başa düşülür. Bu iki hissədən ibarət olur. Modal element və propozisional elementə bölünür.

Məsələn, The Duke was (modal element) going to plant a row of poplars in the park (propozisional element)

What were they going? Holding hands (They were üçün boşluq qoyulmuşdur)

Ellipsis hadisəsi o zaman müşahidə olunur ki, vacib bir struktur element cümlədən buraxılır və yalnız əvvəlki mətndəki elementə istinadən bərpa oluna bilir.

A. Why'd you only set three places? Paul's staying for dinner isn't he?

Aşağıda müəyyən bədii əsərdən götürülmüş nümunəyə nəzər salaq.

They hauled Piggy clear of the wreckage and leaned him against tree. The night was cool and purged of immediate terror. Piggy's breathing was little easier.

Did you hurt, Piggy

Not much.

That was Jack and his hunters, said Ralph bitterly. Why can't they leave us alone?

We gave them something to think about, said Sam. Honesty compelled him to go on. At least you did. I got mixed up with myself in a corner.

I gave one of them what for, said Ralph, Is mashed him up all right.

He won't want to come and fight us again in a hurry

So did I, said Eric. When I woke up one was kicking me in the face. I got an awful bloody face, I thing, Ralph. But I did him in the end.

What did you do?

I got my knee up, said Eric with simple pride, and I hit him with in the… You should have heard him holler! He won't come back in a hurry either. So we didn't do too badly.

Ralph moved suddenly in the dark; but then he heard Eric working his mouth.

What's the matter?

Just too loose.

Piggy drew up his legs.

You all right, Piggy?

Thought they wanted the conch.

Müəyyən əsərdən götürülmüş yuxarıdakı hissə əsasən dialoq nümunələrindən təşkil olunmuşdur və bu dialoqlarda müvafiq sözlərin buraxıldığını müşahidə etmək mümkündür. Diqqətlə nəzər salsaq, görərik ki, işlədilməyən elementlərin bərpa edilməsi istənilən halda mümkündür, lakin onların buraxılması nitqə ağırlıq gətirməmək üçün edildiyindən deyilməyən dil vahidlərinin mövcud olduğu ifadələrin verildiyi kimi saxlanılması məqsədəuyğundur.

Bildiyimiz kimi ellipsis zamanı hansısa bir söz buraxılır. Ellipsis bu cəhətdən koheziyanın digər növü subtitusiyanı xatırladır. Bu iki hadisəni ayırmaq çətinlə-

şir, lakin qeyd etmək lazımdır ki, ellipsis sözün birləşmənin cümlənin "sıfır" morfemlə əvəz olunmasıdır. Praktiki nöqteyi-nəzərdən hər iki anlayışa ayrıca yanaşmaq məqsədə uyğundur. Baxmayaraq ki, substitusiya da, ellipsis də mətnin hissələri arasında mövcud eyni fundamental əlaqəni əhatə edir və bunlar struktur mexanizminin iki müxtəlif növüdür. Ellipsis deyilməyəni ifadə edir (something unsaid). Lakin o demək deyil ki, deyilməyən anlaşılmayandır, əksinə "deyilməyən" altında "hər vəziyyətdə başa düşülən" nəzərdə tutulur.

Məsələn., Histories make men wise; poets witty; the mathematics subtle; natural philosophy deep; moral grave; logic and rhetoric able to contend.

Yuxarıda verilən cümlələrin strukturlarına nəzər salsaq, görərik ki, birincidən başqa hamısının xəbəri buraxılmışdır. Cümlələr mübtəda və komplementdən ibarətdir. Budaq cümlələri aşağıdakı şəkildə şərh etmək olar. İkinci budaq cümlə *poets make men witty*; üçüncü cümlə *mathematics make men subtle*; dördüncü cümlə *natural philosophy makes men deep* beş və altıncı cümlələr də müvafiq şəkildə şərh olunur.

Məsələn., Do you like Chinese food?

Yeah.

Yuxarıda verilən bu nümunədə isə qənaət prinsipi irəli sürülərək tam cavab kimi "*I like Chinese food*" cümləsi işlədilməmiş, bütün cümlənin məzmunu təsdiqləyici bir ədat vasitəsi ilə vermək mümkün olmuşdur. Bu üsul sayəsində nitqə ağırlıq gətirməkdən qaçınılmışdır.

Heç də fakt deyil ki, ellipsis işlənərkən danışan hər hansı bir ifadəni şərh etmək üçün öz fon biliklərinə istinad etməlidir, çünki bu hər zaman koheziyanın anlaşılmasına xidmət edir. Əksinə ellipsis olan yerdə müəyyən struktur boşluq olur və bu boşluğun doldurulması üçün nəzərdə tutulan bir vahid lazimi informasiyanın təmin olunmasına xidmət edir.

Yekun olaraq belə nəticəyə gəlmək olar ki həm koheziya, həm də onun ayrıca vasitəsi olan ellipsis yerindən və mövqeyindən, işləndiyi mətnin növündən və strukturundan, şifahi və yaxud yazılı olmasından, sadə və mürəkkəbliyindən və bu kimi bir sıra amillərdən aslı olmayaraq mətnin təşkilatlanmasında olduqca mühüm əhəmiyyətə malikdir.

Koheziyanın (eləcə də ellipsisin) rolu mətndə daxili əlaqəliliyi təmin edib, onu qoruyub saxlamaqla, mətnin anlaşıqlı, mənalı olmasına zəmin yaratmaq, nəticə etibari ilə onun koherensiyasını təşkil etməkdən ibarət olur.

Mətnin üst qatının komponentləri kimi koheziya növləri və vasitələri onun dərin qatlarındakı məzmununun önə çıxarılmasına koqnitiv proseslərin məhsulu olan koherensiyanın aydın şəkildə təqdimatına xidmət edir.

Ədəbiyyat

1. A.Məmmədov "Mətnin yaranmasında formal əlaqə vasitələrinin sistemi" Bakı, "Elm" 2001. 144s səh 25-58
2. Halliday, M.A.K. and Hasan, R., Cohesion in English. London: Loğman, (1976)
3. Галъперии И.Р. Текст как объект лингивистических иследований. Москва, 1981.

4. Contrastive Rhetoric: Cross-Cultural Aspects of Second-Language Writing. Cabridge, Cambridge University Press 1996
5. Halliday, M.A.K. "Dimensions of discourse analysis: grammar" in T.A.Dijk (1985) Handbook of Discourse Analysis vol 2 London: academic press, 1985
6. Hasan R. Grammatical cohesion in spoken and written English. Part II, London, 1968
7. I.R.Galperin "Stylistics", Moscow "Higher school" 1977 p.231-232
8. Ə.Abdullayev "Aktual Üzvlənmə; Mətn və diskurs." "Zərdabi" LTD MMC, Bakı 2011. Səh. 176-217
9. www.wikipedia.org

N.Hasanova
X.Zamanova

Ellipsis english

Summary

This article deals with one of the types cohesion – ellipsis. Here the types of ellipsis are singled out and studied. The peculiarities of ellipsis are analyzed on the basis of certain examples.In the article the main conception of elliptic sentences is also analized in English and Azerbaijani and noticed the thoughts of wellknown scientists and lingnists.

Н.Гасанов
Х.Заманова

Эллинтические придложения

Резюме

В етой статъе рассматривается один из видов когезии эллипсис. Здес выделяются и изучаются определенные виды эллипсиса. Свойства эллипсиса анализируются на базе конкретных применов. В статъе также анализируются основные концерсия эллинтические придложения в англиском и азербайджанском язык

Rəyçi: R.Cəfərov
filologiya üzrə fəlsəfə doktoru

MƏSMƏ MÜTƏLLİMOVA
OdlarYurdu Universiteti
mesmemutellimova@gmail.com

ŞEKSPİR SONETLƏRİNDƏ İŞLƏNMİŞ BƏZİ SİNTAKTİK ÜSLUBİ PRİYOMLAR VƏ ONLARIN TƏRCÜMƏDƏ QORUNUB SAXLANILMASI

Açar sözlər: Şekspir Soneti, sintaktik fiqurlar, poetik tərcümə
Keywords : Shakespearian Sonets,syntactical figures ,poetic translation
Ключевые слова : сонеты Шекспира,синтаксические фигуры, поэтического перевода

Teatr sənətinin qüdrətli ustası Vilyam Şekspir yaradıcılığı son dərəcədə şairanə bir keyfiyyətə malikdir. Ehtiraslar tərənnümçüsü,ürək ustası Şekspirin qüdrətli və parlaq istedadının məhsulu olan sonetlərində həyat hadisələrinə, insan ömrünə fəlsəfi baxış, hər şeyə qadir məhəbbətin əbədiliyi əsas motivlərdir. Şekspirdən öncə Con Milton,Tomas Qrey,Vilyam,Vordsvors kimi şairlərin sonet yazmış olmasına baxmayaraq, bu şer növü özünün ən yüksək zirvəsini Şekspir yaradıcılığında tapmışdır. V. Şekspir təxminən 1590-cı illərdə qələmə aldığı 154 sonetində dosta sədaqətinin, qadına mehr-ülfətinin, məhəbbətinin gözəl, yadda qalan bədii lirik lövhələrini yaratmışdır.Şairin sonetlər silsiləsinin gözəlliyi, məftunediciliyi ondadır ki, burda şerin dili ilə həyat, sevgi həqiqəti bəşəri duyğularla yoğrulmuşdur. Hər misranın arxasında şairin özü, sözü oxucu ürəyindən xəbər verir, onu düşündürür, narahat edir. Bax, sonetin ecazkarlığı, böyüklüyü də elə bundadır.

Başlıcası budur ki, sonetlər V.Şekspirin özü və sözü haqda oxucuda müəyyən təsəvvür yaradır, hər dəfə onları oxuduqca şairin mənəvi zənginliyinin dərin ideya-estetik, fəlsəfi duyğularının poetik ifadəsinə heyran olursan.

O, sonetlərində qeyri-adi, bənzərsiz bir gözəllikdən söhbət açmışdır. “Qara rəng gözəllik olaydı gərək” deyən şairin qadın gözəlliyini ilhamla vəsf etmişdir.

Gözəl sayılmazdı əvvəl qara rəng,
İndi gözəlliyə tək odur varis.
Sünilik hər yerdə adlanır qəşəng,
Təbii boyadan qalmayıb bir iz.

Sonetlər həmişə 14 misradan ibarət olmuşdur. Amma, Şekspir soneti eyni saylı misralardan ibarət olsa da, klassik İtaliya sonetinin düzümündən-quruluşundan fərqlənmişdir. Onun qafiyə sistemi belədir: abab cdcd efef gg.

Azərbaycan oxucusu isə Şekspirin sonetləri ilə 1955-ci ildən-sonetlərin istedadlı şairimiz Tələt Əyyubov tərcüməsinin ilk nəşrindən tanışdır. Ədəbi fikir tarixi-mizdə bu haqda maraqlı mühakimələr söylənmiş, tanınmış alim və ictimai xadim Cəfər Cəfərov “Vilyam Şekspir. Sonetlər və poemalar” (Bakı, 1964) kitabına yazdığı ön sözdə sonet tərcümələrini T. Əyyubovun ən yaxşı xidmətlərindən biri kimi qiymətləndirmişdir S.Mustafanın Şekspirdən etdiyi tərcümələr bütövlükdə uğurludur.

Orijinaldakı sonetlərlə S.Mustafanın etdiyi əksər tərcümələri müqaisə etdikdə bu fikrə gəldik: mütərcim ingilis sözlərini heç də Azərbaycan sözləri ilə əvəz etməmişdir. O, sonetlərdəki Şekspir "mən"ini, Şekspir ruhunu Azərbaycan şerinin gözəl deyiminə çevirmişdir. "...Şekspir poeziyadır, tapmaca, bilməcə deyildir. Ona görə də mütərcimin şair kimi hərəkət etmək qüdrəti olmalıdır" (V.Petrov).

Tərcümə zamanı orijinal mətndə olan dil vasitələri hədəf dildə olan dil vasitələri ilə əvəzlənir. Bu proses kortəbii deyil,şüurlu surətdə gedir.Tərcüməçi orijinaldakı elementləri həm məna,həm üslub baxımından tam əvəz edə biləcək vasitələrin tapılması yönündə axtarışlar aparır.

Aşağıdakı misala nəzər yetirək :
Why should false painting imitate his cheek?
And steel dead seeing of his living me?
Why should poor beauty indirectly seek
Roses of shadow since his rose is true? (sonet 67, 5-8)

Onun gül yanağı canlı çiçəkdir,
Sənət oğurluyub soldurur nədən?
Uydurma gözəllik nəyə gərəkdir,
Onun gözəlliyi həqiqət ikən? (tərc.edən S.Mustafa)

Sonetlər ənənəvi olaraq iki böyük qrupa bölünür – Sadiq sevgili(fair lord 1 - 126) və tutqun gözəl (dark lady 127-154). Sonetləri oxuyarkən ardıcıl olaraq bu surətlərə rast gəlirik Sadiq sevgili məzmunlu sonetlərdə iki gəncin bir birinə dərin məhəbbəti tutqun gözəllə bağlı sonetlərdə isə bir gəncin cavabsız sevgisi nakam məhhəbbəti təsvir olunur Lirik qəhrəman örəyindəki idarə edilə biməyən hislərlə öz ağlının mühakiməsi arasında ümidsiz bir vəziyyətdə qalır Şairin emosiyaları sevgi və qəzəb paxıllıq və xəsislik arasında tərəddüd edir Pyeslərinin çoxunda olduğu kimi sonetlərdə də xoşbəxt olmayan sonluq gerçəkləşməyən arzular gəncin ona iztirab verən qisqanclıqdan doğan iztirabın təsviri var(sonet 79- 86).

Tutqun gözəllə bağlı olan sonetlər lirik qəhrəmanın gözəl olduğu qədər etinasız olan bir qıza qarşısıalınmaz məhəbbət hisləri ilə başlayır,sondasa qəhrəmanın bu ehtirası sağalmaz bir xəstəliyə çevrilir .Bu xəstəlik yalnız gözəlin baxışı ilə sağalır.

İngilis dilində də nitq hissələri 2 əsas funksiya daşıyır 1) sintaktik semantik funksiya 2)üslubi funksiya

Üslubi funksiyanın mahiyyəti ondan ibarətdir ki,cümlədə sözlərin yeri dəyişdikdə sözün sintaktik funksiyası və cümlənin mənası dəyişmir,əksinə bu və ya digər üzv aktuallaşdırılaraq daha qabarıq nəzərə çarpdırılır .

a) Xəbərin inversiyası :
Nor marble, nor the gilded monuments
Of princes <u>shall outlive his powerful</u> (sonet 55, 1-2)

Şahların surəti - mərmər heykəllər
Dözümdə şerimə bərabər olmaz. (t.e - S.Mustafa)

Göründüyü kimi bu hissədə xəbərin yeri dəyişilərək məna qüvvətlənmişdir.

Şekspir ingilis dilinin sintaktik fiqurlarından,bədii təsvir vasitələrində ustalıqla istifadə edərək sonetlərə yeni rəng qatmışdır.

b) Məna paralelizmi :

Even in the eyes of all posterity
That wears this world out to the ending doom
So till judgement that yourself arise
You live in this and dwell in lovers eyes (sonet 55, 11-14)

Ölümün gözünə dik baxa-baxa
Hər cür ədavəti keçib aşarsan,
Ta qiyamət günü çatana qədər
Mənim şeirlərim seni hifz edər. (S.Mustafa)

Məna paralelizmi zamanı söz həm həqiqi,həm də məcazi mənada işlədilir.

c) Klimaks – söz və ifadələrin hər birinin özündən əvvəlkinə nisbətən semantik cəhətdən daha tam və dolğun, daha təsirli olması :

Tired with all these , from these would i be gone
Save that, to die, i leave my love alone (sonet 66, 13-14)

Hər yerdə saxtalıq, hər yerdə zillət.
Ölüm istəyirəm, çarə budur, bax,
Səni tək qoymağa qıymıram ancaq.

'Save that', 'to die', 'leave alone' – sonetdə sinonimlər kimi işlənmişdir. To die əvvəlki i be gone ifadəsinə nisbətən güclü, leave alone isə əvvəlkilərdən daha güclü şəkildə təsvir olunub.

d) Sadalama – bir birilə zəncirvari şəkildə bağlı olan əşyaları ,obyekləri bir birinə bağlayır :

Tərcümənin özünəməxsus amillərindən biri də ayrı ayrı müəlliflər tərəfindən tərcümə edilmiş mətnlərin də bir-birindən üslub baxımından fərqlənməsidir. Hər bir müəllifin öz dəsti-xətti və öz üslubu onun tərcümələrində də özünü göstərir. Misallara nəzər yetirək:

Lo in the orient when the gracious light
Lifts up his burning head, each under eye
Doth homage to his new appearing sight
Serving with looks his sacred majesty (sonet 7, 1-4)

Burada həyat ilə Günəşin hərəkətinin metaforik müqayisəsi vardır .

Sabir Mustafanın tərcüməsi :
Od qızı qaldırıb odlu başını
Qızıl beşiyindən durar hər səhər.
Yer üzü görəndə qəlb sirdaşını
Ona məhəbbətlə səcdə eliyər.

Mütərcim od qızı ,odlu baş kimi epitetlərdən istifadə edərək orijinalın əsas məzmununu dəqiq verə bilmiş Şekspir üslubunu qoruyub saxlaya bilmişdir.

130-cu sonetdə şair suspens dən istifadə etmişdir.Azərbaycan dilində bu üslubi-vasitə tərdid adlanır.Şair deyəcəyi fikri yubadaraq şerin sonunda oxucuya çatdırır.Şekspir sonetdə bu fiqurdan məarətlə istifadə edərək oxucunu intizarla mətni sonacan oxumasını təmin edə bilmişdir:

My mistress eyes are nothing like the sun
Corol is far more red than her lips' red
If snow be white , why then breasts are dun
If hairs be wires , black wires grow on her head
And yet, by heaven I think my love as rare
As any she belied with false compare

Günəşə bənzəmir yarımın gözü,
Mərcan tək al deyil al dodağı da.
Zülfü də sünbülə oxşamır, düzü,
Yoxdur sinəsində qar ağlığı da
O heç geri qalmaz, inanıram mən,
Yalan təşbehlərlə bəzənmişlərdən. (Sabir Mustafa)

Tərcümə prosesində mətn dəyişikliyə məruz qalır.Tərcümə prinsiplərinin əsas məqsədlərindən biri də iki dil formasının əvəzlənməsi ilə müşayiət olunan tərcümə prosesində məna eyniliyinin maksimum səviyyədə qoruyub saxlamaq,mətnlər arasında qanunauyğun əlaqələri müəyyənləşdirməkdir.Sonetdə gördüyümüz kimi yarın gözünün-Günəşlə,saçlarının-sünbüllə ,sinəsini-qar ağlığı ilə müqayisəsi tərcümədə də olduğu kimi qorunub saxlanılmışdır.

Şekspir sonetləri üslubi vasitələrlə çox zəngindir.Şekspir sonetlərinin yığcamlığında böyük fikir ifadə etməsi,çox şaxəli məna çaları ilə konkretliliklə mücərrədliyi ümumiləşdirilmiş şəkildə poetik dilin üslubi imkanlarından istifadə etməsi onun son dərəcə unikal qabiliyyətini nümayiş etdirir.

Ədəbiyyat

1. Vilyam Şekspir. Seçilmiş əsərləri. İki cilddə. II cild. "Öndər nəşriyyat", Bakı, 2004, 304 səh.
2 ." The sonnets William Shakespeare" , published 2005.
3. K.Cəfərova.Şeir tərcüməsinin sintaktik – üslubi məsələləri.Bakı Slavyan Universiteti,2004
4. Bəylərova A. M. Azərbaycan bədii dilində sintaktik- üslubi vasitələr/A. M. Bəylərova . - 2007
5."Sonetlər və poemalar" V.Şekspir,tərc.edən T Əyyubov, Bakı Azərnəşr. 1964
6. Abbasquliyev T.İngiliscədən Azərbaycan dilinə tərcümənin qrammatik əsasları.Baki – Elm, 1971- 144 səh.

M. Mutallimova

W. Shakespeare's sonnets and their analysis

Summary

In this essay you can find great English poet W. Shakespeare's sonnets and their analysis. The sonnets are traditionally divided into two major groups: the fair lord sonnets (1-126) and the dark lady sonnets (127-154). The narrator is tormented as he struggles to reconcile the uncontrollable urges of his heart with his mind's better judgment, all the while in a desperate race against time. Overall, Shakespeare wrote 154 sonnets and created the best samples in this genre. These sonnets were translated into Azerbaijani language adroitly with keeping its original impression.

М.Муталлимова

Сонеты великого поэта Шекспира и его содержание

Резюме

В данной статье обсуждается сонеты великого поэта Шекспира и его содержание. Он описывал необычную красоту в собственных сонетах. Сонаты в основном были объединены в две группы - верная любимая (1- 126) и темная Леди(127 -154). В общем Шекспир написал 154 сонаты и создал самые лучшие образцы этого жанра. Эти произведения были переведены Азербайджанскими поэтами с мастерством, максимально соответствия оригиналу.

Rəyçi: B/m Zemfira Abbasova

ƏZİZƏ MƏMMƏDOVA
ADU

REKLAM MƏTNİNİN LEKSİK ASPEKTİ

Açar sözlər: Fransız brendi. Reklam sloqanı. Dizayner. Vivagel. Contrex. Breguet. Sisley.
Key words: The French brand. The advertising slogan. Designer. Vivagel. Contrex. Breguet. Sisley.
Ключевые слова: Французский бренд. Рекламный слоган. Дизайнер. Вивагель. Контрекс. Брегет. Сислей.

Müasir dövrdə reklam sözü və anlamı gündəlik həyatımızda dərindən kök salmış və cəmiyyətin həyat tərzini əks etdirməklə bir növ müasir həyatın " dəyərləri, qadağaları, davranış normalarının inkişfı haqqında seysmoqrafa" çevrilmişdir [2: 12]. "Reklam " sözü latın mənşəli "reclamare" felindəndir, "qışqırıb çağırmaq, haylamaq" deməkdir və aşağıdakı mənalara malikdir: 1) istehlakçılara, tamaşaçılara mallar, göstərilən xidmətlər haqqında məlumat vermək, və s. Məs.: *ticarət reklamı*; 2) bu tipli informasiyanın yayımlanması. Məs.: *telereklam.* Məlum olduğu kimi reklam yeni mallar və xidmətlər haqqında, həmçinin reklam edilən malı almaq, alıcını inandırmaq üçün alət olan informasiya vasitəsidir.

Reklam müraciətinin ən vacib elementi, qısa və tutumlu tərzdə ticarət təklifinin təkrarolunmaz yazilmış şüarıdır (sloqanıdır). Hesablamalar göstəərir ki, insanlar reklam mətnlərindən beş dəfə çox yazilmış şüarları (sloqanlaı) oxuyurlar. Buna görə də istehlakçı onu şəxsən maraqlandıran hər şeyi görməlidir. Reklam sloqanı, qısa şüar və ya çağırış formasında olmalıdır. O, malın keyfiyyətini əks etdirməli, xidmət sahələrini, firmanın fəaliyyət istiqamətini birbaşa və ya abstrakt formada göstərməlidir. Reklam sloqanı aşağıdakı funksiyaları yerinə yetirir: a) istehlakçıların diqqətini cəlb etmək; b) firmannın nüfuzunu qaldırmaq; c) satışın həcmini artırmaq, və s. Alimlər belə hesab edirlər ki, reklamın qavranılmasını və onun düzgün başa düşülməsini asanlaşdırmaq üçün onun komponentlərinin təhlilini aparmaq gərəkdir. T.V. Karamışova və A. İ. İvançenko hesab edirlər ki, reklamın əsas komponentləri aşağıdakılardır: a) mətn komponenti – söz (əksər hallarda xüsusi isim); b) cümlə - (bir qayda olaraq reklam süarı); c) təsvir etdici mikromətn; ç) təsviretdici komponent (fotoşəkillər, kollajlar v.ə s. sonuncular əsas və köməkçi reklam məhsullarına bölünür); d) implisit sosiomədəni komponent. [1:103].

Reklam məhsullarının mətn komponenti üzərində dayanaq. Biz aşağıdakı fransız jurnallarının reklam mətnlərinin əsasında bəzi təhlillər apardıq-"Express","Label France", "Le français dans le monde" və aşağıdakı xüsusiyyətləri aşkarladıq:

* reklam mətnləri həmişə çox lakonikdir, asanlıqla yadda qalır və 4-10 sözdən ibarət olur. Məs. "Avec Carrefour, je positive" (supermarket *Karfur*), "Toute la légèreté d'une brume pour un volume naturel" (həcm verici *Timotey* suyu);

* reklam mətni öz informativliyi ilə insanı daha tez inandırır: "Tout dire sans un mot" (Lankom, "Poem" adlı ətir), "Il suffit de changer peu de choses, pour se

sentir bien" (Nana, alt paltarı), "Rendre la pierre aussi dynamique que l'argent, rendre l'argent aussi solide que la pierre" (Kənd təsərrüfatı Kredit Bankı);

* reklam mətninin cəzbediciliyi və maraq doğurma qabiliyyəti: bu keyfiyyət istehlakçının diqqətini cəlb etmək üçün vacibdir ki, onu bu malı almağa meylli etsin: "Quelque chose en moi d'éternel" (Givenchy, Organza ətriyyatı), "Pour que demain ait toujours du goût" (*Paysan Breton* – kərə yağı);

* üslubi vasitələrin işlədilməsi: **metafora** - "Venez vitaminer votre français!", **təkrar** - "ça fait bien ou ça fait mal" (*Syntol*, dərman), "De plus en plus forts, de plus en plus longs" (*Garnier*, şampun) ; **müqayisə** - "Conforama, le pays où la vie est moins chère"); **retorik sual** - "En panne d'argent cash à Paris?" (*Western Union*, pul köçürmələri), və digərləri [5:54].

* reklam mətnlərinin hazırlamasında fonetik vasitələrin işlədilməsi: a) **alliterasiya**- "Chic, choc, chouette, dimanche", "Coca-Cola"), **b) elan** - "Michigan. Toujours devant" (bağ mebeli), c) **qafiyə və ritm** - "Mettez du fruit dans votre vie" (*Andros*, mürəbbə), "Le plus pratique des sacs plastiques" (zibil torbası), "Découvrez l'art du café. Entrez en amateur, dégustez en connaisseur" ("Jacques Vabre" kofesi), "Carapelli. Tout en elle chante l'Italie" (*Carapelli*, zeytun yağı), "La vie est confortible! (Convertible mebel evi), və s.

Fransız reklamında bu xalqın xarakterik xüsusittətləri, o cümlədən də onun yumor və zarafata meylliliyi öz əksini tapmışdır. Bu xüsusiyyət kalamburlarla (söz oyunları) bağlı olan reklamlarda öz əksini tapır. "La couleur, c'est l'Avi" (*L'Avi*, rəsm əsərləri) reklam mətnini "La couleur, c'est la vie" kimi oxumaq və başa düşmək lazımdır; "La forme, je la dors" reklam mətnini "La forme, je l'adore" kimi oxumaq və başa düşmək lazımdır.

Reklam verənlər daha çox motiv yaratmaq üçün frazeoloji vahidlərə, atalar sözləri və zərb məsəllərə müraciət edirlər [6: 115]. Bu məqalə çərçivəsində biz yalnız aşağıdakı atalar sözləri və zərb məsəli modelləri əsasında yaradımış dörd reklam sloqanından danışacağıq:

1. « **Qui vivra, verra** » - « Yaşayarıq görərik » modeli əsasında "Qui goûtera, croira" (*Suze*, vin); Dadına baxan inanar (*Suze*, içkisi, şərabı - mədənin dostu) reklam sloqanı yaradılıb.

Ehtimal olunur ki, *Suze* sözü bu içkini icad edənin baldızı Süzann Qasparın, və ya İsveçrədə axan çayın adı ilə bağlıdır.

Sarı rəngli, tərkibində 15° (İsveçrədə 20°) spirt olan, bir litrə 200 qr. şəkər qarışdrılmış fransız brendi. Bu brendin qammaları :

1) Orijinal Suze : acıçiçək və ətirli otlar ; 2) Qırmızı giləmeyvəli Suze: çiyələk, qara tut və qaragilə ; 3) Sitruslu Suze : narıncı, mandarin, limon.

2. « **Le chien aboie, la caravane passe** » -« İt hürüyər karvan keçər » modeli əsasında « Les chiens aboient, Lee Cooper passe » - « İtlər hürüyür, Li Kuper keçib gedir » reklam sloqanı yaradılıb. Bu firma əvvəlcə, 1908-ci ildə, Londonda paltar, əsasən bu dövrdə dəbdə olan kombinezonlar, Birinci Dünya müharibəsi başlayanda hərbi forma istehsal edir. 1946-cı ildə firmanın adı dəyişdirilir və "Lee Cooper" adlanır. 50-ci illər və sonrakı demoqrafik partlayış cins parçadan "ev, bağ və iş" üçün olan paltarları dəbə gətirir və bu brend Avropada öz yerini tutur. Hal-hazırda cins kombinezon istehsalçıları Lu Duayen, Jan Şarl dö Kastelbajak Ora İto, Pako

Rabann, Cayls Dikon və başqaları kimi məşhur dizayner, aktyor, musiqiçilərlə əməkdaşlıq edirlər.

3. « **L'appétit vient en mangeant** » - « İştah diş altındadır » modeli əsasında « L'appétit vient avec Vivagel » (*Vivagel*, produits alimentaires); İştah Vivajellə gəlir (Vivajel, dondurulmuş qida məhsulları – xüsusilə bütün balıq növləri barədə deyilir) reklam sloqanı yaradılıb.

4. « **Aide-toi, le ciel t'aidera** » « Özün – özünə kömək et, Allah sənə kömək edər" modeli əsasında - « Aide-toi, contrex t'aidera » - « Özün – özünə kömək et, kontreks (mineral su) sənə kömək edər" reklam sloqanı yaradılıb.

Bədii əsərlərin adlarına və ya məşhur söyləmlərə vurulan eyhamlar da alıcıların diqqətini cəlb edir : Məşhur fransız yazıçısi Stendalın "Le Rouge et Le Noir" ("Qırmızı və Qara") əsərinin modeli əsasında "Le rouge et le soir", ("Qırmızı-"dodaq boyası"- və axşam") reklam sloqanı yaradılıb ; Marsel Prustun "A la recherche du temps perdu" ("İtirilmiş vaxtın axtarışında") əsərinin modeli əsasında "A la recherche du teint perdu"("İtirilmiş çöhrənin axtarışında") reklam sloqanı yaradılıb və digərləri.

Reklam verənlər istehakçının diqqətini cəlb etmək üçün həm də bədii əsərlərdən parçalardan istifadə edirlər. Məs. Aleksandr Dümanın " Qraf Monte Kristo ", əsərindən -"La montre de Danglars, chef-d'oeuvre de *Breguet*, qu'il avait remontée avec soin la veille (...) sonna cinq heures et demie du matin" (Məşhur Breqet qol saatları ") reklam sloqanı.

Əksər hallarda məhsulu təqdim edən firmanın adı reklam sloqanının əsas hissəsinə çevrilir və alıcının diqqətini cəlb etmək üçün lap əvvəldə durur: "Eau de Cologne Hermès. Le plaisir après le plaisir"- "Hermes Odekolonu. Keyfdən sonra keyf ", "Trussardi Skin. Le nouveau parfum féminin"- Trusardi Skin. Qadınlar üçün yeni ətir", "San Pellegrino. Vivre en Italien" – İtalyan sayağı yaşamaq (San Pellegrino, mineral su); "Quand c'est bon, c'est Bonduelle" – Dadlı hər bir şey, Bondueldir (Bonduel – konservləri), və bir çoxları.

Fransız reklam mətninin əsas hissələrindən biri də onun başlığı ilə bağlıdır. Söhbət istehlakçını reklam sloqanına alışdırmaq və onu şirnikdirməkdən gedir: "La beauté a sa légende. Qui mieux qu'une femme pouvait révéler la beauté des femmes" (Simona Perel, alt paltarı), və s.

Məşhur şəxsiyyətlərin adları da fransız rekkamında öz əksini tapır: "Création Hubert, Isabelle d'Ornano pour Sisley" (Sisley, ətir suyu "Axşam vurulan ətir suyu"), və s.

Fransız reklamı da digər qərbi Avropa dövlətlərinin dili kimi ingilis dilinin təsirinə məruz qalmışdır: "Bye bye monotonie" (*Luminarc*) –"Əlvida yeknəsək həyat" (Luminark çini qabları); "Home sweet home", en français... ça se dit TV5", fransızca TV5 televiziya kanalı barədə deyilir. Reklam mətnlərində ingilis sözləri reklama yenilik gətirir, onu daha da müasir və cəlbedici edir, bu da fransız dilində işlədilən ingilis alınmalarının intensivliyindən xəbər verir [4:16].

Sloqanlar reklamın əsas elementlərindən biridir [7-32]. Onlar deyiləndən daha çox məna ifadə edirlər, onlar nə həqiqi deyil, nə də yalan, lakin hamı tərəfindən tanınan və qəbul ediləndirlər. Məs. : "Mettez un tigre dans votre moteur"- Mühərrikinizə pələng əlavə edin (mühərrik yağları).

Bəzən daha çox inam və dəyanət yaratmaq üçün reklam verənlər feilləri məsdər formasında işlətməkdən belə çəkinmirlər : "Nourrir et revitaliser les cheveux secs et très secs"- Quru, çox quru saçları qidalandırmaq və həyata qaytarmaq" (Karite şampunu).

Biblioqrafiya

1. Карамышева Т.В., Иванченко А.И. Реклама как компонент межкультурной коммуникации // Уроки французского языка. – СПб: КАРО, 2001. – С. 105-136.
2. Розенталь Д.Э., Кохтев Н.Н. Язык рекламных текстов. М.: Высшая школа, 1989.-180с.
3. Bally Ch. Traité de stylistique française. Paris: Klincksieck, 2003. - 331p.
4. Berthelot- Guiet K. Publicité: une parole quotidienne ? // Communication et langages, № 117, 1998. p. 12-27.
5. Djabbarov R. Dj. Lexicologie du français contemporain. Bakou 2013. 246 p.
6. Gresillon A., Maingueneau D. Polyphonie, proverbe et détournement, ou: un proverbe peut en cacher un autre. Langages, 73, 1984, p. 112-125.
7. Greven H. La langue des slogans publicitaires en anglais contemporain. — Publications des universités de Rouen et du Havre, 1982. — 388p.
Nouveau Petit Robert. Dictionnaire alphabétique et analogique de la langue française/ Sous la direction de Rey - Debove J. et Rey A. — Paris: Dictionnaires le Robert, 2004. 2947 p.
Azərbaycanca-Fransızca lüğət (R. C. Cabbarovun redaktorluğu ilə, 2-ci nəşr). Bakı, 2011. 620 s.
Fransızca-Azərbaycanca lüğət (ikinci nəşr, R. C. Cabbarovun redaktorluğu ilə), Bakı, 2006. 459 s.
Reklamla bağlı xüsusi nəşrlər : Guide Sherpa, Huit à Huit, Bière Magazine, Cuisine Actuelle; Cuisine Maison; Madame Figaro, Elle à table, Femme Actuelle.
İnternet ünvanları:
www.imdb.com/title/tt1087829/combined
www.jstor.org/pss/286184
www.leecooperjeans.com/
www.contrexinc.com

Aziza Mammadova

Lexical aspects of the advertising text

Summary

The article, called "Lexical aspects of the advertising text", features an analysis of the lexical aspect of the French advertising text. One of the main parts of the French advertising text is the title where initiations are used to impress the consumer, as in the text "La beauté a sa légende. Qui mieux qu'une femme pouvait révéler la beauté des femmes", etc. In addition, names of the famous people are used in the French advertising texts as "Création Hubert, Isabelle d'Ornano pour Sisley", etc.

The development of the modern French advertising text is greatly influenced by the English language. The article also studies several proverbs used in advertising texts to impress the consumer.

Азиза Маммадова

Лексический аспект рекламного текста

Резюме

В данной статье под названием «Лексический аспект рекламного текста» изучается вопрос лексического аспекта французского рекламного текста. Одна из основных частей французского рекламного текста связана с заглавиями, где речь идёт об инициации и привлечение потребителя к рекламным объявлениям, типа как: “La beauté a sa légende. Qui mieux qu’une femme pouvait révéler la beauté des femmes”, и тд. Кроме этого имена знаменитостей также находят свое отражение во французском рекламном тексте, типа как: “Création Hubert, Isabelle d’Ornano pour Sisley” и тд. Сегодняшний французский рекламный текст развивается под влиянием английского языка. В этой статье изучаются также некоторые пословицы и поговорки, использованные в рекламных текстах, чтобы произвести необходимые впечатления на потребителя.

Rəyçi: Rəşid Cabbarov
filologiya elmləri namizədi, dosent

NAZLI ASLAN

BİLİNQVİZMİN NÖVLƏRİ

Açar sözlər: sosiolinqvistika, reproduktiv, bilinqv, uzus, üslub
Ключевые слова: социолингвистика, репродуктивный, билингв, узус, стиль
Key words: sociolinguistics, reproductive, bilingual, language usage, style

"Bilinqvizm" anlayışı xarici formasından göründüyü kimi, *bi* "ikili" (latın) və *lingua* "dil" sözlərindən əmələ gəlmişdir. Başqa sözlə desək, bilinqvizm ikidillilik, yəni insanın iki dilə yiyələnməsi deməkdir. Müasir dövrdə bilinqvizm yeni proses deyildir, geniş yayılmış bir prosesdir. Məsələn, Ukraynada insanların əksəriyyəti həm ukrayna dili, həmdə rus dilini mənimsəmişdir. İsveçrədə isə dörf rəsmi dil vardır: alman, fransız, italyan və retoroman dilləri. Bir ölkədə iki dildən çox dilin funksionallaşması polilinqvizm və ya çoxdillilik adlanır.

İkidillilik hadisəsi həm qədimdə, həm də müasir dövrdə geniş yayılmışdır. "Bununla belə biz hələ də ikidillilik haqqında ümumi təlimə malik deyilik ki, onun bütün dünyada yayılmasını və sonsuz müxtəlif formalarını əhatə etsin" (8,13). Göründüyü kimi, bu barədə nə qədər də yazılsa da bu məsələ bağlı hələ də yazılar yazılmaqdadır.

Psixoloqlar üçün bilinqv fərd böyük maraq doğurur. Onlar bilinqv fərdlərdə əqli bacarıqlar və ya əqli xəstəlikləri təsvir etməyə cəhd göstərirlər. Linqvist və psixolinqvistlər bu məsələyə indi maraq göstərməyə başlamışlar. Onu da qeyd etmək lazımdır ki, bilinqv fərdlər üçün çoxkodlu uzus normal dil davranışıdır, belə ki, ayrı-ayrı dillər kod şəklində beyinə yerləşdirilir. O da maraqlı faktdır ki, bütün danışanlar müxtəlif məqsədlərdə müxtəlif üslublardan istifadə edir (1,55). L.B.Şerba müqayisəyə böyük əhəmiyyət verir. Müqayisə vasitəsilə şüurluluq artır, müxtəlif ifadə formaları müqayisə edərək insan işarəni fikirdən ayırır (9).

Bilinqvizmi araşdıran tədqiqatçılar qarşısında belə bir sual doğur: ikidilli fərd bir və ya iki sistemə malikdirmi? Bu sualla əlaqədar olaraq U.Vaynrayx, S.Ervin və Ç.Osqud bilinqvizmi müəyyən şkala kimi nəzərdən keçirməyi irəli sürmüşlər. Burada iki dilin bir sistemdə birləşməsi kimi özünü göstərən qarışıq bilinqvizm və iki dil sisteminin ayrı-ayrılıqda mövcud olan koordinativ bilinqvizm fərqləndirilməlidir. Transformasion qrammatikada qarışıq bilinqvizm bir-biri ilə bağlı olan vahid semantik baza iki çıxış və iki giriş mexanizm kimi səciyyələnir. Koordinativ bilinqvizmdə isə iki semantik baza vardır ki, bunların hər biri giriş-çıxışlı konkret dil sisteminə malikdir.

Dil: mənimsənilmə qaydası və işlənmə

Zaman aspekti	**Dil**	**Simvol**
Diaxron	Birinci dil İkinci dil	L1 L2
Sinxron	Birinci dil İkinci dil	P1 SL

Fərd üçün birinci dil – doğma dildir, bu dil eyni zamanda da daha çox istifadə olunanıdır, ikinci dil istifadə baxımından ikinci, yəni köməkçi dildir. Lakin bəzi hallarda doğma dil ev və dostlar arasında ünsiyyət səviyyəsinə enir, digər sferlərdə isə ikinci dil yuxarı səviyyəyə qalxaraq yad kollektivdə ünsiyyət dili olur. Bu vəziyyət imiqrant və məcburi köçkünlər qrupu üçün səciyyəvidir. Bunun üçün dilin mənimsənilmə qaydasını – diaxronik aspektini indiki işlənmə dərəcəsindən – sinxron aspektindən fərqləndirmək lazımdır.

A.Mekelli bilinqvizmlə bağlı tədqiqatları göstərir ki, ikinci dilin erkən öyrənilməsi nitqə cavabdeh olan beynin hissəsinin inkişafına köməklik göstərir. Bu effekt ikinci dil beş yaşına qədər olan mərhələdə daha yaxşı görünür.

Tədqiqatlar göstərir ki, ikidilli insanlarda beynin gicgah hissəsinin aşağı bölgəsində daha çox boz maddə əmələ gəlir. İkinci dil nə qədər gec öyrənilməyə başlanılsa, bir o qədər də bu xüsusiyyət özünü göstərir. Məhz boz maddə informasiyanın təhlilinə cavabdehdir. Beynin boz maddənin plastikliyi hamıya məlumdur, ancaq beyində bu maddənin dəyişmə prosesləri hələ də öyrənilməmiş olaraq qalır. Yeni nəticələr göstərir ki, ikinci dilin əsasən, erkən yaşlarda öyrənilməsi beynin strukturuna təsir göstərir.

A.Makellinin tədqiqatlarında ancaq bir dili (ingilis dilini) bilən 25 ingilis, erkən yaşlarda ikinci dili öyrənən 25 ikidilli ingilis iştirak etmişdir. Nəticədə məlum olmuşdur ki, erkən yaşlarda dil öyrənən iştirakçılarda boz maddə daha çoxdur, bu da beynin sol yarımkürəsində özünü büruzə verir.

Bilinqvizmin formalaşması səbəbi kimi əsasən, siyasi və ya tarixi hadisələrin olmasını, eləcə də müxtəlif ölkələr arasında iqtisadi, siyası və mədəni əlaqələrin möhkəmlənməsini göstərirlər.

Hər bir bilinqv gündə bir neçə dəfə dilini "dəyişməli" olur, çünki şəraitdən asılı olaraq bilinqv bir dildən digərinə keçmək məcburiyyətində qalır. Məhz bu halda dil kodlarının dəyişməsi halı baş verir. Bəzi dilçilərə görə, bilinqv iki dildən birində daha çox danışarsa, bu onun ana dili hesab olunmalıdır. Əslində hər hansı bir dildə çox danışmaq və ya onu yaxşı bilmək hələ də o dilin ana dil olduğuna dəlalət etmir. Məsələn, əgər şəxs imiqrandırsa və ya azsaylılara mənsubdursa, o məktəbdə və ya digər sosial-siyasi yerlərdə doğma ana dili ancaq məişət səviyyəsində öyrənərək bu dildə aydın danışa bilməyəcək. Beləliklə, onun üçün birinci dil onun üçün doğma olmayan dil olacaq (2,177).

Bilinqvizm çox vaxr diqlossiya ilə qarışdırılır, lakin diqlossiyada fərqli olaraq, bu iki müxtəlif dili mənimsəmə deyil, bir dilin iki ərazi dialekti və ya iki tarixi variantına yiyələnmə deməkdir. Məsələn, diqlossiyaya misal olaraq ingilis dilinin şotland və uels variantına yiyələnməsini göstərmək olar.

Uşaq bilinqvizminə çoxlu sayda tədqiqatlar həsr olunmuşdur. Belə güman edilir ki, iki dilə eyni dərəcədə yiyələnmənin ilk şərti ikidilli ərtaf mühitdə yaşamaqdan ibarətdir. Uşaq nə qədər erkən iki dili qavrayacaqsa, o qədər də tez o, hər iki eyni dərəcədə mənimsəyəcək, biri digərini üstələməyəcək. Düzdür, bu zaman valideynlərin uşağın tərbiyəsində böyük rolu vardır. Valideynlər hər iki dildə ünsiyyəti balanslaşdırmalıdır.

Qarışıq ailədə hər iki dildə ünsiyyəti balanslaşdırmaq uşağın hər iki dili öyrənməsində problem törətməməsi üçün uşaq hər iki dilə eyni vaxtı ayrımalıdır. Ən geniş yayılmış variant "bir valideyn – bir dil" prinsipidir. Əgər ailə başqa dövlətə

köçübsə, valideynlər uşaqları ilə doğma dildə danışmalıdır, belə ki, xarici dildə o, cəmiyyətdə danışacaq.

İndi isə bilinqvizmin növlərinə nəzər salaq. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, təbii və süni bilinqvizmi fərqləndirmək lazımdır. Təbii bilinqvizmdə insan iki dili anadan olandan yiyələnir, bilinqv sferdə yaşayır, süni bilinqvizmdə birinci dildən sonra ikinci dili yiyələnmə prosesi gedir. "Təmiz" bilinqvə rast gəlmək çətindir, bir çox hallarda bir dil daha məqsədəuyğundur, danışan bu dili gündəlik danışıq üçün istifadə edir, ikinci dili isə situasiya tələb etdikdə işə yarayır.

Bundan başqa, bilinqvizmi digər meyarlarla da təsnif edirlər. Məsələn, dilə yiyələnmə səviyyəsinə görə: subordinativ (bilinqv bir dili digər dilə nisbətən yaxşı bilir) və koordinativ (və ya "təmiz", insan müxtəlif dilləri eyni dərəcədə bilir). Dillərin işlədilməsinə əsasən bilinqvizm aktiv (hər iki dil müntəzəm olaraq işlədildikdə) və passiv (bir dilin işlədilməsi digərini üstələdikdə) olur.

Bundan əlavə, subordinativ bilinqvizmin ikinci dilə yiyələnmə dərəcəsinə görə reseptiv, reproduktiv və produktiv olaraq bölünür. Reseptiv bilinqvizmdə subyekt qeyri-doğma dili anlamağa qadirdir və onun tərkibini doğma dilə çevirə bilir. Reproduktiv bilinqvizmdə danışan qeyri-doğma dildəki nitqi eşidib həmin dildə danışa bilmək bacarığını nəzərdə tutur. Produktiv bilinqvizm müxtəlif dillərdə düşünmək və danışa bilmək bacarığıdır.

Bəzən belə bir sual doğur – tərcüməçi bilinqvdirmi? Düzdür, bu anlayışlar eyni dərəcədir, belə ki, tərcüməçi bilinqvdir, lakin sünidir. Hər hansı bir bilinqv tərcüməçi ola bilməz, belə ki, dili bilməkdən əlavə digər bacarıqlara da yiyələnmək lazımdır. Bu zaman tərcüməçini səciyyələndirən bilinqvizmin ayrıca bir növünü də qeyd edirlər. Bu kombinator bilinqvizmdir ki, insan hər iki dildə olan ifadəni müqayisə edərək tərcümə zamanı optimal variantı seçməyi bacarmalıdır.

İkidillilik müasir cəmiyyətdə aktualdır və geniş yayılmış bir hadisədir. Onun tədqiqinə bir çox əsərlər həsr olunmaqdadır.

Bilinqvizm çoxaspektli problem olduğundan müxtəlif elmlərin öyrənmə predmetidir, hər biri də onu müxtəlif cəhətdən şərh edir.

Bilinqvizm dilçilikdə də öyrənilir. Dilçilik bu hadisəni mətnlə əlaqəli nəzərdən keçirir. Bu hadisə sosiologiyanın tədqiqat predmetidir, burada davranışla bağlı və ya cəmiyyətdə bilinqv fərd və ya qrupların yeri kimi əhəmiyyətli məsələlər araşdırılır. Psixologiya bilinqv fərdi nitqi əmələ gətirmə mexanizmləri baxımından və nəhayət, nitq mexanizmi və mətn mexanizmi arasında münasibət pozisiyasından nəzərdə keçirir. Psixoloji və sosioloji səciyyələrin məcmusu kimi olan bilinqvizm sosial psixologiyanın predmetidir. Hesab edilir ki, bu elmlər bilinqvizmin öyrənilməsi ilə birbaşa bağlıdır.

Bəzən bu modellərin bilinqv fərdin şüur və ya beynində olması barədə psixoloji şahidlik varmı sualı doğur. Diferensial semantik testlərin nəticələri bu fərziyyəni təsdiqləyən eksperimental şahidliyi ortaya çıxarır. Belə düşünmək olar ki, qarışıq bilinqvizm vahid konseptual-semantik sistemlə səciyyələnir, yəni bir dildə olan sözdəki məna dəyişikliyinə digər dildə olan sözdəki məna dəyişikliyi uyğun olmalıdır. Lakin denotativ məna – konseptual və ya koqnitiv asanlıqla dəyişə bilməz, belə testlər sözdəki konnotativ – assosiativ və ya emosional məna dəyişikliklərinə əsaslanmalıdır. Koordinativ bilinqvizm üçün belə dəyişikliklər barədə danışmaq müm-

kün deyil, belə ki, bu tip eksperimentlərin nəticəsi bilinqvizmin iki tipi arasında olan dixotomiyanı möhkəmləndirir.

İkidilliliyin təyin olunması da fikirlərə rast gəlinir. Məsələn, Y.D.Deşeriyev qeyd edir ki, ikidillilik və ya bilinqvizm sadəcə iki dilə yiyələnmə və ya bu dildə danışmaqdır (7, 23). Eyni fikrə V.A.Avrorin də də rast gəlinir: "İkidillilik iki dilə azad yiyələnməkdir. Başqa sözlə desək, ikidillilik ikinci dildəki biliklərin birinci dildəki biliklərə yaxınlaşmaqla başlayır" (Аврорин В.А. Наука, 2000).

İkidillilik haqqında digər nöqteyi-nəzəri T.Vaynrayx və E.M.Vereşaqinanın əsərlərində görmək olar. Onlar belə hesab edirlər ki, iki dildən növbəli istifadəni ikidillilik adlandırmaq olar. Burada dili mənimsəmə səviyyəsi göstərilmidr, sadəcə olaraq, dildən növbəli isitfadə təcrübəsi artıq bu dillərin ünsiyyət üçün istifadəsini nəzərdə tutur.

Loqopedin anlayış-terminoloji lüğətində bilinqvizmə belə tərif verilir: "ikdillilik və ya bilinqvizm eyni dərəcədə iki dilə mükəmməl yiyələnmədir".

Bilinqvizmin hərtərəfli öyrənilməsinə baxmayaraq, bütün müddəalar ona gətirib çıxarır ki, ünsiyyət üçün ilkin dil sistemi mövcuddur. Əgər insan ünsiyyətin bütün sisuasiyalarında bu sistemdən istifadə edirsə, başqa sistemdən istifadə etmirsə, o monolinqvdir. İki və ya daha artıq dil sisteminin daşıyıcısını bilinqv adlandırmaq olar.

Biz ikidilli fərddən danışarkən belə bir fikir formalaşa bilər ki, guya bir dildən digər dilə keçid zamanı heç bir problemə rast gəlinmir və bu keçid mexanizmi çox asan bir proses olaraq ideal iş rejimində baş verir. Lakin biz görürük ki, bilinqv fərd də səhvlərə yol verir. Hələ 1957-ci ildə R.Lado yazırdı ki, dil kontaktları sahəsində aparılmış tədqiqatlar göstərmişdir ki, bilinqv fərd tərəfindən dil sapmaları L1 tərəfindən "interferensiya" hadisəsi ilə izah olunur. Belə interferensiya L1-dən struktur modellərinin keçidindən L2-nin linqvistik və mədəni səviyyələrdə baş verir. Bunu fonoloji interferensiya misalında bariz görmək olar.

E.M.Vereqaşin bilinqvizmin dörd təsnifatını verir: 1) reseptiv bilinqvizm, yəni bu zaman bilinqv ikinci dil sistemində olan nitqi başa düşür. Bilinqvizmin bu növü ölü dillərin öyrənilməsi zamanı mümkündür.

2) reproduktiv bilinqvizm, yəni bilinqv oxuduğunu və eşitdiyini danışa bilir. Buna misal olaraq informasiyanın əldə edilməsi üçün vasitə kimi doğma olmayan dilin yörənilməsini göstərmək olar. Bu zaman mətn başa düşülür, nadir halda düzgün olmayan formada tələffüz edilir.

3) produktiv bilinqvizm, yəni bilinqv ikinci dil sistemində olan nitqi anlayır, danışır və törədir.

Bilinqvizmin təsnifatında ikinci meyar kimi iki sistemin bir-birindən ayrı olaraq funksiyalaşanda və ya nitq aktı zamanı bir-biri ilə əlaqələnəndə bu sistem iki nitq mexanizmi nisbəti adlanır:

Təmiz bilinqvizmə misal olaraq evdə bir dildən, cəmiyyətdə isə digər dildən istifadəni göstərmək olar. Təmiz ikidillilik ilkin uşaqlıq çağlarında ana dilinin köməyi ilə olmadan öyrənilən bilinqvizmdir. Qarışıq bilinqvizm zamanı dillər bir-birini dəyişir, müxtəlifdilli nitqi törətmək üçün iki nitq mexanizminin dəyişməsi nəticəsində əlaqə yaranır. Qarışıq ikidillilik ikinci dilin sonradan öyrənildiyi üçün aksentlə müşahidə olunur. Son mərhələdə isə aksent tədricən itir.

Elmdə bilinqvizmi məhdudlaşdıran digər meyarlar vardır. Hər bir bilinqal bir tərəfdən, cəmiyyətdə müxtəlifdilli nitq və onun intensivliyin strukturlaşması səciyyəsi arasında, digər tərəfdən isə, müxtəlifdilli nitq hadisənin sistemliyini yaradan subyektlərin sosiodemoqrafik parametrləri arasında korrelyasiyanın spesifik sistemi mövcuddur.

S.N.Vasilyeva "müxtəlifdillilik" terminini irəli sürür, söyləmin və ya söyləmin bir hissəsi bu iki dil sistemində qurulmasıdır.

Spontan müxtəlifdillilikdə danışanın dili bilmədiyi halda ikinci dildə danışması illuziyası yaratmasıdır. Bu şəxsiyyətin psixoloji cəhətdən özünü tənzimləməsi üsuludur.

Məişət bilinqvizmıı geniş yayılmış hadisədir, xalqların miqrasiya zamanı dillərin qarışmasıdır. Məsələn, müasir dövrdə dilimizdə *hot dog, hot line* və s. kimi ingilis sözlərinə rast gəlinir. *Hot line* – qaynar xətt kimi tərcümə olunsa da, bu "təcili əlaqə"dir.

Dillərin qarışması hadisəsi müşahidə olunan hadisədir, amma son dövrlərdə miqrasiya prosesi ilə əlaqədar daha intensivləşmişdir. Bu faktorlar uşaqların nitq inkişafına da böyük təsir göstərir. Bununla bağlı nitq və dilin normal və qeyri-normal qanunauyğunluqlarını təhlil etmək lazımdır.

Əgər uşaq eyni zamanda həm doğma dildə, həm də xarici dildə real dil sferində kontakta girirsə, real bilinqvizm ancaq bu zaman baş verir. Bunun üçün uşağı başqa ölkəyə aparmaq lazım deyil, bunun üçün Azərbaycanda XIX əsrin əvvəllərində məşhur olmuş xarici dayələrin olması kifayətdir.

Belə hesab edilir ki, ikidillilik yaddaşın inkişafına müsbət təsir göstərir, dil hadisələrini başa düşmək, təhlil etmək bacarığını inkifaş etdirir, məntiq, riyazi bacarıq qabiliyyətini, reaksiyanın tezliyinə köməklik göstərir. Tam inkişaf etmiş bilinqvlər, bir qayda olaraq, yaxşı oxuyur, mücərrəd elmləri, ədəbiyyatı və digər xarici dilləri daha yaxşı mənimsəyirlər.

İkidilli uşağın dil ünsiyyəti təcrübəsi geniş olduğundan, o, sözlərin etimologiyası ilə maraqlanır. O, çox tez anlayır ki, eyni anlayış müxtəlif dildə müxtəlif cür ifadə olunur. Bəzən uşaqlar iki dili müqayisə edərək, özləri sözlərin etimologiyasını fikirləşirlər.

Əgər valideynlər uşağın nitq inkişafına diqqət ayırmırlarsa, hansı dildə danışmağı planlaşdırmırlarsa, dillər qarışdırılır, uşaq da hər iki dildə çoxlu səhvlər edir. Belə problemlər yaranmasın deyə, valideynlər uşaq anadan olduqdan sonra hər iki dildə danışmağı planlaşdırmalıdır. Sadəcə olaraq yuxarıda da qeyd etdiyimiz kimi, bir valideyn – bir dil prinsipi gözlənilməlidir, yəni valideyn heç vaxt başqa dil isləşməməlidir ki, qarışıqlıq yaranmasın.

Belə hesab edilir ki, iki dilə tam yiyələnmə mümkün deyil. Tam bilinqvizm ünsiyyətin bütün situasiyalarında identik dillərə yiyələnməni nəzərdə tutur. Bu onunla bağlıdır ki, bir dilə yiyələnmə təcrübəsi digər dilə yiyələnmə təcrübəsindən fərqlidir. Çox vaxt uşaq müxtəlif situasiyalarda müxtəlif dillərdən istifadə edir. Məsələn, təhsillə bağlı situasiyada bir dildən, emosional situasiyalarda isə digər dildən istifadə edir. Bir dillə bağlı emosiya digər dillə bağlı emosiyadan fərqlənir.

Əgər uşaq ikinci dili məktəb yaşında mənimsəyirsə, biz suksessiv bilinqvizmdən danışırıq. O, dilə başqa cür yiyələnir. Bu halda uşaq hər zaman iki dili müqayi-

sə edir: səslər birinci dilin səsləri ilə kontrasda qavranılır. Bu dilin qrammatik aspektinə münasibətdə öyrənilir.

Mənimsənilmə vasitələrinə görə kontaktlı və kontaktsız ikidillilik fərqləndirilir. Təmaslı ikidillilik iki xalqın uzun müddətli birgəyaşamı şəraitində formalaşır. İkinci dil müxtəlif dilli xalqlar arasında vacib ünsiyyət vasitəsi kimi mənimsənilir. Təmassız ikidillilik məktəbdə, ali təhsil müəssisələrində, kurslarda bu dilin daşıyıcılarınnın əsas kütləsindən kənarda yaranır.

Yayılma dərəcəsinə görə individual və kütləvi ikidillilik fərqləndirilir. İndividual ikidillilik zamanı bilinqvlər kimi ayrı-ayrı şəxslər çıxış edirsə, kütləvi bilinqvizm zamanı bütün əhali və onun müəyyən bir hissəi ikidillidir. İkdilliliyin daşıyıcıları tərcüməçilər, diplomatlar çıxış edir, onlar vasitəsilə xalqlar arasında diplomatik əlaqələr qurulur, müxtəlif dildə danışan insanlar arasında qarşılıqlı əlaqə yaranır.

Hər bir insanda interferensiya (birinci dilin ikinci dilə mənfi təsiri) və transfer (bir dildəki müsbət bacarıqların ikinci dilə ötürülməsi) hadisəsi mövcuddur. Əgər insan ona məlum olan dillərin birindən istifadə etmirsə, o "yatan" bilinqvdir. Əgər danışan bir dildən digər dilə keçirsə, onda kodun dəyişməsindən danışa bilərik. Əgər dillər sözün və ya cümlənin daxilində qarışırsa, onda bu, kodun dəyişməsidir.

Nəticədə onu qeyd etmək olar ki, bilinqv fərdin dilinin öyrənilməsi dilin tədrisində müsbət nəticələr verə bilər.

Ədəbiyyat

1. Əliyeva N.Ə. Bilinqv-fərd. "Filologiya məsələləri", Bakı, 2008, № 6, səh. 55-65.
2. Heydərov R. Dillərin inkişafında dil əlaqələrinin rolu. Bakı, 2013.
3. Аврорин В.А. Грамматика маньчжурского письменного языка, Наука, 2000.
4. Блягоз З.У. Двуязычие: сущность явления, формы его существования. Интерференция и ее разновидности. – Майкоп: РИО Адыг. ун-та, 2006.
5. Вайнрайха У. Одноязычие и многоязычие. О совместимости генеалогического родства и конвергентного развития. – В кн.: Новое в лингвистике, вып. VI, 1972.
6. Верещагин Е.М. Психологическая и методическая характеристика двуязычия (билингвизма). – М.: изд-во МГУ, 1973.
7. Дешериев Ю.Д. Социальная лингвистика, Москва, 1977.
8. Журавлев В.К. Внешние внутренние факторы языковой эволюции. М., Наука, 1982.
9. Щерба Л. В. К вопросу о двуязычии // Щерба Л. В. Языковая система и речевая деятельность. Л., 1974. с. 313—318.
10. Lado R. Linguistics across Cultures: Applied Linguistics for Language Teachers, Ann Arbor: University of Michigan, 1964.

Назлы Аслан

Проблема вариации в языке

Резюме

Традиционной лингвистика изучает язык как замкнутой системы. Взаимодействие элементов плана отражается на языке. Лингвистика обобщает внимание на статическом лингвистическом описание языка.

В статье расследуется проблема вариации в языкознании. Автор рассматривает внутренние и внешние вариации. В лингвистике есть такие формы вариаций, которые она не может ввести их в модели. Причина в том, что их постановка в отношении кода становится внешним.

Nazli Aslan

Variation problem in language

Summary

Traditional linguistics studies language as a closed system. Interaction elements of the plan is reflected in the language. Linguistics summarizes attention to the static linguistic description of the language.

The variation problem is investigated in the linguistics. The author considers inner and outer variation. There are such forms of variations that the linguistics can't enter them to the models. The reason is that their arrangement to the attitude of the code became outer.

Rəyçi Əbülfəz Rəcəbli
filologiya elmləri doktoru, professor

MEHRİBAN TƏHMƏZOVA
ADU
Filologiya elmləri üzrə fəlsəfə doktoru, b/m.
@-yahoo.com.mehriban.tahmazova

İNGİLİS DİLİ FELLƏRİNİN ANALİTİK FORMALARININ ORTA DÖVRDƏ İNKİŞAFI

Açar sözlər: məchul növ, bitmiş saman, məsdər, davamedici zaman, cerund
Key words: passive voice, perfect tense, infinitive, continious tense, gerund
Ключевые слова: страдательный залог, совершенная форма, неопределенная форма глагола; инфинитив, длительный, герундий.

Orta ingilis dili dövründə qədim dövrə nisbətən bəzi dəyişikliklər nəzərə çarpmağa başlanmışdı. Bu dəyişikliklər felin təsriflənməsi ilə, bu da özlüyündə felin analitik formalarının yaranması ilə bağlı idi.

Erkən yeni ingilis dili dövründə daha bir analitik forma yarandı. Bu indiki və keçmiş zamanlarda istifadə edilən köməkçi *to do* feli idi. Əvvəllər bu feldən əsasən poeziyada qafiyə yaratmaq üçün istifadə edilirdi. XVI və XVII əsrlərdə bu fel inkar, təsdiq və sual cümlələrində işlənilirdi.

XVII əsrin sonlarında *do f*elinin işlənməsində bəzi dəyişikliklər baş verdi. Belə ki, *do* forması yalnız neqativ və sual formalarında işlədilirdi. Artıq həmin dövrdə cümlədə söz sırası sabitləşmiş və xəbər mübtədadan sonra gəlməyə başlanmışdı;

Do you pity him? No, he deserves no pity ...
Wilt thou not love such a woman?
And must they all be hanged that swear and lie?

İnkar cümlələrdə isə *not* hissəciyi köməkçi feldən sonra işlənildı. Əvvəllər isə, xüsusilə V.Şekspir dövründə, *not* inkar ədatı əsas feldən sonra gəlirdi;

I know not which is which.

Orta dövrdə, XVIII əsrdə *I know not* ifadəsi hələ də işlədilirdi. Daha sonralar bu forma arxaikləşmiş və müəyyən üslubi effekt yaratmışdır. Digər tərəfdən *do*-nun təsdiq cümlələrdə istifadəsi emfatik xarakter daşımırdı və üslubi baxımdan neytral forma idi. *Do*-dan ibarət formalar köhnə sintetik formalara ekvivalent hesab edilirdi.

To do felinin orta dövr forması *dōn* aşağıdakı kimi təsriflənirdi:

indiki zaman		*keçmiş zaman*
sing. 1.dō		*dide, dude, dede*
2.dōst (North. dōs)	*dō*	*didest*
3.dōth (North. dōs)		*dide*
Plur. dōn (North. dōs, South. dōth)	*dōn, dōth*	*diden*

Məsdər forması-*dōn,* Feli sifət I-*dōinge,* Feli sifət II-*dōn,* Şimal dialektlərində isə-*dōande* forması işlənirdi (3; 200).

Müasir dövrdə *do* təsdiq cümlələrində istifadədən çıxmışdır. Bu da onunla izah olunur ki, sual və inkar cümlələrində *do* ilə işlənən formalar *do*-suz işlənən sadə formalara nisbətən üstünlüyə malik idilər (6;187).

Orta ingilis dili dövründə ən işlək fellərdən biri olan *to be(bēn)* felinin formaları da qədim ingilis dilindəki formalardan fərqlənirdi. Daha geniş yayılmış indiki zamanın cəm forması *sint, sindon* tədricən qədim ingilis dilindəki şımal dialektlərinə xas olan *aren, aron, earon* formaları tərəfindən sıxışdırılıb çıxarılmışdır. Bu forma müasir ingilis dilində indi *are* formasında işlənməkdədir.

Orta dövrdə *to be* felinin keçmiş zaman feli sifət forması olan *bēn*-nin *been* forması yarandı:

İndiki zaman	*keçmiş zaman*
Sing.1.am	*was*
2.art	*wēre*
3.is	*was*
Plur.bēn	*wēren*

Məsdər forması bēn, Feli sifət I-bēinge, Feli sifət II bēn.

Bu felin formaları çox vaxt *ne* inkar ədatı ilə birləşirdi, məsələn, *ne am>nam, ne is>nis, ne was>nas, ne were>nere.*

Otra ingilis dili dövründə digər bir köməkçi fel *habban* da dəyişikliyə uğramağa başlamışdı. O dövrdə keçmiş zaman Feli sifəti *habban* felilə birləşərək onunla bir məna vahidi yaradırdı. *Habbe (ɜe-)writen* tipli ifadələr lap çox birləşirdilər və bu halda onlar köməkçi və əsas fel kimi çıxış edirdilər.

Zəif fel olan *haven, han, have* feli aşağıdakı kimi təsriflənirdi;

İndiki zaman		*keçmiş zaman*
Sing. 1.have	-------	*hadde*
2.hast	*have*	*haddest*
3.hath	-------	*hadde*
Plur. han	*have(th)*	*hadden*

Məsdər forması *haven, han*, Feli sifət I *havinge*, Feli sifət II *had.* Köməkçi fel *to have* öz leksik mənasını itirmiş, fonetik baxımdan zəifləmiş, [v] səsinə qədər reduksiyaya uğramışdır. *Had* forması isə [d] səsinə qədər reduksiyaya uğramışdır: *I've seen her. He'd known about it long ago.*

Qədim dövrdə yaranmış bitmiş zaman formaları artıq orta dövrdə çox geniş işlənirdi, xüsusilə, C. Çouserin əsərlərində indiki və keçmiş bitmiş zaman formalarına çox rast gəlinirdi;

*Lordinges, right thus, as ye have understonde, bar I stifly mine olde housbondes on honde-(*Cənablar, beləliklə, siz də anladığınız kimi, mən inadla öz keçmiş həyat yoldaşımı inandırdım) *but al thing, which that shyneth as the gold, it nis nat hold, as that I have herd it told* (Mən eşitdiyim kimi,lakin parlayan hər şey heç də qızıl deyil).

Orta ingilis dilində gələcək zamanın analitik forması da yaranmağa başlamışdır. Qədim ingilis dilində hərəkəti gələcəyə aid etməyin əsas vasitələrindən biri indiki zaman formasının müvafiq gələcək zaman zərfləri ilə işlənməsi idi. Bu da özünü ən çox leksik formada göstərirdi. Qədim ingilis dilində gələcək zamanı ifadə etmək üçün *sculan – -malı, -məli* və *willan – arzu etmək* fellərindən istifadə edilirdi.

Orta ingilis dilində *sholde* və *wolde* fellərinin də işlənməsi çoxalmışdır. Bu dövrdə hər iki fel məsdərlə birləşərək öz leksik mənasını itirir və analitik formaların yaranmasında iştirak edirdilər.

Artıq qeyd etdiyimiz kimi, qədim ingilis dilində gələcək zaman forması olmamışdır. Gələcəyə aid hərəkəti bildirmək üçün *sculan, willan* və s. fellərdən istifadə edilirdi. Orta ingilis dövründə isə gələcəyə aid hərəkətləri ifadə etmək üçün *shall + məsdər*-dən istifadə edilirdi. Bu halda *shall* özünün modal mənasını saxlayaraq *vaciblik* ifadə edirdi. Zəifləmiş modal məna ifadə edən *shall*-ə erkən orta ingilis dövründə rast gəlinir. C.Çouser öz əsərlərində çox hallarda gələcək zaman işlədirdi;

But I was hurt right now thrugh-out my ye in-to myn herte,that wol my bane be.

Gələcək hərəkətlər həm də *willen* feli ilə də ifadə edilirdi. Onu da qeyd etmək lazımdır ki, *willen*-ə ən çox balladalarda və danışıq dilində rast gəlinirdi. Məsələn;

*And I wol love hire maugree al they might-**and I will love her in spite of all your might***

*What? Troweye, the whyles I may preche, and winne gold and silver for I teche, that I wol live in povert willfully?- **What? Do you think that while I may preach and earn gold and silver , I shall willingly live in poverty?** (3;203) .*

Yuxarıdakı misallarda *will* feli hərəkəti yerinə yetirməyə hazır olduğunu bildirmək mənasında işlədilmişdir.

Orta dövrdən başlayaraq bu fellərdən indiki zaman forması ilə paralel olaraq gələcək zamanı ifadə etmək üçün istifadə edilirdi. Onu da bildirmək lazımdır ki, orta ingilis dili dövründə bu fellər sərbəst vəzndə işlədilirdi ki, bu da müasir dövrdə mümkün deyil. Həmin dövrdə gələcək hərəkəti ifadə etmək üçün *to be going to* ifadəsindən də istifadə edilirdi. Bu ifadəyə yazılı mənbələrdə ilk dəfə XVII əsrdə rast gəlinir. Həmin dövrdə Davamedici zaman formaları da ilk dəfə olaraq yazılı ədəbiyytda işlənilirdi.

İngilis dilinin inkişafının orta dövründə Continuous forması adını almış yeni fel formaları sistemi yaranmağa başlayır. Bu formalar köməkçi fel *to be*-nin müvafiq zamanda işlənən forması +əsas felin *–ing* əlavə edilmiş formasının birləşməsindən düzəlir. Bu formalar danışıq anında davam edən və ya nitqdə göstərilmiş hər hansı başqa bir zaman müddətilə bağlı olan hərəkəti ifadə edir.

Otra ingilis dili dövründə ***ben (olmaq)* + *Feli Sifət I*** formasından ibarət birləşmə eyni felin ***ben (olmaq)* + *-ing*** forması ilə əvəzlənmişdir. Bu sonuncu birləşmə əvvəllər subyektin yerini işarə etmək üçün işlədilirdi (2;151). Məsələn: *He is on huntinge – O, ovdadır.* Bu birləşmədə *is* feli *olmaq, yerləşmək* mənalarında işlənərək əsas fel funksiyasını daşımış, *on huntinge* isə yer zərfliyi funksiyasında işlənmişdir. Orta ingilis dili dövründə bu birləşmə məna dəyişikliyinə uğrayır, yəni danışıq anında subyektin vəziyyətini bildirən birləşməyə çevrilir. Mənanın bu cür dəyişməsi *on* sözönünün mənasının tədricən itməsinə gətirib çıxarır və nəticədə *on* fonetik baxımdan sadələşməyə başlayır və sonda ***a-*** prefiksinə çevrilir ki, bunun da nəticəsində bu birləşmə yeni görkəm alır: *he is ahunting* və bu birləşmə sadə birləşmədən qrammatikləşmiş birləşməyə keçir. Bu formaya hətta müasir dövrdə ingilis danışıq dilində rast gəlmək olar.

Nəhayət , ***a-*** prefiksi də itir və bunun da nəticəsində tədqiq olunan forma indi bizə çox tanış gələn şəklə düşür: *he is hunting.* Bununla da tam formalaşmış Continuous zaman forması kimi çıxış etməyə başlayır. Bu proses Yeni ingilis dili dövrünün əvvəllərində sona çatmışdır.

C.Çouser əsərlərində bu zamana az rast gəlinir, məsələn, *singynge he was, or floytinge, al the day (**he was singing, or playing the flute, all day long**)*.

Bəzi alimlərin fikrincə orta dövrün davamedici zamanı qədim dövrün **–ende** və **-inз** ifadələrinin birləşməsinin nəticəsindən yaranmışdır (3;203).

Bitmiş davamedici zaman forması isə orta dövrdə cox az işlənirdi, məsələn;

*We han ben waytinge al this fourtenight- **We have been waiting all this fortnight.***

Orta ingilis dili dövründə də felin şəxssiz formalarının da analitik formaları yaranmaqda idi. Bu formalara hətta qədim ingilis dilində də rast gəlinir. Bəzən isə məlum növdə işlənən məsdər məchul məna ifadə edirdi. Orta ingilis dili dövründə artıq mətnlərdə mürəkkəb məsdər və Məchul Məsdərə, Məlum və Məchul formalı Bitmiş zaman məsdərinə rast gəlinir. Orta ingilis dili dövründə məchul növün istifadəsinə gəldikdə onu qeyd edə bilərik ki, məchul növün analitik formaları qədim ingilis dilindəki *bēon* (be) *weorðan* (become) felləri və təsirli feli Feli Sifət II-nin birləşməsindən yaranmışdı. Artıq orta ingilis dili dövründə *ben + Keçmiş zaman Feli Sifəti* analitik formaya çevrilmişdi. Məchul növ bütövlükdə əsasən orta dövrdə inkişaf etdi. *weorÞan* işlənmə dairəsindən çıxdığı üçün məchul növü ifadə etmək üçün yeganə köməkçi fel *bēn* idi. Məsələn; *The castel-yate on my right hond, which that so wel corven was that never swich another was-**the castle gate on my right hand, which was so well carved that there never was such another**.*

Onu da qeyd etmək lazımdır ki, erkən orta ingilis dili dövründə Məchul növ *it-lə* başlayan şəxssiz cümlələrdə işlədilirdi. Bu tipli cümlələrə vasitəli və vasitəsiz nitqdə rast gəlinirdi.

Felin məchul forması orta ingilis dili dövründə tam formalaşmışdı. Qədim ingilis mətnlərində *to be* felli birləşmələrə artıq rast gəlinirdi. Bu forma yalnız orta ingilis dili dövründə geniş istifadəyə daxil olur. Məlum olduğu kimi, məchul növ yalnız təsirli fellərdən düzəldilə bilər. Beləliklə, indiki zamanın məchul növü *to be* və əsas felin F*eli sifət II* modelinə uyğun olaraq yaranırdı, məsələn:

Is written – yazılır (onu yazırlar), is takeden – götürülür (onu götürürlər)

Həmin dövrdə hərəkət bildirən fellərin bitmiş zamanı da tam analoji yolla düzəlirdi., məsələn: *Is come – gəlib, is gone – gedib.*

Qədim ingilis dilində felin şəkillərinin mənaları sintetik və analitik formaların qarşı-qarşıya qoyulması ilə ifadə edilirdi (8; 81). Felin şəkillərinə gəldikdə isə qeyd edək ki, qədim ingilis dili dövründə Subjunctive Mood-un yalnız sintetik forması mövcud idi. Orta ingilis dili dövründə və yeni ingilis dili dövründə Subjunctive Mood-un analitik formaları yaranmağa başlandı. Bu dövrdə *sculan, willan* fellərindən də istifadə edilirdi. Bu fellər indiki və keçmiş zaman formalarında işlənəndə, onların mənası Subjunctive Mood-a bərabər olurdu və bu halda modal fellərə xas modallıq çaları da nəzərə çarpırdı, məsələn:

And slepen wollen til the sonne shyne (and will sleep till the sun shines), *though it happen me rehercen eft* (though I should have to repeat it again), *er it were day, as was hir wone to do, she was arisen*(before it was down, as it was her habit of doing, she had arisen). (3;203).

Orta ingilis dili dövründə *sholde* və *wolde-un* leksik mənaları zəifləmiş və onlar köməkçi fel kimi işlədilməkdə idi. V.Şekspir dövrünə kimi *should* və *would* Past Subjunctive-in formal göstəricisinə çevrildi və Subjunctive Mood-un yeni

analitik forması oldu. Yeni ingilis dili dövründə məna baxımından yeni analitik forma əvvəlki sintetik formadan heç fərqlənmirdi. Bu forma indiki və gələcək zamanı ifadə etmək üçün istifadə edilirdi və bir qayda olaraq şərt budaq cümləsində mümkün olan hərəkəti bildirmək üçün işlənirdi;

But if thou wene I be thus syk for drede, it is not so- ***But if you think I am ill for fear, it is not so.***

Hətta V.Şekspirin dövründə keçmişə aid olan və həyata keçməsi mümkün olmayan hərəkətləri ifadə etmək üçün yeni forma, Subjunctive Mood-un Past Perfect forması, meydana çıxdı. İndiki zamana aid olan qeyri real hərəkət Past Subjunctive-lə ifadə olunurdu və indiki zamana aid olan hərəkəti bildirmək üçün *wolde+infinitive*-forması işlədilirdi. Əgər hərəkət keçmişə aiddirsə *wolde+perfect infinitive*-işlədilirdi, məsələn;

*So that I wiste I sholde you nat greve, I wolde demen that ye tellen sholde a tale-****If I knew I should not grieve you I would think that you should tell a tale.***

*Nere thou our brother, sholdestou nat thryve-****If you were not our brother, you would not thrive****.*

If it were not to long to here, I wolde han told you fully the manere, how wonnen was the regne-If it were not too long to listen, I would have told you fully the way the kingdom was conquered.

XVI-XVII əsrə aid mətnlərdə də biz, məsdərin mürəkkəb formasını yeni davamedici və bitmiş davamedici zaman formalarına rast gəlirik.

... first to correct him for grave Cicero, and not scurrile Plautus
whom he confesses to have been reading not long before.

Feli Sifət I-in analitik formalarının yaranması XV əsrə təsadüf edir.

The seid Duke of Suffolk being most trostid with you ...

Artıq XVII əsrdə Feli Sifət I dörd formada işlədilirdi: bitmiş və davamedici, məlum və məchul.

Cerundun da analitik formaları İntibah dövründə yaranmağa başlandı. Onu da qeyd edək ki, Cerundun bu formaları məsdər və Feli Sifət I-in formaları təşəkkül tapandan sonra yarandı. Cerundun analitik formalarına XVII-XVIII əsrlərə aid mətnlərdə rast gəlinir. Məsələn:

To let him spend his time no more at home,
Which would be great impeachment to his age
In having known no travel in his youth.(7; 265-275).

Müasir ingilis dilində fellərin təsriflənməsində sadələşmə ilə bağlı yeni fel formalarının əmələ gəlməsi də baş verirdi: cerund, davamedici zaman analitik forması, köməkçi fel qismində to *do*-dan təşkil olunmuş digər formalar.

Orta dövr ingilis dilində feli sifət tez-tez feli isimlə üst-üstə düşürdü. Bu halda onlar formaca oxşar olurdu və tədricən feli isimlər felin sintaktik funksiyalarını da daşımağa başladı. Nəticədə yeni fel forması – cerund yarandı. Cerund özündə həm felin, həm də ismin xüsusiyyətlərini birləşdirirdi. Məs.: *He looked at the writings on the wall* cümləsində *writings* cerund, *Be careful writing this dictation* cümləsində isə *writing* feli sifətdir. Yeni ingilis dili dövrünün ilkin mərhələsində cerund hələ normal şəkildə işlənmirdi. Bəzi hallarda onun qarşısında artikl belə işlədilirdi və bununla da o, feli isimdən heç fərqlənmirdi. Onların tam fərqlənmə prosesi daha sonrakı dövrdə baş verdi.

Ədəbiyyat

1.Abdulrahimov E.H. The ABC of the History of the English Language. Baku, 2005.
2.Аракин В.Д. История аиглийского языка. Москва 1985.
3.Ilyish B. History of the English Language. Leningrad 1973.
4.Rastorguyeva T.A. History of English. Moscow 1983.
5.Reznik R.B., Sorokina T.A., Reznik I.B. History of the English Language. Moscow 2001.
6.Грузинская И.А., Черкасская Е.В. Грамматика английского языка. М., Учпедгиз, 1953.
7. Расторгуева Т.А. Курс лекций по истории английского языка. Москва, 1969.
8. Смирницкий А.И. Древнеанглийский язык. М., Изд. лит. на ин. языке, 1955.

M. Tahmazova

The development of the analytical forms of the verbs in me

Summary

In ME appeared first instances of a continuous aspect, consisting of the verb *be (n)* and the first participle. A special future form, which started in OE, becomes in ME a regular part of the tense system. Perfect forms are widely used in ME. The Subjunctive mood preserved in ME many features it had in OE. It was often used in temporal and concessional clauses. The passive voice was very widely developed in ME. As the verb *weorÞan* disappeared the only auxiliary for the passive was the verb *bēn. "ben+Participle II"* could express both a state and an action.

М.Тахмазова

Развитие аналитических глагольных форм в среднеанглийский период

Резюме

В течение среднего периода истории английского языка появляется новая система глагольных форм, получивших название форм Continuous. Эти формы характеризуются наличием вспомогательного глагола *to be* и сновного глагола в форме на *–ing*.

Глагол *have* и глагол *be* в сочетании с причастием II смыслового глагола приобретают грамматическое значение перфекта.

Shall, will утратили свои модальные значения и превратились в грамматические показатели будущего времени.

Rəyçi: Fəxrəddin Veysəlli
filologiya elmləri doktoru, professor

GÜLNAR NAĞIYEVA
AAHM

"İN" SÖZÖNÜ TƏLƏB EDƏN FELLƏRLƏ DÜZƏLƏN RAZEOLOJİ BİRLƏŞMƏLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ QARŞILIĞI

Açar sözlər: frazeoloji birləşmələr, struktur dəyişiklik, leksikologiya.
Key Words: phraseological components, structural changes,lexicology.
Ключевые слова:Фразеологические компоненты, структурные изменения, лексикология, Функция,исследование.

Məqalə in sözönü tələb edən frazeoloji birləşmələrin əhatə olunduqu leksik-semantik qrupların öyrənilməsinə yönəlmişdir. Tərkibində "in" sözönü olan fellərin iştirak etdiyi feli frazeo-joji birləşmələrin struktur əlamətlərini onların xarici quruluşu əsasında sxemat şəkildə modelləşdirmək və İngilis dilinin leksikologiyasına daxil olan bu tip frazeoloji dirləşmələrin leksikonda istifadə olunması yönümündə tədqiqat işi aparmaq. "İn" sözünü tələb edən frazeoloji birləşmələrin əhatə olunduğu leksik-seman Çtik qruplar özlüyündə ekspressivliyin ifadəsi planında ən zəngin söz qruplarından biridir.

Çünki insan nitqi fərdin daxili aləmi ilə sıx bağlıdır və onun özünü aparması, emosional vəziyyəti, ətraf mühitə,insanlara və s.münasibətinin ifadə vasitələrindən biridir. Belə olan halda "in" sözönlü frazeoloji birləşmələrin iştirakı ilə yaranmış müvafiq vahidlərin də ekspresivlik-emosionallıq tutumunu ikiqat zəngin gözləmək olar.

Felin və üstəlik onun əmələ gətirdiyi konstruksiyanın emosionallıq-ekspresiv lik göstəricisi başqa söz və ifadə sahələrinin səviyyəsindən üstündür. Digər tə rəfdən, frazeoloji vahidin modeli də emosionallıq-ekspresivliyi artırmağın üsulla rından kimi çıxış edir.Deməli,bu cür frazeoloji vahidlərin struktur imkanlarının öyrənilməsinin mühüm elmi-nəzəri əhəmiyyəti vardır.

"İn" sözönü tələb edən fellər frazeoloji birləşmələrin bütün növlərinin təşki lində iştirak edir.İstər felin mövqeyi, istərsə də birləşmələrin formalaşma üsulu bütün dillərdə eyni deyildir."İn" sözönlü fellərin köməyi ilə yaranan frazeologizmlərdə daxili(semantik) məna məsələsi, konstruksiyanın bütövlükdə mənası felin semantikasında öz əksini tapır və yalnız bu mənanın dəqiqləşdirilməsi və fel fəaliyyətinin necə yerinə yetirildiyinin səciyyələndirilməsi, hərəkətinekspresivlik və emosionallıq əlamərlərinin xarakteri və s. Kimi nəzərə çatdırılması ön planda durur.Bu zaman semantik model də məhz həmin hərəkət prossesinin bu istiqamətdə təhlilini özündə əks etdirməlidir.

Frazeoloji birləşmələr ümumiyyətlə predikativ və qeyri predikativ söz birləşməsi şəklində olur. Tərkibində "in" sözönlü fellər olan frazeologizmlərinpredikativ səciyyəliliyi bir aksiomadır. Belə sintaktik konstruksiyalar əsasında bir sıra birləşmələr yaradılır. Frazeoloji konstruksiyalar adı altında sabit birləşmələrin struktur-semantik invariantını başa düşürük;bu model nisbətən sabit forma və semantikanın özündə əks etdirilir.

Beləliklə,biz "in" sözönü tələb edənfellərin iştirak etdiyi feli frazeoloji birləşmələrin struktur əlamətlərini onların xarici qurulişu əsasında sxematik şəkildə modelləşdirməli oluruq.

Radio kütləvi kommunikasiya vasitəsi olduğu üçün onun dili mənsub olduğu sahənin bütün tələblərini özündə ehtiva edir. Lakin həm yazılı, həm də şifahi nitq mədəniyyətinin bütün çalarları ilə zənginləşən radio cəmiyyətin hər bir üzvünün eşidilən səsi olduğundan, səslər aləminin rəngarəng portretini yaratmağa müvəffəq olub. Professor A.A. Şerel deyir ki, "müasir gənclər radionu əyləncə və aralarında musiqili ünsiyyət məkanı sayırsa, yaşlı nəsil bu barədə tamamilə fərqli düşünür, radio danışığını ali nitq mədəniyyətinin bir nümunəsi, ədəbi dilin mühafizəçisi hesab edirdi..." (9.s.4).

Vaxtilə dil normalarına ciddi riayət edən radio əməkdaşları sözə və danışığa xüsusi fikir verir və tələb olunan səviyyədə efir materialları hazırlayırdılar. Müasir dövrdə isə kommunikasiya vasitələrinin çoxalması, audiopublisistikanın müxtəlif məkanlardan eşidilməsi nəticəsində, əvvəlki ənənələrin qorunub-saxlanması istiqamətində köklü problemlər yaşanır. Yeni radioların və internetdə bu sahənin fəaliyyətini izləyəndə açıq-aşkar hiss olunur ki, efir sərbəstliyindən, demokratik dəyərlərin geniş meydan açdığı bu mühitdən düzgün yararlanmamaq dilə xüsusi təsir göstərir.

90 ilə yaxındır ki, Azərbaycan Radiosu daima ədəbi dilin keşiyindədir. Şərqin ilk efiri olan bu sənət dünyasında əvvəldən bugünə kimi dil məsələsinə xüsusi incəliklə yanaşılır. Ancaq nəzərə alsaq ki, radiojurnalistikada işlənən üslublar rəngarəngdir və tematik baxımdan müxtəlif mövzulara müraciət olunursa, deməli, onda, verilişlərin dili də bir-birindən xeyli dərəcədə fərqlənməlidir.

Radioda səslənən verilişlərin hər birinin öz dili var. Ona görə də alimlər radio dilinin konkret tərifini verməkdə, vahid bir nəzəriyyəsini yaratmaqda, araşdırmaların sonunda hansısa qənaətə gələ bilmirlər. Radionun yeni fəaliyyət dövründə tədqiqatçılar onun qəzet və kitab dilindən fərqli olaraq danışıq dili olduğunu söyləyirdilər. Sonralar bu fikirlər özünü doğrultmadı. Nitq mədəniyyətinin bir nümunəsi kimi radio dilinin spesifik xüsusiyyətlərini araşdırmağa başladılar. Radioda çalışan insanların sənətkarlıq məsələlərini araşdıran mütəxəssislərin diqqətini radio dilinin özünəməxsus prinsipləri cəlb etdi. Ötən əsrin sonlarında radio dili haqqında ilk nəzəri fikirlər üzə çıxdı. Rus tədqiqatçısı M. Zarva "Slova v efire" kitabında yazır: "Radioda ədəbi dilin müxtəlif sahələri, o cümlədən həm kitab dili, həm də danışıq dili özünü göstərir. Lakin radio dilini bütövlükdə danışıq dili hesab etmək doğru deyil." (10.s.41-42).

Professor Nizami Xudiyev yazır: "Radioda səslənən dil ədəbi tələffüz normalarına əməl olunmaqla işlədilən mədəni dilidr. Lakin bu dil nə tamamilə rəsmi, nə də bir o qədər bədii dildir. Bu dil canlı danışıqla, ümumxalq dili ilə zənginləşmiş ədəbi dilin dolğun bir formasıdır." (4.s.92)

Radio, televiziya üzrə tədqiqatçı alim Tofiq Rüstəmov əsaslandırır ki, "qəzet və jurnallarda publisistik üslub, mətbuat üslubu üstünlük təşkil edirsə, televiziya və radioda bu üslublarla yanaşı, canlı danışığa güclü meyl hiss olunur" (8.s.7)

Bu dilin müəllifləri radiojurnalistikanın bütün janrlarında çalışan redaktorlar, aparıcılar, diktorlardır. Söhbət dildən gedirsə, efirdə eşidilən səslər deyəndə, ilk məqamda burada çalışanların zəhməti başa düşülür. Bu dil bir qrup yaradıcı heyətin timsalında formalaşır.

Verilişlərin hər biri öz məzmununa uyğun olaraq, üslubuna görə bir-birindən seçilir. "Xəbərlər"in dili rəsmi hesab edilirsə, uşaq verilişlərində balacaların anladığı və başa düşdüyü danışıq üslubu əsas götürülür, şərhçi otağında mövzuya aid xüsusi sahəni əks etdirən dil terminləri önə çəkilir.

Bədii verilişlərin özündə də xeyli dil fərqləri var. "Bulaq" verilişinin dili ilə ədəbi proqramların dili təbii ki, eyni ola bilməz. Ədəbi dilə radiotamaşalarda daha özəlliklə yanaşılır. Professor Qulu Məhərrəmlinin fikrincə "radio dilinin özünəməxsusluğu və bu dilin geniş funksional imkanları məhz radiodramaturgiya dilində özünü büruzə verir" (6.s. 190)

Ayrı-ayrı proqramların özəl dil üslubu olsa da, ümumilikdə radio dili sistemləşmiş bütöv bir məfhum deyil. Tədqiqatçı alim Qulu Məhərrəmlinin gəldiyi qənaət belədir: "Radio dilinn özünəməxsusluğunu iki amil şərtləndirir. Birincisi, radionun spesifik təbiətindən irəli gələn, onu digər kommunikasiya vasitələrindən fərqləndirən ümumi cəhətlər, ikncisi, konkret janrlarda (xəbər, müsahibə reportaj və s.) özünü büruzə verən spesifik dil və nitq hadisələri." (7.279)

Radio jurnalisti çalışdığı məkanın özəlliyini anlamalı, dilinə məhəbbətlə yanaşmalı, nitq mədəniyyətinə sahib olmalıdır. Jurnalistikanın tələblərindən biri də natiqlik sənətinə yiyələnməkdir. Tanınmış qəzet jurnalisti Flora Xəlilzadə yazı əhlindən natiqlik vərdişlərinə yiyələnməyi ona görə tövsiyyə edir ki, "söz sarıdan yükünü necə tutasan ki, ətrafını bezdirməyəsən. Bunun üçün mütaliən geniş olmalıdır, müzakirəyə çəkilən hər hansı mövzu haqqında dərin biliyə malik olmalısan. Bu mənada əvvəlcədən çıxışa hazır olmalısan. Doğrudur, qəflətən də səni hansısa bir mövzu barədə danışmağa dəvət edə bilərlər. Buna görə də sözünü, cümləni elə qurmalısan ki, gülüş hədəfi olmayasan, istehza ilə qarşılanmayasan. Əslində, «natiq» sözü Azərbaycan dilinin izahlı lüğətində «nitq, çıxış edən» mənasında verilir. Özünün ictimai əhəmiyyətli fikirlərini anlaşıqlı, inandırıcı, təsiredici bir şəkildə ifadə etməyi bacaran adam əsl natiqdir. Natiqin də silahı canlı sözdür." (5.s.11)

Radionun da silahı sözdür. Doğru, yerində işlədilən söz və bir də savadlı, məntiqli danışıq. Deməli bu mənada radiojurnalistika ilə məşğul olan insanların yükü daha çoxdur. Əgər jurnalist hansısa toplantıda bir qrup insan tərəfindən qiymət alırsa, efirdə milyonların diqqətində olur. Daha böyük kütlə qarşısında söz deyir. Təkrarçılıq, mənasız çıxış onu mikrafondan məhrum edə bilər. Verilişinin hər dəfə orijinal alınması üçün söz yükünü zənginləşdirməli, daima mütaliəyə maraqlı olmalıdır.

Radiojurnalistikanın fərqli cəhəti odur ki, görünməz olan bir məlumatın dinləyici auditoriyasına təqdimatında seçilən söz təsir gücü ilə qarşı tərəfin diqqətini cəlb etməlidir. Bütün verilişlər sözün, səsin və musiqinin gücü ilə dinləyici yaddaşına sirayət olunur. Ancaq əsasən söz, deyilən fikir daha önəmlidir ki, beyinlərə həkk edisin. Yunan filosofu Aristotel deyir ki, "sözün ən gözəli, söyləyənin doğru olaraq söylədiyi, dinləyənin də yararlandığı sözdür". Bəzən dinləyici təsadüfən, yaxud bilərəkdən məlumat almaq, musiqiyə, əyləncəyə qulaq asmaq məqsədi ilə radionu dinləmək fikrinə düşür. Elə ilk andaca usanarsa, həmin dəqiqə dalğanı rahatlıqla dəyişə bilir. Efirlərin bolluğu, raqabətdə olan radioların kollektivləri dinləyici auditoriyası uğrunda gərgin mübarizə aparırlar. Bəs dinləyicini cəlb etmək üçün nəyə cəhd olunmalı, hansı meyarlar əsas götürülməlidir? Radionun dili necə olmalı, hansı üslublar radiojurnalistikada daha çox işlənməlidir?...

Səlis danışıq, fikrin aydın şəkildə deyilməsi, mövzuya uyğun musiqilərin seçimi, söhbətlərin qısa və mənalı olması radiojurnalistikada vacib hesab edilir. Müasir dövrdə dünya radio yayımına əsasən efir "xəbər üstəgəl musiqi" üzərində köklənib. Operativ xəbərlər və gün boyu musiqi səslənir. Özəl radioların daha çox müraciət etdiyi bu formatdan fərqli olaraq, keçmiş radiolar ənənəvi qaydada çalışır və yaradıcılıq mühitinin saflaşmasından lazımi qaydada faydalanaraq yeni-yeni fəaliyyət istiqaməti seçirlər.

Radio jurnalisti danışığında ali nitq mədəniyyətinə yiyələnməlidir. Çünki, mətnlərin hazırlanması prosesi məhz onun üzərinə düşür. Tək aparıcılar yox, redaktorlar da gözəl və rəvan danışmağı bacarmalıdırlar. İstənilən anda redaktorun efirə çıxmaq, dinləyiciyə söz demək fürsəti yaranır. Dinləyici onu müsahibələrdə, şərhçi otağında, müəllif proqramlarında və s. verilişlərdə eşidir, nitqindən tanıyır. Qarşı tərəf isə müxtəlif peşə sahibləridir. Jurnalist müsahibindən düzgün, ədəbi dil qaydalarına uyğun danışıq tələb edə bilməz və istəsə də buna nail olmaq mümkün deyil. Çünki ədəbi dil məişətdə işlənən dillə çox kəskin şəkildə fərqlənir. Radioda danışıq dili əsas sayıldığı üçün mikrafon önündə dayanan şəxs də, adi həyatdakı kimi danışmalı, sərbəst şəkildə fikrini bildirməlidir. Məhz buna görə də radio jurnalistləri yaxşı danışan bir müsahiblə rastlaşanda həddindən çox sevinir, həmin insanla vaxtaşırı əlaqə saxlayaraq yeri gələn anlarda onunla söhbətləşmək qərarına gəlir. Bunun bir sıra səbəbləri var.

Birinci səbəb odur ki, hər iki tərəfin ifadəli danışığı, efirin tələb etdyi meyarlara uyğun gəlir. Bu zaman ədəbi dilin normaları qorunur.

İkincisi, səviyyəli danışan, nitqi savadlı olan şəxs həm də düzgün mühakimə yürüdə bilir. Sualın konkret açıqlanmasına, jurnalistin dolğun cavab almasına kömək etmiş olur.

Üçüncüsü, müsahib daha da irəliyə gedərək yeni-yeni sualların yaranmasına şərait yaradır, maraqlı söhbəti ilə jurnalistin məlumatını bir az da zənginləşdirir və soruşulan mövzunu şaxələndirərək, onun maraq dairəsini genişləndirir.

Jurnalist üçün maraqlı olan məsələ düzgün və dolğun şəkildə araşdırılırsa, onda auditoriyanın diqqətini çəkə bilər. Məhz buna görə radiojurnalistikada da mövzu axtarışı daima gündəmdədir. Yeniliklər axtaran radio əməkdaşı bütün mətbuatı hər gün izləyir ki, özü bildiyini və eşitdiyini başqalarından tez kütləyə təqdim etsin. Buradan da belə aydın olur ki, radio jurnalisti gündəlik informasiya bolluğundan məlumatlanmalı, mövzu seçimində də bu faktordan istifadə etməlidir.

Radio verilişlərində mətnlərin yazılması birinci dərəcəli məsələdirsə, onun efirdə düzgün səslənməsi də mühüm əhəmiyyət kəsb edən amillərdən biridir. Professor Nəsir Əhmədli yazır: "Radio verilişinin məzmununu auditoriya-ya çatdırmalı olan adam (diktor, aparıcı) mətnlə əvvəlcədən yaxından tanış olmalı, pis səslənən sözləri və söz qovuşuqlarını onların daha uğurlu sinonimləri ilə əvəz etməli, sintaqmları (cümlədə birnəfəsə deyilməli olan söz qruplarını) xüsusi işarə ilə qeyd etməlidir ki, mikrafon qarşısında çıxılmaz vəziyyətdə qalmasın."(3.s.115) Bu məsələ canlı efir öncəsi diktordan tələb olunan peşə məsuliyyətidir.

Aparıcı ilə diktor arasında fərq var. Müəllif verilişini özü aparır. Onun ssenari ilə nəinki tanışlığı var, hətta hər bir sözü, cümləni özü yazdığı üçün əzbər bilir və mikrafon önündə söhbətinə bir az da rəng qataraq, əlavə söz demək, fikrini genişləndirmək məharətindən də yararlanır. Diktor isə hazır mətnləri obrazlandırır. Radioda diktorlar ən çox "Xəbərlər"i oxuyurlar.

"Xəbərlər" redaksiyasında müəyyən sayda redaktor, əməkdaş, ştatdankənar müxbirlər gün ərzində xəbər toplamaq və balaca mətnlərin radio dilinə hazırlamaq missiyasını həyata keçirirlər və sonda hazır bülleten diktora təqdim olunur. Bir neçə peşəkarın redaktəsi ilə işlənən xəbər bülletenini diktor qısa zaman kəsiyində (xəbər operativ olduğundan efirə bir neçə saniyə qalmış yenilənə bilər) olsa da nəzərdən keçirməli, mətnlə tanış olmalıdır ki, dilini dolaşdıran ifadələr varsa, ona efirdə problemlər yaratmasın.

Məsələn, televiziya və radio, hər ikisi kommunikasiya vasitəsi olsa da bunlar arasındakı fərq təkcə televiziyanın görüntülü, radionun isə eşidilən olması deyil. İfadə vasitələrinə görə televiziyada xəbərin təqdimatında bir sıra amillər (hadisənin görüntüsü, xəbərin daha da diqqət çəkməsi üçün seçilmiş kadrlar və s) yardımçı olur. Radioda isə xəbər ancaq sözlü səslə verilir və qısa musiqi ilə müşayiət olunur. Xəbər mətnində yığcam, sadə cümlələrdən istifadə edilməlidir. Professor Qulu Məhərrəmlinin sözləri ilə desək, "deməli informasiya verilişlərini təkmilləşdirmək üçün sadəcə olaraq diktorların nitq hazırlıqlarını artırmaq yox, həm də radioda oxumaq üçün diktora verilən yazılı mətnin tərtibinin yeni və daha müasir qaydalarını hazırlamaq lazımdır". (7.s.279)

Televiziya ilə radio xəbəri arasında fərqə baxaq.

APARICI: Heydər Əliyev Fondunun təşəbbüsü ilə Qəbələdə təşkil olunan 5 -ci Beynəlxalq Musiqi Festivalı davam edir. Böyük Musiqi bayramı adlandırılan tədbirin növbəti günündə festival iştirakçıları 2 konsert proqramını maraqla izləyiblər.

VİDEO: Azərbaycanın milli musiqi mədəniyyəti tarixində yeni ənənənin təməli hesab olunan Qəbələ 5-ci Beynəlxalq Musiqi Festivalının növbəti günü də musiqi rəngarəngliyi baxımından zəngin keçdi. İldən-ilə böyüyən festival bu dəfə də tamaşaçı auditoriyası və ahəngdar musiqi keyfiyyəti ilə diqqəti çəkdi. Musiqi sevərlərə ilk olaraq kamera musiqisi axşamı təqdim olundu. Orta əsr və yeni dövr Avropa klassik musiqisinin həvəskarları səhnəyə çıxan gənc solistlərin ifalarını maraqla dinlədilər. Piano, vokal, violin və violançel alətlərində peşəkar ifalar nümayiş etdirən gənc musiqiçilərin çıxışları həm yerli və əcnəbi tamaşaçılar, həm də gənc musiqiçilərin özləri üçün yaddaqalan oldu. **İNTERŞUM...**

VİDEO: Gecədə Mosartdan fortepiano və violin üçün yazılan 5 müxtəlif kompazisiya, Qriqdən "Kənd həyatımızın mənzərələri", Şostakoviçdən 4 hissəli

trio, Mosartdan Fiqaronun toyu və Don Juan operalarından ariyaları qonaqların ixtiyarına verildi. **İNTERŞUM**... Günün 2-ci konserti isə məkan və miqyasca daha böyük, rəngarəng və geniş tərkibli oldu. Burada da tamaşaçı axını və əsl festival havası diqqət çəkən əsas məqamlardan biri idi. Çünki bu dəfəki konsert Dahi İtaliyan bəstəkarı Cüzeppe Verdinin 200 illik yubileyinə həsr olundu. "Viva Verdi"-adlı açıq səhnə konsertində ilk olaraq dünyaca məhşur İsrail Radio simfonik orkestri olan Yerusəlim Simfonik orkestrinin konserti festival iştirakçılarına təqdim olundu. Füsünkar təbiətin Qəbələyə bəxş etdiyi gözəlliklə ahəngdarlıq təşkil edən orkestrin ifası musiqisevərlərə əsl bayram abu-havası yaşatdı. **İNTERŞUM**... 1930-cu ildə Fələstin Radiosu nəzdində yaradılan Yerusəlim Simfonik Orkestrinin repertuarı genişdir. Barokko, Romantik, Klassik dövrlərin və müasir bəstəkarların müxtəlif səpkili əsərləri orkestrin təfsirində səsləndirilir. **İNTERŞUM**... Festival iştirakçıları 2 hissəli konsertin 1-ci hissəsində məhşur İtaliyalı dirijor Yader Benyamininin rəhbərliyi ilə Cüzeppe Verdinin "Taleyin gücü"operasından uvertüra, Leonoranın ariyası, Don Karlos operasından Ebolinin ariyası, Otella operasından Dezdemona və Otellonun dueti, eyni operadan Otellonun ariyasını dinləmək imkanı qazandılar. Bir sıra beynəlxalq festivalların iştirakçısı olan Yader Benyaminin repertuarında klassik operalar əsas yer tutur. **İNTERŞUM.**.

VİDEO: Görkəmli İtaliyan bəstəkarı Cüzeppe Verdinin 200 illik yubileyinə həsr edilən konsertin 2-ci hissəsində də bir birindən gözəl klassik parçalar səsləndirildi. Yerli və xarici solistlərin ifasında Atilla, Aida, Trubadur operalarından müxtəlif ariya və duetlər konsert proqramına xüsusi bir rəng qatdı. **İNTERŞUM...**

VİDEO: Unudulmaz musiqi gecəsinin ikinci gününün sonunda "Aida" operasından "Amneris və Radamesin" dueti demək olar ki, festival iştirakçılarının gurultulu alqışlarının sədası altında ifa olundu. **İNTERŞUM...**. Bununla da Qəbələdə keçirilən böyük musiqi bayramı - 5-ci Qəbələ Beynəlxalq Festivalının ikinci günü də iki maraqlı konsert proqramı ilə yadda qalan oldu. Festival isə avgustun 6-dək davam edəcək.

Radioda bu xəbərin mətni belə olmalıdır.

DİKTOR: Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən 5-ci Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində dünən dahi italyan bəstəkarı Cüzeppe Verdinin anadan olmasının 200 illiyi münasibətilə yubiley konserti təqdim edilib. Məşhur italiyalı dirijor Jder Biqnamininin rəhbərliyi ilə təqdim olunan "Viva Verdi" adlı konsertdə Yerusəlim Simfonik Orkestri bəstəkarın əsərlərindən nümunələr səsləndirib. Çıxışlar yerli və xarici ölkə tamaşaçılarının böyük marağına səbəb olub. Yerusəlim Simfonik Orkestri 1930-cu ildə Fələstin radiosunun nəzdində yaradılıb. Musiqi kollektivi Avropa və ABŞ-ın bir çox şəhərlərində, ən məşhur salonlarında geniş konsert proqramları ilə çıxış edib...

Xəbərin mətnini hazırlayarkən mürəkkəb cümlələrdən istifadə etmək düzgün deyil. Alimlər dünya radio təcrübəsinə istinadən bildirirlər ki, ən peşəkar diktor belə mürəkkəb cümləli xəbərləri oxuyanda çətinlik çəkir, sadə tərzdə desək, dili dolaşır. Xəbər diktoru ilə bədii verilişin diktoru səs ahənginə görə fərqlənirlər. Unikal səs tembrinə malik olan diktorların sayı isə çox azdır. Bütün janrlara səsi uyğun gələn diktorların fonem qabiliyyəti üzə çıxanda, belə peşəkarlara radio mühitində xüsusi diqqət yetirilir. (Azərbaycan radiosunda belə diktorlara önəm verildiyindən, onlara

"nadir səs"li insanlar deyilir, milyonların içərisindən seçilən bu səs sahibləri minlərlə sənət nümunələrini canlandırıblar.)

Bütün hallarda radio mətnlərini yazan jurnalist yazısını oxuyacaq diktoru və dinləyicini nəzərə alaraq elə dil üslubu seçməlidir ki, hər üç tərəf sonda məmnun qalsın. Mətnin dili mənasız və ağır olsa, diktor həmin materialı özünküləşdirə bilməzsə, təbii ki, dinləyici xoşa gəlməyən bir söhbəti eşitmək istəməyəcək. Rus alimi Leonid Azarx danışığı radionun əsas amili hesab edərək haqlı olaraq yazır ki, "mənim dilim, mənim dostumdur. Efirin müxtəlif obrazlarını yaradan dilimdir." (1.s.9)

Professor Nəsir Əhmədli yazır: " Radionun bütün uğurları, çoxsaylı müasir informasiya vasitələri sırasında onun ömrünü uzadan başlıca cəhət audiosəsin imkanlarından nə dərəcədə istifadə olunması ilə bağlıdır. Radioda getmiş ən yaxşı verilişlərin mətnləri zaman-zaman qəzetlərdə, jurnallarda, kitablarda çap olunur, amma onların heç biri radiodakı verilişlərin effektini verə bilmir. Bütün deyilənləri ağıza köçürmək mümkün olsa da, canlı sözlə yazılmış söz arasında böyük bir uçurum duyulur." (3.s.11). Radio jurnalistinin də mətbuatdan istifadə etməsi məqbuldur. Ancaq əldə etdiyi məlumatı öz dilində mənimsəməsi, danışıq dilinə çevirməsi zəruridir. Gündəlik mətbuatı uzun illər dinləyiciyə çatdıran Azərbaycan Radiosunda "Qəzetlərdən Özəklər" səslənirdi. Ən maraqlı ictimai-siyasi və mədəni hadisələr barəsində qəzetlərin əsas səhifəsində yer alan yazılar radio dilində təqdim olunurdu.

Radio verilişlərinin mətnləri ədəbi redaktədən sonra tam hazır vəziyyətdə efirə vəsiqə qazanır. Bu verilişlər "mikrafon qovluğu"nda efir koordinatoruna təhvil verilir. Yazılmış mətnlər Azərbaycan dilinin orfoqrafik lüğətinə uyğun olmalıdır. Diktor, aparıcı isə onu danışıq dilində, peşəkar oxumalıdır. Diktorun mətni üzündən oxumasını dinləyici hiss etməməlidir. Əgər efirdə tez-tez çaşarsa, sözləri düzgün tələffüz etməzsə, onun başqasının cümlələrini oxuduğu məlum olar. Bu zaman efir mədəniyyətinə xələl gətirən diktor özünü də çıxılmaz vəziyyətə salır. Belə halların qarşısını almaqdan ötrü dil məsələsinə xüsusi həssaslıqla yanaşılır.

Erik Fichtelius "Jurnalistikanın On Qızıl Qaydası" kitabında yazır: "Radioda işləməyə hazırlaşan adamlar öz səsinə hakim olmağı bacarmalıdırlar. Bu məharəti yalnız dərsliklər vasitəsi ilə qazanmaq mümkün deyil. Səs repartyorun alətidir, onun cilalanması üçün ciddi şəkildə işləmək və səsin bütün imkanlarından istifadə etmək lazımdır. Elə buna görə də başlanğıc mərhələsində peşəkarın köməyi, yalnız vacib deyil, həm də zəruridir."(2.s.119)

Ədəbiyyat

1. Азарх Л. О Ремесле Радиожурналистика и не толко. с. 9.
2. Erik Fichtelius. Jurnalistikanın On Qızıl Qaydası. AYB-nin nəşri, Bakı, 2001.
3. Əhmədli N. Jurnalistin Nitq Mədəniyyəti.Bakı, 2005. sə. 115
4. Xudiyev N. Radio, Televiziya və Ədəbi dil. Azərbaycan Dövlət Nəşriyyatı, 2001, s. 92
5. Xəlilzadə F. Söz ustalığı, Azərbaycan qəzeti, 2011, 9 iyun, s.11
6. Məhərrəmov Q. Radiodramaturgiya dili, Bakı, 1990. s. 190
7. Məhərrəmli Q. Radio Dərsləri, Bakı, 2007, s.279
8. Rüstəmov T. Ədəbi Redaktə Təcrübəsi və Nəzəriyyəsi, Bakı. 1981. s. 7

9. Шерель А.А. Радиожурналистика. Издательство Московского университета., 2000. – 368с.
10. Зарва М. Слова в ефире. 1971, с. 41-41

Ш.Кулиева

«Язык Радио»- есть главная составляющая культуры аудиоречи
(то есть речи, которую мы слышим)

Резюме

Радио, являющееся коммуникационным средством, в точнее язык радио содержит в себе некий языковой жанр. Сегодня культуры речи на радио независимо от того, устная она или письменная, всеми своими возможностями обогащается. Голоса на радио могут создавать «разноцветные портреты».

Чем же отличается язык радио от языка других коммуникационных средств ?

Как используется на радио языки газет, журналов и книг?

Репортер, редактор, ведущий, диктор: Каковы их функции на пространстве радио ?

Sh.Kuliyeva

"Audiospeech" is the basis of "radio language" culture

Summary

Radio is a means of mass communication in the language of the area which encompasses all of the requirements. However, in both written and spoken language with a rich culture and all shades of sound,heard the radio that every member of society, has managed to create a portrait of the colourful world of sounds.What language should the radio.This language differs other communication means (tools).

Newspapers, magazines (journals) and books on how language is used on the radio.

Rəyçi: Nəsir Əhmədli
filologiya elmləri doktoru, professor

ŞƏFİQƏ HEYDƏROVA
ELLADA HACIYEVA
AzTU

İNGİLİS DİLİNİN SÖZ YARADICILIĞINDA ÖN ŞƏKİLÇİLƏRİN ROLU VƏ ƏHƏMİYYƏTİ

Açar sözlər: söz yaradıcılığı, suffiks, prefiks, kök, linqvistika, söz.
Key words: word-formation, suffix, prefix, stem, linguistics, word.
Ключевые слова: словообразование, суффикс, префикс, корень, лингвистика, продуктивный.

Artıq çoxdan sübut olunmuşdur ki, dünyada heç bir dil şüşə qapaq altında inkişaf etmir. Xarici aləm daim ona təsir edir və onun müxtəlif sahələrində diqqəti cəlb edən izlər buraxır. Bu o deməkdir ki, dillərin qarşılıqlı əlaqə və münasibətləri hələ qədim zamanlardan, hətta ibtidai icma qurluşu dövründən başlayaraq mövcud olmuşdur. Dünyada başqa xalqlardan tam təcrid olunaraq yaşamış xalq təsəvvürə gətirmək çətindir. Cəmiyyət yaranandan müxtəlif tayfa, qəbilə, xalq və millətlər həmişə bir-biri ilə təmasda olmuşdur. Bu təmasın forma və məzmunundan asılı olmayaraq, güclü etnik birləşmələr zəif etnik birləşmələri özünə tabe etmiş, müxtəlif xalqlar arasında ticarət və s. əlaqələri yaratmışlar. Bütün bunların nəticəsində xalqlar, onların dilləri qaynayıb-qarışmış, bir-birinə qarşılıqlı təsir və bir-birindən sözalma prosesləri baş vermişdir. Ona görə də, xalqların həyatında dil əlaqələrinin rolu inkaredilməz dərəcədə böyükdür. Dil əlaqələrini xalqlar və millətlər arasındakı digər əlaqələrdən ayırmaq mümkün deyil.

Dil əlaqələri dil tarixinin mərkəzi problemlərindən biridir. Dil əlaqələrinin üç növünü müəyyənləşdirmək mümkündür.

a) qohum dillər arasında əlaqələr;
b) qohum olmayan dillər arasında əlaqələr;
c) qarışıq əlaqələr.

Hər üç növün özündə daxili ayırma aparmaq imkanı vardır.

Əlaqədə olan dillər bir-birindən ilk növbədə ehtiyac duyduqlarını, ünsiyyəti təmin edə bilmək üçün özündə olmayanları alır. Xalqlar arasında baş vermiş dil əlaqələri, ikidillik və çoxdillik genişlənib inkişaf etdikcə və bu təsir nəticəsində bir dildən başqa dilə keçən alınmaların xarakteri də dəyişir. Burada söz yaradıcılığı xüsusi əhəmiyyət kəsb edir. Çünki söz yaradıcılığı dilçiliyin şöbələri, daha doğrusu dil səviyyələri içərisində xüsusi yer tutur. Belə ki, bütün dil səviyyələri öz xüsusi vahidinə malik olduğu halda, söz yaradıcılığının özünə aid olan xüsusi vahidləri yoxdur. Bu baxımdan o bazissiz dil səviyyələrindən sayılır.

Söz yaradıcılığı dilçilik elminin yeni sözlərin yaranması ilə məşğul olan sahəsidir. Söz yaradıcılığının aşağıdakı üsulları vardır:

a) Söz kökünə müxtəlif şəkilçilər artırmaqla söz düzəldilməsi;
b) Söz kökünə söz artırmaqla söz düzəldilməsi;
c) Sözün bir nitq hissəsindən başqa nitq hissəsinə keçməsi ilə söz düzəldilməsi;
d) Sözə yeni məna verməklə söz dözəldilməsi.

Bunlardan birincisi, dilçilik ədəbiyyatında morfoloji üsulla söz yaradıcılığı da adlanır. Müxtəlif dillərdə şəkilçilər müxtəlif olduğundan bu üsulun müxtəlif növləri vardır:

a) son şəkilçili söz yaradıcılığı;
b) iç şəkilçili (infeksial) söz yaradıcılığı;
c) önşəkilçili (prefiksal) söz yaradıcılığı.

Bəzən söz müxtəlif şəkilçilərdən (prefiks, infiks, posfikslərin) birgə iştirakı nəticəsində yarana bilər. Məsələn, rus dilində зарисовка sözündə olduğu kimi. Belə söz yaradıcılığı, adətən flektiv dillərə aiddir. Söz kökünə şəkilçi artırmaqla yaranan sözlər dözəltmə sözlər adlanır.

Söz yaradıcılığının ikinci üsulu, yəni söz kökünə söz artırmaq yolu ilə söz yaradılması dilçilik ənənəsində daha çox sintaktik yolla söz yaradıcılığı adlanır. Bu əsasən mürəkkəb sözlərdə özünü biruzə verir. Mürəkkəb sözlərin yaranma üsulları müxtəlif dillərdə müxtəlif şəkillərdə təzahür edir.

Üçüncü növ söz yaradıcılığı, yəni sözün bir nitq hissəsindən başqasına keçməsi ilə söz düzəltmə nitq hissələrinin xüsusi morfoloji əlamətləri, daha doğrusu sözdüzəldici şəkilçiləri olmayan dillərdə geniş yayılmışdır. Söz yaradıcılığının bu üsuluna konversiya da deyilir.

Söz yaradıcılığının dördüncü növü əvvəlki üsuldan kəskin fərqlənir. Belə ki, birinci üsul söz yaradıcılığının qrammatika ilə əlaqəsinə əsaslanırsa, dördüncü üsul, daha doğrusu, sözə yeni məna verməklə söz düzəldilməsi söz yaradıcılığının semantika sahəsi ilə əlaqəsinə dəlaət edir. Söz yaradıcılığının bu üsulunu semantik yolla söz yaradıcılığı da adlandırmaq olar. Məsələn, Azərbaycan dilində yoldaş sözünün aldığı yeni ictimai məna dilimizə yeni bir söz vermişdir.

Yuxarıda qeyd edildiyi kimi söz yaradıcılığında, ingilis dilinin lüğət ehtiyatının zənginləşməsində prefikslərin də xüsusi yeri, əhəmiyyəti vardır.

Prefikslərin təsviri zamanı bəzən belə bir vaxtı xüsusilə vurqulayaraq qeyd edirlər ki, suffikslərdən fərqli olaraq, guya prefikslərin bir nitq hissəsini digərinə nəql etmə xüsusiyyətləri yoxdur və onlar yalnız sözlərin mənalarını dəyişməyə xidmət edirlər. Müəlliflərin bəziləri bu barədə kəskin şəkildə fikir yürüdərək deyirlər ki, prefikslərlə suffikslər arasında prinsipial fərq mövcuddur. Bu təkcə onunla izah olunur ki, suffikslər söz kökündən sonra, prefikslər isə bundan əvvələ qoyulur. Əsas fərq ondan ibarət olur ki, suffikslər bu və ya digər nitq hissəsinin kökünə qoşularaq, onları digər qrammatik kateqoriyalara (to eat-eatable) aid edə bildikləri halda, prefikslər bu cür xüsusiyyətlərə malik deyil (to like-dislike, comfortable-uncomfortable). "İngilis dilində prefikslər yalnız və yalnız sözlərin leksik mənasını yenidən qurma vasitəsi olma funksiyasını yerinə yetirirlər".

Digər linqvistlər isə prefikslərin bir nitq hissəsini digərinə nəql etmə xüsusiyyətlərinə malik olduğunu qəbul edirlər, lakin belə hesab edirlər ki, bu funksiyada prefikslər yalnız istisna hallarda çıxış edirlər. Prefikslərlə suffikslər arasındakı fərqli fikirlərə biz K.A.Levsovskayanın fikirlərində də rast gələ bilərik. O da digər linqvistlər kimi prefikslərin nəqletmə qabiliyyətinin olmaması haqqında (alman dilində) danışır. Bundan əlavə K.A.Levkovskaya digər fərqləri də göstərməyə çalışır, lakin onlar qısaca və dürüst ifadə olunmamış qalır: "Söz kökünə qoşulan prefikslər adətən müəyyən bir qismdə qorunub saxlanırlar, və tam olaraq prefiks mənasına qarışmırlar. Prefiksal adlar (isimlər və sifətlər) aid olduqları nitq hissələrinin hüdudları xa-

ricində qalır". Levkovskaya K.A. "sözdüzəltmə sistemində prefikasiyanın spesifikliyi haqda alman dilinin materialı əsasında. "Qrammatik qurluşun sualları", M, 1955, səh 312-313)".

Prefikslər elə sözdüzəldici morfemlər adlanır ki, onlar söz kökündən əvvəl gəlir və sözün leksik mənasını dəyişdirir və əksər hallarda onun bu və ya digər leksik-qrammatik sinfə məxsus olmasına təsir göstərmir. Bu cür prefikslər "konversiyaedici" prefikslər adlandırılır və ingilis dilinin prefiksial sistemində bu cür 25 prefiks olduğu göstərilir.

İsmin felə prefiks vasitəsilə konversiyası zamanı təkcə prefiksasiya deyil, həm də konversiyanın yeri olur, bu zaman prefiks semantikanı dəyişir, konversiya isə kökün qrammatik mənasını dəyişir.

-out prefiksin "to surpass, excel or outdo" (a parson) in the action of the simple word, mənası var: outclimb, outdance, etc. Yuxarıda göstərilən sözdüzəltmə sxemində outmachine sözü "daha çox istehsal etmək mənasını verməli idi". Əslində "outmachine" sözündə ismin felə çevrilməsi "out" prefiksi hesabına baş verir.

Ümumiyyətlə, linqvistikadakı digər anlayışlar kimi prefiksin də şərhi çoxsahəlidir.

Müasir ingilis dilinin prefikslərinin tədqiqinin müəllifi K.V.Piottux prefikslərin geniş təsnifatını verir: "Prefiks-prepozitiv morfemlə əlaqəsi olan kökün müstəqil hissəsinin önünə qoşulan geniş leksik mənaya malik olan, sözdüzəltmə təkrar olunan, söz kökünün leksik-qrammatik əsasına əsaslanan morfemdir". (Пиоттух К.В. «Принципы выделения системы префиксиальных структурно – семантических моделей в современном английской языке». Москва, 1970, стр 57-60).

Hər iki halda prefiks sözün bir hissəsi kimi şərh olunur və göstərilir ki, onlar müstəqil işlənmirlər. Bu cür morfemlərə, əgər onlar tam mənalı sözlər hesab edilirlərsə, -out, -over, -under kimi morfemləri aid etmək olar.

Əgər nəzərə alsaq ki, -out, -over, -under komponentləri prepozitiv morfem rolunda rast gəlinir, onlar müxtəlif mahiyyətə, xassəyə malik ola bilər: onlar omonimlərə parçalanır: out_1, out_2, $over_1$, $over_2$, $under_1$, $under_2$. Onlardan biri tam mənalı sözlər, söz önləridir və mürəkkəb sözlər düzəldir, məsələn: an outdoor, an overlight, underclothes. Digərləri isə prefikslər hesab olunur və prefiksial törəmə sözləri yaradılır, məsələn: to outdance, to overheat, to undervaule. Mürəkkəb sözlərdən fərqli olaraq prefiksial sözlər söz birləşmələrində söz önləri ilə tərkib hissələrinə ayrılmırlar.

Bu kimi tərifin, (şərhin) digər ümumi momenti ondan ibarətdir ki, prefiks sözə qoşulan morfemdir. "Adjacent" sözünün analizi zamanı sözün bir hissəsi kimi "ad" prefiks statusundan mərhum olduğunu şərh etməliyik, belə ki, müasir ingilis dilində "jacent" kimi söz yoxdur. Digər tərəfdən adjoin, admix, adverb sözlərində ad-profeksi seçilir, belə ki, onun çıxılması zamanı- join, mix, verb kimi təmənnalı kök sözləri qalır.

Bu kimi təsnifatlara əsaslanaraq, biz heç də prefiksin "apogee" sözünün birinci hissəsi olduğunu qəbul etməliyik. Lakin "apochomotic" tipli sözlərdə "apo" prefiks hesab edilir.

K.V.Piottuxun fikirlərinin ətraflı şərhi, təsnifatı zamanı digər iki ana da diqqət yetirirlər. Təsnifat genetik anı xüsusi olaraq qeyd edilir, belə ki, prefiks sonuncu derivasiya aktına, yəni bir kökdən ayrı-ayrı sözlərin düzəlməsinə qoşulan morfem

kimi müəyyənləşdirilir. Bununla razılaşmaq olmaz, belə ki, bu halda "disseminati-on" sözündə "dis" prefiks kimi qəbul edilə bilməz, çünki o sonuncu derifasiya aktı-na (disseminate+tion) qoşulmur. Buna görədə prefiksin statusunu sözün genezisin-dən asılı qoymaq olmaz. Başqa sözlə, "dissemination" sözü prefiksal yaranmış söz hesab edilə bilməz. Sonuncu söz düzəltmə aktı burada prefiksə yox, suffiksə qoşu-lan hesab edilir. Lakin bu suffiksal düzəlmənin tərkibində sözsüz ki "-dis" prefiksi də vardır. Bu ziddiyət, "sözdüzəldici prefiks" terminin tətbiq edilməsi hesabına məhz K.V.Piottuxun özü tərəfindən qaldırılmışdır. O deyir: "Sözdüzəltmə prefiksi sonuncu aktda istehsaledici əsasa qoşulan və onunla törədici söz yaratma münasi-bətində olan affiksal morfemdir. (Пиоттух К.В. «Принципы выделения системы префиксиальных структурно – семантических моделей в современном ан-глийском языке». Москва, 1970, стр 57-60).

Prefikslərin növbəti cür təsnifatı mümkündür: ən köhnə, çoxdankı-alınmış, iqtibas edilmiş, yerdəyişdirici, köçürülmüş-yerdəyişdirilməmiş, köçürülməmiş, mənfi, inkar-qeyri mənfi, qeyri inkar, birvalentli-çoxvalentli.

İngilis dilində ən köhnə prefikslər müxtəlif dillərdən, xüsusilə də latın, yunan, fransız dillərindən müxtəlif dövrlərdə götürülmüş prefikslərdən daha azlıq təşkil edir. Alınmış, iqtibas edilmiş prefikslərin siyahısı tamamilə fərqlidir. Xarici dillər-dən törəyən ingilis prefikslərinin aşağıdakı siyahısını təqdim etmək olar: -a, -ant, -arch, -bi, -circum, -cis, -co, -contra, -counter, -de, -demi, -dis, -en, -epi, -ex, -extra, -hemi, -hiper, -hypo, -in, -inter, -intro, -mal, -meso, -meto, -mono, -non, -pan, -pant-ro, -para, -peri, -poly, -post, -pre, -pro, -proto, -re, -retro, -semi, -sub, -super, -sur, -syn, -trans, -tri, -ultra, -uni, -vice.

Valentlik nöqteyi nəzərdən bir qisim prefikslər yalnız bir nitq hissəsinin əsası ilə uyğunlaşa, birləşə bilər. Məsələn: "-arch" prefiksi yalnız isim ilə isim (archbis-hop, archenemy), "-dis" prefiksi ilə həm fel (disagree, discover) və həm də isimlərlə (dismember, discourage) birləşə bilər.

Prefikslər həm də onların hansı nitq hissəsini düzəltmək qabiliyyətinə görə də fərqlənirlər. Bu səbəbdən qırx iki sözdüzəldici prefikslərdən beşi (-be, -de, -en, -out, -un) yalnız fellərin; biri (-cis) yalnız sifətlərin; beşi (-ex, -arch, -ana, -dys, -per) yal-nız isimlərin; biri (-a) yalnız zərfin; on dördü (-a$_2$, -anti, -demi, -epi, -hemi, -hypo, -hyper, -im/in, -non, -pro, -pan, -subter, -supra, -un) həm isim həmdə sifətlərin; üçü (-for, -sur, -ne) fel və isimlərin; biri (-circum) fel və sifətlərin; on ikisi (-co, -contra, -counter, -dis, -intra, -mis, -post, -pre, -sub, -trans, -over, -under) fellərin, isimlərin və sifətlərin düzəlməsində iştirak edirlər.

Ədəbiyyat

1. L.Banketitch. English word-building. Leningrad, 1961.
2. О.Д.Мешков. «Словообразование современного английского языка». Изда-тельство, «Наука», Москва, 1976, стр. 90-119.

Ş.Heydarova
E.Haciyeva

Prefixes and their role in the word-formation

Summary

Word-formation is of great importance in the branches of the linguistic, especially in the language leves. So all language levels have their own unit, but word-formation doesn't have any special units. From this point of view it is considered as one of the baseless language levels. Word-formation is a branch of linguistic which is busy with the formation of the new words.

Prefixes also are great importance in the word-formation and enriching English vocabulary. Hence, the article deals with the prefixes borrowed from other languages and their role in the word-formation widely.

Ш.Гейдарова
Э.Гаджиева

Префиксы и их роль в словообразовании

Резюме

Словообразование имеет болшое значение среди отраслей лингвистики, особенно среди языковых уровней. Тогда как все языковые уровни имеют свои собственные единицы, словообразование не имеют никаких специальных единиц. С этой точки зрения это рассматривается как языковые уровни без базисов.

Словообразование является отраслям лингвистики, которая занимается образованием новых слов. Префиксы имеют также важные значение в словообразовании и обогащении Английского словаря. И так в статье рассматривается префиксы, занимаемые из других языков и их роль в словообразовании.

Rəyçi: Yusif Süleymanov
filologiya üzrə fəlsəfə doktoru

SEVİNC MƏMMƏDOVA
ADU
Aytac2000@yandex.ru

MÜASİR ALMAN DİLİNDƏ İMPLİSIT İNKARLIĞIN İSLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Açar söz: inkarliq,implisit, eksplisit, konstituent, privativ.
Key words: negation,implicit, explicit, konstituent, privativ.
Ключевые слова: отрицание, имплицит, эксплицит, конституент, ривативность.

İnkarlıq bu və ya digər dillərdə həm də gizli üsulla ayrı-ayrı müsbət söz formalarının tərkibində və ya bütöv sintaktik konstruksiya kimi implisit şəkildə ifadə oluna bilər (V. Bondarenko, 1983, s. 171). İmplisit indikatorlarla ifadə olunması inkarlıq anlayışının mürəkkəb ifadə tərzi hesab olunur. Belə implisit vasitələrə - inkarlıq iafdə edən antonimlər, ritorik suallar və gizli inkarlıq aiddir.

Dilçilikdə implisit anlayışının həm geniş, həm də dar izahı mövcuddur. Ondan həm sırf qrammatik hadisə, həm də mətn kateqoriyası daxilində nitq aktının konkret şəraitdə istifadə olunur. İnkarın implisit ifadəsi inkar mənanın aşkarlanmasında müxtəlif rola və rəngarəng təbiətə malikdir. Dil sistemində implisit privativlərin funksional –semantik nisbətləri şübhəsiz ki, ayrı-ayrı dillərdə leksik –semantik və sözdüzəltmə sistemlərinin müxtəlif səviyyəliliyini ,sahə konstituentlərinin struktur və funksional intensivliyini, tipoloji xüsusiyyətlərinin aşkara çıxarılması müəyyən nəzəri əhəmiyyət kəsb edir.(S.Abdullayev,1998)

İnkarlıq sahəsində bütün dil səviyyələrinə aid olan müxtəlif konstituentlər – eksplisit və implisit ifadə elementləri toplanır. İnkarlıq semantikasının ifadəsi üçün bütün dil səviyyələrindəki ifadə əlaqələri sintaktik, leksik-sintaktik, leksik-morfoloji, leksik-semantik, derivasiya səviyyəsinin müxtəlif indiqatorları bir-birini tamamlayır. Mətn linqvistikasında inkarlıq bir sıra kommunikativ, praqmatik, funksional-semantik və üslubi şərtlərlə bağlı olur. İnkarlıq sahəsi geniş dil bazasına əsaslanır. İstər mono, istərsə də polineqativ dillərdə inkar cümləsi təsdiq cümləyə ya inkarlıq konstituentlərinin əlavə olunması yolu ilə, yaxud da təsdiq cümlənin koordinativ distributiv komponentini kənarlaşdırmaqla yaranır. İnkarlıq müəyyən bir əşyanın, hərəkətin özünü deyil, onların real yoxluğunu, ətraf aləmdəki obyektlərə münaasibətdə əlamət və hərəkətin nisbi yoxluğunu ifadə edir. Privativlik anladan implisit inkarlıq vasitələrinin ifadə variantlığı geniş mətn daxilində onların digər inkarlıq komponentlərilə əlaqələrinin fərqlənməsində əhəmiyyətli rol oynayır.

Duden qrammatikasında bəzi tədqiqatçılar morfoloji sintaktik aspektdə inkar elementlərinin tədqiqində bəzi səhvlərə yol verildiyini önə çəkirlər. Belə ki, ver – sözönü Fleyşerə görə 4 əsas məna qrupuna bölünür. Bu qruplardan birinə verachten, verbiegen, verdrehen, verkennen, verschütten, sich vergehen, sich versprechen, sich verschreiben kimi sözlərdə "səhv, təsdiqdən yan qaçma" məna komponentləri özünü göstərir. Fləyşer göstərir ki, inkar məna özünü həmçinin bir sıra isimdən yaranan fellərdə də göstərir, məs: vergiften, versalzen, verwässern. Bu qrupda ver – morfoloji inkar elementi kimi işlənir, çünki semantik strukturda bu şəkildə inkar elementinə rast gəlmək mümkün deyil. Fləyşerə görə ver – inkar elementi hər vaxt

inkar fellərinin yaranmasına xidmət edir. Bundan çıxış edən alimlər də məhz bu cəhətdən qrammatik vasitələrin bəzilərinin məna baxımından implisit inkar elementləri fikrini irəli sürmüşlər.

Belə aydın olur ki, məs: verlieren implisit inkar elementinə aiddir ki, bu da lieren kökünün müstəqil məna kəsb etməsinə gətirib çıxarır. Xaritanora belə implisit inkarlıq elementi "Affirmatik inkarlıq" adı altında müqayisə edir və belə felləri 2 qrupa ayırır: birinci qrupa inkarın empirik leksik məna daşıyan fellər aiddir.

schweigen – nichts sagen, keine Antwort geben
lügen – die Unwahrheit sagen, die Wahrheit sagen
verschweigen – nicht erzählen
untersagen – nicht mitteilen

2-ci qrupa inkarın kateqorial komponentləri daxildir: aufhören, unterlassen, versäumen, (sich) enthalten, sich abgewöhnen, sich weigern, ablehnen, bestreiten, leugnen, aufgehen, hindern, abhalten, abraten, abstreiten, verhindern,verzichten u.a;tərgitmək, etməmək,/əlindən buraxmaq, gecikmək/, bitərəf qalmaq, tərgitmək,/istəməmək, imtina etmək/,rədd etmək,etiraz etmək,/təkzib etmək,danmaq/,aralanmaq,/mane olmaq, çətinliyə salmaq/, məsləhət görməmək,inkar etmək. Bu vasitələr xüsusi ifadə xarakterinə malik olmaqla ən'ənəvi qrammatik inkarlıq vasitələrindən fərqlənir. İmplisit inkara malik olan fellərin hərtərəfli öyrənilməsi mühüm əhəmiyyət kəsb edir,məs:

Eine monatliche Rente von 500 Euro bis zum 60. Lebensjahrbieten wir Ihnen schon für einen geringen Beitrag-was wir uns leisten könen,weil wir auf Außendienst, Geschäftsstellen und auch sonst alles verzichten**, was** eine Versicherung teurer macht.

Xaritanova görə frei, schwer, anders, vorbei, angeschlagen, trotz – kimi elementləri də inkarlıq çalarlığına malikdir, məs:

1) Die Gerichte sollen unabhängig und frei von jeder Einmischung arbeiten.
2) Die Unternehmen werden anders als bisher selbstständig Arbeitkräfte einstellen und entlassen können.
3) Trotz des Vertrags mit USA wagt in China kaum jemand eine längerfristige Prognose.
4) Diese Epoche der proletarischen Eintönigkeit ist zumindest vorerst vorbei.

Bu nümunələrdən göründüyü kimi frei — "nicht gebunden", anders — "nicht (mehr) so", trotz — "nicht beachtet", vorbei — "nicht mehr da", "angeschlagen" – kimi ifadələr implisit leksikləşmiş inkarlıq elementləri kateqoriyasına daxil olur.

Funksional-semantik inkarlıq sahəsi daxilində əsasən bu ifadə vasitəsi xüsusi nəzərə çarpır.

a) morfoloji səviyyəli ifadə vasitəsləri (nicht, kein, weder – noch, ohne dass, anstatt zu …)
b) leksik səviyyəli ifadə vasitələri (nichts, niemand, nimmer, fehlen, nie, nirgends ...)
c) sintaktik səviyyəli ifadə vasitələri (Du und Macht? Sie ist jung, für solch eine Position ...)

İmplisit inkarın ümumi reallaşdırıcıları sırasında qeyri-inkar mühakimələrdə onun leksik-qrammatik tərkibində inkar semanın göstəriciləri də mövcuddur. İmplisit inkarın belə xüsusiyyətini müəyyən etmək üçün onların qeyri-inkar strukturlar-

da inkar şemanın ifadəsində mühüm əhəmiyyət daşıyan digər indikatorlarla qarşılıqlı əlaqə və fəaliyyətdə nəzərdən keçirmək daha uyğundur.

İmpilsit inkarlıqla Arnold İ. V., Dolinin K.A., Şendels E. İ. məşğul olmuşlar. Böyük ensiklopedik lüğətlərdə implisit (ingiliscə: implisit) "söylənməmiş" kimi ifadə olunur. V. N. Yartseven redaktəsi olan linqvistik lüğətlərdə isə implisitlik fenomeni "dilin gizli kateqoriyaları" – bu eksplisit morfoloji ifadə vasitəsi deyil söz və söz birləşməsinin semantik və sintaktik xüsusiyyətidir. Admoniyə görə inkarlıq-təsdiqin kateqoriyası – dildə əsas, bəzi linqvistlər isə təsdiqi (Bejahung) və inkarlıq (Verneinung) bir predikativ cümlə strukturunun komponenti kimi təhlil edirlər. Axmanova inkarlığın müxtəlif növlərini müəyyən edib:

– Mütləq inkarlıq
– İkiqat inkarlıq
– Məntiqi inkarlıq
– Sadə inkarlıq
– Təkrari inkarlıq
– Sintaktik inakrlıq (ritorik sual şəklində leksik ifadə vasitələrilə olan inkarlıq)
– "Anngret,libe Anngret,lass deinen Berg von einemBullen auf mein Kühchen springen".Anngret steht auf der Wohnhaustreppe und schaut auf Sophie Bummel und ihre Kleinkuh hinab.
– "Ist sie gesund ,deineKuh?"Hat sie keinen Katarrh unter dem Schwanz keine Tuberkleltierchen im Leib?"
– Die abgehetzte Sophie wischt ihrer Kuh mit der Schwürze die Augen aus
– "Meine Kuh frisst wie ein Raubtier.Wird sie da krank sein"?-(Schrittmatter1988,s.10-11)

İmplisit inkarlıq alman dilində müxtəlif linqvistik dil elementləri ilə də ifadə oluna bilər. Konyunktiv II şəklində olan nida cümlələri irreal arzunu ifadə edə bilər:

1."Lieber Instetten! Wenn ich hätte die! (Eine Million Mark)".

(Es tut mir leid, aber ich habe dieses Geld nicht)

2."Jetzt brauchen wir einen Stanislaus",sagte er.

"Ich hatte an einen Bodo gedacht",sagte Lena.

"Bodo?Ein grosser Hund konnte zur Not Bodo heißen"

Müəyyən sintaktik mövgelərdə ayri-ayri sözlərin ekspresiv-kinayəli tərzdə istifadə olunmasi da implisit inkarın yaranmasına səbəb olur.

"Bist du von der Sporthochschule?

1."Sportstudent? Er lachte. Volksarmist auf Urlaub!" (Ich bin kein Sportstudent).

"Sie sind ein Frühaufsteher,Herr Spinel"sagte Herrn Klöterjahns Gattin."Zufällig habe ich Sie nun schon zwei –oder dreimal um halb acht Uhr am Morgen das Haus verlassen sehen".

"Ein Fühaufsteher? Ach,sehr mit Unterschied,gnädige Frau.Die Sache ist die,dass ich früh aufstehe,weil ich eigentlich ein Langschläfer bin".(Eigentlich bin ich kein Frühaufsteher?

Mətn daxilində nəzakətli implizit inkar forması ən çox üzürlü hesab edilməni ifadə edir:təəsüflənmə,heyifsilənmə -" Entschuldigen Sie";"Verzeihen Sie"və forma olaraq"böyük məmuniyyətlə ancaq bilmərəm","Gerne, aber ich kann nicht".

İnkarlıq effektinin gücləndirilməsində təkrarın xüsusi yeri var. İnkarlıq mənasının nisbi dərəcəliliyi konkret ünsiyyət çalarlığı ,təkrarlanan hissələrin leksik –sintaktik tərkibində ritmik amillərdən asılı olur.

"Der Bock soll dir zu Ehren Ole heißen ."

"Nein-nennt ihn Casanova"

"Was hat Casanova geleistet?"

Eigentlich nichts.Nein ,nennt ihn Champion."

"Champignon ist ein Pilz,Onkel Ole."

"Er kann auch ein Siger auf der Rennbahn sein .Wer hat ein Taschenmesser?"(Strittmatter 1988)

İnkarlıq anlayışı mətnlə sıx əlaqəlidir. Dildə inkarlıq müxtəlif növ cümlələrdə özünü büruzə verə bilər: nəqli, sual, əmr, nida və s. Privativlik anladan implisit inkarlıq vasitələrinin ifadə variantlığı, geniş mətin daxilində inkarlıq komponentləri ilə əlaqə və təsir ümumən təsdiq və inkarın müxtəlif məna incəliklərinin, məntiqi və emosianal –ekspressiv çalarlıqlarının fərqləndirilməsində əhəmiyyətli rol oynayır. (S.Abdullayev,1998,s,204).

Dildə mövcud olan çoxsaylı sintaktik idiomlarda implisit inkarliğı tez-tez müşahidə etmək olur. məs:mit seinem Latein am Ende sein-nicht mehr weiterwissen; auf der Kippe stehen-noch nicht entschieden sein;das ist klar wie dicke Tinte-das ist nicht klar.

Privativlik semantikasının implisit ifadəsi cümlə daxilində predikativ semantik – sintaktik strukturu kommunikativ cəhətdən formalaşmasını tənzimləyir, semantik inkarlığı daha çox olan alman dili üçün daha geniş potensial imkanlar yaranır. Beləliklə implisit inkarlıq canlı danışıq dilində müxtəlif üslub məna çalarlarının ifadəsində xüsusi rol oynayır.

Ədəbiyyat

1.S.Ə.Abdullayev. Müasir alman və Azərbaycan dillərində inkarliq kategoryasi. Baki: Maarif 1998

2.Hartung W. Die Negation in der deutschen Gegenwartssprache,Daf/3,1966,Heft2

3.Riesel E.,Schendels E.Deutsche Stilistik,M,1975

4.Булах Н. А. Средства отрицания в немецком литературном языке. Ярославль,1962.

5.Schendels E. Deutsche Grammatik Morphologie .Syntax.Text.M.,1982

6.Бондаренко В. Отрицание как логико-грамматическая категория, М.,Наука, 1983.

7.Адмони В. Г. Введение в синтаксис современного немецкого языка. –М. Изд. , лит.на иностр. Яз. 1955

С. Мамедова

Реализация имплицитных отрицаний в современом немецком языке

Резюме

Статья посвящена рассмотрению имплицитных отрицания в немецком языке. Целью является исследование различных лексических, морфологических и синтактических средств отрицания на всех лингвистических уровнях для правилного понимания. Таким образом, косвенное и имплицитное отрицание обнаруживающие как сходства,так и различия языкового и прагматического характера,наполняют негативную реакцию говоряшегосамыми разнообразными оттенками,истинный смысл которых контекстно обусловлен проявлять агрессию и грубость, предоставлять коммуниканту широкий спектр возможностей реализовать отрицательную реакцию

S.Mammadova

The implementation of implicit negation in modern German language

Summary

The article is devoted to the implicit negation of the German language.It aims to examine different lexsical,morphological,syntactical means of negation in all lingual levels-for right understanding.Thus indirect and implicit negation,detect the similarities ,the differences language and pragmatic character,fill a negative reaction speaking in a variety of shades,the true meaning of wich are contextually caused, purposely to show aggression and roughness,provides to communicant a wide range of options to negative reaction.

Rəyçi: Sərxan Abdullayev
filologiya elmləri doktoru, professor

İRADƏ SEYİDOVA
Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt Filialı

SÖZ BÜTÖVLƏRİ VƏ CÜMLƏDƏ SÖZLƏR

Açar söz: Söz birləşmələri, sintaksis, marfalogiya, qramatika, söz bütövləri, leksika
Key words: word combinations, syntax, sintaksis, morphology, grammar the whole, vocabulary.
Ключевые слова: Словосочетания, морфология, грамматика, словарь.

Məlumdur ki, sintaksisin əsas vahidlərinin söz birləşmələri, cümlə və sintaktik bütövlər olduğu sintaktik bütöv cümlələrdən, cümlə sözlərdən və söz birləşmələrindən, söz birləşmələri isə sözlərdən əmələ gəlir. Sintaktik bütövlərin necə yarandığını, cümlələrin bir-biri ilə necə və hansı vasitələrlə bağlandığını mətnin necə qurulduğunu sintatik araşdırmalar müasir dilçilik elminnin əsas istiqamətlərində söz birləşməsi və cümlənin quruluş modellərini, sözlər arasında əlaqənin necə yarandığnı aydınlaşdırmaq əsas şərtlərdən biridir.

Hər bir nitq vahidinin forma və məzmun vəhdəti əsasında qurulduğunu bilirik. Bu xüsusiyyət eyni dərəcədə söz birləşməsinə, cümləyə və sintaktik bütövlərə də aiddir. Sözlər də söz birləşməsi və cümlə daxilində bir-biri ilə iki cəhətdən bağlı olur: məna (semantik) cəhətdən; qrammatik (sintaktik) cəhətdən. Başqa sözlə desək, söz birləşməsini və cümləni təşkil edən sözlər arasında həm mənaca, həm də qrammatik cəhətdən bağlılıq onların mövcudluq vasitəsidir.

Sözlər arasında məna əlaqəsi dedikdə, sözlərin əlaqəsi nəticəsində yaranan leksik semantika deyil, ümumiləşmiş qrammatik semantika nəzərdə tutulur. Məna əlaqəsi obyektiv aləmdəki əşya və hadisələrlə onların müxtəlif əlamət və xüsusiyyətləri arasındakı real əlaqələrdən doğur. İnsan yeriyir, şir nərildəyir, quş uçur lakin əşya ilə hərəkətin n ə zaman baş verməsi və necə baş verməsi tez – tez anı – cümlələrinin hər biri leksik semantikasına görə fərqli məna ifadə edir, lakin bunlar ümumiləşmiş qrammatik mənasına görə eyni cümlələrdir -hamısında əşya ilə onun hərəkəti ifadə olunmuşdur. Doğrudan da birləşrnələrini hər biri fərdi semantikaya malik olduğu halda, ümumiləşmiş qrammatik mənasına görə eyni olub, hərəkətlə onun obyekti arasınmdakı əlaqəni bildirir. İndi suvarmaq, (maşını) bir qədər sonra işə salmaq, bütün günü şumlamaq birləşmələrində hərəkətlə onun zamanı, tez-tez suvarmaq, yavaş-yavaş işə salmaq, Məsələn insanın sürətlə qaçması sürətlə hərəkətlə onun tərzi arasındakı əlaqələr ifadə olunmuşdur və s. Söz birləşmələrini və cümlələri təşkil edən sözlər arasında əlaqə hüdudsuz olduğu halda, ümumiləşmiş məna əlaqələri məhduddur və cəmi dörd növə ayrılır:

1. Predikativ əlaqə. Bu əlaqə əşya ilə onun hərəkəti arasındakı əlaqəni bildirir; məs.: Külək əsir. Dəniz dalğalanır. Sən işləyirsən. Biz oxuyuruq və s. Bu əlaqə söz birləşməsində özünü subyekt əlaqəsi kimi göstərir.
2. Atributiv əlaqə. Bu əlaqə əşya ilə geniş mənada onun əlaməti (maddi-material əsası, keyfiyyəti, miqdarı, sırası və s.)
3. arasındakı əlaqələri ifadə edir; məs.: daş divar, yaxşı adam, çürük meyvə, həmin ev, xeyli kitab və s. Atributiv əlaqə özünü təyinlə təyinlənən arasında (təyin + mübtəda, təyin + tamamlıq, təyin+ zərflik, təyin + xəbər şəklində) göstərir, cüm-

ləyə Obyekt əlaqəsi. Bu əlaqə hərəkətlə onun obyekti arasındakı əlaqələri ifadə edir. Obyekt dedikdə həm müstəqim (ismin təsirlik halı ilə ifadə olunan), həm də qeyri-müstəqim (ismin yönlük, yerlik və çıxışlıq halları ilə ifadə olunan) obyektlər nəzərdə tutulur; məs.: dənizi seyr etmək, kitabı oxumaq, səndən soruşmaq, ona sual vermək. Dənizi seyr edirəm. Kitabı oxuyuram. Səndən soruşuram. Ona sual verirəm.

Obyekt əlaqəsi həm söz birləşmələrində, həm də cümlələrdə özünü göstərir. Söz birləşməsində olduqda tərəflər birlikdə bir mürəkkəb üzv kimi götürülür, cümlədə olduqda müstəqim obyekt bildirən sözlər yalnız təsirli feli xəbərlə, qeyri-müstəqim obyekt bildirən sözlər isə həm feli, həm də ismi xəbərlə əlaqələnir və cümlədə tamamlıq vəzifəsində işlənir.

4. Relyativ (zərfi) əlaqə. Məna ismi birləşmə şəklində daxil olur, əlaqəsinin bu növü hərəkətlə onun tərzi, dərəcəsi, zamanı, yeri kəmiyyəti, səbəbi, məqsədi, şərti və s. arasındakı əlaqələri ifadə edir və çoxplanlılığı ilə seçilir; məqsədi asta yerimək, artıq dərəcədə sevinmək, səhərəcən gözləmək, kəndə yollanmaq, ağır danışmaq, üzüntülü yaşamaq, bərkdən gülmək və s. Bunlardan cümlə şəklində də ifadə etmək olar. Reliativ əlaqə özünü zərfliklə feli və ismi xəbər arasında göstərir. Söz birləşməsində olduqda tərəflər birlikdə mürəkkəb üzv kimi təhlil edilir.

Söz birləşməsi və cümlədə sözlər arasında əlaqələrin ikincisini qrammatik əlaqələr təşkil edir. Dilin sintaktik quruluşundan bəhs edərkən qrammatik əlaqələr ön plana keçir. Qrammatik əlaqə sözlərin morfoloji cəhətdən dəyişməsi, sintaktik yolla birləşməsi nəticəsində əmələ gəlir. Əhməd araba tarla mindi sözlərinin cümlə şəklinə düşməsi, nisbi bitkin fikir ifadə etməsi üçün maşın sözünün təsirlik, həyət sözünün yönlük hal şəkilçisi, sürmək felinin zaman və şəxs şəkilçiləri qəbul edərək dəyişməsi, beləliklə, araba tarla minmək sözü vasitəsilə idarə olunması, minməsi sözünün Əhməd şözü ilə uzlaşması lazımdır: Əhməd tarlada arabaya mindi.

Birləşmə və cümlələrdə sözlər arasında formal əlaqəyə ona görə qrammatik əlaqə deyilir kl, bu əlaqənin yaranması üçün həm morfoloji, həm də sintaktik kateqoriyaların fəaliyyəti, yəni sözlərin, morfloji cəhət dəyişmə sintaktik cəhətdən birləşməsi əsas və Həll edicidir. Qrammatikada sözlərin dəyişməsi, müxtəlif şəkillərə düşməsi, təsiri qaydaları marfalogiyanın, sözlərin bir-biri ilə bağlanma, əlaqələnmə qaydaları sintaksisin payına düşür. Buna görə də qrammatik əlaqələrə konkret olaraq "sintaktik əlaqələr" də deyilir.

Cümləni təşkil edən sözlər arasında formal-hüquqi əlaqələr tarixən cəmiyyət üzvləri arasındakı əlaqələri xatırladır. İbtidai dövrlərdə cəmiyyət üzvləri arasında bəsit hüquq bərabərliyi olduğu kimi, cümləni təşkil edən bəzi sözlər arasında da tabesizlik, hüquq bərabərliyi olur. Cəmiyyətdə quldarlıq quruluşundan başlayaraq ağa - qul münasibətləri, hazırkı dövrdə rəhbər və ona tabe işçilər qrupu formalaşdığı kimi, sözlər arasında qrarmmatik əlaqələr də əsas və, asılı tərəflərin əlaqəsinə əsaslanır. Əhmədi qəzəblə, nifrətlə rədd etdilər cümləsində qəzəblə, nifrətlə bərabər hüquqlu sözlər olub tabesizlik yolu ilə əlaqələnmişlər. Lakin bu sözlər başqa bir sözə - rədd edilir sözünə eyni dərəcədə tabe olmur, yanaşma yolu ilə həmin sözdən asılı vəziyyətə düşmüşlər. Buna görə də qrammatik (sintaktik) əlaqələr iki növə ayrılır: 1) tabesizlik əlaqəsi; 2) tabelilik əlaqəsi.

Tabesizlik əlaqəsi. Sintaktik əlaqənin bir növü olan tabesizlik əlaqəsində tərəflər bərabərhüquqlu olur, ona görə də tərəflərdən biri digərini izah etmir, aydınlaşdırmır. Tabesizlik əlaqəsi sadə cümlənin həmcins üzvləri və tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında özünü göstərir. Həmcins üzvlər bir-biri ilə ya sadalama intonasiyası, ya da intonasiya və tabesizlik bağlayıcıları ilə əlaqələnir.

Həmcins üzvlər cümlə strukturunda həlledici rola malik deyil və yalnız əmiyyət dəyişikliyi ilə informasiyanın zənginləşməsinə səbəb olur.

Tabesiz mürəkkəb cümlələrin tərkib hissələri də eyni vasitələrlə (intonasiya və tabesizlik bağlayıcıları ilə) əlaqələnir. Sadə cümlənin bərabərhüquqlu (həmcins) üzvləri cümlə daxilində başqa bir sözə tabe olur, tabelilik əlaqəsi üzrə başqa bir sözlə bağlanır.

Tabelilik əlaqəsi. Qrammatik əlaqənin bu növünün - tabelilik əlaqsinin dildə daha böyük rolu vardır. Cümlənin karkası tabelilik yolu ilə qurulur. Xəbər mübtəda ilə, tamamlıq və zərflik xəbərlə təyin təyinlənənlə tabelilik yolu ilə əlaqələnir. Söz birləşmələrinin tərəfləri arasında tabelilik əlaqəsi olur. Tabeli mürəkkəb cümlələrdə budaq cümlə baş cümləyə tabelilik əsasında bağlanır. Ümumən cümlənin strukturu tabelilik əlaqəsinə əsaslanır.

Tabelilik əlaqəsi iki tərəfi, iki komponenti birləşdirir. Tərəflərdən biri əsas, digəri asılı tərəf adlanır.

Xəbər mübtədaya tabe olmuş, onunla uzlaşmışdır; tamamlıqlar (tüfəngini, ağacdan) idarə yolu ilə xəbərə tabe olmuşdur; gənc sözü mübtədaya, yavaşca sözü yanaşma yolu ilə xəbərə tabe olmuşdur.

Cümlədə sözlər bir-biri ilə birbaşa (bilavasitə) və ya dolayı yolla (bilvasitə) əlaqələnir. Yuxarıdakı misalda xəbərlə mübtəda, tamamlıq və zərfliklə xəbər, təyinlə mübtəda arasında əlaqə birbaşadır. Təyin xəbərlə mübtəda vasitəsilə, tamamlıq və zərflik mübtəda ilə xəbər vasitəsilə əlaqələnmişdir.

Sözlər tabelilik yolu ilə əlaqələnərək iki cür birləşmə əmələ gətirir predikativ birləşmələr, qeyri-predikativ birləşmələr.

Predikativ birləşmələr xəbərin iştirakı ilə yaranan birləşmələrdir. Burada, başlıca olaraq, cüttərkibli cümlənin mübtəda - xəbər əlaqəsi nəzərdə tutulur; məs.: Sabah Bəşir öz qızını müəlimin yanına aparacaqdı - cümləsindəki Bəşir aparacaqdı birləşməsi predikativ birləşmədir. Nitq prosesində məlum olandan yeniyə tiqamətində bu cümlədəki sabah aparacaqdı, öz qızını aparacaqdı, müəllimənin yanına aparacaqdı birləşmələri də predikativ birləşmələrdir. Predikativ birləşmə başqa sözlə "cümlə" deməkdir.

Qeyri-predikativbirləşmələr xəbərin iştirakı olmadan qurulan birləşmələrdir; məs: Onlar qapını döyəndə usta Rəhim yuxuda idi (Mir Cəlal) - cümləsində onlar qapını döyən, usta Rəhim birləşmələri qeyri-predikativ birləşmələrdir.

Bunlar müasir söz birləşməsi təliminə uyğun birləşmələrdir və sintaksisdə "söz birləşməsi" dedikdə bu cür birləşmələr nəzərdə tutulur.

Üç gün idi ki, yağış başlamışdı. Bütün göy üzü bulud idi. Amma o buludların səddi-sərhəddini ayırmaq mümkün deyildi. Boz buludlar lap aşağı enmişdi. Narın, kor yağış kəsmək bilmirdi. Yayın quraqlığından çat-çat olub ayrılmış Muğan torpaqları sudan doymurdu. Su dənəvərlənmiş torpaqları elə isladırdı ki, yollar, çöllər keçilməz olmuşdu. Yağış isə kəsmirdi ki, kəsmirdi. (F.Kərimzadə)

Bu sintaktik bütövdə əhatə olunan bütün hadisələr eyni vaxtda - mətnin əvvəlində qeyd edilən üç gün ərzində baş verir. Hətta üçüncü cümlədəki amma sözü də ziddiyyət yarada bilmir: bütün göy üzü buluddursa, təbii ki, onun səddi-sərhəddi bilinməz.

Bu cür mətnlər adətən statik xarakterdə olur.

b) Mətnin komponentləri zaman ardıcıllığı üzrə birləşir. Bu xüsusiyyət daha çox dinamik mətnlərə aiddir. Dinamik mətnlər ardıcıllıq əlaqəsi üzrə qurulur və oxucunu yeni-yeni hadisələrlə tanış edir. Məsələn:

Lələ atdan düşdü, çəkib həyətdəki dirəyə bağladı. Yuxudan hələ də oyanmamış İsmayılı örtüyə bürünmüş vəziyyətdə evə apardı, yerdəki döşəyin üstündə uzadıb üstünü örtəndən sonra qazı Əhməd əyilib işığı İsmayılın sifətinə tutan kimi onu tanıdı. (F.Kərimzadə) Müşahidə olunan mə`na əlaqələrindən biri də s əbəb - nəticə əlaqəsidir. Komponentlərin biri və ya bir qismi səbəbi, biri və ya bir qismi nəticəni bildirir. Məsələn:

Neçə vaxt idi ki, Qarabağa yağış düşmürdü. Düzənlərin otu qurumuşdu, heyvanlar, atlar otlamağa bir şey tapmırdı. (F.Kərimzadə)

Səbəb-nəticə əlaqəsinə yaxın məqamda bə`zən sintaktik bütövlərin komponentləri arasında aydınlaşdırma əlaqəsi müşahidə olunur. Bu cür mətnlərin əvvəlində ümumiləşdirici bir cümlə işlənir, sonra gələn cümlələr onun aydınlaşdırılmasına, təfərrüatına səbəb olur. Məsələn:

Anam heç vaxt evdən yaman günlüyü üzməzdi. Bizdən gizli, ərindən ötrü yağ da saxlardı, ərik də. Doşab da qənaət edərdi, bal da. Qənd ehtiyatı da görərdi, xına da. Odun da yandırardı, kömür də. (Ə.Vəliyev)

Bu misalda birinci cümlədən sonrakı nöqtəni qoşa nöqtə ilə, sonrakı nöqtələri nöqtəli vergüllə əvəz etmək olar. Göründüyü kimi, aydınlaşdıran hissə sadalama üsulu ilə qurulmuşdur.

Bəzən mikrotema ziddiyyətli və ya müqayisəli qarşılaşdırma üzərində qurulur. Bu cür hallarda sintaktik bütöv adətən iki qütbə ayrılır. Məsələn:

Onların məndən iki-üç yaş böyük bir oğlu vardı, özü də ağıldan kəm idi. Onunla oynamaq üçün mən tez-tez onlara qaçardım. Ancaq oğlan mənimlə oynamayıb, qıyıq gözlərilə eyzən boşluğa baxaraq öz-özünə anlaşılmaz sözlər danışardı. (İ.Əfəndiyev)

Belə mətnlərdə müqayisəli və ya ziddiyyətli qarşılaşdırma qarışıq şəkildə ola bilir. Məsələn:

Mina aparmış yerləri tikdilər. Ölməyib sağ qaldım. Evimə qayıtdım. Arvad öldüyümü zənn edib başqasına ərə getmişdi. Mən onu qınamadım. Ancaq üç dəfə üzüzə gəldik, halımı soruşmadı. Qoltuq ağacına dayanıb yeridiyimi gördüsə də, halıma acımadı. (Ə.Vəliyev)

Mikromətnlərin bölüşdürmə əlaqəsi əasında qurulduğu hallar da çoxdur. Adətən, bu cür mətnlər bağlayıcıların iştirakı ilə formalaşır.

- sözlərdən fərqli olaraq, birləşmələrin əsas və asılı tərəfləri olur; məs.: baharı gözləmək, dağlardan uca, ən uzaq ulduz, günəş kimi parlaq və s. birləşmələrin birinci tərəfi asılı, ikinci tərəfi əsas tərəfdir;

- söz səslərdən, söz birləşməsi isə sözlərdən yaranır, buna görə də söz birləşmələrində asılı tərəf əsas tərəfi konkretləşdirmək və müəyyən cəhətdən dəqiqləşdir-

məklə bitkinliyin yaranması üçün dil materialını müəyyən mərhələyə qədər hərəkətə gətirmiş olur.

Bütün bunlar göstərir ki, sözlərlə söz birləşmələrini fərqləndirmək o qədər də çətin deyildir. Lakin sözlərin elə bir qrupu vardır ki, onlar söz birləşmələrinə daha yaxındır. Həmin söz qrupu mürəkkəb sözlərdən ibarətdir. Söz birləşmələri ilə mürəkkəb sözlər arasında yaxınlıq daha çoxdur:

- həm söz birləşmələri, həm də mürəkkəb sözlər ən azı iki müstəqil sözün birləşməsi yolu ilə əmələ gəlir;
- söz birləşmələri və mürəkkəb sözlər eyni nitq hissələrindən formalaşır;
- söz birləşmələri və mürəkkəb sözlər eyni sintaktik əlaqələrlə formalaşır;
- və, nəhayət, hər ikisində söz sırası eyni olur.

Bu cür yaxınlığa səbəb söz birləşmələrinin mürəkkəb sözlər üçün baza rolunu oynamasıdır, yə`ni mürəkkəb sözlər söz birləşmələrinin bə`zi quruluş modelləri əsasında formalaşır.

Beləliklə, sintaksisin əsas vahidlərindən biri olan söz birləşmələri mahiyyət e`tibarilə söz-formalara yaxın olub, sözlərin genişlənmə, dəqiqləşm ə modelidir.

Ədəbiyyat siyahısı

1. Möhsün Nağısoylu «Azərbaycan dili», Bakı, 2005
2. Zülfiyyə İsmayıllı "Azərbaycan dilində qeyri-təyini ismi birləşmələr", Bakı, 2012.
3. Bakı Slavyan Universitetinin elmi əsərləri. Dil və ədəbiyyat seriyası. - Bakı, 2010. - xüs.bur. - . S. 195-206
4. Azərbaycan dilçilik tarixi - Fərhad Ağazadə : Kaspi. - Bakı, 2012.- 13-15 oktyabr
5. Teymur Əhmədov, Dil ilahi qüdrətdir - Bakı, 2012.- 2 oktyabr
6. Nəriman Seyidəliyev, «Dilimizi göz bəbəyi kimi qoruyaq», Bakı, 2012.- 2 avqust
7. M. Hüseynzadə və Y.Seyidov. "Müasir Azərbaycan dilində söz birləşmələri" (1961)

Ирада Сейидова

Резюме на тему вопрос о связи между словами и словосочетаниями в предложении

Резюме

Созданное на основе единства формы и содержания каждой единицы речи, вы знаете. Эта функция представляет собой сочетание одного и того же слова, предложения и синтаксических проблем. Сочетание слов и фраз в предложении связаны друг с другом в двух отношениях: значение (семантическое) точки зрения, грамматические (синтаксические) условиях. Другими словами, фразы и предложения, но смысл слов и их грамматические отношения между средствами существования.

Отношения между значением слова означают слова из области лексической семантики не быть обобщены грамматическую семантику.

Irada Seyidova

On the question of the relationship between words and phrases in a sentence

Summary

Established on the basis of unity of form and content of each unit of speech, you know. This feature is a combination of the same word, sentence, and the syntactic concerns. The combination of words and phrases within a sentence are related to each other in two respects: the meaning (semantic) point of view, the grammatical (syntactic) terms. In other words, phrase and sentence, but the meaning of the words and their grammatical relationship between the means of existence.

Relationship between the meaning of the words mean, words from the lexical semantics do not be generalized grammatical semantics.

Rəyçi: İsmayıl Qarayev
filologiya elmləri doktoru

MƏSUD MƏMMƏDOV
VƏFA MƏLİKOVA

AZƏRBAYCAN VƏ RUS DİLLƏRİNİN BƏZİ SÖZLƏRİNİN TİPOLOJİ TƏHLİLİ

Açar sözlər: tipologiya, yemək, yem, yemişan, getmək, paralellər.
Ключевые слова: типология, есть, пища, бояришник, итди, паралелы.
Key words: typology, to eat, feed, hawthorn, to go, parallels.

Dillərin tipoloji tədqiqatında və təsnifatında çarpazlaşmış əlamətlər sisteminə əsaslanmaq meyli qüvvətlənir. Bunun nəticəsində tipologiya elmində bir sıra cərəyanlar meydana çıxır. Bu cərəyanlardan biri çox pilləvari tipolrgiyadır. Onun da görkəmli nümayəndəsi Amerika dilçisi E.Sepir hesab olunur. O göstərirdi ki, ayrı-ayrı, bəzən də ərazicə bir-birindən uzaq olan dillərin «bənzər inkişaf istiqaməti» müşahidə edilir. Biz də məqaləmizi belə bir inkişaf istiqamətinə həsr etmişik.

Məlumdar ki, sinonimlər və anonimlər öz sıralarını alınma sözlərin hesabına daha çox genişləndirir. H.Ə.Həsənov qeyd edib ki, «Anonimlər, əsasən dilin daxili imkanları hesabına yaranır, lakin başqa dillərdən sözalma ilə əlaqədar olaraq da dildə anonimləşmə prosesi gedə bilər» (1, 45). Müəllifin ikinci fikri daha doğrudur. O, yazır: «Alınma sözlər əsasında müəyyənləşən amonim cərgələrin üzvlərinin hamısı alınma və ya biri alınma, o biri isə milli söz olur». (1, 46).

Bu nəzəri fikir sinonimlərə də aid etmək olar. Bizim təhlil edəcəyimiz «yemək» və rus dilindədəki «есть» sözləri də öz milli dillərində sinonimlik yaradıblar. Təkcə rus dilinin «словарь синонимов русского языка. М. 1973-cü il nəşrində qeyd olunub: «есть 1. принимать пищу, кушать, жрать, лопать, трескать, рубать (груб.прость). II перех: уплетать, уписывать, убирать, уминать (прост); вкушать (уст.книжн) жадно, глотать, поглощать: пожирать (разг) Жидкую пищу: хлебать (прост) что-л, вкусное: лакомиться чем//неперех.: закусывать, наворачивать (прост): шимать (груб.прост.) постоянно что-л или где-л.: питаться, столоваться, кормиться (разг.); трапезовать (уст.); корчиться (уст.прост.); трапезничать (уст.книжн.). Ср. наедаться (2.134).

Burada demək yerinə düşərdi ki, rus dilindəki «есть» - felinin indiki zamanı (ya) **yem** – (mən) yeyirəm və əmr forması **yej** formaları Azərbaycan dillərindəki sözlərlə paralellik təşkil edir. Azərbaycan dilində ki, **yem** – mal-qara üçün hazırlanan azuqəyə (qurumuş və ya təzə biçilmiş ota) deyilir.

Yem – sözünün kökü və əsası üzərində yeni-yeni sözlərin yaranması göstərir ki, rus dilindəki «есть» belə geniş söz yaradıcılığına malik deyil. Birdəki rus dilində «есть» - varam mənasında da işlənilir.

Məsələn, Я есть князь – hərf mənada «mən varam» князь; amma Azərbaycan dalindəki «Yem» ümumi türk mənşəli olub, aşağıdakı sözlərin yaranmasına səbəbkar olmuş və kök söz olaraq dəyişmədən qalmışdır. Müqayisə et: **Yem** (**yem keldür** – «yemək gətir» MK-III 144), Yeməcük – buğda saxlamaq üçün kiçik bir kisə (meşok), yemək (etnonim)-kıpcak türklərinin etnik bir adı:

ertiş suvi yeməgi-irtiş çayının sahilində yeməyi… onlarda möhkəm ürək var. (bax MK 1325). **Yemət** – təsdiq mənasında (hə, belə), **Yemır** – sındırmaq, dağıtmaq (MK III 8); Yemurıl < yemir -: **bu ağız yemirilip terin yer bolmış erür** – «bu keçid dağılıb və dərin yarıq yaradıb» (Sur 602.14); **Yemiş** (< **ye** – «есть» + **miş** = **yemiş**) 1. bostan bitkisi: **yemiş pışdı-yemiş yetişdi** (MK II 12); **Yemişlən** – məhsul vermək, meyvə ilə doldurmaq: **yığac yemişləndi** – ağac meyvə verdi (MK III 114); **Yemişlik** – bağ: qaltı yanı yemişlik ev barq yaratırsa – «buna oxşar necə bağ və ya bağça yaradırlar» (M1.14.9); **Yemişsiz** – meyvəsiz, barsız: **uquşsuz kişi ol yemişsiz yığac** – «ağlın itirən insan barsız ağaca bənzəyir» (QBH 91,10); **Yemlən** – yemlən (QBH 91,20); **Yemşən** – bitki adı, meyvəsindən istifadə edirlər (MK III 37). **Yemür** – dağıtmaq: bu suv ol yığacığ yemürğən – «Bu su ağaca qədər dağıtdı». (MK III 54) və s.

Rus dilinə gəldikdə, görəcəyik ki, Azərbaycan və başqa türk dillərində yem və ondan törənənlər yuxarıda yazdığımız qədər geniş deyil. Doğrudur, məna paralellərinə rast gəlmək olur. Bunu əyani şəkildə göstərək: **Est.em, ешь, est, edim, edite, edyat**. (yeyirəm, ye, o yeyir, yeyirik, yeyirsiz, yeyirlər); **el, ela, ешь** (yedi, qadın yedi, ye) və есть – 3-cü şəxsin təki, felin indiki zamanı – olmaq mənasında işlənir. Bu sözlərin hər iki variantlarını S.S.Ojeqovun «Slovar russkoqo yazıka» əsərindən olduğu təkin verməklə bəzi izahatlara daha geniş yer vermək zəminini yaradır: 1. **Есть, ем, ешь, ест, едим, едите, едят; ел, ела, ешь**; несов.1 кого-что. Принимать пишу, употреблять в пишу. **Есть яблоко**. **Есть с удовольствием**. **Есть глазами кого-н.** (перен.: не отрываясь, пристально смотреть на кого-н.; разг.шутл.). **Есть просит** (о дырявой обуви, нуждающейся в починке; разг.шутл.). **С чем это едят?** (перен.: **что это такое?**; разг.-шутл.).

2. (1 и 2 л. не употр.), что. Разрушать химически. **Ржавчина ест железо**. 3. (1 и 2 л. неупотр.), что. Причинять жгучую боль чему-н. **Дым есть глаза**. 4. перен, кого (что). Попрекать, бранить (прост). II сов. поесть, - **ем**, - **ешь** (к 1 знач: принять пишу) и **съесть, съем, съешь; съеденный** (к 1,2 и 4 знач). **Съел?** (злора дный вопрос в знач: получил? – о чем-н. неприятном; прост). II суш. **еда** – ы, ж. (к 1 знач). Во время еды – то же, что пища (вкусная еда; питательная еда). Bu sözün etimologiyasını rus alimləri belə yazıblar: «Есть (кушать). Обше слов. индоевр. характера (ср.др.-прусск. **ist** - «есть», др.-инд. **atti** «есть» лат. **edo** – «ет», готск. **itan** – «есть», нем. essen. и. т.д.) (12, 139). 2. **Есть** 1. 3. л. ед. ч. наст. в р. от «быть», а также употр. в знач. других лиц наст. вр. от «быть» вследствие утраты старинных форм спряжения: ем, еси и т. п. что есть истина? Диалектический материализм есть мировоззрение марксистско-ленинской партии. 2. Существует, имеется. Есть надежда. Есть что рассказать. Что есть силы (изо всех сил). Есть такое дело! (прост.) – 1) употр. в знач. Ладно, хорошо, будет исполнено; 2) употр. в знач. да, действительно, ты прав. С дружками погулял? – Есть такое дело! И есть (прост. – действительно в самом деле в реплике, при повторении упоминавшегося слова) – **Ты чудак! – Чудак и есть. Есть,** межд. – ответ подчиненного (в армии, флоте), обозначающий, что команда и принята к исполнению (4, 173). Buradaca müqaisə edək: **ходить – хожу, ходишь**.: несов. (yenə təsirsiz feldir) – то же, что идти. Bundan əlavə, rus dilində bu sözlərə yaxın mənada işlənən **ехать-еду, едишь** (atla, qatarla

ərəvə ilə getmək mənalarında işlənilir). Yuxarıda göstərilmiş rus dilindən **idi**, amma türk dillərinə gərdiş etdikdə bir daha bu sözlərin qədimliyə, ibtidai (yenə pratürk) dilə gətirib çıxarır. Bu mənzərə etimoloji lüğətlərdə də öz geniş izahını tapmışdır. Məsələn, **em**-türk, tür, k.tat, kar, kum, kab/bal, kir, kaz, noq, kar, kal, uz, uyq, alt, xak, salbin şivəsində **em** kondak. şivəsində **em**, tuv, yak və s. dil və şivələrdə yer tutub. Doğrudur, **em** tamda olmasa fonetik variantlarla (**em, əm, yem, iəm, öm, üm**) və hətta çuvaş dilində **əp** formasında qorunub saxlanılmışdır. Altay türklərin dilində **yem + it + tü**- «yem ilə dolu olan otlaq» - mənasında işlənir. (12, 181).

Q.Vamberi burada sözün kökünü am, an, en «ana», «anamın döşü» formalarını verməklə **emmək, immək** – «əmmək», **ana, ene**, «ana», **meme**-döş sözləri ilə bir sıraya daxil edir. Müqayisə et: fin. ime – «əmmək», türk dillərində **em** – eləcə də monq. dilində **emkü**, **ümkü** «udmaq», sol. **imi** «içmək», barquz. **um**, maniur **omı** bütün bunların ən geniş forması aşağıdakılardan ibarətdir. 1. İsmi fellər və ya feldən q/-k affiksi hesabına yaranan isimlər: **emiq/emik kaağ** – «qadın döşü», «soska», «döş». 2. İsimdən yaranan yeni formalar. Bunlarda – **cak/jak/çık/jık** affiksləri ilə yarananlar: **emjik, emçek, emçək, əmçəq, əmcək, əmşək, imcək, imjək.** Alimlər düşünürlər ki, **em/im** qədim forma deyil. Onun daha qədim forması **en/en** ünsürüdür və bu forma da cuvaş dilində fel təkin yaşamaqdadır. Bu fel **anka (an-ka)** – «əziyyət», «darıxmaq», «həsrət» formasındadır. Buna yaxın forma kazax dilindəki **en+bek**, eləcə də **embek** noqay dilində özünü göstərir. Sonuncu komponent **bek** fonetik modifikasiya olunan **mak**-dan yaranmışdır və buda ki, infinitiv, yəni məsdər göstəricisidir.

Beləliklə müqayisələrdən məlum olur ki, **emek/emqek**; **enmek** və s. ayrılan elementlər **em, en, im, en** və s. həm isim və həm də fel ola bilirlər. (5.276). Bunlar qədim dialekt fərqləridir. Belə ki, türk dilləri arasında özünü göstərən səs paralellərindən biri də Ramstendt-Pellio qanunu ilə izah olunan O/n/nh/f/h muvaziliyidir. Həmin qanuna görə, pradildəki **n** samiti ayrı-ayrı dillərdə müxtəlif reflekslər vermişdir (6.122).

Qeyd etməliyik ki, «etimoloji təhlildə praformanın müəyyənləşdirilməsi metodlarından biri yuva üsuludur» (F.A.Cəlilov), özü də dilçilik tədqiqatında ən vacib Yuva üsuludur. Deməliyəm ki, üsul metod deyil. Metod üsulların yığımdan, cəmindən yaranmışdır. F.Cəlilov yerindəcə yazıb: Morfonoloji rekonstruksiyaya gətirib çıxaran yuva üsulu ilə bərpa yolunda bir neçə şərtə əməl olunmalıdır. Bu şərtlərdən ən əsası morfoloji, morfonoloji və fonetik ölçülərin gözlənilməsidir və eyni yuvaya aid edilən sözlərin semantikasının nəzərə alınmasıdır (6.133).

Yuxarıda dediklərimizə əlavə olaraq konkret misallarla bir də sübut etməliyik və deməliyik, əgər hər hansı bir dildə yeni məna və ya yaxın məna daşıyan müxtəlif köklü sözlər işlənirsə, onda bu sözlərin biri dilin özünəməxsus sözü olur, qalanları tarixən başqa dillərdən gəlmə sözlərdir və bu sözlərin hesabına semantik məna sıraları yaranır və çoxalır.

Məlumdur ki, rus dilində türk mənşəli sözlər çoxdur. Maraqlı orasındadır ki, bu xüsusiyyət rus dilində fellərdə özünü daha çox göstərir. İlkin araşdırmalar bunu tam sübut edir.

Azərbaycan və rus dilləri müxtəlif dil ailəyə (iltisad və felektiv) mənsub olmalarına baxmayaraq, tipoloji təhlil göstərir ki, Azərbaycan dilində alına fel

yoxdur. Bircə bu misalları artırmaqla öz təsdiqini tam tapa bilər. Məsələn rus dilində **idti**-getmək; **teryat; teryatsya**- itmək, yəni yox olmaq, itmək; gözdən itmək; getmək və eləcə də **xodit-xoju, xodiş**.: nesov (yəni təsirsiz). Mənaları: 1. **to je, çto idti** və bir də **exat** – (**edu, ediş**) – **dviqatsya kuda-n. pri pomoş**; kakin-n. **Sredstv**. **Peredvijeniya** i t.d.). Bu misallardan əlavə, rus dilində **ostrıy – iti, ostryak** – kəsgin danışan adam və s. Göründüyü kimi rus dilində **idti** – təsirsiz fel türk mənşəlidir. Belə ki, bus öz rus dilində müxtəlif mənalarda işlənir:

1. **Идти вперёд** – irəli getmək; **идти пешком** – piyada getmək, **идти в гости** – qonaq getmək; 2. **идти на врага** – düşmənin üzərinə yerimək; **идут прения** – müzakirə gedir; 3. hərəkət etmək, yola düşmək, getmək; **поезд идет черз час** – qatar bir saatdan sonra yola düşür (gedir); 4. yaxınlaşmaq, gəlmək: **весна идет** – yaz yaxınlaşır; 5. axmaq, tökülmək; gəlmək: **из раны идёт кровь** – yaradan qan axır; **вода идёт по капле** – su damcı-damcı gəlir və s. mənalarda işlənilir.

Bu misallardan belə nəticəyə gəlmək olar ki, ru sdilindəki **idti** > < **itdi** və azərb. it, ümumən itmək – **терятся, исчезнуть** – «yox olmaq, itmək»; «gözdən itmək»; getmək; **itil** – пошел, **it** – собака, yox ol; get, **et** – делать, **get** – уходи, **iti** – ostrıy, быстро: **dik/tik** – высота, щит > **dikdir** – бугор, **tikan** – колючка, **tir** – быстро; бревнья, **tiy** > **tiyə** «dəhrə», «kəsici» və rus dilindəki **it+ti** (türk dillərində **iti** parça, yəni **iti** dəmir parçayı) və ya **id+ti** eyni mənşəli kök sözləridir və semantik genişliyi türk dillərində daha çox gözə çarpır. **İtmək** feli **yetmək** felindən daha çox itidir, sürətlidir və ona görədir ki, **iti** və **it+il** – «yox ol», rus dilinin **izçezay** feli ilə məna və kök yaxınlığı var. **İz/is** < i **(d)z+çez** – «yox ol izin qalmasın», **it səni görməsinlər, itil** > < **it iz qalmasın** və s. Bunların morfonoloji və eləcə də, daha geniş nostratik təhlilləri göstərir ki, bu paralellərin ilkin özəyi türk dilləri olmuşdur. Bu məsələyə bir az yer versək yaxşıdır. Belə ki, Mahmud Kaşqarı göstərir ki, «**dz**» cumul, yağma, toxsi, qıpçaq, yabaqu, tatar, qay və oquzlarda «**y**» hərifinə çevrilməsi qanuni bir haldır. Korefey Azərbaycan alimi Ə.Dəmirçizadə yazıb ki, M.Kaşğari burada belə bir qeyd də vermişdir ki, «**dz**» cigil və digər türklərdə, bəzən də qıpçaq, yamak, suvar, bulğar və buk imi bir sıra Rusiyadan Ruma qədər uzanan ərazidə (olan qəbilələrin dillərində) «**z**» səsinə çevrilir (11,59).

Bilməliyik ki, dilimizin inkişaf tarixi çox qədimdir. Bu dil bir sıra qohum və qeyri qohum dillərlə tamasda olmuşdur və beləliklə zəngin dilçilik labaratoriyasını yaratmışdır.

Azərbaycan türk xalqlarının mərkəzi coğrafi regionu olmuş və bu cənnətməkana axıb gələn xalqlar öz dil faktları ilə gəlmiş və onların dili və dil xüsusiyyətləri oğuz dilinin təsivirindən ərimişdir. Çünkü oğuz dili tarixən hakim dil olmuşdur. Eləcə də qonşu Slavyan və İran xalqları da türk dillərindən qədərincə söz almışlar. Deməliyəm, əgər dilimizdə XIX-XX əsrlərdə başqa dillərdən söz keçmə prosesi müşahidə olunursa, bundan daha qədim dövürlərdə türk mənşəli (**təngə**-denqi, **tavar, altın, kofta, kalbasa** qol < (ilə) baş, **siviruqa, bölgə, çalbaş** (ka), **qalac** və s.) sözlər qonşu xalqların dillərində yer almışdır. Belə ki, türk dillərinin özünəməxsus arxaik sözləri Slavyan və İran dillərində aktiv söz kimi işlənməkdədir.

Ədəbiyyat

1. H.Ə.Həsənov. Müasir Azərbaycan dilinin leksikası, Bakı 1988.
2. З.Е.Александровна. Словарь синонимов русского языка. М., 1973.
3. Древнетюркский словарь. Л., 1969.
4. С.У.Ожегов. Словарь русского языка М., 1978.
5. Этимологический словарь тюркских языков М., 1974.
6. F.A.Cəlilov. Azərbaycan dilinin morfonologiyası. Bakı-1988.
7. Afət Qurbanov. Ümumi dilçilik. Bakı-2004, II hissə.
8. Проблема общности алтайских языков. Л., 1971.
9. В.Д.Аракин. Сравнительная Типология английского и русского языков. Л., 1979.
10. Rusca-Azərbaycanca lüğət. Bakı-1971.
11. О.Т.Молчанова. Топонимический словарь горного алтая. Алтай-1979.
12. Краткий этимологический словарь русского языка. М., 1971.

Масуд Мамедов
Вафа Маликова

Некоторые типологические анализы Азербайджанских и русских слов

Резюме

Смещение и скрещение языков можно определить при помощи типологического аспекта. В данной статье рассматриваются слова двух не родственных языков, т.е. Азербайджанского и русского. В этих языках бытуют такие параллели, типа как есть, ем, ешь, итди/идти и др., которые трудно определяются их происхождения. При ностротическом анализе выяснились, что эти слова тюркского происхождения.

Masud Mamedov
Vafa Melikova

Some typological analysis of azerbaijan and russian words

Summary

Mixing and crossing of languages is possible to specity by the help of typological aspect. İn this article we introduced the words of 2 unrelated languages; of azerbaijan and russian. İn this languages exists such parallels as есть, ем, еть, итди-идти and others, which origin is difficult to quality. İn ностротическом analyse we found out, that these words of Turkish origin.

Rəyçi: Könül Dənziyeva
filologiya elmləri namizədi

DİLBƏR İBRAHİMOVA
ADİU
dilber@mail.ru

İNGİLİS DİLİNDƏ İDEOMATİK İFADƏLƏRİN DİLİN LÜGƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ ROLU VƏ ƏHƏMİYYƏTİ

Açar sözlər: Xarici dil, dialoq, idiomatik sözlər, mübtəda, obyekt, xarici dil, ünsiyyət vasitəsi, dilin lügət tərkibi.
Key words: Foreign language, dialogue, idiomatic words, subject, object.
Ключевые слова: Иностранный язык, диалог, идиоматические слова, подлежащее, объект.

Məqalədə xarici dillərin ünsiyyət vasitəsi kimi müasir dövrdə rolundan bəhs olunur. Burada dil, ünsiyyət, nitq məsələlərindən və ünsiyyət vasitələrindən söhbət açılır. Müasir dövrdə xarici dillərin üstünlüyündən və onların nə məqsədlə işlənməsindən bəhs olunur.

Xarici dillərdən istifadə edərək onlar vasitəsilə bir çox məlumatlar əldə etmək olar və həmçinin, dünya görüşünün istifadəsində xarici dillərin rolu danılmazdır.

Dil nədir? Dil insanlar arasında başlıca ünsiyyət vasitəsidir. Bu, onun ictimai və ümumxalq xarakteri daşıması, xalqın tarixilə sıx sürətdə bağlı olması ilə əlaqədardır. Bir an belə cəmiyyəti dilsiz təsəvvür etmək olmaz.

Çünki dil vasitəsi ilə insanlar öz fəaliyyət dairəsini səhmana salır, gündəlik tələbatla əlaqədar öz fikir və mülahizələrini bir-birinə söyləyir, istehsalatda, məişətdə, adət-ənənələrində yeni yaranan fəlsəfi-estetik mülahizələri, elmi-texniki kəşfləri bir-birinə və nəsildən-nəslə çatdırır. İnsanlar arasında vahid dil olmasaydı onlar cəmiyyət halında da birləşə bilməzdilər. Deməli, insan cəmiyyətinin təşəkkülü də bilavasitə dilin ünsiyyət vasitəsi kimi yaranması ilə bağlı olmuşdur.

Ünsiyyət nədir? Ünsiyyət sözü ərəb sözü olub (elif, nun, sin) əlaqə qurma, fikir-məlumat mübadiləsi, obyekt və subyekt arasında rabitə və s. mənalarına uyğun gəlir. Eyni kökdən olan "İnsan" sözüylə əlaqəli şəkildə desək insanların ehtiyaclarından və ya tələbatından irəli gələrək insanların bir-birilə yaxınlaşması, münasibət qurması, tanıması və öz məqsədlərinə çatmaq üçün öz həyatlarını daha da maraqlı etmək istəyi kimi məna vermək olar.

Nitq – insanların ünsiyyət qurmaq məqsədilə istifadə olunan bir prosesdir. Dil və nitq bir-birilə möhkəm bağlıdırlar və bu bağlılıq onu göstərir ki, dil ünsiyyət zamanı və insanlar danışdıqları vaxt mövcud olur. İngilis dili də beynəlxalq dil olub, hal hazırda mühüm ünsiyyət vasitəsi kimi böyük rol oynayır.

İngilis dilində ünsiyyət vasitələrinə kömək edən vasitələrdən biri də idimlardır. Hər bir dil üçün əsas material sözdür və dil öyrənmək istəyən hər kəs gündəlik olaraq yeni söz və söz birləşmələri öyrənir.

Həmin söz birləşmələrinin tərkibində idiomlar xüsusi yer tutur. İngilis dili idiom və idiomatik birləşmələrlə zəngin dildir. İdiomlara bütün üslublarda rast gəlmək mümkündür: yazıda, danışıqda, bədii ədəbiyyatda və s.

Hətta qəzetlər belə idiomatik ifadələrlə zəngindir. İngilis dili idiomatik birləşmələrlə zəngin bir dildir. İdiomları təşkil edən sözlər bir yerdə öz əvvəlki mənalarını itirir və birləşmə tərkibində yeni məna çalarlığı yaradır. Məsələn:

I could eat a horse. Dəhşətli dərəcədə acam.

Money doesn't grow on trees. Pulun qədrini bilmək lazımdır.

We are all at six and sevens. Biz çaş-baş qalmışıq.

I got there in the nick of time. Mən ora ən son anda çatdım.

İdiomları təşkil edən sözlərin çoxu məcazi məna daşıyır. Müasur ingilis dilində sözlərin həqiqi mənalarına nisbətən, məcazi mənalarından daha çox istifadə olunur. Məsələn : "to each" feli həqiqi mənadan daha çox məcazi mənada işlədilir. Misallara nəzər salaq.

Həqiqi məna:

I have been fishing, but caught absolutely nothing!

Məcazi məna:

1. Yesterday I caught the bus.
2. Try to catch his eyes.
3. You'll catch your death of cold.
4. Wait while I catch my breath.

Get sth off your chest – to talk about sth that has been worrying you for a long time so that you feel anxious – dərdini bölüşmək, ürəyini boşaltmaq, yüngülləşmək.

Talk about it! It might help to get it off your chest.

Put your foot in sth – to speak carelessly and rudely; hurt one's feelings without intending to – ehtiyatsızlıq etmək, səhv etmək, yaraya duz səpmək.

Shoot your mouth off (about sth) – to give opinions without knowing all the facts, talk as if you know everything – ağız dolusu danışmaq, özünü öymək, tərifləmək.

Jump down sb's throat – (informal) to suddenly become very angry at someone scold severely or angrily – qəfildən kiməsə hirslənmək, danlamaq, acıqlanmaq, bir kəsi dəng etmək.

Azərbaycan dilində olduğu kimi İngilis dilində də söz sırası ünsiyyətin yaranmasında əsas amillərdən biri sayılır.

Azərbaycan dilində ilk olaraq mübtəda, sonda isə xəbər gəlir, ikinci dərəcəli üzvlər isə mübtəda ilə xəbər arasında olur. Məsələn: İnsanlar hər məntəqədə artıq səs verəcək seçiciləri gözləyirdilər.

İngilis dilində bunun əksi olaraq ilk öncə mübtəda, ondan sonra xəbər daha sonra isə ikinci dərəcəli üzvlər gəlir. Məsələn: John hurried past us without stopping. Dialoqlar və monoloqlar da ünsiyyət vasitəsi kimi istifadə olunur.

Dialoqlar şifahi dildə üstünlük təşkil etdiyi halda, monoloqların yazılı ədəbiyyatda daha çox üstünlüyü var. Dialoqlarda şərhçi tələb edir, ancaq monloqlarda şərhçi tələb etmir, çünki fərdin özü şərhçi olur.

Bu gün ingilis dilinin yayılma coğrafiyasına nəzər salsaq görərik ki, bu dil təxminən dünyanın bütün ərazilərini əhatə edir. Avropada ingilis dili bir nömrəli ünsiyyət vasitəsi olmaqla sadəcə dövlət dili statusu daşıdığı ölkələrin yox, həmçinin digər ölkələrin (Fransa, Portuqaliya, İtaliya, İspanya, İsveç, Norveç və s.) xalqları

tərəfindən danışılır. İngilis dili nəyinki Avropada, hətta İngiltərə daxilində müxtəlif dialektlərə bölünür.

Ancaq ədəbi dil kimi İngiltərənin London dialekti qəbul olunmuş variant (*Received Pronunciation*) hesab olunur.

Hər hansı bir dilin beynəlxalq dil olması təsadüfi hal deyil. Buradan bu kimi məsələlər meydana çıxır: Necə oldu ki, ingilis dili beynəlxalq dilə çevrildi? Onun beynəlxalq dil olmasını şərtləndirən başlıca amil nədir?

Bu məsələlərin həllinə iki aspektdən yanaşa bilərik: tarixi və sosial aspektlərdən.

Tarixi cəhətdən ingilis dilinin qloballaşması prosesi birmənalı şəkildə bu cür izah edilə bilər: Engels və Sakson tayfalarının danışdığı Qərbi-German (West-Germanic) dialektindən törəyən ingilis dili Anglo-Sakson krallığı vasitəsilə Şotlandiyanın cənubi-şərqinə yayılmışdır.

Daha sonra Birləşmiş Krallığın kolonial rejimində ingilis dili Britaniya İmperatorluğunun (British Empire) koloniyalarında ümumişlək dilə çevrilmişdir. Yeni meydana gəlmiş xalqlar da siyasi çətinliklərdən yaxa qurtarmaqçün ingilis dilində danışmağa başlamışlar.

Nəhayət Britaniya İmperatorluğunun yüksəlişi nəticəsində bu dil Şimali-Amerika, Hindistan, Afrika, Avstraliya və bir çox regionlarda yayılmışdır. Birləşmiş Ştatların XX əsrin ortalarından başlayan hegemonluğu da ingilis dilinin dünyada geniş yayılmasını sürətləndirmişdir.

Amerikaya ingilis dili XVII əsrdə gəlmişdi. Şimali Amerikaya gəlmiş ingilis dili, Britaniya Koloniyaları (British Colonies) vasitəsilə gəlmişdi. Ümumiyyətlə ingilis dili tarixən Engels və Saksonların, Normanların, Danimarkların, Norveç Vikinglərinin təsiri altına düşərək bugünkü vəziyyətini almışdır.

Sosial aspektə gəldikdə isə ingilis dilinin dünyəviləşməsini şərtləndirən başlıca amillərin tapılmasında fikir ayrılığı meydana gəlir. Bəzi alimlərin fikrincə dilin ümumi lingivistik imkanları onun beynəlxalq dil olmasının başlıca səbəbidir. Məsələn: İngilis dilli ölkələri inner, outer və expanding (hərfi tərcümədə daxili, xarici, genişlənmiş) olmaqla üç qrupa ayıran hind alimi

Braj Kaçrunun fikrincə, ingilis dilinin zəngin lüğət fondu, sözlərdəki geniş sinonimlik imkanları, fonetik cəhətdən səlis və axıcı bir dil olması bu dilin bir çox xalqlarda maraq doğurmasına və asanlıqla mənimsənilməsinə gətirib çıxarmışdır.

İngilis yazıçısı Robert McCrum isə özünün "The english story" (İngilis dili hekayəsi) əsərində ingilis dilinə tarix boyu və indi də digər dillərdən çoxsaylı sözlərin daxil olduğunu vurğulayır. Yazıçı ingilis dilindəki çoxsaylı alınma sözlərin bu dilin dünyəvi dil hesab edilməsinin əsas səbəbi kimi göstərir.

İkinci qrup alimlər isə ingilis dilinin dünyaya diffuziyasının əsas səbəbini bu dildə danışan dünya ölkələrinin müasir sosial-ictimai həyatdakı hegemonluğu ilə izah edir. Belə ki, ingilis dilinin dünyaya diffuziyasının toxunan alman dilçisi Professor Ulrich. Ammon, özünün "English as a Language of Science" (İngilis dili Elm Dili Kimi) əsərində yazır ki; "bir ölkədə texnika və biznesin dominantlığı o ölkənin dilinin qlobal bir dilə çevrilməsinə imkan yaradır".

Bu mövzuyla bağlı Ammonun fikirlərini dəstəkləyən dilçi alim Deyvid Kristal isə özünün "English as a global language" (İngilis dili Qlobal kimi) əsərində bir çox

sənaye yeniliklərinin məhz Amerika və İngiltərənin adı ilə bağlı olduğunu vurğulamaq bu yeniliklərlə tanış olmaq istəyən hər bir kəsin ingilis dili öyrənməsinin vacib olduğunu qeyd edir. Alim beləliklə dilin kim tərəfindən danışılmasının böyük əhəmiyyətini vurğulayır.

Hazırda dünyadakı 6 milyard insandan təxminən 350 milyonu ingilis dilində danışır. Dünyada elmi və texnoloji informasiyaların təxminən 85% i ingilis dilində ötürülür və ən böyük dünya qlobal informasiya şəbəkəsi olan "İnternet"də də ingilis dili aparıcı dildir.

İşin elmi nəticəsi. Xarici dilin rolu müasir dövrdə danılmazdır. Bu xüsusiyyətlər müasir dövrdə yalnız ünsiyyətdə yox, həm də qrammatikada göstərilmişdir.

İşin elmi yeniliyi. Tədqiqat zamanı ingilis dilinin dünyəviləşməsini şərtləndirən başlıca amillərin tapılması, dilin ümumi lingivistik imkanlarının daha geniş şəkildə öyrənilməsi işin elmi yeniliyi kimi hesab oluna bilər.

İşin tətbiqi əhəmiyyəti. İngilis dilinin beynəlxalq dil olduğunu və daha geniş yayıldığını, dilin kommunikativ ünsiyyət vasitəsi olduğunu nəzərə alaraq, bu dildən istifadə imkanlarının daha geniş şəkildə öyrənilməsi, işin tətbiqi əhəmiyyətlidir.

Ədəbiyyat

1. Oruc Musayev "İngilis dilinin qrammatikası".
2. Bayramov H.A. Azərbaycan dilinin fraezologiyasının əsasları. Bakı, 1978.
3. Cahangirov F.F. İngilis dilindən leksik çalışmalar toplusu. Bakı, Nurlan, 2003.
4. Hacıyev E.İ. Müasir İngilis və Azərbaycan dillərində köməkçi nitq hissələrinin funksional-semantik xüsusiyyətləri. Bakı, Mütarcim, 2006.
5. Hacıyeva Ə.H. İngilis və Azərbaycan dillərində somatik frazeologizmlərin sturuktur-semantik xüsusiyyətləri. Bakı, Nurlan, 2004.

D.Ibrahimova

The role of foreign language as the method of communication at present day

Summary

Observations show that the role of English language in modern time is undeniable. The role of English language not only in oral speech but also in grammar. The observations of English language find out so many problems.

At the some time during the inverstigation the main foktors aboyt the termed globalisation and general lingvistic possibilities of the lüngoge were widely studied/

Д. Ибрагимова

Роль иностранных языков как способ общения
в современный период

Резюме

Согласно исследованиям роль английского языка в современный период неизбежна. Роль английского языка показана не только в устной речи, но и в грамматике. Во время исследования английского языка были выявлены проблемы. В тоже время, во время исследования были широко изучены основные факторы, обусловленные глобализацией языка и общие лингвистические возможности языка.

Rəyçi: B/ m Fəridə Məmmədova

İRADƏ MƏHƏRRƏMOVA
BDU

LEKSİK VAHİDLƏRİN DİSTRİBUTİV İMKANLARI

Açar sözlər: söz, mətn, distribusiya, təkrar, leksik təkrar, distant və kontakt təkrar
Key words: word, text, distribution, repletion, lexical repetition, distant and contact repetition
Ключевые слова:: слово, текст, дистрибуция, повтор, лексический повтор, дистантный и контактный повтор

Bədii əsərin əsas meyarlarından biri onun kompozisiyasıdır. Elmi ədəbiyyatda bu anlayış mətnin formal əlaqəsinin söz materialının yerləşməsi və mütənasibliyini təyin edən qanunauyğunlaqlar kompleksi yaxud sintezi kimi izahlanır (1, 10). Nəzm və nəsr əsərlərinin kompozisiyaları arasındakı fərqlər əsərin hissələrə bölünməsinin daxili əsasları zəminindədir. Bədii əsər yalnız informasiya daşımır, o, söz materialının xüsusi təşkilinə görə oxucuya estetik təsir göstərir. Mətndə bu və ya digər elementin üzə çıxarılması mətnin dilində əlavə düzülüşə səbəb olur. Ümumiyyətlə, sözlər mətnin müxtəlif hissələrində fərqli strukturlarda birləşir.

Dil vahidləri və vasitələri dil sistemində müəyyən funksiyaları yerinə yetirir. Funksiya ünsürün və ya elementin sistem daxilində müəyyən üsul və formada mövcud olması və bu sistemə müəyyən şəkildə xidmət göstərməklə təyin olunur. Əgər bir tam kimi cümlənin funksiyası onun kommunikativ təyinatı ilə bağlıdırsa, onu elementlərinin, tərkib hissələrinin funksiyaları kommunikativ vahidi qurmaqdır. Jümlənin tərkib hissələrinin, ünsürlərinin kombinator imkanları cümlənin quruluşunda reallaşır. Cümlə əsas kommunikativ vahiddir. Bu kommunikativlik şərti cümləyə xas olan predikativlikdən irəli gəlir. Cümlə elementlərinin kombinator imkanları bu elementlərin hansı nitq hissəsi olması və bu nitq hissəsinin hansı leksik-semantik və qrammatik yarımqrupuna məxsus olması ilə əlaqədardır.

Sözün hansı sözdən sonra işlənməsi və ya işlənə bilməməsi tədqiqatçıların diqqətini cəlb edən məsələlərdən biridir. Hər bir dilin leksik fonduna kifayət qədər çox sayda söz daxil olur. Bəzi dillərdə terminlər də nəzərə alınmaqla sözlərin ümumi sayı o qədər çoxdur ki, dil daşıyıcıları bu sözlərin mənalarını heç də həmişə bilmirlər. Dildən istifadə olunarkən məhdud miqdarda söz işlədilir. Bu cəhət əsasında dildə danışmaq üçün tələb olunan minimal sayda sözlə bağlı araşdırmalar aparılmış və sözlərin tezlik lüğətləri tərtib edilmişdir. Bununla yanaşı, sözlərin distributiv imkanlarında da fərqlərin mövcudluğu aşkara çıxmışdır. Bu fərqlər nəsr əsərlərində özünü bir şəkildə, nəzm əsərlərində isə başqa şəkildə göstərir. Nəzmə daxili təşkilolma xasdır. Tematik kompozisiya problemi ilə bağlı tema, motiv, süjet kimi bir-biri ilə qarşılıqlı əlaqəli anlayışların nəzərdən keçirilməsi məqsədəuyğundur.

«*Bu yerlərin vahiməli axşamları olur. Elə ki günəş batdı, bir də görürsən axşam iri və yorğun quş kimi yerə qonur. Onun böyük qanadları altında nəhayətsiz çöllər görünməz olur. Və bündan sonra qorxunc sükut başlayır.*

Qaranlıq bir sükut.

Haradasa bir çaqqal elə bil ki, bu sükutdan darıxır və ulayır. Sonra çöl vağları onun səsinə səs verirlər. Qəribədir, əslində çaqqalnan çöl vağları dost deyildir. Görünür onların bir-birini haraylaması qorxudan, ya darıxmaqdandır. Ancaq boz tülkü nə darıxır, nə də qorxur. Qaranlıq onun əlinə göydən düşür» (2, 44).

Mətn fraqmentində müxtəlif sözlərdən istifadə olunmuşdur. Burada elə sözlər vardır ki, onlar bir dəfə, elə sözlər də vardır ki, onlar iki və daha artıq sayda işlənmişdir. Məsələn, *günəş* sözü mətn parçasında bir, *axşam, çaqqal, vağ* sözləri isə iki dəfə istifadə edilmişdir. Mətndəki *vağ* sözünün ətrafını nəzərdən keçirsək, bu sözdən əvvəl «çöl» sözünün işlənməsini görürük. «Çöl vağları» quşların müəyyən cinsinin növünü bildirir. Bu baxımdan «çöl» növü təyin edən söz funksiyasını yerinə yetirir. Çöl vağları iki sözdən əmələ gəlsə də, onların ardıcıl işlənməsi bir obyektin nominasiyasına xidmət edir. Mətn sözlərin bir-biri struktur-semantik əlaqəsi fövqündə formalaşır. Əlaqələnmə sintaktik, struktur və semantik vasitələrin köməyi ilə gedir. Tamamlanmış, daha dəqiq deyilərsə formalaşmış, bir sözün hüdudlarını aşaraq iki, eləcə də daha artıq sözün əlaqələnməsindən doğan informasiyanı özündə birləşdirən mətn vahidində ilkin əlaqə sintaktik üsulla yaranır. Bunun dildə ən kiçik ifadə formaları söz birləşmələridir. Söz birləşmələrində informasiya müəyyən istiqamətdə formalaşır. Söz birləşməsində predikasiya tamamlanmasa özünü daha güclü göstərir və kvaziperedikativlik səviyyəsinə yaxınlaşır. Beləliklə, predikativlik tələb olunan səviyyəyə qalxmır. Bununla belə, informasiya həcmi bir sözün və ya iki müxtəlif sözün hüdudlarını aşır. Lakin sözlər arasında ilkin əlaqə yaranmadan bu informasiyalar əlahiddə - avtonom şəkildədir.

Yuxarıda verilmiş nümunədə müəllifin istifadə etdiyi «axşam … yerə qonur» ifadəsi semantik metaforlaşdırma, bənzətmədir. «Qonmaq» feli çoxmənalıdır. Bu feilin əsas mənası onu quş ismi ilə bağlayır. Qonmaq quşlara xas olan xüsusiyyətdir. Müəllif bu cəhəti nəqletmə zamanı nəzərə almış, ona görə də *quş* və *qonmaq* feilləri arasına başqa sözlər də daxil etmişdir: *axşam iri və yorğun quş kimi yerə qonur.*

Əgər «iri və yorğun quş» ifadəsini qonmaqdan əvvəl işlətmək olursa, həmin ətrafda «iri və yorğun at» ifadəsini işlətmək mümkün deyildir. Bu halda anaşılmaz məna alınır. Aydındır ki, «qonmaq» ata xas xüsusiyyət deyildir. Eyni qaydada mətndə işlənmiş «ulamaq» feli üçün də müəyyən ətrafı seçmək olar. Müəllif «çaqqal ulayır» ifadəsini yaratmışdır. «Ulamaq» çaqqala, canavara xas xüsusiyyətdir. Lakin bədii əsərdə bu feil başqa ətrafda da qeydə alına bilər. Məsələn, «Zaur elə həsrət, elə həsrət duydu ki, az qala ulayacaqdı». «İnsan ağrının təsirindən ulayırdı». Bu tipli cümlələr sözün mümkün distributiv imkanlarını genişləndirir. Nağıllarda, miflərdə, rəvayətlərdə qanadlı atlar təsvir olunur. Şübhəsiz ki, qanadı olduğundan bu atlar uçur. Deməli onlar qonmaq fəaliyyətini yerinə yetirə bilərlər. Təyyarənin də qanadları vardır. Lakin təyyarə ilə bağlı, bir qayda olaraq, «yerə enmək», «yerə oturmaq» hərəkəti göstərilir. Sözün distributiv imkanları mətndə veriləcək fikrin açılması üçün istifadə olunur.

Lirik əsərin linqvistik təhlili zamanı kompozisiya, eləcə də sözələrin yerləşmə imkanları fərqli şəkildədir.

«Qoca dünya çoxun yola salıbdı,
Köçən köçüb, köçməyənlər köçəcək.

Qafil, içmə bu gün əcəl şərbətin,
İçən içib. İçməyənlər içəcək.
Necoldu var üçün qanlar tökənlər.
Əziz canın al qumaşa bükənlər.
Unutmasın şərmi-xəta əkənlər,
Biçən biçib, biçməyənlər biçəcək»(3, 70).

Aşıq Alıya aid olan bu şeir nümunəsində eyni sözlərin yaxın distribuutiv ətrafda təkrarlanması aşkar hiss olunur. Mətn dilçiliyində sözlərin belə yaxın ətrafda təkrarlanması leksik təkrar hadisəsi adlandırılır. Cümlədən böyük mətndə leksik təkrarları yerləşmə yerinə görə dörd qrupa ayırmaq olur: 1) annafora – təkrar olunan sözün ardıcıl gələn cümlələrin əvvəlində işlənməsi; 2) epifora - təkrar olunan sözün ardıcıl gələn cümlələrin sonunda işlənməsi; 3) anadiplosis - təkrar olunan sözün birinci cümlənin sonunda, ikinci cümlənin isə əvvəlində işlənməsi; 4) simploka- - ardıcıl gələn cümlələrin eyni sözlə başlanması, başqa eyni bir sözlə bitməsi.

Mətnyaratma vasitəsi kimi bu cür təkrarın əsas funksiyası təkrarlanan sözün verilmiş kontekstdə ifadə etdiyi mənanı gücləndirmək, məntiqi vurğunu həmin sözün üzərinə cəmləmək, emosional çaları artırmaqla yanaşı, təkrarlanan sözün bütün mətndəki rolunu diqqət mərkəzinə çəkmək, onun ətrafında cəmləşən informasiyaların toplusuna diqqəti yönəltməkdən ibarətdir.

«Təkrar mətn daxilində dairəni cızmağa başlayır, həmin element özünəqayıdışı tələb edir, qapanma açıq olmaqla yanaşı, özünəməxsus intonasiya axını ilə də fərqlənir, daha doğrusu, mətnin hər iki uc nöqtəsində yüksələn intonasiya axını müşaiyətçi mövqedə durur.»(4, 148).

Poetik üslubun özünəməxsusluğu təkrarın şer mətnlərində konstruktiv üsul kimi çıxış etməsini müəyyənləşdirir. Bədii obraz poetik yaradıcılıq prosesində emosional-ekspressivliyə malik olmalıdır. Bu cəhət bədii obraz üçün vacib şərtlərdəndir. Təkrar belə bir şərtin gerçəkləşdirilməsində əvəzsiz vasitədir. Deməli, təkrar poetik əsərdə dil materialının təşkilinin aparıcı üsullarından biridir.

Dilin referensial vasitələri arasındakı fərq semantik tam ad qrupları ilə reduksiya olunmuş ad qrupları arasında qarşıdurma ilə özünü göstərir. Məsələn şəxs adı əvəzliklə qarşı-qarşıya qoyulur. Referensial seçməni tənzimləyən əsas prinsip insanın koqnitiv sisteminin quruluşu ilə, ilk növbədə işçi və qısamüddətli yaddaş mexanizmləri ilə şərtlənir. Əgər referent həm danışanın, həm də respiyentin operativ yaddaşında yüksək fəallığa malikdirsə, onda redusiya olunmuş referensial vasitədən istifadə edilir. Referentin aktivləşmə dərəcəsini bir-birindən asılı olmayan amillər əsasında müəyyənləşdirmək mümkündür. Bu amillər iki qrupa bölünür: 1) kontekstlə əlaqəli amillər; 2) referentin xassələri ilə bağlı olan amillər.

"Mətn elə bir çoxluqdur ki, onun elementləri (komponentləri) müəyyən şəkildə qarşılıqlı əlaqədədirlər. Mətnin komponentləri kimi ayrı-ayrı bitkin cümlələr özünü göstərir. Eyni zamanda mətnin tərkibində onun ayrı-ayrı tərkib hissələrinin, komponentlərinin bitkinliyi nisbi xarakter daşıyır. Buradan belə çıxır ki, eyni cümlə modelinə mətn tərkibində və tərkibdən kənarda müxtəlif cür yanaşmaq lazımdır. …mətn daha yüksək təşkil olunmuş sintaktik vahid olmaq etibarilə öz tərkibində olan cümlənin semantik və assosiativ strukturunu istədiyi şəkildə dəyişdirmə gücünə malikdir (4, 224).

Hər bir konkret ifadə kommunikasiyanın ümumi planı ilə müəyyən münasibətdə olur. Əgər dialoji mətnlərdə nitqdə informasiyanın mübadiləsində qarşılıqlıq varsa və bu, kommunikantların danışıq strategiyaları ilə bağlıdırsa, onlar kommunikativ akt prosesində öz nitqlərində dəqiqləşdirmə apara bilirlərsə, digər mətn formalarında əlaqələr başqa vasitəlrlə yerinə yetirilməlidir. Sözlərin distributiv imkanları bu cür əlaqələrin qurulmasına xidmət edir. Müəllif eyni və fərqli sözlərdən istifadə etməklə fikrini obrazlı şəkildə verir. Sonluq yeni təkrarların daxil edilməsinə imkan verir. Lakin mətnin sonundakı yeni təkrarlar işləndikləri konteksti tamamlamağa xidmət göstərir, onların irəliyə, yəni mətnin əvvəlinə doğru çıxışı olmur. Belə çıxış yalnız ekvivalent sözlərin, sinonim təkrarların köməyi ilə yaradılır. Yalnız cümlə formasında tamamlanmadan sonra mətn ilk vacib fazasını alır. Mətn sözdən başlayaraq genişlənir. Mətndə sözlər məna əlaqələri ilə bir-birinə bağlana-bağlana artır. Sintaktik əlaqə üsulları komponentlərin struktur-semantik əlaqəsini əhatə edir. Bu isə mətn daxilində onu, yəni mətni yaradan müxtəlif əlaqələr kompleksini özündə birləşdirir. Belə əlaqələrdən biri də təkrarlardır. Təkrarların müxtəlif formaları vardır. Bu formalar haqqında ümumi məlumat verməzdən əvvəl, mətnlə bağlı bəzi məsələləri açıqlamaq lazım gəlir.

Dil özü sistem halında müəyyən xətti xarakterdə olduğu üçün sözlərin nitq prosesindəki sırası da linqvistik və tekstoloci əhəmiyyət daşıyır. Doğrudur, elə dillər vardır ki, söz sırası bu dillər üçün əhəmiyyət daşımır. Cümlədə sözlərin sırası iki müxtəlif istiqamətli funksiya daşıyır: 1) söz sırası söz birləşmələrinin və cümlənin komponentləri arasında əlaqə yaradan vasitədir; 2) söz sırası cümlələrarası, habelə cümlə ilə kontekst, konsituasiya ilə əlaqə yaradan, həmçinin cümləyə onun nitq, sintaktik kompozisiya funksiyasını yerinə yetirməyə imkan verən vasitələrdən biridir. Beləliklə, cümlədə və mətndə söz sırası da sözlərin əlaqələnməsinin müəyyən üsludur. Bu əlaqələnmə cümlə səviyyəsində semantikanın müəyyənləşdirilməsində müəyyən rol oynayır.

Mətn ünsürləri, elementləri bir-biri ilə müəyyən münasibətdə olur. Dilçilikdə mətnin cümlə və ondan böyük elementlər arasındakı əlaqə kogeziya adlanıdırılır. Mətn əlaqləri sistemində koherensiya və kogeziya xüsusi yer tutur. Bunlar fərqli anlayışlardır. «Koherentliyi kogeziya ilə eyniləşdirmək olmaz. Koherentlik mətnin xüsusiyyətidir, kogeziya isə mətnin cümlədən kiçik olmayan vahidinə xas xüsusiyyətdir.» (5, 73). Koherentlik mətnin leksik-semantik, qrammatik (hər şeydən əvvəl sintaktik) və üslubi aidliyi, eləcə də onu təşkil edən cümlələrin qarşılıqlı asılılığından ibarət tamlıqdır. Koherentlik kogeziyanın leksik-semantik, sintaktik və üslubi növlərinin qarşılıqlı təsirinin nəticəsidir (6, 50).

Cümlənin əsas komponentləri üçün kateqorial məhdudiyyət hadisənin təbiətindən doğur. Real gerçəklikdə (və ya bədii ədəbiyyatda adlandırılan qondarma gerçəklikdə) müxtəlif subyekt növlərinə özlərinə məxsus həyat və əlaqələr, funksiya və əlamətlər xasdır. İnsan məkan və zaman daxilində mövcuddur. İnsan təbiətdə və cəmiyyətdə yaşayır, müxtəlif fiziki və psixi hallarda olur, sosial və psixoloci münasibətlərdə iştirak edir və s. Predmetlərdə real gerçəklikdə mövcuddur, müxtəlif xassələr malikdir, fiziki vəziyyətləri dəyişir, predmetlərə düşünmək xas deyil, onların yerdəyişməsi, fəaliyyəti insan ifadəsindən asılıdır. Qeyd edilən cəhətlər hər bir mətn daxilində sözlərin işlənmə yerlərini və işlənmə

imkanlarını təyin edir. Bu isə sözlərin distribusiyası ilə bağlı bir problem kimi meydana çıxır. Sözlərin bir-birinə yanaşması, bir-biri ilə yaxın və uzaq ətrafda işlənməsi təsadüfi səciyyə daşımayıb mətn yaradıcılığının ümumi mahiiyyəti ilə bağlıdır.

Ədəbiyyat

1. Черемисина Н.В. О гармонии композиции художественного целого // Язык и композиция художественного текста. Москва, 1983
2. Bağırov B. Aynalı gölün payızı. Bakı, Yazıçı, 1985
3. Aşıq Alı. Bakı, Yazıçı, 1982
4. Abdullayev Ə. Aktual üzvlənmə və mətn. – Bakı: Xəzər Universiteti nəşri, Bakı, 1998.
5. Решетова Н.Н. Средства выражения лексико-семантической когезии в романе Г.Свифта «Wanerland». Москва, 1997
6. Аспекты общей и частной лингвистической теории текста. М.:Наука, 1982

İ.Məhərrəmova

Distributive opportunities of lexical units

Summary

The questions location and distributive allocation of words in the text are studied in the article. Reasons of repetition of similar lexical units in syntactic and text level, functions of repetition are studied. Role of contribution of limitation issues of distributive opportunities of words in text in creation of relations between common context and units of text is revealed.

И.Магерромова

Дистрибутивные возможности лексических единиц

Резюме

В статье исследуются вопросы размещение и дистрибутивного распределения слов внутри текста. Рассматриваются причины повтора одинаковых лексических единиц в синтаксическом и текстовом уровне. Выявляется роль вопроса ограничения дистрибутивной возможности слов в создании связи между общим текстом и единицами текста.

Rəyçi: Şəlalə Abdullayeva
filologiya elmləri namizədi

GÜLÜMSƏR ABBASOVA
BDU
nigar40@mail.ru

MORFOLOJİ SİSTEMDƏ KATEQORİYA MƏSƏLƏSİ

Açar sözlər: Kateqoriya, ümumi kateqoriya, xüsusi kateqoriya, hal kateqoriyası, kəmiyyət kateqoriyası **questions of category in morphological system.**
Key words: Category, general category, special category, case category, category of quantity.
Ключевые слова: Категория, общая категория, особая категория, категория падежа, категория числа

Dilin morfoloji sistemində məzmun və ifadə planı olan eynicinsli ikitərəfli vahidlər vardır. Bu vahidlərin toplusu qrammatik kateqoriya əmələ gətirir. Qrammatik kateqoriya yekcins qrammatik mənaların məcmusu kimi götürülür. Məsələn, ayrı-ayrı halların (ismin hallarının) mənalarının məcmuyu ümumi hal kateqoriyası şəklində birləşmiş olur. Ayrı-ayrı zaman kateqoriyalarının mənaları ümumi zaman qrammatik kateqoriyası əmələ gətirmiş olur (1, 57).

Hər bir qrammatik kateqoriyanın eynicinsli mənaları vardır. Müxtəlif qrammatik kateqoriyalarda belə mənalar toplularının sayı bir-birindən fərqlənir. Məsələn, kəmiyyət kateqoriyasının iki (tək və cəm), hal kateqoriyasının altı eynicinsli məna toplusu vardır. İkitərəfli vahidin məzmun planı onun semantikası, ifadə planı həmin semantikanın yaradan qrammatik göstərici və forma ilə səciyyələnir.

Dildə müəyyən qrammatik məna və onun formal ifadə vasitəsi arasındakı uyğunluq varsa və bu halda ən azı iki element arasında qarşılaşdırma mümkündürsə, onda qrammatik kateqoriyanın mövcudluğundan danışmaq mümkündür. Sözdəyişdirici və ya formayaradıcı kateqoriyalar qrammatik şəkilçi qəbul etmiş sözlərin qarşılaşdırılması əsasında müəyyənləşdirilir. Əgər dildə müəyyən mənanın ifadəsi üçün qrammatik üsul yoxdursa, deməli həmin dildə müvafiq qrammatik kateqoriya da yoxdur. Məsələn, Azərbaycan dilində cins mənasını yaratmaq üçün xüsusi qrammatik vasitələr yoxdur. Belə vasitələrin olmaması Azərbaycan dilində cins kateqoriyasının yoxluğunu təsdiq edir. Ancaq mənsubiyyət kateqoriyasını yaratmaq üçün kifayət qədər qrammatik vasitələr vardır. Azərbaycan dilində mənsubiyyət kateqoriyası ən zəngin qrammatik kateqoriyalardan biri sayılır. Mənsubiyyət kateqoriyası sahib şəxslə mənsub əşya arasındakı münasibəti ifadə edir. Hal kateqoriyasının da qrammatik ifadə vasitələri vardır.

Qrammatik kateqoriyaya münasibətdə dilçilər eyni bir mövqeyə gəlməmişlər. Bu məsələyə aid ədəbiyyatda fərqli, mübahisə doğuran fikir və mülahizələr çoxdur. O.Axmanova qrammatik kateqoriyadan bəhs edərkən onun ümumiyyətlə linqvistik vahidlərin və ya onun müəyyən sinfinin ən ümumi xassəsi olduğunu söyləyir (2, 191).

Linqvistik ədəbiyyatda qrammatik kateqoriyaların morfoloji və sintaktik səviyyədə təyin edilməsi geniş yayılmışdır. Müəyyən kateqoriyanın mahiyyətini konkret şəkildə izah etmək çətinlik yaratdıqda, yaxud belə tərif vermək müm-

kün olmadıqda kateqoriyanın ümumi şəkildə sintaktik əsasda təyininə üstünlük verilir. Məsələn, hal kateqoriyasının şərhi zamanı dilçilər çox zaman bu mövqedə dururlar. Kəmiyyət, şəxs, mənsubiyyət kateqoriyaları morfosemantik səviyyədə təyin olunur. Onlardan bəzilərinin özümlü cəhətlərinin açılması zamanı sintaksisə müraciət edilir.

Y.Seyidov göstərir ki, qrammatik kateqoriya qrammatik mənaların qrammatik formalar vasitəsilə ifadəsi deməkdir. Lakin qrammatik formalar o zaman kateqoriya səviyyəsinə qalxır ki, həmin formalar bir tərəfli olmasın, müəyyən sistem əsasında dəyişmə paradiqmaması yaratsın və qarşı-qarşıya duran tərəflərə malik olsun (3, 148). İsmin kəmiyyət kateqoriyasında tək və cəm qarşı-qarşıya durur. Lakin hal kateqoriyasında qarşı-qarşıya durmaq formal səciyyə daşıyır. Yəni adlıq hal hər hansı başqa bir hala qarşı durmur. Hətta yerlik və çıxışlıq hallarda qarşıdurma ifadəsini tapmır Tək və cəm bir-birini müəyyən səviyyədə tamamlayırsa, tək və cəm antonim münasibətin müəyyən formasına uyğun gəlirsə, ayrı-ayrı halların bir-biri ilə qarşılaşdırılması özünü doğrultmur. «Ola bilməz ki, ismin bircə halı olsun. Şəkilçisiz isim ona görə hal kimi reallaşır və heç bir formal əlamət qəbul etmədən sistemə qoşulur ki, Azərbaycan dillində formalaşmış digər hallar var» (3, 148).

Qrammatik kateqoriyada tərəflərin olmasının vacib şərt kimi qəbul edilməsi şübhə doğurmur. Bir tərəfli olan dil vasitələri qrammatik kateqoriya yarada bilməz. Lakin tərəfləri ikidən artıq olan qrammatik kateqoriyalarda tərəfləri cüt-cüt bir-birinə qarşı qoymaq mümkün deyildir. İki tərəfli qrammatik kateqoriylarda isə bu qismən mümkündür. Məsələn, kəmiyyət kateqoriyası, inkar kateqoriyası, cins kateqoriyası və s.

Qrammatik kateqoriyaya dilçilikdə verilmiş təriflər dəqiq deyildir. Bu anlayışının təyininə dilçilər müxtəlif aspektlərdən yanaşır və son nəticədə yekdil bir qərara gəlmirlər. Nəticədə dilçilik lüğətlərində qrammatik kateqoriyanın fərqli izahları müşahidə olunur.

Qrammatik kateqoriyanın ümumi və xüsusi olmaqla iki növə bölünməsinə münasibətdə də fərqli fikirlər az deyildir. Azərbaycan dilçiliyində Y.Seyidov bu məsələyə diqqət yetirmiş, ona aydınlıq gətirməyə çalışmışdır. Onun fikrinə görə ümumi qrammatik-morfoloji kateqoriya deyəndə nəzərdə tutulur ki, həmin kateqoriya bir nitq hissəsi dairəsində qapanıb qalmır, bir neçə nitq hissəsinə aid olur. Alim bu fikrini sübut etmək üçün rus dilinə müraciət edir və bu dildə ismin, sifətin, say və əvəzliyin özünəməxsus hallanma qaydasının olduğunu əsas götürərək, hal kateqoriyasının rus dilində ümumi qrammatik kateqoriya səciyyəsi daşıdığını söyləyir (3, 150-151).

Qeyd etmək lazımdır ki, qrammatik kateqoriyaları ümumi və xüsusi növlərə bölmək tam qəbul edilmiş qayda deyildir. Qrammatik kateqoriyaları araşdırmış dilçilərin heç də hamısı belə bölgü aparmamışlar. Məsələn, L.Blumfild belə hesab edir ki, ya bütün leksikonu, ya da bu və ya digər formal sinfi qalıqsız olaraq təqribən bərabər hissələrə bölən iri formal siniflər kateqoriya adlanır (4, 299).

Dildə kateqoriyanın fəlsəfi kateqoriya kimi ayırmaq mümkün deyildir. Dildə kateqoriyalar formal əlamətlər əsasında müəyyənləşir. Bununla belə, dildə qəbul edilən qrammatik kateqoriyaların elələri vardır ki, onların özündə iki bərabər hissəyə bölgü mümkün deyildir. Kəmiyyət kateqoriyasında tək və cəm

bir-birinə qarşı qoyulur. Bəzən sözün cümlə dəxalində və ya müəyyən sintaktik ətrafda hansı mənada olmasını aydınlaşdırmaq çətindir. *Stolun üstündə gül var.* Bu cümlə stolun üzərində bir və ya daha artıq gülün olması barədə heç bir məlumat vermir. Eyni şəkildə, «Mən gül görürəm. O, gül satır. Bağ-bağça cül açıb» cümlələrində «gül» sözü kəmiyyət kateqoriyası baxımından təkdədir. Şübhəsiz gül satan şəxs yalnız bitr gül satmır. Bağça və bağda gül açıbsa, bu bir gül deyildir. Deməli, sintaktik konstruksiya daxilində bəzi hallarda kəmiyyət kateqoriyasının qrammatik göstəricisi özünü yer ala bilmir. «Mən güllər alıram; o, güllər satır» sintaktik konstruksiyaları da naqisdir. Burada «gül» sözünə şəkilçinin artırılması yerinə düşmür. Azərbaycan dilində cins kateqoriyası yoxdur. Lakin alınma sözün tərkibində Azərbaycan dilinə keçmiş cins göstəriciləri qeydə alınır. Katib –katibə, rəfiq- rəfiqə, müəllim – müəllimə və s. Sözlərdə cins göstəricisi vardır. Dilin lüğət tərkibində elə sözlər vardır ki, onlar cinsi ayırmağa xidmət edir. Məsələn, buğa, qoç, xoruz və s. Göründyü kimi dildə kateqoriyanı ifadə edən vasitələrdə fərqlər olduğu kimi, bir dildə olan qrammik kateqoriyanın başqa bir dildə yoxluğu da müşahidə olunur.

Bir sıra alimlərin əsərlərində ümumi və xüsusi kateqoriyalara ayırma nitq hissəsinə aidlik meyarına deyil, başqa kriteriyaya əsaslanır. Məsələn, V.B.Kaseviç yazır: «Bəzən ümumi və xüsusi kateqoriyaları fərqləndirirlər. Ümumi kateqoriya verilmiş qarşılaşdırmanın bütün üzvlərini, xüsusi kateqoriya onun üzvlərindən hər birini əhatə edir. Məsələn, hal kateqoriyası ümumi, yiyəlik hal isə xüsusi kateqoriyadır. Xüsusi qrammatik kateqoriyanın məzmun planını qramemma kimi təyin edirlər.» (5, 69).

Qrammatik kateqoriyaları morfoloji, sintaktik və leksik-qrammatik növlərə bölmək daha geniş yayılmışdır. Bu məsələdə də fikir müxtəlifliyi vardır. T.İ.Vendina qrammatik kateqoriyaları morfoloji və sintaktik növlərə bölməyin flektiv dillər üçün səciyyəvi olduğunu, aqqlütinativ dillərdə isə bu iki növ arasında sərhədin itdiyini qeyd edir (6, 221).

Azərbaycan dilçiliyində qrammatik kateqoriyaları ümumi və xüsusi kateqoriyalara bölmək daha geniş yayılmışdır. Belə bölgülərdə ziddiyyətli və fərqli cəhətlərə Y.Seyidov münasibət bildirmiş, qrammatik kateqoriyalar haqqında dilçilərimizin fikirlərinin qısa xülasəsini vermişdir. Onun fikrinə görə «hal və mənsubiyyət kateqoriyalarını heç bir vəchlə ümumi qrammatik kateqoriya hesab etmək olmaz. Bu kateqoriyaların hər ikisi yalnız ismə məxsusdur.» (3, 153). Nəzərə alsaq ki, Y.Seyidov rus dilində müxtəlif nitq hissələrinin hallanmasını əsas götürərək halı rus dili üçün ümumi kateqoriya sayır. Dilə aid kateqoriyanın bir dil üçün ümumi, başqa bir dil üçün xüsusi qrammatik kateqoriya olmasını iddia etmək, zənnimizcə, düzgün deyildir. Qrammatik kateqoriyaların ümumi və xüsusi növləri ətrafında elmi mübahisələr davam etdirilir. Bu məsələ hələlik tam həllini tapmamışdır. Fikrimizjə bu mübahisələrin əsasında bölgü meyarını müxtəlif şəkildə seçmək ziddiyyəti durur.

Qrammatik kateqoriyalarla bağlı mübahisələr yalnız fərqli qrammatik kateqoriyalar üzrə getmir. Bəzən eyni bir qrammatik kateqoriyanın özünə aid elmi mübahisələr diqqəti cəlb edir. Azərbaycan dilində hal kateqoriyasına müxtəlif tərifər verilmişdir. «Hal söz birləşmələrində və jümlədə isimlərin başqa sözlərlə əlaqəsini göstərən qrammatik kateqoriyadır. Hal şəkilçiləri qoşulduq-

ları sözləri jümlənin başqa üzvləri ilə bağlayır, başqa sözlə, onlar arasında sintaktik əlaqə yaradır.» (7, 48).

M.Hüseynzadə hal kateqoriyasına tərif vermir, bu kateqoriyanı izah etməyə çalışır və belə bir nətijəyə gəlir ki, «İsimlərin hallanması formaca morfoloji, vəzifəcə sintaktik tələblərdən irəli gəlir. Daha doğrusu hallanma qrammatikanın həm morfoloji bəhsinə, həm də sintaktik bəhsinə aid bir məsələdir. Morfologiya bəhsində ismin yalnız hal şəkilçilərindən danışmaq mümkündür.» (8, 53).

Y.Seyidov hal kateqoriyasında bəhs edərkən qrammatik paradiqmanın tərifini və ya izahını vermir. Müəllifin hal kateqoriyası haqqında fikirləri onun bu kateqoriyanı sintaktik əsasda təyin etməsi qənaətinə gəlməyə imkan verir (3, 225).

N.Məmmədova görə hal kateqoriyası vasitəsi ilə isimlər cümlədə müxtəlif sözlərlə əlaqələnir və bu əlaqə nəticəsində bir çox mənalar əmələ gəlir. «…İsmin hal kateqoriyası vasitəsi ilə cümlədə və ya söz birləşmələrində adların başqa sözlərlə olan bu və ya başqa münasibəti ifadə olunur, başqa sözlə desək hal kateqoriyası adların adlara və ya adların felə olan müxtəlif münasibətlərini ifadə edir.» (9, 200-201).

Azərbaycan dilçilərinin bir qrupunun hal kateqoriyasına dair izah və təriflərindən görünür ki, bu kateqoriyanı morfoloji müstəvidə əsaslandırmağa meyil zəifdir və demək olar ki, yoxdur. Oxşar cəhət rus dilçiliyində də özünü göstərir. Məsələn, V.B.Kaseviç həl kateqoriyasını izah edərkən yazır: «Hal kateqoriyasının tam şərhi morfologiyanın hüdudlarından kənara çıxmağı tələb edir. Əsas halların başlıja funksiyası cümlədə sözlər arasındakı münasibəti ifadə etməkdir. Buna baxmayaraq, hal formaları adların paradiqmasını yaratdığına görə morfologiyaya aid kateqoriyadır.» (5, 84).

Qeyd olunan cəhət, yəni tərifə sintaktik əsasda yanaşma özünü əsasən hal kateqoriyasının izahında göstərir.

Müasir Azərbaycan dilində ismin halları altıdır. Bu məsələyə münasibətdə tarixən müxtəlif fikirlər olmuşdur. Dilimizdə halların sayının beş, altı, yeddi, doqquz olması göstərilmişdir. M.Hüseynzadə və Y.Seyidov Azərbaycan dilində ismin hallarının müxtəlif sayda verilməsini qeyd etmiş, bununla bağlı mənbələrə istinad etmişlər. Təhlil göstərir ki, Azərbaycan dilinin hal sistemi müəyyən formalaşma və dəqiqləşdirmə dövrünü keçmişdir. Hazırda Azərbaycan dilində altı halın olması fikri tam qəbul olunmuşdur. Həmin hallar bunlardır: adlıq, yiyəlik, yönlük, təsirlik, yerlik, çıxışlıq. Hər bir halın öz qrammatik göstəricisi və sualları vardır.

Adlıq halın qrammatik göstəricisi, yaxud qrammatik ifadə planı yoxdur. Ona görə də söz adlıq halda özünün lüğət formasında olur. Y.Seyidov lüğət vahidi olan sözü həmin sözün adlıq haldakı formasından fərqləndirərək yazır: «Adlıq haldakı isimlər lüğət tərkibində olan və ya müəyyən siyahıda əksini tapan isimlərin qrammatik eyni deyil». Müəllif bu fikrini inkişaf etdirərək, bu qənaətə gəlir ki, «yiyəlik, yönlük, təsirlik, yerlik və çıxışlıq hallardakı isim (kitabın, kitaba, kitabı, kitabda, kitabdan formaları) ayrıca götürülmüş isimdən (kitab) sözündən nə qədər fərqlənirsə, adlıq haldakı isim də (kitab forması) ayrılıqda götürülmüş *kitab* sözündən o qədər fərqlənir.» (3, 232). Beləliklə, Y.Seyidova görə kitab forması, kitab sözündən fərqlənir və «adlıq hal şəkilçisiz haldır, lakin formasız hal deyil.

Hal kateqoriyası haqqında danışarkən bəzi müəlliflər adlıq halı çıxış halı, əsas hal, ilkin hal və s. adlandırırlar. Adlıq halın digər halların yaranması üçün əsas olması da qeyd olunur. Belə çıxır ki, bütün digər halların yaranması üçün adlıq haldan istifadə edilir. Əslində isə bu doğru deyildir. Bütün halların şəkilçiləri adlıq halda olan sözə deyil, ümumiyyətlə sözə əlavə olunur. Yəni bir hal əsasında digəri formalaşmır. Hallar bir-biri ilə oppozisiya təşkil edir. Adlıq hal sıfır şəkilçili olduğundan əsas təsiri bağışlayır. Adlıq hal kateqoriyaya digər halların yaradılması məqsədi ilə daxil edilmir. Bu hal kateqoriyanın eyni güjlü bir vahiddir. Əgər kateqoriyanın müxtəlif, fərqli vahidlərini yaratmaq üçün ilkin forma tələb olunsaydı, başqa kateqoriyalarda da oxşar element, yəni şəkilçisiz variant iştirak etməli idi. Kəmiyyət kateqoriyasında təkliyi bildirmək üçün şəkilçisiz variant vardır. Məsələn, *gül - güllər, ev - evlər, qapı - qapılar*. Lakin xəbərlik kateqoriyasında belə şəkilçisiz variant yoxdur. Məsələn, *həkiməm, həkimsən, həkimdir, həkimik, həkimsiniz, həkimdirlər*. Kateqoriya dildə eyni əsas üzrə yaranan və istifadə olunan bütün formaları əhatə etməlidir. Kateqoriyadan kənarda qalan formalar olmamalıdır. Əgər adlıq haldakı sözlər hal kateqoriyasından çıxarılarsa, onda bütün formaları əhatə etmək tələbi pozulur.

H.Quliyev «qeyri-müəyyən yiyəlik hal» və «müəyyən yiyəlik hal» anlayışlarının eyni bir halın iki formasını göstərdiyini, lakin anlaşılmazlıq yaradaraq iki yiyəlik halın mövcudluğu qənaətinə gəlməyə imkan yaratdığını yazır: O, belə hesab edir ki, «yiyəlik halın şəkilçisiz forması» və «yiyəlik halın şəkilçili forması» terminlərini işlətməyə məqsədəuyğun sayır. Müəllif bu formaların hansı hallarda işlənməsini aydınlaşdırmağa çalışır. H.Quliyev şəkilçisiz formanın işlənmənin birinci halını naməlum əşyanın adının birinci dəfə çəkilməsi ilə, ikinci halını isə eynicinsli əşyaların adını bildirməklə bağlayır (7, 54).

Yiyəlik halın məna növlərinə münasibətdə Y.Seyidov iki cəhətə diqqət yetirməyi vacib sayır: a)sadalanan mənalar bilavasitə yiyəlik halın qrammatik xüsusiyyətləri ilə deyil, həmin halda olan sözlərin lüğəvi mənası ilə əlaqədardır; b)bu mənalar yiyəlik haldakı isimlə ondan sonra işlənən və onunla birlikdə söz birləşməsi əmələ gətirən sözün əlaqəsindən irəli gəlir» (3, 247).

Ədəbiyyat

1. Adilov M.İ.,Verdiyeva Z.N. Ağayeva F.M. İzahlı dilçilik terminləri. Bakı, Maarif, 1989.
2 Ахманова О.С. Словарь лингвистических терминов. Москва, Советская энциклопедия, 1966.
3. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Bakı, BDU nəşri, 2002.
4. Блумфилд Л. Язык. М, Прогресс 1968
5. Касевич В.Б. Элементы общей лингвистики. Ленинград, Наука,1977
6. Вендина Т.И. Введение в языкознание. М., Высшая школа, 2001
7. Quliyev H.K. İsmin halları//Müasir Azərbaycan dili, II c. Bakı, Elm, 1980
8. Hüseynzadə M. Müasir Azərbaycan dili, Bakı, Maarif, 1973
9. Məmmədov N. Azərbaycan dilçiliyinin nəzəri əsasları. Bakı, Maarif, 1971

G.Abbasova

Questions of category in morphological system

Summary

Existence of various morphological categories in language, including grammatical categories is one of accepted issues in linguistics. However, question of category in language has not been defined properly enough. Grammatical, general and special categories are analyzed in this article. Arguable features observed in definition of grammatical category attract attention.

Q.Abbasova

Вопрос категории в морфологической системе

Резюме

Присутствие различных категорий в языке, включая грамматические категории одно из принятых вопросов в лингвистике. Однако вопрос категории в языке недостаточно нашел свое точное определение. В этой статье анализируются грамматическая, общая и особая категории. Внимание уделяется спорным аспектам, которые наблюдаются в определении грамматической категории.

Rəyçi: İradə Şəmsizadə
filologiya elmləri namizədi, dosent

NİGAR HACIYEVA
XANIM MANAFLI
(BDU)
nigar40@mail.ru

MÜRƏKKƏB CÜMLƏNİN VƏ MƏTNİN EKSPRESSİVLİYİ

Açar sözlər: sintaksis, ekspressivlik, emosionallıq, mürəkkəb cümlə, nağıl, mətn
Key words: syntax, expressive, emotional, a compound sentence, a fairy tale, the text.
Ключевые слова: синтаксис, экспрессивность, эмоциональнось, сложное предложение, сказка, текст

Azərbaycan dilçiliyində mürəkkəb cümlələrin ekspressiv-üslubi keyfiyyətləri çox az öyrənilib. «Azərbaycan dilinin bədii üslubiyyatı» (1970) kitabında da göstərilib ki, bu mövzu geniş və dərin tədqiqat tələb edir. Mürəkkəb cümlələrin, xüsusilə tabeli mürəkkəb cümlələrin, üslubi xüsusiyyətlərini tam genişliyi ilə vermək ayrıca bir elmi tədqiqat işidir» (1, s. 343).

Azərbaycan nağıllarının dilində mürəkkəb və silsiləli fikirlər çoxdur. Bunlar mürəkkəb quruluşlu cümlələrlə ifadə olunur. «Bədii əsərlərdə mürəkkəb cümləyə müxtəlif şəkildə münasibət göstərilir. Ümumiyyətlə, nağıl dilində təsvir çox olduğu üçün burada mürəkkəb cümləyə, nisbətən, geniş yer ayrılır. Nağıl dilində fikirlər arasında mövcud olan rəngarəng semantik münasibətləri lakonik formada, ardıcıl və sistemli olaraq sıx şəkildə vermək üçün tabesiz mürəkkəb cümlələrdən istifadə edilir. Nağıl mətnlərində mürəkkəb cümlə sistemi ,əsasən, təkrar sisteminin, xüsusən sintaktik paralelizmin yüksək tezliyi ilə fərqlənir. Mürəkkəb cümlənin öz ritm xüsusiyyətləri var ki, bu da sintaktik təkrarın yaratdığı ritmik-melodik keyfiyyətdir. Ekspressivlik, emosionallıq ifadə edən mürəkkəb cümlə biçimlərinin üslubi-poetik funksiyası həmin cümlələrin qrammatik vəzifəsi ilə üzvü şəkildə vəhdətdədir» (8, s. 147).

Nağıl dilində tabesiz mürəkkəb cümlənin standarlaşdırılmış konstruksiyarı işlədilir ki, bu ekspressivliyi ilə seçilir. Məs.:

1.Az getdi, çox getdi, iynə yarım yol getdi, bar qalacaya rast gəldi (AN, I c., 290).

Ekspressivliyi bu tabesiz mürəkkəb cümlədə yaradan vasitə «iynə yarım yol getdi» - cümlə litotasıdır. Digər bir tərəfdən ekspressivlik cümlənin ritmik-melodik sıralanmasında da meydana çıxır.

Nağıl dilində tabeli mürəkkəb cümlənin müxtəlif tipləri işlədilir. Məs.:

1.Padşahın iç-içə qırx otağı varıdı ki, bu otaqlara padşahdan savayı kimsə girə bilməzdi (AN, I c., 288).

2. Otaqlar o qədər böyükdü ki, içərisində bağlar, al-əlvan çiçəklər, meyvələr də var idi (AN, I c., 288).

3.Nə qədər soraq salırsa da, qızdan bir sonraq verən olmur (AN, I c., 290).

4. O saat başa düşdü ki, oğlu aşiq olub, gedəcək (AN, I c., 290).

Qarşılaşdırma məqsədilə:

Aydınlaşdırma məqsədilə:

Səbəb- nəticə məqsədilə:

Zaman ardıcıllığı məqsədilə:

Nağıllarda üslubi baxımdan –sa,-sə şəkilçili budaq cümlə baş cümlə ilə yerini dəyişir, biri digərinin arasında işlənir, bu zaman qüvvətli ekspressiya meydana çıxır.

Sintaktik transformasiya hadisəsi də mürəkkəb cümlələrin ekspressiyasını artırır. Belə ki, sintaktik transformasiyalar nağıl dilində də müəyyən hallarda - əvəzləmə prosesində, tipik dəyişmələrdə, inersiyalarda, ellipsis hadisəsi zamanı özünü göstərir.

Mürəkkəb cümlə bizi əhatə edən obyektiv reallığa məxsus daha mürəkkəb bilikləri,obyektiv aləmdəki hadisələr arasında da mürəkkəb əlaqələri əhatə edir.

Mürəkkəb cümlə nitq mədəniyyətinin nisbətən sonralar yaranmış yüksək ifadə vasitəsidir.Tədricən hadisələr arasındakı əlaqələr dərk olunduqca, onların ifadə vasitəsi kimi,mürəkkəb cümlələr də yaranıb formalaşmışdır. (7, s. 284)

Mürəkkəb cümlələr intensivlik əlamətlərini mətni bağlama cəhətinə görə kəsb edir. Məsələn, ”Simanın” nağılında tamamlıq budaq cümləsi (gördü ki,...) mətni bağlamışdır:

“Dəşküvar durub çıxmışdı bağa. Gördü ki, bir sərçə öz balasını dimdiyində götürüb gəldi çarhovuzun üstə. Üç kərəm balasını suya basıb, alıb təzədən dimdiyinə apardı. Dəşküvarın ürəyinin başına od düşüb elə bil alışdı, dedi: mənim də oğlum olaydı...

Bu dəmdə Dəşküvarın bağbanı bağı gəzirdi, gördü ki, padşah oturub şarhovuzun üstə, çox fikirdədi. (“Simanın nağılı”, s.239)

Qeyd edək ki, Azərbaycan nağıllarının dilində yarımçıq cümlələr tabeli mürəkkəb cümlə quruluşunda da müşahidə olunur. Dilimizdə mürəkkəb cümlənin struktur semantikasını ilk dəfə geniş plana tədqiq etmiş T.Hacıyev yarımçıq cümlənin bu tipini tabeli mürəkkəb cümlənin natamam formalarından biri sayır. Müəllif yazır ki, tədqiqatçıların çoxunda cümlənin yarımçıqlığı isə diqqətdən kənarda qalmış, halbuki bu forma özünün zəngin struktur semantik xüsusiyyətləəri ilə dilimizdə geniş işləkliyə malikdir. Tabeli mürəkkəb cümlənin natamam formalarında özündən əvvəlki cümlələrdə xatırlatma və asanlıqla yerinə bərpa oluna bilmə təyinatı vardır. Lakin sadə cümlələrdən fərqli olaraq,burada cümlə üzvləri deyil, komponentlərdən biri - tabeli mürəkkəb cümlənin baş,və yaxud budaq cümlə buraxılır. Bunun səbəbi isə çox sadədir. Tabeli mürəkkəb cümlələrdə, adətən, budaq cümlə rema rolunda çıxış edir. Hər hansı cümlə üçün isə məlumatvermə əsasdır. Ona görə də əvvəlki cümlədə xatırlanan məlumatın təkrarına ehtiyac qalmadan yalnız yeni məlumat verilir. T.M.Hacıyev bu maraqlı fikrini davam etdirərək yazır ki,hə şeydən əvvəl demək lazımdır ki, tabeli mürəkkəb cümlənin yarımçıq formaları xüsusilə dioloji nitqdə özünü göstərir və situasiyadan, bütöv informasiyanın məzmunundan asılı olur. (10, s.155-156) Araşdırma göstərir ki, nağılların dilində işlənmiş və ekspressiya yaradan mürəkkəb cümlənin yarımçıq formaları 2 cür meydana çıxır:

1) müsahibin danışığının davamı kimi, yəbni danışıq dili faktı kimı;

2) hər hansı sualın cavabı kimi;

Xəbər budaq cümləsi yarımçıq formada: İşlərim elədir ki,.. (“Simanın nağılı”, s.239), məqsədim budur ki,... (yenə orda,.s.238).

Tamamlıq budaq cümləsi yarımçıq formada: Yəni demək istəyir ki,.. (“Nəsi və Nəsdərənin nağılı”s.115), onun nəyi qalır ki,..(yenə orda,s.115)

Tərzi hərəkət budaq cümləsi: Korlar işığı, gözəlliyi nə cür hiss edirlərsə... ("yenə orada s.116); Şah elə şirin xəyallara dalmışdı ki,.. ("Simanın nağılı", s.240)

Zaman budaq cümləsi yarımçıq formada: O vaxt mən səndən xahiş etmişdim ki,...sözünün dalını gətirə bilmədi. ("İbrahim", s.157)

Kəmiyyət budaq cümləsi yarımçiq formada: Halı o qədər pərişan idi ki, (yenə orada s.158); Həsrətini o qədər çəkmişəm ki,... (yenə orada s.159)

Qarşılaşdırma budaq cümləsi: - Sən məni o qədər yandırıb tökürsən ki,... ("Əyyar", s.144)

Bütün bu mürəkkəb yarımçıq cümlə strukturları mətndə ekspressiv boyaların artmasına şərait yaradır.

Ən böyük sintaktik vahid olan mətnin ekspressivliyi nağıl mətnlərində aktivliyi ilə seçilir. «Mətn dilçiliyinin ümumi linqvistik əsaslarına istinad edilmədən onun ekspressiv, emosional xüsusiyyətlərini açmaq qeyri-mümkündür» (8, s. 150). Mətn üslubi təhlilin əsası qismində də daha böyük vahid kimi çıxış edir (9, s. 106).

«Mətn sintaksisinin özünəməxsusluğunu öyrənmək ilk növbədə poetik sintaksisin imkanlarını genişləndirir. Mətnin, xüsusən folklor mətnin öyrənilməsi üslubiyyatın, poetikanın yeni perspektivlərini açır» (8, s. 152).

«Zaman keçdikcə bədii əsərin dil xüsusiyyətləri, bədii dilin özünəməxsusluğu mətn səviyyəsində aparılmış təhlil nümunələrində öz adekvat həllini tapmışdır» (8, s. 153)

«Bədii fikrin inkişafını izləmək üçün, estetik fikrin yayılma qanunauyğunluğunu müəyyən etmək üçün təhlil olunan bədii mətnin struktur və semantik cəhətləri vəhdətdə götürülür, həmin mətni təşkil edən dil (nitq) vahidləri- fonemlər, leksemlər, seqmentlər, cümlələr kontekstual baxımdan ardıcıl şəkildə araşdırılır. Bədii mətnin unikallığ, təkrarsızlığı məhz poetik-üslubi təhlil vasitəsilə reallaşır. Və burada bədii sözün ifadə imkanları, estetik fikrin daxili siqləti mətn miqyasından tədqiq edilir. Forma və məzmun vəhdəti bədii mətnin təhlili üçün əsas stimul kimi özünü göstərir» (8, s. 154).

«Nağıl mətnlərindən birinin başlanğıcına diqqət edək: «Biri var idi, biri yox idi, bir padşah var idi». Çox abstrakt (və həm də formula xarakterli) «biri var idi, biri yox idi» sintaqmından sonra «bir padşah var idi» sintaqmı gəlir ki, bütün mətn «bir padşah» adlı şəxsin taleyi ilə başlayır və get-gedə müəyyənləşir (8, s. 184).

Ə.Cavadov: «Sintaktik bütöv qeyri-müəyyənlikdən müəyyənliyə doğru inkişaf edir. Belə ki, mürəkkəb sintaktik bütövün qeyri-müəyyənlikdən müəyyənliyə doğru inkişaf edir. Belə ki, mürəkkəb sintaktik bütövün mərkəzində duran cümlə, əsasən, qeyri-müəyyənliyi bildirir. Mərkəzi cümlədən sonra gələn izahedici cümlələr qeyri-müəyyənliyi müəyyənliyə çevirir» (5, s. 67).

Nağıl mətnləri ekspressiya üçün geniş imkanlar açır. Bu imkanlardan biri mətnin təşkili mexanizmi, bağlılığı problemidir. Bu problemlə nağıl mətnlərində tez-tez qarşılaşmaq olur. Biz burada iki cür əlaqədən - əlaqə üsulunda bəhs edəcəyik. Bu əlaqə üsulları komponentlər arasında məntiqi-sintaktik əlaqə üsulları kimi tanınır.

Tədqiqatçıların göstərdiyi kimi, sintaktik bütövlərin komponentləri bir-biri ilə həmişə eyni üsulla əlaqələnmir. Bu cəhəti mətn üzərində praktik şəkildə yoxlayan dilçilər komponentlər arasında məntiqi rabitəni müxtəlif şəkildə müşahidə etmişlər. İki əlaqə üsulu- zəncirvarı və paralel əlaqələr hamı tərəfindən qəbul edilir. Mətn dilçiliyininin tədqiqyatçılarından Q.Kazımov yazır ki, zəncirvarı əlaqənin əsas

xüsusiyyəti ondan ibarətdir ki, əvvəlki cümlənimn reması sonrakının teması kimi çıxış edir və bu proses sintaktik bütöv kimi davam edir, cümlələr bir zəncirin həlqələri kimi bir-biri ilə bağlanır. Bu prosesdə həlledici rol təkrarların üzərinə düşür. Hətta bəzən əvvəlki cümlənin reması sonrakında tema şəklində olduğu kimi saxlanılır (7, s. 451).

Nümunələrə nəzər yetirək:

1) Əl çəkmədi ki, əl çəkmədi (AN, II, 133).
2) Ox kamandan çıxıb birbaş **sürdü** ilanlara tərəf. **Sürdü** hara dəysə yaxşıdı düz qara ilanın sağ gözündən (AN, II, 135).
3) Götürüb cavan oğlanı gəldi **şəhərə. Şəhər** padşahına bir kağız yazıb göndərdi (AN, II, 170).
4) Bəlğ pəhləvan səhər durub Pəri xanımın yanına **gəlirdi. Gəlib** qalacaya **çatdı. Çatan kimi g**ördü ki. qalaca laybalay açıldı (An, II, 173).
5) Bir **nərə çəkdi. Nərə çəkən kimi,** qoşuna qorxu düşüb, üz qoydular qaçmağa (AN, II, 170).
6) Nəyi var idi hamısını satdırıb qızı **aldı. Aldı,** amma ki, necə **aldı…**(AN, II, 176).
7) Qoca ilə Səlim düşdülər **yola. Yolda** qoca Səlimdən soruşdu ki, aşbazlıq bilir, ya yox (AN, II, 178).
8) Hər ikisi başladılar **süpürüşməyə. Süpürüşəndən sonra** Kəl Həsən əl atıb qılınca Bəlğ pəhləvannan qılınc davasına başladı (AN, II, 173).
9) Mən **razı olmadım. Razı olmayanda** Qara vəzir məni zindana saldı (AN, II, 234).
10) Verən versin, verməz verməsin (AN, III, 66).
11) ceyran əl atıb qılınca hücum elədi Əhmədə. Başladılar qılınc davasına. Əl atıb yapışdı Rum padşahının oğlunun yaxasından (AN, III, 208).
12) Ordan, burdan soraqlaşıb **öyrəndi ki**, bəli, bir belə qutu bura gəlib, içindən də üç qız çıxıb. Bəli, bunu da **öyrəndi ki,** kiçik qızı padşahın oğlu alıb (AN, III, 116).
13) Padşah çox intizarda idi ki, Kəl Həsəni **görə**. Bir də **gördü ki,** qabağında nə boyda bir adam dayandı, əynində don, ayağında çarıq (AN, III, 166).
14) Şirzad gördü daha xac yoxdu. Gördü bir qalaca var (AN, III, 108).

Birinci cümlədə «əl çəkmədi» frazeologizmi birinci cümlədə «yeni»ni, ikinci cümlədə isə «məlum olan» bildirmiş və ikinci cümlədə temaya çevrilərək onu birinci cümlə ilə əlaqələndirmişdir.

İkinci cümlə: «sürdü» sözü birinci cümlədə «yeni»ni, ikinci cümlədə «məlum olan»ı bildirmiş və ikinci cümlədə temaya çavrilərək onu birinci cümlə ilə bağlamışdır.

Üçüncü cümlə: Şəhər sözü birinci cümlədə yer zərfliyidir - «yeni»ni ifadə edir, ikinci cümlədə bu söz təyin rolunda çıxış edir - «məlum olan»dır. Bu söz ikinci cümlədə temaya çevrilmiş və onu birinci cümlə ilə bağlamışdır.

«Formula səciyyəsi daşıyan nağılbaşılar (təkərləmə): «Bir varmış, bir yoxmuş» (s. 249). K.Vəliyev formulları 3 prinsip üzrə qruplaşdırır:

1.Sintaqmatik prinsip; (başlanğıc formullar, keçid (medial) formullar; sonluq formulları)

2.Semantik prinsip; (ritual formulları, toy, yas, hədiyyəvermə, mövsüm və s.; döyüş-müharibə formulları, yoladüşmə, vuruş, qələbə, geyim, silah və s. Öygü, dua-alqış formulları, məişət formulları, təbiətə münasibət formulları, yol formulları)

3. Linqvistik prinsip. (dil vahidləri əsasında yaranan formullar: söz-formula (metafora). Müqayisə-formula, söz birləşməsi formula (bədii təyinlər), cümlə formula, sadə cümlə, tabesiz mürəkkəb cümlə (paratasis) (8, s. 250), tabeli mürəkkəb cümlə (hipotaksis), mətn-formula, dialoq (8, s. 251).

Ədəbiyyat

1. Allahverdiyeva F. Bədii mətnin formalaşmasında sintaktik əlaqə vasitələri. Bakı: ”Elm və təhsil”, 2011.
2. Azərbaycan nağılları: 5 cilddə, I c., Bakı: «Şərq-Qərb», 2005.
3. Azərbaycan nağılları: 5 cilddə, II c., Bakı: «Şərq-Qərb», 2005.
4. Azərbaycan nağılları: 5 cilddə, III c., Bakı: «Şərq-Qərb», 2005.
5. Cavadov Ə.M. Dil vahidlərinin sırası (Azərbaycan dili materialları əsasında). Doktorluq dissetasiyası, Bakı, 1975
6. Hüseynov M. Romanın üslub zənginliyi. Bakı, 1990.
7. Kazımov Q. Seçilmiş əsərləri. V cild, Bakı: Nurlan,2008.
8. Kazımov İ.B. Oğuz qrupu türk dillərində yarımçıq cümlə. Namizədlik dissertasiyası, Bakı, 1987.
9. Кязимов И.Б. Неполное предложение в тюркских языках огузской группы. АКД, Баку, 1987, с. 20-22
10. Müzəffəroğlu T. Müasir Azərbaycan dilində mürəkkəb cümlələrin struktur semantikası. Bakı: Azərnəşr, 2002.

Н.Гаджиева,
Х.Манафлы

Экспрессивность сложных предложений и текста

Резюме

В азербайджанском языкознании экспрессивно-стилистические особенности сложных предложений мало изучены. Стилистические особенности сложноподчиненных предложений не исследованы.

В азербайджанских сказках много сложных и ступечатых мыслей. Они выражаются с помощью предложений со сложной структурой. В языке сказок достаточно много описаний, поэтому здесь сложным предложениям отводится место.

В этой статье на фактическом материале из сказок рассмотрены различные типы сложных предложений, синтаксические трансформации, а также выразительность текста, являющегося самой крупной единицей синтаксиса.

N.Hajiyeva,
Kh.Manafli

Expression of compound sentences and the text

Summary

In the Azerbaijan linguistics expressive and stylistic features of compound sentences are a little studied. Stylistic features of compound sentences are not investigated.

In the Azerbaijan fairy tales a lot of difficult and step thoughts. They are expressed by means of offers with difficult structure. In language of fairy tales it is a lot of descriptions, therefore here to compound sentences the place is taken away.

In this article on an actual material from fairy tales various types of compound sentences, syntactic transformations, and also expressiveness of the text which is the largest unit of syntax are considered.

Rəyçi: Ofeliya Piriyeva
pedaqogika elmləri namizədi, dosent

ƏDƏBİYYATŞÜNASLIQ

HÜSEYN HƏŞİMLİ
filologiya üzrə elmlər doktoru, əməkdar elm xadimi
(Naxçıvan Dövlət Universiteti)
e-mail: hashimli-h@rambler.ru

SƏİD SƏLMASİNİN PUBLİSİSTİKASI

Açar sözlər: Azərbaycan ədəbiyyatı, publisistika, Səid Səlmasi.
Key words: Azerbaijan literature, publicistic, Said Salmasi.
Ключевые слова: Азербайджанская литература, публицистика, Саид Салмаси.

Səid Səlmasi (1887-1909) qısa ömür sürsə də, özündən sonra diqqətəlayiq bədii və publisistik irs qoymuşdur. O həm Bakıda nəşr olunan ayrı-ayrı qəzet və jurnallarda müxtəlif səpkili yazılarını oxuculara çatdırmış, həm də Güney Azərbaycanın bir sıra mətbuat orqanlarında çıxış etmişdir. İstedadlı qələm sahibinin bəzi bədii əsərləri barədə indiyədək müəyyən elmi fikirlər söylənilsə də, onun publisistikasına, demək olar ki, diqqət yetirilməmiş, bu sahədə yalnız tək-tək qısa mülahizələr üzə çıxmışdır. Bu məqalədə biz S. Səlmasinin ötən əsrin əvvəllərində Bakı mətbuatında işıq üzü görmüş bir sıra publisistik əsərlərini tədqiqata cəlb edəcəyik.

Səid Səlmasinin maraq doğuran publisistik əsərlərindən biri ”İran işləri” adlanır. Həmin məqalə Bakıda çıxan “Tazə həyat” qəzetinin 7 may 1907-ci il tarixli sayında dərc olunmuşdur **(3)**. Bu məqalə o zaman Güney Azərbaycanda əhalinin ağır sosial-iqtisadi durumundan, hüquqsuz vəziyyətindən bəhs edir. Yazının əvvəlindəki qeyddən anlaşılır ki, S. Səlmasi bu məqaləni Salmas mahalından aldığı məktublar əsasında hazırlamışdır. Buradan həm də o nəticə çıxır ki, həmin vaxt Səid doğulub boya-başa çatdığı Salmas mahalında deyilmiş, çox güman ki, Bakıda imiş.

Məqaləni oxuduqca sanki müəllifin sətirlər arxasından boylanan həssas simasını görür, onun vətəndaş harayını eşidirik. S. Səlmasi həmvətənlərinin acınacaqlı vəziyyətini konkret faktlar əsasında ürək ağrısı ilə dilə gətirir. Cana doymuş əhalinin hətta tətilə başladığını da nəzərə çatdırır: “Azərbaycanda aclıq var. Bu həftə aldığım xüsusi məktublarda Salmas mahalında və Deyləmqan şəhərində əhalinin tab gətirə bilməyəcəyi bir dərəcədə aclıq olduğunu yazırlar. Buğdanın pudu iki manat bir abbasıya satılır. Salmas mahalı kimi fəqiri-ümumi olan bir ölkədə iki ay buğda bu qiymətdə qalırsa, əhalinin dörddə biri acından öləcəyi mümkündür. Və işin içində də müqatilələr, hücumlar olacağı Deyləmqan şəhərində başlayan tətili-ümumidən anlaşılır. Tətil haqqında bizə belə yazırlar: “Tətil dəhşətli bir tətil idi. Aclıqdan cəsarətə gəlmiş ixtilalçılar - kişi-övrət qəmələr, revolverlərlə (tapançalarla) müsəlləhən Məşədi Abbasəli Babayevin evinə və dükanına hücumlar etdilər. Ancaq bir şey eləyə bilmədilər. Yalnız dükanın bir neçə taxtasını sındırdılar”.

Bunun ardınca S. Səlmasi məmləkətdəki bahalığın, qıtlığın, əhalinin aclığa düçar olmasının və nəticədə tətil etməsinin əsas səbəblərini araşdırmağa səy göstərir: “Salmas mahalında olan kəndlər ki, əksəri Hacı Məmmədtağının əlindədir və bu kəndlərin dövlətə olan vergiləri “Qəllə”dir, yəni eynən buğda verməlidirlər... Məsə-

lən, bir kənd min pud buğda dövlətə vergi verməlidir. Buğdanın pudu da bir manata satılır... Ərbab Təbrizdə hökumət dairələrinə xəbər verir. Bir qədər rüşvət-filan verdikdən sonra buğdanın pudunu əlli qəpiyə qət edir. Nağd pulunu verir, sonra kəndə məmurlarına xəbər verir ki, burada əhalidən eynən buğdanı cəm et. Burada yenə sahibinin birə-iki mənfəəti olur. Əhali qorxudan dərdlərini kimsəyə deməz. Deyərlərsə də zülm-cəbrdən savayı bir şey görməzlər. Çünki Hacı Məmmədtağı hökumətə söyləyəcək, mən sənə peşin (əvvəlcədən) buğdanın pulunu verdim. İndi bunlar istəyir, mənim buğdamı verməsinlər. Artıq iş bitdi. Hacı Məmmədtağı kəndxudaların yanına bir də hökumət qoşulur. Qırmac altında yazıq əkinçilərdən istədiklərini alırlar. Bu surətlə hökumətin ehtiyat zəxirəsi adına kəndlilərdən aldığı buğda Hacı Məmmədtağının anbarına girir və kənd hasilatının da üçdə biri Məmmədtağıya veriləsidir. Bunlardan məada (başqa), nə qədər hasil verən yer varsa, hamısı ərbab əlindədir və onların hasilatı anbarlara dolur və sair vasitələrlə rəiyyətdən alınan buğdanı da nəzərə alır. Yəqin demək olar, illik hasilatın üç hissəsi Hacı Məmmədtağının əlində, dörddə biri rəiyyətin əlində qalır".

Məhsulunun dörddə üç hissəsi əlindən alınan kəndli, özünə qalan cüzi taxıl ilə, sözsüz ki, gələn ilin məhsul yığımınadək cüzi ailəsini dolandıra bilməyəcək. Belə olan halda o, yenə də ərbabdan borc almaq məcburiyyəti ilə üzləşəcək. Məqalənin davamında müəllif bu məsələlərə diqqət yetirərək yazır: "Üç-dörd ay sonra ki, tamam buğda rəiyyətin əlindən qurtulur, əhali hamısı kənd sahiblərinin anbarlarına möhtac olur. Artıq buğdanın qiyməti ərbabların insafına bağlıdır. Neçə sənələrdən bəri Azərbaycan ölkəsini aclıq və qıtlıq bəlasına düçar edən məsələ bundan ibarətdir və indi də Salmasda başlanılan aclığın və tətilin səbədi budur və Salmasda Hacı Məmmədtağının anbarları Babayev dediyimiz zalımın əlində olduğundan onun üçün ac və səfil qalmış əhali onun qapısına hücum edir".

Məqalənin sonunda S. Səlmasi dərin kədərlə, qəlb yanğısı ilə ac-yalavac vəziyyətə düşmüş biçarə kəndlilərə xitab edir, eyni zamanda, sərvət naminə hər vasitəyə əl atan insafsız ərbabların iş üzünü, laqeydlyini, zalımlığını daha dərin qəzəblə açıb göstərir : " - Ey biçarə millət, əbəs yerə o zalımın qapısına yığılmayın! Çünki sizin ah-naləniz, fəryadınız o baxanlara dəhşət verən binanın daşlarına, kərpiclərinə təsir etsə də, onun qəlbinə təsir edə bilməz. Çün o daşlar ilə - o kərpiclərlə sizin mənəvi bir rabitəniz vardır. Çünki onlar sizin ürəyinizin qanı ilə qoyulub. Bəli, o böyük binanın tikilməsi minlərcə evlərin yıxılmasına bais olub…Yazıq millət, o binanın içində olan dağ parçası tək buğdaların həvəsi sizi çəkib ora aparmasın. Onlardan sizin nəsibiniz yoxdur. Qayıdın, balalarınızın əlindən tutun! O çırağsız-çörəksiz olan daxmalarınıza girin! Xanimansızlarsınız! Xarabalar bucağına, gülxənlər içinə gedin!"

Müəllifin kədər dolu ovqatı daha də tündləşir, onun qəlb nalələri son nəticədə mahiyyət etibarı ilə məzlum həmvətənlərini öz hüquqları barədə düşünməyə, lazımi addımlar atmağa yönəldən təsirli vətəndaş harayına çevrilir: " Acından can verin! Sürünün, məhv olun! Bəlkə, Allah-taala onu və onun kimi zalımları yandırsın. Hər halda, onun qapısına cəm olmayın! Ah-nalə etməyin! Zira o sizin fəryadınızı eşitdikcə sizə gülür, istehza edir".

Göründüyü kimi, S. Səlmasi zalımlara yalvarmağı rəva bilmir, kəndlilərə xitabən: "Sürünün, məhv olun!" deməklə əslində onlara öz kölə vəziyyətlərini anlatmaqla mübarizəyə əsləyir.

Vətənpərvər ziyalı Səid Səlmasinin diqqətəlayiq publisistik əsərlərindən biri də "İrana dair. Azərbaycan "padşahları" adlanır. Həmin irihəcmli məqalə Bakıda "İrşad" qəzetinin 13 may və 17 may 1907-ci il tarixli saylarında dərc olunmuşdur **(4; 5).** Burada da əsas tənqid hədəfi müəllifin "İran işləri" məqaləsindən tanıdığımız Hacı Məmmədtağıdır. Xalqın qanını sormaq, var-dövlətini mənimsəməklə özünə külli miqdarda sərvət toplayan harınlamış insafsız məmurları qəzəblə ifşa edən, "mülkədar və ruhanilərə meydan oxuyan Səid Səlmasi" **(1)** belələrini istehza ilə "padşah" adlandıraraq onların hərəsinin bir bölgənin külli-ixtiyar sahibinə çevrildiyini diqqət mərkəzinə çəkmişdir: "Əvət, Azərbaycanda "padşahlar" var ki, hər birinin zənciri-əsarəti altında on minlərcə əkinçi var. Bu şahların ən böyüyü, ən müqtədiri Hacı Məmmədtağı Sərrafdır... İyirmi minə qədər kişinin irzi-namusu bunun yədi-cabbaranəsindədir".

Müəllif Hacının köləsinə çevrilmiş biçarə həmvətənlərinin bir zamanlar rahat həyat sürdüyünü həsrətlə təsvir etmişdir. Bu təsvirlər isə adi publisistik düşüncələr olmayıb dərin bədiilik məziyyətləri ilə də seçilir. Oxucu belə məqamlarda kamil bir nasir qələmi ilə tanış olur. Xüsusən müəllifin kənd həyatına, məişətinə, adət-ənənəyə yaxından bələdliyi, təsvirlərdəki təbiilik, dolğunluq aşkar duyulur. Təsəvvür tamlığı naminə nisbətən geniş bir parçanı missal gətiririk: "İyirmi sənə bundan önə qədər ki, hənuz kəndlər Hacı Məmmədtağının əlinə keçməmiş idi, əkinçilərimiz məsud (xoşbəxt) idi. Hər ailənin yüzə, iki yüzəcən davarı, 5-6 baş qaramalı-sağını olurdu. Çəmənlər yaşıllanmağa başlar-başlamaz ailələr qaz yavrusu kimi çölə dağılır, xırman üstünə qədər yek vücud (birlikdə) işlərdilər. Xırman qurtardıqdan sonra hər kəs öz kaşanəsinə (evInə) çəkilib, məsudanə imrari-həyat edirdilər (dolanırdılar). Kəndlərinə bir qərib gəlirsə, onun hörmətini saxlar, hər gün birisi qonaq aparardı. Lakin özləri qürbət nədir, bilməzdilər. Çobanları olurdu. Aralarında heç bir nökərlik-ağalıq sözü olmazdı.

Ailənin ən gözəl günü çobanın şərqisini dinləməklə keçirdi. Hər kənddə dügünləri (toyları) qış fəslincə saxlardılar. Çünki hər bir kəndin kəndinə məxsus böyük bir otağı olar ki, kəndin əhli qışın tam gecələri bir yerə cəm olur, ziraətə (əkinə) dair söhbətlər edirdilər. Dügünləri də bu qış otağında edirdilər .

Kənddə bir eyş (şənlik) olursa, həpisi iştirak edir. Bir müsibət olursa, yenə həpisi məyus olurdu. Hər kəndin məxsusi məscidi, azan oxuyanı və ruhanisi var idi. Ruhaniləri də bunlara mehriban idi. Əksəriyyən qış gecələri kəndçilərin məcməinə gəlir, bunlara adabi- şəriəti təlim edirdi. Bunlar da bu xidmətin əvəzində kəndin ruhanisinin ziraət işlərinə köməklik edirdilər".

Müəllifin təbirincə, bu yerlərin sakinləri qara günlərə o zaman düçar olur ki,

Hacı Məmmədtağı həmin kəndləri almağa başlayır. Nəticədə tərzi-həyat da dəyişir, Əhalinin güzəranı dözülməz həddə yuvarlandığı kimi, mənəvi-əxlaqi dəyərlər də təhlükə altına düşür: "Əvət, əkinçilərimizin namusu ləkələndi, ayaqlar altında əzildi. O evlər, o ailələr ki, qürəbayə (qəriblərə) məmən idi, xarab oldu. O kişi ki, 20 nəfər, 30 nəfərə kimin adam bəslər idi, şimdi divar diblərində sürünür. O qəhrəman cavanların gözü önündə kəndxudanın nökəri bacısının, əyalının saçını qoluna tutur, sürür, səsini çıxarmayır.

Əvət, səsini çıxarmayır. Çünki cəsarətləri qırıldı, əsarətə öyrəndilər".

Çarəsiz kəndlilərin xilas üçün əl atmağa məcbur qaldığı vasitələr barədə aşağıdakı təsvirləri də həyəcansız oxumaq olmur: "Nə qədər əkin yerləri varsa, hə-

pisi "Ərbab" əlinə keçdi. Şimdi birisi əkin əkərsə, gərək getsin təpə başlarında, dağ ətəklərində əksin. O da yağmur yağmazsa, bitməyəcək. Bitsə də üçdən birisi ərbaba veriləcək. Vergiləri də ağırlaşdı. Hər kəndçi "Divani"sini verdikdən sonra hər ay bir toyuğ, bir qran, qışda da borcudur ki, bir ulaq yükü odun. Odunu yoxsa, gedib dağlardan dağ odunu gətirsin. Ulağı yoxsa, iki dəfə dalında gətirərsə, bir ulaq yükü hesab olunacaq. İldə on gün "Ərbab"ın bağında çörəksiz işləməlidir. "Çörəksiz" demək nədir?" Bunu sual edən olursa, cavabən deyəriz ki, pulsuz həmişə işləməyə həqqı var. Ona cəhətə çörəksiz deyiriz.

Hər kəsin meyvə ağacı olursa, ağac yaşına ilə bir qran verməlidir".

Ərbab zülmünə dözməyən bir çox kişilərin də məmləkətdən baş götürüb qürbət ellərə getdiyini, kəndlərin köməksiz, kişisiz qaldığını, nəticədə qadınların, uşaqların ən ağır işləri görməyə məcbur olduqlarını da S. Səlmasi amansız rejimin fəlakətləri sırasında təsirli bir tərzdə sadalayır:

"Erkəklər bu zülmlərə qarşı dayanmadılar. Vətənlərindən ayrılmağa məcbur oldular. Şimdisə Azərbaycan kəndlərində yüzdə beş erkək tapılmaz. Əkin əkməyə, biçməyə övrətlər gedirlər. Yazın isti vaxtı Azərbaycana səyahət edərsınız, çöldə validələrə rast gələrsiniz ki, bir parça ilə yavrusunu dallarına bağlayıb, orağ əlində biçin biçir. Tarlalarda beş yaşında çocuqlar görərsiniz ki, özündən iki dəfə böyük olan buğda bağlısını bir tərəfdən bir təfərə daşıyır".

Səid Səlmasi məzlum kəndlilərin belə ağır durumda yaşamaqda davam etməsinin bir səbəbini də onların öz hüquqlarını anlamamasında, kölə vəziyyətdən qurtuluşa ciddi səy göstərməmələrində axtarır. Oxuculara üz tutub düşüncələrini onlarla bölüşür: "Möhtərəm qarelər, İranda hürriyyət verildi. Lakin yenə bunların halında bir təfavüt yox. Çünki bunlar azadlıq nədir, həyat nədir, bilməzlər. Bu yazıqlar, bu bədbəxtlər üçün kəndxudanın bir gülər üzü, bir hal sorması ən böyük bəxtiyarlıqlardan hesab olunur. Bunlar nə qədər hürr (azad) olursa, nə qədər hüquqa sahib olursa, yenə kəndxudanı görərkən baş endirməkdən kəndilərini alamaz".

(Bu yerdə Seyd Əzim Şirvaninin "Xan və Dehqan"ı yada düşür).

Müəllif ağaların zalımlığını, qəddarlığını, haqqını tələb etmək istəyənə amansız divan tutduqlarını da nəzərdən qaçırmayıb konkret faktlar əsasında oxuculara çatdırır: "Şimdi 20 il keçir ki, bu kəndçilər Hacı Məmmədtağının nümayişkanə zülmlərinə düçar olub, bu müddətdə bunlardan yalnız bir etiraz edən oldu. O da Cavad adlı bir kəndçi idi. Kəndə Təbrizdən Hacı Məmmədtağının nökərləri divanı cəm etmək üçün gəlir. Həmin bu Cavadı tuturlar. Həbs edirlər. Qırmanclayırlar. Deyir:

- İstərsiniz, öldürünüz! Yoxumdu.

Təbrizdən gəlmiş məmur deyir:

- Buraxın, getsin! Üç saata qədər on tüməni gətirməzsə, girin evinə, əyalını ...

Yazıq Cavad qaranlıq çökdüyündən ətraf kəndlərə gedəməz oldu. O kənddə də həpisində on tümən tapılmadı ...Cavad, sübh açılır, namusundan daha öz kəndində qalmayır. Tezdən Təbrizə tərəf üzünü tutub gedir. Üç gündən sonra Təbrizə varid olur. Birbaşa Hacı Məmmədtağının sarayına gedir. Hacının özünü görəcəyəmmi, - deyə bağırır. Bunu bağçaya aparırlar. Hacı o vaxt yalnız (tək) olaraq gəzirmiş. Bədbəxt kəndçi irəli gedir. Baş endirir. Başlayır:

- Bax, qurbanın olum! Bizim tayfamızı hamı tanıyırdı. Mən bu günə düşmüşəm. Gəlmişəm sənin qulluğuna. Əgər mənim ərzimə yetişməsən (belindən bir bıçaq çıxarır), bununla özümü öldürəcəyəm".

Lakin Hacı onun dediklərinə heç bir əhəmiyyət vermir. Həyatda gördüyü haqsızlıqlardan bezmiş zavallı Cavad bıçağı öz qarnına soxur. Bu azmış kimi günahsız kəndlini həbsə atırlar, on beş gün sonra məhbəsdə dünyasını dəyişir.Belə ürək parçalayan əhvalatın təsirli şəkildə təqdimi o dövrün mühiti, cəmiyyəti barədə bitkin təəssürat yaradır.

Məqalənin axırında Səid Səlmasi Hacı Məmmədtağı kimi zalım istismarçılara üz tutaraq bildirir ki, sizin də sonunuz gələcək. gec-tez bütün müsəlmanlar azad olacaq. Heç olmazsa, zülmünüzü, işgəncələrinizi azaldın. Müəllifin inamı belədir ki, vaxtı ilə Dəmirçi Gavə cana doymuş məzlum əhalini başına toplayıb haqsızlıqla mübarizəyə başladığı kimi, indi də yeni bir Dəmirçi ortaya çıxa bilər.Məqalənin sonluğunda oxuyuruq:

"… Hacı Məmmədtağı **"cənablarına"** deyiriz:

- Əfəndim, İrana hürriyyət verildi. Bir neçə sənələr (illər) sonra bütün islamların (müsəlmanların) hürr olacaqları ümid olunur. Sən də o yazıq, bədbəxt millətə, yəni rəiyyətlərinə vəlöv (azca olsa da), incitmə, azacıq olsun zülmün əskilt! Bəlkə, bir nəfəs ala bilsinlər. Qorx o gündən ki, İranda **"**Gavəyi-büzürgər**"** çıxsın.Əvət, bəsdir kəndçilərimizi, bu dünyanın pak və məhbubül-qulubu olan bir firqəni incitmə! Kəndlərə insaflı kəndxuda göndər! Özün də bir az insafa gəl! Qocaların saqqallarını kəsməyi götür. Kənddə cavan qızlara öz nişanlılarına getməyə icazə ver. Qulaq kəsmə! Boynuna ip keçirmə!Hərgah bunlar sənin üçün çətin olursa, yalnız bunu kəndxudalarına tapşır ki, rəiyyətin namusuna nökərlərin, kəndxudaların tərəfindən əl uzadılmasın.

İndi də üzümü bədbəxt əkinçilərimizə çevirib deyirəm ki:

Kilabi-zülmə qaldı gəzdiyin nazəndə səhralar,

Oyan, ey yaralı şiri-jəyan, bu xabi-qəflətdən!"

Yuxarıdakı beyt məşhur türk şairi Namiq Kamalın bir qəsidəsindəndir. Bu misraları S. Səlmasi mübarizəyə çağırış ruhuna görə öz əsərinə daxil etmişdir. Belə ki, N. Kamal həmin beytdə hüqusuz vəziyyətdə olan həmvətənlərini yaralı şirə bənzədərək onlara xitabən deyir ki, sənin gəzib-dolandığın nazəndə səhralar indi zülm itlərinə qalıb. Yetər, qəflət yuxusundan ayıl və belə dözülməz hala son qoy! Səid Səlmasi də məhz həmin beyti məqalənin sonunda verməklə əsər boyu izlədiyi mübarəzəyə çağırış qayəsini bir daha qabarıqlaşdırmışdır.

Göründüyü kimi, Səid Səlmasi "öz publisistik yazılarında, əsasən, Cənubi Azərbaycanda gedən sinfi mübarizədən maraqlı səhnələr verir" **(2, s. 41).**

Səid Səlmasinin bir məktubundan da söz açmaq istəyirik. Bu məktubu o, 1909-cu ildə şəhid olmazdan bir müddət əvvəl yaxın dostu Əliqulu Qəmküsara göndərmişdir. Ə. Qəmküsar həmin məktubu "Yeni füyuzat" jurnalının 15 fevral 1911-ci il tarixli 6-cı sayında "Səid Səlmasi kimdir?" adlı qısa ön sözlə birlikdə dərc etdirmişdir **(6, s. 326-329).** Haşiyə çıxaraq deyək ki, S. Səlmasinin nakam ölümü Ə. Qəmküsarı çox sarsıtmış, o, 1909-cu ildə "Tərəqqi" qəzetində ilk dəfə olaraq şəhid şairin tərcümeyi-halını dərc etdirmiş, "Yeni füyuzat"ın 1911-ci ildəki 2-ci sayında isə "Şəhidi-hürriyyət Səid Səlmasinin ruhuna ithaf" adlı şeirini oxuculara çatdırmışdı. Mərhum dostunun məktubunu çap etdirməsi də onun xatirəsinə ehtiramın ifadəsi idi.

Nakam şairi "məşrutə qurbanlarından biri və bəlkə, ən birincisi" kimi dəyərləndirən Ə. Qəmküsar onun 24 fevral 1909-cu ildə Maku ilə Xoy arasında Səidabad çölündə irtica qüvvələri ilə döyüşdə öldürüldüyünü xatırlatmış, dostunun ona Xoy-

dan yazdığı məktubu oxuculara bu niyyətlə çatdırmışdır ki, "o vücudi-mübarəkin necə səhih bir məslək və ali bir fikir sahibi olduğu açıqdan-açığa kəşf olunsun". Doğrudan da, bu məktub Səid Səlmasinin dünyagörüşünün bir sıra məqamlarını aydınlaşdırmağa imkan verir.

Məktubun əvvəlindəki : "Mənim kimi fikrən və ruhən müztərib olanlara Sizin kimi sadiq bir rəfiqin məktubunu ziyarət böyük bir bəxtiyarlıqdır",- cümləsi Səid Səlmasinin həmin vaxtdakı sarsıntılı, ağrı-acılı ovqatından soraq verir. O da anlaşılır ki, Ə. Qəmküsar dostuna yazdığı məktubda farscadan tərcüməsi "Mərd odur ki, nazı çəkilməyən nigarların nazını çəkə" kimi anlaşılan misranı işlətmiş, S. Səlmasi isə ona cavab olaraq bu fikri davam etdirməklə yazmışdır: "Çünki nazı çəkilməyə layiq nigarlara çox nazkeş bulunur. Bu isə mənim fikirim deyil, bəlkə, bu həqiqət hər yerdə gözə çarpar...Bu gün İran hər yerdən və hər məmləkətdən artıq nazkeşə möhtacdır. Bunu buraxıb da milyonca nazkeşi olan nigarların ətəyindən tutmaq mərhəmətsizliyə dəlildir". S. Səlmasi dostunun "Dünyanı özümüzə vətən bilək. Gərək ümum aləmi-islamı mülahizə eləyək. Bir İranı deyil",- qənaətinə də öz cavab məktubunda münasibət bildirərək məşrutəni, parlament idarə üsulunu vacib saymışdır: "Bu fikir insanların əfkari-səmimanəsi, arzuyi-yeganəsi və rəhbəri-səadətidir. Bunun üçün, yəni buna yetişmək üçün çarə məşrutiyyət və parlamentarizmadır. Hər millətin ibtidayi-məşrutiyyətində iqtisadi-siyasi və iqtisadi-ictimaiyə nisbətən bir az inhiraf duyulsa da, yenə ümumbəşəriyyətin birləşəcək və görüşəcək yeri həman sərmənzili-səadət olan sirati-müstəqim həqdir"

Məktubdam o da anlaşılır ki, iki dost Osmanlı dövlətindəki gənc türklər hərəkatı barədə də fikir mübadiləsi aparmışlar. Ə. Qəmküsar Osmanlı inqilabına müsbət münasibət ifadə etdiyi halda, S. Səlmasi gənc türklərin fəaliyyətini dəyərləndirməklə yanaşı, o fikri də irəli sürmüşdür ki, əsl inqilab xalqın içərisində yetişməli, xalq öz azadlığını həqiqi mübarizə yolu ilə əldə etməlidir: "Əzizim, cavan türklər otuz sənədən bəri qəlbən müntəzəm və qeyri-müntəzəm bir surətdə çalışırlar. Bu, inkar olunmaz bir həqiqətdir. Lakin Osmanlı məşrutəsi bunların səməreyi-səyi deyildir. Otuz sənə əvvəl millətin hürriyyətini qəsb edən, otuz sənə sonra millətə hürriyyət verən, bir gündə otuz beş milyon nüfuzu (əhalini) öldürən, bir gündə yenə ruh verən, iradeyi-səniyyə ilə qırx min məzlumu həbs edən, əfvi-şahənə ilə xilas edən, məmləkətə hürriyyət bəxş edən, istibdad gətirən, həp bu xariqələri yapan və bu sehrləri eyləyən zalım, xain, bir müstəbid nabekardır ki, adına Əbdülhəmid deyiriz. Millətlərə bəxş olunan hürriyyətdən fayda yoxdur. Məgər ki, sitvət və qüdrəti-milli sayəsində mühafizə oluna".

S. Səlmasi İranda da bu istiqamətdə gedən proseslərə münasibət bildirmişdir: "Bizə də ingilislər sədəqə növündən olaraq bir hürriyyət bəxş etdilər ki, "Yelqovan" kimi tündbad politik hər nə tərəfə meyl elədisə, o yönə düşdü".

Cənublu mücahidin öz dostu Ə. Qəmküsara aşağıdakı müraciəti də diqqəti çəkir: "Yazırsınız ki, Təbrizdə Məcidiyyə xiyabanını başdan-başa qarət etmişlər. O cümlədən bizim **"**Hacı ... mağazasını**"**. Anladım. Demək istəyirsiniz ki, Hacı.... kimi bir xuliqanın mağazası qarət olunan yerdə anla ki, sizin mətbəə və mağaza sağlam qalırmı? Pək xoşuma getdi. Nazikanə bir surətdə yazmışsınız. Zərər yox. Əzizim, yandırsınlar! Qarət etsinlər! Bununla mənə bir şey olmaz. Lakin öz cəhalətlərini dünyaya isbat etmiş olurlar".

Doğrudan da, Səid Səlmasi öz vəsaiti ilə Avropadan ləvazimat gətirtmiş, Təbrizdə mətbəə yaratmış, mətbuatın, maarifin tərəqqisi üçün ciddi səylət göstərmişdir. Ə. Qəmküsara məktubdakı qeydlər onun bu yolda üzləşdiyi təxribat və hücumları bir daha yada salır.

Məktubun axırında isə S. Səlmasi Ə. Qəmküsardan son xəbərləri bundan sonra da yazmasını xahiş edir. Axırıncı cümlələr isə fədai şairin həyat eşqinin son akkordları təsiri bağışlayır: "Sərmayə azaldıqca qədri bilinir" məsələsi doğru imiş. Bir neçə ay əvvəl ölüm nəzərimdə heç bir şey idi. Yaşamaqdan nifrət edirdim. Şimdi isə köpək kimi yaşamağa həris və arzukeşəm".

Bütün bunlar göstərir ki, romantik şair Səid Səlmasinin poeziyasında ifadə olunan hürriyyət ideyaları onun publisistikasında da əsas yer tutur. O, dövrün, zamanın, cəmiyyətin aktual məsələlərini həssas publisist qələmi ilə işıqlandırmış, həmvətənlərini öz hüquqları uğrunda mübarizəyə səsləmişdir. Vətənpərvər ədibin publisistikasında toxunulan problemlər həm dəqiq faktlar, həm də əhatəli təhlillər əsasında oxuculara çatdırılır. Müəllifin publisistikasında təsirli bədii dil, müvafiq təsvir üsulları da razılıq doğurur. Bütövlükdə onun publisistik irsi hərtərəfli tədqiqata layiqdir.

Ədəbiyyat

1. Aslanov M. Vətənpərvər şair. "Ədəbiyyat və incəsənət" qəzeti, 1987, 3 aprel
2. Əkbərov Z. İnqilabçı şair, siyasi xadim Səid Səlmasi. Azərbaycan EA-nın Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası. 1989, № 2, s. 36-43
3. Səlmasi S. İran işləri. "Tazə həyat" qəzeti, Bakı, 1907, 7 may
4. Səlmasi S. İrana dair. Azərbaycan "padşahları". "İrşad" qəzeti , Bakı, 1907, 13 may
5. Səlmasi S. İrana dair. Azərbaycan "padşahları". "İrşad" qəzeti, Bakı, 1907, 17 may
6. "Yeni füyuzat" jurnalı (1910-1911-ci illər), (çapa hazırlayan və ön sözün müəllifi Hüseyn Həşimli). Bakı: Elm və təhsil, 2010, 448 s.

Huseyn Hashimli

The publicistic of Said Salmasi

Summary

For the period of long years Said Salmasi (1887-1909) literary activity remained beyond investigations.The article has been dedicated to the publicistics of Saida Salmasi. The article analyses the publicistic articles written by the romantic poet Said Salmasi in the early past century. And some aeticles are drawn ihto affention for the first time.

These stages are investigated on the basis of those examples, facing a poet and made appropriate conclusions. There have been analysed charakteristic works, their idealogial-literary features have been clarified. It becomes clear from this work that the author who gives importance to the sinkerity in all his thougths tries to adhere to this situation all his life and not to change his point of wiev despite all the diffuculties he faces.

Гусейн Гашимли

Публицистика Саида Салмаси

Резюме

Долгое время литературная деятельность Саида Салмаси (1887-1909) оставалась вне исследования. Статья посвящена публицистике Саида Салмаси. В статье исследуются публицистические произведения Саида Салмаси. Здесь на основе примеров исследуются темы, к которым обращался автор и сделаны некоторые вводы.

В ней анализириуются характерные публицистические произведения Саида Салмаси. выявляются их идейно-художественные особенности. Из произведений становится ясно, что отдавая предпочтение искренности во всех своих размышлениях, автор всю жизнь старается быть верным своей жизненной позиции и, несмотря на все трудности, не отрекается от своих убеждений.

Rəyçi: Seyfəddin Eyvazov
filologiya üzrə fəlsəfə doktoru, dosent

ŞAKİR CƏFƏROV
ADPU-nun dissertantı
«Azərbayjan müəllimi» qəzetinin əməkdaşı

H.CAVİDİN QADIN QƏHRƏMANLARI («İBLİS», «SƏYAVUŞ» VƏ B. ƏSƏRLƏRİ ƏSASINDA)

Açar sözlər: əlçatmaz zaman, həmişə hesablaşır, daşqəlbli cəlladlar.
Ключевые слова: недосягамое время, всегда считается, бессердечные палачи
Key words: Unattainable time, always takes into consideration, heartless killers (or cruel executioner).

Böyük Alman şairi İ.V.Hötenin «Faust» dramatik poeması ilə görkəmli Azərbaycan dramaturqu H.Cavidin «İblis» pyesi arasında mövzu və problem müxtəlifliyi göz qarşındadır. Hər iki faciənin «doğuluşu», «təvəllüdü» arasında da əlçatmaz zaman fərqi var. Bütün bunlara baxmayaraq, bu iki faciə arasında bəşərilik baxımından qohumluq, doğmalıq təkzibedilməz həqiqətdir.«Faust» və «İblis» dünya demonizm poeziyasının ən mühüm səhifələrindəndir. «Fast»la yüksək bir mərhələyə qalxan dünya demonizm poeziyası «İblis»də yeni mən və mövzu çaları ilə zənginləşir. Burada İ.V.Höte və H.Cavid də dövrün narahat və düşündürən problemlərinin fəlsəvi-estetik həllini mifoloji obrazların təcəssümündə verməyə çalışmışdır. Elə Fast da, Arif də ilk cinayət addımını məhəbbətlə - Qretxenə (Marqaritaya) və Rənaya olan məhəbbətlə əlaqədar atırlar.

Dramaturqu faciədə ayrı-ayrı şəxsiyyətlərin taleyi maraqlandırmır. Müəllif, ümumiyyətlə, insanların, bəşərin taleyini düşünmüşdür. Dramда aturq belə qənaətə gəlir ki, insan mənəviyyatının formalaşmasında xarici mühit başlıca rol oynayır. O, insanlara üz vermiş faciədə çıxış yolunu onların mənəvi təmizlənməsində, islah olunmasında, mədəniyyətə yiyələnmək şərti ilə tədricən təkamül yolunda görür»

«İblis» faciəsində iki qadın surəti vardır. Bunlar Xavər və Rənadır. Hər iki obraz əsərin baş qəhrəmanı Arifin daxili aləminin açılmasında, onun dinamika və dramatizmində fəal rol oynayır. Təkcə Arif obrazının deyil, faciənin də əsas qayəsinin açılmasında bu iki qadının mühüm rolu vardır.

Xavər Arifi səmimi qəlbdən sevən və həyatın, yaşayışın qayəsini, mənasını ailə səadətində görən təmiz və pak vicdan sahibi olan real düşəncəli bir qadındır. Xavər Rəna kimilərin müəmmalı eşqinə uyan Arif kimi hərdəmxəyal ərlərin xəyanətinin qurbanı olan Şərq qadınlarının ümumiləşdirilmiş simvoludur.

Rəna Arifin Xeyri atıb Şərə xidmət etməsində, yəni iblisləşməsində əsas səbəb və amildir. Arif, Vasif və İbn Yəmin kimi üç kişinin həyat və darvanışlarında, taleyönümündə mühüm rol oynayan Rəna faciədə İblisin ortaya atdığı əsl «nifaq alması»dır. Məhz buna görə də onunla yaxın təmasda olan obrazların hamısının taleyi faciə ilə bitir. Xavər, İxtiyar Şeyx, Arif, Vasif, hətta İbn Yəmin də bu qəbildən hesab edilə bilər.

Bəşəriyyəti həmişə fəlakətlərə sürükləyən şər və onun təzahürləri əleyhinə yazılmış «İblis» faciəsi həm mövzu, həm də yüksək sənətkarlıq məziyyətlərinə görə öz yeniliyi və aktuallığı ilə H.Cavidin digər əsərlərindən fərqlənən ədəbi bir hadisə idi. Xüsusilə , onun qələmə aldığı müharibə mövzusu, sonralar bu mövzuda

yazacağı «Topal Teymur», «Səyavuş» və «İblisin intiqamı» kimi əsərlər üçün bir təməl daşı idi.

İnsan məhəbbəti insana faciə gətirir - Mefistofelin sübuta yetirməyə çalışdığı ideyalardan biri budur. Bu, Rənanın arxasınca düşən Arifin getdiyi tərəfə qəh-qəh çəkən İblisin sözlərində də deyilir:

Get, lakin o hörmət və məhəbbət
Bir gün doğurur qanlı ədavət,
Get. Bəllidir insandakı xislət.

Faust-Marqarita epizoduna bənzər maraqlı tragik bir xəttə «İblis» faciəsində də rast gəlirik (Arif-Rəna xətti). Qəhrəmanların taleyi ilə bağlı hadisə boyu oxşar lövhələrin təsvirində hər iki mütəfəkkir şair: «Qidası şər olan cəmiyyətdə xoş-bəxtlik qeyri – mümkündür»-nəticəsinə gəlir.

«İblis» də H.Cavid bir-birindən fərqli iki qadın surəti yaratmışdır. Xavər səmimi, ərini sədaqətlə sevən, fədakar bir qadındır. O, Arifin hər hərəkətinə həssasdır, onun dəyişməsinin səbəbini anlamağa çalışır. Ərinin anlaşılmaz əzabları, kədər və iztirabları bu məsum qadını həyacanlandırır.Taleyə və qəzaya inanan sadə qəlbli qadının faciəsi çox səmimi və inandırıcıdır. Xavər həyatın acılarını duyduqca, gördüyü hadisələrin təsiri altında getdikcə dəyişir. İnsanın törətdiyi cinayətlər onun məhəbbəti dolu saf qəlbini sarsıdır, nifrət hissi varlığına hakim olur. Mühitə uyuşa bilməyən Xavər çılqınlıq dərəcəsinə Rəna isə xarekteri etibarilə Xavərdən seçilir. Atasının qatilini axtaran Rəna eyni zamanda günahsız qadın əleyhinədir. Arifin cinayəti onu dəhşətə salır. İnsanlıq üçün ləkə saydığı hərəkətini pisləyərək onu vəhşi adlandırır. Əsərdə Xavər və Rəna bir insan kimi hümanist hisslərə malik olmaqla bərabər, bir qadın kimi də nəcibdirlər. Onlar öhdələrinə düşən borcu namusla yerinə yetirirlər. Bu cur hissə qapılma yoxdur. Ağıl və hiss ilə iş görmək, şəxsi arzularının canlanmasına aludəçilik üstünlük təşkil etmişdir. Təbiətin bu məsum insanlarında ağıl və hiss birlikdə inkişaf etmiş, iradələrində sarsılmayan dəyanət çatır, vəhşiləşmiş, səfilləşmiş insanları lənətləyir.yaranmışdır. Rəna və Xavər öz işləri ilə içtimai həyatın fəal iştirakçılarıdır.Hər iki qadın həyat səhnələrində fədakarcasına çıxış edirlər. Onlara qarşı rəğbət getdikcə çoxalır. Xavər ərinə sədaqətli bir qadındır. Onda olan bu sədaqət səmimiyyətdən irəli gəlir. Xavər əri Arifin hər kiçik hərəkəti ilə belə maraqlanır. Lakin bu heç də qısqanclıqdan yox, bəlkə Xavərdə ailə səmimiyyətini qiymətləndirməkdən irəli gəlir. O, Arifin həyacan keçirdiyini bildiyindən, onun kədər və iztirabları ilə həmişə hesablaşır. Məhz buna görə də Xavər:

Söylə, Arif, aman, nə oldu yenə
Yenə kimlər göründü gözlərinə?

Xavərin bu səmimiyyəti, sədaqəti, iradə möhkəmliyi ailə çərçivəsini qırır və vətənə, xalqa xidmətdə özünü daha qabarıq göstərir. Xavərin yaralı rabitəçiyə etdiyi xidmət səmimiyyətdən əlavə, xalqına olan məhəbbətdən irəli gəlir ki, bu da onu nəzərimizdə xeyirxah insan kimi yüksəldir. Xavərin dünyabaxışında bilavasitə məhəbbət, mərhəmət fəlsəfəsinin təsiri vardır. Bu da aldığı tərbiyə ilə əlaqədardır.

Xavər özü etiraf edir ki, o, Arifə heç cəhətdən bağlı olmuşdur. Xavər insanın insana kömək etməsini bir borc, bir vəzifə, allah adamının səciyyəvi xüsusiyyəti hesab edir. Məhz buna görə də Xavər allah adamı olmaq kimi şərəfli vəzifəni qarşısına məqsəd qoyur və bu amal uğrunda çarpışmağı hər şeydən üstün tutur.O, insanın insana etdiyi yaxşılığı, bir sözlə, əməli xidmətini yalnız allah ehtiramlarının, allah məhəbbətinin bir vasitəçisi hesab edir. Xavər yaralı zabitin alın və qolundakı yaraların sağalmasını allah mərhəmətində görür və ilahiyə şükür etməklə təsəlli tapır:

Çox şükür, iştə hər sağaldı yaran,
Bax, nasil mərhəmətlidir yaradan.

Digər tərəfdən Xavərdə «tale»yə, «qəza»ya inam qüvvətlidir. O, hər bir fəlakəti, hadisəni, ayrılığı, Arifdən ayrı düşməsini öz taleyi, «qəza» ilə bağlayır:

Şu qəza doğdu bir təsadüfdən,
Məni tale ayırdı Arifdən.

Xavər qan tökməyin əleyhinədir. O, insanı yaxşılıq və xeyirxahlıq edən bir varlıq kimi dərk edir. Xavər içtimai hadisələri, insanların bir -birinə münasibətini izləyir. O, yaralı zabitin ərəb zabitini öldürməsinə haqq qazandırır. Xavər çılğıncasına bütün insanların «iblis»ə uyduğunu» və yer üzünün qanla dolu oduğunu söyləyir.

Xavər:

İblisə uyub da əhli-aləm,
Həp yer üzü qanlı, cümlə sərsəm...

-deyə kədərlənir.

Xavərdə insanlar haqqında bu təsəvvür bilavasitə mühitdəki haqsızlıqdan, insanların humanizm hisslərini itirməsindən irəli gəlir. Xavər mühitə uyuşa bilmədiyi üçün içtimai quruluş onu öz pəncəsində aciz bir qul kimi məhv edir. Bu onu göstərir ki, dramaturq Xavəri hələ həyat mübarizəsi üçün kamlləşməmiş hesab edir.

Bu əsərdə Rəna isə qorxmaz və çətinliklərə təslim olmayan insanpərvər bir qızdır. Onda atasının qatilindən intiqam almaq duyğusu çox qüvvətli olsa da, günahsız qan tökməyin əleyhinədir. Rəna İbn Yəminin hiyləgərliyini, atasının qatili olduğunu bildikdən sonra qəti hərəkət edir. Onda insanlara münasibət məsələsi dəyişir. Rəna artıq insanlara açıq gözlə baxır, həyat məsələlərini, içtimai hadisələrini diqqətlə izləməyə çalışır. Rəna düşmənə qarşı nə qədər amansızdırsa, bir insan kimi sox mülayimdir. O, İbn Yəmin kimi xainləri «tərk həyat» etməkdən nə qədər həzz alırsa, dini, milli mənsubiyyəti başqa olan bir insana sui - qəsld edən Arifə qarşı amansız olur. Rənada bu nəcib sifət onun vicdanının paklığını bir daha göstərir. Rəna vicdanını insan qanı ilə ləkələyən aşiqin nəvazişini rədd edir.

H.Cavid Xavər və Rəna surətlərini Səlmadan, İsmətdən, Maraldan və Göyərçindən fərqli olaraq cəsur, bacarıqlı və daha çox ictimai mübarizə fonunda vermişdir.

Əsərdə qadın tipləri olduqca incə və sənətli fırçalarla canlandırılmışdır. Xavər, Rəna hər ikisi türk qadınlığını təmsil edən sevimli tiplərdir. Hər ikisinin naturu aydın və müəyyəndir. Nöqteyi - nəzərlərində ziddiyyət yox, heç birinin ağıl ilə qəl-

bi, hiss ilə düşüncəsi, idrak ilə arzusu arasında ayrılıq görünmür. Hər ikisi vəzifəsinin qəhrəmanıdır, hər ikisi bəşəri və milli qayə daşıyır. Xavər Rənaya nisbətən daha səmimi, daha idealistdir. Büllur ruhu həyatın çirkabları ilə bulanmamış, dağ çeşmələri qədər saf və şəffaf bir qəlbə malikdir.

H.Cavidin dramaturgiyasındakı qadın tipləri daha çox məhəbbətlə bağlı olan qadınlardır. Şairin «Şeyx Sənan»la bağlı faciəsi haqqında çoxlu sayda fikirlər vardır. Bu fikirlərdən biri budur ki, niyə H. Cavid kimi mütəfəkkir şair Şeyx Sənan kimi bir mürşidi xristian qızı Xumara aşıq etmiş və bu yolda Şeyx Sənan, hətta iki il donuz otarmağa razı olmuşdur…

Deməliyik ki, məhəbbətdə millilik olmur. «Əsli və Kərəm» dastanında, N.Nərimanovun «Bahadur və Sona» əsərində olduğu kimi, H.Cavidin «Şeyx Sənan» əsərində də bu belədir. Bu əsərlər quruluşların keçid dövründə yazılmış bədii nümunələridir.

Dünya ədəbiyyatı tarixinə diqqət yetirdikdə bir həqiqət də meydana çıxır – müxtəlif dövrlərdə yaşamış sənət korifeyləri, yeri gəldikcə, özlərindən əvvəl işlənmiş süjetlərə müraciət etmişdir. Hər sənətkar hadisələrə dövrün möhrünü vurmağa çalışmışdır.

Bəzən də belə olur qəhrəmanların milli mənsubiyyəti müxtəlif olsa da, onlar yaxın qan qohumu kimi bir - birinə çox bənzəyirlər. Bizcə, bu bənzəyişə, doğmalığa, ekizliyə bir səbəb qəhrəmanların eyni ictimai faciə daşımalarıdırsa, başqa bir səbəb də dünya ədəbiyyatının daxili - əlaqəli, dialektik məntiqi paralel inkişafı, bəşəri problemlərin qoyuluşu və həlli ilə bağlıdır.

Bağlı, ehtiraslı sənət ictimai həyatın inkisaf vasitəsi olmaqla, nə sərhəd, nə milli mənsubiyyət tanıyır. Nəhəng sənətkarlar milliliyin mayasında bəşərililik, ümuminsanilik tərbiyə edir, dünya ədəbiyyatı arenasına çıxarır. Elə bu nöqtədə başqa-başqa ünvandan gəlmiş qəhrəmanlar öz bənzəyişlərini tapıb çiyin - çiyinə dayanırlar.

Bu cəhətdən V.Şekspirin «Hamlet» faciəsi ilə H.Cavidin «Səyavuş» əsəri diqqəti cəlb edir. Hər iki əsərdə ayrı - ayrı tarixi hadsələrdən danışılsa da, görürük ki, qəhrəmanlarla bağlı faciə xəttində nə qədər oxşarlıq və yaxınlıq var. Məsələn, Hamletin, Səyavuşun da taleyinin faciəvi istiqamətini qadın xəyanəti müəyyənləşdirir.

Gertruda Hamletdən oğul məhəbbəti istəyir. Südabə isə Səyvuşdan aşna… Hər iki qadının tələbi, istəyi təbii qanunlara ziddir. Onların məhəbbət istəyi riya və məkr cövhəri ilə yoğrulmuşdur.

Gertruda Hamletin şübhələrin dağıdıb, onun məhəbbətini qazanmağa çalışması ilə özünü və yeni əri olan kralı fəlakətdən xilas etmək məqsədi izləyir.

Şərqin müqəddəs qanunlarını tapdalayan Südabə oğulluq məhəbbətini aşna tələbinə çevirməyə çalışması ilə alovlanan qadın atəşini söndürmək istəyir. Məsələnin əsil mahiyyəti budur ki, hər iki qadın ərindən usanmışdır.Onlar qadınların çılğın ehtirasına cavab vermək iqtidarında deyillər.

Aşağıdakı misralar Südabənin mənəvi atəşini nə qədər də parlaq şəkildə göstərir:

...Könlümdəki atəşləri
Parlatmaz sönük yanğın.

Çəlik qollar istərəm ki,
Məni didsin, parçalasın.

Kompozisiyanın fəcil bütövlüyünə xidmət edən parçalardan birisinin - yataq otağında Hamlet və Səyavuşun ayaqlarına düşüb onlardan «Məhəbbət tələb edilən səhnənin oxşarlığı, qohumluğu maraqlıdır.

Səyavuş atəş içərisində yanan Südabəni özündən kənara itələyərək qeyzlə deyir:

Çəkil, ehtirasın qara yelkəni
Sən nəsin? Bir heç, bir şərəf xırsızı.
Vəhşi Suriyənin uğursuz qızı…

Hamlet də qadın və analıq şərəfini itirmiş qatili, ananı beləcə rədd edir. Südabə bu yerdə Gertrudanın şərqli bacısıdır.

Şekspirdə faciə xətti əmisi kralla Hamlet arasında, H.Caviddə Səyavuşla Südabə arasındadır.

Hamletin ipə - sapa yatmadığını görən əmisi onun keçdiyi yollara hiylə toru qurur, hətta vəzirin və onun qızının ölümünə səbəb olur. O, şahzadəni zəhərlənmiş qılıncla öldürməyə planlar cızır.

Südabə də ona tabe olmaq istəməyən Səyavuşa beləcə hiylə və məkr toru qurur. O, qara əməlində tənha, geniş tədbirlərə malik iş bacaran, rəqibinə qarşı mübarizədə geri durmaz bir qadın kimi özünü göstərir.Hətta, Südabə Danimarka kralından bir addım irəli gedərək tarixən düşmən olan saraydan özünə arxa tapır.

Səyavuşun Turana qaçmaq xəbərini təsadüfən eşidən Südabənin dişləri arasından ilan fısıltısına bənzər bir səs çıxır:

Məndən qaçsa belə, əldə
Gəlməlidir cənazəsi…

Bu nöqtədə Südabənin iblis təbiəti meydana çıxır. Nəhayət, qolu qırılmalı qəhrəman hiylə toruna düşür və məkrin qurbanı olur.

Yuxarıda gətirdiyimiz qarşılaşdırma göstərdi ki, «klassik ənənə» deyilən kəlamlar əsrlər arasında salınmış canlı mənəvi körpüdür. Bü körpüdən dünya ədəbiyyatının müxtəlif formalı və çoxcəhətli guşələrinə yollar keçib gedir.

H.Cavidin ideal qadın axtarışları ədəbiyyatımıza, səhnəmizə təkrar olunmaz, bir-birindən maraqlı qadın obrazları gətirmişdir. Onun tapıntıları, qadına yüksək poetik zirvədən baxmaq bacarığı bu gün də oxucuların, tamaşaçıların qəlbini fəth edən əsas amillərdəndir.

Bütünlükdə qadın qəlbi H.Cavid sənətini hərəkətə gətirən, ona od və atəş verən «İlk Prometey odu», təkan qüvvəsidir. Onun rəğbətlə təsvir etdiyi qadınlar əzəmətli və dərindir, sevən-seviləndir, məhəbbətləri yolunda hər cür risqə gedəndir və işgənciyə dözəndirlər. Məqamı gələndə intiqamçı və cəngavərdirlər. Adama elə gəlir ki, H.Cavidin qadınları şimşəkdən, oddan, atəşdən, buluddan yaranmışlar. Bu qadınlar onların ləyaqətini ləkələyənləri, namusuna təcavüz edənləri yandıra bilər, qarsa bilər, adamı külə döndərə bilər. Onlar ən yırtıcı cəlladların, əli qılınclı, başı zərli, toplu-tüfəngli dövlət başçılarının birbaşa sinəsinə yeriyib eşq və məhəbbət-

lərini, mənliklərini onların taxt-taclarından uca tuturlar. H.Cavid sənəti qadına əyləncə kimi baxanlara ən sərbəst zərbədir. Bu sənət analıq, qadınlıq üçün allahlara, peyğəmbərlərə, krallara, padşahlara, din xadimlərinə qarşı üsyan edən od nəfəsli üsyankar sənətdir. Bu qadınlar öz ağıl və iradələri ilə hünər və gözəllikləri ilə qaranlıqdan hörülmüş kəfənlərini parçalayıb özlərinə şəfəqdən paltar biçən məğrur, qorxmaz, dəyanətli fədakarlardır!

Poeziya, publisistika və möhtəşəm dramaturgiyasında qadın problemlərinə geniş yer ayıran H.Cavid ədəbiyyat və incəsənətimizi, o cümlədən teatrımızı gözəl, ülvi, romanttik, mürəkkəb və təkrarolunmaz xarakterlərlə zənginləşdirərək, bu mövzunun gələcək inkişafının düzgün istiqamətləndirilməsində əhəmiyyətli rol oynamışdır.

Belə ki, H.Cavid əsərlərindəki bir-birinə bənzəməyən maraqlı qadın surətlərinin ən gözəl ifaçılarından biri SSRİ xalq artsti Mərziyə Davudova olmuşdur. Mərziyə xanım «İblis» də Rəna və Xavər rollarında çıxış edərək, iki müxtəlif, birbirindən fərqli surətlər yaratmışdır. Onun Xavərində sevən bir qəlbin həsrətli çırpıntıları hiss olunur. Rəna surətində isə aktyor qəhrəmanının cəsarət və qətiyyətini ön plana çəkir.

Xumar («Şeyx Sənan») rolununda M.Davudova təbiətinə xas emosionallıq və temperamentlə oynayırdı. Aktrisa qəhrəmanının öz məhəbbəti uğrunda ölümdən belə qorxmayan, insanları bi-birindən ayıran dinə, məzhəbə, irqi fərqə qarşı barışmaz, əyilməz olduğunu tamaşaçıya inandırıcı boyalarla çatdırırdı.

Südabə («Səyavuş») rolunun əvəzsiz ifaçısı Mərziyə Davudova qəhrəmanının oynaq təbiətini, coşub-daşan ehtirasını, od-alov saçan kinini məharətlə təcəssüm etdirirdi.

H.Cavid şərq dünyasında çarşabı, bu qara səyyar pərdəni qadın azadlığının «ən böyük əngəllərindən biri» sayırdı. Çünki bu qara pərdə qadının işıqlı aləmə baxan gözlərini, ağlını qapayırdı. H. Cavid hər bir anda, qadında günəşin, təbiətin müəyyən əlamətlərini görür və buna görə də analığa hər şeydən çox üstünlük verirdi. Deyirdi ki, övlad eşqi ilə çırpınan bir qadın, qadın qəlbi «sayğısız qızlarınkından daha bakir və ləkəsizlir». Onlar təmizlik, müqəddəslik kimi bəşəri bir məna kəsb etdiklərinə görə xalqın sevimlisi, el anası, vətənin rəmzi olurlar. Bu qadınlar öz ağılları, əməlləri, istək və arzuları, hətta rəftarları, işvələri, rəqslərilə insanda gözəllik duyğusu yaradır və daş qəlbli cəlladları belə mərhəmətə gətirə bilirlər.

H.Cavid torpağa, Vətənə, elə qəlbən məftun bir şair, dramaturq idi. Cavid yaradıcılığı ilə ədəbiyyat tariximizdə mənzum faciənin əsası qoyulur. Real hadisələrlə ideallığın vəhdətindən yazan H.Cavid ədəbiyyat tarixində yenilikçi sənətkar kimi tanınır, dünya xalqları tərəfindən sevilə - sevilə oxunur, insanların mənəviyyatını zənginləşdirən, onlara zövq verən əsərləri yüksək qiymətləndirilir.

Məşhur Ukrayna alimi, astronom Nikalay Çernıx H.Cavid sənətinin böyüklüyünü dərk edib ona hörmət və ehtiram göstərərək kəşf etdiyi ulduza «Cavid» planeti adı vermişdir. Deməli, H.Cavidin adı, ideyaları doğma vətənində və türk dünyasında deyil, ulduzlar aləmində də əbədələşir, göylər səltənətində özünə layiqli bir yer tutur.

Burada ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyevin H.Cavid yaradıcılığına verdiyi böyük, müdrik bir fikri yada düşür: «Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır».

Şairin dramlarından bəlli olur ki, istər qərbli, istərsə də şərqli qadını olsun fərqi yoxdur.Qadın gözəllik, saflıq, paklıq, incəlik, təmizlik nümunəsidir. Azərbaycan xanımı isə ədəb-ərkanı, abr-həyası, xanım-xatınlığı ilə bu nümunənin tacıdır. O tac nə qədər yüksəkdə qalsa, o qədər gözəldir, əlçatmazdır.

Doğrudur, bu sahədə o dövrün azad fikirli bütün ziyalıları mübarizə aparmışdır. Lakin dövrü mətbuat və onun yazarları daha çoxşaxəli və çoxsahəli bir tərzdə bu mübarizədə fərqlənmişlər.Dövrün mətbuatında qadın azadlığı mövzusu ön plana çəkildi. Amma, buna qarşı çıxanlar da oldu. Böyük ehtirasla qarşılanan qadın azadlığı məsələsinə müxtəlifmətbu orqanlarında müxtəlif münasibət var idi. Bir-birinə zidd olan fikirlər, mülahizələr, rəylər, odlu-alovlu çıxışlar… Azərbaycan qadınlarının taleyi, ozamankı kölə vəziyyətindən xilas yolu, dini və fanatik baxışlardan, ziddiyyətlərdən qurtuluş yolu və bu kimi bir çox aktual məsələlər mətbuatda böyük ictimai- siyasi problem şəklini aldı. Qadınlarımızın son dərəcə ağır maddi - mənəvi vəziyyəti, onların bütün insani hüquqlardan mərhum olmaları ziyalılarımızı, xüsusən də qələm əhlini daha çox narahat edirdi. Odur ki, başda «Mola Nəsrəddin» olmaqla dövrün əksər milli ruhlu mətbuatı bu məsələnin həllinə can atırdı. Çox çətin də olsa, qadınlarımızı təhsilə, elmə yeniliyə cəlb etmək, cəhalətdən, nadanlıqdan, avamlıqdan qurtarmaq üçün onların maariflənməsi məsələsini daha kəsərli şəkildə qoydular.

Artıq XX əsrin ikinci on illiyində ölkəmizin hər bir sahəsində az da olsa, savadlı, ziyalı qadınlar yetişərək ölkənin mədəni həyatında iştirak edirdilər, Bakıda 1911-ci ildə qadınlar üçün «İşıq» jurnalı nəşrə başlamış, qızlar məktəbi, qadın xeyriyyə cəmiyyəti fəaliyyətdə idi. Ölkənin məktəb, səhiyyə, mətbuat sahələrində Həmidə xanım Cavanşir, Hənifə xanım Məlikova, Səlimə xanım Yaqubova, Xədicə xanım Əlibəyova, Mədinə xanım Qiyasbəyli, Xədicə xanım Ağayeva, Cavahir xanım Rəfibəyli, Nigar xanım Şıxlınskaya, Səkinə xanım Axundzadə, Sona xanım Vəzirova, Şəfiqə xanım Əfəndizadə, Nabat Nərimanova və Rəhilə xanım Hacıbababəyova kimi qadınlar çalışırdı. Onlar müxtəlif sahələrdə qadınları məktəbə, elmə sövq edirdilər.

Ədəbiyyat

1. H.Cavid. Seçilmiş əsərləri. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1958-ci il, səh.11- 147
2 H.Cavid « Səyavuş» əsəri, Bakı, 1978, səh.400-487
3 H.Cavid . Əsərləri IV cilddə, II cild. « «İblis»». Bakı, Yazıçı, 1982-ci il
4 N.Əzizova H.Cavid dramaturgiyasında» İnsan, İblis, Tanrı» Bakı. Hafta Rressa, 2000, 131s.
5 Ə.İbadoğlu. H.Cavidin « İblis» faciəsi. Bakı, Bakı, Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1969-cu il, səh. 1-10

Shakir Cafarov

Women characters of H.Javid
(based on "Iblis", "Sayavush", etc)
Summary

H.Cavid has described the characters of Khavar and Rana different than Salma, Ismat, Maral and Goyarcin, being brave, capable and more involved in social struggle. (in Iblis) Gertruda is expecting from Hamlet the love of a son. But Sudaba" s expectation from Syavush is him being a lover. The demand of the both of the women is contradicting natural laws. Their need for love is covered with hypocrisy and craft.(in Siyavush)

Шакир Джафаров

«Героини в произведениях Гусейна Джавида»
(на основе «Демона», «Сиявуша» и др. произведений)
Резюме

Г. Джавид представлял образов Хавер и Рена в отличии от Селма, Исмет, Марал и Геярчин как храбрых, умелых женщин и преимущественно на фоне социальной борьбы.(«Демон»)

Гертруда хочет от Гамлета любви сына.

А Судабе от Саявуша любви любовницы. Любовь обеих женщин противоречит естественным законам. Их любовь, желания пропитаны лицемерием и коварством. («Сяйавуш»).

Rəyçi: Himalay Qasımov
filologiya elmlər doktoru, professor

НАРМИН СУЛТАНЛЫ
доц. БГУ

ОСНОВНЫЕ ЛИТЕРАТУРНЫЕ ТЕЧЕНИЯ В СОВРЕМЕННОЙ ИРАКСКОЙ ПРОЗЕ

Açar sözlər: Muasir İraq navellası, yeni realizm cərəyanı, pixaloji cərəyan, Edmon Səbri, A.M.Nuri, Fuad Ət-təkərli.
Ключевые слова: современная иракская новелла, новый реализм, психологическое направление, Эдмон Сабри, А.М.Нури, Фуад ат-Текерли.
Key words: modern Irag novella, new realism, psychological trend, Edmon Sabri, A.M.Nuri, Fuad at-Tekerli.

Послевоенные годы(40-50-е гг. XXв.) явились знаменательным этапом в развитии современной литературы, в частности, в жанре новеллы, который зародился в Ираке в 20-е годы XXв. И.Ю.Крачковский так охарактеризовал период возрождения новеллы в Ираке: «Новым фактором со времён первой мировой войны начинает выступать Ирак, известный до этого в узких кругах, благодаря некоторым представителям поэзии, теперь, при усилившейся культурной связи с Сирией, а особенно с Египтом, он с успехом стремится подражать своим старшим собратьям, быстро усваивая новые течения» (2, 87).

«Национальные литературные традиции, контакты с литературами других арабских стран, специфика восприятия западной культуры – все это способствовало развитию в Ираке, в первую очередь, форм короткого рассказа и обусловило преобладание жанра новеллы над другими жанрами художественной прозы» (2, 5). В XXв. в Ираке выросло уже три поколения писателей новеллистов. К первому поколению относятся зачинатели жанра иракской новеллы, впервые выступившие в 20-е -30-е годы: Махмуд Ахмед ас-Сейид, Абд аль-Маджид Лутфи, Анвар Шауль, Халаф Шауки, Зу-н-нун Аййуб, Абд аль-Хакк Фадил и др.

Второе поколение – это те писатели, которые вышли на литературную арену в 50-60-е годы, т.е. после второй мировой войны: Абд аль- Малик Нури, Фуад ат- Текерли, Эдмон Сабри, Шакир Хусбак, Гаиб Ту`ма Фарман, Абдаллах Ниязи, Джабра Ибрахим Джабра, Махди Иса ас-Сакр и др.

Третье поколение – молодые писатели, начавшие свою литературную деятельность после июльской революции 1958 года. Это – Абд аль-Маджид ар-Рубеййи, Али Сухейл, Мухаммед Камил Ареф, Муса Кариди, Ахмед Халаф, Мухаммед Хадыр и др.

В тяжелых политических и жизненных условиях приходилось жить и творить иракским писателям: ««Черный режим», насаждаемый премьер-министром Нури Саидом (1954-58гг.), который с первых дней своего правления приступил к осуществлению широкой программы подавления патриотических сил» (3, 10) вынудил многих поэтов и прозаиков эмигрировать из страны. Так описывает иракский новеллист Гаиб Ту`ма Фарман ситуацию в Ираке 50-х годов: «Тюрьмы и концлагеря были переполнены людьми, арестованными за «враждебную» политическую деятельность. В иракских тюрьмах совершались

страшные преступления, несовместимые ни с каким понятием гуманности» (5, 15).

Однако жизнь продолжалась. В начале 50-х годов иракская новеллистика начинает испытывать воздействие классической советской русской и западной литературы. Предпринимаются попытки к созданию нового языка. Стремясь оказать воздействие на разум и совесть читателей, иракские новеллисты обращались к выразительным средствам классической литературы и национального фольклора.

Ведущую роль в иракской новелле сыграло второе поколение иракских новеллистов, которые жили и творили в тяжелейшей обстановке Ирака 50-х годов. Им была свойственна большая широта в выборе тем и более глубокое проникновение в образы современников, особенно внимательное отношение к стилю художественного произведения. Этому способствовало более широкое ознакомление с западноевропейской и русской классической литературой.

Однако творческие установки писателей второго поколения не были едиными. Писатели-новеллисты творили в двух литературных направлениях. Следуя принятой в современной арабистике терминологии, назовем первое из них «психологическим» течением, а второе – «новым реализмом» (5, 2).

Во главе «психологического» течения стоит талантливый новеллист Абд аль-Малик Нури, в котором «явно чувствуется воздействие творческих установок таких французских писателей, как Камю и Сатр» (1, 87).

К этому течению относятся также Фуад ат- Текерли, Яхья Абд аль-Маджид, Джабра Ибрахим Джабра, Абд аль-Маджид ар-Рубеййи и др. Эти писатели основное внимание уделяют психологической обусловленности действий героя, скрупулёзному описанию его внутреннего мира, нередко сопровождающемуся натуралистическими подробностями и тщательной обрисовкой деталей. В то же время их новеллы содержат рассуждения на социальные темы, а героем обычно является, как у их предшественников, «маленький человек». Настроением безысходности проникнуты новеллы этих писателей. Углубляясь в психологический анализ, они сравнительно меньше уделяют внимания изображению героя. Углублённый интерес к психологии героя зачастую мешает им осмыслить окружающую действительность.

Характерно, что глава этого течения Абд аль-Малик Нури был первым арабским писателем, учившимся у ирландского писателя Джеймса Джойса, автора знаменитого романа «Улисс». Однако он не стал абсолютным последователем Джойса, чей метод ведёт, в конце концов, к полному отрыву от реальной деятельности. Абд аль-Малик Нури умело сочетает психологизм с актуальной темой. Например, тема новеллы «Там, где течёт кровь» – революционное выступление против «черного режима», но автор её решает в особой, характерной для его творчества, манере. «Абд аль-Малик Нури как бы сталкивает высокие идеалы и нравственную чистоту своих героев с низменными сторонами жизни. Юноша и девушка, раненная во время студенческой демонстрации, спасаясь от полиции, находят убежище в публичном доме» (6, 50). Автор не старается дать подробного изображения демонстрации и последовавшего за ней кровавого побоища, он не агитирует читателя революционными лозунгами. Все события возникают в преломлении сознания

героев. А.М.Нури больше интересует их психологическое состояние после демонстрации, осложнённое обстановкой, в которую они попали, а также взаимоотношение героев.

Нам известны два сборника рассказов А.М.Нури: «رسل الانسانية» («Посланцы гуманизма», 1946г.) и «نشيد الارض» («Гимн земли», 1954г.), которые арабская критика считает самыми удачными произведениями этого автора. Сборник «Гимн земли» стал передовой книгой этого поколения(4, 20).

Новелла «Гимн земли», давшая название всему сборнику, знакомит читателя с внутренним миром уволенного со службы корректора одной из газет. В нём борются разнообразные чувства и мысли. А.М.Нури многое взял из рассказа Достоевского «Сон смешного человека» (5, 21). Однако рассказ Достоевского целенаправлен, из него можно извлечь ясную мысль и большой опыт. И хотя не каждому читателю был доступен глубокий психологический характер героев, сборник «Гимн земли» А.М.Нури стоит в числе одних из удачных арабских новелл и сделал автора одним из популярных писателей-новеллистов Ирака.

Другим представителем «психологического» направления является талантливый новеллист Фуад ат-Текерли – автор сборника الوجه الآخر («Новое лицо»), вышедший в 1960 году, хотя рассказы, вошедшие в него, были написаны ещё до революции. Как и у А.М.Нури, центром его рассказов являются чувства и переживания героя. Характерным для его творчества является рассказ العيون الخضراء («Зеленоглазая»), целиком построенный на воспоминаниях и внутренних монологах героини – падшей женщины с прекрасными зелёными глазами. Это – девушка, потерявшая всякую веру в счастье, любовь и жизнь. Она не верит даже в человека, полюбившего её, несмотря на её «профессию» и прогоняет его, оставшись одинокой и беспомощной. «Её лицо, отражённое в зеркале стекла, выглядело измождённым и выражало разочарование и в жизни, и в смерти» (8, 72).

Всё творчество Фуада ат-Текерли пронизано пессимизмом, неверием в гуманизм, в способность человека противостоять злу. Героиня рассказа «Новое лицо» считает, что вера в человечество несёт в себе уверенность в существовании зла и ужасных страданий, которые угнетают человечество; и эта вера не может быть источником положительной силы. На подобной философии построены почти все рассказы сборника. Али Джавад ат-Тахир оправдывает пессимизм ат-Текерли тяжелым временем, в которое были написаны рассказы; «Философия ат-Текерли не была чужда иракской интеллигенции в те дни, в которые он писал», пишет А.Д.Тахир (4, 69).

На иных позициях стоят представители течения «новым реализм». В число создателей этого прогрессивного течения входят такие новеллисты, как Эдмон Сабри, Шакир Хусбак, Гаиб Ту`ма Фарман, Махди Иса ас-Сакр, Салах Салман и другие писатели, близкие по своему мировоззрению и этическим позициям.

Основные характерные черты «нового реализма» отметил литературовед и новеллист Гаиб Фарман. В сотрудничестве с египетским литературоведом Махмудом Амином аль-Алимом в предисловии к сборнику «Реалистические

рассказы в арабском мире» были сформулированы основные требования к литературе, выдвигаемые «новым реализмом» и открыты его истоки.

Фарман указывает, что «это течение, во-первых, результат долгой борьбы, в которую окунулись многие писатели, во-вторых, оно связано с освободительным движением трудящихся масс. Это течение не только восприняло всё новое, но и постоянно черпает из всех достижений человечества во всех областях культуры» (7, 25). Отсюда можно сделать вывод, что именно благодаря своей органической связи с народом и его борьбой «новым реализм» проложил себе путь в современную иракскую литературу, обещая стать сильным и победоносным.

«В произведениях писателей «нового реализма» существует простая истина жизни, крепкая вера в человека, вера в то, что человек по своей природе прекрасное создание, стремящееся к счастливой и свободной жизни» (7, 40), - пишет Фарман.

Представителями «нового реализма» отстаивается принцип единства формы и содержания художественного произведения. В основе творчества представителей этого течения лежит стремление к изображению социальной правды, чем и оправдано название – «новый реализм». Стремясь к изображению типических характеров и явлений действительности писатели «нового реализма» проявляют своё отношение к изображаемым фактам и героям. Главное в творчестве этих писателей – отражение отчетливых контрастов антагонистических сил иракского общества 50-60-х гг.XX в.: с одной стороны, высшие слои с их властью и богатством, под которыми скрывались разложение и паразитизм, с другой стороны – простой народ с его нищетой и забитостью, таящий в себе огромные творческие и нравственные силы. Изображение подобных контрастов стало основным «нервом» проблематики рассказов писателей «нового реализма». Достаточно вспомнить рассказы Э.Сабри из сборника «Бегущие из мрака» и другие.

В новеллах этих писателей мы найдём реалистические описания полицейского «чёрного режима» в Ираке. Изображая нелёгкую жизнь иракского народа, писатели с болью в сердце касаются детей в Ираке, не знающих настоящего детства, вынужденных с малых лет бороться за кусок хлеба. Это – рассказы «Суп и солнце», «Умран» Г.Фармана, «Встреча» Э.Сабри. Некоторые из них переведены на русский язык и изданы в сборнике «Суп и солнце».

В творчестве писателей «нового реализма» большое внимание уделяется и судьбе арабской женщины. О приниженном и угнетённом положении женщин Востока в семье мы узнаём в рассказе Ш.Хусбака «Жестокая жизнь», «Амина», а также в рассказах Э.Сабри, в которых описываются судьбы падших, вытолкнутых из общества, женщин («Встреча», «Проигравшая» и др.). Рассказы переведены и опубликованы в сборнике «Рассказы иракских писателей». Бичуя общественные пороки, представители «нового реализма» объясняют не безнравственностью человеческой натуры, а социальными отношениями в иракском обществе. Они рассказывают, как безысходность толкает честных людей на воровство («Умран» Г.Фармана и «Похитители собак» Э.Сабри).

Таким образом, мы видим, что «проблематика рассказов «нового реализма» является актуальной для Ирака 50-60-х годов и имеет общественную значимость. Подобная проблематика порождает определённые типы героев. Это люди различных социальных слоёв населения Ирака – рабочие, крестьяне, мелкие служащие, студенты, интеллигенция. Характерно для героев «нового реализма» то, что все они принадлежат к молодому поколению (7, 15)». В отличие от героев «психологического» течения, они стремятся к достижению своей цели, борются за свои идеалы, ищут пути к счастливой жизни и сопротивляются враждебному им миру. Их взоры обращены к будущему. Не случайно, в рассказах уделяется большое внимание героям-детям, подрастающему поколению Ирака, будущему страны. В рассказах изображены не только страдания детей, в них показаны формирования – хорошие, добрые качества детей. Описываются, как дети учатся преодолевать трудности и как зреет в них протест против царящей в мире, несправедливости. Не случайно, один из основных представителей «нового реализма» Э.Сабри сборнику «Бегущий из мрака» дал подзаголовок «Гуманистические рассказы». Гуманизм – отличительная черта «нового реализма».

Все, отмеченные нами, особенности течения «новый реализм» дают нам право считать это литературное течение самым прогрессивным в иракской современной литературе.

Рассмотрев основные черты «нового реализма», попробуем ответить на вопрос, почему это реалистическое течение названо «новым», и чем отличается реализм 50-60-х годов от реализма 20-30-х гг.

Задача реалистического отражения действительности была поставлена ещё пионерами иракской новеллы – Махмудом Ахмедом ас-Сейидом, Зу-н-нун Аййубом и др. В их произведениях мы встречаем критику социальной справедливости. Однако в большинстве своём темы их произведений были связаны с частными вопросами общественного быта (коррумпированностью чиновников, старыми традициями и т.д.). Течение «новый реализм» сложилось в иных исторических условиях, которые требовали от литературы соответствующих характеров и сюжетов» (6, 12). Было бы ошибочно противопоставлять «новый» реализм «старому». Художественный опыт, накопленный предшественниками, органически вошел в литературное течение «новый реализм», участвуя в её формировании и развитии.

Литература

1. Долинина А.А. Предисловие к сб. «Современная арабская проза», М., 1961.
2. И.Ю.Крачковский. «Арабская литература в XX в.», Избранные сочинения, т.III, М., 1956.
3. Фарман Г.Т. «Ирак в годы чёрного режима», М., 1958.

на арабском

4. علي جواد الطاهر. في القصة العراقي المعاصر، بغداد، ١٩٦٧.
5. عمر الطالب. الفن القصص في الادب العراقي الحديث، بغداد، ١٩٧١.
6 عمر الطالب. الإتخاه الواقعي في الرواية العراقية، بغداد، ١٩٦٩.
7..١٩٥٦ محمود امين العالم و غائب فرمان. القصص الواقعية في العالم العربية، القاهرة،
8..١٩٦٠ فؤاد التكرلي. الوجه الاخر، بغداد،

N.Sultanlı

Müasir İraq nəsrində əsas ədəbi cərəyanlar

Xülasə

Məqalə İraq ədəbiyyatının XX əsr 50-60-cı illərinin novellasında iki cərəyana: "psixoloji" və "yeni realizm" cərəyanlarına həsr olunmuşdur. Bu cərəyanlar əsasən müasir İraq ədəbiyyatının ikinci nəslinin yaradıcılığında meydana gəlmişdir. Hər iki cərəyanın nümayəndələri realizm mövqelərində dayanmaqlarına baxmayaraq bir birindən çox ayrılırlar. Birinci cərəyanın nümayəndələri İrland yazıçısı C.Coysun yaradıcılıq prinsiplərinin davamçıları olub, yaratdıqları obrazların iç dünyasına daha çox fikir verib əsl problemlərdən uzaqlaşırlar. "Yeni realizm" nümayəndələri isə 50-60-cı il İraqın ən ağrılı problemlərinə toxunaraq xalqın ağır vəziyyətini təsvir edir, ölkədə sürən polis rejiminə toxunur, İraq qadınlarının məşəqqətli ömrünün həyatını təsvir edərək humanizm prinsiplərini tərənnüm edir.

N.Sultanli

Main literary trends in modern Irag prose

Summary

The article is dedicated to the main literary trends in novella of xx century 50-60`s Irag literature – "psychological" and "new realism". These trends mainly appeared in the creation of the second generation modern Irag literature. Despite standing on realism position, the representatives of both trends much differed from each other. The representatives of the first were followers of Irish writer J.Joys` creative principles, paid more attention to the inner world of the created characters and were far from real problems. But the representatives of "new realism", touching the most painful problems of 50-60`s Irag, described people`s hard life, police regime in the country, difficult life of Irag women and propagandized humanist principles.

Rəyçi: Professor Aida Qasımova

NƏZİYMƏ AXUNDOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent

ƏDƏBİ ŞƏXSİYYƏT VƏ TARİXİ HƏQİQƏT

Açar sözlər: H. Cavid, ideal, gözəllik, məhəbbət, qəhrəman, azad qadın
Ключевые слова: Г. Джавид, Хаййам, совроменност, красаты и любви.
Key words: H. Cavid, ideal, gözəllik, məhəbbət, qəhrəman, azad qadın, H.Javid, beauty, love, heroism, free women.

1935-ci ildə Şərqin böyük şairi, riyaziyyatçı alimi və filosofu Ömər Xəyyam haqqında 6 pərdəli "Xəyyam" mənzum tarixi dramını yazanda böyük romantik şair və filosof Hüseyn Cavid bilmirdi ki, cəmisi iki ildən sonra o, 1937-nin tufanına düşəcək və gedər-gəlməzə göndəriləcək. Ancaq H.Cavid çox ağıllı, uzaqgörən bir filosof və dramaturq idi. O, içərisində yaşadığı rejimin heç bir qanuna tabe olmayan proletar diktaturası, gədə-gündə hakimiyyəti olduğunu, patavalı mujikə silah verilib bəstəkarın üstünə göndərildiyini, meşin gödəkcəli şpanaların cibinə KQB knijkası qoyub meydan suladıqlarını, evlər yıxdığını 1935-ci ildə artıq yaxşı bilirdi. Belə bir dövrdə o "Xəyyam"ı yazdı və heç gözlənilmədən bu əsərinə görə 1936-cı ildə mükafat aldı. Bu mükafatdan bir il ötməmiş o 1937-ci il iyunun 3-dən 4-nə keçən gecə "Gizli millətçi əksinqilabçı təşkilat" da iştirakına görə həbs olunmuşdur.

"Xəyyam" Hüseyn Cavidin öz böyük sələfi Ömər Xəyyamın 1000 illik yubileyinə hədiyyəsi idi. Özünün "Səyavuş" (1932) əsərini də Əbülqasim Firdovsinin 1000 illiyi münasibəti ilə yazmışdı. Elə bilirik ki, "Xəyyam" əsərinin təhlilinə bu əsər barəsində ən müasir mülahizələri çıxış nöqtəsi, metodoloji başlanğıc kimi qəbul etsək, yanılmarıq. Hüseyn Cavid irsinin fədakar tədqiqatçıları və naşirləri "Xəyyam" dramını belə təqdim edirlər: "Cavid bir türk şairi kimi "Xəyyam" fenomeni doğuran ictimai-ədəbi mühiti də ön plana çəkməli idi. Firdovsini türk dövlətinin demokratizmi, şerə-sənətə verdiyi yüksək önəm doğurmuşdursa, Xəyyamı da eynilə oxşar mühit – bir türk hökmdarı olan Alp Arslanı və onun oğlu Məlikşahın elm, şeir və sənət üçün yaratdığı münbit mühit doğurmuşdu. Cavid bunun vurğulanmasına xüsusi fikir verir və sanki bundan bir türk şairi kimi qürur duyur, türk hökmdarının bəşər tarixi qarşısında xidmətini vurğulamaqla öz etnik mənşəyi ilə fəxr edir.

Faciənin əsasında fərd və cəmiyyət qarşıdurmasından daha çox Mosart və Salyeri sindromu istedadla cılızlığın qarşılaşması və bu mübarizədə ikinci tərəfin hər cür xəyanətə əl ataraq butaforik qələbə çalması durur.

Sosialist realizminin "konfliktsizlik" nəzəriyyəsindən xeyli əvvəl qələmə alınmış "Xəyyam" faciəsində Cavid sosialist cəmiyyətində sənətkarların düşdüyü ağır vəziyyəti, qələm azadlığına vurulan ağır zərbəni də incə eyhamlarla ifadə etməyə nail olmuşdur" (Babaxanova G. Kərimli T, Hüseyn Cavidin həyat və yaradıcılığı. Hüseyn Cavid: həyat və sənət yolu. B., Elm, 2005, XVII-XVIII). Geniş sitat verdiyimiz bu mülahizədə "Xəyyam" əsərinin həm tarixiliyi, həm də müasirliyi dəqiq izah olunur. Bütün tarixi mövzulu əsərlərdə olduğu kimi, H.Cavid də "Xəyyam" mənzum tarixi dramında yüksək şeriyyətlə dövrünün – XX əsrin 30-cu illərinin hadisələrini, konkret olaraq özünün yaşantılarını Xəyyamın dövrünə, türk tütuhatinin parlaq bir epoxasına keçirir və əslində həm o dövrdə türk - ərəb münasibətlərinə,

həm də sovet imperiyasının antitürk siyasətinə qiymət verir. "Xəyyam" 53 yaşlı sənətkarın son böyük əsərlərindən biri idi. "Xəyyam"dan sonra o yalnız bir əsər – "İblisin intiqamı"nı (1936-1937) yaza bildi... Qeyd edək ki, "Xəyyam" H.Cavidin digər əsərlərinə, məsələn, "Şeyx Sənan", "İblis" faciələrinə nisbətən ədəbi tənqiddə və nəzəri-estetik fikirdə də az təhlil və təbliğ olunub.

Nəinki H.Cavidin "Xəyyam" dramına, ümumiyyətlə Azərbaycan romantiklərinin yaradıcılığına və konkret əsərlərinə ədəbiyyat tariximizdə xüsusi hadisə olan romantizm cərəyanının kontekstində nəzər salmaq lazımdır. Akademik M.Cəfər "Azərbaycan ədəbiyyatında romantizm" monoqrafiyasında yazır: "Bu illərin (1905-1917) romantizmi bütünlüklə götürüldükdə XX əsr Azərbaycan ədəbiyyatının çox mürəkkəb, ziddiyyətli bir hissəsi olmaqla, - həm də çox geniş bir mövzudur. İkinci cəhətdən romantizm problemini həll etmədən, onun ideya və bədii-estetik xüsusiyyətlərini, onu doğuran siyasi-ictimai şəraiti aydın müəyyən etmədən, bu romantizmin ayrı-ayrı nümayəndələrinin yaradıcılıq və görüşlərini də düzgün və ətraflı təhlil etmək mümkün deyildir" (Məmməd Cəfər. Seçilmiş əsərləri. İki cilddə, II c. B., Azərnəşr, 1974, s.9).

Beləliklə, həm sənətkarın ədəbi-tarixi rolunu, həm onun konkret əsərlərinin ideya-bədii özəlliklərini doğru-dürüst müəyyən etmək üçün həmin sənətkarın mənsub olduğu ədəbi cərəyanın poetika və estetikasına istinad etmək zəruridir. Bunu həm də hər bir tədqiqatçıdan elmdə obyektiv həqiqəti aşkara çıxarmağa imkan verən tarixilik prinsipi tələb edir. Belə ki, Azərbaycan romantizmini qiymətləndirmək üçün XX əsr Azərbaycan tarixinin ictimai-siyasi şəraitini, bu romantizmin yaradıcılarından olan H.Cavid yaradıcılığını düzgün qiymətləndirmək üçün isə XX əsr romantizmini kontekst kimi ciddi nəzərə almaq lazımdır. Bu istiqamətdə də əsərin təhlilindən öncə, "Xəyyam"a verilən ədəbi-tənqidi və tarixi-fəlsəfi dəyərlənmələri nəzərdən keçirək.

1956-cı ilin kütləvi siyasi bəraətindən az sonra – 1960-cı ildə H.Cavidin ədəbi-tarixi mövqeyini bərpa etmiş akademik M.Cəfər yazır: "Cavidin dramları əsas etibarı ilə xarakterlər dramıdır... "Şeyx Sənan" və "Xəyyam" xarakterlər dramı olmaqla bərabər həmçinin fəlsəfi dramlardır... "Şeyx Sənan" faciədir. Burada qəhrəmanın taleyi fəlakətlə nəticələnir. "Xəyyam" dramdır. Burada fəlakət deyil, müəyyən dərəcədə perileqiya (qəhrəmanın taleyini birdən-birə dəyişməsi) xətti əsas götürülmüşdür. "Şeyx Sənan" təəssübkeş dindarların təqibinə məruz qalıb özünü Xumarla bərabər məhv etdiyi halda, Xəyyam qoca yaşlarında təbliğ etdiyi ideyaların geniş yayıldığı və gənc nəsil. Nişapur gəncləri tərəfindən qayğı ilə əhatə edildiyi bir zamanda öz əcəli ilə ölür. Bu iki əsəri başqa bir xüsusiyyət də fərqləndirir. "Şeyx Sənan" fəlsəfi dram olmaqla bərabər daha çox məhəbbət dramıdır. "Xəyyam"da da məhəbbət xətti vardır (Xəyyam ilə Sevdanın sevgisi, Sevdanın gənc ikən ölməsi) lakin burada fəlsəfi dram xətti daha əsaslı və ardıcıldır" (s.214). "Şeyx Sənan"la bağlı mülahizələri öz dövrü ilə əlaqədar müəyyən sosioloji xarakter daşısa da akademik M.Cəfərin dəyərlənməsi maraq doğurur. Əgər nəzərə alsaq ki, H.Cavid haqqında monoqrafiyasında böyük alimimiz "Cavidin dramları içərisində dram sənəti nöqteyi-nəzərində ən zəif əsərlər "Peyğəmbər" və "Topal Teymur"dur (II c. S.226) – deyə onları məhz xarakterlərlərin zəifliyinə görə tənqid edir, onda "Xəyyam" əsərinə verdiyi önəm aydınlaşır. Beləliklə, H.Cavid yaradıcılığının və Azərbaycan romantizminin ən yaxşı tədqiqatçısı, akademik Məmməd Cəfər "Xəyyam" əsərini fəlsəfi

xarakterlər dramı hesab edir. M.Cəfər Xəyyamda bir xarakter, dramatik konfliktin əsas tərəfi, H.Cavidin estetik idealının daşıyıcısı kimi əsas cəhət olaraq "yüksək idrak eşqini" ön plana çəkir. Həqiqətən də Xəyyam mühitindən, zəmanəsindən yüksəkdə duran bir mütəfəkkir, ağıl, mərifət kamdır. Fikrimizcə M.Cəfər dramı və bir ədəbi – tarixi şəxsiyyət, xarakter olaraq Xəyyamı zəiflərdən bir qüsuru doğru qeyd edir: "Diqqəti cəlb edən başqa bir cəhət budur ki, Xəyyamın idrak, mərifət ehtirası sanki başqaları arasında da paylaşdırılmışdır" (II c. s.215). Əsərdə Xacə Nizam, Sevda, Vəfa, Səfa, Xərabati Xəyyamın əqidə, ağıl, hiss və ehtiras dostlarıdır. Lakin onlar heç biri Xəyyam deyil. Bir qədər mübahisəli görünsə də, hətta deyərdik ki, konfliktin mənfi qütbündə dayanan Həsən Sabbah daha dəqiq, ardıcıl və ehtirasları daha məqsədyönlüdür. Əsərin təhlilində bu aydınlaşacaq. Akademik M.Cəfər bir qədər başqa fikirdədir: "Müxtəlif dramatik xətlərin baş qəhrəman ətrafında dolaşması "Xəyyam"da daha sənətkarlıqla verilmişdir. Bu dramda Xacə Nizam - Həsən Sabbah, Yusif, – Alp Arslan, Həsən Sabbah – Rəmzi Vəfa, Xərabati – Səfa arasında yaranan dramatik vəziyyətlər hamısı Xəyyamın taleyi ilə əlaqələndirilmişdir" (II c. s.228).

"Xəyyam"ın "Şeyx Sənan"la müqayisədə götürülməsi təsadüfi deyil. Sovet ədəbiyyatşünasları materializmə (onun daha cılız forması olan sosrealizmə !) istinadən "Şeyx Sənan"ı dini xurafat əleyhinə yazılmış (az qala ateist!) əsər hesab edirdilər. "Şeyx Sənan" əsəri ilə bağlı mülahizələrimizdə biz bu əsərə tamamilə başqa yöndən yanaşmış, bu romantik faciəni sonu sufizmlə bitən ilahi eşq dastanı olduğunu qeyd etmişik.

Yaşar Qarayev kimi görkəmli bir nəzəriyyəçi də "Xəyyam"ı Cavidin "ən şairanə dramı" adlandıraraq, onun mahiyyətini dini xurafat əleyhinə əsər kimi izah edir: "Xəyyam" mövzusu bütün yaradıcılığı və ideya ruhu ilə dini təəssübkeşlik və mövhumat əleyhinə olmuş H.Cavid qələmi üçün doğma idi. H.Cavidi cəlb edən Xəyyamdakı ayıq şübhə, həyata odlu bir məhəbbət fəlsəfəsi idi. Əsərdə "Şeyx Sənan" ideyaları daha da inkişaf etdirilir, həm də burada Sənanı məşhur materialist filosof Xəyyam əvəz edirdi. Xurafata, din qəhrəmanlarına "hər cür mistik etiqada qarşı H.Cavid İblisin qəhqəhələrindən sonra indi də Xəyyamın ağıllı gülüşləri ilə gülürdü" (Qarayev Y. Hüseyn Cavid. "Azərbaycan" 1962. №12,s.154). Akademik M.Cəfər müşahidə edib ki, H.Cavidin heç bir əsərində yumor yoxdur. İblisin qəhqəhələri də, Xəyyamın ağıllı gülüşləri də yumor hissindən çox uzaq, acı və zəhərli idi.

H.Cavidin tarixi mövzuda yazdığı bütün əsərlər müasirlik ruhu ilə aşılanıb. Mövzu onun üçün öz estetik idealını ifadə etmək vasitəsidir. "Xəyyam" dramında da ədəbi şəxsiyyət və tarixi həqiqət məhz müasirlik müstəvisində dərk və təcəssüm olunur. Cavidşünas alim T.Əfəndiyev belə qənaətə gəlir ki, "onun (yəni H.Cavidin – N.A.) müraciət etdiyi mövzular tarixilik və müasirlik prinsiplərinin vəhdətində işlənməsi ilə diqqəti cəlb edir. O, həmişə müasir mövzularda həyatın adi məsələlərinə deyil, ülvi və qeyri-adi məsələlərinə toxunduğu kimi, tarixi və əfsanəvi mövzuların işlənməsində də həmişə ümumbəşəri idealları tərənnüm və təcəssüm etdirmişdir" (Əfəndiyev T. Tarixi mövzu və müasir ideya. Cavidşünaslıq. I c. Elm, 2007, s. 183). Azərbaycan ədəbiyyatının, xüsusən tarixi XIX yüzilliyin 50-ci illərindən başlanan dramaturgiyamızın yaradıcılıq təcrübəsi göstərir ki, ədəbi-tarixi şəxsiyyətlərin bədii obraza, ədəbi qəhrəmana çevrilməsi müəllifdən böyük bilgi, diqqət və həssaslıq tələb edir. Tarixi mövzulu əsərlərdə tarixi şəxsiyyət, xüsusilə də ədəbi-tarixi şəxsiyyət bir obraz kimi, konkret estetik idealın daşıyıcısı kimi maraqlıdır. Ədəbiy-

yatşünas Xalid Əlimirzəyev Xəyyam obrazına məhz bu nöqteyi-nəzərdən dəyər verir: "Cavidin bizə təqdim etdiyi Xəyyam tarixi şəxsiyyətdən daha çox yüksək poetik təxəyyülün məhsulu olan ümumiləşdirilmiş, bitkin xarakter səviyyəsinə qaldırılmış bədii obrazdır. Müəllif mövzuya, qələmə aldığı tarixi hadisələrə yeni məzmun vermiş, müasirlik duyğusu aşılamışdır" (Əlimirzəyev X. Dramaturgiyamızda ideal və qəhrəman. B., 1995, s. 183-184). X.Əlimirzəyev Xəyyamı təkcə öz zəmanəsində deyil, ümumiyyətlə bütün zamanlarda nadanlığa, cəhalətə, dini xurafata qarşı ağlın, zəkanın, azad insan düşüncəsinin əzəmətini irəli sürən filosof kimi səciyyələndirir.

Xəyyamın bədii bir obraz kimi möhtəşəmliyi öz zəkası ilə erkən orta əsrlərə işıq salmaq əzmindədir.

Fikrimizcə cavidşünas alim və istedadlı türkçü Azər Turan "Xəyyam"a doğru yanaşır. "Xəyyamı təkcə bədii estetik dəyərinə, hədsiz işıqlı poeziyasına görə deyil, fəlsəfi mahiyyətinə, Cavid düşüncəsinin ənənəvi təməllərindən birini - irfani rəmzlərini özündə cəmləşdirdiyinə siyasi quruluş naminə qatbaqat ideya təkliflərinə görə incələmək təəssüf ki, hələ də Cavidşünaslığın gerçəkləşdirilmədiyi problemlərdəndir və sadaladığım yönləri ilə "Xəyyam" hələ ki, tədqiqata cəlb olunmayıb" (Azər Turan. Cavidnamə. B., Elm və Təhsil. 2010. s. 255). Fikrimizcə, "Xəyyam"ı tarix və müasirlik müstəvisində, onun mövzu və ideya mənbələri, irfançılıq və dövlətçilik kontekstində araşdırmağı təklif edən Azər Turan tamamilə haqlıdır və biz də əsərə məhz bu yöndən yanaşmalıyıq. Hətta əsərdə iştirak edən şəxslərin – obrazların adlarının rəmzi – irfani mənalarını açıqlayan tədqiqatçı "Xəyyam"ın sadəcə bir mənzum tarixi dram olmadığını nəzərə çatdırır. "Xəyyam" çoxplanlı, çoxqatlı əsərdir. Məsələn, Nizamimülkü qətlə yetirən Əbu Tahir batini təriqətinə, Həsən Səbbah isə ismailiyyə təriqətinə mənsub olmuşlar. Cavidin onları əsərə gətirməsinin həm tarixi səbəbləri, həm də ideya – bədii məqsəd aydınlaşdırılmalıdır. Azər Turan yazır: "Cavidin "Xəyyam"ı təkcə irfani rəmzlərinə və tarixi obyektivliyinə görə deyil, eyni zamanda mətnin daxili siyasi mahiyyətinə istinad edilərək öyrənilməlidir" (s. 260). Artıq qeyd etdiyimiz kimi, "Xəyyam"ın bədii mətni çoxqatlıdır. Mövcud rejimi təkzib edən eyhamlarla doludur.

H.Cavidin bütün əsərləri kimi "Xəyyam"ın mətni də mükəmməl bədii-fəlsəfi sistemə malikdir.

6 pərdədən ibarət "Xəyyam" dramının birinci pərdəsi Mədrəsədə başlayır. Burada kitablar, dərs vəsait və alətləri ilə dolu otaqla yanaşı gənc Xəyyam və dostları Rəmzi və Xərabatinin şərab içdikləri oda da mövcuddur. "Hicaz" muğamı üstündə ilahi göylərə - Allaha müraciətlə mahnı oxunur və dərhal buna qarşı Xəyyamın materialist filosof – şairin sözləri gəlir:

İştə, bir səs ki, edər göylərə şaşqınca xitab
O sağır göy, əcəba, kimsəyə vermişmi cavab?

(Hüseyn Cavid. Əsərləri. Beş cilddə, V c. B., Elm. 2007. s. 8) Xəyyamın sualına Xərabati "Hər həqiqət buradan parlayacaq" – deyə şərab dolu qədəhi nişan verir. Bəri başdan deyək ki, H.Cavid Xəyyamın rübailərini öz tərcüməsində ustalıqla (fəqət dırnaq içərisində!) mətnə daxil edir. Beləliklə, əsərdə iki şair – Xəyyam və Cavid əl-ələ verir. Bu məqamda Nizamülmülk və Sabbah əsərə daxil edilir. Remarkada Cavid onları belə xarakterizə edir. "Birinci vüqarlı və həlim, ikinci isə titiz və qurnaz" (s.10). Sabbah ilk məqamdan Xəyyama tənə edir, şərab içməyin ona layiq olmadığını bildirir. Xəyyam badə dostlarına onları həmdərsi kini təqdim edir.

Xəyyam Rəmzini təhqir edən Sabbaha "Həddini çox aşma, yetər" deyə təpinir. Əbu Tahir öz əqidə dostu Sabbaha Xəyyamın sevgilisi Sevdanı belə təqdim edir:

O işvəli nur
Qız deyil, sanki şəfəq yavrusudur.

Bununla da Sevda əsərə daxil edilir. Sevda həqiqətən həyat eşqi ilə dolu saf bir mələkdir. Və Xəyyam daima bu nura can atır.

Sabbahın allahı xəyanətdi, zəhərdi, dərmandı. Əbu Tahir isə onun sağ əli təriqət və cinayət yoldaşıdır. Elə ilk görüşdə Sabbah Sevdanın şərbət qədəhinə dərman tökür ki, o şaşırsın, əqlini itirsin, beyni pozulsun. Sevda Sabbahı Xəyyam sanır. Saray qızları Sevdaya tənə edirlər:

Sevda?! Bu nədir, Sevda?!
Etdin bizi sən rüsva
Layiqmi adın gəzsin
Nifrətlə dodaqlarda (s.26).
Xacə Nizamın qulamı Hacib mədrəsələrə belə qiymət verir:
Aydındır əvət mədrəsələr həp
Hər kərpici altında bir əqrəb.

Bu sözlər məhz Sabbaha aiddir. Xəyyama ən doğru qiyməti o özü verir. Hacibin "Divanəmisin? Şairmisin?" suallarına Xəyyam belə cavab verir: "Əsla! Peyğəmbər idim ümmətim olsa". Birinci pərdə Xəyyamın Sevdaya eşq dolu misraları ilə bitir:

Gəldin də niçin pənbə bulutlar kibi aqdın
Bilməm, niyə getdin, niyə döndün, niyə baqdın?
Şimşək kibi qaçdın da, niçin könlümü yaqdın
Bilməm, niyə getdin, niyə döndün, niyə baqdın?
Sərpildi alcıb ruhuma süzgün baqışından
Sarsıldı da həp bənliyim, ey afəti-devran
Gəl, gəl olayım səndəki hər cilvəyə qurban
Bilməm, niyə getdin, niyə döndüm, niyə baqdın?! (s.28).

"Xəyyam" əsəri parlaq bir şeriyyət təcəssümü, bu şeir isə H.Cavid sənətinin ən səmimi poetik bir möcüzəsidir. Belə bir cəhət müşahidə olunur ki, H.Cavidin əsərlərində əhvalatların inkişafını musiqi müşayiət edir. "Xəyyam"da da birinci pərdədə "Hicaz" çalınırsa, bazarda vaqe olan ikinci pərdədə neydə "Dəşti" çalınır, gənc çadırçı eyni ahənglə oxuyur. Xəyyam burada saçları dağınıq bir sərsəridir, hətta çadırçı usta onun rəhmətlik atasını yada salır:

Buna baq, halına, ətvarına baq
Sanki zəncirini qırmış dustaq
Bizə yoldaşdı o rəhmətlik baban
Bir çadırçıydı o da

Görmədik öylə təmiz bir insan
Sən nəsin? Bir budala! (s.35).

Bəs nədədir Xəyyamın faciəsi? Hər şeydən öncə onun varlığındakı ikiləşmədə. Bunu əsərdə Xəyyam özü belə etiraf edir:

Şairmi? Saqın, duyduğum ilhamə uyan yoq
Şerimdəki əsrarı duyan yoq
Yoq oxşayacaq ruhumu bir nuru-səadət.
İzlər məni hər dürlü fəlakət.
Elmimdəki nöqsan ilə cəhlimdəki irfan
Gənc ömrümü atəşli dikənlər gəmirirkən
Həp varlıqa üsyan edərəm bən
Üsyan!.. Ölü adət və təriqətlərə üsyan!
Yıldızlı həqiqətlərə üsyan! (s.34)

Burada mənası kitablara sığmayan bir misra var: "Elmimdəki nöqsan ilə cəhlimdəki irfani". Elm beyin, zəka ilə bağlıdır. Sufi ədəbiyyatda elm, əql aşiqin duymaqda çox zəif hesab olunur. Quranda olduğu kimi burada da "cəhl" sözü işlənir, bu nadanlıq, cahillik deyil, xatırlayaq burada islamiyyətin qəbuluna qədərki cahilliyə - sadəlik dövrü nəzərdə tutulur. "Cəhlimdəki irfan" dedikdə H.Cavid sufizmi ön palana çəkir. İrfançılıq sufizmin son həddidir. "Xəyyam"ın bədii-fəlsəfi mahiyyətinə daxilən aid olan bir məsələni də qeyd edək: Sufi ədəbiyyatda ağıl gücsüz, köməksiz anlamdadır. Kitab oxuyub elm öyrənməklə, təfəkkürlə sufini dərk etmək olmaz. H.Cavid Xəyyamın da daxili konfliktini, faciəsinin səbəbini belə verir: "Elmimdəki nöqsan ilə, cəhlimdəki irfan". Deməli Xəyyamın daxilində müdrik və mistik mübarizə aparır.

"Xəyyam"da digər bir qeyri adi ziddiyyət də var. H.Cavid bir türk olaraq 1072-ci ildə Malazgird döyüşündə Anadolunu fəth etmiş Alp Arslana böyük rəğbət bəsləyir, eyni zamanda onu öldürən sadə döyüşçü Yusifə də rəğbət bəsləyir. Bu Cavidin türkçülüyü ilə xalqa rəğbəti arasındakı ziddiyyət idi. Hər cür hakimiyyətə qarşı duran millət – xalq adamı H.Cavidin bu hərəkəti əsasən sovet rejiminə nifrətdən irəli gəlirdi. "Şeyx Sənan"da Xumar Şeyx Sənanı peyğəmbərə bərabər tutduğu kimi, "Xəyyam"da da Sevda Xəyyamı uca tutur, yüksək qiymətləndirir:

Sus onda fəzilət var,
Qüdrət və cəsarət var.
Çarpışmada baq könlüm
Bilməm ki, nə hikmət var.

H.Cavid 1935-ci ildə, artıq Azərbaycanın böyük millətçi, türkçü, islamçı – yəni öz milli-mənəvi kimliyini tanıyan ziyalılarımızın başının üstünü qara buludları alanda Alp Arslanın simasında hökmdar və şair problemini gündəmə gətirir. Əsərin müdrik surətlərindən Xacə Nizam deyir:

Sarayın iştə böyük aləmi var,
Şanlı bayramdır, əzizim, bu gecə.

Var ziyarətlə geniş əyləncə
Bu gün Alp Arslan üçün xoş bir gün
Qeysəri-Ruma o gəlmiş üstün.

Əslində H.Cavidi hər şeydən öncə məhz bu tarix düşündürürdü. Tarixdən bəllidir ki, Alp Arslan Malazgird döyüşündəki qələbədə Konstantinopolun üstündən qızıl xaçı çıxarıb apardı Bağdadda Xəlifənin ayaqları altına atdı. Konstantinopol İstanbul adlandı və üzərinə islam bayrağı sancıldı. 1000 ildən artıqdır ki, xaç dünyası bunu türk-islam dünyasına bağışlamır. Cavidin "Xəyyam" əsərinin qəhrəmanı həmin Alp Arslandır. Əsərin bir böyük əhəmiyyəti də məhz bundadır.

Fəqət Cavid hər nə olursa olsun üstünlüyü şair və filosof Xəyyama verir. Fateh Alp Arslan deyir ki, "Xəyyam ikidir // Biri alim, biri parlaq şair". Bu yerdə Cavid Ömər Xəyyamın şahlar əleyhinə, torpaqda şahla gədanın bir olması və dünyanın faniliyi haqqında iki sərt rübaisini verir. Bununla da Cavid həm də öz yaşadığı dövrə öz münasibətini bildirir. Əsərin müasirliyi də məhz bundadır. H.Cavid demək istəyir ki, Xəyyam Alp Arslan kimi şöhrətli bir türkü bəyənmirsə, mən əcnəbi rəhbərləri niyə qəbul etməliyəm...

Alp Arslan cəllada öz oğlunu öldürmək əmri verir. Belə olanda Yusif gizli saxladığı xəncərlə Xaqanı qətlə yetirir. Yusifi də cəllad atası öldürür. O Xaqandan əvvəl ölür. Dördüncü pərdə Xəyyamın iş otağında vaqe olur, o rəsədxanada tələbələrə dərs deyir.

Xəyyam kimi ağıllı, müdrik filosofları başçının fitvaçı dəstəsi ilə addım baddım izləyən, onu rəzalət kimi, dəli adlandıran Müftiyə Xəyyam çox sərt cavab verir:

Həzrəti Müfti sizə nisbətlə biz
Həm ayıqız, deyiliz nəşəsiz
Biz içiriz badə, siz insan qanı
Hankimiz, anlat, daha çox vəhşiyiz?

Bu Xəyyamın məşhur rübailərindən biridir. Elə bilirik ki, Xəyyamla tamamilə əks qütbdə dayanan dini xurafat təbliğ edən, hətta din adı ilə cinayətlər, fitnələr törədən, dövlət işlərinə əngəl olan bir adama bundan daha ağır söz demək olmaz.

Təkcə bir epizodu xatırlayaq ki, Xərabati qəbristanlıqda Müftinin fitnəsi ilə qətlə yetirilir. Ümumiyyətlə Xəyyamın tərəfdarlarına qarşı həm Sabbah və Əbu Tahir, həm də Müfti və Naib mübarizə aparır. Xəyyam iki amansız, qatil cəbhə ilə üzüzə dayanır. Əslində üzdə bir, yəni mömin rəhbər, həqiqətdə əyyaş olan Xəlifəni də üçüncü cəbhə kimi qəbul etmək olar.

Sabbah çox hiyləgər, mənfur əməllərini həyata keçirməkdə inadkar və israrlıdır. Alp Arslanın oğlu Məlikşah hakimiyyətə gəldikdən sonra vəzir Xacə Nizam Alp Arslanın ölümündə Yusiflə bərabər Sabbahı da günahlandıranda o, dərhal Xəyyama tərəf üz tutur. Sabbah həm də Sevdaya vurğundur, fəqət bu baş tutmaz bir sevdadır: "Ah o gözlər məni öldürdü, yetər!" xəyalı ilə ötüşməli olur.

Məlikşahın Xəyyama böyük rəğbəti var. O, əvvəlcə Xəyyamın rəsədxanəsinə, sonra da kaşanəsinə - evinə gəlir. Bu münasibətdə Cavid şair və şah problemini qoyur və bu tarixi faktı zəmanəsinə nümunə göstərir. Məlikşahın alicənablığını əks etdirən bir maraqlı detal da var. Xacə Nizam ona Sabbahın cinayətkar olduğunu, onu öldürmək üçün pusqu qurduğunu söyləyəndə Məlikşah deyir: "Baxarız, məhkəmə var, qanun var". Bu sözlərlə H.Cavid orta əsrlər türk demokratizmini əks etdirmişdir.

Əsərdə Xəyyam sakit bir filosof, şeirləri ilə gözəlləri əyləndirən bir şərab düşkünü deyil. H.Cavid onun Məlikşaha verdiyi cavabda böyük şəxsiyyətin cəsarətini əks etdirir:

Doğru, var içkiyə az-çox meylim,
Söylənənlər kibi düşkün deyiləm.
Çoq zaman özlədiyim neylə şərab
Fikri təbliq üçün ahəngi-rübab
Edərim əski xurafata hücum
Yeni bir fəlsəfə izlər ruhum
Xalqı gördükcə səfalətdə həmən
İçərək vaz keçərim kəndimdən.

Beləliklə, Xəyyam içkiyə münasibətinin bütün fəlsəfəsini açır. O içki düşkünü olmadığını, musiqi və şərabdan fikri təbliğ üçün ahəng yaratmaq məqsədi ilə, xurafata qarşı yeni fəlsəfə irəli sürmək məqsədi ilə, xalqın səfalətinə dözmədiyi üçün şərab içdiyini söyləyir. Bundan sonra Sevda Məlikşahın qarşısında Xəyyamın eşq fəlsəfəsi ilə cilalanmış rübailərini mahnı kimi oxuyur. Sabbah və Əbu Tahirin Xacə Nizama qəsd üçün zəhər tökdükləri buzlu şərbət badəsini Sevda içərək ölür. Xəyyamın dərdlərinin üstünə dərd gəlir:

Qalq, oyan!.. Ah niyə susdun gözəlim?!
Həp təbiət, bəşəriyyət zalim...
Söylə, kimdən diləyim bən imdad?...
Həp təbiət, bəşəriyyət cəllad...

"Xəyyam"ın beşinci pərdəsi İmamzadə günbəzinin yerləşdiyi məzarlıqda vaqe olur. Burası, xüsusilə məzarçıların – qoca və gənc məzarçının söhbəti bir qədər U.Şekspirin "Hamlet" əsərini xatırladır...

Məzarıstana gələn Xərabati deyir:
İştə Rəmzi, bu da biçarə Vəfa
İştə Sevda bu da nazəndə Səfa
Beş gün əvvəl gülüşürkən, xoşkam
Susdular zəlzələdən bir aqşam.

Belə hesab edirik ki, qəhrəmanların təbii fəlakət nəticəsində ölmələri əsərin dramatik konfliktini bir qədər zəiflədir. İkinci məzarçı Xərabatini "səndələyən canlı məzar" adlandırır. Maraqlı faktlardan biri də budur ki, H.Cavidin qəhrəmanı materialist filosof Xəyyam həccə gedir. Bunu həm Xəlifə, həm də Məlikşah təqdir edir.

Lakin Xəlifənin adi bir əyyaş olduğunu biz onun Xəyyamla üz-üzə gəldiyi səhnədə görürük. Hovuzun başında bir dəstə gözəl qızla əylənən Xəlifəyə Xəyyam deyir:

Kimdir onlar? Zavallı qurbanlar
Sən də bir duyğusuz, quduz canavar.

Ümumiyyətlə "Xəyyam" əsərinə Xəyyama şərab gətirən erməni surətinin daxil olunmasını artıq hesab edirik. Bu surət heç bir fəlsəfi məna və estetik funksiya daşımır. Əgər belə demək mümkünsə "Xəyyam" dramı baş qəhrəmanın, şair və filosof Xəyyamın xoşbəxt ölümü ilə nəticələnir. Ölüm heç vaxt xoşbəxt olmur. Fəqət Xəyyam öz gələcəyi yaradacaq yetirmələrinin əhatəsində əcəli ilə ölür. Onun son sözləri:

Uydunuz bunca xurafata, yetər!
Bu həyat iştə ölümdən də betər
Dinləyin bir də bulunmaz Xəyyam
İştə, bəndə gələcək nəslə payam.
Onun haqqında deyilən son qənaət isə belədir:
Getdi, eyvah!... O fəzilət, o zəka!
Əbədi susdu o qüdrət, o dəha...
Söndü bir anda o sönməz atəş
Fərqi yoq, batsa da parlaq o günəş.

Bu sözlərlə də "Xəyyam" dramı tamamlanır. Bu əsər Azərbaycan dramaturgiyasında ədəbi şəxsiyyət və tarixi həqiqət haqqında ilk mənzum bədii-fəlsəfi dramdır.

Ədəbiyyat

1. Hüseyn Cavid: həyat və sənət yolu. Bakı, Elm, 2005
2. Məmməd Cəfər. Azərbaycan ədəbiyyatında romantizm. Seçilmiş əsərləri. İki cilddə. II c. Bakı, Azərnəşr, 1974
3. Hüseyn Cavid. əsərləri, Beş cilddə, II c. Bakı, Elm, 2007
4. Qarayev Yaşar. Hüseyn Cavid. "Azərbaycan" j. 1962, № 12.
5. Əfəndiyev Timurçin. Tarixi mövzu və müasir ideya. "Cavidşünaslıq" I c. Bakı, Elm, 2007
6. Əlimirzəyev Xalid. Dramaturgiyamızda ideal və qəhrəman. Bakı, 1995
7. Azər Turan. "Cavidnamə". Bakı, Elm və Təhsil. 2010

Н.Ахундова

Литературное личность историческое истина

Резюме

В стате аналиризуится историческое драма Г. Джавида «Хаййам». Автор в первые рассматривает Хаййам в контексте поетической драмы осново положникам является Г.Джавид. Образ великого поета Хаййама аналиризуится в стыке историчност и совроменности. Анализ – художественно – философских понятий и сосиально-етических проблем творчества Гусейн Джавида, в

конечном результате приводит к живому видению, понятию и синтезу эстетического идеала великого поета и драматурга. Этот естетический идеал можно сформулировать следющим образам: создание как акт героизма, царство красаты и любви.

N.Ahundova

Litrary person and history realism

Summary

The analysis and of the artistic – philosophical notions and social – ethic problems of H. Javid's works result in synthesis of his aesthetic ideal wich is regarded the kernel and crystal cage cell of his literary activity. The text called history of Husseyin Javid's research and its modern scientific theoretical and level of study according to the cateqory of the aesthetic ideal "the main sosial – ethic problems of the works by H. Javid"

Thus H.Javid's ideal may be formulated in the following way: creation of the realm of beauty and love as an act of heroism: inhabitant of the perfekt men and free women in the realm of beauty and love creation of a family by the perfect men and free women based jn the natural unity.

Rəyçi: Nizaməddin Şəmsizadə
filologiya elmləri doktoru, professor

ANAR SƏFƏRLİ
ADMİU-nin «Rəsm və rəngkarlıq» fakultəsi

AZƏRBAYCAN MİNİATÜR SƏNƏTİNDƏ NİZAMİ ƏNƏNƏLƏRİ

Açar sözlər: Xəmsə, miniatürlər, NəzrətiNizami, Eşq anlayışı ,
Ключевые слова: Хамсе., этико-эстетической, красаты и любви.
Key words: Xamse, miniatörı, Khamsa miniatures, Excelency Nizami, conception of love.

Miniatür – təsviri sənətin xüsusi bir qolu olan kitab illüstrasiyası olub, klassik Şərq poeziyasının təsiri altında inkişaf etmişdir. Azərbaycan miniatür sənəti XVI əsrin ortalarında öz zirvəsinə çatana qədər-miniatür sənətinin hələlik məlum olan ən qədim nümunələrini – Vərqa və Gülşa" (XIII əsrin əvvəli), "Mənafi - əl – heyvan" (1298), "Cami əl – təvarix" (1308, 1314) sübut edir ki, uzun və mürəkkəb inkişaf yolu keçmişdir.

Qədim və zəngin ənənələrə malik rəngkarlıq sənətimizin də kökləri Azərbaycan xalqının mifik təfəkkürü, əski inanclarımızla bağlıdır. Azərbaycan rəssamlığının tarixini və inkişaf mərhələlərini, çağdaş rəssamlığımızın bədii – estetik uğurlarını müştərək türk mifindən, islam təfəkküründən ayrı təhlil etmək, dəyərləndirmək olmaz».(1.,170)

İnsan yaranmışların ən qüdrətlisi, ən şərəflisi və ən mükəmməlidir. İnsanın yaranmışlardan yeganə və ən başlıca fərqi onun ruhu, aglı və dərrakəsidir. Yalnız ağılın qüdrəti ilə insan nadanlığa pisliyə, şərə qalib gələ bilər. Azərbaycan xalqının böyük şairi Nizami Gəncəvinin yaradıcılıq irsində Şərq poeziyasının ən nümunəvi əsərləri yaranmışdır. Bu insanda əməksevərlik, ədalətli olmaq və ədalət uğrunda mübarizə aparmaq kimi bəşəri hisslər yaradırdı. «Azərbaycanda ictimai fikrin müəyyən İntibah dövrü başlanır ki, bir əsir sonra Avropada böyük bir qüvvətlə canlanmış bu fikri cərəyan özünə məxsus yeni xüsusiyyətləri olan humanizm cərəyanı adını alır». (2,95). Nizami Gəncəvinin «Xəmsə»-sindəki poemalar özündə zəngin şifahi xalq ədəbiyyatının ənənələrini cəmləşdirərək, insan qəlbinin ən yüksək duygularını, qəlbin ən incə və nəcib hisslərini canlandırır. Nizamiyə görə sənət insan fəaliyyətinin məhsuludur, və onun başlıca məqsədi həyata yeni nəfəs vermək, onu canlandırmaqdır. «Sirlər Xəzinəsi» poeması təxminən 1173 cü ildə Ərzincan hakimi Davud oğlu Məlik Fəxrəddin Bəhram şaha ithaf etmişdi. Poema iyirmi məqalədən ibarət maraqlı, ibrətamiz hekayətlərdən ibarətdir. Bu hekayələrin bir çoxuna maraqlı miniatürlər çəkilmişdir. «Nuşirəvan və bayquşların söhbəti», «Zalım padşahla Zahidin dastanı», «Sultansəncər və qarı» nın hekayəsi «Sirlər xəzinəsi»nin məşhur hekayətlərindəndir. 1545 ci ildə Mahmud Müzəhhib və Təbriz rəssamı Sultan Məhəmməd tərəfindən «Sultansəncər və qarı» hekayəsinin əlyazmasına çəkilmiş miniatür dünyanın hər tərəfində maraqla qarşılanmışdır. «Xəmsə»dəki poemaların demək olar ki, hamısına illüstrasiya çəkilmişdir. Lakin ən az illüstrasiya çəkilmiş məhz «Sirlər Xəzinəsi»dir. Buna səbəb poemanın vahid sujet xəttinə malik olmamasıdır. Nizami «Sirlər xəzinəsi»ndə janrın tələbinə müvafiq olaraq bədii surətin fəaliyyətinin bir hissəsini təsvir etmişdir. Kərpickəsənin oğlanla söh-

bətinin əsas yerini, Zahidin əynində kəfən Xəlifənin sarayına girdiyi vaxtı, Qarının Sultan Səncərin atının cilovunu tutub onu məzəmmət etdiyi anı. (3.,79)

Miniatürlər, çəkilmiş «Sultansəncər və qarı» hekayətindən bir parçaya diqqət yetirək:

Zülm edib bir qarıya çox uddurmuşdular qan,
O da Sultan Səncərin tutaraq yaxasından

Dedi ki: «Səndə insaf az görmüşəm, qulaq as!»
Səndən gördüyüm zülüm əsla hesaba sığmaz.

Bir kefli darğa gəlib mənimevimdə söydü,
Salıb təpik altına doyunca məni əzdi, döydü.

Mən günahsız qadını saçlarına atdı əl,
Üz üstə sürüdü, evdən çölə əlbəəl.
Camaa arasında söyüb məni, qudurdu,
Evimin qapısına zülmün möhürün vurdu.

Ə.Heydər demişdir: «Azərbaycanın rəngkarlıq, təsviri sənət məktəbi dünyada layiqli yer tutmuşdur. Biz bununla fəxr edirik. Biz fəxr edirik ki, tarixən qısa bir vaxtda Azərbaycanda gözəl, güclü təsviri sənət məktəbi, rəngkarlıq məktəbi təşəkkül taparaq yaranmışdır. Azərbaycan qədim mədəniyyət ölkəsidir. Azərbaycan xalqı dünya sivilizasiyasına bir çox olduqca qiymətli mədəniyyət əsərləri, memarlıq, sənət abidələri, olduqca dəyərli təsviri sənət əsərləri bəxş etmişdir. Lakin keçmişdə, uzaq keçmişdə Azərbaycan təsviri sənəti öz ifadəsini Milli sənətdə, miniatür sənətində tapmışdır. Buna görə də fəxr edirik ki, Azərbaycan xalqı təsviri sənətdə öz yolunda, öz dəsti xəttinə malikdir… lakin bununla bərabər, biz şadıq ki, Azərbaycan rəssamları Avropa rəngkarlıq məktəbinə də yaxınlaşmışlar». (4., 461).

Zəngin illüstrasiya çəkilmiş «Xosrov və Şirin» əsəri hünəri, zəhməti və məhəbbəti tərənnüm edən əsər kimi dünya ədəbiyyatında özünəməxsus yer tutmuşdu. Ən geniş yayılmış miniatürlərdən olan «Şirinin süd arxına, Fərhadın yanına gəlməsi», «Fərhadın Şirini xilas etməsi», «Fərhad bisitun dağında», «Xosrovun çimən Şirini görməsi» səhnələri «Xəmsə»nin əlyazmalarına çəkilmiş ilk illustrasiyalardır.

Şirinə dedilər «Fərhad bir aya
Tapşırdığın arxı çəkdi saraya.
İndii otlaqlardan hər axşam-səhər
Süd axır hovuza-təmiz, tazə –tər»
Durub çölə çıxdı

Təbriz miniatür məktəbinin üslub xüsusiyyətlərinin formalaşmasında, bu məktəbin yüksək inkişafnda və onun təsir dairəsinin genişlənməsində mühüm rol oynayan rəssamlar hərtərəfli inkişaf etmiş görkəmli sənətkarlar idi. Onların çoxlu şair-rəssam, rəsam-xəttat, xəttat-memar-rəssam olub, bədii yaradıcılığın müxtəlif sahələrində görkəmli nailiyyətlər əldə etmişlər.

Miniatür sənətində kompozisiya quruluşunda həndəsi qanunauyğunluqlara xüsusi diqqət yetirən sənətşynaslıq üzrə fəlsəfə doktoru İmaş Hacıyev yazır: «İntibah dövrü Avropa rəssamlarının əsərlərində mövcud olan perspektiv qanunlar miniatür sənətində tətbiq edilməmişdir. Məsələ burasındadır ki, bu sənətdə məkan-fəza dərinliyinə deyil, görüntüyə üstünlük verilmişdir. Belə bir quruluş rəsmlərdə formatın yuxarı və aşağısında əlavə kiçik çərçivələrdə olan yazımətn hissələri ilə kompozisiyanın ümumi müstəvidə uyarlığını təmin edir. Digər cəhət onunla izah edilə bilər ki, belə kiçik formatda çoxsaylı fiqurların perspektiv qanunda verilməsi əlbəttə ki, mümkünsüz olardı. Yəni perspektiv düşən arxa plandan fiqurlar kiçiltmə miqyasına görə sezilmədi. Və ümumiyyətlə, şərq təsviri sənətində, dekorotiv tətbiqi-sənət nümunələrində, xüsusilə memarlıqla dekorasiya üçün istənilən kompozisiyalar təbiət səhnələrini əks etdirən real təsvirlərlə yanaşı, ornament incəsənətinə, semantik işaralərə, zoomorf və mifik obrazlardan ibarət olan fərti təsvirlərə və s. elementlərə daha çox əsaslanır ki, bunların da əksəriyyəti daha çox müstəvi quruluşunda olur (əlbəttə bəzi istisnalar da vardır. Məsələn XVI yüzilliyə olan Bakı Şirvanşahlar sarayı ansamblında Divanxanə və turbə üzərindəki düzgün altıbucaqlı fiqurun içərisində dan yazı nümunəsində hərflər elə tərzdə yerləşdirilmişdir ki, yaranan şriiftli kompazisiya vizual olaraq həcmli formada ifadə olunur. Həmin kompozisiyada müxtəlif dinamik vəziyyətində altıədəd kub təsviri görmək olar (əlbəttə ki, üzərində yazı nümunəsi olan). Miniatür təsvirli həmçinin müxtəlif materiallardan daş, ağac, üzərində də tapıb rast gəlinmişdir. «Hindistana gətirilmiş hədiyyələrin Xosrova təqdim edilməsi», «Xosrov Barbüdün musiqisini dinlərkən», Mirseyid Əli, Nizami, «Xəmsə», Təbriz, 1539-1543 cü illər London, Britaniya muzeyi. «İskəndər və məsləhətçisi», Əhvədi, «İskəndərnamə», 1523-cü il, Sankt-Peterburq, Dövlət Kütləvi Kitabxanası,Miniatür-adi «Zalım şahla düz danışan qocanın hekayəti», «Dəlləyin hekayəti», «Xosrovun atasından üzr istəməsi», «Xosrovun çimən Şirini görməsi», «Şirin çimərkən», «Xosrova Şirinin ov vaxtı görməsi», «Sevgililərin birinci görüşü», «Xosrovla Şirin çovqan oyunu zamanı»,«Xosrovun taxta çıxması», «Fərhadın huşunu itirməsi» «Şirinin Fərhadın çəkdiyi süd arxına gəlməsi», çəkilmiş miniatürlərə paytaxtımızın «Nizami» adlanan «Metro stansiyasına rast gələ bilərik . Burada maraqlı Şərq abu-havası vardı. Bu miniatürlər tələsən insanda bir anlıq lirik-romantik illüstrasiyalara qərq edir.

Nizami poemalarının müxtəlif süjet və obrazları miniatür rəssamlıqda geniş yayılmışdı. Bu ənənə «Kitabi-Dədə Qorqud» dastanında Dirsə xanın oğlu Buğacın boyundakı rənglərə verilən xüsusi əhəmiyyətdən başlanır bəlkə də. Bir yerdə ağ, bir yerdə qızılı, digər yerdə isə qara çadır qurulur. Oğlu olanları ağ çadıra, qızı olana qızılı, oğlu,qızı olmayanları isə qara çadıra dəvət edirlər. Oğlu olanların çadırına ağ döşəklər sərilir, ağ qoyunlar kəsilir, qızı olanların çadırına qızılı döşəkçələr və qızılı sarı qoyunlar kəsilir, oğlu-qızı olmayanlara isə hər tərəfi qaraya bürünmüş qara çadırlarda qonaq edərlərmiş. Lakin böyük şair əsərlərində qara rəngi heç də bədbin hisslərə aid etmir;

Zülmət gecə ayı çıraqban eylər
Soltanlar çətrini qaradan eylər.

Rənglərin yaxşısı qaradır-qara.
Balıq başı hara, sümüyü hara?

Qara tükdür verən gənclikdən nişan.
Qaralıq göstərir ağ üzü cavan

Kim görmüş ləkələr örtsün qaranı,
Göz qarası ilə örtər cahanı. (6., 44)

Yeri gəlmişkən onu da qeyd edək ki, Nizami Gəncəvinin «Yeddi gözəl» əsərinin qəhrəmanı Bəhram rəngli saraylar, rəngli otaqlar tikdirir və hər gününü bir sarayda keçirir. «Yeddi Gözəl» poemasında «Xeyir və Şər » hekayəsini danışan Çin şahzadəsinin əbasının rəngi də xüsusi qeyd edilmişdi. Belə ki, onun əynində Nizaminin dili ilə desək səndəl rəngdə paltar var idi. Bu isə hardasa qəhvəyi rəngə yaxındır.

Digər hekayəni isə ağ rəngli sarayda Bəhramla Keykavus nəslindən olan Kəsranın qızı danışır. «Dühənbə günü yaşıl günbənd» hekayəsinin sonunu isə şair evlənənlərin şərəfinə «şənlik rəmzi olan yaşıl rəng haqqında nəğmə» ilə bitirir:

Yaşıllıq hər şeyin təravətidir
Yaşıl rəng gözləri işıqlı edir.

Günlərdən çərşənbə günü yaxşıdır,
Həftənin ortası həftə naxışdır.(7., 171-172)

Bu əsərlər rəssamlıq məktəbinin inkişafına böyük təsir göstərmişdi.

Ədəbiyyat

1. Timurçin Əfəndiyev «Heydər Əliyev və Milli – mənəvi dəyərlərimiz» Bakı-2011, səh. 170.
2. M.C.Cəfərov «Ədəbi düşüncələr», Bakı, 1958, səh.95.
3. Qasım Cahani «Azərbaycan ədəbiyyatında Nizami ənənələri», «Elm» nəşriyyatı, Bakı – 1979, səh 79.
4. Heydər Əliyev «Mədəni irsin keşiyində»II kitab. Bakı, 2001. səh 261.
5. Əfəndi R. «Azərbaycan İncəsənəti» Bakı: Çaşıoğlu, 2001il : 312.
6. Nizami Gəncəvi «Yeddi gözəl», Bakı 1941, səh.44
7. Nizami Gəncəvi «Yeddi gözəl», Bakı 1941, səh.171-172.

Анар Сафарли

Резюме

В заключение следует отметить, чтос воспроизведенные образцы позволяют вцелом правильно определитьиуяснить место и значение в развитии восточной живописи. С этой точки зрения уделение особого внимания этико-эстетической и литературно художественной значимости возвышенных и мудрых коранических повествований обусловлена особенностями одного из важных источников «Хамсе».

Anar Safarli

Summary

Suming up, it should be noted that the specimens given to determine and estimate the place and significance of "Khamsa" by Nizami in the development of oriental painting. From this point of view, paying particular attention to the ethical, aesthetical and literary significance of the high, wise quranic narratives is stipulated by the peculiarities of one of the grave sources of "Khamsa"

Rəyçi: Nizaməddin Şəmsizadə
filologiya elmləri doktoru, professor

БУРОБИЯ РАЖАБОВА
ЎзР ФА Алишер Навоий номидаги Тил ва Адабиёт Институти
катта илмий ходими, филология фанлари номзоди

НАВОИЙ ВА “ЗАНД” КИТОБИ ҲАҚИДА

Açar sözlər: Zərdüşt, din, Zend, yaxşı iş, yaxşı əməl, yaxşı iş.
Keywords: Zend, a historical source, Temurids, art word, ode, poem, enlightenment, justice, humanity word, good deed, good idea.
Ключевые слова: Зенд, исторический источник, темуриды, художественное слово, ода, поэма, просветительство, справедливость, гуманное слово, благое дело, добрая мысль.

“Ота-боболаримизнинг асрлар давомида тўплаган ҳаётий тажрибаси, диний, ахлоқий, илмий, адабий қарашларини ифода этадиган бу каби тарихий ёдгорликлар орасида бундан қарийб уч минг йил муқаддам Хоразм воҳаси ҳудудида яратилган “Авесто” деб аталган бебаҳо маънавий обида алоҳида ўрин тутади” [10, 31-б.]. Бу бебаҳо маънавий обидани Навоийнинг ёдга олиши, айниқса, эътиборлидир.

Алишер Навоий ижодининг маърифий, таълим-тарбиявий аҳамияти шундаки, улуғ ижодкор ўз асарлари матни таркибида маълум бир мақсад, ниятда ва олға сурган фикрларини, ғояларини асослаш, далиллаш, изоҳлашда тарихий, бадиий, сиёсий, диний, дидактик асар номларини келтириб ўтади. Навоийшунос Суйима Ғаниева ғайрат кўрсатиб Навоий ХХ жилдлик Мукаммал асарлар тўплами нашридаги матнлар асосида Навоий ёдга олган 231 та асарни жамлаб, номи ва қисқа изоҳи билан гўзал бир шаклида “Навоий ёдга олган асарлар” рисоласини ёзди [19, 36-б.]. Шоир ижодига, ушбу рисолага асосланиб айта оламизки, Навоий инсоният тарихида яратилган кўплаб китобларни ёдга олишга ҳаракат қилган, демак, Навоий яхши китобхон сифатида ҳам қалам аҳлига устоздир. Лекин С.Ғаниева Навоий ёдга олган бир китоб номини назардан четда қолдирган. Бу тарихий-адабий муштарак ёдгорлик – “Авесто”нинг сосоний ҳукмдорлари томонидан паҳлавий тилида қайта тикланган китоби, тафсири “Занд”дир. “Занд / Зинд/Жанд/Позанд/Пожанд/нинг луғавий маъноси “баён қилиш”, “изоҳлаш” [16, 419-б., 437-б., 74-б.; 12, 243-б.; 15, 10-б.; 20, 16-17-б.; 14, 19-б.] демакдир. Навоий 1488 йилда яратган машҳур тарихий асари “Тарихи мулуки Ажам”нинг “Каёнийлар” номли иккинчи табақасида салтанат қилган тўққиз кишининг бешинчиси сифатида шоҳ Гуштаспга тегишли маълумотлар беради: “Гуштасп Ҳалаб мулкида тахтқа ўлтурди ва Зардушт анинг замонида зуҳур қилди. Ва ул габр динида риёзатлар ва мужоҳадалар тортиб эрди. “Зинд” китобин тасниф қилиб, элни ул динга даъват қилди. Чун ҳаким эрди ва риёзат жиҳатидин элни сайд қилиб эрди, Гуштасбни ҳам фирифта қилди. Гуштасб зардушт динин ихтиёр қилиб, элни ҳам ул миллатқа киюрди ва Румда Қайсарға киши юбориб, ани доғи динга далолат қилди. Қайсар Фаридун аҳдномасин кўргуздиким, Рум қайсарлари бир динда бўлсалар, киши тағйир бермасун. Ул жадди фармонин инқиёд

қилиб, ул таклифдин кечти ва ўзи Истахр тахтида “Зинд” китобин ўқурға машғул бўлди” [8, 210-б.].

Навоий ушбу маълумотида шоҳ Гуштасп Ҳалаб мулкида ҳукмронлик қилган даврида Зардуштнинг пайдо бўлиши, оташпарастлик дини йўлида заҳматлар, саъй-ҳаракатлар кўрсатиши, “Зинд” китобини тасниф қилиши ва ҳаким эканлиги, шу сабабли ҳукмдор ва халқ эътиборини ўз динига қарата олганлигини кўрсатиб ўтади. Бу шоҳ Гуштасп ички сиёсатида Зардушт динини расман қабул қилиб, давлат дини мақомида фуқаролари билан биргаликда янги дин қоидаларини ўргана бошлаши, ҳатто, ташқи сиёсатида ҳам Зардушт дини тарғиботи билан шуғулланиши баён қилинади. Рум қайсарига ишончли вакил юбориб, уларни ҳам бу янги динга даъват қилади. Аммо қайсар Фаридун шоҳ аҳдномасини эслатиб, Рум қайсарлари бир динда бўлишини, диний ўзгариш қилмаслигини айтиб, рад қилади. Гуштасп Фаридун шоҳ аҳдномасини эътироф этиб, “Зинд” китобини ўқиш, ўрганиш билан машғул бўлади. 120 йил салтанатни бошқаради. Фирдавсий “Шоҳнома” асарининг “Ўн икки жанг” достонида ҳам шундай фикрларни айтиб ўтган: *“Эронда Гуштасп ҳукмронлик қилган даврда Зардушт исмли пайғамбар пайдо бўлади. Гуштасп ўз фуқаролари билан биргаликда Зардуштнинг янги динини қабул қилади”* [18, 279-б.]. Демак, Навоий Зардуштни ҳаким деб таништирса, Фирдавсий эса пайғамбар деб кўрсатади, бошқа қатор манбаларда эса унинг мутафаккирлиги айтилади.

Низомий ҳам “Иқболнома” достонининг “Дўстларни ёдламоқ” ва “Достонни янгиламоқ баёни” бобида Искандарнинг зардуштийлик динига ва “Занд” китобига берган талафотларини назарда тутиб, “Занд” китобини ёдга олади:

Сеҳрдан у оби Зардуштни ютди,
“Занд”ла тирик олов оламдан ўтди [13, 21-б.].

Байтда шоир маҳорат билан яширин талмеҳ санъати воситасида ҳукмдорнинг Истахр шаҳрини босиб олиб, ўз олимларига “Авесто”даги тиббиёт, фалсафа ва илми нужумга оид ўринларини таржима қилиб, қолган қисмини ёқиб юбориш билан боғлиқ воқеаларга ишора қилган. Китобнинг мавзу-мундарижасидан келиб чиқиб, Алишер Навоийнинг асосий мақсади, аслида, Ажам шоҳлари қатори Гуштасп ҳақидаги маълумотларни баён қилиш бўлган. Аммо муаррих Навоий инсоният тарихида, хусусан, Гуштасп салтанати бошқарувида маданий-маърифий ҳодиса ҳисобланган “Занд” китоби, ҳаким Зардушт ва оташпарастлик дини тўғрисида ҳам қимматли маълумотлар беради. “Тасвирда Навоийнинг “тариххонлик” билан бирга конкрет мақсад-муддаони кўзда тутгани равшан бўлади” [11, 133-б.]. Бу нималарда намоён бўлади? Биринчидан, Навоийнинг “Занд” китобини ёдга олишини жуда муҳим ва қимматли факт деб баҳолаш мумкин. Иккинчидан, Дақиқий, Фирдавсий, Масъудий, Балхий, Берунийларнинг “Авесто” китоби ҳақидаги маълумотлари мажмуасига Навоий маълумотини ҳам қўшиш ўринли бўлади. Учинчидан эса, Гуштаспнинг Истахир тахтида ўтириб, давлатни бошқаришидан ташқари, “Занд” китобини “ўқурға машғул бўлиши”, бизнингча, Навоийдек буюк тафаккур соҳибига жуда маъқул бўлган машғулот – жараёндир. Бу машғулот орқали шоирнинг шоҳларга ақл ва адолат билан тахтни бошқаришини эсла-

тиш, ўгит бериш, маърифатга йўллаш мақсадини ҳам кузатамиз. Бу маъқул машғулот билан боғлиқ тарихий, бадиий лавҳа, тасвирлар ва ёдномалар, ўринли истак ва даъватлар Навоий ижодида ўзининг гўзал ифодасини топган. Фикримиз исботи учун баъзи бир мисолларни келтиришга ҳаракат қиламиз. Маълумки, Навоий "Мажолис ун-нафоис"нинг еттинчи мажлисни Темур Кўрагон ва йигирма бир нафар темурийзодаларга бағишланган. Еттинчи мажлис Соҳибқирон ёди билан бошланади. Ироқда воқеа бўлган, яъни Мироншоҳ мирзо сабаб Темур ҳукми билан қидирувда юрган Хожа Абдулқодирнинг Қуръон қироати билан боғлиқ ибратли ҳикоят тасвирланади. Аслида, тасвир Темур Кўрагон сиймосига қаратилган: "...Хожа Абдулқодир қочиб, қаландар бўлиб, ўзин девоналиққа солиб, мулкдин мулкка мутавори юрур эрди, то улким, ул Ҳазрат яна Ироқ юриши қилди. Ул мамоликда Хожанинг ул ҳоли баъзиға маълум бўлуб, юқори арз қилдилар. Ҳукм бўлдиким, тутуб келтурсунлар. Ул Ҳазрат тахтда эрдиларким, Хожаи фақирни девоналуққа қўймай, судраб тахт илайига келтурдилар. Андин бурункким, сиёсат ҳукм бўлғай, чун Хожанинг камолотидин бири Қуръон хифзи ва қироат иши эрди, филҳол бийик ун била Қуръон ўқимоқ бунёд қилдиким, ул Ҳазратнинг ғазаби лутфқа мубаддал бўлуб, фазл ва камол аҳли сори боқиб, бу мисрани ба вақт ўқидиким: "Абдол зи бийм чанг бар мусҳаф зад". Таржимаси: "Қаландар қўрққанидан Қуръонга чанг солди". Андин сўнгра Хожаға илтифот ва тарбиятлар қилиб, ўз олий мажлисида надим ва мулозим қилди" [3, 163-164-б.]. Хожа Абдулқодирнинг ҳушёрлиги, закийлиги ва Қуръон қироати сабаб бўлиб, Темур Кўрагоннинг Шайх Абусаид Абулхайрнинг машҳур рубоийсидаги ушбу мисрани яхши ниятда эслаши, шариатдаги жиноят ва жазо ўрнига афв усулини қўллаши, жон бобидаги бағрикенглиги, нафақат, Соҳибқирон шахсига хос, балки дунё шоҳларига ибрат, намуна мақомида Навоий китобида, тарих кўзгусида яна бир бор муҳрланди.

Қиёматга дегунча аҳли айём,
Ёзарлар онинг аҳкомидин аҳком [7, 464-б.], –

каби ўз эҳтиромларини Навоий "Мажолис ун-нафоис"нинг еттинчи мажлисида Улуғбек Мирзонинг етти қироат билан Қуръони мажидни ёд олганлиги ва у тузган "Зиж" китоби ҳақида қуйидагиларни ёзган: *"Улуғбек Мирзо — донишманд подшоҳ эрди. Камолати бағоят кўп эрди. Етти қироат била Қуръони мажид ёдида эрди. Ҳайъат ва риёзийни хўб билур эрди. Андоқким, "Зиж" битиди ва расад боғлади ва ҳоло анинг "Зиж"и орода шоеъдур*" [3, 166-б.]. Мазкур мажлисда темурий ҳукмдорлардан Абулқосим Бобурнинг Фахриддин Ироқийнинг "Ламаъот" ва Маҳмуд Шабустарийнинг "Гулшани роз" асарларини ихлос билан мутолаа қилиб туриши ҳақида Навоий тўлқинланиб шундай ёзади: *"Бобур Мирзо – дарвешваш ва фоний сифат ва карим ул-ахлоқ киши эрди. Ҳиммати олида олтуннинг даги кумушнинг тош ва туфроғча ҳисоби йўқ эрди. Тасаввуф рисолаларидин «Ламаъот» била «Гулшани роз»ға кўп машъуф эрди. Табъи даги назмға мулойим эрди*" [3, 166-б.]. Кузатишларимиз асосида улуғ шоир бир жиҳати билан бизни ҳайратга солади. "Тўққиз галгача айтишга ҳақлилик" ҳуқуқи Навоийга шахзода

Бадиуззамонга маънавий жасорат билан оғзаки ёки ёзма равишда маърифатга чорловчи “Кутубхонага кирилса”, “Китоб ўқилса” каби маслаҳату даъватлар қилиш имконини англаймиз. Шундай ўринли маслаҳату даъватнинг ёзма намунасини Навоийнинг “Муншаот” асаридан ўқиймиз: “Яна улким, мулк ва мол ишидин, бас, додхоҳ ишидин фароғат ҳосил бўлса, малолат дафъи учун кутубхонага кирилса, кутубхона аҳли била машғуллуқ қилинса. Наввобдин ҳар қайси муносиб кўрунса таворих ўқимоқ буйрулса, батахсис “Зафарнома”, агар машойих сўзи ё баъзи даввовин дағи гуфту-шунуфт бўлса номуносиб эрмас” [4, 187-б.]. Навоийона талабнинг бундай беназир анъаналарини Бобурнинг “Бобурнома”сида ҳам учратишимиз мумкин. Бобур асарида отаси Умаршайх Мирзо ҳақидаги “Ахлоқ ва атвори” фаслида айнан биз излаган тасвир берилган: “*Равон саводи бор эрди. “Хамсатайн” ва маснавий китобларини ва тарихларни ўқуб эрди. Аксар “Шоҳнома” ўқур эрди. Табъи назми бор эрди, вале шеърга парво қилмас эрди*” [9, 37-б.]. “Бобурнома” маълумотлари шуни кўрсатадики, Бобурнинг ўзи ҳам шоҳ ва шоир сифатида китоб мутолаасида, китоб тарғиботида, китоблар тасниф қилишда, китобларни ёдга олишда Навоийга издош, ҳамфикр сиймодир. Ҳукмдорларнинг китобга муносабати борасидаги фикрларимизни Навоийнинг Шоҳғариб Мирзо тимсолида Ҳусайн Бойқаронинг бошқа ўғилларига ва камоллик истаганларга ҳам қарата ёзган насиҳатомуз байти билан хулосаласак:

Равон тарих сори рағбат айла,
Салотин бирла азми суҳбат айла [7, 464-б.].

Алишер Навоий “Тарихи мулуки Ажам” асаридан аввал ёзган “Садди Искандарий” достонининг “Иккинчи табақаким Каёнийлардурур, аларнинг олий тахтлари ва каёний тожлари бошдан-оёққача демак” номли XII бобида ҳам Гершасп ва у ҳимоя қилган ҳаким Зардушт, зардуштийлик дини ҳақида (Достонда “Занд” китоби ёдга олинмайди. –Б.Р.) шеърий – иккилик шаклида “Бу шоҳларки, назм ичра қилдим савод”, дея мамнунлик билан ёзади:

Бировким, бу сўз айлади ибтидо,
Қилур Форс тарих бу навъ адо.
Ким, эрди Каёний иккинчи гуруҳ,
Ки, оламда эрди алардин шукуҳ.
Яна мулк уза қилди Гершасп ҳукм,
Нечукким, қилиб эрди Куҳросб ҳукм.
Вале тутти Зардушт ойин ул,
Мажус ўлди истаб, алар дини ул.
Яна мулк уза тутти Баҳман қарор,
Ўчурди залолат ўтидин шарор [2, 78-79-б.].

Баҳман шоҳ ҳақидаги сўнгги байтни шарҳласак. Шоҳ Гершаспдан кейин мамлакатда Баҳман ҳукмронлиги қарор топди. У зардуштийлик алангасини ўчирди. Навоий ёзиб қолдирган Гуштасп ҳақидаги маълумотларга таяниб, “Авесто” китобига мурожаат қиламиз. Бугунги мавжуд “Авесто”да ҳам Гуш-

тасп ҳақида айтилган хабарларни учратишимиз мумкин. Гуштасп ҳузурида паноҳ топган Зардушт Гоҳларнинг 1-, 4-, 5-қўшиқларида бу ҳукмдор номини "Кай Гуштасп" тарзида тилга олади. "Кай" форсча сўз бўлиб, "улуғ подшоҳ", "улуғ мартаба" деган маъноларни англатиб [11, 300-б.], ҳукмдорлик унвони ҳам ҳисобланиб, каёний подшоҳларнинг номига қўшиб айтилган. Чунончи, каёний шоҳларнинг бешинчиси бўлган Гуштасп ҳам "Кай" унвони соҳиби эди.

Эй, Ашаҳ! Эй, Ҳақиқат!
Эзгу ният учун тортиқ қилинажак ажр-мукофотларни бер!
Эй, Ормаитай! Эй Комил Ақл!
Гуштасп ва менинг издошларим орзу-ю аъмолларини рўёбга чиқар!
Эй Мазда!
Сени васф айлагувчиларга куч-қудрат бахш айла, токи улар илоҳий каломингни инсониятга етказсинлар! [1, 8-б.]

Ушбу "Биринчи қўшиқда учта мурожаат бўлиб", биринчи мурожаат зардушт динидаги барча тўғри йўллар, Ҳақ йўллар бориб қўшилган Ашаҳга, иккинчи мурожаат Ахура Мазданинг дўстларидан бири, илоҳий ва дунёвий юмушларни адо этувчи Ормаитайга, яъни Комил Ақлга, мазкур мурожаатда Гуштасп алоҳида тилга олинади, учинчи мурожаат Маздага қаратилган. Бу қўшиқнинг мазмунидан "Авесто"нинг ҳаёт учун йўриқнома эканлиги англашилади. *"Кай Гуштасп муғлар қудрати, эзгу ният қўшиқлари билан шундай билим соҳиби бўлди. Покиза Мазда, Ашаҳ – Ҳақиқат нурлари билан бу билимни яратди ва у билан бизларни яхшиликлар сари етаклайди, ҳидоят қилади"* [1, 30-б.]. "Тўртинчи қўшиқ"да Гуштасп Кай унвони билан берилиб, Мазда, Ашаҳ каромати билан унинг юксак билим, ақл соҳибига айланиши, ақлли шоҳ, обид тимсолида шарафланади ва "Авесто" "билимлар мажмуаси" сифатида талқин этилади. Мазкур қўшиқ Фирдавсий "Шоҳнома"сидаги "Ақл васфи" номли фаслдаги қуйидаги мисралар билан ҳамоҳанг:

Худо берганларин ақл султони,
Ақл-ку аслида юрак посбони [17, 35-37-б.].

"Улар ҳақиқатда, андиша, сўз ва амалда Мазданинг хушнудлигига интилмоқлари керак. Уни – Ахурани олқишласинлар, шарафласинлар. Кай Гуштасп – Сипийтмен Зардуштнинг ёронларидан бири ва Фарашвиштари тўғри йўл динни танладилар. Уларни Мазда Ахура Зардуштга нозил айлади" [1, 31-б]. "Бешинчи қўшиқ"да эса баъзи ахлоқий меъёрлар ифодаланади ва Зардуштнинг издошларидан бири Гуштаспнинг шу динни қабул қилиши алоҳида таъкидаланади. "Авесто"нинг "Дравоспа" қасидасининг 7-бўлимида Кай Гуштаспнинг қилган хайру эҳсони ҳисоби билан ва қабули борасида маълумот берилади. "...Қудратли Кай Гуштасп Доитё дарёси соҳилида юзта от, мингта сигир, ўн мингта қўй ва завр ниёз келтириб, ўтинди. У қудратли Кай Гуштаспнинг Доитё дарёси соҳилидаги ўтинчини қабул қилди" [1, 244]. Яъни Дравоспа завр ва қурбонлик қилувчилар хоҳишини адо айлади. "Авесто"нинг Митра қасидасининг 29-бўлимида инсонлар ўртасидаги муносабат-

ларни тартибга солувчи иймон, инсоф, аҳд каби фазилатларнинг ҳаққи-ҳурмати ва бир кунда ўқишнинг адади ҳисоби ҳамда Маздага иймон келтириш қуйидагича ифодаланади:

Биз Митрани эъзозлаймиз,
О, Митра, сен хонадонларнинг,
Наслларнинг, эл-улусларнинг,
Мамлакатлар, жамоаларнинг
Соҳибисан.[1, 196-197].

“Авесто”да одамларни иймонли, эътиқодли, инсофли, оқибатли ва аҳдли бўлишга, ёмон, ният, ёмон сўз, ёмон амаллардан, ёмон муносабатлардан тийилишга даъват этадиган бундай қасидалар талайгина. Бу шарҳлар Навоийнинг “Ҳайрат ул-аброр” достонидаги “Аввалғи мақолот. Иймон шарҳида” бобидаги фикр-мулоҳазалар билан уйғун бўлиб, қуйидаги байтларни ёдга солади:

Кимки жаҳон аҳлида инсон эрур,
Билки нишони анга иймон эрур... [6, 101-б.].

Навоийнинг “Тарихи мулуки Ажам” китоби орқали ҳукмдор Гуштаспнинг зардуштийлик динининг халқ ўртасида ёйилиши учун қилган хизматларидан хабардор бўламиз. Бажарган хизматлари эвазига шоҳ Гуштасп номи ва Зардуштнинг шоҳ Гуштасп шарафи, ҳурматига айтган олқишлари, дуолари “Занд” – “Авесто”да ўз қадр-қимматини топганлигини кўрамиз. Навоий яна “Тарихи мулуки Ажам”да зикр қилган “Занд” китоби изоҳи билан чекланиб қолмади. Балки ўз даври тафаккури даражасидан туриб, “Занд”да олға сурилган энг қимматли билимлар, фикрлар, ғоялар, тажрибаларни ижодида маҳорат билан тараннум қилди. Асосийси, мутафаккир шоир “Занд” китобига – Турон, Хуросон, Ироқ, Эрон, Озарбайжон, Кичик Осиё халқларининг қадимги даврдаги иқтисодий, сиёсий турмуш тарзи, диний, ҳуқуқий, ахлоқий қарашлари, урф-одат, одам, олам борлиқ ҳақида маълумот берувчи асосий тарихий манба, кўпчиликнинг тажрибаси, ҳар қандай синовларга бардош бера олган китоб, деб қараган. Ҳатто Навоий баъзи ғазаллари матни таркибида ҳам авесто-шуносликка оид “Пожанд”, Зардушт, зардуштийлик, оташкада, мажусийлик, фаришта Суриш, ёвуз руҳ Аҳраман дев каби тушунча, истилоҳларни ёдга олиб, авалло, шоир уларни ижтимоий фикрларига тамсил қилса, иккинчидан эса “Пожанд” – хованд, хамуш – Суриш шаклида навоийона услубга хос бетакрор қофиялар яратган. Демак, Навоий ижод фондидаги бу каби ҳар бир сўз, ибора, хабар, маълумот, ёднома аслида маданий-маънавий меросгина эмас, балки Навоийнинг тадқиқоти, таҳлили ҳам.

Олам аҳли билингизким, иш эмас душманлиғ,
Ёр ўлинг, бир-бирингизғаки, эрур ёрлиғ иш [5, 216-б.].

Шоир томонидан айтилган бундай шоҳбайтлар “Авесто”даги қуйидаги бадиий лавҳаларга монандлиги билан эътиборлидир:

Оламга қудрат бахшида бўлсин!
Оламга олқишлар бўлсин!

Самимий сўзлар оламга бўлсин!
Бахт-саодат оламга бўлсин!
Фаровонлик бўлсин оламга!
Олам обод бўлсин!

Олам ободлиги учун ғайрат кўрсатмоқ лозим, уни яхшилик билан асрамоқ ва ёруғлиқ сари элтмоқ керак" [1, 55-б.].

Умуминсоний қадриятлар мужассам этган бундай мисралар, чорловлар турли тарихий даврларда жаҳон халқларининг эътирофини қозонган, дея оламиз. Чунки эзгу ният, эзгу сўз, эзгу амал ҳақидаги сўзларни, олқишларни бугун ҳам Олам ва Олам аҳли истайди.

Адабиётлар рўйхати

1. Авесто. Тарихий-адабий ёдгорлик. Форс тилидан Асқар Маҳкам таржимаси. – Тошкент: Шарқ, 2001. – 8-бет.
2. Алишер Навоий. Мукаммал асарлар тўплами. 11-жилд (Садди Искандарий) Тошкент: Фан, 1993.
3. Алишер Навоий. Мукаммал асарлар тўплами. 13-жилд. Мажлоис ун-нафоис. – Тошкент: Фан, 1997.
4. Алишер Навоий. Мукаммал асарлар тўплами. 14-жилд. Муншаот. – Тошкент: Фан, 1998.
5. Алишер Навоий. Мукаммал асарлар тўплами. 3-жилд. Ғаройиб ус-сиғар. – Тошкент: Фан, 1988.
6. Алишер Навоий. Мукаммал асарлар тўплами. 7-жилд (Ҳайрат ул-аброр). – Тошкент: Фан, 1991.
7. Алишер Навоий. Мукаммал асарлар тўплами. 8-жилд (Фарҳод ва Ширин) Тошкент: Фан, 1991.
8. Алишер Навоий. Мукаммал асарлар тўплами. Йигирма жилдлик. 16-жилд. Тарихи мулуки Ажам. - Тошкент: Фан, 2000.
9. Заҳириддин Муҳаммад Бобур. Бобурнома". - Тошкент: Шарқ, 2002.
10. Ислом Каримов. Юксак маънавият – енгилмас куч. – Тошкент: "Маънавият", 2008.
11. Маллаев Н. Алишер Навоий ва халқ ижодиёти. - Тошкент: Ғ.Ғулом номидаги Адабиёт ва санъат, 1974.
12. Навоий асарлари луғати. (Тузувчи П.Шамсиев, С.Иброҳимова). - Тошкент: Ғ.Ғулом номидаги адабиёт ва санъат, 1972.
13. Низомий. Иқболнома. Форс тилидан Ж.Субҳон таржимаси. - Тошкент: ART FLEX, 2009.
14. Очилов Э. Бир ҳовуч дур / Навоий ғазаллари ва байтлари шарҳи. – Тошкент: Ўзбекистон, 2011.

15. Фалсафий-қомусий луғат. Тузувчи ва масъул муҳаррир Қ.Назаров. – Тошкент: Шарқ, 2004.
16. Фарҳанги забони тожики. (аз асри X то ибтидои асри XX). Иборат аз ду жилд. I-II жилд. А-О. П-Ж. – Москва: Энциклопедия, 1968.
17. Фирдавсий. "Шоҳнома". 1-жилд. (Форс тилидан Ш.Шомуҳамедов таржимаси). - Тошкент: Ғ.Ғулом номидаги Адабиёт ва санъат, 1975.
18. Фирдавсий. Шоҳнома. 2-жилд. Форс тилидан Ҳ.Ғулом, Ж.Жабборов ва Назармат таржимаси. - Тошкент: Ғ.Ғулом номидаги Адабиёт ва санъат нашриёти, 1976.
19. Ғаниева С. Навоий ёдга олган асарлар. - Тошкент: Тошкент давлат шарқшунослик институти нашриёти, 2004.
20. Ҳомиджон Ҳомидий. Авестодан Шоҳномагача. – Тошкент: Шарқ, 2007.

Burabiye Recebova

Nəvai və Zənd Kitabı

Xülasə

Məqalədə İran və Turan xalqlarının müştərək ədəbi nümunəsi sayılan "Avesta" kitabı haqqında fikirlər irəli sürülür. Xüsusilə, bu ədəbi nümunənin bədii ədəbiyyata, Nəvainin yaradıcılığına təsiri məsələsi öyrənilir. Müəllif bütün qarşılaşdırılmalı-müqayisəli tədqiqatı "Avesta"dan və Nəvai yaradıcılığından nümunələrlə aparır. Məqalədə Ahura Mazda, Əhrimən kimi obrazlara toxunulur, Zərdüştliyin yaxşı iş, yaxşı əməl, yaxşı fikir kimi üç müddəası əsas götürülür.

Burabie Radjapova

Navoi and book of Zend

Summary

The article deals with the problem of the influence of the Zend books on classical Uzbek literature, in particular, on the poem of Navoi. On the example of historical images Gushtasp, Temur Abulkasym Babur, Hussein Baikara, Badiuzzamon, Navoi put forward the idea of enlightenment, didactics, and the problems of humanity. Author partially compares the human qualities that are given in the Avesto, with the poems of Nizami, Firdausi, Navoi and emphasizes the similarities. The researcher certifies that the calls that embody universal values, at different historical times, have been deservedly recognized nations of the world. Currently, motivation in a humane word, good idea, good deeds are relevant to humanity.

Бурабие Реджебова

Неваи и книга Зенд

Резюме

В статье рассматривается проблема влияния книги Зенд на классическую узбекскую литературу, в частности, на творчество Навои. На примере исторических образов Гуштаспа, Темура, Абулкасыма Бабура, Хусейна Байкары, Бадиузамон, Навои выдвигает идеи просветительства, дидактики,

проблемы гуманизма. Автор частично сопоставляет человеческие качества, приведенные в Авесто, с творчеством Низами, Фирдавси, Навои и подчеркивает общие черты. Исследователь утверждает, что призывы, воплощающие в себе общечеловеческие ценности, в различное историческое время, были достойно оценены народами мира. Побуждение к гуманному слову, благим намерениям, благим дела актуальны для человечества и сегодня.

Rəyçi: Şakir Albalıyev
filologiya üzrə fəlsəfə doktoru, dosent

NADİR İSMAYILOV
filologiya üzrə fəlsəfə doktoru
(Naxçıvan Dövlət Universiteti)

MƏMMƏD ARAZ VƏ UŞAQ ƏDƏBİYYATI

Açar sözlər: Azərbaycan ədəbiyyatı, uşaq ədəbiyyatı, Məmməd Araz
Key words: Azerbaijan literature, children's literature, Mammad Araz
Ключевые слова: Азербайджанская литература, детская литература, Мамед Араз.

İyirminci əsr Azərbaycan ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan xalq şairi Məmməd Arazın (1933-2004) yaradıcılığında uşaq ədəbiyyatı nümunələri də müəyyən yer tutur. Doğrudur, M. Araz bu sahədə ardıcıl fəaliyyət göstərməmiş, çoxsaylı əsərlər yazmamışdır. Lakin onun uşaqlar üçün qələmə aldığı azsaylı poetik örnəklər özünün ideya-bədii mükəmməlliyi ilə diqqəti cəlb edir.

Bu baxımdan şairin 1964-cü ildə yazdığı "Qızımın sualları" adlı şeirlər silsiləsi maraq doğurur. Yeri gəlmişkən, xatırladaq ki, professor Qara Namazov "Azərbaycan uşaq ədəbiyyatı" dərsliyində M. Arazın uşaqlar üçün qələmə aldığı əsərləri təhlilə cəlb etməsə də, şairin adını 1960-cı illərdə uşaq poeziyası sahəsində bir sıra dəyərli nümunələr yaradan Əliağa Kürçaylı, Fikrət Sadıq, Xəlil Rza, Tofiq Mütəllibov və başqaları ilə bir sırada çəkmişdir **(bax: 4, s. 329).**

Məmməd Arazın "Qızımın sulları" şeirlər silsiləsi bir neçə cəhətdən əlamətdardır: Əvvəla, onu deyək ki, silsilədəki əksər şeirlərdə avtobioqrafik notlar özünü göstərir. Belə ki, şeirlərdən anlaşıldığı kimi, müəllif onları kiçik yaşlı qızının sualları əsasında qurmuşdur. İkincisi, şeirlərdə mövzu təbiiliyi, ideya əlvanlığı, duyğuların səmimiliyi razılıq oyadır. Nəhayət, şairin seçdiyi axıcı, rəvan heca ölçüləri, işlətdiyi bədii təsvir və ifadə vasitələri də uşaqların yaş və qavrama səviyyəsinə, psixologiyasına çox yaxın olmaqla şeirlərin kiçik yaşlı oxucular tərəfindən asanlıqla əzbərlənməsinə, sevilməsinə şərait yaradır.

İndi isə silsilədəki şeirlərin təhlilinə keçək.

Silsilədəki ilk əsər "Buluda minmək olar?" adlanır. Bu şeir mükalimə əsasında qurulmaqla özünəməxsus didaktik əhəmiyyətə malikdir. Belə ki, uşağın sualına verilən cavab həm də onu daha yaxşı oxumağa çağırır:

-Təyyarəyə minir adam,
Uçur, gəzir, enir adam.
Buludun da qanadı var?
Buluda da minmək olar?

-Əlbəttə ki, minmək olar.
Amma, qızım, deyil asan;
Bunu üçün gərək çoxlu,
Çoxlu kitab oxuyasan.
(1, s. 82-83)

Bəllidir ki, uşaq üçün dünyada ən dəyərli əşya oyuncaq, ən maraqlı məşğuliyyət isə oyuncaqlarla oynamaqdır. M. Araz "Böyük olsam" adlı şeirində hər bir uşağın qəlbindən soraq verən bu həqiqəti hər şeyi satıb oyuncaq almaq istəyən balacanın timsalında yığcam şəkildə poetikləşdirmişdir:

- Böyük olsam mən
  Neylərəm, bilsən?
- Neylərsən, balam?
- Hər şeyi satıb
  Oyuncaq allam!

(1, s. 83)

M. Arazın "Necə?" adlı şeiri isə uşaqların ətrafda gördükləri, müşahidə etdikləri əşya və hadisələrin mahiyyətinə varmaq istəyindən qaynaqlanan mənalı bir şeirdir. Bu əsərdə təsvir olunur ki, televizorda dənizdə üzən gəmiləri görən uşaq dəniz sahilinə gəlib gerçək gəmini, hüdudsuz suları gördükdə təəccüblənir, sual verir ki, belə böyük gəmi televizora necə yerləşir? Bu cür təbii, inandırıcı motivlər üzərində qurulan şeir uşaq psixologiyasına tamamilə uyğundur:

Dünən kinoda gördüm:
Dəniz, gəmi, balina.
Bu gün isə gəlmişəm
Lap dənizin yanına.

Nə böyükdür gəmilər,
Sudur, baxırsan hara.
Bunlar necə yerləşir
Böyük televizora?

(1, s. 83)

Uşaq ədəbiyyatında zaman-zaman əsas yeri tutan mövzulardan biri təbiəti sevdirmək və qorumaqla bağlı olub. Çoxsaylı şair və yazıçılarımız bu istiqamətdə dəyərli əsərlər yazmışlar. Məmməd Arazın poeziyasında da analoji nümunələrə təsadüf olunur. Bu cəhətdən şairin "Quzum" şeiri səciyyəvi nümunədir. Kiçik həcmli bu bədii parça balaca qızın quzuya xitabı üzərində qurulmuşdur. Bu qızcığaz quzuya çoxlu su və yonca verməyə, onu çəmənlərə, otlaqlara aparmağa hazırdır, ancaq bir şərti var ki, balaca quzu təbiətin yaraşığı olan çiçəkləri tapdayıb əzməsin. Bu kimi fikirlər bütün məktəblilərin təbiətə məhəbbət, onu qorumaq ruhunda tərbiyəsinə yönəlmişdir:

Mənim balaca quzum,
Qarnı alaca quzum.
Gəl, sənə yonca verim,
Su da doyunca verim;

Böyü, səni otarım,
Dağa-daşa aparım.
Bircə şərtim var, amma
Çiçəkləri tapdama.

(1, s. 83)

Şairin "Qızımın sualları" silsiləsindəki "Niyə belə elədim?" şeiri isə oyuncaqlarını qırıb-dağıdan, yeni oyuncaqlar istəyən dəcəl uşağa verilən yumoristik, həm də ibrətli cavab ilə əlamətdardır. Ata qızına bildirir ki, sən çoxlu kuklanı qırıb-sındırmısan. Kuklalar isə bir-birinə xəbər eləyib bizim şəhərə gəlmirlər, ona görə də sənə almağa yeni oyuncaq yoxdur:

Kuklamı sındırmışam,
Paltarımı cırmışam.
Deyirəm ki, ay ata,
Təzə kukla al mənə.
Deyir; daha şəhərdə
Kukla tapılmır sənə.
Deyəsən, bir-birinə
Xəbər də yayıb onlar:
Daha bizə gəlmirlər,
Səni tanıyıb onlar.

(1, s. 83-84)

Aydındır ki, bu cavab uşaqları lüzumsuz israfçılıqdan uzaq olmağa səsləməklə özünəməxsus tərbiyəvi qayəyə malikdir.

Məmməd Arazın uşaqlar üçün qələmə aldığı maraqlı şeirlərdən biri də "Təmiz balalar" adlanır. Dialoq əsasında qurulmuş bu şeirdə təsvir olunur ki, kiçik yaşlı qızcığaz atasına tez-tez sual verərək niyə balaca olduğunu soruşur. Deyir ki, mən də qısa müddətdə böyüyüb sənə çatmaq istəyirəm. Ata isə cavabında bildirir ki, böyümək üçün vaxtında yemək, vaxtında yatmaq, təmizkar, səliqəli olmaq gərəkdir. Belə nəsihətlər fərdi xarakter daşımayıb, şeirdə şairin bütün uşaqlara tövsiyyəsi kimi ümumiləşdirilmişdir:

Qızım İradə
Soruşur hərdən,
Atacan, niyə
Balacayam mən?..

Deyirəm:-Qızım,
Ay mənim quzum.
Mən də sənin tək
Balaca idim.

Anam nə zaman
Ye,- dedi, - yedim.
Yat,- dedi,- yatdım.
Heç bilmədim ki,
Haçan boy atdım.

Səhər yuxudan
Durdum vaxtında.
Əl-üzümü də
Yudum vaxtında.

Tərtəmiz oldu
Dişim, dırnağım.
Tərtəmiz oldu
Saçım, darağım.

Təmiz ol,- dedi,-
Su da hər səhər.
Təmiz balalar
Tez böyüyürlər.

(1, s. 84)

Bütövlükdə Məmməd Arazın "Qızımın sualları" adlı şeirlər silsiləsi uşaq ədəbiyyatımızın diqqətəlayiq nümunələri sırasına daxildir.

Ədəbiyyatşünaslıqda qeyd olunduğu kimi: "Məmməd Araz... yurdumuzun zəngin və füsunkar təbiətinə həssaslıqla yanaşır, ilhamı da, qüvvəti də, qüdrəti də ondan alır. Şairin əzəl yaddaşı, bəhrələndiyi qaynaq xalq bədii təfəkkürü, xalq deyimləri, aşıq poeziyasından süzülüb gələn forma və məzmun vəhdətidir... İstər xalq sənətkarlarının, istərsə xalqın özünün həyatını, milli-mənəvi dəyərlərini, məişətini, psixologiyasını Məmməd Arazın bədii düşüncəsindən ayrı təsəvvür etmək çətindir" **(3, s. 483).** Bu baxımdan onun 1970-72-ci illərdə yazdığı "Atamın kitabı" adlı məşhur poeması xüsusilə dəyərlidir. Bizim üçün mövzumuzla bağlı maraqlı məsələ ondan ibarətdir ki, avtobioqrafik xarakterli bu poemada da uşaqların mütaliəsi üçün çox faydalı olan bir sıra məqamlar vardır. Xüsusən şairin uşaqlıq illəri, məktəbə getməsi, ilk hərfləri, ümumən yazı-pozunu öyrənməsi ilə bağlı səhifələr bu baxımdan diqqəti çəkir. "Atamın kitabı" poemasında şair hələ uşaq ikən zəhmətə allşmağından, halal əməyin, saf təbiətin özünün də əslində bir müəllim olmasından söz açır:

Səhər ayazında buz gavahını
Çiynində dartmağı oxutdu mənə.
Dəli cöngələri qulaqlamağı,
Kotana çatmağı oxutdu mənə...
Təbiət özü də bir kitabxana,
Hər dərə məktəbdir, hər dağ müəllim.
O ilk ana dilim, o kitab - anam,
Bir də əlinizə yetərmi əlim?

(2, s. 425)

İlk dəfə məktəbə getməsini həyatının unudulmaz anı kimi təsvir edən şair hər gün məktəbdən dönəndən sonra atasının ona verdiyi sualları və aldığı cavabdan conra dediyi sözləri də vəcdlə təsvir etmişdir. Dünyagörmüş müdrik atanın sözləri xalqın duyum və deyim tərzinin təzahürü olmaqla yanaşı, qazanılmış biliyi praktik tətbiq etməyə çağırması ilə də diqqəti cəlb edir. Məsələn, poemadan aşağıdakı parçaya nəzər salaq:

- Bu gün nə öyrəndin dərsindən, bala?
- Çöp saymaq, ata!
- Hə...onda bu külüng,
Bu da ki, balta...
Çırma qolunu,

Boğazla döşdəki yemşan kolunu,
Sonra da on dənə düyünsüz çubux,
Beş cüt də samılıq
Üt , aradan çıx.
(2, s. 426)

Aydındır ki, bu tapşırıqları yerinə yetirərkən məktəbli uşaq saymağı daha da dəqiq öyrənəcək.

Məktəbli oğlunun yenicə öyrəndiyi hərflərə uyğun olaraq dünyagörmüş atanın dediyi cümlələr uşaqların nitq və təfəkkürünün inkişafı üçün çox faydalı olan yanıltmac xarakteri daşımaqla alliterasiya və assonanslardan uğurla istifadə ilə də səciyyələnir. Məsələn, "A" , "B", "D", "O", "C" kimi səslərlə əlaqədar atanın öz məktəbli oğluna verdiyi tapşırıqları xatırlatmaq bu baxımdan yerinə düşər:

- Bu gün nə oxuduz?
- "A" hərfi, ata!
- Atanın atası... Ata bax, ata!
Atıl, aftafanı apar, at arxa.
- Niyə atım, ata?
- Atma, apar doldur!..
- Bu gün nə oxudun dərsindən, bala?
- "B" hərfi, ata!
- Ba...onda balamın barmağı baldır...
Bulaqda baş-başdı baldırğan, baldır...
Yüyür, dəstələ...
- Bu gün nə oxuduz?
- "D" hərfi, ata!
- Demək, dəryazı döy, deyiblər, dədə...
Mənim çöl əlifbam macqal dilində;
"O" keçdim - deməli, orağı yağla,
"C" keçdim, deməli, cütü qulaqla...
Nə yaxşı! Əlifba "A"-dan başlanır,
Atadan başlanır, Anadan başlanır.
(2, s. 427)

Göründüyü kimi, atanın hər hərfə uyğun dediyi cümlələrdəki bütün sözlər məhz həmin hərflə başlayır, ahəngdarlığı, axıcılığı, ritmikliyi ilə səciyyələnməklə uşaq psixologiyasına müsbət təsir etmək imkanlarını nümayiş etdirir.

Bütün bunlar isə onu deməyə əsas verir ki, görkəmli şairimiz Məmməd Arazın zəngin və çoxcəhətli yaradıcılığında uşaqlar üçün də müvafiq mütaliə materialları vardır. Həmin maraqlı nümunələr özünün tematik əlvanlığı, ideya aydınlığı, sənətkarlıq dolğunluğu ilə səciyyələnir.

Ədəbiyyat

1. Araz M. Aylarım, illərim. Bakı: Yazıçı, 1979, 224 s.
2. Araz M. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1986, 480 s.

3. Müasir Azərbaycan ədəbiyyatı, iki cilddə, 2-ci cild. Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, 564 s.
4. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, 444 s.

Nadir Ismaılov

Mammad Araz and children's literature

Summary

Mammad Araz is one of the most prominent represantatives of the Azerbaijani literature of XX century. His poetry is rich with deer humanistic sences and qualities.

The article has been dedicated to the lyrics of Mammad Araz. In this paper attention is directed to the various phase's of literary activities Mammad Araz. These stages are investigated on the basis of those examples, facing a poet and made appropriate conclusions.

There have been analysed charakteristic works, their idealogial-literary features have been clarified. There are have been telis opinions about his poetic style and on the examples of verse are exposed main features of his poetry.

Надир Исмаилов

Мамед Араз и детская литература

Резюме

Мамед Араз является одним из выдающихся представителей азербайджанской литературы двадцатого века. Его поэзия пронизана гуманизмом, глубокими чувствами.

Статья посвящена лирике известного поэта Мамеда Араза**.** В статье рассматриваются разные этапы творчества Мамеда Араза. Здесь на основе примеров исследуются темы, к которым обращался поэт на этих этапах, и сделаны некоторые вводы.

В статье анализириуются характерные произведения, связанные с темой, выявляются их идейно-художественные особенности. Здесь высказываются мнения о поэтическом стиле поэта, а также выявляются главные особенности его поэзии на стихотворных примерах.

Rəyçi: Hüseyn Həşimli
filologiya üzrə elmlər doktoru, əməkdar elm xadimi

TƏRANƏ RƏHİMLİ
filologiya üzrə fəlsəfə doktoru, dosent
ADPU
E-mail: t_raqimli@mail.ru
UOT: 821 (479. 24)

İSMAYIL ŞIXLININ «DƏLİ KÜR» ROMANININ BƏDİİ QƏHRƏMAN KONSEPSİYASI ƏDƏBİ TƏNQİDDƏ

Açar sözlər: roman, müasir nəsr, ədəbiyyat, milli.
Ключевые слова: роман, современная проза, литература, национальное.
Key words: novel, contemporary prose, literature, national.

İsmayıl Şıxlının «Dəli Kür» romanının ilk hissəsisinin nəşrindən (1962) dərhal sonra əsəri dəyərləndirən tənqidi məqalələrdə onun bədii qəhrəman konsepsiyasına xüsusi diqqət yetirilmişdir. İlk vaxtlar əsərin yanlış ideoloji meyarlar müstəvisində dəyərləndirən aparıcı qəhrəmanı – Cahandar ağa dönə-dönə nəzəri fikrin təhlil mərkəzinə çəkilmiş, lakin uzun zaman ədəbiyyatımızın bu mükəmməl obrazının mahiyyəti açılmamışdır. Hələ əsər haqqında ilk məqalədə (1) İ.Şıxlının xarakter yaratmaq məharəti xüsusi vurğulansa da, Cahandar ağanın səciyyəsi yanlış qiymətləndirilirdi. Əsərdə Cahandar ağanı daha dolğun obraz kimi görən Əhəd Hüseynov bu xarakterin «bütün zəif və güclü cəhətlərilə» birlikdə işləndiyini göstərir, onun bir tərəfdən qüvvətli, igid, insanların taleyinə laqeyd olmayan, övladlarını sevən qayğıkeş ata, digər tərəfdən zabitəli, amansız, qəddar, «qəzəbli görkəmi ilə vahimə doğurmağa çalışan» təkəbbürlü bir ağa kimi ziddiyyətli təbiətini açmağa çalışırdı.

İ.Şıxlının öz qəhrəmanına aludəçiliyini müşahidə edən tənqidçi belə münasibətin qəhrəmanın xarakterinin təsvirində aydın nəzərə çarpdığını vurğulayır. Yazıçının Cahandar ağa haqqında «Onun üçün bu dünyada hər şeydən əziz təmiz adla yaşamaq idi» fikri Ə.Hüseynova görə «başqasının (Allahyarın – T.R.) namusunu tapdamağa hazır olan, ailə üzvlərinə öz iradəsini qəbul etdirməyə çalışan, oğlunu didərgin salmaqla ev-eşiyin dincliyini pozan Cahandar ağa» ya (1, s.443.) sonsuz yazıçı aludəçiliyindən doğur. Tənqid əsər haqda ilk məqalədə Cahandar ağa obrazının «ail əvə məişətlə bağlı şəkildə» işləndiyini göstərməklə bu obrazı bütövlükdə əsərin sosial-siyasi və mili-mənəvi məcrasından ayırırdı.

Ümumiyyətlə, 60-70-ci illər tənqidi dövrün ideologiyasının təsirilə romanda «ağalıq-tabelik münasibətlərindəki ziddiyyətli cəhətləri» görmək istəyir, yazıçı qarşısında «inqilablar astanasına gəlib çıxan Azərbaycan kəndlisinin necə oyandığını, ayağa qalxdığını və siyasi mübarizə meydanına atıldığını» (1, s.336) təsvir edən hadisə və məqamlara diqqət yetirmək tələbini qoyurdu.

Romanın ikinci hissəsinin nəşrindən sonra yazdığı məqalədə Ə.Hüseynov əsərdə bir ailə çərçivəsində baş verən hadisələrin tədricən şaxələndiyini, qol-budaq ataraq «zəmanənin tələblərini əhatə edən ictimai hadisələrə» çevrildiyini göstərir, Cahandar ağanın da bu hadisələrə münasibətini onun daxili narahatlıqları fonunda aşkara çıxarır. (2, s. 342.)

70-ci illərdə tənqid «İsmayıl Şıxlı istedadının ən qüvvətli cəhəti xarakterlər yaratmaq bacarığıdır» (2, s. 344) qənaətinə gəlir, «Dəli Kür» də «xarakterlər ro-

manı» (Ə.Hüseynov) kimi qiymətləndirilir. Bu illərin təhlillərində Cahandar ağa mükəmməl və bitkin qəhrəman kimi yer alır; bütün ziddiyyətli cəhətləri ilə birlikdə dolğun xarakter kimi dəyərləndirilir. Ə.Hüseynovun «Dəli Kür»ün aparıcı qəhrəmanı haqqında son qənaəti həm də dövrün tənqidinin Cahandar ağa obrazına münasibətini dürüst ifadə edir: «Doğrudan da o (Cahandar ağa – T.R.) əzəmətli bir surətdir. Bir tərəfdən özünün şəxsi istəklərini cilovlaya bilmir, Allahyarın qanuni arvadını götürüb qaçır və bununla da şərəfi tapdanmış ərin qısqanclıq və qisas duyğularını alovlandırır. Nəticədə ailədə bir soyuqluq və ikitirəlik yaradır. O biri tərəfdən öz bacısını müridlərə qoşulduğu üçün amansızcasına öldürür. Bir tərəfdən oğlu Əşrəfin özünə oxşamadığını, anası tərəfə çəkdiyini ürək ağrısı ilə xatırlayır, öz oğlunun seminariya tələbəsi libasında gxrünməsini istəmir, o biri tərəfdən seminariya müəllimi Çernyayevskini və rus Əhmədi kənd cəhalətpərəstlərinin hücumundan qoruyur. Bir tərəfdən Cahandar ağa öz sinfi təbiətini biruzə verərək indiki zamanda hökümətə arxalanmaq və öz ağalıq imtiyazlarını qorumaq istəyir, o biri tərfdən bir sövq təbii ilə hiss edir ki, bu pristavlar, bu kazaklar, bu rütbə sahibləri mahala xeyir iş üçün gəlmirlər. Buna görə də güman və tərəddüdlərdən sonra maarifə, nəcib insanlara öz ürəyində daha çox üstünlük verir.» (Ünvansız məktub. Bax: 2, s.350) Cahandar ağanın bir surət kimi təkmilləşməsini psixoloji sarsıntılar zəminində izləyən tənqidçi təkcə bu obrazın deyil, ümumilikdə «Dəli Kür» qəhrəmanlarının bütün qüvvətli və zəif cəhətləri ilə birlikdə canlı və ibrətli olduğunu nəzərə çatdırır.

Mehdi Hüseyn 1963-cü ildə əsərin birinci hissəsi ilə bağlı yüksək təəssüratlarını bölüşdüyü məqaləsində «Dəli Kür»də tarixi keçmişə münasibət yeniliyini əsərin qəhrəman konsepsiyası ilə səciyyələndirirdi. Tənqidçi Cahandar ağa surətinin ədəbiyyatımızda indiyədək təsvir olunmuş bəylərdən fərqli olduğunu göstərir, onun «qəzəb oyadan hərəkətlərinin özündə də təbii məntiq və daxili bir ardıcıllıq» görürdü. (3, s.255) M.Hüseyn İsmayıl Şıxlının məftunluqla yaratdığı bu qəhrəmanın həm ictimai, həm də şəxsi ziddiyyətini üzvi bir vəhdətdə göstərdiyini vurğulayır, Cahandar ağanın son dərəcə sərt təbiətinə rəğmən hər cür insani hissdən məhrum edilmədiyini yazıçının ciddi uğuru hesab edirdi.

Göründüyü kimi, tənqid hələ 60-cı illərdə ədəbiyyatda «bəxti gətirməmiş» zümrənin nümayəndəsinin – Cahandar ağanın fərqli bəy obrazı olduğunu, «sinfi-zümrəvi bəy obrazına qarşı bəy - insan surəti» (T.Əlişanoğlu) kimi meydana çıxdığını sezə bilirdi.

Tənqid ədəbiyyatımızın monumental surətləri sırasında özünəməxsus yeri olan Cahandar ağaya rəğbətini çox gec və çətin izhar etdi. 70-ci illərin sonlarında tənqid artıq Cahandar ağanın ziddiyyətli bir tarixi dövrün, mürəkkəb bir epoxanın həqiqətlərini ifadə etdiyini sezə bilir, bu obrazı zaman və mühit kontekstində dəyərləndirməyə cəhd göstərir. Bu cəhətdən Məstan Əliyevin mülahizələri diqqəlayiqdir: «Bu maraqlı feodal əvvəlki romanların feodal surətlərinə bənzəmirdi. Bu feodala rəğbətimizi birdən-birə unamaq çətin oldu: nəyə görədir bu? Mən sonralar anladım ki, Cahandar ağa qismən bizim on doqquzuncu əsrimizdir. Qaranlıq, həm də parıltılı. Bu mürəkkəb mənəvi keyfiyyətlər qraniti sökülüb töküləcəkdir. Bunu sövq-təbii özü də başa düşür. Amma sanki nəslin müqəddəs qəbirləri önündə and içib, vəd verib. Canı cismindən ayrılanadək qandangəlmə, kökdəngəlmə qanunları yaşadacaq. Bunları namusu kimi qoruyacaq. Bu dünyada ondan güclülər törəyə bilər, amma Cahandar ağa heç kəsin əlində ölməyəcək.» (4, s.185)

M.Əliyev «Dəli Kür»də milli təfəkkürün, milli ruhun real bədii əksini yüksək qiymətləndirir, Cahandar ağanı öz millətinin milli-mənəvi, patriarxal-əxlaqi dəyərləri çevrəsində təhlil edir. Məhz bu cəhətdən M.Əliyevin təhlillərində Cahandar ağanın «yeri «Dəli Kür»də rahatdır».

80-ci illərdə ədəbi-nəzəri fikir romanda bütün təhkiyə-təsvir vasitələrinin məhz insan ətrafında təmərküzləşməsi, «Dəli Kür»də hadisələrin cərəyan etdiyi dövrün, mühitin səciyyəsinin əsərin qəhrəmanları, ilk növbədə Cahandar ağa vasitəsilə açılması haqqında konkret nəticəyə gəlir. Tənqid Cahandar ağanı yazıçının ən böyük nailiyyəti hesab edir, bizə hər an həyatı xatırladan bu güclü, reallığı və təbiiliyi ilə seçilən obrazın «konkretliyi, özünəməxsusluğu, mili koloriti, sosial-əxlaqi mahiyyəti ilə canlandırılmış bir mühiti» özündə ehtiva etdiyini vurğulayır. Akif Hüseynov yazır: «Biz Cahandar ağanın əzəmətli xarakterində, kəndlilərin obrazlarında, Əhmədin, Kipianinin əməllərində xalqımızın həyatını və psixologiyasını duyuruq, milli mühitin sosial-əxlaqi mənzərəsinin mürəkkəbliyini görürük, tarixi irəliləyişin yenilməzliyini yəqin edirik. Nəticədə, yalnız yığcamlıq, bədii bütövlük təmin edilməmişdir, dövrlə, mühitlə insan arasındakı təmasın, əlaqələrin yeni keyfiyyətdə bədii dərki, üzvi vəhdət halında inikası meydana çıxmışdır. Həmin vəhdət sayəsində də qəhrəmanların qayğılarında, arzu və əməllərində, ehtirasların toqquşmasında, hadisələrin təbii davamında ifadə edilən ictimai-tarixi hərəkət, zamanın irəliləyiş meyli mexaniki şəkildə əsərin dinamikasının əsasına çevrilməmişdir, məhz bədiiliyin şərtlərində təcəssümünü tapmışdır. Bütün bu xüsusiyyətlərinə görə də «Dəli Kür» romanı hadisələrin cərəyan etdiyi dövr haqqında, xalqımızın milli xarakteri, ictimai-mənəvi varlığı barədə yeni və mənalı söhbət açmışdır.» (5, s.27-28)

Əsərdə tarixi həqiqətə sədaqət, onun bütün mürəkkəbliyi ilə dərki, mühitin daxili mahiyyətinə nüfuzetmə kimi keyfiyyətlər ilk növbədə «Dəli Kür»ün qəhrəman konsepsiyası ilə izah edilir, romanın hər cür təfərrüatçılıqdan uzaq olması yazıçının obraz yaratma mükəmməlliyi, ümumiləşdirmə, tipikləşdirmə məharəti ilə əlaqələndirilirdi.

Romanın çoxşaxəli süjetinin, mürəkkəb bədii konfliktinin bütün istiqamətlərinin Cahandar ağa kimi uğurlu obrazla bağlı təhlili son dərəcə məntiqlidir. Tofiq Hüseynoğlu Cahandar ağanı «milli və sinfi xüsusiyyətlərin dialektik əlaqə və qarşılıqlı münasibətində canlandırılmış mürəkkəb bir obraz, «tarixiliklə yaradılmış mili xarakter» kimi səciyyələndirir, məhz yaşadığı əsrin, zamanın mürəkkəbliyindən irəli gələn maneələrin Cahandar ağanın həyat yolunu keçilməz etdiyini, onun ölümə doğru hərəkətini sürətləndirdiyini izləyir: «Cahandar ağanın həyat yolu Kürün axarına mane olan çiləkənlərə bənzər maneələrlə doludur. Bu maneələr mürəkkəbliyi və keçilməzliyi ilə əsrin tələbini, zamanın hökmünü xatırladır. Cahandar ağa bütün varlığı ilə istədiyi kimi yaşamağa can atır, lakin nəhayət özü də dərk edir ki, daha kişi kimi yaşamaq mümkün deyil; yeganə bir yol qalır ki, o da kişi kimi ölməkdir. Cahandar ağa bu yolu qəbul edir və beləliklə, fəci xarakter səviyyəsinə yüksəlir.» (6, s.35.)

Cahandar ağa obrazını «milli və patriarxal dəyərlərin daşıyıcısı» kimi dəyərləndirən tənqid «dünyası dağılan, ölməkdə olan» bu ağanın xarakter bütövlüyünü, bitkinliyini təmin edən milli keyfiyyətlərin ölməzliyini, yaşarılığını, örnək dəyərlər kimi keçmişdən gəlib bu günü yeniləşdirdiyini, onun mahiyyətini zənginləşdirdiyini diqqət önünə çəkir. Lakin Cahandar ağanın nəzəri fikirdə ciddi etirazla qarşılanan,

çox kəskin tənqid olunan xarakter xüsusiyyətləri də vardır. Bu cəhət daha çox Cahandar ağanın xarakterini «Mələyin qaçırılması», «Şahnigarın güllələnməsi» epizodları fonunda dəyərləndirən məqalələr, tədqiqatlar üçün səciyyəvidir. Əlbəttə, ilk hissəsinin nəşrindən üzübəri dərc olunan bütün yazılarda bu və ya digər şəkildə məsələyə münasibət vardır.

Əsər haqqında ilk məqalədə Cahandar ağanın «heç bir şeylə məhdudlaşmayan özbaşınalığı»na münasibət bildirilir, «Mələyin qaçırılması» və «Şahnigarın güllələnməsi» hadisələrinə görə o «əzazil», «qəddar», «amansız», «zalım və qatil», «daşürəkli» bir ağa kimi təhlil olunurdu. 60-70-ci illərdə tənqid Cahandar ağanı «patriarxal-feodal Azərbaycanın yetişdirdiyi ən tipik xarakter» (Qulu Xəlilov) kimi qiymətləndirir, bu qoçaq, cəsarətli, ağıllı bəy haqqında məhz Mələyi qaçırmasına görə hər hərəkətini «ölçüb-biçən», «uzaqgörən» adam olmadığı qənaətinə gəlir, onu övladlarından belə «həya etməyən, onları zərrə qədər saya salmayan» qaba, qəddar ağa obrazı kimi təqdim edirdi. (7, s.323.)

Lakin 70-ci illər tənqidində Cahandar ağanın Mələyi qaçırmasına şərti olaraq haqq qazandıran fikirlər də təhlillərdə yer almağa başladı. Bu baxımdan Məstan Əliyevin məsələyə: «İki arvad alır. Bilmirdi ki, bir əsr sonranın əxlaq normalarına sığmayacaq» - məntiqi ilə yanaşması maraq doğurur. (4, s.185). Bu həm də əsərin bədii məntiqi ilə uyğunluq təşkil edir. Burada qeyri-ixtiyari T.Salamoğlunun da müşahidə etdiyi kimi, Cahandar ağanın Mələyi qaçırandan sonrakı peşmançılığının təzahürü olaraq ikiarvadlılığı dədə-baba qaydası kimi dilə gətirib özünə ürək-dirək verdiyi məqam yada düşür. M.Əliyev bu hadisənin izahında Cahandar ağanın xarakter cizgilərini də nəzərə aldığından obrazın təhlili daha bitkin təsir bağışlayır: «Bu Cahandar ağadır, evə arvad gətirib, onu heç kəsin ayağına verməyəcək. Bu Cahandar ağadır, tüpürdüyünü yalamaz. Getdiyi yoldan yarıda geri dönməz. Nə məhəbbətdə yarımçıqdır, nə nifrətdə. Başqa bir əsrin daha bir qadını da onun nəfəsini duymaq istərdi üzündə. Bu Cahandar ağadır. Bu bütövü parça-parça görməyi bacarmalısan. Bu bütövdə elə parçalar var ki, heç vaxt Cahandar ağanı gözdən düşməyə qoymayacaq.» (4, s.185.)

Çağdaş nəzəri fikir Mələyin qaçırılmasını «qeyri-şüuri atılmış addım» və ya ani ehtirasın təsirilə şüuraltı hərəkət (T.Salamoğlu) kimi dəyərləndirməklə bu qənaəti bir daha təsdiq edərək qüvvətləndirir. Cahandar ağanın hərəkətindən peşmanlığını romanda müəllif təhkiyəsində müşahidə edən, bunun əsərdə psixoloji cəhətdən əsaslandırıldığını göstərən tədqiqatlarda bu obrazın yolundan geri dönməməsi (bu yol yanlış olsa belə) onun daxili qüruru, məğrurluğu, təkəbbürü və bundan doğan sərtliyi ilə əlaqələndirilir. «Dəli Kür»ün baş qəhrəmanına bu prizmadan baxanda onun sərtliyi də 60-cı illər tənqidinin yazdığı kimi, dəhşətli dərəcədə zalımlıqla birləşən qabalıq kimi görünmür. Təyyar Salamoğlunun «Cahandar ağa sərtdir, lakin zalım deyildir» (10, s.46) fikri də obrazın mahiyyətinə varmaqdan, onu bütün «parçaları» ilə görmək bacarığından irəli gəlir.

Mələyin qaçırılması epizodu ağır "tənə, qınaq" kimi uzun illər Cahandar ağanı təqib etmiş, bu obrazın obyektiv dəyərləndirilməsinə mane olmuşdur. Xüsusən 60-70-ci illər tənqidində Mələyin qaçırılmasının məhz Şahnigarın güllələnməsi ilə müqayisədə təhlili Cahandar ağanın üzərinə «qatı kölgə» salır, tənqid bacısına münasibətdə dövrün, mühitin qəbül edilmiş əxlaq prinsiplərindən çıxış etdiyi halda, bir başqasının kəbinli arvadını qaçıranda bunu unutduğuna, «norma»lardan kənara çıx-

dığına görə, «kişilik» barədə mənəvi kodeksin pozulmasına incə nöqtədən toxunduğu» üçün (11, s.48) «Dəli Kür»ün aparıcı qəhrəmanına heç cür haqq qazandıra bilmirdi.

İlk olaraq Mehdi Hüseyn məsələyə fərqli rakursdan yanaşır, burada «canlı bir insanın böyük faciəsi»ni müşahidə edərək Şahnigarın güllələnməsi hadisəsinin Cahandar ağanın iç dünyasını alt-üst etdiyini görə bilirdi: «Şahnigarı günahkar sayıb Kür qırağında öldürdüyü, onun simasında öz doğma anasının nişanəsini gördüyü zaman üzu üstə qapanıb ağlayanda biz də sarsılırıq.» (3, s.255)

«Dəli Kür»də şux, oynaq təbiətli, son dərəcə həqiqətpərəst, kin-küdurət bilməyən, saf, geniş ürəkli, elə bil dünyanın «gözəlliklərindən zövq almaq üçün yaranmış» Şahnigarın bir səhvi ucbatından həyatını itirməsi, «yazıçının hazır bir obrazı şüurlu surətdə sıradan çıxarması» tənqidi fikirdə narazılıq doğurmuşdur.Tənqidçi Əhəd Hüseynov: «Mənə elə gəldi ki, bu surət əsərin sonrakı fəsillərində daha çox rol oynaya bilər və «Dəli Kür»ün psixoloji səhnələrini ancaq zənginləşdirə bilərdi» – deyə Şahnigarın əsəri «tərk etməsinə» təssüfünü İsmayıl Şıxlıya da bildirmişdir. (2, s.351) İsmayıl Şıxlının tənqidçiyə: «Şahnigar yüzlərlə cəhalət qurbanlarından biri di. Mən məhz cəhalət uçurumunun dərinliyini və qadınların hüquqsuzluğunun faciəli nəticəsini göstərmək istəmişəm» – cavabı Ə.Hüseynovda bu qənaəti yaradır: «Öz-özümü inandırmağa çalışdım ki, həyatın məntiqi bəzən yazıçının iradəsindən asılı olmur.» (2, s.351)

İ.Şıxlı oxucularla görüşlərindən birində «İndiki zamanda Cahandar ağa kimi kişilər yetişə bilərmi?» sualını belə cavablandırmışdır: «Yox. Çünki qüdrətli şəxsiyyətlərin yetişməsi üçün müəyyən amillər lazımdır. Hər şeydən əvvəl insanı sındıran, insan qururunu, insan mənliyini tapdalayan məhdudiyyətlər olmamalıdır» (6, s. 35-36) Tofiq Hüseynoğlu yazıçıının bu cavabına münasibət bildirərək yazır: «Cahandar ağanın faciəsi, bu və buna bənzər faciələrin səbəb və şərtlərinin gələcəkdə daha böyük fəlakətlər törədə biləcəyi haqqında İsmayıl Şıxlının ciddi xəbərdarlığı və böyük narahatlığı məhz mənəvi zənginliyi mənəvi müflisliyə çevirən, rəzaləti qüdrətə qarşı qoyan cəmiyyət qanunlarının mövcudluğu ilə bağlı idi.» (6, s. 36)

Cahandar ağa obrazının İsmayıl Şıxlını təkcə sənətkar kimi deyil, şəxsiyyət kimi də mükəmməlləşdirməsi haqqında qənaətlər mövcuddur. Nizami Cəfərov yazır: «İsmayıl Şıxlı şəxsiyyətinin müdriklik mərhələsi «Dəli Kür» yazılandan (yəni müəllif öz içərisindəki cahandar ağanı kəşf edəndən) sonra başlandı. Cahandar ağanı sadəcə bədii obraz sayanlar yanılırlar, çünki bu obrazda bir sıra ideya-estetik, mənəvi-epik, qneseoloji keyfiyyətlər bir vəhdət halında təzahür edir. Və həmin keyfiyyətlər vəhdətini öz içərisində yetişdirib zühura çıxarmış bir şəxsiyyət, təbii ki, müdrik şəxsiyyət idi.» (8, s.179)

Məhz Cahandar ağanın bu nüfuzedici təsir qüvvəsinə görə «Dəli Kür»də bütün hadisələr və obrazlar bu aparıcı qəhrəmanla əlaqəli şəkildə dəyərləndirilmiş, nəzəri fikirdə əsəri «Cahandar ağanın romanı» kimi təqdim etmək səyinə qədər gəlib çıxmışdır.

Ədəbiyyat

1. Hüseynov Ə. Ədəbiyyat yanğısı, Bakı, Yazıçı, 1979.
2. Hüseynov Ə. Tənqid və ədəbi proses. Bakı, Nurlan, 2009.
3. Hüseyn M. Ədəbiyyat və həyat. Bakı, Yazıçı, 1989.
4. Əliyev M. Sənətkar ömrü və sənət ömrü. Azərbaycan, 1979, № 4.
5 Hüseynov A. Nəsr və zaman, Bakı, Yazıçı, 1980.
6. Hüseynoğlu T. Söz tarixin yuvası. Bakı, 2000.
7. Xəlilov Q. Azərbaycan romanının inkişaf tarixindən, Bakı, Elm, 1973.
8. Cəfərov N. Klassiklərdən müasirlərə. Bakı, Çaşıoğlu, 2004,
9. Axundov Y. Tarix vg roman, Bakı, Yazıçı, 1988.
10. Salamoğlu T. Tarixi və çağdaş ədəbi prosesə dair araşdırmalar. Bakı, "EL" Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2009.
11. Əlişanoğlu T. Azərbaycan «yeni nəsr»i, Bakı, Elm, 1999

Тарана Рагимли

Консепция художественный герой романа Исмаил Шыхли «Бцйная Кура» в литературной критике

Резюме

В исследовании повествуется о художественном героем романа Исмаил Шыхли «Буйная Кура» в литературной критике, проблем рассмотрен по материалам Азербкайджанской литературной критики и литературоведении 1960-2000-х годов. В сочинение особенно внимательно рассматривается образ Джахандар ага романа, который вызвал большой интерес в литературной критике. Сочинении герой И.Шыхли оценивается как из значимых образцов посвященных национально-духовной тематике в азербайджанской прозе 60-х десятилетий. В центре исследования находятся проблематика и главный художественный герой романа И.Шихлы, своеобразная манера писателья, отличительный художественный подход к вопросам социоально общественной жизни Азербайджана в Х1Х веке. Роман «Буйная Кура» и его художественный герой оценена в контексте основных направлений развития критики и важных творческих склонностей того периода.

Статья имеет применительное значение на научных семинарах филологических факультетов высших школ, посвящённых вопросам спецкурсов и спецсеминаров.

Tarana Rahimli

Konseption`s the artistic hero of Ismail I.Shikhly 's novel "Violent Kur" in the literary criticism

Summary

In a study it is narrated about the artistic by the hero of Ismail Shykhli's novel "Violent Kur" in the literary criticism, problems it is examined based on materials Azerbaijan literary criticism and the history of literature 1960-2000- X of years. In the composition especially attentively is exa-

mined the means of Cakhandar aqa of the novel, which caused great interest in the literary criticism. Composition the hero of Ismail Shykhli is evaluated as of the significant models of dedicated to nation- spiritual thematics at Azerbaijan prose 60th decades. In the center of a study are located the problems and the main artistic hero of the novel of Ismail Shykhli, the unique manner of poetry, distinctive artistic approach to questions sosiality of the public life of Azerbaijan in no-load condition century. The novel "Violent Kur" and its artistic hero it is evaluated in the context of basic trends in development of criticism and important creative tendencies of that period.

Article has applicable value at the scientific seminars of the philological departments of the higher schools, dedicated to questions of special courses and special seminars.

Rəyçi: Təyyar Salamoğlu
filologiya elmləri doktoru, professor

SAKİBƏ ƏLƏSGƏROVA
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
UOT: 821 (479, 24)

XALQ ŞAİRI HÖKUMƏ BİLLURİNİN "SƏRİYYƏ" POEMASI FARS ŞOVİNİZMİNİN TÖRƏTDİYİ DƏHŞƏTLƏRİN BƏDİİ İFADƏSİ KİMİ

Ömür gedər izi qalar,
Şair gedər sözü qalar.
H.Billuri

Açar sözlər: vətən, qəhrəman, mübarizə, səngər, qanlı cinayət.
Keywords: homeland, hero, fighting, trench, bloody crime.
Ключевые слова: родина, герой, борьба, окоп, кровавое преступление

Dünyada çox inqilabçılar olub. Tarixə çox qəhrəmanların izi düşüb. Ancaq tarix inqilablar dövründə Cənubi Azərbaycan fədailəri qədər vətənpərvər, etibarlı döyüşçülər görməyib. Sınanmış, vətəninə vurğun, ən çətin zamanlarda belə ümidini itirməyən, varlığıyla vuruşan, ana dilində danışanı bağrına basan, silaha sarılmış, sinəsi səngər, yüz nəfəri bir nəfər kimi döyüşçüdür fədailər. Fədailərə həsr olunmuş çox sayda ədəbi nümunələr var. Hər şair və yazıçı öz üslubunda oğul və qızlarımızın bədii portretini yaradıb. Elə H.Billuri saysız-hesabsız şeirlərində onları anıb, qəhrəmanlıqlarını vəsf edib. Xalqa azadlıq bəxş edən Azərbaycan Demokratik Partiyasının yaranmasının 5-ci ildönümü münasibətilə yazdığı "Salam sənə el adından" (1, səh. 49) əsərində partiyasına olan məhəbbətini bir döyüşçü iradəsiylə vəsf edib. Doğma partiyaasını sərin bir yaz səhərində çıxan günəşə bənzədir. Bu günəş şəfəqiylə insanların ürəyini isidir. Baxmayaraq ki, fəaliyyətdə deyil, insanlar hələ də ona inanır. Bu partiya ətrafında xalqın qəhrəman oğul və qızlarını toplamışdı. İnsanlara azadlıq, xoşbəxtlik, səadət yollarını göstərən partiyanın keçmiş üzvləri hələ də özünü ona sadiq əsgər hesab edir. Çünki bu partiya həqiqətdən yaranıb, xalqın haqq səsini hayqırır. Xalqın ona yenə ehtiyacı var. Bir il yaşadı, amma çox iş gördü:

Sən son qoydun o qanlara,
Sən son qoydun fəlakətə.
Sən son qoydun haqsızlığa
Sən son qoydun əsarətə.

Haq söyləyən insanları zindanlardan azadlığa çıxaran, səadətə yol açan, andını pozmayan, adı uzun illər yaşayacaq olan bir partiyadır H.Billurinin üzvü olduğu Demokrat partiyası. Xəyanət olmasaydı, hələ amerikalı cəlladları da Nyu-Yorka qovacaqdı.

Şairənin "Səriyyə" (2,səh.26) poemasının qəhrəmanı da həmin partiyanın vəfalı, sədaqətli üzvüdür. Şairə şahidi olduğu faciələrdən birini qələmə alıb. Uzun qış gecələrinin biridir. O, düşüncələrə dalıb. Sözündə daima açıq olan şairə düşüncələrini qələmə almaq istəyir. Onun məqsədi fars şovinizminin qanlı qanunlarına

qarşı üsyan yaratmaqdır. Bu üsyan beyində başlamalıdır, yəni əvvəl dərk olunub, sonra kütləyə çatdırılmalıdır. Hisslərini 4-5 il qəlbində daşıdıqdan sonra günahsız bir qızın həyatını poemasında təsvir etməyə çalışmışdır. Inqilabi Demokratik Hərəkat fəallarına verilən işgəncələri gözüylə görən şairə onların taleyinə acıyır. Vətənini qəlbən sevən bu insanların varlığını tapdalayanları ancaq qələmi ilə cəzalandıra bilər. Əlindən başqa kömək gəlmir. Ona görə də kinini, nifrətini vərəqlərə tökür, o vəhşi varlıqlara qaranlıq məzar qazır:

Hansı insaniyyət qanunlarında
Vətənpərvərlərə ölüm yazılmış?

Şairə əsərin proloqunda öz hisslərini təsvir etdikdən sonra Sümərin kəndinin təsvirinə keçir. Soyuq qış gecəsidir. Şiddətli külək var. Təbiət tez-tez şəklini dəyişir. Kənd klubundakı iclasda firqənin göstəriçi ilə Təbrizə nümayəndə seçilir. Əsərin qəhrəmanı Səriyyə də iclasda danışır və deyir ki, elə nümayəndə seçilməlidir ki, xalqa, vətənə can yandırsın. Şahsevən qızı Səriyyə elin fəxridir. Onun adı çəkiləndə ilk növbədə mərdlik, qəhrəmanlıq, sədaqət kimi keyfiyyətlər yada düşür. Son dərəcə nəcabətli olan bu qadın düşmənə nifrətlə bəsləmişdir. Yeri gələndə cəbhə oğlu kimi səngərdə döyüşür, yeri gələndə də sadiq bir ana kimi oğlunu öpüb oxşayır. Fasiləsiz qar kənd yollarını bağlayıb, ancaq sakirlikdir. Kənddə bir səadət hökm sürür. Səriyyə ana dilində balasına laylay çalır. Sonra oğlunu yaşlı anasına verib at üstə qalxır. Təbrizə nümayəndə seçilib. Hamı qorxur ki, çovğuna düşə bilər, getməsin. Ancaq Səriyyə inadından dönmür.

Zaval qorxağındır, qorxmayanlara –
Ölüm də, zaval da çox yabançıdır,
İradə zərbədir, qüdrət qamçıdır,

- deyərək Təbrizin yolunu tutur. Onun kəndində insanlar əməklə dolanır. Yalnız bir ildir uşaqlar təhsilə cəlb olunub. Tarix sübut edib ki, insanlar elm ilə yüksəlir. Ancaq irtica uzun illərdir Azəri xalqını kitaba, elmə, təhsilə yaxın qoymurdu. İndi kənddə ərbabın sözü keçmir, zaman dəyişib, ədalət hökm sürür, xanın zülmündən nişan qalmayıb.

Qanun qarşısında bütün insanlar
Bərabərdirsə, orda ədalət də var

Daima fikirli olan Səriyyə Şahsevən elinin keçirdiyi pis günləri düşünür. Səssiz axşamın gözəlliyi belə onu kədərli fikirlərdən ayıra bilmir. Öz vətənində qərib yaşamaq, köçəri həyat sürmək onların taleyinəmi yazılıb? Həyat yoldaşı Qəhrəman onları salamlayan yeni dövranın, gözəl günlərin xoşbəxtliyini yaşamağı tövsiyə edir. Əsərin qəhrəmanı həyat yoldaşının fikrini təsdiqləyir. Şairə fasilələrlə olsa da Səriyyəyə azadlığın sevincini xatırladır. Müvəqqəti də olsa keçmiş düşüncələrdən uzaqlaşır və deyir.

Getdi qara günlər, getdi o dəmlər
Artıq bir ildir ki, biganəyəm mən,
Kədərə, qüssəyə, aləmə, bilsən
Artıq elim xoşbəxt, yurdum da xoşbəxt,
Gülür gözlərimə səadət, həyat.

Əsas məqsəd bu səadəti əbədi yaşatmaqdır. Xalqın həyatı bu səadətə bağlıdır. Ölkənin baharı xəzan görməsin deyə onu qorumaq lazımdır. Şairə Səriyyənin diqqətini stolun üstündəki kitaba yönəldir. Cildin üzərində "Azad Sovet qadını " sözləri yazılıb. Şəkildəki qızın alnındakı vüqar, baxışındakı məna əsərin qəhrəmanına xoş təsir bağışlayır. Onu xoşbəxt görür. Dünya qadınlarından fərqlənən, arzusu, eşqi, istəyi, vətəni, işi, əməyi azad olan bu qadının yerində olmaq istəyir. Anası onu yatmağa səsləyir. Ancaq Səriyyənin keçirdiyi duyğular yuxudan da şirindir. Bu duyğulardan sonra anası ilə kədərli notlar üzərində söhbət edir. Anasından parçalanmış ürəyin necə sağala biləcəyini soruşur. Ana: "İkiyə

bölünən böyük bir ürək birləşsin gərək"deyir. Şairə burada yaralı Araza "yüklənir" . Səriyyənin dili ilə deyir :

Onda qoy dibindən qurusun Araz
Bir qəlbin heç iki sahibi olmaz

Bütöv Azərbaycan dərdi şairəni düşündürür. Əslində bu, onun həmişəki qayğısıdır, heç zaman unudulmayan qayğısı. Səriyyə xəyali birlik əhvalı-ruhiyyəsindədir. Arazın üstünə yeni körpülər salınıb. Culfadan keçən maşınlar Təbrizdən gələn, Bakıdan qayıdanlardır, artıq ikiyə bölünən yollar qovuşur. Mingəçevirdən Təbrizə işıq çəkilir və s. Sovet rəhbərini görməyi arzulayır. Qəhrəmanın şirin xəyalları uzun sürmür. Firqədən xəbər gəlib: "Tehran Azərbaycana ordu göndərəcək". Səriyyə kənd klubunda çıxış edir. "Düşmənin hiyləsinə aldanmamalıyıq" deyir. Düşmən ayaqlara qandal, qollara zəncir gətirir. Qaniçən yağı ölüm gətirir. Ancaq elə etməliyik ki, özü ölümlə üzləşsin.

Cənubi Azərbaycan antologiyasının III cildində oxuyuruq: "İnqilabın qaraguruhçular tərəfindən gözlənilməz və arzuolunmaz çətin yollara salınması, əlbəttə, xalq kütlələrində qəzəb, nifrət, kədər də doğurmuşdur." (3. səh.11)

1946-cı ilin dekabrında qələbənin təhlükə ilə üzləşməsi xalqı çıxılmaz vəziyyətə salmışdı ki, H.Billuri də həmin vaxt keçirdiyi hissləri qəhrəmanın həyatına yansıtmışdır.

Kənddəki səadətə kölgə düşüb. Qəmli bir qış axşamıdır. Səriyyə pəjmürdəhaldır, gözlərində kədər var. Bilir ki, xalq ayağa qalxıb, düşmənə qarşı yürüşə hazırlanır. Oğlunu sinəsinə basan Səriyyə ayrılıq vaxtının gəldiyini bilir. O, övladların həyatı zindana dönməsin deyə döyüşə gedir. Körpəsinə söyləyir ki, işdir qayıtmasam, qanımı yerdə qoyma, bəlkə son görüşdür, vətən çağırır. Odlar yurduna vəfasız çıxmamaq lazımdır.

Səriyyə vətənin sadə əsgəri olsa da, güclü iradəsi, qələbə, zəfər əzmi onu qüdrətli göstərir. Qəmli səhərin açılışı özüylə ayrılıq, kədər gətirdi. Tehran jandarması irəlilədikcə qoca Təbrizin gözəlliyi itir, Zəncan, Mərənd, Qaradağ düşmən əliylə talanır, yanır. Firqənin yaratdığı yeni nə varsa: kino, teatr, məktəb atəşə verilib. Ev-

lərdən nalələr ucalır, ana körpəsini, bacı qardaşı axtarır.Ələ keçən yerindəcə öldürülür. Şairə jandarmı danışdırır:

Deyir: "Şahənşahın əmri belədir.
Bütün Azərilər quldur, kölədir,
Boğazdan asmasaq demokratları
Gülməz, şahənşahın gülməz baharı."

Saraydakı satqın canilərin göstərişləri Azərbaycanı qorxutmur. Kütlə silaha sarılır, ancaq bomba ilə dolu hərbi maşınlarla -Tehran ordusuyla qarşılaşır.

1946-cı ilin 12 dekabrı – 21 Azəri. Azərbaycan tarixinin ən qanlı cinayətlərinin törədildiyi günlərdən biri. Əsərin qəhrəmanı səhərdən səngərdə atışır. Döyüş qabiliyyətinə görə hər kəsdən üstündür. Mübarizə qızışır. Şairə onun daxili hisslərini verməyə çalışır. Cavandır, qəlbində arzuları var, çox qüdrətlidir, onu el oğulları alqışlayır. Bu cür insanlar bəxtiyardır. Ancaq səngərdə həyatın o biri üzü də var. Səngərdə ölən də, öldürülən də var. Ölənlər "vətən" deyib torpağı qucalqlayır. Düşmən bu hissləri anlamaq gücündə deyil. Onların vətəni, əzizi, həyatı puldur, dollardır. Qoca əfsər Səriyəni evə - körpəsinin yanına göndərmək istəyir. Ancaq qəhrəmanın məqsədi mübarizəni davam etdirməkdir. Ona görə döyüşü yarımçıq buraxmaq vicdanı satmaq və alçaq əməldir. Şərəfli ölümə daha üstünlük verir. Yadların vətəni qana boğması xalqın azadlığının əlindən alınması deməkdir.

Min düşmən ölməsə bu gün bu yerdə,
Dönmərəm evimə, dönmərəm bir də.

Səriyyə fədailərlə bərabər çarpışır, əlində avtomat düşmənə atəş və nifrət püskürür. Ancaq hər şey tək bu səngərdən ibarət deyil. Düşmən Azərbaycanın bölgələrini qana boyayır. Kənd ağsaqqalının səngərə gəlişi Səriyyədə qorxu yaradır. Görəsən niyə gəlib? Kəndə düşmən təhdidimi var? Qoca ona sərhəngin tapşırığını söyləyir: əgər Səriyyə səngərdən uzaqlaşsa, ona heç kəs toxunmayacaq, bağışlanacaq, hətta inansın deyə şahın tacına da and içiblər. Səriyyə bu sözdən qəzəblənir və bağışlananları bədbəxt adlandırır. Qoca əsas məsələyə keçir; sən təslim olmasan, onlar kəndi topa tutacaqlar. Çarəsiz qalan Səriyyə razılaşmalı olur.

O kənddə elim var, obam var mənim,
Bu yeri qəlbimtək uşaqlığımdan –
Sevmişəm. Bu torpaq mənim vətənim.

Gümanı, müqəddəs yurdu Azərbaycanın talanmasına dözmür. Burada sevimli oğlu, günahsız anası da yaşayır.

Ancaq nə şairə, nə əsərin qəhrəmanı eli, obanı talayan o şərəfsizlərin andına inanmır. Heysiyyatı, şərafəti olmayan, xəmiri hiylə, böhtan və aldatmaqla yoğrulan jandarm və əfsərlər andına əməl etməyəcək. Səriyyə artıq səngərdə təkdir, gülləsi də qurtarıb. Təkliflərinə əməl etməlidir, yoxsa kənddə qan su yerinə axar. Əsərin qəhrəmanı dar ağacına gedən yolu əvvəlcədən görür. Ancaq müqavimət artıqdandır. Düşünür ki, kəndin külə dönməməsi üçün bu fədakarlığı etmək lazımdır. Ölümə

aparıldığını bilə-bilə səngərdən çıxır. Caninin qan tökəcəyini bilir. Ən çox da onların hiyləsini üzə çıxarmaq istəyir. Qoy xalq görsün ki, onlara inanmaq avamlıqdır və bu xəbər vətənimizə yayılsın.

Yırtıb parçalamaq, bax, ona xasdır,
Qurd üçün qan içmək bir ehtirasdır.

Hökumə Billurinin 1949-cu ildə nəşr olunmuş şeirlər toplusunun müqəddiməsində oxuyuruq: "Cənubi Azərbaycan xalqının tarixində yenidən qara günlər başladı. Ölkənin hər yerində dar ağacları quruldu. Xalqın yüzlərlə qəhrəman, igid oğulları edam edildi, zindanlara atıldı." (4. səh. 4)

Şairənin və qəhrəmanın düşündükləri baş verdi. HamıTəbriz meydanına yığılıb. İnsanların qəlbində iztirab var. Qəzəb, kin, nifrət, intiqam hissi üzlərdən oxunur. Azərbaycan elinin gözəl pərisini, qəhrəman qızını, məqsədi uca, qəlbində böyük bir dünya yaşadan fədaisini dar ağacına tərəf gətirirlər. O, xoşbəxliyə doğru gedirmiş kimi fəxrlə, vüqarla yeriyir. Həyatının qanlı səhnəsi oynanılır, insan qəlbinə sığmayan vəhşət var. Arxasınca kütlə gedir. Təmiz bir məqsəd uğrunda mübarizə aparıb. İllərdən bəri doyunca rahatlıq, yuxu görməyib. Ac, susuz günləri çox olub. Ancaq yadlara əyilməyib. Sarsılmayan iradəsi ilə ölüm kürsüsünə qalxır. Onu xəyanətdə təqsirləndirənlərə sözü var. Azadlıq mücahidinin qiymətini tarix verəcək. Torpağını sevən bir fədainin bu adla öldürülməsi ona ağır gəlir:

Xəyanət sizindir, "ağalar", sizin
Məncə, bu ad sizə yaraşır ancaq.
Mənsə övladıyam qoca Təbrizin.
Vicdanım təmizdir, qəlbim də parlaq.

Səriyyə məhkəməsiz ölümə gedir. Ancaq düşmənlərə qurulacaq həyat məhkəməsinə inanır. El qızını tanıyanlar ağlayır. Səriyyə isə onlara "gözünüzün yaşını kininizlə qurudun" deyir. Uzaqdan fədai marşının səsi, nümayişçilərin şüarları səslənir: "Yaşasın Pişəvəri! Məhv olsun mütləqiyyət!" və s. Qorxuya düşən "ağalar" hökmün yerinə yetirilməsini istəyir. Səriyyə son sözlərini deyir: "Mən ölsəm də vətən yaşayır. Kütləni öldürmək olmayır". Çəkilən kəndirin ucu onun boğazına keçir və qanlı cinayət belə sonlanır.

Səriyyə ölərkən öz nəğməsində,
Bir qəhrəman kimi son nəfəsində
"Vətən, vətən" deyib yumur gözünü,
Şərəf dünyasında görür özünü.

Həyat davam edir. Ancaq vətən yolunda şəhid olanların yeri tarixin nəzərində, insanların qəlbində Allahın hüzurunda bambaşqadır. Epiloqda Səriyyənin bir qədər böyümüş oğlu atası ilə söhbət edir. O, atasını döyüşə yollayır. Ellər ona dayaqdır. Atasına uğurlu səfər, dostlara qələbə, yada ölüm arzulayır. Bu hələ 1949-50-ci illər idi. Körpələrin yuxusu da, arzusu da çin çıxır. Qabaqda 1979-cu ilin qüvvətli alovları və müstəbid şahlıq üsulunun darmadağın olduğu zaman var.

Ədəbiyyat

1. Hökumə Billuri. Mübarizə illərində. Bakı, 1954.
2. Hökumə Billuri. Ölməz qəhrəman. Bakı, 1950.
3. Cənubi Aəzrbaycan antologiyası. III cild. Bakı, 1988
4. Hökumə Billuri. Mənim arzum. Bakı, 1949.

S.Alasgarova

National poetess Hokuma Billuri's poem "Sariyya" as an art expression of the horrors procreated Persian chauvinism

Summary

In "Sariya" poem H. Billuri described fighter homeland daughter's life and freedom struggle and life of patriot's who sacrificed their lifes for motherland during Revolutionary Democratic Movement in 1941-1946. The theme was dedicated to the subject of which the poetess was witness. Work calls to revenge and it is artistic manifestation of poetess's own thoughts. The leading thoughts in the work are belief to the future and great Azerbaijan desire.

С.Алескерова

Поэма народной поэтессы Х.Биллури «Сария» как художественное выражение ужасов, порождённых персидским шовинизмом

Резюме

В поэме Х.Биллури описывает жизнь и борьбу за свободу смелой дочери родины, отдавшей жизнь за неё в период Революционного демократического движения 1941-1946 годов. Тема посвящена событию, свидетельницей которого явилась сама поэтесса. Кровавое воспоминание, призывающее к мести, является художественным проявлением личных мыслей поэтессы. Ведущей мыслью в произведении является вера в будущее и мечта о едином Азербайджане.

Rəyçi: Şamil Vəliyev
filologiya üzrə elmlər doktoru, professor

ŞƏBNƏM HAQVERDİYEVA
AMEA-nın Folklor İnstitutu

EL ŞAİRI NAYİB ŞİRVANİ

Açar sözlər - Şirvan regionu, poeziya, bayatı, zəmanəyə etiraz, qadın şairlər.
Ключевые слова: Ширванский регион, поэзия, баяты (стихотворная форма), протест своей времени, женщины поэты.
Key words: Shirvan□s region, poetry, Bayati (folklore genre of poetry), a protest to her time, women poets

Azərbaycanın qadın şairlərinin tədqiqində, araşdırılmasında professor Ə. Cəfərzadənin xüsusi xidmətləri olmuşdur. Bu sahənin öyrənilməsində ciddi tədqiqatlar aparan professor yazır: " Xalqımız qadın - ana ilə bağlı gözəl şer inciləri düzən, onlarla qadın aşıq, şairlər yetirmişlər. Hər şeydən artıq diqqəti cəlb edən də burasıdır ki, məhz Azərbaycanda, qadınlığın heç bir bəşəri hüququ olmadığı, feodalizm və dini əsarətin hökm sürdüyü bir ölkədə, vaxtilə başqa məmləkətlərə nisbətən daha çox qadın aşıq və şair yetişmişdir". (2, 178)

Azərbaycanımızın bütün bölgələrində olduğu kimi poeziya beşiyi Şirvanda da qadın el şairləri yaşamışdır. El şairlərimizin həyat və yaradıcılıq yolunun öyrənilməsində bir çox görkəmli alimlər - S.Mumtaz, M.Təhmasib, M.Həkimov, P.Əfəndiyev, M.Qasımlı, E.Məmmədli, S.Qəniyev və başqalarının xüsusi xidmətləri olmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, Şirvan bölgəsində də qadın el şairləri – Vayıt qızı, Dostuxanım Şirvani, Gövhər Şirvani, Minəbəyim, Naburlu Badam, Pərinaz, Püstə Şikar qızı, Ağca Gülağa qızı, Şirinxanım və b. yaşamışlar.

Şirvanda yaşayıb – yaradan, şerlərindən bəzi nümunələri günümüzə gəlib çatan Nayıb Niyaz qızı Şirvani olmuşdur.

Mənbələrdə qeyd olunduğu kimi, Nayıb Kərbəlayi Niyaz qızı Səmədzadə təxminən, 1884-cü ildə Şamaxının İmanlı məhəlləsində ruhani ailəsində doğulmuşdur. Belə ki, atası Kərbəlayi Niyaz İmanlı məscidində cavan vaxtı azan vermişdir. XIX əsrin 90 - cı illərində Şamaxıda baş verən zəlzələdə valideyinlərini itirmişdir. Nayıbın dayısı Tiflis şəhərində ərəb və fars dillərini yaxşı bildiyi üçün dilmanclıq edirdi. Özü də görkəmli pedaqoq M. Mahmudbəy, Tiflisdə yaşayan, "Ziyayi-Qafqaziyyə" qəzetinin naşiri S.Ünsüzadə, onun qardaşları - Camal, Kamalla yaxın dost idilər. Səmədbəy kimsəsiz qalan bacısı qızı Naibəni Tiflisə - yanına aparır. Dayısı onun üçün müəllim tutur. Nayıb orada ərəb, fars, hətda rus dilinədə yiyələnir. Dayısının köməyi ilə imtahan verib müəllimlik hüququ qazanır. Dayısının məsləhəti ilə qız məktəbi təşkil etmək üçün Şamaxıya - qohumlarının yanına qayıdır.

1902-ci il zəlzələsi Şamaxı şəhərini alt - üst edir. Nayıb da öz doğmalarına qoşulub əvvəl Dərbəndə, sonra Vladiqafqaza, oradan Həştərxana gedir. Orada müsəlman qızları üçün olan məktəb də fəaliyyət göstərmişdir. Nayıb həmin məktəbdə rus dili müəllimi kimi işləməyə başlayır. Nayıbın qohumlarından biri onun Hacı Muxtar adlı yaşlı və evli bir kişiyə ərə getməsini məsləhət bilirlər. Az bir müddət sonra Hacı onu müəllimlikdən azad edir və onu sənətindən ayırır.

Evdə günülər yola getmir. Hacı onu hər gün tənbeh edir, döyür onu evdən bayıra buraxmır, evdə dustaq edir...

Nayıb təhsil aldığı illərdən şer yazmaqla məşğul olmuşdur. Ərindən ancaq əzab-əziyyət görən Nayıbın günü ah-vayla keçir. O, dərd - sərini ancaq şerlərinin dili ilə bəyan edir. Deyilənlərə görə, əri onun şer dəftərlərindən birini də odda yandırmış və şer yazmağı ona yasaq etmişdir. Çarəsiz qalan Nayıb özünü öldürməyi qərara alır. Özünün kiçik şer dəftərini xalası qızı Tikəzbana əmanət edir. 1905-ci ilin əvvəllərində zəhər içib özünü öldürür.

Şairin günümüzə gəlib çatan əsərləri fars dilində qəzəldən, ana dilində qoşma, gəraylı və bayatılardan ibarətdir.

Nayıb Şirvaninin şerləri mövzu baxımından rəngarəngdir. Şairin şerlərinin bir qrupunda qadın hüquqsuzluğu, zəmanədəki özbaşnalıq açıqca şəkildə tərənnüm olunur. El şairinin "Yaxşıdır" rədifili şerin hər misrasında qürbət diyarda - Həştərxanda doğma yurdu - Şamaxı üçün neçə həsrət çəkdiyi süzülür.

Ay ağalar, qulaq asın dərdimə,
Hər sözün erkəyi, sağı yaxşıdır.
Həştərxan dönsə də İrəm bağına,
Şamaxının toz - torpağı yaxşıdır.

Şair ərinin ona şer yazmağa qadağa qoyduğu da həmin qoşmanın sonrakı bəndində poetik bir dillə bəyan etmişdir.

"Dinmə" deyib bağlayıbdır dilimi,
Sındırıbdır qələm tutan əlimi,
Dal eyləyib əlif ola belimi,
Belə gündən yesəm ağı yaxşıdır.

Qoşmada bəzi idiomatik ifadələrin yerli - yerində işlədilməsi şairin klassik poeziyaya dərindən bələd olmasını təsdiqləyir.

"Dilin bağlanması", "əlif beli "dala dönməsi" kimi poetik ifadələr klassik poeziyada çox işlənən qəliblərdəndir.

Nayıb Şirvanin qoşmalarının bəzilərində azad sevginin mədhi, cavan qızların "gül", "qoca" kişilərə verilməsi etirazı da aydınca görünür. Bəlkə də, doğmaları tərəfindən onun da qoca bir Hacıya verilməsinə etiraz olaraq şair bu şeri yazmışdır.

El şairinin "Dönübdür" rədifli şerindən aydın olur ki, Nayıbın özünün könül verdiyi bir həmdəmi olmuşdur. Amma qovuşa bilməmişdir istəklisinə, günü isə ağlamaq, sızlamaqla keçmişdir:

Namuddədir həsrətini çəkməkdən,
Əlif qəddim bil ki, yaya dönübdür.
İntizarın, məşəqqətin ucundan,
Göz yaşlarım axıb çaya dönübdür.

El şairinin günümüzə on bayatısı da gəlib çatmışdır. Həmin bayatıların məzmunu həsrət, saf məhəbbətin, halallığın vəsfi, qadınlara olunan zülüm, biganəlik, bir də zamana, ağalığa qarşı etiraz təşkil edir.

Aranda hünü yansın,
Hününün mini yansın,
Məni qana çalxadı
Odlansın günü yansın.

Mənbələrdə Nayıb Şirvani haqqında görkəmli yazıçı M. S. Ordubadinin şəxsi arxivində məlumatların olduğu göstərilir. Həmin məlumatların da gec də olsa oxuculara çatdırılması tədqiqatçılar qarşısında duran xeyirxah vəzifələrdəndir.

Nayıb Şirvani bir qoşmasını və doqquz bayatısını oxuculara təqdim edirik.

Yaxşıdır

Ay ağalar, qulaq asın dərdimə,
Hər sözün erkəyi, sağı yaxşıdır.
Həştərxan dönsədə, İrəm bağına,
Şamaxının toz - torpağı yaxşıdır.

Bir nainsaf soldurubdu gülümü,
Yandırıban çölə töküb külümü,
Gecə - gündüz gözləyirəm ölümü,
Belə dostdan kəfən yağı yaxşıdır.

"Dinmə" deyib bağlayıbdır dilimi,
Sındırıbdır qələm tutan əlimi,
Dal eyləyib əlif olan belimi,
Belə gündən yesəm ağı yaxşıdır.

Nayıb bu sözləri deyər acıdan,
Bir kəsim yox gələ, qardaş-bacıdan,
Vədə xilaf, bimürvəz Hacıdan.
Mütrib Əli, ləvənd Tağı yaxşıdır.

Bayatılar

Əzizim qarlı dağlar,
Başı qubarlı dağlar,
Bülbülə məkan idi
Alıbdır sarı dağlar.

Hər sözü bənd elədim.
Quzu kimi mələdim
Qanmazın dərdin çəkdim,
Kökəldi, vərəmlədim.

Mətləb fələk yazandı,
Nə gəlsə, qəzadandır,

Aya, günə bənd oldum,
Bilmədim, aldadandır.

Gözəllərin tacıyam,
Saf məhəbbət acıyam,
Nə mal, nə zər istərəm,
Vəfanın möhtacıyam

Çobanam qoyuna mən,
Dözərəm oyuna mən,
Ölü olsam dirilləm.
Girsəydim qoynuna mən.

Gül çiçəklər solmasa,
Bülbül batarmı yasa,
İnsan yüz il yaşardı,
Dərdi-səri olmasa.

Ağladan dərdi məni
O, dərd əritdi məni,
Bu həyat quzu kimi.
Qovurub əritdi məni.

Əzizim dəli qoyun,
Ovşara gəli qoyun,
Dərd məni bənd eləyib
Adımı dəli qoyun.

Naşısan, püxtələş sən,
Qaynayıb aşa düş sən,
Ayağına sürünnəm
Sən məni başa düşsən.

Ədəbiyyat

1. Abbasov. İ. "Müqəddimə, Azərbaycan aşıqları və el şairləri, (s. B. 1983)
2. Azərbaycanın aşıq və şair qadınları .(Tərtib edən, Ə. Cəfərzadə). Bakı,1991
3. Azərbaycan aşıqları və el şairləri, I cild. Bakı, 1984
4. Şirvanın el şairləri (top. tərtib edən T.Qəni) Bakı, 2007

Ш.Хаквердиева

Народная поэтесса Найиб Ширвани

Резюме

В этой статье впервые говориться о жизни и творчестве, а также о периоде творчества провинциальной поэтессы Найиб Ширвани, о тематике ее сти-

хотворений, о стилистических особенностях. Впервые показываются примеры творчества поэтессы, которые состоят из одной гошмы и девять баяты.

SH.Hakverdieva

Popular poetess Nayib Shirvani

Summary

This article first time be spoken about the life and work as well as the period of creativity provincial poetess Nayib Shirvani, about the subject her poems, also about the stylistic features. For the first time are shown examples of creativity poetess, which consist of one goshma and nine bayati.

Rəyçi: Elxan Məmmədli
filologiya elmləri namizədi

YAŞAR QASIMOV
Filologiya elmləri üzrə fəlsəfə doktoru
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
yashargasimov@mail.ru

YENİ POETİK KONFLİKTİN RƏMZİ İFADƏSİ

Açar sözlər: "Aslan öyrədən", "Pələng arzusu", rəmzi obraz, obrazın məna tutumu, "Erkin Vahidov, Fikrət Qoca, altmışıncılar.
Ключевые слова: «Дрессировшик», «Мечта тигра», символический образ, семантика образа, Эркин Вахидов, Фикрат Годжа, шестидесятники
Key words: "Trainer", "The Dream of a tiger", symbolic image, semantics of image, Erkin Vahidov, Fikrat Goja, the poets of the sixties.

Hər bir dövr poeziyasının təkrarsızlığını təyin edən mühüm xüsusiyyətlər mövcuddur. Bu özünəməxsus cəhətlər əksərən lirik qəhrəman və bədii ideal kimi mühüm estetik kateqoriyaların mahiyyətində əks edir. Təbii ki, hər bir qəhrəman və ideal isə özünü bədii konflikt və ifadə vasitələri kontekstində nümayiş etdirir. Deməli, konkret bir dövr poeziyasının qayəvi-fəlsəfi əsasları və estetik pafosunu bədii konflikt və inikas üsulunun xarakterinə əsasən müəyyən etmək olar.

60-cı illər şairlər nəslinin yaradıcılığına nəzər salarkən, yeni lirik qəhrəmanın mövcud reallığa orijinal münasibəti diqqəti cəlb edir. Xüsusən, onların lirikasında poetik konfliktin yeni estetiki məzmunu bu dövr poeziyası haqqında dərindən düşünməyə vadar edir. Altmışıncıların ilk lirikası bu cəhətdən tədqiqatçı üçün geniş meydan və məkan verir. Xüsusən, E.Vahidov, A.Aripov və R.Pərfinin ilk lirikasında özünəməxsus bir konfliktin uğurla bədii cəhətdən reallaşdığını görürük. Bu tamamilə yeni məzmuna malik bir konflikt idi; lirik qəhrəman idealının daşıyıcısı olan insan və bu idealdan uzaq adamlar, başqa sözlə, lirik "mən"lə müəyyən bir dairə, dəstə, müəyyən bir mühit arasındakı bədii ziddiyyət lirik təsvirin mərkəzində dayanır. Bu xüsusiyyət, söz sənətimizdə insanı anlamaq və ifadə etmək, həyat həqiqətlərinin bədii həqiqətlərə çevrilməsi prosesində irəli atılmış bir addım idi. Bədii təfəkkürün real zəminə və həyata, konkret insan münasibətlərinə yaxınlaşmasında ciddi bir dönüş kimi dəyərləndirilməlidir.

İctimai gerçəkliyin dərindən təhlili poeziyanın insani münasibətlərin yeni və indiyə kimi naməlum olan cəhətlərini kəşf etməsinə yol açdı. Lirik qəhrəman həyata özünməxsus tərzdə yanaşdı və öz mühitindən, müasirləri həyatından yeni-yeni problemləri tapdı. Şair təbiətən ictimai gerçəklikdəki öz bədii idealına uyğun olmayan hadisə və nəsnələri görməyə, göstərməyə can atır. O öz daxilində və ruhi aləmində yalnız söz adamlarına xas olan incə bir həssaslıqla ətrafdakı aləmin namütanisibliyini, dünyanın nizamsız və intizamsız düzümünü göstərməyə ehtiyac hiss edir. Həqiqi poeziya bu əsas vəzifəsini müxtəlif yollar və üsullar vasitəsilə, o cümlədən, öz qayə və idealının daşıyıcısı – rəmzi olan obrazlar, yəni ideal-obrazlar və ya rəmz-obrazların həyat tərzini, taleyi və qismətini bədii şəkildə canlandırmaqla yerinə yetirir. Xüsusi qeyd etməliyik ki, altmışıncıların yaradıcılığı və ilk növbədə E.Vahidov, A.Aripov və R.Pərfinin şeiriyyəti ədəbiyyatda uzun müddət hökmranlıq etmiş konfliktsizlik "nəzəriyyəsi"nə müxalif olan estetik hadisə, yəni bədii əks münasibət

kimi meydana çıxmışdı. Elə bu səbəbdən də yaradıcılıqlarının lap əvvəlində həyatdakı əksllikləri və ziddiyyətləri göstərmək onları daha çox maraqlandırırdı. Gənc şairlər gerçəklikdən aldqları və seçdikləri konkret, təsirli ziddiyyətləri ümumiləşmiş poetik təzadlara çevirir, bununla həyatın təbii və mürəkkəb obrazını yaratmağa nail olurdular. Bu tipli şeirlərdə müəlliflər bir-birinə əks olan tərəflərin – müsbət və mənfi qütblərin daxili münasibətinə xüsusi vurğu verirdilər. Onları ümumiləşdirilmiş adlarla adlandırmaq və rəmzləşdirmə vasitəsilə poetik məna dairəsini genişləndirməyə nail olurdular.

Özbək altmışıncılarının parlaq nümayəndəsi Erkin Vahidovun "Aslan öyrədən" şeiri ilə də Fikrət Qocanın "Pələng arzusu" şeirlərini qısaca müqayisə etsək, fikrimiz aydınlaşar. Qeyd edək ki, pələng də, aslan da faciəvi rəmzlərdir. Onların taleyi faciəsində əsas rol oynayıb. "Aslan öyrədən" şeirində böyük qüdrət və güc sahibinin acınacaqlı vəziyyəti təsirli şəkildə əks etdirilib. Təlimçinin əlində tutduğu alovlu həlqədən aslan dəfələrlə keçir, öz sahibinin tələblərini yerinə yetirdiyinə görə tamaşaçılar onu alqışlayır. Amma aslan öz tragik taleyi ilə barışmaq istəmir. Onun ürəyindən qara qanlar axır. Müəllif öz qəhrəmanının daxili monoloqu vasitəsilə faciəvi taleyini bütün dəhşətləri ilə gözlərimiz önündə canlandırır:

" – Aciz adam! Bəsdir, başım üzrə qamçı oynatma!
Köksümdəki yatan qürur hissin oyatma!
Həddini aşma!
Öz başını özün yeyərsən,
Səni parça-parça etsəm, neylərsən!
Baxsana, bu pəncələri köksünə vursam,
Şöhrətpərəst ürəyini çəkib çıxarsam,
Parıldayan bədənindən qanlar fışqırsa,
Səni qurtara bilməz mənim əlimdən
Sənə əl çalan nadan adamlar.
İtil, get, alovlu halqanın içindən
bir də tullanmaram,
Zəhləmi tökmə, bəsdir, yalvarma,
Bilirsənmi, mən kiməm, sən kimsən, ey biçarə!
Mən ormanlar şahıyam,
Əsir olmağıma baxma,
Sən isə bir oyunbaz axmaq!
Şöhrətdən məst, öz halını bilməyən bəsir!
Namərd tale eyləmiş gör məni kimə əsir!"

(1, 92-93)

Bir vaxtlar heyvanlar dünyasının padşahı sayılan güc sahibi səhnədə oyunbazlıq etdiyinə görə sevilir. Filosof şair aslanın dili ilə XX yüzilin iyrənc insan münasibətlərini, riyakarlıq və mənəvi rəzalətlərini ifşa edir. Dünyanı və insanlığı aslan şücaətini və mənliyini, aslan qüririunu və əzəmətini xilas etməyə çağırır: "Halal gücə zaval vermiş, Hiyləyə qüdrət, Məni bu cür əsir edən Dünyaya lənət! Ey napak köksünü gərib, Özünü hamıya qalib göstərib, Şir zatını bir oyunbaz əlinə verib, Mərd halına zövqlə gülən gədələr, Lənət sizə, Tamaşaçı nadan bəndələr." (1, 93).

F.Qocanın "Pələng arzusu" şeirində də vəziyyət təxminən oxşardır. Amma "Pələng arzusu" şeirində tragizm daha kəskin və dərindir. Şeir belə başlanır:

"Təlimçi pələngi eylədi oyuncaq.
İşarə eləsən uzanacaq, atılacaq,
dal ayaqları üstə qalxıb oynayacaq..."
(2, 196).

Pələngin faciəsi elə bu tərcümeyi-haldan qaynaqlanır. Amma onların sonrakı taleyi fərqlidir. Çünki pələngin tərcümeyi-halı təlim meydançasında tamamlanmır:

"Pələng oldu oyuncaq.
Qaytarıb atdı cəngəlliyə, yaşa deyə.
Gövdədə pələnglərdən yekə,
səsdə pələnglərdən heybətli, dişləri iti,
pəncəsi nəhəng pələng.
Meşənin şahı oldu.
Pələnglərin pənahı oldu.
Nərəsindən titrədi göy-yer
heyvanlar nədi,
yüz illik ağaclar titrədi tir-tir".
(2, 196).

Göründüyü kimi, pələng taleyinin dinamikasında ciddi fərqlər mövcuddur. Pələng obrazının faciəsində ikinci bir qat meydana çıxır. Əgər onun tərcümeyi-halı başlandığı kimi də yekunlansaydı, onda biz aslanın qismətinə oxşayan bir tale ilə qarşılaşmış olardıq. Amma "Aslan öyrədən" şeirindəki rəmzi obrazdan fərqli olaraq "Pələng arzusu"nda obrazın taleyində güclü bir dönüş baş verir ki, bu da nəticədə surətin və ümumilikdə şeirin poetik-məntiqi vurğsunu dəyişir. Pələngin arzu etdiyi və təbii həyat tərzinə qayıdışı onu nəinki faciədən xilas etmir, əksinə, daha dəhşətli bir faciə ilə üz-üzə qoyur:

"Amma ürəyini güvə kimi yedi bir qəm:
nə ola təlimçini bir də görəm,
işarə eləyə atılam, uzanam,
dal ayaqlarım üstə qalxıb rəqs eləyəm".
(2, 196).

F.Qocanın rəmzi obrazları bir tərəfdən dərin psixoloji-rəmzi ovqatı ilə, ikinci tərəfdən isə obrazın daxili dramatizmi ilə daha çox diqqəti cəlb edir. İndicə nəzərdən keçirdiyimiz pələng rəmzinin E.Vahidovun "Aslan öyrədən" şeirindəki aslan obrazı ilə də müqayisəsi də bunu bir daha təsdiq edir.

E.Vahidovun "Aslan öyrədən" və F.Qocanın "Pələng arzusu" şeirləri 60-70-ci illər özbək və Azərbaycan lirikasının klassik nümunələridir. Özbəkistan və Azərbaycan gerçəkliyinin mahiyyətindən doğulmuş bu tragik-simvolik obrazlar bədii cəhətdən bir-birindən xeyli fərqlənsə də, ictimai-fəlsəfi tutumuna və siqlətinə görə son dərəcə həmahəngdirlər. Milli qürur və ləyaqətin ayaqlar altında tapdandığı amansız zamanların övladları olan bu obrazlar öz bətnində bir çox sirləri və gizlinləri hifz edib yaşatmaqdadırlar. Aydın olur ki, Özbəkistanın və Azərbaycanın xalq

şairləri təkcə öz dövrlərinin və mühitlərinin rəzil həqiqətlərini kəşf etməklə kifayətlənməmiş, həm də Şərqin ən qədim və məğrur rəmzi obrazlarından birinin yeni həyatını və taleyini bədiiləşdirməyə nail olmuşlar. Bu mənada E.Vahidov və F.Qocanın hər birinin öz milli söz sənətinə cəsarətlə gətirdiyi yeni obrazlar bədii orijinallığı ilə yanaşı, eyni zamanda, ədəbi-tarixi əhəmiyyətə malikdir. F.Qocanın və E.Vahidovun "Pələng arzusu" və "Aslan öyrədən" şeirləri yaşadıqları və sakini olduqları özünəməxsus zamanın milli-bədii təfəkkürdəki silinməz izləri kimi reallaşmışlar. Onların mənsub olduqları pleyadanın digər istedadlı nümayəndələrinin əsərləri və şeirimizə gətirdikləri rəmzi obrazlar da yuxarıda söylədiklərimizi qəti şəkildə təsdiq edir.

Özbək və Azərbaycan altımışıncılarının yaradıcılığının müqayisəli ədəbiyyatşünaslıq müstəvisində nəzərdən keçirilməsi, ümumən, nəslin poetik dünyasını və simasını aydın surətdə təsəvvür etməyə imkan verir. Xüsusən, gənc şairlərin poetik rəmzlərinin qarşılıqlı surətdə araşdırılması zamanın bədii təfəkkürdə inikasının estetik özünəməxsusluğunu müşahidə və təyin etməyə münbit şərait yaradır.

Beləliklə, yuxarıdakı təhlillərdən aşağıdakı mühüm nəticələrə gələ bilərik; poeziyada rəmzi obrazlar heç vaxt təsadüfən yaranmır. Xüsusən, cəfakeş və ağır şəraitdə yaşayan xalqların bədii yaradıcılığında poetik rəmzlər ağlın və təfəkkürün mürəkkəb oyunları kimi doğulmur. Əksinə, həyat və cəmiyyət haqqında açıq söyləmək mümkün olmayan həqiqətləri ifadə etməyin yeganə çarəsi, bəlkə də son əlacından biri kimi, bədii sözün həqiqətə sədaqət saxlaması prosesində sonuncu imkanı kimi reallaşır. Altmışıncıların cəsarətli poetik axtarışlarının nəticəsi olan özünəməxsus rəmzi obrazlar silsiləsi bizim nöqteyi-nəzərimizi parlaq şəkildə ifadə edir.

Ədəbiyyat

1. Vohidov E. Saylanma. İkki cildlik. II cild. Toşkent, Adabiyot va sanat naşriyotı, 1986. – 550 s.
2. Qoca F. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2004. – 248 s.

Яшар Гасымов

Символическая выражения нового поэтического конфликта

Резюме

В статье «Символическая выражения нового поэтического конфликта» анализируется некоторые стихотворения двух представителей шестидесятников, народных поэтов Эркин Вахидова и Фикрат Годжа. В особенности делается акцент на своеобразию и созвучностью поэтического стилья с шестидесятниками видных мастера слов. В плоскости сравнительного анализа стихотворений «Дрессировшик» и «Мечта тигра» исследуется процесс создания эстетического образа времени и действительности.

Yashar Gasimov

Symbolical expression of the new poetic conflict

Summary

In the article "Symbolical expression of the new poetic conflict" is analysed the bright poem of two national poets Erkin Vahidov and Fikrat Goja. Especially, shown originality and harmony of poetic style of the poet with the generation of the 60th years' poets. On the basis of comparative investigation of two poems "Trainer" and "The Dream of a tiger" is researched the process of making the aesthetic image of time and reality.

Rəyçi: Nizaməddin Şəmsizadə
filologiya elmləri doktoru, professor

GÜLŞƏN AĞABƏY
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Müəllimlər İnstitutu Quba
filialının kafedra müdiri
gulshen _71@mail.ru

CÜMHURİYYƏT DÖVRÜ POEZİYASINDA AZƏRBAYCANÇILIQ İDEALLARI

Açar sözlər: poeziya, cümhuriyyət, azərbaycançılıq, istiqlal
Key words: poetry, republic, Azerbaijaniery, independence
Ключевые слова: поэзия, республика, азербайджанство, независимость

XX əsrin əvvəllərindən başlayaraq Azərbaycan poeziyasının keyfiyyət baxımından dəyişməsində və inkişafında, şübhəsiz, ictimai-siyasi proseslərin rolu böyük olmuşdur. Belə ki, regionda baş verən hadisələr Azərbaycan xalqının milli mücadilə verməsini şərtləndirdiyindən poeziya da axtarışlarını bu istiqamətə yönəltmiş, istiqlalçılıq və vətənçilik motivləri yeni bir mərhələyə daxil olmuşdur. Azərbaycanın milli müstəqilliyini qazanmasında ictimai, siyasi publisistika ilə yanaşı poeziyanın da rolunu qeyd etmək lazımdır. Çünki Cümhuriyyətin qurulması ərəfəsi və eləcə də Cümhuriyyət dönəmində hadisələrə çevik və adekvat cavab verən janrların içərisində publisistika ilə yanaşı poeziya da olmuşdur. Əsrin əvvəllərindən başlayaraq poeziyanın mövzu və problematikasında türkçülük,turançılıq, müasirlik, islamçılıq,vətənçilik idealları və ideyaları sıx-sıx görünməyə başlayır. Poeziyada mövzu və problematika yeniliyi onu forma və məzmun baxımından yeniləşdirdiyi kimi milli idealların tərənnümünü də şərtləndirən amilə çevrilir. Ə.Hüseynzadə, A.Şaiq, H.Cavid, M.Hadi,Ə.Müznib, A.Müniri, Ə.Cənnəti və başqa şairlərin yaradıcılığında vətən və millət hayqırışlarına, haqq-ədalət arayışlarına daha çox yer verilirdi. Azərbaycan romantiklərinin yaradıcılığında bu tendensiya sistemli bir şəkil alır və yeni bir mərhələyə daxil olur. Bu tendensiya içərisində azərbaycançılıq ideal-ları isə ən mühüm yerlərdən birini tutur. Azərbaycan obrazı və azərbaycançılıq ideallarının poeziyada əksi daha çox Cümhuriyyətin adı ilə bağlı olur. Azərbaycan Cümhuriyyətinin qurulmasından sonra şeirdə həm Azərbaycan obrazı yaradıldı, həm də azərbaycançılıq ideallarına geniş yer verilirdi. Başqa sözlə desək cümhuriyyətin qurulması ilə poeziyanın mövzusu bir qədər konkretləşir, poeziyaya yeni obraz və yeni ideal gəlir. Bu hər şeydən əvvəl milli idealın yaranması və formalaşmasını şərtləndirirdi. Ədəbiyyatşünas A.Bayramoğlunun yazdığı kimi: "...ölkə həyatında gedən siyasi və mədəni-psixoloji təbəddülat, bir çox xalqlar kimi, azərbaycanlıların da milli mənlik şüur və psixologiyasının formalaşmasınıa əhəmiyyətli dərəcədə təkan verdi. Tərəqqipərvər xadimlərimizin məqsədyönlü və ardıcıl fəaliyyət və çarpışmaları da bu işdə az rola oynamadı. Xalqın milli özünüdərk prosesi ictimai-siyasi və inqilabi dəyişikliklər dövründə daha da gücləndi" (2, 18).

Əlbəttə, milli özünüdərkin siyasi tərəfi milli özünüidarənin yaranması idisə, poetik tərəfi milli düşüncəni, keçmişi, bu günün mübarizəsini təsvir etmək, milli ideyanı və azərbaycançılığı tərənnüm etməkdən ibarət idi. Bu cəhətdən milli ideyanının, azərbaycançılıq ideyasının tərənnümündə gənclər və yeni qüvvələr üstünlük

təşkil edirdi. Əhməd Cavad, Cəfər Cabbarlı, Umgülsüm, Əli Yusif, Əli Dai, Bədrəddin Seyidzadə, Mürşüd Balaqardaş, Əmin Abid və başqa onlarla yeni yazan şairlərin şeirlərinin baş mövzusu Azərbaycan, onun milli idealları, keçmişi, bu günü, milli vətənpərvərlik (Azərbaycan bayrağı, ordusu və s.) motivləri olur. Çox qısa bir vaxtda Azərbaycan sözü şeirlərin başlığına çıxır, mətndə Azərbaycan Cümhuriyyətinə, onun atributlarına və ideallarına inam ifadə edilir, milli ideyanın tərənnümünə müxtəlif şəkildə geninə-boluna rast gəlinir. Hətta Azərbaycan obrazı və idealları o zaman milli marş kimi səslənən, bu gün isə Dövlət himni olan "Azərbaycan" milli marşında ən yüksək şəkildə tərənnüm edilir:

Azərbaycan, Azərbaycan!
Ey qəhrəman övladın
Şanlı vətəni!
Səndən ötrü can verməyə
Cümlə hazırız!
Səndən ötrü qan tökməyə
Cümlə qadiriz!
Üçrəngli bayrağınla
Məsud yaşa!

Ə.Cavad Cümhuriyyətə qədərki yaradıcılığında və cümhuriyyət ərəfəsində də milli düşüncəyə, azərbaycançılığa nəinki böyük önəm vermiş, hətta poeziyada bu təmayülə başçılıq etmişdir. Onun Cümhuriyyətin təşkilati işlərində də yaxından iştirakı, şeirlərində tərənnüm etməsi hələ sağlığında "milli şair", "istiqlal şairi" adlandırılmasına gətirib çıxarmışdır. Ə.Cavad "Milli bayrağımıza" şeirində isə Turana gedən yolda qarşısına çıxan bayrağa dərdini ona söyləyir, onun kölgəsinin düşüdüyü mübarək yeri belə öpməyə hazır olduğunu poetik şəkildə ifadə edir:

Türküstan elləri öpüb alnını,
Söyləyir dərdini sana bayrağım!
Üç rəngin əksini quzğun dənizdən
Ərmağan yolla sən yara, bayrağım! (2, 163)

Ə.Cavadın "Röyasını görmüşdüm", "Ey əskər", "Bakı deyir ki, bir il əvvəl", "O qıza", "Qalx", "Milli Şuraya", "Marş" və s. şeirlərində röyasını gördüyü cümhuriyyətin ayrı-ayrı atributlarını tərənnüm edir, istiqlal və müstəqillik sevincini ifadə edir.

Əbdülsəlimzadə Məhəmməd Hadinin "Azərbaycan dövləti-nevadına", "Əskərlərimizə-könüllülərimizə", Cəfər Cabbarzadənin "Azərbaycan bayrağına", "Sevimli ölkəm", Əhməd Cavadın "Azərbaycan bayrağına", "Milli bayrağımıza", "Ey əskər", Davudun "Azərbaycan ordusuna", "Millətimə", Əli Yusifin "Azərbaycanlıya", "Bayraq", Məhəmməd Ümid Gəncəlinin "Azərbaycan", "Vətən şərqisi" və s. onlarla şeirlərinin ana xəttini Azərbaycan və azərbaycançılıq idealları təşkil edirdi. Böyük əksəriyyəti dövlət qəzeti "Azərbaycan"da dərc olunan bu şeirlər oxucuda milli vətəndaşlıq qüruru formalaşdırır, azərbaycançılıq ideallarını tərənnüm edirdi. "Məfkurəmiz yolunda nə lazımsa etməli, Məqsudə doğru əzmi-xüruşan-

la getməli”- deyən M.Hadi xalqın azadlıq və müstəqillik ideyalarını reallaşdırmaq uğrunda səylərini poetik şəkildə şeirlərində ifadə etməyə çalışırdı. M.Ü.Gəncəli “Azərbaycan, vətən şərqisi” şeirində Azərbaycan obrazı təsvir edilir, gənclərin “ babalardan irs qalan qılıncı” belinə taxaraq millət, üçün vətən üçün əsgər getməsi təqdir olunur:

Azərbaycan torpağıdır türk yurdunun ürəyi,
Hifz etməli o ölkəni nasıl gözün bəbəyi.
Tarixə bax, unutma sən ulu baba, dədəyi,
Qan tökmüşlər bu vətənçün, həp çəkmişlər əməyi.
Vətən üçün, millət üçün gənclər getdi əsgərə,
Könüllü get sən də yazıl o mübarək səfərə (2, 207).

Əli Yusif isə Cümhuriyyətin qurucularından olan Nəsib bəy Yusifbəyliyə həsr etdiyi “Azərbaycanlıya” şeirində vətəndaşlara müraciət edərək taleyinə “vicdanları aydınladan” ulduzların doğmasına biganə qalmamağa çağırır və bu ulduzun əbədi sönməyəcəyini dilə gətirir və müstəqil yaşamaq yolunda addım hesab edir:

Bundan sonra Azərbaycan ölkəsində
Sənin dəxi bir müqəddəs vətənin var.
Bayrağın var buludlardan yuca qalxar,
İstiqlalın Şərqə işıq saçacaqdır,
Sənin dəxi Milli Şuran olacaqdır.
Şimdi sənin daşıdığın böyük adı
Alqışlayır qafqasiyanın dağı, daşı,
Xəzər suyu bayrağını salamladı
Sevin azad Azərbaycan vətəndaşı (2, 198).

Cümhuriyyət dönəmi poeziyasında azərbaycançılıq ideallarının yaşam simvoluna çevrilən faktorlardan biri milli bayrağımızdır. Dalğalanan milli bayraq, onun rəngləri poeziyada funksionallıq daşıyır. Digər atributların formalaşmadığı bir zamanda dalğalanan ürəngli bayraq ölkənin simvollarından birinə çevrilir. Əli Yusif “Bayraq” şeirində onu uca zirvələrdə görür, hər zaman parlamasını arzu edir, təbiətə müraciət edərək dərələri, dağları, çayları, bağları ona səcdə etməsini bildirir:

Yaşa, ey şanlı firuzən bayraq,
Doğdu sayəndə bu gün bir ölkə.
Mavi, al, səbz ziyalar saçaraq
Hər zaman üstümüzə sal kölgə.
Səcdə et. ey geniş, azadə dəniz,
Əyilin, ey başı almaz dağlar,
Əyilin, səcdə edin, siz həpiniz.
Dərələr, çaylar, əkinlər, bağlar,
Yucalır göylərədək bayrağımız (2, 199).

Gənc şair Əli Yusifin yaradıcılığında azərbaycançılıq və vətənçilik motivlərinin başlıca xətt olduğunu nəzərdə tutan ədəbiyyatşünas Nazif Qəhrəmanlı yazır: "Əli Yusif "Azərbaycanlıya", "Getmə", "Bayraq", "Qarabağ xainlərinə" və s. şeirlərində müstəqil olduğu üçün qürur hissi duyan və bu hissi böyük vətəndaşlıq pafosu ilə tərənnüm edən şairin çılğın və heysiyyətli duyğularına rast gəlirik. Etiraf etmək lazımdır ki, XX əsrin əvvəlində Azərbaycan poeziyasında istiqlal təmayülünün beşiyi başında ilk duranlardan biri Əli Yusif olmuşdur" (9, 49).

Ədəbiyyatşünas N.Qəhrəmanlının bu fikri tamamilə doğrudur, çünki istiqlal və azərbaycançılıq şeirləri tərənnüm ruhlu şeirlər idi. Hətta bu şeirlərdə bəzən sənətkarlıq belə çatışmırdı, buna baxmayaraq bu şeirlər oxucular arasında sevilir, oxunur və geniş yayıldığı kimi, həm də ideoloji təbliğat rolu oynayırdı. Dövlət müstəqilliyinin, onun bir çox atributlarının canlı şahidi olan gənc şairlər isə şeirlərində istiqlalı, müstəqilliyi, bütövlükdə Azərbaycanı tərənnüm edirək bu tarixi hadisəyə poetik münasibətlərini ifadə edirdilər. C.Cabbarlı "Azərbaycan bayrağına" şeirində ən ülvi hisslərini ifadə edir:

Buraxınız, seyr edəlim, düşünəlim, oxşayalım,
Şu sevgili, üç boyalı, üç mənalı bayrağı,
Mələklərin qanadını üzərinə kölgə salan?
Nə imiş bu? Aman allah! Od yurdunun yarpağı.
Kök yarpaqlar, ağ çiçəklər, yaşıl otlar topasımı?
Xayır, xayır! Çiçək solur, otlar yerdə tapdanır.
Fəqət bizim bayrağımız ucaları pək sevir.
Yıldızlardan, hilaldan da yüksəklərdə fırlanır (2, 133)

C.Cabbarlı dalabadal yazdığı iki şeirində ("Azərbaycan bayrağına", "Al bayraq") milli bayrağı vəsf edir, onun boyalarına mənalar verir, ədəbiyyatşünas Y.Qarayevin yazdığı kimi " üç rəngli (göy yarpaqlar, al çiçəklər, yaşıl otlar) bayrağın şeirlə açılımı idi" (10, 112). C.Cabbarlının istiqlal və azərbaycançılıq şeirlərinin təhlil edən Ə.Saraclı doğru qeyd edir ki, Cabbarlının bu şeirlərində "...məqsəd təkcə bayrağın tərənnümü deyildi, həm də Azərbaycanı, onun müstəqilliyini, istiqlalını göz bəbəyi kimi qorumaq, ona ürəkdən xidmət etmək əzmi, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə kimi öndərlərin "türkləşmək, islamlaşmaq, müasirləşmək" ideyalarını gerçəkləşdirmək arzusu, yeni həyatın yeni ruhlu ədəbiyyatını yaratmaq təşəbbüsü idi"(8, 183).

Cümhuriyyət dönəmində poeziyada azərbaycançılığı ifadə edən təmayüllərdən biri onun ordusuna, qəhrəman əsgərinə yazılmış şeirlər olur. Bu dövrdə yazılmış əskər marşı və nəğmələrində xalq, millət, vətən qarşısında hər bir vətəndaşın boynuna düşən borc hissinin müqəddəsliyi təsvir olunur, vətən və yurd sevgisi tərənnüm edilir, xalq üçün gənclərin göstərdiyi qəhrəmanlıq motivləri, xalqa bağlıq, milli qürur hissləri aşılanırdı. M.Hadinin "Əskərlərimizə-könüllülərimizə", Məmməd Əmin Yurdaqulun "Ya qazi ol, ya şəhid", Umgülsümün "Əskər anasına", "Ey türk oğlu", "Çəkil, dəf ol", Ə.Cavadın "Ey əskər", "Bismillah", Davudun "Məqsədimiz", "Bir əskərin xitabı", "əsgər şərqisi", Əli Kaminin "Atalara", "marş", İ.Həqqi bəyin "Vətən şərqisi", "Marş", "Könüllü marşı", Feyzi bəyin "Marş", Zülfüqar bə-

yin "Əsgər nəğməsi", Məhəmməd Ümid Gəncəlinin "Azərbaycan vətən şərqisi" və s. onlarla şeirlərində millətin və dövlətin namus bütövlüyünü qoruyan ordunun, əsgərlərin qəhrəmanlıq səhifələri tərənnüm edilir. Azərbaycan poeziyasının Cümhuriyyət dönəmində milli və ordu marşları o qədər qabarıq olmuşdur ki, 1919-cu ildə B.Səttaroğlunun tərtibi ilə "Ordu marşları" kitabı dərc edilmişdir. İkinci müstəqillik dönəmində filologiya üzrə fəlsəfə doktoru Sədaqət Məmmədova həmin kitabı kiril qrafikasında yenidən nəşr etdirmişdir (12).

Əsgərə, orduya aid yazılan şeirlərdə düşmənə qarşı mətanətlə dayanaraq müstəqilliyini, torpağını qoruyan könüllülərimiz, döyüşə gedən gənclərimiz, oğlunu göz yaşları ilə yola salan analar və onların yaşadıqları təsvir edilir. Bu şeirlərdə xalqımızın heç bir xalqa qarşı kin, nifrət bəsləmədiyi, heç bir millətin hüququna təcavüz etmədiyi, haqqımıza toxunmayanlara qarşı məhəbbət bəslədiyini, lakin yurdumuza təcavüz edənlərə qarşı düşmən olmaları təsvir edilir. Bu mövzuda yazılmış şeirləri iki qismə bölmək olar: a) ordu marşları; b) əsgərlərin və valideynlərin keçirdiyi ən ülvi hisslərin tərənnümü. Davudun "Bir əsgərin xitabı" şeirində cəbhəyə, orduya yollanan əsgərin anasını arxayın etməsi üçün keçirdiyi hisslərini dilə gətirməsi təsvir edilir:

Bən əsgər gedirəm, ana, neçün ağlarsan?
Bir əsgərin ürəyini, ana, nüçün dağlarsan?
Bən yurduma sınırlarda əldə silah növbətçiyəm,
Namusuma, millətimə əldə silah gözətçiyəm.

Doğmadınmı sən bizləri bu gün üçün, annəciyim,
Axıtdığın göz yaşları bilməm neçün, annəciyim,
Bən əsgərəm, etməliyəm yardım, kömək bu yurduma,
Siz salamat qalın, annə, bən gedirəm orduma (5, 24).

Davud başqa bir şeirində ("Atalara") atalara xitab edərək "gənc oğlunu qadın kimi gizlətməməyi", "türk adını təhqir etməməyi", millətə, xalqa "saf qanla", "vicdanla" xidmət etməyə çağırır. "Əsgər şərqisi" şeirində isə şair orduya getməyi hamının fədakarlıq borcu hesab edir, igid oğlanların ortalığa çıxaraq yurdu yaşatmasını, ordunun ad qazanmasını təsvir edir və dalğalanan üç rəgli bayrağın azad yaşamanı saxladığını bildirərək qardaşlarını cəbhəyə səsləyir:

Dalğalanır üç boyalı şu bayraq,
Hürr yaşayır bərəkətli şu torpaq,
Sağlam bir imanla silah alaraq,
Haydı qardaş sınırlara qoşalım!(4, 32)

Cümhuriyyət dönəmi Azərbaycan poeziyasında azərbaycançılıq, vətənçilk ideyalarını təsvir edən şairlərin sovet Azərbaycanında yaradıcılığının təkcə mövzu və problematikası dəyişmədi, həm də onlar şeirlərində yaşatdıqları bu idealların bədəlini ödəməli oldular. M.Hadi bir məlumata görə Gəncə üsyanında milli ideallar uğrunda həlak oldu. Əli Yusif və Ə.Dai Solovki adalarına sürgün edildi. Ə.Cavad və Umgülsüm repressiya qurbanı oldular. C.Cabbarlı isə zorən sosrealizm cəbhəsinə

keçməsinə rəğmən yaradıcılığının çiçəklənən vaaxtında qəflətən vəfat etdi. Bir çox adı və imzası məşhur olmayan şairlərin də sonrakı yaradıcılığında azərbaycançılıq ideyalarının təsvirində müəyyən ara verildi. Yalnız 30-cu illərdə poeziyamızda yenidən Azərbaycan obrazı və azərbaycançılıq görünməyə başladı. Buna səbəb hər şeydən əvvəl poeziyada artıq bu təmayül üzrə ənənənin yaranması idi. Yeni dövrdə bu ənənəni inkişaf etdirənlərin başında isə S.Vurğun gəlirdi.

Ədəbiyyat

1. Ağayev İ. XX əsrin əvvəllərində Azərbaycan şeiri.B., Elm, 2002
2. Bayramoğlu A. Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. B., Elm, 2003
3. Bayramoğlu A. Qafqaz imdadına çatan türkün könül nəğmələri. B., İqtisad Universiteti, 2002
4. Hərbi marşlar, döyüş nəğmələri, qəhrəmanlıq şeirləri (Tərtib edəni və ön sözün müəllifi B,Əhmədovdur). B., Hərbi nəşriyyat, 1998
5. Əsgər olmaq bir şərəfdir türk üçün, islam üçün (Toplayıb tərdtib edəni və ön sözün müəllifi A.Bayramoğlu). B., 1993
6. Əhməd Cavad. Seçilmiş əsəsrləri. B., 1992
7. Kəngərli A. "Azərbaycan" qəzetində ədəbiyyat məsələləri. B., 2002
8. Saraclı Ə. Azərbaycan yazıçıları Cümhuriyyət dönəmində. B., Elm, 2007
9. Səttaroğlu B. Ordu marşları. B., 1919
10. Qəhrəmanlı N. Vətən və istiqlal aşiqi Əli Yusif. B., Avropa, 2007
11. Qarayev Y. İstiqlal düşüncəsi xalq Cümhuriyyəti dövründə. Azərbaycan Xalq Cümhuriyyəti. B., Elm, 1998
12.Ordu marşları (Toplyıb tərtib edəni, ərəb qrafikasından transliterasiya edən və ön sözün müəllifi S.Məmmədovadır). B., 1993

G.Aghabay

Azerbaijanism ideals at the poetry of the Respublication period

Summary

Since the beginning of the XX centure concepts Azerbaijaniery and national ideal are turned to be one of the basic theme of the poetry. In the poetry of M.Hadi, A.Shaig, A.Sahhat poetical image of the national ideal was created. In the republic formation years this tendency is formed round the Azerbaijan image and ideals of Azerbaijaniery got intensive character. In the works by A.Cavad, J.Jabbarli, A.Yusif, Umgulsum, Davud and other poets ideals of Azerbaijaniery becomes very popular and pass to a new stage of their development.

Г.Агабек

Идеалы азербайджанство в поэзии эпохи Республика

Резюме

С начала XX века понятия азербайджанство и национальный идеал стали очень актуальными в поэзии. В произведениях М.Хади, А.Шаига, А.Саххата образуется поэтический образ национального идеала. В годы образования республики эта тенденция формируется вокруг образа АзерБайджана и идеалы азербайджанства приобретают интенсивный характер. В творчестве А.Джавада, Дж.Джаббалы, А.Юсифа, Умгульсум, Давуда и других поэтов идеи азербайджанства становятся очень популярными и переходят на новую ступень своего развития.

Rəyçi: Bədirxan Əhmədov
filologiya elmləri doktoru, professor

ƏL-ABBASI NƏVAL XEYRİ
Filologiya elmləri namizədi
BDU
Dünya Ədəbiyyatı Kafedrası

HENRİ HEYNE POZİYASININ XIX ƏSRDƏ RUS DİLİNƏ TƏRCÜMƏSİNƏ DAİR

Açar sözlər: Alman ədəbiyyatı,ədəbi əlaqələr, poeziya, təsir, tərcümə.
Ключувые слова: Немецкая литература, литературные связи, поэзия, влияяния, перевод.
Key words: german literature, literary relations, poetry, influence, translate

XIX əsrin qırxıncı illərində böyük alman şairi Henri Heyne Şərqi Avropaa, o cümlədən Rusiya imperiyasında ədəbi prosesin ən görkəmli fiqurlarından birinə çevrilir.Onun şerləri görkəmli şairlər və adi ədəbiyyatşünaslar tərəfindən tərcümə olunaraq qəzet və jurnallarda dərc olunur.Müəllifin " Nəğmələr kitabı" bir sıra seçilmiş şerlər kitabının əsas özəyini təşkil edir.Henri Heynenin adı və əsərləri bir çox yazıçı, naşir, tərcüməçi və tənqidçilərin məqalələrində və məktublarında özünəməxsus yer tutur.Bir sıra müəlliflərin alman şairinə həsr olunmuş xüsusi məqalələri işıq üzü görür.

1840-cı illərdən başlayaraq " Nəğmələr kitabı" müəllifinin Şərqi Avropa və Rusiya imperiyasında geniş şöhrət tapmasının bir sıra səbəbləri var idi.Onu qeyd etmək lazımdır ki, 1839 və 1848-ci illər arasında onun yalnız bir şeri səkkiz müxtəlif Rus ədəbiyyatçıları, o cümlədən N.Oqaryev, A.Fet, M.Saltıkov-Şedrin, M.Mixayılov tərəfindən Rus dilinə tərcümə olunmuşdur.

Henri Heynenin bir çox tərcüməçilərinin fəaliyyətinin analizinə keçmə-mişdən əvvəl həmin dövrün poetik ab-havası haqda bir neçə söz deyək.Çünki o dövrdə Henri Heyne şerlərinin tərcüməsilə müxtəlif yaradıcılıq bioqrafiyasına , müxtəlif istedada və siyasi orientasiyaya malik şairlər müraciət edirdilər.Tərcümə poeziyasının tarixini öyrənən E.U.Etkind haqlı olaraq qeyd edir ki, tərcümə prosesini xarici ədəbiyyatlarla əməkdaşlığı öyrənmədən onun haqqında təsəvvür etmək və başa düşmək qeyri-mümkündür. E.U.Etkind dünya tərcümə ənənələrinin nücə zənginləşməsi və inkişaf etməsini diqqətlə izləyir.Bu ənənələrin inkişafına bir çox məşhur tərcüməçilər, o cümlədən V.Y.Bryusov, M.P.Alekseyev öz töhfələrini vermişlər(3, s.7). Bu sahədə bir çox şairlərin, xüsusilə də alman şairlərinin şerlərini tərcümə edərək mahir tərcüməçiyə və original şairə çevrilən V.A Jukovski böyük xidmətləri olmuşdur. N.V.Qoqol əbəs yerə Jukovskinin parlaq istedadını qeyd etməmişdir: "Bilmirsən onu necə adlandırasan- tərcüməçi,yoxsa original şair?Tərcüməçi şəxsi mənliyini itirir, lakin Jukovski mənliyini bütün şairlərimizdən daha çox göstərmişdir... Necə olmuşdur ki, bütün şairlərin şəxsiyyətləri içərisindən onun şəxsiyyəti daha qabarıq olmuşdur?... Bu , bir tapmacadır, lakin bir çoxları bunu delə də qəbul edir...Tərcümə zamanı o özünü bənzərsiz bir şair kimi göstərmişdir... ərcümə zamanı elə yeni forma və ölçülər tətbiq etmişdir ki, sonradan digər şairlərimiz tərəfindən istifadə olunmuşdur..."(4,s. 376-377).

Bir çox tədqiqatçılar haqlı olaraq hesab edirlər ki, XIX əsrin ilk rübündə böyük uğurlar qazanmış,Şərqi Avropa ədəbiyyatında öz sözünü demiş Rus poeziyası 1840-cı illərdən etibarən ciddi böhranla üzləşir.Məsələ burasındadır ki, həmin dövrdə böyük nəsr ön plana keçir və XIX əsr Rus poeziyasında bundan sonra A..Puşkin, M.J.Lermontov kimi dah şairlər meydana çıxmır. Baxmayaraq ki, həmin dövrdə və sonrakı dövrlərdə N.V.Qoqol, A.İ.Gersen, M.E.Saltıkov-Şedrin, İ.S.Turgenev, L.N.Tolstoy, A.P.Çexov və sairələri kimi məşhur yazıçılar ordusu yaranır.

Həmin dövrün Şərqi-Avropa, xüsusilə də Rus şairlərinin əsərlərində kəmiyyət və keyfiyyət nöqteyi-nəzərdən Henri Heyne poeziyasına onların israrla müracəti olduqca mühüm yer tutur.Onun yaradıcılığına belə böyük maraq alman dili və ədəbiyyatınn parlaq bilicisi V.A.Jukovskinin təsiri altında baş verir.

Qırxıncı illərin Rus şairləri adətən,H.Heynenin " Nəğmələr kitabı"ndan tərcümə üçün obyekt seçir, onun başqa əsərlərinə nadir halda müraciət edirdilər. H.Heynenin " Müasir şerlər", "Almaniya" kimi əsərləri yazmasına və bütün Qərbi Avropanın siyasi hadisələrə cəlb olunmasına, sinfi mübarizəyə qoşulmasına baxmayaraq, 40-cı illərin əksər Rus tərcüməçilərinin diqqətini cəlb etmir.Həmçinin nəsr və publisistikaya da o qədər diqqət yetirilmir, baxmayaraq ki, bunlar onların otuzuncu, xüsusilə də altmışıncı illərdə yaşamış sələflərinin diqqətini cəlb etmişdi.Təbii ki, həmin dövrün jurnalları üzərində sərt senzura, mütərəqqi ədəbiyyatçıların təqib olunması, mürtəce qüvvələrin özbaşnalığı bu prosesə aydınlıq gətirir.

Lakin " Nəğmələr kitabı" tərcümə üçün material seçlməsi və onun şərhi nöqteyi-nəzərdən olduqca birmənalı şəkildə tərcümə olunurdu. Bu yanaşma əksəriyyəti mürtəce ədəbiyyatla sıx bağlı olan tərcüməçilərin estetik mövqelərindən irəli gəlir və müxalif düşüncəli şəxsiyyətlərə aidiyyatı yox idi.

H.Heyne poeziyası ətrafında sonrakı polemika və şairinvə onun tərcüməçilərinin, tənqidşilərin yaradıcılığının iki bir birinə zidd qütbdən traktovkası müəyyən dərəcədə onunla izah olunur ki, H.Heynedə məhəbbət-lirizm, romantik üslub ünsürləri bir tərəfdən və müəllifin ona ironiyası digər tərəfdən bir-birilə uyğunlaşır.

Həmin dövrün tənqidçiləri və tərcüməçiləri Henri Heynenin poetik sisteminin iki tərəfini yaxud iki təşkiledici elementini və onlar arasındakı qarşılıqlı əlaqəni nəzərdən keçirərkən birinci elementə üstülük verməyə ikincisini isə nəzərə almamağa çalışmışlar.Onlardan bəzi tədqiqtçılar ikinci elementin alman şairi üçün yad element olmasını vurğulayırlar. Məsələn, Apollon Qriqoryev yazır: " Heynə, hər şeydən öncə, yumorictdir, yəni öz xüsusi tragizminə inamı itirilmiş tragik naturadır.... Heyne almanlar arasında yeganə komikdir.....Lakin biz Heyneyə bu tərəfdən yanaşmağa, onu komik kimi üəbul etməyə adət etməmişik.Bizim ədəbiyyatda onun əhəmiyyəti öz dövrünün ağrılı-acılı ab-havasını ifadə etmiş bir şairin əhəmiyyətindən aşırı deyildir" (1.s.16).Əbəs yerə deyildir ki, Heyneni"sırf" lirik şair kimi təqdim edənlərin bu nöqteyi-nəzəri altmışıncı illərdə bir çox tənqidçilər, o cümlədən D.Pisarev, D.Minayev tərəfindən rədd olunmuşdur.

1840-cı illərin şair-tərcüməçiləri altmışıncı illərdə də öz siyasi və estetik mövqelərini dəyişməyərək A.Fyodrovun təbirincə desək, " lirik formaları" estetikləşdirməyə və yumşaltmağa səy göstərmişlər(2, s. 250-251).Lakin deyə bilmərik ki, 184-cı illərin şairləri tərəfindən tərcümə olunmuş Heyne poeziyasının traktovkasının metodları həmişə oxşar və cansıxıcı olmuşdur.F.İ.Tyütçev, A.A.Fet, A.A.Qriqor-

yev, M.L.Mixaylovun və sairələrin H.Heynedən etdikləri tərcümələr arasında prinsipial fərqlər vardır.

1860-cı illərdə Rusiyada daha çıx populyarlıq qazanmış xarici yazıçılar ətrafındakı polemika bu döüvrün ədəbi-estetik və siyasi mübarizənin mühüm hissəsi olmuşdur. Həmin dövrdə daha çox populyarlıq qazanmış şairlər arasında Henri Heyne, Barbye, Beranje, Tomas Qud, Lonqfellonu göstərmək olar. Rus inqilabçı demokratları onların timsalında özlərinin ideya həmfikirləri, rəssamlarını görmüşlər ki, onlarsız dünya ədəbiyyatının inkişafını təsəvvür etmək mümkün deyildir.

Həmin dövrdə Rusiyada xarici şairlər arasında birincilik məhz Henri Heyneyə məxsus olmuşdur. Lakin Rus ədəbiyyatının, jurnalistikasının, tənqidinin müxtəlif cərəyanlarının nümayəndələri ondan tərcümələr etmiş, onu şöhrətləndirmiş , əsərlərini dərc etmişlər.

D.Minayev yazırdı: " Bizdə elə bir şair yoxdur ki, öz gücünü " Reisebilder", " Nəğmələr kitabı" yaxud " Duch der lieder"in tərcüməsində öz gücünü sınamasın..Əgər jurnalda bir səhifə boş qalarsa, dərhal Heyne nəğmələrindən birinin tərcüməsini ora əlavə edərlər və iş bununla bitər".

Altmışəncı illər Rusiyasında elə bir" ciddi" yaxud satirik-yumorist jurnal yox idi ki, orada alman şairi haqqında məqalələr, rəylər, onun Rus dilinə tərcümə olunmuş əsərləri haqqında materiallar dərc olunmasınBundan başqa, Heyneyə, ondan çox onun tərcüməçilərinə , onu təqlid edənlərə və rəy verənlərə parodiyalar həsr olunardı. Müxtəlif jurnallarda Rus şairlərinin Heyne sətirlərilə başlayan şerlərinə rast gəlmək olurdu.həmin dövrün mətbuatında alman şairinin və onun tərcüməçilərinin karikaturaları nəşr olunardı.

İyiriminci-altmışıncı illərin alman ədəbiyyatının inkişafına, Bernə, Gənc Almaniyaya, xüsusilə Heynenin həyat və yaradıcılığına həsr olunmuş bir çox məqalələr meydana çıxdı.Bir sözlə, alman şairi və onun yaradıcılığı Rus tənqidinin diqqət mərkəzində idi.

Heyne əsərlərinin traktovkasında, onun poeziyasının interpretasiyasında və ədəbi-tənqidi cəhətdən işıqlandırılmasında iki əsas istiqmət özünü büruzə vermişdi. Onlardan biri qırxıncı illərin ənənələrinin davam etdirilməsi ilə bağlı idi ki, bu da yalnız A.Fet, F.Tyütçev, L.Mey, habelə A.Maykov, A.K.Tolstoy tərəfindən deyil, həm də mürtəce-zadəgan meyili tənqidçilər tərəfindən həyata keçirilirdi.Onlar bu şairlərin Heyneni yüksək romantik, "sırf" lirik kimi təsvir etmək, onu estetikləşdirmək, birtərəfli mövqedən təhlil etmək, satira və yumoru isə " Şeytana " məxsus bir şey kimi elan etmək cəhdlərini müdafiə edirdilər.

İkinci istiqaməti isə ədəbiyyatın inqilabi-demokratik cinahına mənsub olan yazıçılar təmsil edirdi. Onlar "Nəğmələr kitabı", " Yeni Bahar" və digər məhəbbət silsiləsinə aid şerlərdən yan keçmirdilər, lakin alman şairinin məhəbbət-romantik ruhlu lirik kimi təqdim olunmasının əleyhinə çıxırdılar.Bununla yanaşı bu istiqamətin ədəbiyyatçıları öz tərcümələrində Heynenin 1840-1850-ci illərə aid şerlərinə, xüsusilə də " Müasir şerlər" və " Romansero"ya geniş yer verirdilər.

Hər iki istiqamətin nümayəndələri bir-birilə polemikaya girişərdilər və bu polemika öz əksini yalnız tərcümədə Heynenin özünü müxtəlif və bir-birilə ziddiyyət təşkil edən traktovkalarda deyil, həm də parodiyalar, satirik şerlər, məqalələrdə tapırdı.

Həmin dövrdə Heyne yaradıcılığının öyrənilməsində " Sovremennik" jurnalı xüsusi rol oynamışdır, xüsusilə də 1856 və 1861-ci illər ərzində.Bu jurnal həmin dövrdən sonrada alman şairinin Rusiyada məşhurlaşmasına öz töhfələrini vermiş, onun yaradıcılığı və şəxsiyyətinin inqilabi-demokratik konsepsiyasını dəstəkləmiş, mühafizəkar-estetik, zadəgan lirikaya, müxtəlif tipli mürtəce, liberal ideoloqlara qarşı mübarizə aparmışdır. Məhz bu mübarizə zamanı Heynenin müxtəlif növ təhriflərdən, yalnış şərhlərdən təmizlənməsi sahəsində mühüm işlər görülmüşdür.

"Sovremennik"in Heynesi mürəkkəb, ziddiyyətli, tamamilə müasir şairdir ki, alman və Rus gerçəkliyinin ən aktual və müştərək məsələlərinə toxunmuşdur.O tribun və incə qəkbli lirikdir. O müəyyən dərəcədə ideal şair-ictimaətçidir. O mürtəce alman romantiklərinin ifşa olunması üçün çoxlu işlər görmüş bir yazıçıdır.

Heyne realizm və inqilabi romantizm uğrunda mübarizə aparan şairdir, onun yaradıcılığı yalnız təhkimçiliyin, geriliyin, bürokratizmin amansız və kəskin tənqidi, zadəganların və dini liderlərin ifşası ilə dolu olmamışdır.Əsərləri Rus inqilabi demokratiyası tərəfindən istifadəsi bir silah kimi vacib olan azadlıqsevər, nasir və publisist şairdir.Bu elə bir satirikdir ki, Rus yazıçıları ondan nümunə götürməli, onun yaradıcılığından " öz" despotluğunun, " öz" –nün müxtəlif simalı irticasının, "öz" hakimiyyətinin ifşa olunmasında istifadə etməlidirlər.

Altımışıncı illərdə Rus jurnallarının səhifələrində gedən kəskin siyasi və ədəbi-estetik mübarizələr bir sıra problem və mövzuların, yazıçı və əsərlərin, Heyne və onun tərcüməçilərinin və tənqidçilərinin ətrafında baş verən çəkişmələrin geniş dairəsini əhatə edirdi.

Bu jurnalda N. Çernışevski, N. Dobrolyubov, M. Mixaylov və sair tənqidçi və şairlər alman şairinin inqilabi- demokratik interpretasiyası, onu zadəgan liriklərinin " əlindən almaq" , onu hərtərəfli, düzgün və olduğu kimi təqdim etmək uğrunda mübarizə aparmışlar.

1860-cı illərdən etibarə gigər Rus jurnalı " Russkoe slovo" Heyneyə böyük diqqət yetirməyə başlayır. Bu, onun faktiki redaktoru Q. Blaqosvetlovun və onunla əməkdaşlıq edən D.Pisarevin, P.Veynberqin, V.Zaytsevin, D.Minayevin və sairlərin fəaliyyətilə bağlı idi.Bu jurnal oz ideya ruhu cəhətdən " Sovremennik"ə yaxın olmuş və 1863-cü ildən başlayaraq altmışıncı illərin demokratik dövri mətbuatında və ədəbi prosesdə əsas söz sahibinə çevrilmişdir. Q. Blaqosvetlov, D.Pisarev və onların həmfikirləri, əməkdaşlar, müəlliflər jurnalda alman şairinin şerlərini müntəzəm şəkildə dərc etməyə başlayırlar.Onlar daha çox şairin satirik-siyasi poeziyasına, nəsr və publisistik əsərlərinə diqqət yetirirlər." Russkoe slovo"nun səhifələrində P.Veynberqin tərcüməsində Heynenin "Doktrina" və şairin son silsilə şerlərindən bəziləri işıq üzü görür.1861-ci ildə " Russkoe slovo"da dərc olunmuş " İdarəsiz gəmi" şerinin təhkimçiliyin ləğv olunmasına dair Çar fərmanı ilə eyni vaxta təsadüf etməsi olduqca aktual səslənir. Belə ki, Rusiyadakı təhkimçilik, başqa ölkələrdəki quldarlıq oxşar təzahürlərdir.

Bu jurnalda Heynenin M.Mixaylovun tərcüməsində bir çox şerləri çap olunur. Bu həmin Mixaylovdur ki, V.Kostomarovun donosu ilə altmışıncı illərin inqilabçı demoratlarına qarşı başlamış repressiyaların ilk qurbanı olmuş və Sibirə sürgün olunmuşdur. Burada həmçinin Mixaylov tərəfindən yenidən tərcümə olunmuş " Şimal dənizi" və Heyne nəsrinin incisi olan " İdeyalar. Le Qranın kitabı" çap olunur. Bundan başqa bu hurnalda D.Pisarevin Heynenin satirik poeması " "tta Trol" dərc

olunur.” Russkoe slovo”nun səhifələrində D.Minayev, A.Pleşşeyev, P. Veynberq, V.Yakovlev və bir dəfə A.Fetin (“ Göldə “) Heynedən etdiyi tərcümələr çap olunmuşdur. Heyne dərc olunmuş əsərlərin sayına, tənqidçilərin və publisistlərin ona olan böyük marağına görə “ Russkoe slovo”nun ən çox şöhrət qazanmış əcnəbi müəllifi olmuşdur.Əlbəttə ki, bu jurnalın səhifələrində Bayron, Mitskeviç Leopardi, Lonqfello, Barbye, Tomas Qud və başqa əcnəbi şairlərin də əsərləri çap olunurdu, lakin “ Nəğmələr kitabı” və “ Almaniya” nın müəllifi hər bir cəhətdən üstünlük əldə etmişdi. O hər şeydən öncə özünün inqilabi-demokratik baxışlarına, meşşanlığın, istibdadın və təhkimçiliyin ifşasına görə “ Russkoe slovo”nun redaktoru, tənqidçisi, yazıçısı idi. Veynberqin “ Heynenin bioqrafiyası və xarakteristikası üçün yeni materiallar”ı heç də təsadüfi olaraq burada çap olnmamışdı(1865,№ 10). Burada D.Pisarevin, D.Minayevin, V.Zaytsevin məqalələri, rəyləri, parodiyaları dərc olunmuşdu. Onlardan bəziləri büsbütün Heyneyə, onun Rus tərcüməçilərinə Qərbdə ədəbi-estetik döyüşlərdə kisilahdaşlarına və düşmənlərinə həsr olunmuşdu. Bəziləri isə qismən də olsa Rus Heyneçiliyinin bu və ya digər məsələlərinə toxunurdu. Burada D.Pisarevin məqalələri, xüsusilə də onun “ Realistlər” və “ Henri Heyne məqalələri xüsusilə gur səslə və qətiyyətlə səslənirdi. “ Russkoe slovo” ardıcıl olaraq alman şairinin yaradıcılığını təhrif edənlərə, Heynenin istedadsız və zəif tərcüməçilərinə, habelə öz tərcümə və məqalələrində Heyneçiliyin “ Estetik” xəttini təmsil edərək, onun poeziyasını “ sırf” incəsənət ruhunda təqdim edənlərə qarşı çıxış etmişdir.

“ Russkoe slovo”nun alman şairinin satirasına əsas diqqət yetirməsi bu jurnalın, onun redaktorlarının və müəlliflərinin ifşaedici xətti, realizm, inqilabi-satirik ədəbiyyatın yaranması uğrunda mübarizə ilə sıx bağlı idi. D.Pisarev, D. Minayev, Q. Blaqosvetlov, V, Zaytsev məhz bu amillərin dəstəyindən çıxış edərək Heyne yaradıcılığına müraciət etmişlər.Jurnal alman şairinin Veynberqin tərcüməsində Rus dilindəki ilk nəşrini təbliğ edir,Heyne yaradıcılığilə məşğul olan əməkdaşlarını dəstəkləyir, onun yaradıcılığının tərcümələrdə və məqalələrdə irticaçı mövqedən şərh olunmasına qarşı çıxırdı.

Bu ədəbi-siyasi jurnalın 1863-cü ildə çap olunmuş 11 və 12-ci nömrələrinə nəzər salmaq kifayət edər ki, Heynenin “ Russkoe slovo”dakı şöhrəti, onun və yardıcılığının bu jurnalda cöşqun təbliğinin şahidi olaq. Bunun əsasında Rus gerçəkliyinin problemlərinin, ədəbiyyat və estetika məsələlərinin necə işıqlandırılmasını və həll olunmasının, jurnalın həmin dövr Rusiyasının ən mütərəqqi qüvvələrinin ruporuna carçısına çevrilməsinin şahidi oluruq .Bu, kəskin sinfi mübarizə dövründə dərc olunan qeyri-adi jurnalın adi iki nömrəsidir.

Onları səhifələyərək bu jurnalda Heyne mövzusunun hansı yer tutduğu, Heyne ətrafında mübarizənin hansı xətlə getdiyi, “ Russkoe slovo”nun əməkdaşlarının ideoloji, estetik,ədəbi düşmənləri ilə hansı məsələlər üzrə toqqu.duqları haqda müəyyən təsəvvür əldə etmək olar.

Ədəbiyyat

1. Аполлон Григорьев. Литературная критика. Москва, 1967, Генрих Гейне-журнал « Русское слово», 1859,№ 5.
2. А.М.Федеров. Творчество Лермонтова и западные литературы

Литературное наследство, т. 43-44. Москва, изд. АН СССР, 1941, Русский Гейне (40-60-ые годы) – в сборнике « Русская поэзия». Ленинград, Академия, 1929.
3. Е.Г.Еткинд. Русские поэты – переводчики от Тредиаковского до Пушкина. Москва, 197, Поэтический перевод в истории русской литературы – в сборнике Мастера художественного перевода , книга 1. Москва, Советский писатель, 1968.
4. Н.В.Гоголь. Собрание сочинений в 8 томах, т. 8. Москва, Правда, 1984, Полное собрание сочинений, том 8. Москва, ГИХЛ, 1952.
5. « Русское слово «, журнал, 1863,№ 11-12.
6. Д. Минаев. Дневник темного человека – журнал « Русское слово «, 1861, № 9.

Аль – Аббаси Новаль Хейри

О переводе поэзии Генриха Гейне на русский язык в XIX веке

Резюме

Поэзия видного немецкого революционного поэта Генриха Гейне сыграла важную роль в изменении мира, В статье исследуется распространения и восприятия поэзии Генриха Гейне в царской России. Напомним, что в связи с тем, что Азербайджан в то время являлся частью царской России этот процесс также имел отношеня к нашей поэзии.

Al-Abbasi Noval Khairy

About translation of poetry of Henry Heine's in 19th century in Russia

Summary

The activities of Henry Heine who was the well-known, revolutionary German poet, played important part at the change of the world. The author explores diffusion and the learning of Henry Heine's activities in Russia at this articles. At that time, Azerbaijan entered into tsar Russia and that is why this process also included us.

Rəyçi: C.Nağıyev
filologiya elmləri doktoru, professor

SƏLTƏNƏT ƏLİYEVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
selteneta@gmail.com

ANADİLLİ ƏDƏBİYYATIN ÖYRƏNİLMƏSİNDƏ VƏ TƏBLIĞİNDƏ ƏLYAR SƏFƏRLİNİN ROLU

Açar sözlər: anadilli ədəbiyyat, mətnşünaslıq, klassik ədəbiyyat, tərtib, tədqiqat.
Ключевые слова: тюркоязычная литература, текстология, классическая литература, составление и издание книг, исследования.
Keywords: literature in Turkic, textual criticism, classical literature, compilation and publication of books, researches.

Dağlarımın zirvəsi, bağlarımın qönçəsi,
Döyüşdə şaqqıldayan Misri qılıncın səsi
Səslərin ən incəsi ---
Azərbaycan Türkcəsi!

(X.Rza)

Hər bir xalqın fəxr edə, öyünə biləcəyi bir xəzinə də onun klassik ədəbiyyatıdır. Çünki klassik ədəbiyyat özündə həm də xalqın tarixi keçmişini, mədəniyyətini əks etdirir. Və bu xəzinə nə qədər zəngin olarsa və nə qədər çox tədqiq olunub, araşdırılıb üzə çıxarılarsa, dəyəri bir o qədər artar. Azərbaycan xalqı da bu sahədə sözün əsl mənasında böyük və zəngin bir xəzinə sahibidir. Məlumdur ki, əsrlərlə yurdumuz ərəb və fars işğallarına məruz qalmış, bu isə öz növbəsində ədəbiyyata təsirsiz ötüşməmişdir. Belə ki hələ ilkin dövrlərdən başlayaraq ədəbiyyatımızın bir hissəsi ana dilimizlə yanaşı ərəb, fars dilində də yazıya alınmışdı. Üç dildə yaranan bu ədəbiyyat içərisində anadilli ədəbiyyat xüsusi mövqeyə malikdir. Çünki bir xalqın varlığı ilk əvvəl onun dili və dilinin inkişafı ilə ölçülür. Bəxtiyar Vahabzadənin sözləri ilə desək : -

- Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış,
Ürəklərə yol açan Füzulinin sənəti
Ey dilim, qüdrətinlə dünyalara yol açmış.
Səndə mənim xalqımın qəhrəmanlıqla dolu
Tarixi varaqlanır,
Səndə neçə min illik mənim mədəniyyətim
Şan-şöhrətim saxlanır.
Mənim adım, sanımsan,
Namusum, vicdanımsan. (1,8)

Beləliklə də, ana dilində yazılmış əsərlərdə mədəniyyət, tarix və ədəbiyyatın inkişafı ilə bağlı məlumatlarla yanaşı, dilimizin inkişafı, zənginlikləri, hansı təsirlərə məruz qalması ilə bağlı məlumat da əldə edə bilirik ki, bu da mühüm əhəmiyyətə malikdir.

Bu baxımdan da ilk növbədə anadilli ədəbiyyatın aşkara çıxarılıb öyrənilməsi, tədqiq olunması və xalqa çatdırılması ədəbiyyat tarixçilərinin əsas vəzifələrindəndir.

Ədəbiyyat tarixçilərimizdən Firidun bəy Köçərli, Salman Mümtaz, Həmid Araslı, Mirzağa Quluzadə və digərləri ümumiyyətlə ədəbiyyatımızın öyrənilməsi, tədqiqi sahəsində böyük işlər görmüşlər. Lakin bu sırada Ə. Səfərlinin rolu əvəzsizdir. Çünki Ə. Səfərli Azərbaycan ədəbiyyatı tarixində anadilli ədəbiyyatın öyrənilməsində xüsusi xidmətləri ilə iz qoyan mühüm simalardan biridir.

Alimin bu sahədəki uğurlarından bir qədər aşağıda bəhs olunacaqdır. Bu uğurlara nəzər yetirməmişdən əvvəl isə Əlyar müəllimin keçib gəldiyi elm yoluna ümumi olaraq diqqət yetirək və zəhmətkeş tədqiqatçının ədəbiyyat tariximizə hansı töhfələri verdiyini ötəri də olsa gözdən keçirək.

Klassik ədəbiyyatımızla bağlı yüzlərlə məqalənin müəllifi olan tədqiqatçının yaradıcılıq yolu uzun və rəngarəngdir. Tədqiqatçı yaradıcılığı boyu həm klassik ədəbiyyatımızla bağlı bir sıra elmi-nəzəri fikirlərlə çıxış etmiş, ayrı-ayrı klassiklərimizin əsərlərinin sadə və anlaşıqlı bir dillə təhlilini vermiş, həm də ədəbiyyatımızın açılmamış qatlarını açmağa səy etmiş, yeni-yeni yazılı abidələrin üzə çıxarılmasında öz xidmətlərini əsirgəməmişdir. Belə ki, o həm də bir sıra monaqrafiyaların : "XVII-XVIII əsrlər Azərbaycan epik şeiri", "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı", "Məsihi", "Azərbaycan ədəbiyyatı tarixi", Ankarada çap edilən "Azərbaycan türk ədəbiyyatı", Tehranda nəşr olunan "Azərbaycan ədəbiyyatı tarixi" və s. müəllifi kimi də tanınır. Füzuli, Nəsimi, Məsihi, Xətayi kimi söz ustalarının sənət dünyası Əlyar müəllimin mükəmməl tədqiqat və şərhlərində daha aydın dərk olunur. Bir çox klassiklərimizi, xüsusilə də, anadilli ədəbiyyatımızın zirvəsi sayılan Füzulini, Nəsimini oxuyub dərk etdikdən sonra bu dahi söz ustaları haqqında söz demək, əlbəttə ki, çətin bir işdir. Çünki deyəcəyin söz Füzuli ruhuna xələl gətirməməli, həm də onun dühasını ortaya qoymalıdır. Füzuli sözünün yanında sözünün qiyməti itməməlidir.

Ə.Səfərli isə, deyə bilərik ki, bu işi uğurla yerinə yetirmişdir. Klassik ədəbiyyatımızın bilicilərindən sayılan X.Yusifli alimin bu sahədəki fəaliyyətini mütəxəssis gözü ilə bu cür qiymətləndirmişdir. "Ə.Səfərlinin klasssik şairlərimizin çətin, ilk baxışdan anlaşılmaz şeirlərinin şərhi və açılması sahəsindəki fəaliyyəti də ayrıca qeyd edilməlidir. Bu baxımdan Füzulinin və Nəsiminin əsərlərinin nəşrini xatırlamaq olar. Bu əsərlərin şərh və izahlarla nəşri, ayrı-ayrı misra və beytlərin mənaməzmunca araşdırılması, ədəbiyyatşünaslığımızda rəğbətlə qarşılanmışdır."(2,3)

Təkcə Füzuli və Nəsimiyə deyil, eləcə də, Bürhanəddin, Xətayi, Məsihi və neçə-neçə klassik söz ustadlarına layiq olduğu qiyməti verən alim, bununla da ardınca onlarla filoloqun gəlməsinə nail olmuşdur. Bu günün filoloqları məhz Əlyar Səfərlinin "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı" (X.Yusifli ilə birgə) və "Azərbaycan ədəbiyyatı tarixi" dərsliyindən qidalanmışlar.

Anadilli ədəbiyyata isə daha həssaslıqla yanaşan Ə. Səfərli elə bu sahədə də zəngin bir irsə malikdir. Ümumiyyətlə, ömrünü klassik ədəbiyyatın tədqiqinə sərf edən alimin yaradıcılıq yolunda anadilli ədəbiyyat, anadilli ədəbiyyatın öyrənilməsi, tədqiqi, nəşri, təbliği xüsusi bir çəkiyə malikdir və ya ayrıca bir mərhələni təşkil edir, desək, yanılmarıq.

Alimin anadilli ədəbiyyata bağlılığı haqqında onunla elmin yollarında gənc yaşlarından bu günə qədər yol yoldaşlığı edən Xəlil Yusifli yazır: "Ə. Səfərli Bakı Döövlət Universitetinin fars dili ixtisasını bitirsə də, bütün elmi araşdırmaları zamanı türk dilində yazılmış əsərlər və sənətkarlar üzərində tədqiqat aparmışdır." (3,35)

Həqiqətən də, Ə Səfərlinin yaradıcılıq yoluna ötəri nəzər salmaq kifayətdir ki, bu sözlərin nə qədər həqiqətə uyğunluğunun şahidi olasan. İlk dəfə məhz anadilli ədəbiyyat nümunəsi olan Məsihinin "Vərqa və Gülşa" əsəri ilə tədqiqata başlayan Ə. Səfərli təkcə tədqiqatla kifayətlənmədi.

Hərtərəfli öyrənmək, işini səliqəli görmək vərdişi və hər şeydən də əvvəl milli ruhlu vətənpərvər tədqiqatçının anadilli ədəbiyyata bağlılığı onu tədqiqat yollarından mətnşünaslığa doğru apardı. Bununla da tədqiqatın mətnşünaslıqdan ayrı olmadığını da sübuta yetirdi.

İlk dəfə 1976-cı ildə Qazi Bürhanəddin Əhmədin bir neçə qəzəlindən ibarət "Gülşənə gəl, nigara, bülbülü gör" adı altında şeir toplusunu çap etdirən tədqiqatçı daha sonra elə ilkin olaraq tədqiqinə başladığı "Vərqa və Gülşa"nın Londonda saxlanılan əlyazmasını çətinliklə də olsa əldə edərək, 1977-ci ildə respublikamızda nəşrinə nail oldu və bununla da mətnşünaslıq sahəsində ilk imzasını və həm də uğurlu imzasını atdı. Beləliklə də, "öz elmi fəaliiyyətini quru və mücərrəd fərziyyələrin deyil, sanballı, təkzibedilməz faktların üzərində qurmağı yaradıcılıq üslubu seçmiş Əlyar müəllim, elə ilk fundamental əsərində bu üslubu bütün ciddiliyi ilə nümayiş etdirrməyə nail olmuşdur."(4,10) Bununla da ədəbiyyat tariximizə gözəl, faktlara söykənən bir tədqiqat əsəri daxil oldu.

Lakin alim bununla kifayətlənmədi. Tədqiqatlar, araşdırmalarla yanaşı mətnşünaslıq sahəsində də araşdırmalarını davam etdirərək yeni-yeni əlyazmaların əldə edilib xalqın ixtiyarına verilməsində mühüm rol oynadı.

Belə k, onun bir-birinin ardınca tərtib etdiyi Məhəmməd Əmaninin "Əsərləri", "Şəhriyar" dastanı, "Dastani Əhməd Hərami" poeması, Məhəmməd Füzulinin "Seçilmiş əsərləri", Məhəmməd Füzulinin ""Həqüqətis-süəda" əsəri (ortaq müəlliflə), Şah İsmayıl Xətayinin "Əsərləri" (ortaq müəlliflə), Məhəmməd Füzulinin "Şikayətnamə", yenə də Məhəmməd Füzulinin "Qoy məni dərdimlə", İmadəddin Nəsiminin "Seçilmiş əsərləri", Məhcur Şirvaninin "Qisseyi-Şirzad", Hamidin "Seyfəlmülk" və s. nəşrləri də məhz bu baxımdan qiymətlidir.

Burada onu da qeyd edək ki, işinin mütəxəssisi olan alim bu əsərləri yalnız tərtib etməklə kifayətlənməmiş, hər bir əsəri tərtib edərkən onlara geniş şərh verməyi də unutmamışdır.

Anadilli ədəbiyyatın mühüm simalarından olan XIV əsr Azərbaycan şairi Qazi Bürhanəddin Əhməd "Divan"ını nəşrə hazırlayıb xalqın ixtiyarına verməsi də alimin bu qəbildən olan xidmətlərindəndir.

Qazi Bürhanəddin "Divan"ının 1988-ci ildə bütövlükdə nəşr edilməsi Azərbaycan xalqına sözün əsl mənasında bir töhfə oldu. "Əvvəlcə qazi rütbəsinə qədər yüksəlmiş Qazi Bürhanəddin 1381-ci ildən ömrünün sonunadək öz adı ilə adlanan dövlətin əsasını qoymuş, dövrünün qüdrətli hökmdarı kimi tanınmışdır. Lakin, şübhəsiz ki, onun böyüklüyü və ölməzliyi daha çox ana dilində şeir qoşması, öz sənət inciləri ilə dilimizi yüksək və yenilməz bir zirvəyə qaldırmasıdır." (5,4) Çünki ana dilində dövrümüzə qədər gəlib çatan ilk "Divan" Qazi Bürhanəddinə məxsusdur ki, bu "Divan"ın aşkar edilməsi isə artıq XIV əsrdə Azərbaycanda ana dilində "Divan" yaradıldığını əyani şəkildə sübut edirdi. Ə.Səfərli özü isə XIV əsrdə ana dilində ilk "Divan"ın mövcudluğunu və Qazi Bürhanəddin sənətini düzgün qiymətləndirərək yazırdı. "Böyük bir tarixi vəzifəni şərəflə yerinə yeitrən Qazi Bürhanəddin Azərbaycan divan ədəbiyyatının özülünü qoymuş, klassik poeziyanın ilkin gözəl

nümunələrini yaratmışdır. Onun yaradıcılığı Həsənoğludan sonra, İmadəddin Nəsimidən qabaq mədəniyyət tariximizdə yeni bir əlamətdar hadisə sayıla bilər. ”(6,3) Həmin dövrdə bu “Divan”ın nəşri elmi ictimaiyyət tərəfindən də böyük rəğbətlə qarşılanmışdır. M. Nağısoylu, X. Yusifli “Divan”la bağlı öz fikir və mülahizələrini mətbuat səhifələrində oxucularla bölüşmüşlər. Və bu hadisəni elmimiz üçün uğurlu bir hadisə saymışlar.

Burada onu da qeyd etmək istərdik ki, Əliyar müəllimin xaricdə çalışması da ona bu amalını həyata keçirməkdə böyük kömək oldu. Belə ki, müxtəlif illərdə xarici ölkələrdə Vətənini tərcüməçi, diplomat kimi təmsil edən Əlyar müəllimə işlərinin ağırlığıı, çoxluğu yaradıcılıq axtarışlarında bir an da olsun mane olmadı. Əksinə, bunu ədəbiyyatımızın öyrənilməsi, araşdırılması, hələ açılmamış, elmə məlum olmayan qatlarının aşkarlanması üçün bir fürsət bilən Əlyar müəllim bu fürsəti yüksək dəyərləndirdi və yeni-yeni əlyazmaların üzə çıxarılıb Vətənə gətirilməsində böyük xidmətlər göstərdi. Təkcə son illərdə ədəbiyyatımıza Əlyar Səfərlinin səyləri nəticəsində “Vərq və Gülşa” əsərinin müəllifi kimi daxil olan Məsihinin “Divan”ını aşkar etməsi və həm də güneyli soydaşlarımız üçün İran İslam Respublikasında çap etdirməsi bu axtarışların ən gözəl nəticələrindən biridir. Belə ki, Məsihinin “Divan”ı yeganə əlyazma nüsxəsindən 1998-ci ildə Tehranda nəşr olunmuşdur. Yeri gəlmişkən qeyd edək ki, “Məsihinin “Divan”ı Ə.Nəvai ilə M. Füzuli şeirinin əks-sədasıdır”,- (7,42) deyən alim əsəri 2012-ci ildə geniş şərhlərlə ölkəmizdə də nəşr etdirmişdir.

Bütün ömrünü elmə sərf edən, elmin yollarında saç ağardan, amma bir an da olsun yorulmaq nədir, bilməyən və ömrünün 75-ci baharında belə özündə 20 yaşlı gəncin gümrahlığını hiss edən qocaman alim bu gün də yorulmaq bilmir, daima çalışır, elmə yeni-yeni tohfələr bəxş edir.

Yuxarıda qeyd etdik ki, Əlyar müəllim elmə həssaslıqla yanaşır. Burada bir məsələni də xüsusilə vurğulamaq və diqqətə çatdırmaq istərdik ki, bu gün artıq elmin zirvəsini fəth edən, qayğıkeş alim tək elmə, ədəbiyyata həssaslıqla yanaşmır, o həmçinin elmin yollarında yenicə addım atan gənclərə də xüsusi qayğı göstərir, elmin yollarında irəliləmək və xalqa xidmət etmək istəyən hər bir insanın əlindən tutub məmuniyyətlə irəliyə aparır, onlara düzgün yol göstərməyi özünə borc bilir. Biz də ömrünün 75-ci baharını qeyd edən AMEA-nın müxbir üzvü, professor, filologiya elmləri doktoru, ən əsası isə, qayğıkeş insan, gözəl müəllim, zəhmətkeş alim Əlyar Səfərlini təbrik edir, - ömrün uzun, qələmin iti olsun - , deyirik.

Ədəbiyyat

1. Bəxtiyar Vahabzadə Seçilmiş əsərləri, İki cilddə. I cild (Şeirlər), Bakı, “Öndər nəşriyyatı” 2004, 328 s.
2. X. Yusifli “Divan”ın ilk nışri, Ədəbiyyat və incəsənət qəzeti, Bakı, 1989, 6 yanvar
3. Xəlil Yusifli “Kim nə miqdar olsa”, Azərbaycanın elm və mədəniyyət xadimkləri: Əlyar Səfərli Biblioqrafiya, Bak, “Elm”,2008, 128 s.
4. T.Kərimli “Klassik ədəbiyyatımızın görkəmli tədqiqatçısı”, Azərbaycanın elm və mədəniyyət xadimkləri: Əlyar Səfərli Biblioqrafiya, Bak, “Elm”,2008, 128 s.

5. M. Nağıyev "Qazi Bürhanəddin "Divan"ının ilk nəşri", "Azərbaycan müəllimi qəzeti" Bakı, 1989, 20 yanvar
6. Əlyar Səfərli "Ön söz", Qazi Bürhanəddin "Divan", Bakı, "Öndər nəşriyyatı", 2005, 720 s.
7. Ə.Səfərli "Məsihi", Məsihi "Divan" , Bakı,"Elm", 2012, 480 s.

Селтенет Алиева

Роль Алияра Сафарли в изучении и пропаганде отечественной литературы на родном языке

Резюме

В представленной статье проводится общий анализ творческого пути исследователя, текстолога ученого Алияра Сафарли. Далее автор статьи касается деятельности и работ ученого в связи с отечественной литературой на родном языке и говорит о произведениях, изданных им.

Ученый не ограничился лишь составлением книг, он дал к ним содержательные комментарии. Творческий путь А.Сафарли был высоко оценен и со стороны специалистов. Все эти вопросы подробно рассмотрены в статье.

Seltenet Aliyeva

Role of Aliyar Safarli in the study and promotion of our literature in the native language

Summary

In the article author provides the general overview of creative way of the researcher, textual scholar Aliyar Safarli. Further author affects activities and works of the scientist related to our literature in the native language, speaks about the works published by them. The scientist is not limited only to drawing up the books, he gave meaningful comments to this works. Creative way of A.Safarli was highly appreciated also by professionals. All these issues are discussed in detail in the article.

Rəyçi: Ataəmi Mirzəyev
filologiya elmləri doktoru, dosent

AQŞİN DADAŞZADƏ
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
agshin1960@rambler.ru

AZƏRBAYCAN DRAMATURGİYASININ JANR SPESİFİKASININ TƏDQİQİNİN BƏZİ PROBLEMLƏRİ

Açar sözlər: dramaturgiya, komediya, faciə, dram, janr
Ключевые слова: драматургия, комедия, трагедия, драма, жанр
Key words: dramatic works, comedy, tragedy, drama, genre

Bədii əsərin estetik mahiyyəti, onun insanların emosiyalarına və ilk növbədə şüuruna təsiri, tətbiq edilən ifadə vasitələrinin kəskinliyi bir çox hallarda yazıçının öz fikirlərini bölüşmək üçün seçdiyi ədəbi növün xüsusiyyətləri ilə bilavasitə bağlıdır. Bu cəhətdən ədəbiyyatın dram növü xüsusi spesifikaya malik olduğundan daha böyük maraq kəsb edir. Ona görə ki, kökləri qədim mərasim ayinləri ilə bağlı olan dramaturgiya bir sıra özəl cəhətlərinə görə daha cazibəli, bəlkə də daha sehrli mahiyyətə malikdir. Əgər hər hansı roman, povest, şeir əsasən oxunmaq üçün nəzərdə tutulmuşsa, dram əsərinin qayəsini anlamaqdan ötrü onu həm mütaliə etmək, həm də teatr səhnəsində izləmək olar və bu, daha məqsədəuyğundur. Bəzən müəyyən bir faciə, yaxud komediyanın müxtəlif teatrların quruluşundakı səhnə təfsiri ilə tanış olarkən eyni bir əsərin daşıdığı məna yükünü ayrı-ayrı rejissorların təxəyyülü, konsepsiyası və yozumu nöqteyi-nəzərindən müzakirə etmək, dəyərləndirmək üçün münbit zəmin yaranır ki, bu da mütəxəssis və tamaşaçı rəylərinin daha əhatəli şəkildə formalaşması üçün faydalıdır.

Dram əsərlərinin fərdi çalarları, onların emosionallıq dərəcəsi və bədii keyfiyyətləri, nəhayət, ən başlıcası, insanlarda müəyyən ovqat yarada bilmək qabiliyyəti hələ antik dövrdən başlayaraq zaman-zaman nəzəriyyəçilərin diqqətini özünə cəlb etmiş, bu sahənin görkəmli nümayəndələrini ədəbiyyat aləminin hələ indinin özünədək qaranlıq qalan və mübahisələrə səbəb olan cəhətlərinə aydınlıq gətirməyə vadar etmişdir. Əlbəttə, burada poetika ilə bağlı nəzəri suallara cavab tapmaqdan ötrü klassik dram nəzəriyyəsinin ümumi qanunlarına, onun bölgü prinsiplərinə istinad etmək və beləliklə, səhnə üçün yazılmış əsərlərin dolğun qiymətini vermək mümkündür. Söhbət ondan gedir ki, pyesin süjet xəttinin inkişafı, baş verən hadisələrin qəhrəmanların taleyinə təsiri, onların müxtəlif səhənələrdə düşdüyü vəziyyətlərin xüsusiyyətləri, nəhayət, əsərin hansı finalla bitməsi janr bölgüsünün müəyyənləşdirilməsində az rol oynamır. Amma bir məsələ də vardır ki, gerçək əlamətlər toplusu nə qədər yekrəng tərkibli olsa da, onların daxili mexanizminə, çalarlarına və incəliklərinə kifayət qədər fərqli baxışlar mövcuddur. Ona görə də səhnə üçün yazılmış hər hansı bir əsərin janrının təyin olunması zamanı müxtəlif fikirlər ortaya qoyulur və həmin fikirlər bəzən bir-birini inkar edir. Nəticədə konkret bir pyesin poetika baxımından növ mənsubiyyəti ilə əlaqədar xeyli dərəcədə müstəqil və eyni zamanda mübahisəli fikirlər səslənir. Nəzərə alınmalıdır ki, "sadəlik—başlanğıc deyil, nəticədir. Məhz bu amilə görə onun, öz mənbəyini nəzərə çarpmayan məqamlardan və sanki yaxında, "əl altında" olan cisimlərin "sadəliyindən" alan böyüklüyü üzə çıxır"(5, 35). Əlbəttə, bu fikri mövzumuzla əlaqələndirib israr edə bilə-

rik ki, sadə ifadə vasitələri istənilən əsərin qayəsinin daha dərindən anlaşılması üçün pozitiv mahiyyəti olan bir amildir. Belə olduqda, hələ Qədim Yunanıstanda yaşayan və yaradan görkəmli söz, sənət ustalarının zəngin bədii irsinin poetik incəliklərinə qiymət vermək o qədər də asan məsələ kimi görünmür. Söhbət ilk növbədə bizimlə onlar arasında olan və minilliklərlə ölçülən zaman məsafəsindən gedir. Bundan əlavə, ən mükəmməl tərcümə belə, hər hansı konkret zaman kəsiyində mövcud ictimai-siyasi şərait, o şəraitin, əsərin konfliktinə qida verdiyi məna haqqında tam təəssürat yaratmır və beləliklə, müəllif fikrinin dərk edilməsi müəyyən qədər çətinləşir ki, bu da öz növbəsində bədii nümunənin ilk növbədə ideoloji mahiyyətinin təyin edilməsində az və ya çox dərəcədə subyektivizmə yol açır. Ona görə də indinin özündə belə Sofoklun, Esxilin, Evripidin əsərlərinin janr mənsubiyyəti haqqında mülahizələr müxtəlif istinad nöqtələrinə söykəndiyindən, həmin məsələ ilə əlaqədar konkret və hamı üçün ümumi olan bir fikir formalaşdırmaq müşkül bir məsələyə çevrilir. Problemin heç də sadə olmadığını vurğulamaq üçün, məsələn, Evripidin "Medeya" əsərinə müraciət edək. Burada konfliktin müxtəlif vasitələrlə qızışdırılması nəticəsində əsərin müəyyən bir yerində elə bir vəziyyət yaranır ki, Medeya bəlkə də düşünmədən, ağına-bozuna baxmadan silsilə şəklində qətllər törədir. Əlbəttə, bu qadının hərəkətləri həddindən artıq qəddar səciyyə daşısa da, əslində onun bir insan, ələlxüsus təhqir edilmiş bir həyat yoldaşı kimi keçirdiyi iztirablar başa düşüləndir. Təbii ki, bugünün nöqteyi-nəzərindən yanaşılarsa, hətta doğma uşaqlarını belə qətlə yetirməkdən çəkinməyən Medeyanın hərəkətlərinin psixoloji səbəbləri, yəqin ki, tibbi ekspertiza vasitəsilə araşdırılmalıdır. Lakin nə bizim, nə də ki, vaxtilə Evripidin qarşısında belə bir məqsəd dayanmadığından, diqqətimizi "Medeya"nın sırf janr mənsubiyyəti məsələsinə yönəldək. Əgər əsərdə cərəyan edən hadisələrə bir qədər soyuqqanlı yanaşaraq emosiyalarımızı kənara qoysaq, təhlil imkanlarımızı cəmləşdirsək, aşkar edə bilərik ki, burada müəyyən bir janr müəmması vardır. Lakin həmin müəmma çox sadə bir şəkildə öz həllini tapır. Məsələ isə ondan ibarətdir ki, zahirən olduqca qanlı, faciəvi görünən hadisələrin üst qatı altında xeyli dərəcədə geniş yayılmış bir məişət probleminin təzahürləri vardır. Bu məqamda əsər haqqında ifadə edilən belə bir nöqteyi-nəzər kifayət qədər inandırıcı görünür: "Medeya"—Evripidin ailə münasibətləri çərçivəsində mənəvi müvazinətin qorunub saxlanılmasının zəruriliyi haqqında fikirlərini əks etdirən bir ailə-məişət dramıdır" (4, 265).

Dram əsərinin yaratdığı əhvali-ruhiyyənin, onun mənəvi-psixoloji təsir imkanlarının təyin olunmasında bir sıra çox da gözəçarpmayan məqamlar vardır. Əgər toxunduğumuz mövzunu dərinləşdirmək yolu ilə gediriksə, qeyd etməliyik ki, bu baxımdan, məsələn, faciəvilik kateqoriyası üzərində dayanmaq lazımdır. Heç bir şübhə yoxdur ki, həqiqi faciədə ideya və məzmun dairəsi çərçivəsində böyük fəlsəfi problemlərlə uzlaşan mətləblər üzə çıxmalıdır. Eyni zamanda gərgin ictimai-siyasi mübarizələr fonunda güclü xarakterlərə malik qəhrəmanların toqquşması baş verməlidir. Həm də səhnəni əhatə edən ehtiraslar burulğanında ümumi vəziyyət, qüvvələr nisbəti heç də əsas pozitiv ideyanın daşıyıcısı olan qəhrəmanın tərəfində olmamalıdır. Bütün sadalanan amillərlə yanaşı, əgər müəllif əsərin finalında öz qəhrəmanına fiziki cəhətdən ölüm hökmü "imzalasa" belə, insanlar həmin personajın apardığı mübarizənin ali məqsədinə inanmalı və bu mübarizənin, heç olmazsa, perspektiv gələcəkdə qələbə ilə nəticələnəcəyinə olan ümidlərini üzməməlidir. Məsələn,

ən qədim faciələrimizdən olan "Müsibəti-Fəxrəddin"də (N.Vəzirov, 1896) mənalı bir mövzu, olduqca cazibədar bir dramaturji dispozisiya, müəllif fikrinin inkişaf etdirilməsindən ötrü uğurla seçilmiş tipik və qeyri-tipik qəhrəmanlar vardır. Əgər şahmat terminologiyasını işə salsaq, tərəddüd etmədən söyləyə bilərik ki, dramaturq artıq oyunun debütündə üstün bir mövqeyə malikdir. Şübhəsiz ki, əsərin əvvəlində bədii manevr baxımından belə bir perspektivli vəziyyət heç də öz-özünə yaranmamış, göydən yerə asanlıqla enməmişdir. Bu fakt N.Vəzirovun uzun sürən düşüncələrinin və dramaturji istedadının bəhrəsidir. Beləliklə, müəllif xaricdə oxuyub ali məqsədlərlə doğma yurda qayıdan Fəxrəddini tələsmədən dram intriqasının ümumi planına daxil edir və onun ideoloji hədəflərini açmağa başlayır. Lakin əsərin ilk səhifələrindən (səhnələrindən) etibarən təsvir edilən mühitdə sanki dəf edilməsi mümkün olmayan ağır bir ovqat hiss olunmaqdadır. Bu ovqat onillər, bəlkə də yüzillər boyu formalaşıb bərkimiş, sümükləşmişdir. Doğma mühit geri qayıtmış Fəxrəddini cismani şəkildə qəbul etsə də, onun düşüncə tərzini, yad ölkədə yeni çalarlar əldə etmiş psixoloji-mənəvi durumunu və maarifpərvər ideyalarını qəbul etmir. Ona görə ki, Fəxrəddinin vaxtilə tərk edib getdiyi məkan öz qayda-qanunları ilə yaşamağa vərdiş etmişdir. Hər hansı yenilik onun oturuşmuş patriarxal ab-havasına ziddir. Deməli, burada faciə janrının tələblərinə cavab verə biləcək bir əsərin yaranması üçün kifayət qədər zəmin vardır. Bu əminlik, qəhrəmanı əhatə edən mühitin təmsilçilərinin gücü ilə onun şəxsi müqavimət qüvvəsi arasında olan qeyri-bərabərlik təəssüratı nəticəsində daha da möhkəmlənir. Bunun ardınca müəllif faciə janrının əsas normativlərinə uyğun olaraq pyesin əsas personajını müxtəlif çətinliklərlə üzləşdirməyə başlayır. Lakin amansız reallıqla artıq ilk toqquşma qəhrəmanın qəlbinə sağalmaz mənəvi yaralar vurur. Bir-birini fantasmaqorik tərzdə əvəz edən qanlı hadisələr əsərin süjet xəttini qarşısıalınmaz bir tərzdə ağır bir razvyazkaya doğru sürükləyir və Fəxrəddin, təəssüf ki, bu mehvərindən çıxmış proseslərin qarşısını almaq iqtidarında deyil. Əsərin finalı bir-birinə düşmən olan iki nəslin nümayəndələrinin qarşılıqlı qətlləri—ağır fiziki itkiləri ilə yadda qalır. Burada hadisələr o qədər sürət və şiddətlə cərəyan edir ki, sanki söhbət qan ədavətindən deyil, döyüş meydanında baş verən hadisələrdən gedir. Qeyd edilməlidir ki, N.Vəzirov öz pyesində sözün həqiqi mənasında güclü dramaturji dinamika və ekspressiyaya nail olmuşdur. Doğrudan da, "Müsibəti-Fəxrəddin" əsəri, faciə janrının parlaq nümunəsi haqqında fikir yürütməyə, elə bil ki, əsaslı surətdə imkan verir. Lakin finalda, sanki janrın tələblərinə aid daha bir komponent çatışmır. Söhbət xeyir qüvvə və niyyətlərin müvəqqəti məğlubiyyətinə baxmayaraq, onların haçansa qalib gələcəyi ilə bağlı hissin oyanmamasından gedir. Biz təsvir olunan mühitin gələcək perspektivlərinin işıqlı çalarlar əldə edəcəyinə bir o qədər də inanmırıq, çünki "Müsibəti-Fəxrəddin"in ümumi ruhu və məzmunu nikbin ovqat yaratmaqdan çox uzaqdır. Burada pyes boyu bir neçə dəfə təkrarlanan "bir güllə bahar olmaz" kəlamı da heç cür yaddan çıxmır. Beləliklə, pyesin spesifik çalarlarının ətraflı təhlili nəticəsində elə təəssürat oyanır ki, onun janrının dəqiqləşdirilməsi ilə əlaqədar müəyyən polemikaya ehtiyac vardır.

Janr etibarilə mübahisələr doğuran pyeslərdən biri də "İnsan" mənzum dramıdır (S.Vurğun, 1945). Burada qaldırılan problem, onun ümumbəşəri fəlsəfi vəzni, ifadə vasitələrinin incəliyi həmin bədii nümunəni Azərbaycan ədəbiyyatında şeirlə yazılmış ən uğurlu əsərlər sırasında görməyə imkan verir. İctimai-siyasi dünya-

görüşlərinin toqquşması, bir-birinə tamamilə zidd ideoloji platformaların mübarizəsi əsərdə özünü açıq şəkildə göstərsə də, müəllif tam mənada monumental səciyyəyə malik güclü qəhrəmanların surətini yarada bilməmiş, yaxud belə bir vəzifəni qarşısına qoymamışdır. Baş qəhrəman Şahbaz nə qədər humanist bir filosof olsa da, onun fəlsəfi sistemi ümumbəşəri mahiyyət daşısa da, əsir düşdüyü düşmənlərin onu fiziki cəhətdən susdurmaq üçün hər cür imkanı vardır. Belə bir ağır şəraitdə Şahbazın əks cəbhənin nümayəndələri qarşısında inamlı duruşuna baxmayaraq, o, kobud güc vasitəsilə əzilir, qətlə yetirilir. Lakin cismani ölüm filosofun mənəvi-ideoloji inanclarının üstündən xətt çəkə bilmir. Bu zaman elə bir illüziya yaranır ki, müəllif janr axtarışları çərçivəsində özü də hiss etmədən uğurlu addım atmış, tam mənada mənzum bir faciə yarada bilmişdir (halbuki S.Vurğun heç vaxt "İnsan"ı faciə adlandırmamışdır – A.D.). Lakin "İnsan", mövzusu baxımından deyil, onun bədii-dramaturji vasitələrlə işlənməsi cəhətdən faciə janrının bir nümunəsi kimi o qədər də inandırıcı görünmür. Şahbazın, kamalın ümumbəşər kontekstində nə vaxtsa qalib gələ biləcəyi haqqında təkrarlanan düşüncələri, onun fəlsəfi ritorikası real gerçəkliklə təzad təşkil edərək bu personajı mahiyyət etibarilə daha çox orta əsrlər ədəbiyyatının utopik, hətta bir qədər qeyri-müəyyən məramlı qəhrəmanlarına yaxınlaşdırır ki, bu da XX əsrin ortalarında dünya çapında mövcud olan reallıqla uyuşmur. Eyni zamanda onun, kommunizmin az qala otuz ildən sonra bütün yer üzündə qalib gələrək bəşəriyyəti xoşbəxtliyə qovuşduracağına olan dolayısı inamı da ciddi təsir bağışlamır. Bütün bu məqamlar əsərin nikbin finalla yekunlaşmasına dair bəzi şübhələr oyadır. "İnsan" qələmə alındıqdan cəmi bir neçə onillik ötdükdən sonra kommunizm haqqında proqram xarakterli fikirlərin, sosialist ideyalarının əsas daşıyıcısı olan SSRİ kimi dövlətin tarix səhnəsindən qeyb olması və son illərdə Yer kürəsini bürüyən, onminlərlə insanın amansızcasına məhv edilməsi ilə müşayiət olunan dəhşətli hadisələr isə bu illüzor nikbinliyin üzərindən birdəfəlik olaraq çarpaz xətt çəkmiş olur. Görünür ki, incə yaradıcı duyuma və dərin təhlil imkanlarına sahib olan S.Vurğun, əsərinin janr mənsubiyyətini göstərəkən onun bütün spesifik çalarlarını göz önünə gətirmiş və zənnimizcə, burada "mənzum dram" təyinatına üstünlük verməklə bədii-nəzəri obyektivlik prinsipinə sadiq qalmışdır. Halbuki vaxtilə qiyabi olaraq belə fikirlər səslənirdi ki, müəllif mövcud tarixi-siyasi konyunkturanın tələblərinə əsasən, istəsə belə, bu əsərini faciə kimi xarakterizə edə bilməzdi.

Sənətdə ciddilik, düzgün seçilmiş, yerində işlənən bədii vasitələrlə auditoriyaya əbədi dəyərə malik fikir və ideyalar aşılamaq hər zaman yaradıcı insanlar qarşısında duran mühüm vəzifə olmuşdur. Bu baxımdan ciddi komediya anlayışı özünün tərbiyəedici pafosu etibarilə xüsusi əhəmiyyətə malikdir. Nəzərə alınmalıdır ki, "komediyaya məxsus gülüş ümumi, kortəbii və amansız inkar, nəyi isə dağıtmaq demək deyildir. Ağıllı fikirlərin əsasını bəşəri nihilizm deyil, yüksək estetik ideallar təşkil edir. Məhz onların təsdiqindən ötrü tənqiddən istifadə edirlər. Ona görə də gülüş eyni dərəcədə həm inkaredici, həm də təsdiqedici mahiyyəti olan tənqidi bir qüvvədir" (3, 90). XIX əsrdə (M.F.Axundov) və XX əsrin əvvəllərində (əsasən N.Vəzirov) yazılan Azərbaycan komediyaları öz quruluşu, süjet xətti və mövzularının işlənmə keyfiyyəti baxımından səviyyəcə yüksək, tərbiyəedici dram əsərləri statusuna əsasən cavab verirdilər. Bu əsərlərdə müəlliflər ümummilli kontekstdə böyük əhəmiyyəti olan problemlərə toxunur və onları tənqidi priyomlar vasitəsilə bədiiləşdirərək həm mənalı gülüş yaradır, həm də bu gülüşün təsiri ilə o zamankı

cəmiyyətin müxtəlif təbəqələrinə təsir etmək vəzifəsini həll edirdilər. Azərbaycanda klassik mənada dramaturgiya Avropa ölkələri ilə müqayisədə daha gec meydana gəlsə də, göstərilən müəlliflərin əsərlərinin həm ümumilikdə dram növünün, həm də konkret olaraq komediya janrının əzəli normativlərinə bir çox cəhətdən uyğun gəldiyini də qeyd etmək lazımdır. Lakin tarixi inkişafın istiqaməti, ictimai-siyasi formasiyanın gözlənilmədən dəyişməsi, şübhəsiz ki, komedioqrafların yalnız dünyagörüşü və mövzularına deyil, həm də yaradıcılıq metodu və əsərlərin estetik parametrlərinə də təsir göstərməyə başladı. Nəticədə janrın ehtiva etdiyi vəziyyətlər, xarakterlər, lirik, yaxud satirik komediyalar əvəzinə məzmun və ideya baxımından dolaşıq, müəyyən hallarda isə müəllifin əsil qayəsi haqqında dumanlı fikirlər oyadan nümunələr çoxalmağa başladı. Komediya sahəsində uzun müddət mövcud olan "quraqlıq"dan sonra "Toy" əsərinin (S.Rəhman, 1937) meydana gəlməsi Azərbaycan ədəbiyyatında bu janrın üslub və forma baxımından inkişafının müvafiq yolu tapılacağı ümidini yaratsa da, gerçəklikdə həmin bədii-estetik proses bir qədər başqa çalarlar əldə etmişdir. İctimai qüsur və tendensiyaların tənqidində liberalizm mövqeyinin seçilməsi, cəmiyyətin mənəvi-əxlaqi dayaqlarını sarsıdan təhlükəli ünsürlərin ifşa olunması əvəzinə, bəzən müəllif qələmi ilə sanki tərbiyə edilməsi, yaxud, bunun tam əksi olaraq, bədii cəhətdən şübhəli priyomlarla alçaldılması, nəyin bahasına olursa-olsun gülüş effekti yaradıb tamaşaçını əyləndirmək istəyi komediyalarımızın janr şəffaflığına, onların təbii, sağlam komikliyinə ciddi zərbə endirmişdir. Odur ki, faktiki olaraq komediya kimi təqdim edilən bəzi əsərlərdə vodevil, fars, buffonada elementləri üzə çıxmışdır ki, bunun nəticəsi olaraq forma və məzmun vəhdəti pozulmuş, müəllif fikrinin təsbit olunması üçün heç də mühüm əhəmiyyət daşımayan ikinci dərəcəli təfərrüatlar üstünlük təşkil etmişdir. Bəzən dramaturqlar auditoriyanın hisslərini ələ almaqdan ötrü dramatik xəttin qəsdən zəiflədilməsi yolu ilə müəyyən mənada novatorluğa meyl göstərmiş, komediyaları, onların qaldırmalı olduğu ciddi problemlərin təsvirindən və qiymətləndirilməsindən uzaqlaşdırmış, əslində lirik-sentimental çalarlara üstünlük vermişlər. Bu halda əgər ifadə vasitələrinin tətbiqi baxımından ölçü hissi gözlənilmişsə, əsərlərin bədii-tərbiyəedici mahiyyəti əsasən mühafizə olunmuşdur. Lakin bəzən həmin bədii-estetik müvazinəti qoruyub saxlamaq mümkün olmadığından, məzmunca amorf, ideyaca müəmmalı, qeyri-müəyyən janr yönümlü nümunələr yaranmışdır. Çünki komediyanın əsas məqsədi əyləndirmək, bir növ operetta effekti yaratmaq deyil, insanları müvafiq yaradıcılıq üsulları ilə cəmiyyətin problemlərinə qarşı diqqətli olmağa yönəltməkdir. Bu halda müəlliflərin əsil komik gülüşlə mənfi qəhrəmanı birləşdirən telləri bədii cəhətdən təbii işləməsi, eyni zamanda zəruri əhəmiyyətə malik islahedici xüsusiyyətləri qabartması bacarığı heç bir vəchlə nəzərdən qaçırıla bilməz. Əks təqdirdə, yəni "bu vəhdət parçalananda ciddi ictimai gülüş məhv olur. Şübhəsiz, şən, lirik komediyalar ola bilər. Lakin yalnız lirikadan ibarət olan komediyalar ola bilməz. Ciddi komik xarakteri, qüvvətli ictimai konflikti komediyada lirika əvəz edə bilməz" (2, 98).

Maraqlıdır ki, Sabit Rəhman və Mirzə İbrahimov kimi qüdrətli komedioqraflarımız öz yaradıcılıq vəzifə və imkanlarına nə qədər ciddi yanaşsa da, dövrün mühüm, aktual məsələlərini teatr sənətinin zəngin arsenalı vasitəsilə gündəmə gətirməyə çalışsa da, janrın poetikası və təbiətindən irəli gələn əbədi qanunları gözləməyə səy göstərsə də, heç də həmişə bu işin öhdəsindən axıradək gəlməyə müvəffəq ol-

mamışlar. Təbii ki, dramaturgiya sahəsinin bu ustadlarının yaradıcılığındakı bəzi qüsurlar digər müəlliflərin yazdığı komediyalarda daha qabarıq şəkildə üzə çıxmışdır. Bu halda hətta üslub, forma və bədii priyomların müxtəlifliyinə yönələn zahiri səylər də, əlbəttə, tam mənada səmərə verməmiş, əsil komiklik vasitəsilə gülməli vəziyyətlər yaratmağa hesablanan tapıntılarla səthi, vəzncə yüngül səhnə effektləri, balaqan tipli yersiz əlavələr bir-birinə qarışaraq, əsərləri müsbət səciyyəli ideallardan uzaqlaşdırmış və bunun məntiqi davamı olaraq həm janr oriyentirləri pozulmuş, həm də sənət meyarları enmişdir.

Azərbaycan ədəbiyyatında dramın bir janr kimi inkişafı, zaman ötdükcə əvvəllər bəlli olmayan çalarlarla zənginləşməsi də diqqətəlayiq bir proses hesab edilə bilər. Milli dramaturgiyada bu qəbildən olan əsərlərin yazılması əsasən ötən əsrin 20-ci illərindən başlayaraq vüsət almışdır. Belə olan təqdirdə qələmini uzun müddət bu sahədə sınayan müəlliflərdən biri—İ.Əfəndiyevin yaradıcılığına diqqət yetirmək məqsədəuyğun görünür. Səciyyəvidir ki, dramaturqun hələ ilk pyesləri—"İntizar" (M.Hüseynlə birgə, 1944), "İşıqlı yollar" (1946), "Bahar suları" (1948) həyatda cərəyan edən proseslərə bir növ seyrçi mövqedən yanaşma, xəfif romantika və lirik emosiyalar üzərində köklənən bir ovqatla aşılanmışdır. Artıq bu əsərlərdə müəllifin ənənəvi dramaturgiyanın cəbbəxanasında olan priyomlardan kənara çıxmaq, süjet xəttini lirik ünsürlərlə bəzəmək, qəhrəmanları bir qədər mücərrəd aləmə qərq etmək, bir sözlə, janr etibarilə yeni tipli dramlar qələmə almaq istəyi hiss edilməkdədir. Bu baxımdan dramaturqun sırf mənəviyyat və ictimai əxlaq məslələrinə həsr olunmuş "Atayevlər ailəsi" pyesi (1954) konfliktinin kəskinliyinə görə bir qədər fərqli təsir bağışlayır. Ümumiyyətlə, göstərilən əsəri həm problematikasına, həm də onun dramaturji cəhətdən həlli yollarına görə ictimai-məişət dramı adlandırmaq olar ki, bu da vaxtilə janrın imkanlarının genişləndirilməsi baxımından müəyyən perspektivlər vəd edirdi. Lakin İ.Əfəndiyev bütün yaradıcılığı boyu sənətdə şərti olaraq lirik-psixoloji üslub adlanan bədii istiqamətə meylli olmuşdur ki, bu amil də Azərbaycan ədəbiyyatında dram janrının daha da şaxələnməsinə, mövzu və estetik məzmun etibarilə zənginləşərək özünəməxsus inkişaf yolu ilə irəliləməsinə təkan vermişdir. Zənnimizcə, yazıçının yaradıcılığına 1930-50-ci illərdə bütün sovet məkanında, demək olar ki, sənət növlərinin hamısını təzyiq altında saxlayan "konfliktsizlik nəzəriyyəsi" təsirsiz ötüşməmişdir. Hər hansı bir konfliktin təsvirini vaxtı ötmüş bir hal sayan, həyatda və cəmiyyətdə mövcud olan problemlərə bəzək verərək, gerçəkliyin yalnız işıqlı tərəflərini göstərməyi tələb edən, əsər qəhrəmanlarının yolundakı maneələri müəllifin iradəsi ilə yumşaldan, hətta tamamilə yox edən bu nəzəriyyə sənət aləmində ideya-bədii mükəmməllik baxımından xeyli fəsad yaratsa da, onun, bəlkə qeyri-ixtiyari olaraq, pozitiv tərəfləri də olmuşdur. Belə ki, məsələn, ədəbiyyatda, o cümlədən dramaturgiyada kəskin toqquşmaların, xarakter və əqidələr mübarizəsinin işlənməsinə əslində tabu qoyulan bir şəraitdə İ.Əfəndiyev kimi qələm sahibləri zamanın nəbzini "tutmağa" məcbur olmuş, yeni mündəricə və ifadə vasitələri axtarışına çıxmış və beləliklə, bu axtarışlar, üslubuna görə əvvəllər bəlli olmayan yaradıcılıq təzahürləri ilə nəticələnmişdir. Odur ki, konkret halda şərti olaraq "İ.Əfəndiyev teatrı" adlanan hadisə heç də təsadüfi səciyyə daşımır. Bu prosesin təbii davamı olaraq dram janrında yazılan əsərlərdə insan qəlbinin dəruni, müəyyən qədər intim hissləri ön plana çəkilmiş, hər bir fərdin şəxsi həyatı və psixoloji

sarsıntıları dramaturgiyanın imkan verdiyi vasitələrlə, sanki bir projektorun şüaları ilə işıqlandırılmışdır. Bəzən bu dramlarda sosial və fəlsəfi mahiyyət arxa plana keçsə də, məişət təfərrüatlarının və hisslərin təsvirinə daha çox yer ayrılsa da, müəllifin, dram janrının ifadə imkanlarını genişləndirmək, səhnə üçün yazılan əsərlərin məzmun və formasını müsbət mənada təftiş etmək baxımından fəaliyyətinin məqsədəuyğunluğu şübhə predmeti ola bilməz.

Hələ ötən əsrin ortalarında akademik Məmməd Arif ədəbiyyatda həmişəyaşar yaradıcılıq vəzifələrinin labüdlüyünü nəzərdə tutaraq yazırdı: "Böyük ehtiraslarda, bəşəri ehtiraslarda böyük fikirlər, mənalar saxlanmışdır; insanlar dəyişir, lakin insanın qəlbi və fikri üçün əbədi qanun olan mənalar az-çox dəyişsələr də, yenə bir məna olaraq yaşayırlar" (1, 192). Deməli, dramaturgiyanın poetika aydınlığı baxımından səhnə əsərlərinin janr bölgüsü və kateqoriya mənsubiyyəti haqqında polemikalar nə qədər faydalı olsa da, hər bir zaman əsas meyar olaraq yaradıcılığın ideya məzmunu və bədii siqlətinə xüsusi önəm verilmişdir. Belə olan təqdirdə məsuliyyətsiz şəkildə qələm işlədib oxucu və tamaşaçıların diqqətinə "təcavüz etmək", zövqləri korlamaq yolverilməzdir.

Ədəbiyyat

1.Məmməd Arif. Seçilmiş əsərləri. Üç cilddə. I c. Bakı: Elm, 1967
2.Yaşar Qarayev. Səhnəmiz və müasirlərimiz. Bakı: Azərnəşr, 1972
3. Борев Ю. Эстетика. Москва: Издательство политической литературы,1981
4. Поспелов Г. Теория литературы. Москва: Высшая школа, 1978
5. Хайдеггер М. Исток художественного творения. Москва: "Академический проект", 2008

Agshin Dadashzada

Genre specificity in Azerbaijan dramaturgy

Summary

In the article theoretical aspects of genre specificity in Azerbaijan dramatic works are analyzed. Furthermore, author evaluates display of comicalness and tragedy, and values identity of national drama. Author applies such terms as heterogeneity and multi planning while describing concrete images of classic dramaturgy and plays of Azerbaijan authors. At the same time, the issue of diffuseness of the genre borders in the frames of one work is analyzed and the level of the variation in this issue is evaluated. Furthermore, author analyzes different dramatic images created by Azerbaijan writers and their ideological and artistic-aesthetic qualities.

Агшин Дадашзаде

Некоторые проблемы исследования жанровой
специфики азербайджанской драматургии

Резюме

В статье анализируются теоретические аспекты жанровой специфики азербайджанской драматургии, дается оценка проявлениям трагичности и комичности, высказывается мнение о самобытности национальной драмы. Автор, обращаясь к конкретным художественным образцам классической драматургии и пьесам отечественных авторов, применяет такие понятия, как неоднородность и многоплановость жанровых особенностей. Здесь же затрагивается проблема размытости межжанровых границ в рамках единого произведения, дается оценка степени вариативности в данном вопросе. Далее разбираются отдельные драматические образцы, принадлежащие перу азербайджанских писателей, высказывается мнение об их идейных и художественно-эстетических достоинствах.

Rəyçi: Məhəmmədəli Mustafayev
filologiya elmləri doktoru

AYŞƏN KAZIMLI
Qafqaz Universiteti
filoloq@mail.ru

CƏLİL MƏMMƏDQULUZADƏNİN HEKAYƏLƏRİNDƏ "KİÇİK ADAM" OBRAZLARI

Açar sözlər: qəhrəman, kiçik adam, nəsr, dialoq, tənqidi realizm
Ключевые слова: герой, маленкий человек,проза, диалог, критический реализм.
Key words hero,small people, prose, dialogue, critical realism

Ədəbiyyatda "kiçik adam" probleminin qabardılmasına daha çox rus ədəbiyyatında rast gəlirik. Bu tipli qəhrəmanlar ilk dəfə rus ədəbiyyatında XIX əsrin 20-30-cu illərində realizmin yaranması ilə əlaqədar olaraq işlənməyə başladı. A.S.Puşkin "Dayanacaq baxıcısı", N.V.Qoqol "Şinel" povestlərində kiçik adam obrazı yaratmaqla bu ənənənin başlanğıcını qoydular. Daha sonrakı dövrlərdə A.Çexov, M.Qorki öz hekayələrində, M.Bulqakov, M.Zoşşenka məişət satiralarında bu ənənəni davam etdirdilər [3]. Bu problem nə dünya ədəbiyyatından, nə də Azərbaycan ədəbiyyatından yan keçmədi. Dünya ədəbiyyatında Frans Kafka, Alber Kamü kiçik adam obrazını daha qlobal miqyasda işlədilər. Azərbaycan ədəbiyyatında isə Cəlil Məmmədquluzadənin başladığı bu yolu sonralar uğurla yazıçı Anar davam etdirdi. "Dantenin yubileyi" povestinin qəhrəmanı Kəbirlinski Azərbaycan ədəbiyyatında işlənmiş "kiçik adam" obrazlarından ən yadda qalanlarındandır.

Cəlil Məmmədquluzadənin qəhrəmanlarının çoxu sadə insanlar – kəndlilər, kiçik məmurlar, xalqın savadsız, cahil nümayəndələridir. Ədib onları hekayələrinin baş qəhrəmanına çevirməklə "kiçik adam"ların problemlərini qabardır, cəmiyyətin inkişafdan qalmasında bu tiplərin rolunu göstərir.

Akademik və ədəbiyyatşümas-alim İsa Həbibbəyli də Cəlil Məmmədquluzadənin yaradıcılığında "kiçik adam"ların üstünlük təşkil etdiyini qeyd edir: "Məhz onun yaradıcılığı sayəsində kiçik adam böyük ədəbiyyatın əsas qəhrəmanına çevrilmişdir" [1, 7].

Cəlil Məmmədquluzadə "Poçt qutusu" hekayəsi ilə Azərbaycan nəsrinin inkişafında iri bir addım atdı. Bu hekayə ədəbiyyatşünas alim Əli Nazimin sözləri ilə desək, "O zaman qədər yüksək, mümtaz siniflərin zövqünə xidmət edən ədəbiyyat kəbəsinə cəmiyyətin aşağı qatlarını, zümrələrini, insanlarını gətirir". Novruzəlinin simasında kiçik adamın qeyri-adi əhvalatı oxucuya elə dəqiqlik və incəliklə çatdırılır ki, oxucuda hadisənin baş verdiyinə dair şübhə yeri qalmır. Avam kəndli olan Novruzəlinin davranışı, Vəli xanla dialoqları müəllif ideyasının açılmasına xidmət edir. Elə ilk dəfə hekayədə görünməsi və xanla ilk dialoqu ilə Novruzəli öz xarakterini açıq sərgiləyir:

"- A kişi, Novruzəli! Bu nə zəhmətdi, çəkmisən?
- Bu nə sözdü, ay xan? Mən ölənə kimi sənə qulam" [2, 123].

Özünü xanın yanında kiçik tutması və qul sayması qətiyyən Novruzəlinin şəxsiyyətinə təsir göstərmir. Ümumiyyətlə "kiçik adam"lar daim cəmiyyətin gözündə aşağı, nə qədər namuslu, vicdanlı olsa da, bir qədər axmaq obrazında verilir. Bu

da təkcə cəmiyyətin yox, elə həmin "kiçik adam"ın problemidir. Çünki həmin "kiçik adam" bu obrazı məhz özü formalaşdırıb, şüuraltı olaraq cəmiyyətə aşağılama, təhqir etmə səlahiyyəti verir:

Novruzəlinin sözlərindən və davranışından da göründüyü kimi, günahı olmaya-olmaya xandan dönə-dönə üzr istəməsi, qarşısında əyilməsi məhz özünün xarakterindən irəli gəlir. Ətrafdakı insanlar da məhz bu sadəliyi və avamlığından istifadə edərək ona ikinci dərəcəli bir insan kimi baxır, fikirləri ilə hesablaşmır, yalnız işləri düşəndə yalandan mehriban münasibət göstərirlər. Avam Novruzəlini digər xalqın nümayəndələri – ruslar, ermənilərlə müqayisə edən müəllif bu məqamda tənqidi realizmin qayda-qanununa riayət edir. Novruzəlinin cahilliyini onlarin mədəni səviyyəsinə qarşı qoyan yazıçı əslində öz xalqının nümayəndələrinin də tezliklə yeniliklərdən xəbərdar olmasını, mədəni səviyyəsinin artmasını arzulayır. Başına gələn əhvalatı danışdırmaqda xanın məqsədi heç də məsələnin dərinliyinə varmaq və hadisənin səbəblərini araşdırmaq deyil. Xan bu hadisəyə əyləncə kimi yanaşır və Novruzəlini sanki təlxək simasında öz hüzurunda rol oynamağa məcbur edir. Aşağıdakı sözlər də fikrimizi təsdiq edir: "Di indi əhvalatı nağıl elə, Novruzəli! Sənin bu hekayətin çox şirin hekayətdi. Kitaba yazılmalıdı. Nağıl elə təfsilən: yəni hamısını birbəbir. Başla burada kağızı götürüb aparmağından, ta dama düşməyinə kimi..." [2, 126].

Finalda Vəli xanın Noruzəlinin başına gələn əhvalata reaksiyası – "Xan bir qədər fikir etdi" ifadəsini Novruzəlinin "kiçik adam" olmasını qanuniləşdirən hökm kimi qəbul etmək olar. Müəllif tərəfindən hekayə boyunca Novruzəli obrazının təsviri məhz bu ifadə tamamlanır və "kiçik adam"ların cəmiyyətdə tutduğu yerə açıq münasibət formalaşdırır.

Cəlil Məmmədquluzadənin kiçik həcmli hekayələrinin əsas qəhrəmanlarının əksəriyyəti "kiçik adam" qəhrəman modelinə uyğun gəlir. Çünki yazıçı öz qəhrəmanlarının çoxunu məhz həyatın dibindən tapır, onları ən əzab-əziyyətli situasiyalara salır. Amma bu əzab-əziyyətə müəllif uğurla yumor qataraq hekayələrini oxunaqlı edir. Gülüşün ardında dayanan ağrı-acı "kiçik adam"ın real cizgilərini müəyyənləşdirməkdə oxucuya kömək edir. Azərbaycan yazıçısı Süleyman Rəhimovun Cəlil Məmmədquluzadə haqqında bir ifadəsini xatırlamaq yerinə düşərdi: "Kim deyir ki, Mirzə Cəlil gülüb, yanılır, Azərbaycan torpağında hələ belə ağlayan olmayıb". Mirzə Cəlil daim öz xalqının nümayəndələrinin –, avam gənclərinin, hüququnu bilməyən qadınlarının, fırıldaq qurbanı olan kəndlilərinin halına ağlayıb. Amma bu ağlaşma üzə gülüş, tənqidi satira şəklində çıxıb. Yazıçı zəlil vəziyyətə düşməkdə xalqın özünü günahlandırır və bütün qüsurları xalqın üzünə çırpmaqla, millətin eyiblərini bütün çılpaqlığı ilə göstərməklə milli oyanışa, özünüdərketməyə nail olmaq istəyib. Mirzə Cəlil başqa cür yaza bilməzdi, ən azı o tənqidi realizm cərəyanının nümayəndəsi idi və millətin yüksəlişinə onu tənqid edərək çatmağın mümkünlüyünə inanırdı.

"İranda hürriyyət" hekayəsi daha bir "kiçik adam"ın – Kərbəlayi Məmmədəlinin həyatından kiçik bir fraqmentə həsr olunub. Öz vətəni İrandan bir parça çörək üçün didərgin düşən Kərbəlayi Məmmədəli ailəsinə verdiyi sözə əməl etmir və bir arvadı özünə siğə etdirir. Vətənə İrana hürriyyət verildiyini xəbər tutan qəhrəman təzə arvadının tələbi ilə öz payını almağa cəhd göstərir. Hürriyyətin maddi bir şey olduğunu, alınıb-satıldığını xəyal edən Kərbəlayi Məmmədəli işin həqiqi məğzindən xəbərsizdir. İki ailənin arasında qalan qəhrəman məktub yerdəyişməsi nəticəsində bəla-

ya düşür, ailəsi təzə arvad aldığından xəbər tutub onun üstünə gəlirlər. Müəllif final vasitəsilə göstərmək istəyir ki, "kiçik adam" böyük planlar quranda iflasa uğrayır, qazandığı bir tikə də haram olur. "Kiçik adam" verdiyi sözə xilaf çıxıb təzə arvad alanda hələ o qədər də günahkar deyil, amma hürriyyət payını istəməsi artıq günahdır və bu günah cəzasız qala bilməzdi. Əgər Kərbalayi Məmmədəli hürriyyətin nə olduğunu anlasaydı, "kiçik adam" obrazı çərçivəsinə sığmazdı. Amma qəhrəman bütün hekayə boyu cahil və acgöz xarakterə malik bir obraz kimi təsvir edilir, azadlıq kimi ali ideyaların mövcudluğundan xəbəri belə olmur. Cəmiyyətdə lazımsız, artıq adam sayılması – hər iki arvad tərəfindən rədd olunması "kiçik adam"ın taleyidir və Kərbəlayi Məmmədəli bu taleni qəbul etməyə borcludur. Müəllif qəsdən hekayəni yekunlaşdırmır. "Dəxi bilmirəm mərəkənin axırı hara çatdı" cümləsi ilə qəti hökm verməkdən boyun qaçırdır, finalı müəyyənləşdirməyi oxucunun ixtiyarına buraxır. Ancaq "kiçik adam"ın aqibəti oxuculara tanışdır. Onlar əbədi laqeydlik, ətrafdakılar tərəfindən aşağılanma damğası ilə "mükafatlandırılıblar".

Tipik "kiçik adam" surəti Cəlil Məmmədquluzadənin "Konsulun arvadı" hekayəsində də yaradılmışdır. Rzaqulu eşitdiyi xəbərə əsasən konsulun arvadının öldüyünü dostuna – müəllifə xəbər verir. Təhkiyə yenə də birinci şəxsin – hadisəni danışan müəllifin dilindən nəql edilir. Birinci şəxsin dilindən verilən təhkiyə Cəlil Məmmədquluzadənin kiçik həcmli hekayələri üçün xarakterik cəhətlərdəndir. Konsulun yanına başsağlığagedən iki dost absurd vəziyyətə düşürlər – konsulun arvadı olub, evdə isə qətiyyən yas abu-havası yoxdur. Başsağlığa gəldiklərini deyən dostlar konsul tərəfindən anlaşılmazlıqla qarşılanırlar. Konsul əvvəlcə elə anlayır ki, Moskvada təhsil alan oğlundan qara xəbər gəlib. Daha sonra işin məğzindən xəbər tutduqda – ölən adamın birinci arvadı olduğunu bildikdə qara-qışqırıq qopararaq dostlardan onu niyə narahat etdiklərini soruşur. Hekayədə Rzaqulu yersiz hörmətcilliyi ilə çıxılmaz vəziyyətə düşür. Əslində müəllif hekayənin əvvəlində öz sözləri ilə ona "kiçik adam" olduğunu, yersiz hərəkət etdiyini deyir: "Rzaqulu, dünyada bir şey var ki, hər bir arif adam ondan gərək xəbərdar olsun. Əlbəttə sən ki, deyirsən konsulun arvadı ölüb, əlbəttə allah cəmi ölənlərə rəhmət eləsin. Ölü sahibini yoxlamaq insanın birinci nişanəsidir. Və lakin sən gərək bunu biləsən ki, ölü sahibini o yerdə yoxlamaq lazımdır ki, sənin yoxlamağına o möhtac olsun. Amma, allaha şükür, İran konsulu və cəmi yer üzünün konsulları bir böyük əşxasdırlar. Sən səy et, elə bir kəsi yada sal və elə bir kəsin ölüsünün üstünə get ki, səni orada gözləyə bilsinlər və oraya sənin getməyin yada düşsün... Bir də, qardaş, bax, sözün açığı, sən hara, konsul hara?" [2, 210].

Ancaq deyilən sözlər Rzaquluya təsir etmir, konsula başsağlığı verməkdə israr edir. Böyük işlərə baş qoşması və əslində öz lazımsızlığını dərk etməməsi "kiçik adam"ların fəlakətidir. Konsul öz son sözləri ilə əslində Rzaqulunun nə dərəcə lazımsız xəbəri çatdırdığını sübut edir: "Ay cəhənnəmə vəfat edib, gora vəfat edib! Rəhmətliyin uşaqları (bizə işarə ilə) hələ adlarını müəllim qoyub, amma gör nəyə məşğuldurlar!" [2, 213]. Ancaq tipik "kiçik adam" obrazından fərqli olaraq Rzaqulu sonda etdiyi işin mənasızlığını anlayır ki, biz də bunu qəhrəmanın son sözlərindən və davranışından müşahidə edirik.

"Şeir bülbülləri" hekayəsi anlaşılmaz və yad ərəb dilinə meyl edib öz ana dilinə xor baxanların tənqidinə yönəlib. Epiqraf artıq oxucuya ipucu verərək hekayədə nədən bəhs ediləcəyinə işarə edir:

"Əvət, əvət, o qadın iştə bak nasıl bakıyor,
Əvət, əvət, o qadın iştə bak nasıl sakıyor"
Ədəbiyyat zavodlarımızda verilən dərslərdən" [2, 288]

Ana dilinə yad münasibət Cəlil Məmmədquluzadənin istər dram ("Anamın kitabı"), istər hekayə ("Sirkə", Şeir bülbülləri"),.. , istərsə də publisistik ("Sizi deyib gəlmişəm", "Bizim "obrazovannı"lar", "Ana dili") yaradıcılığında mühüm yer tutur. Bu hekayədə də eyni problem qaldırılmışdır. Hekayənin qəhrəmanı nadir şeir nümunələri tapdığını iddia dərək Molla əmiyə onları oxumaq istəyir. Molla isə qəliz ərəb-fars tərkibləri ilə zəngin qəzəlləri başa düşməsə də, özünün savadsız sayıla biləcəyindən ehtiyat edərək hər deyilən sözü təsdiqləyir. Ancaq bu məqamda qonşu otaqdan doğma ana dilində nağıl danışan Zeynəbin səsi hamını susdurur və ana dilinin sehrinə salır. Müəllif hekayəyə Zeynəbin dilindən sadə və axıcı bir nağıl daxil edir. Amma oxucunu intizarda qoyaraq nağılı yarıda kəsərək finalla tanış etmir. Hekayənin təhkiyəçisi – Molla əmi yalnız sonda, özü də maarifpərvər bir gəncin – ev sahibinin oğlunun qarşısında öz "savadsızlığını" boynuna alır və həmin şairləri anlamadığını deyir.

"Saqqallı uşaq" hekayəsi Mirzə Cəlilin kütlə arasında çox yayılmış və sevilən hekayələrindəndir. Sadə təhkiyə tərzi, incə yumoru ilə yazıçı Cəlil Məmmədquluzadə həqiqətən də Azərbaycan hekayə janrının incilərindən birini yaratmağa nail olmuşdur. Hekayədə təsvir olunan hadisə çox adi bir məişət hadisəsidir. Yazıçı isə bu adiliyə elə orijinallıq qatıb ki, oxucu məişət əhvalatının ardında böyük bir problem olduğunu görə bilir. Hekayənin məzmunu əslində çox sadədir: ərzaq məhsulları satan Kəblə Əzim yazıb-oxumaq bilmədiyindən hər evin borcunu divara şəkillər vasitəsilə qeyd edir. Evin sahibi isə divardakı yazıları görüb əsəbləşir və bu işi uşaqlarının turduğundan şübhələnir. Uşaqları tənbeh etsə də heç kim bu əməli boynuna almır. Sonunda divara şəkillər çəkənin kimliyi evin sahibinə bəlli olur. Yazıçı öz təhkiyə texnikasına bu hekayədə də sadiq qalaraq hadisəni birinci şəxsin dilindən danışır. Bu hekayədə də birinci şəxs həm təhkiyəçi, həm də real müəllifin özüdür. Müəllifin özünü biruzə verməyi bu hekayədə də təxəllüsünü qeyd etməklə bilinir: "Molla əmi, düzü mənim dərsim-zadım yoxdu, bu bir yaddaşdı, yazdım ki, hesablar dolaşmasın".

Hekayəni özünəməxsus sonluqla bitirən müəllif sonda oxucunu da işbirliyə dəvət edir: "Uşaqlar çox gülüşdülər və məlum ki, bunların gülüşüb şad olmalarına böyük bir səbəb var idi ki, hər bir oxucuya aşikar olsun gərək" [2, 267]. Bu ifadədən göründüyü kimi, yazıçı oxucunu başqa müəlliflər kimi ikinci planda saxlamır. Mirzə Cəlil bir çox hekayələrində, o cümlədən "Saqqallı uşaq" hekayəsində də oxucunu ön plana çıxarır, oxucunun formalaşmaqda olan rəyini, hekayəni oxuduqdan sonra oxucuda yaranacaq təəssüratı da hekayəsinə daxil etməyə çalışıb.

"Saqqallı uşaq" hekayəsinin qəhrəmanı Kəblə Əzim "Poçt qutusu" hekayəsinin qəhrəmanı Novruzəli obrazı ilə müəyyən yaxınlığa malikdir. Hər iki obraz dövrünün yeniliklərindən, yazıb-oxuma mədəniyyətindən geri qalıblar. Bu tipli "balaca adamlar" ətrafdakı insanların gülüşünə səbəb olur, ancaq onlar heç də təkmilləşmək, savadlarını artırmaq fikrində deyillər. "Mənim dərsim-zadım yoxdu" deyən Kəblə Əzim, "Ay xan, mən kətdi adamam, mən nə bilirəm poçtxana nədi?" deyən Novruzəli öz avamlıqlarını əllərində bir növ silaha çevirir. Müəllif isə onların qabağına yalnız gülüşlə çıxır. İstər Novruzəlinin əhvalatına qah-qah çəkib gülən Xan, istərsə

də Kəblə Əzimin etdiklərinə uşaqları ilə birgə gülüşən Molla əmi cəhalət içində boğulan xalqı gülüşlə tərbiyə etməyin mümkünlüyünə inanır.

Misallardan da göründüyü kimi Cəlil Məmmədquluzadə hekayələrində reallığı, həyat həqiqətlərini çatdırmaqdan ötrü "kiçik adam" obrazlarından mütəmadi şəkildə istifadə edir. Bu obrazlar müəllifə xalqla daha yaxın təmasda olmağa imkan verir, nəticədə isə ədəbiyyatın xəlqiləşməsinə gətirib çıxarır.

Ədəbiyyat

1. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə – milli istiqlal ədəbiyyatının sərkərdəsi. Xalq qəzeti, 27.01.2010. s. 7.
2. Məmmədquluzadə C. Seçilmiş əsərləri. Dörd cilddə. I cild. Bakı, Öndər, 2004.
3. Аникин А. А. Тема маленького человека в русской классике. http://www.portal-slovo.ru/philology/37140.php

A.Kazimli

The images of "small people" in the stories Jalil Mammadguluzadeh

Summary

Jalil Məmədquluzadənin stories in the article "little people" characters investigated. For this purpose, "Mail Box", "Freedom in Iran", "The consul's wife", "Poetry bulbulləri," Bearded kids' stories were also investigated. The author of the stories in the "little man" points to the use of the image revealed

А.Казимли

Образ «маленького человека» в рассказах Джалила Маммедгулузаде

Резюме

Джалил Мамедкулизаде статье истории «маленького человека» исследовал символов. Для этой цели, "Почтовый ящик", "свободы в Иране", "Консул жены", "Поэзия bulbulləri," истории Бородатый детей также были исследованы. Автором истории в "маленького человека" указывает на использование изображения показали.

Rəyçi: Professor Akif Hüseynli

SEVİNC QASIMOVA
AMEA Folklor İnstitutu

"AZƏRBAYCANDA NOVRUZ ƏNƏNƏLƏRİ VƏ İNANCLARI" PROBLEMİNİN ƏSASLARI

Açar sözlər: Novruz, çərşənbə, ənənə, inanc, folklor
Ключевые слова: Новруз, среда, традиция, верование, фольклор.
Key words: Novruz, wensday, tradition, belief, folklore.

Problemin qoyuluşu. Azərbaycan milli-mənəvi mədəniyyətinin ən qədim və zəngin tarixə malik, eyni zamanda ən aktual abidələrindən biri və bəlkə də, birincisi Novruz bayramıdır. Bu bayramın hər zaman, həm yaşarılıq baxımından birinci hesab olunması təsadüfi deyildir. Xalqımızın mədəniyyət tarixində nə qədər böyük abidələr olsa da, onlar bütün hallarda tarixin müəyyən epoxaları ilə bağlıdır. Lakin Novruz bayramının həm qədimlik, həm də müasirlik baxımından milli mədəniyyətimizdə xüsusi və əlahiddə yeri vardır:

Birincisi, Novruz bayramı xalqımızın tarixinin ən dərin qatları ilə bağlıdır. Bu bayramın tarixi o qədər qədimdir ki, hətta onun dəqiq yaşını müəyyənləşdirmək mümkün deyildir.

İkincisi, Azərbaycan mədəniyyət tarixində Novruz bayramı kimi ikinci elə bir mədəniyyət fenomeni tapmaq mümkün deyildir ki, o, tarixin ən qədim dövrlərindən bu günə kimi bir an belə olsun xalqımızın həyatından ayrı düşməsin. Bu – Novruz bayramıdır.

Novruz bayramı həmişə – tarixin bütün dövrərində, bütün epoxalarında xalqımızla birgə olmuş, milli mədəniyyətimizin, milli mənəviyyat və həyatımızın ayrılmaz parçasına çevrilmişdir. Novruz bayramına heç vaxt sönməyən, tükənməyən elmi marağın da əsasında elə bu amil durur. Ona xalqımızın hər zaman böyük ehtiyacı olmuşdur. Sovet dövründə alimlərimiz "yaz bayramı", "təbiətin oyanışı bayramı" və s. adlar altında bu bayramı yaşatmağa çalışırdılar ki, milli mədəniyyətimizi ölməyə qoymasınlar. Çünki Novruz milli varlığımızın simvolu, milli inkişafımızın ulu və möhtəşəm qaynağıdır. O, bu əsas vəzifəsini bu gün də uğurla yerinə yetirir. Müasir Azərbaycan dövlətinin milli quruculuq siyasətində muğam, xalça və aşıq sənəti ilə yanaşı, mühüm rol oynayan Novruz bayramı artıq bütün dünyada Azərbaycan xalqının mühüm milli simvollarından birinə çevrilmişdir. Bu da öz növbəsində ona olan elmi marağı daha da gücləndirir. Bu cəhətdən "Azərbaycanda Novruz ənənələri və inancları" mövzusu xüsusi elmi aktuallq kəsb edir. Novruz bayramının milli mədəniyyətimizdəki rolunun ildən-ilə daha da güclənməsi onu yaşadan, ölməyə qoymayan ənənələri və onların əsasında duran müqəddəs dəyərləri – inanc sistemini dərindən öyrənməyi xüsusi elmi vəzifə kimi qarşıya qoyur.

Tədqiqatın əsas məqsədi. Tədqiqatın aparılmasında başlıca məqsəd "Azərbaycanda Novruz ənənələri və inancları" mövzusunun öyrənilməsinin əsaslarını müəyyənləşdiməkdir. Bu məqsədi aşağıdakı vəzifələri yerinə yetirməklə həyata keçirmək mümkündür:

Novruz bayramı ilə bağlı ilaxır çərşənbə ənənələrinin tədqiqi;
Novruz bayramı ilə bağlı tamaşa ənənələrinin tədqiqi;

Novruz bayramı ilə bağlı oyun ənənələrinin tədqiqi;
Novruz bayramı ilə bağlı magik ənənələrin (falların) tədqiqi;
Novruz bayramı ilə bağlı mətbəx-məişət ənənələrinin tədqiqi;
Novruz bayramı ilə bağlı inanc ənənələrinin tədqiqi;
Novruz bayramı ilə bağlı əsas kultların (od/atəş, su, bitki, torpaq və s.) tədqiqi və s.

"Azərbaycanda Novruz ənənələri və inancları" mövzusu ilə bağlı tədqiqatın obyektində milli mədəniyyətimizin ən qədim və zəngin hadisəsi olan Novruz bayramı durur. Novruz bayramı bir kompleks kimi özündə milli mədəniyyətimizin aşağıdakı qatlarını bir çox qatlarını özündə qovuşdurur:

1. Ən qədim mifoloji görüşlər:

Buraya son dərəcə qədim mifik-əsatiri görüşlər aiddir. A.Xəlil göstərir ki, Novruz bayramının mifoloji əsaslarında qışın yazla əvəzlənməsi, təbiətin ölüb dirilməsi mifi durur (1, s. 116).

Vaxtilə bu mifdən bəhs edən M.Seyidov göstərir ki, bir çox xalqlarda o sıradan da azərbaycanlılarda yazın qışı əvəz etməsi mifologiyada vuruş kimi təsəvvür olunmuşdur (2, s. 9).

"Ölüb-dirilmə" mifologoyada əsas və qədim motivdir. P.A.Qrintser ölüb-dirilən tanrı obrazı haqqında yazır ki, o, əjdaha, xtonik demon, yaxud təbiətin strukturdağıdıcı qüvvələrini təcəssüm etdirən tanrı ilə düşmənçilik edir. Özünün hansısa ixtiyari, yad da qeyri-ixtiyari hərəkəti ilə yer-ananın, yaxud öz qadın tanrı tərəf-müqabilinin (Dumuzi – İnannanın, Adonis – Artemidanın, Dionis – Heranın) nifrətinə səbəb olur. Konflikt nəticəsində tanrı – qəhrəman (Osiris, Balu, Adonis, Attis, Dionis) ölür; (Telepinus, Demetra) yox olur; müvəqqəti məğlubiyyətə uğrayır; özünün həyati əhəmiyyətli hər hansı orqanını (Osirisin oğlu Qor – gözünü, hett ildırım tanrısı – gözünü və ürəyini) itirir. Bacı, ana, arvad, daha az halda – oğul, yaxud qohum tanrının axtarışına (yaxud ona köməyə) çıxır. Onlar tanrını tapır, onun yaşadığı yerə qaytarır, yaxud dirildirlər. Bu zaman tanrı təkbaşına, yaxud daha çox halda onlarla birgə özünün demonik rəqibini öldürür. Dirilmiş (yaxud qayıtmış) tanrı öz əvvəlki statusunu bərpa edir (3, s. 547).

R.Əliyev Azərbaycan nağıllarında bu mifologemin üç tipini aşkarlayaraq göstərir ki, həyat ölümü doğurur, ölüm isə yenidən həyatda doğulur. İnsan bu ziddiyyəti dərk edirdi. Bu ziddiyyətə səbəb olan od və su stixiyaları idi. Od və su həm həyatı, həm də yoxluğu təmsil edirdi. Onların mifik təfəkkürdə obrazlaşdırılması isə mif mətnlərində ölüb-dirilmə ilə bağlı təsəvvürlərin yaranmasına imkan verirdi (4, s. 36).

S.Rzasoy Novruz bayramının əsasında duran mifoloji yaradılış ideyası haqqında yazır: Novruz bayramının konseptual strukturunun əsasında bütün varlıq aləminin (insanın, canlı və cansız təbiətin) yaradılması ideyası durur. Bütövlükdə yenidən yaradılmanı – kosmoqoniyanı özündə ehtiva edən bu bayram varlığın bütün ünsürlərinin (ilk insan, ilk predmet, ilk zaman), ilkin stixiyaların necə meydana çıxması (ölüb-dirilməsi) haqqındakı ilkin mifoloji təsəvvürləri təcəssüm etdirir. Bu bayram bütün sonrakı tarixi-mədəni transformasiya, modifikasiya, şəkil və forma dəyişmələrinə baxmayaraq, mifogenezi (mifoloji-kosmoqonik başlanğıcını – mənşəyini) simvolik-metaforik strukturlar səviyyəsində qorumaqda davam edir (5, s. 87-88).

2. Arxaik mərasimlər:

Novruz bir bayram kompleksi kimi çox qədim mənşəyi olan mərasimlərlə zəngindir. A.Xəlil yazır ki, baharın gəlişi, havaların istiləşməsi, qarların əriməsi, təbiətin canlanması bütün insanlara olduğu kimi türklərə də dərin təsir etmiş, həyəcanlandırmış və bu dəyişikliyi müxtəlif mərasimlərlə qeyd etmələrinə səbəb olmuşdur. Türk sözü olan bayram M.Kaşqarlının "Divan"ında "Bedhrem" (bayram) – bir yerin işıqlarla və çiçəklərlə bəzənməsi və orada sevinc içində əylənilməsidir" şəklində izah edilmişdir. Buradan aydın olur ki, bayram artıq ritual kimi arxaikləşmiş və şənlik (karnaval) şəklinə düşmüşdür. Məlumdur ki, "Novruz" bayramı ərəfəsində bayram hazırlıqları başlanır. Buraya ev-eşiyin, həyət-bacanın təmizlənməsi, yeni paltarların alınması, bayram bazarlığı, bayram yeməklərinin hazırlanması və s. daxildir. Bayramda müqəddəs yerlər ziyarət edilir, qohumlara baş çəkilir, bayramlaşılır, küsülülər barışır, kasıblara yardım edilir, bayram payı paylanır və s. Təmizlənməmiş həyət-baca, köhnə paltar, kasıblıq və aclıq xaosu simvolizə edir. Küsülülük, kommunikativ böhran sosial xaosun ifadəsidir. Təmizlik, təzə paltar, yeməklər, xaosun natəmizlik, köhnəlik, aclıq kimi formalarını aradan qaldırır və onları yeni nizamla əvəz edir. Küsülülk barışla əvəzlənəndə sosial harmoniya bərpa olunur. Bütün bunların edilməsi üçün ritualın sakral elementinin prosesə cəlb edilməsi zərurəti yaranır. Çünki kosmosun bərpası üçün profan elementlər kifayət etmir. Xaosu sakrallaşdırmaq üçün xaos məkanına, məsələn, qəbirsanlığa (və ya ziyarətgaha, pirə, övliya məzarına) gedilir və qurulacaq xaos sakrallaşdırılır. Sakrallaşmış xaos artıq köhnə mahiyyətində qala bilmir və kosmosla əvəzlənərək yenidən qurulur: ev-eşik təmizlənir, paltarlar təzələnir, aclar doyur, küsülülər barışır və s. Təbiətdən alınan təbii boyalarla yumurta boyanması dünyanın və təbiətin yenidən rənglənməsi və ya dirilməsi mənasını simvolizə etməkdədir. Döyüşdürülən yumurtalar da iki dünyanın-qışla yazın, soyuqla istinin, xaosla-kosmosun mübarizəsini nümayiş etdirməkdir. "Toxum cücərtmək" və ya "Səməni qoymaq" da bir şəkildə təbiəti canlandırmaq, ona təsir etmək vasitəsi kimi anlaşılır. "Qulaq falı" və ya "Qapı pusmaq" da yeniləşmənin məlumat səviyyəsini əks etdirir. Eyni zamanda bayram leksikonunu nəzarətdə saxlayaraq onun sakral məzmununu mühafizəsini təmin edir. Bunların ümumi sxem üzrə arxaik ritual semantikası yeni nizamın yaradılması, kosmosun bərpası və yeni nizamın dəstəklənməsidir (1, s. 68-69). Yaxud S.Rzasoy göstərir ki, Novruz bayramı özünün ritual-mifoloji strukturuna görə təqvim bayramıdır. Miladi təqvimi ilə mart ayının müxtəlif günlərinə (əsasən 21 mart) təsadüf etməklə qışın, köhnə ilin qurtarmasını, yazın, yeni ilin gəlişini bildirir. Bu bayramın funksional strukturunun əsasında təbiətin zamanla dəyişməsi (qışın yazla) ritmi durur. İnsan təbiətin üzvi struktur elementi kimi öz tarixinin mifoloji-kosmoqonik başlanğıc nöqtəsindən təbiətin bu teokosmik-sinergetik ritminə köklənmiş, onu «Novruz» – «Yeni gün» adlandıraraq bütün tarixi boyunca həmin ritmlə kosmoloji harmoniyada yaşamışdır (5, s. 87).

3. Oyun və tamaşalar;

4. Adət-ənənələr;

5. Mahnı və nəğmələr;

6. Epik, lirik və dramatik folklorun bayramla bağlı bir çox janrları:

– lətifələr

– alqış-dualar

– mərasim şeirləri
– tapmacalar və s.

7. Sosial münasibətlər (küsülülərin barışması və s.);

8. İdeoloji görüşlər:

S.Rzasoy göstərir ki, Novruz bayramı tarixinə görə ilkin mifoloji-kosmoqonik görüşlərlə bağlıdır. Mifoloji düşüncənin parçalanaraq tarixi düşüncəyə keçidi zamanı əski dinlərə transformasiya olunmuş, daha sonrakı inkişafında müxtəlif səmavi və qeyri-səmavi dinlər, dini-ideoloji görüşlərlə qovuşmuşdur. Bu baxımdan, Novruz bayramı aşağıdakı din və dini-mifoloji dünyagörüşlərini özündə birləşdirir: 1. Qədim tükrlərin *şamanizm* dönyagörüşü; 2. Qədim və erkən orta əsr türklərinin *tanrıçılıq* dini; 3. Qədim Azərbaycan və İran xalqlarının *zərdüştilik* dini; 4. *İslam* dini və onun müxtəlif təriqət və məzhəbləri; 5. Xristan türk xalqlarının simasında *xristianlıq* dini; 6. İudaist türk xalqlarının (əsasən tarixi xəzərlərin və onların çağdaş törəmələrinin) simasında *musəvilik – iudaizm* dini. 7. İki milyona yaxın buddist türklərin simasında *buddizm* dini və s. (5, s. 90).

9. Mərasimi davranış formaları (bayramlaşma, payapardı və s.);

10. Zəngin mətbəx-məişət ənənələri.

Bu bayramın Azərbaycan mədəniyyətinin nə qədər zəngin qatlarını, bu qatlara məxsus elementləri özündə qovuşdurub yaşatdığını əhatə etmək belə çətindir. Bu sadalananların hər biri ayrı-arılıqda müstəqil tədqiqatların mövzusudur. Bu cəhətdən bizim apardığımız araşdırmanın predmetini Azərbaycanda keçirilən Novruz bayramına məxsus ənənə və inancların öyrənilməsi təşkil edir.

Novruz bayramı ilə bağlı çoxlu tədqiqatlar aparılmışdır. Bu tədqiqatlar mövzu baxımından çox məsələləri əhatə edir. Çünki bu bayram bir kompleksdir və özündə mərasimlərdən tutmuş poetik ənənələrə, mətbəx məişət məsələlərinə qədər saysız dərəcədə zəngin ənənələri özündə birləşdirir. Tədqiqatlarda bu məsələlər müxtəlif yönlərdən işıqlandırılmışdır. Eyni məsələlərə müxtəlif dövrlərdə fərqli münasibət bəslənmişdir. Sovet dövründə bu bayramın milli mədəniyyətimizdəki yeri və rolunu dərindən dərk edən tədqiqatçılar əsasən onu müdafiə edən yazılar yazmışlar. Çünki sovet ideoloqları Novruz bayramına sırf dini bayram donu geydirib, onu milli mədəniyyətimizdən silməyə çalışırdılar. Odur ki, tərəqqipərvər alimlər Novruz bayramının dini bir bayram olmadığını, dini ənənələrin bu bayrama sonradan qarışdığını sübuta yetirməyə çalışmaqla, onu xilas etməyə, yaşatmağa, hücumlardan, repressiyalardan qorumağa çalışırdılar. Bundan irəli gəlməklə Novruz bayramı həmin tədqiqatlarda, əsasən, yaz bayramı, təbiət bayramı kimi təqdim olunur (bax: 6; 7; 2 və s.).

Novruz bayramı haqqında daha dolğun tədqiqatlar müstəqillikdən sonra aparılmağa başlanmışdır. Bu tədqiqatlarda Novruz bayramı ilə bağlı bütün məsələlər əhatəli şəkildə qoyularaq həllinə çalışılmışdır. Ümumiyyətlə Novruzla bağlı araşdırmalarda "Azərbaycanda Novruz ənənələri və inancları" mövzusunun predmetini təşkil edən məsələlərə də toxunulmuşdur. Lakin bu tədqiqatın digər araşdırmalardan fərqləndirən başlıca cəhət ondan ibarət olmalıdır ki, bu tədqiqatda Azərbaycan Novruzuna məxsus ənənələr inanc əsaslarına bağlı şəkildə sistemləşdirilməlidir. Yəni burada Novruz ənənələri onların inanc qaynaqları, inanc kökləri ilə birgə tədqiq olunmalıdır. Bu zaman mövzu ilə bağlı mövcud tədqiqatlardan yetərincə istifadə olunmalıdır.

Araşdırmanın əsas nəzəri-metodoloji bazasını Azərbaycan alimlərinin tədqiqatları təşkil etməlidir. Bu, ondan irəli gəlir ki, Azərbaycan xalqına məxsus Novruz bayramı ənənə və inancları daha obyektiv və daha ətraflı şəkildə məhz Azərbaycan alimlərinin tədqiqatlarında əhatə olunmuşdur. Azərbaycan Novruzu ilə bağlı tədqiqat aparmış xarici ölkə alimləri (eləcə də bəzi Azərbaycan alimləri) xalqımıza məxsus bu bayramın tarixini, mənşəyini yad köklərə, yad mənşələrə bağlamış, onun Azərbaycan mədəniyyətinə kənardan gəlmə olduğunu sübuta yetirmək istəmişlər. Halbuki Şərqdə geniş yayılmış, çox böyük ərazidə keçirilən Novruz bayramının hamıya aid olan xüsusiyyətləri ilə bərabər, elə cəhətləri vardır ki, ona yalnız türk xalqlarının, o cümlədən Azərbaycan xalqının keçirdiyi Novruz bayramında rast gəlmək mümkündür. Bu cəhətlər xüsusilə qədim inanclarla, mərasimi görüşlərlə bağlıdır. Xarici ölkə alimləri bu faktlara bəzən göz yumub, bəzən onlara etina etmədiyi halda Azərbaycan alimləri bu kimi faktlara əsaslanıb Azərbaycan Novruzunun özünəməxsus cəhətlərini aşkarlamaq istiqamətində böyük işlər görmüşlər. Biz də tədqiqatda Azərbaycan alimlərinin araşdırmalarını əsas nəzəri-metodoloji baza kimi götürməyi məqsədəuyğun bilirik.

Novruz bayramı çox qədim köklərə malik tarixi bayramdır. Onu tədqiq edərkən tarixi cəhətdən yanaşma həmişə əsas götürülməlidir. Tarixi yanaşma eyni zamanda müqayisəli yanaşmanı da tələb edir. Çünki Novruz bayramı tarixən inkişaf edib təkmilləşmiş, şəklində, məzmununda dəyişikliklər baş vermişdir. Bunlar isə müqayisəli yanaşma tələb edir. Beləliklə, tədqiqatda metod kimi tarixi-müqayisəli yanaşma əsas götürülmüşdür.

Tədqiqatda əldə olunmuş əsas nəticələr. Novruz bayramın Azərbaycan xalqının milli-mənəvi dəyərlər sisteminində yeri və rolu əlahiddədir. Bu bayram bir tərəfdən milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir.

İkinci bir tərəfdən, Novruz bayramı milli-mənəvi dəyərlər sisteminin tərkib hissəsi olmaqla qalmayıb, eyni zamanda onun daşıyıcısıdır. Yəni Novruz bayramı bir tərəfdən milli-mənəvi dəyərlər sisteminin tərkibinə daxildir, digər tərəfdən isə xalqımızın milli-vənəvi dəyərlərini özündə daşıyaraq yaşatmaqdadır.

İşin nəzəri və praktiki əhəmiyyəti. Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti vardır. Məqalənin *nəzəri əhəmiyyəti* ilk növbədə onda ifadə olunur ki, burada Azərbaycan Novruzunun özünəməxsus ənənələri inanc əsasları ilə birgə tədqiq olunaraq sistemləşdirilmişdir. Bu sistemləşdirmənin nəticələri, yenilikləri, əldə olunan qənaətlər, ehtimal və fərziyyələrin bu mövzuda yazılacaq sonrakı tədqiqatlar üçün nəzəri əhəmiyyəti vardır.

Məqalənin *praktiki əhəmiyyəti* ilk növbədə Novruz bayramının Azərbaycan mədəniyyətindəki rolunun və elmindəki yerinin get-gedə güclənməsi ilə şərtlənir. İndi elektron informasiya vasitələrində (radio və televiziyalarda, internetdə) Novruz mövzusu hər vaxtaşırı əsas mövzuya çevrilmişdir. Bundan başqa ali məktəb dərsliklərində Novruz bayram kompleksi şifahi ədəbiyyatın, milli etnoqrafiyanın əsas mövzularından hesab olunur. Burada aparılmış tədqiqat həm elektron informasiya vasitələrində, həm də ali məktəblərdə praktiki vəsait kimi istifadə oluna bilər.

Ədəbiyyat

1. Xəlil A. Türk xalqlarının yaz bayramı və Novruz. Bakı, “Elm və təhsil”, 2012, 144 c.
2. Seyidov M. Yaz bayramı. Bakı: Gənclik, 1990, 96 s.
3. Гринцер П.А. Умирающий и воскресающий бог / Мифы народов мира. В 2-х томах. Том 2. Москва: Советская энциклопедия, 1982, с. 547-548
4. Əliyev R. Ölüb-dirilmə motivinin tipləri və tipikləşdirilməsi haqqında // «Dədə Qorqud» jur., 2005, № 3, s. 36-49
5. Rzasoy S. Novruz bayramının konseptual-fəlsəfi əsasları / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXI kitab. Bakı: Nurlan, 2009, s. 87-90
6. Çəmənzəminli Y.V. Azərbaycanda zərdüşti adətləri / Y.V.Çəmənzəminli. Əsərləri. 3 cilddə, III cild. Məqalə, oçerk və xatirələr. Bakı: Elm, 1977, s. 82-89
7. Təhmasib M. Adət, ənənə, mərasim, bayram // «Ədəbiyyat və incəsənət» qəz., 1966

Севиндж Гасымова

Основы проблемы "Обычаи и верования праздника Новруз в Азербайджане "

Резюме

Одним из древнейших и обладающих богатой историей, в то же самое время одним из самых и возможно, даже первых важных памятников национально-духовной культуры Азербайджана является праздник Новруз. С этой точки зрения дальнейшее усиление роли этого праздника в национальной культуре, изучение традиций, которые сохраняют жизнь этому празднику и не дают ему умереть, а также священных ценностей- системы верований, которые лежат на их основе-- является особой научной задачей. Исследование основы проблемы охватывает следующие задачи: Исследование традиций, связанных с последними средами перед праздником Новруз. Исследование традиций спектаклей, связанных с праздником Новруз. Исследование традиций игр, связанных с праздником Новруз. Исследование магических традиций, связанных с праздником Новруз. Исследование бытовых традиций, связанных с праздником Новруз. Исследование традиций верований, связанных с праздником Новруз. Исследование основных культов (огня, воды, растительности, земли и т.д), связанных с праздником Новруз.

Sevinc Gasimova

The essence of the problem "Traditions and beliefs of Novruz holiday".

Summary

Novruz holiday is one of the oldest and richest and at the same time one and probably the first of the most important monuments of national and spiritual culture of Azerbaijan. From this point of view the further strengthening of the role of this holiday in the national culture, the study of traditions that do not let this holiday die and sacred values, belief systems that are based on them is a particular scientific problem. The investigation of the essence of this problem covers the following tas-

ks: Th investigation of customs connectef with the latest Wensdays before the holiday. The investigation of traditions of the spectacles connected with Novruz holiday. The investigation of traditions of the games connected with Novruz holiday. The investigation of magic traditions connected will Novruz holiday. The investigation of household traditions connected with Novruz holiday. The investigation of the traditiond of beliefs connected with Novruz holiday. The investigation of major cults (fire, water, vegetation, land, etc.) connected with Novruz holiday.

Rəyçi: Seyfəddin Rzasoy
filologiya üzrə elmlər doktoru

F.e.n **SOFİYA MİRZƏYEVA**
ADU

"KİTABİ-DƏDƏ QORQUD" DASTANINDA MİFOLOGİYA

Açar sözlər: Dastan, sujet, mifologiya, Dədə Qorqud,
Ключевые слова: Эпос, сюжет, мифология, «Деде Горгуд»
Key words: epos, plot, mifoloji, Dede Gorgud

Folklor xalqın həyatının mənəvi güzgüsüdür. Hər bir folklor materialının ifadə etdiyi içtimai məzmun xalqın milyon illər ərzində topladığı, qazandığı idrak və təcrübənin onun həyatında nə dərəcədə gərəkli olması ilə ölçülür. Folkloru öyrənməyin bir çox yolları vardır. Fikrimizcə folkloru dərindən öyrənmək üçün həmin xalqın mifologiyasını, mifoloji düşüncəsini öyrənmək lazımdır. Mif hər şeydən əvvəl dünyagörüşüdür. Qədim insanların dünyanı anlama tarzidir. Mif geniş mənada hökmdür, ibtidai cəmiyyətin insanlarının davranışlarını, əxlaqını tənzimləyən qanunlar məcmusudur. Qədim insanlar mifin qanunlarına tabe olur, onun şərtlərini yerinə yetirirdilər. Mifioloji şüur lap başlanğıcdan ictimai məhsuldur, nə qədər ki, insanlar mövcuddur belə bir məhsul olaraq da qalacaqdır. Ümumiyyətlə mifologiya cəmiyyətdə insanların sosial həyatını tənzimləməkdə xüsusi əhəmiyyətə malik olmuşdur. İnsanlar öz düşündüklərini obrazlaşdıraraq öz həyatlarını mövhumi qüvvələrdan asılı hesab etmiş və ilkin təsəvvürlərində haqlı olduqlarını zənn etmişlər. Buna göra da qadim insanların həyat tərzini mifoloji qüvvələrdan ayrı hesab va əksinə onların yaşam tərzlərinin daim mifoloji qüvvələrin təsiri altında olduğu bir çox mənbələrdə öz əksini tapmışdır. Təbii ki bu öz əksini həmin dövrdə yaranan ədəbiyyat nümunələndə açıq şəkildə tapmışdır. Bunun nəticəsidir ki, onlar yaratdıqları obrazlarm əksəriyyətinə sözün bədii qüvvəsindən istifadə edərək əzəmətlilik verirdilər. Mifologiya və ədəbiyyat bir birindən asılı olduğu və daim əlaqədə olduğu üçün, mifologiya da dünyagörüşünü özündə aks etdirdiyi üçün qədim dövrə aid ədəbiyyat nümunələrini oxuyub həmin dövr insanının mifoloji dünyagörüşünü, həyat tərzini asanlıqla öyrənə bilirik. Ümumiyyətlə mif şifahi nitqin məhsuludur, onu ancaq danışmaqla yaşatmaq olar. Hətta qədim zamanlarda xüsusi mif söyləmə qabiliyyəti olanları seçirdilər hansılar ki, onlar mifləri nağıl kimi danışmağı bacarırdılar.

Qədimdə padşahların saraylarında yaşayan nağılçılari buna ən yaxşı misal kimi göstərmək olar. Folklor nümunələrinin böyük hissəsi onların köməyi ilə dildəndilə keçərək bugünümüzə qədər gəlib çıxmışdır. Təbii ki, hər bir xalqın uzun bir yol keçmiş, tarixini, qədim adət-ənənələrini, mədəniyyətini özündə əks etdirən mədəniyyət abidəsi, folklor nümunəsi olur.

Xalqımızın tarixini və mədəniyyətini özündə əks etdirən mənbələrdən biri "Kitabi-Dədə Qorqud" dastanıdır. "Kitabi-Dədə Qorqud" dastanı bu günün oxucuları üçün çox güclü əsər deyil, lakin eyni zamanda çox dəyərlidir. F.Köprülünün sözləri ilə desək. "Bütün türk ədəbiyyatını tərəzinin bir gözünə, "Kitabi-Dədə Qorqud" dastanını isə o biri gözünə qoysaq, yenə də "Kitabi-Dədə Qorqud" ağır gələr. Bu çox dəyərli fikirdir ona görə yox ki, müasir dövrümüz üçün mövzu cəhətdən aktual əsərdir, ona görə ki, bu əsərdə xalqımın tarixi, adət-ənənəsi, etnoqrafiyası, etik-estetik görüşləri, xalqımızın həmin dövrdəki dünya görüşü və mədəniyyəti əks olu-

nub və bu əsər vasitəsi ilə bütün dünyaya sübut etmək olar ki, xalqımızın tarixi necə qədimdir. Bundan əlavə "Kitabi-Dədə Qorqud" dastanında xalqımızın dəyərləri əks olunduğuna görə dəyərlidir. Doğrudur həmin dəyərlər bu günümüzdə mentalitet adı altında çox cılız bir şəkildə təqdim olunur, buna baxmayaraq əslində bizi biz edən həmin dəyərlərdir, hansı ki, bu dəyərlər "Kitabi-Dədə Qorqud" dastanında öz geniş əksini tapmışdır. Məsələn qonaqpərvərlik, böyüyə hörmət, ata və anaya məhəbbət, iman və etiqat, namus və qeyrət, qadını uca tutmaq, vətənpərvərlik və s. kimi bugünümüzdə də qoruyub saxladığımız adət-ənənələr bu əsər vasitəsi ilə nəsildən- nəsilə ötürülmüşdür.

"Kitabi-Dədə Qorqud" qəhrəmanlıq eposudur, özü də bir cəngavər, bir igid haqqında yox, bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir eposdur.

Bu dastandakı müsbət xüsusiyyətləri gələcək nəsillərə bir ideologiya şəklində təbliğ edərək onların mənəvi dünyalarını inkişaf etdirməlidir. çünki bizim vatandaşlarımızın bu qəhrəmanlıq ideologiyasından faydalanmasının nə dərəcədə vacib olduğu gün kimi aydındır.

Öz möhtəşəmliyi ilə bir çox xalqların nümayəndələrinin diqqət mərkəzinə çevrilmiş "Kitabi-Dədə Qorqud" dastanı müxtəlif istiqamətlərdə tətqiq olunmuşdur. Belə ki, əsərin ilk nüsxəsinə XIX əsrin əvvəllərində Almaniyada Drezden kitabxanasında rast gəlinmişdir. Həmin kitabxananın kataloqunu tərtib edən Fleyşer əlyazmanın üzərində olan bir qeydə əsaslanaraq əsəri XVI əsr kataloquna daxil etmişdir. 1815 ci ildə şərqşünas Dits həmin əlyazmanın üzünü çıxardaraq Berlinə gətirmiş və "Təpəgöz" boyunu da tərcüməsi ilə birlikdə nəşr etdirmişdir. Dits həmin nəşr münasibətilə yazdığı məqalədə "Təpəgöz" boyunu Homerin "Odisseya" sı ilə müqayisə etmiş, hətta "Odisseya" nın yaradılmasında bu boydan istifadə olunduğunu söyləmək ilə əsərin çox qədim olması iddiasını irəli sürmüşdür.

Sonra bu abidə böyük rus alimi Bartoldun diqqətini cəlb eləmişdir.

Bartold 1814 cü ildə "Записки Восточного Отделения Императорского Русского Общества" adlı məcmuənin 8 ci cildində bu əsər haqqında məlumat vermiş və "Duxa qoca oğlu dəli Domrul" boyunu ruscaya tərcüməsi ilə birlikdə nəşr etdirmişdir.

Bu abidə ətrafında Türkiyə alimləri də tədqiqat aparmışlar. 1916 cı ildə Kilisli Müəllim Rifət əsəri Berlin nüsxəsi əsasında ərəb əlifbası ilə nəşr etmişdir. 1938 ci ildə yenə də Türk alimi Orxan Şaiq Gökyay əsəri yeni əlifbada nəşr etdirmişdir.

Son illərdə İtaliya şərqşünası, professor Rossi bu abidənin başqa bir nüsxəsini Vatikan kitabxanasından tapıb, 1952 ci ildə böyiik bir müqəddimə ilə nəşr etmişdir.

"Kitabi-Dədə Qorqud" qəhrəmanları ilə bağlı əfsanə və rəvayətlərin bir çoxunun nağıl variantı da mövcuddur. Xüsusən, altay, qırğız, qazax rəvayətbrini bir janr kimi nağıllardan fərqləndirmək çətindir. Təbii ki, dastanm araşdırıcılarının elmi leksikonunda Dədə Qorqud rəvayətləri gah nağıl (Jirmunski), gah rəvayət (Gökyay) adlandırılmışdır. Əslində isə onların çoxu əfsanədir. Çünki onların əksəriyyətində mifik obrazlar mövcuddur. Hətta Dədə Qorqudun özünü də mifik obraz hesab edirlər. Belə ki, Əli Sultanımın qeydlərində Dədə Qorqud haqqında xalq arasında olan belə bir əfsanəni xatırlatdığını qeyd olunur. Dədə Qorqud aydın, bərraq gözlü divin qızından dünyaya gəlmişdir. Boyu altı arşın imiş. Gənc yaşlarında qopuz və tambur çalmağı öyrənmişdir. O, xanların məsləhətçisi olmuş, 400 il yaşamışdır.

Dədə Qorqud ölümdən qaçarmış. O, bir gün yuxuda yer qazanlara rast gəlir. Soruşur ki: "Bu yerləri nə üçün qazırsınız?" "Müqəddəs Qorqud üçün qazırıq" deyirlər. O, qəbirqazanlardan qaçır, yer kürəsinin mərkəzinə enir. Su üstündə yaşamaq qərarına gəlir, oraya xalça salır və orada 100 ilə qədər qopuzunu çalır. Lakin ölüm ondan əl çəkmir.

"Dədə Qorqud"un mifik obraz olması ilə bağlı Mirəli Seyidov qeyd edir ki, "Boylardakı Qorqud daha əskilərlə bağlıdır və özgə dünyanın - mifik aləmin nümayəndəsidir. Qorqud Ata türk dilli xalqların mifoloji təfəkkürlə yaşaıqları çağın mifik obrazıdır". O, Qorqud sözünün qor-qut şəklində iki kökə ayırmış və onu xoşbəxt, uğurlu od mənasında izah etmişdir. "Qut" sözünü də mifoloji təfəkkürlə bağlamış, türk dilli xalqların ən əski inamları ilə səsləşdiyini göstərir.

Ümumiyyətlə tarixi əsərlərdə, əfsanələrdə, Oğuz atalar sözlərində, yaşayan Qorqud Ata vahid bir obrazın müxtəlif variantlarıdır. Sadəcə olaraq Dada Qorqud türklər arasında müdriklik simvoluna çevrildiyi üçün onu şaman dualarından ta dastana qədər mədəniyətin bir çox laylarında görmək mümkündür. Onun hər bir şeyə ad qoymaq səlahiyyəti isə onun tanrı oğlu kimi tanınmasından irəli gəlmişdir. Beləki, onun Tanrı oğlu olması şamanlıqla bağlı olan yerlərdə açıq şəkildə göstərilirsə, dastanda sadəcə işarə xarakterlidir. Onun Tanrı oğlu kimi qəbul olunduğunu sübut edən belə bir yazıya rast gəlinir. Tanrı oğullarının ölməzliyi şamanların Qorquda müraciətlə "Ölü desəm ölü eməs, tiri desəm, tiri eməs, Ata Qorqud auliya" poetik deyimində qalmışdır. Bundan alava Tanrı oğullarının atası malum olmur, daha doğrusu qəhrəmanın möcüzəli doğuluşunda atanın rolu heçə endirilir. Atanın tanrı va ya onun təcəssümü olması ananın isə yer yaxud göy qızı olması ön plana çəkilir. Qorqud Atanın kimliyi ila bağlı olan əfsanələrdə də onun atası ilə bağlı heç bir məlumat verilmir, yalnız anasının ala gözlü div qızı, bəzi mənbələrdə isa bərraq gözlü div qızı olduğu qeyd olunur.

Əsərdə ölümdən qaçan təkçə Dədə Qorqud deyildir. Ölümdən qaçma motivinə "Duxa qoca oğlu dali Domrul" boyunda da rast gəlinir. Əslində burada ölümdən qaçmaq yox, can yerinə can vermək motivi ön plana çakilmişdir. Əzrail ilə mübarizə aparan qəhrəman haqqında olan mətnlərin təkcə türk xalqlarına məxsus olması bu motivin türklərin özüna məxsus olduğunu, heç bir təsir nəticəsində yaranmadığını sübut etsə də, bəzi mənbələrdən əldə etdiyimizə əsasən deyə bilərik ki, bu şamanlıqla bağlıdır. Belə ki, qədim şaman əfsanələrində şamanların ölümlə mübarizəsi və olan adamın əvəzinə heyvan qurban verməsi əfsanədəki bu motivin məhz şamanlıqla bağlı olduğunu sübut edir.

Əsərdə Dədə Qorquddan başqa da mifik obrazlar mövcuddur. Buna ən gözəl nümunə Tapagöz obrazıdır. Təpəgöz əfsanəsinin 40 dan çox variantı mövcuddur. Hətta bəzi mənbələrdə təpəgözlə yanaşı damirdırnaq adlı bir qadınında adı çəkilir. Bəzi əfsanələrdə o Təpəgözün qızı, bacısı, hatta arvadı kimi da təqdim olunmuşdur. Təpəgöz əfsanələrdə o biri dünyanın işarasi kimi təqdim olunur, dəmirdırnaq isa şamanlıqdan galma bir anlayışdır. Biz çox tədqiqatçılar xüsusilə də Qəzənfər Kazımov Təpəgözü tədqiq etmişdir. Ümumiyyətlə Qəzənfər Kazımov "Dədə Qorqud"un "Basatın Təpəgözü öldürməsi", "Qam Boranın oğlı Bamsi Beyrək", "Salur Qazanın evinin yağmalandığı" boylarında içtimai hadisələrin təsvirində, ictimai siyasi məsələlərin quruluşunda, dini görüşlərdə "İliada" və "Odisseya" əsərləri ilə çox mühüm uyğunluqlar olduğunu qeyd etmişdir. Bu əsərlərin sayəsində biz ədəbiyyatda bir-bi-

rinə çox yaxın olan yunan va Azərbaycan Təpəgöz surətləri ilə tanış oluruq. Bir çox tədqiqatçılar "Odisseya"dakı Polifemin yoxsa "Kitabi-Dədə Qorqud"dakı Təpəgözün daha qədim olması ilə bağlı araşdırmalar aparmışlar və onlardan bir çoxu sübut etməyə çalışmışlar ki, Təpəgöz daha qədim obrazdır. Ümumiyyətlə isə onların arasında bir çox oxşar və fərqli cəhətlər mövcuddur. Belə ki, bizim Təpəgözün doğulması, böyüməsi barədə əsərdə məlumat vardır, Bizim Təpəgöz takdır, işləmir, tufeyli hayat sürür, Oğuz cəmiyyəti ilə sıx bağlıdır, bədəninə qılınc keçmir, lakin "Odisseya" dakı Polifem bütün bunlardan fərqli olaraq tək deyil, mövcud bir Təpəgözlar ölkəsi var, tufeyli həyət sürmür çünki çobandır, cəmiyyətlə əlaqəsi yoxdur, cəmiyyət tanımır və əsərda Polifemin doğulması ilə bağlı məlumat yoxdur. Bütün bunlara baxmayaraq onların oxşar cəhətləri da çoxdur: Hər iki Təpəgözlə mağara şəraitində tanış oluruq, hər iki Təpəgöz su ilə bağlıdır belə ki, Təpəgöz su pərisindən doğulur, Polifem isə su ilə əhatə olunmuş adada yaşayır. Onların hər ikisi adamyeyəndir və hər ikisi gün ərzində iki adam yeyir, və nəhayət həm Təpəgöz həm də Polifem eyni formada gözlərindən vurulduqlarına görə ölürlər.

Fon Diezin 1825-ci ilda dediyi kimi Təpəgöz başqa sikloplara, hələ Homerin siklopuna bütün cəhətləri ilə bənzəyir, lakin oğuz siklopu yunanlarınkından alınma deyil, əksinə yunanlarınla bunun təqlididir". Fon Diez fikrini belə əsaslandırmışdır ki, "Əvvəla şərq yunan şeriyyatını tanımamışdır. Bunun üçün Homerin əsərlərini tərcümə edə bilməzdilər, çünki melodiyaca heç kim tərəfindan anlaşılmayacaqdı. O biri tərəfdan Oğuz dastanında hadisələr Təpəgözün doğumundan ölümünə qədər təfsilatla anlaşıldığı halda, Polifemdə çatışmazlıqlar var. Bu cəhətdan Polifem Təpəgözün eyni və ondan iqtibas kimi görünür. Bundan başqa əgər təpəgöz Oğuzların olmasaydı ağızdan-ağıza bu qədər tam gəlib çatmazdı. Bəlkə də Homer Asiya səyahətində Təpəgöz əfsanəsini eşitmiş və Polifemin əsas hayatını ondan almışdır. Ümumiyyətlə həm Təpəgöz, həmdə Polifem ayrı-ayrılıqda hər iki xalqın-Yunanların və Oğuzların yaradıcılıq məhsuludur. Yəni, hər iki xalq müstəqil olaraq eyni mif və hadisələr əsasında bu obrazları, yaratmışdır. Lakin hər iki əfsanənin qəhrəmanı – Beyrək və Odissey öz doğma yurduna qayıdır və nişanlısına qovuşur.

Ədəbiyyat

" Kitabi Dədə Qorqud" -Ensiklopedik kitab
Ramazan Qafarov-"Azərbaycan türklərinin mifologiyası"
Aslan Bayramov-"Dədə Qorqud kitabında adlar və Qafqaz arialında onların toponimləşdirilməsi"
"Dədə Qorqud dünyası" məqalələr
Əzizxan Tanrıverdi- "Dədə-Qorqud kitabında at kultu"
Ramil Əliyev- "Türk mifoloji düşüncəsi və onun epik transformasiyaları"
"Əsatirlər, Əfsanələr və rəvayətlər"
http://www.anl.az/el/latin_qrafikasi/axe/ee&r.pdf
http://www.turuz.info/Dedequrqut/26
http://dede.musigi-dunya.az/d/dede_qorqud_revayet.htmlhttp://dede.musigi-dunya.az/d/dede _qorqud_dastan.html

http://www.anl.az/el/latin_qrafikasi/axe/dede_qorqud.pdf
http://62.212.230.87/avtoreferatlar/ramazanorucogluqafarov.pdf

С.Мирзоева

Тема мифологии в эпосе «Китаби – Деде Горгуд»

Резюме

Сюжет и образы эпоса «Деде Горгуд» широко исползуются в художественное литературе. Это статья о мотивах из эпоса «Деде Горгуд» которые тема мифология обсуждается о историческими фактами.

Эпос «Деде Горгуд» широко расспрасстранена во всех тюретских литературах о котором в этой статье показона фактами.

S.Mirzoeva

The theme of Kitabi Dede Gorgud in prose mifioloji

Summery

The them net plot and from epos “Dede Gorgud” are used in fiction extersivedy. This article is about “Dede Gorgud” motives in the mifioloji unifenched novel manus cript remain. The plot is based an an such event: there is a spy in Oguz province, he arresbed and the process of the novel.

Rəyçi: Dosent F.Səfiyeva

BƏSİRƏ ƏZİZƏLİYEVA
Filologiya üzrə fəlsəfə doktoru
a_basira @mail.ru

AMERİKA TRANSSENDENTALİSTLƏRİNİN YARADICILIĞINDA ŞƏRQ FƏLSƏFƏSİ

Açar sözlər: fəlsəfə, transsendentalizm, Emerson, Uitmen
Ключевые слова: философия, трансцендентализм,Эмерсон, Уитмен
Keywords: philosophy, transcendentalism, Emerson, Whitman

Amerika transsendentalizmi XIX əsrin 30-cu illərində formalaşmışdır. "Yeni ingilis intibahının" mahiyyəti ABŞ-da "transsendentalist-naturalist" interpretasiya qəbul edən romantizmin başlıca ideyaları ilə müəyyən olunurdu. Transsendentalizm termini görkəmli alman filosofu Kantdan iqtibas edilmişdir (1, 49). Bu ədəbi-fəlsəfi istiqamətin meydana gəlməsi milli ədəbiyyatda mühüm hadisə hesab olunurdu. "Amerika, yaxud yeni ingilis transsendentalizmi adlandırılan fikir axınına məşhur yazıçı və filosof Ralf Uolde Emerson başçılıq edirdi..." (2, 5). Transsendentalizmin görkəmli nümayəndələri arasında H.Toro və U.Uitmeni kimi mütəfəkkir ədiblər də var idi.

Amerika transsendentalizmi dünya ədəbiyyatı və fəlsəfəsinin müxtəlif mənbələrinə istinad edən mürəkkəb və konseptual ədəbi-fəlsəfi sistem kimi humanizm ideyalarının təbliğatçısı mövqeyində dayanırdı.

Fəlsəfi dünyagörüşü baxımından idealizm transsendentalistlərin düşüncə sferasında əsas yer tuturdu. Bu baxımdan da N.E.Pokrovski qeyd edir ki, transsendentalizmin eklektik təyinatı onun əsas istiqamətini görməyə mane olmur: "İdealizm - Ralf Emerson öz təlimini belə adlandırırdı" (2, 47).

Amerika transsendentalizminin əsas ideya mənbələrindən biri Şərq dünyası, Şərqin qədim fəlsəfi irsi idi. R.U.Emersonun "Qəhrəmanlıq" əsərinin Məhəmməd peyğəmbərdən, "Sevgi"nin "Quran"dan gətirilmiş epiqrafla başlaması fikrimizi təsdiq edən faktlardandır. Qədim hind mədəniyyətinin bir sıra cəhətləri transsendentalistlər üçün xüsusi maraq kəsb edirdi. "Uolden, yaxud meşədə həyat" əsərində H.Toro "Bhaqavadqita"nı Şərqin əzəməti adlandırırdı (3, 69). Yazıçının Sədinin "Gülüstan" əsərindən nümunə gətirməsi də H.Toronun Şərq mənbələrinə böyük rəğbət bəslədiyini göstərir. M.Babayev Amerika transsendentalistlərinin yaradıcılığında Şərq motivlərindən bəhs edərkən sufizm təliminin təsiri xüsusiyyətlərinə xüsusi diqqət yetirmişdir: "Ralf Uoldo Emersonun ardıcılları və yaxın məsləkdaşları olmuş Vilyam Rounsvil Alger və Ceyms Frimən Klark kimi transsendentalistlər Şərq ədəbi mühitinə rəğbət bəsləmiş və ona yaxından bələd olmuş tarixi şəxsiyyətlərdir. Onlar dövrün, zamanın ümumi mənzərəsinə qiymət vermək üçün sufilikdən öz məqsədləri üçün bəhrələnmişdilər" (4, 12). Müəllif sufi şeirlərlə tanış olan R.U.Emersonun bu fəlsəfi təlimin təsiri ilə Kərmani, Hafiz, Ömər Xəyyam, Hilali, Ənvəri, F.Əttar və digər Şərq şairlərinin əsərlərindən yedii yüzdən çox şeir tərcümə etməsi haqqında da məlumat vermişdir. Qeyd etdiyimiz kimi, transsendentalistlər idealist alman fəlsəfəsindən bəhrələnmişdirlər ki, həmin fəlsəfi sistem, eyni zamanda, bütövlükdə, Avropa idealistik düşüncəsinin əsasında zəngin tarixə malik Şərq idealizmi, hind fəlsəfəsi, brahmanizm ideyaları dayanırdı. Bəzən birbaşa, əksər hallarda isə qədim yunan filosofu Platon və neoplatonistlərin fikirlərindən

dolayısı yolla istinad olunan məsələlər Amerika transsendentalistlərinin fəlsəfəsinə özünəməxsus keyfiyyətlər gətirmişdir. N.E.Pokrovskinin haqlı olaraq, yazırdı: "Transsendentalistlər əsla sistemli akademik fəlsəfədə yeni söz deməyə cəhd etmirdilər, buna görə də onlar böyük günah görməyərək bu elmin qaydalarını asanlıqla pozurdular" (2, 45).

H.Toro, R.U.Emerson və U.Uitmen kimi Amerika transsendentalistlərinin görkəmli nümayəndələrinin yaradıcılığında idealizmin ilk göstəricisi insana, həyata və dünyaya mənəvi və maddi tərəflərdən yanaşmaq, mənəviyyat problemlərinə üstünlük vermək, insan ruhu, təbiət və Allahın birliyi ideyasından çıxış etmək məqamlarında göstərirdi.

Yaradıcılığında Hegel, Şellinq, Kantın idealist fəlsəfəsi, eyni zamanda, qədim hind kitablarının mistik ruhunun hiss olunduğunu söyləyən K.Çukovski U.Uitmenin idealist dünyagörüşünə diqqət yetirir: "Uitmenin bütün poeziyası - ilk sözlərindən sonuncuya qədər dünyanın ilahi harmoniyası qarşısındakı pərəstiş həyəcanını ifadə edir" (5, 14).

U.Uitmenin "Otların yarpaqları" əsəri bütün insanlara müraciətlə yazılmaqla dinlərin birliyi ideyasını əks etdirir:

Mən sizi rədd etmirəm, bütün zaman və xalqların keşişləri,

Böyük inam mənim və ən kiçik – mənim.

Mən qədim dinləri və yeniləri və qədim ilə yeni arasında nə varsa birləşdirirəm.

Mən kəllədə vəhşi bal içirəm, mən Vedaya hörmət edirəm, mən Quranı uca tuturam

Mən İncili qəbul edirəm (6,92).

Qeyd olunduğu kimi, U.Uitmenin dünyagörüşünün ilkin mənbəyi Amerika transsendentalizmidir. Məhz transsendentalistlərin Şərqin idealist görüşlərindən geniş şəkildə bəhrələnmələri xüsusiyyəti təqdim olunan nümunədə də özünü göstərir.

Din birliyi ideyası Şərq mədəniyyəti tarixində mühüm rol oynamış sufizm təlimi üçün çox xarakterik olmuşdur. Görkəmli islam mütəfəkkiri və sufi ideoloqu İbn Ərəbinin vəhdəti-vücud fəlsəfəsinin əsasında dinlərin birliyi ideyası dayanır. Filosofa görə, bütün yaradılanlar Allahın bir görüntüsü olduğu üçün bütün tapınanlarda təcəlli edən Allahdır. "İbn Ərəbi yalnız bir Allahın mövcudluğunu, onu hər yerdə və istisnasız bütün əşyalarda görür. Başqa sözlə Allah həm yaradan, həm yaranan, həm mahiyyət, həm hadisə, həm tək, həm çoxdur" (7, 137). İbn Ərəbinin dünyagörüşünə əsasən, insanlar çeşidli surətdə görünən vahid Allaha ibadət edirlər. Rəbbə ibadətdə qayə qulun onunla birləşməsidir. Sufi ideoluqu bütün etiqadların doğru olacağı qənaitini izhar edirdi: "Bir düşüncəyə bağlanıb qalmayın, o zaman çox şey itirərsiniz. Sən bütün inamların daşıyıcısı ol. Zira, Allah yalnız bir inamım çevrələyəcəyi bir varlıq olmaqdan daha geniş və daha böyükdür. Çünki o, "hara dönərsiniz Allahın təcəllisi oradadır" deyir" (8, 504). Bu fikirlərini mütəffəkkir digər formada da ifadə etmişdir: "Yaradılanlar Tanrı haqqında çeşidli inamlara bağlandılar. Mən isə onların bütün inandıqlarına inandım" (8, 504).

Amerika transsendentalistlərinin dünyagürüşündə "Bhaqavad-qita"nın təsiri xüsusiyyətləri də müşahidə olunur. Qeyd etdik ki, H.Toro "Uolden, yaxud meşədə həyat" əsərində "Bhaqavad-qita"nı çox yüksək dəyərləndirmişdir. Əsərin ideyasında da möh-

təşəm hind abidəsi ilə səsləşən məqamlar vardır. Dünyanın maddi şərtləri və ilahilik arasındakı ziddiyyətli məsələlər H.Toronun əsərində hind dini-fəlsəfi təlimi prizmasından da dəyərləndirilmişdir.

H.Toro "Uolden, yaxud meşədə həyat" əsərində cəmiyyətin maddi yaşantılarını mənəviyyat süzgəcindən keçirmək üçün meşəyə üz tutur: "Mən ətrafı düşünərək yaşamaq, həyatın əhəmiyyətli faktları ilə qarşılaşmaq üçün meşəyə getdim..." sözləri ilə də həmin məsələləri nəzərdə tutur. "Prinsipsiz həyat" məqaləsində də H.Toro mənəviyyat məsələlərinin üstünlüyü mövqeyindən çıxış edirdi: "Cəmiyyətdə elə bir zənginlik yoxdur ki, müdrik insanı satın alsın" (9, 107).

H.Toro insanın maddi həyatı üçün Yemək, Qan, Geyim və İstiliyin zəruriliyini qeyd edərək (3, 17) öz təcrübəsi zamanı həyat şərtlərinin məhdud çərçivəsini təsdiqləyirdi: "Mən meşəyə ona görə getdim ki, ağıllı yaşayım, yalnız həyatın vacib faktları ilə iş görüm, nə isə öyrənməyi sınaqdan keçirim ki, ölümün qarşısında dayananda heç yaşamadığımı düşünməyim" (3, 108).

"Bhaqavad-qita"nın birinci fəslinin 31-ci mətnində göstərilir ki, Arcuna həyatdan uzaqlaşmaq üçün "meşəyə getməyi, qəm-qüssə içində tənha yaşamağı qərara alır" (10, 68). İkinci fəslin 14-cü mətnində bu fikir ifadə olunur ki, "insan öz borcunu düzgün yerinə yetirmək üçün xoşbəxtliyin və bədbəxtliyin müvəqqəti təzahürlərinə dözməyi öyrənməlidir" (10, 95). Qədim hind abidəsində yazılır: "Ey Kuntinin oğlu, xoşbəxtliyin və bədbəxtliyin müvəqqəti təzahürü, müəyyən vaxtdan sonra yox olması qışın və yayın gəlib-getməsinə bənzəyir. Onlar hissi qavrayışdan törəyir, ey Bharata övladı, insan həyacanlanmadan onlara dözməyi öyrənməlidir" (10, 95). "Bhaqavad-qita"da da yalnız həyatın maddi tərəflərindən qurtulmaqla Tanrıya qovuşmağın mümkün olduğu göstərilir. Altıncı fəslin ikinci mətnində deyilir: "Sən bilməlisən ki, tərki-dünyalıq və yoqa, yaxud Uca Tanrı ilə birləşmə, eyni şeydir, ey Pandunun oğlu, çünki hissi həz arzusundan əl çəkmədən heç kəs yoqi ola bilməz" (10, 275).

Üçüncü fəsldə qədim hind abidəsi, eyni zamanda, fəaliyyətsiz tərkidünyalığı da qəbul etmir: Dördüncü mətndə deyilir: "Sadəcə olaraq, fəaliyyətdən imtina etməklə əks-təsirlərdən azad olmaq, təkcə tərki-dünyalıqla kamilliyə çatmaq mümkün deyil" (10, 156).

H.Toronun "Uolden, yaxud meşədə həyat" əsərinin "Tənhalıq" hissəsi müəllifin tənha insan və təbiətin birliyini ifadə edən ideyalarının ən bariz təzahürüdür. H.Toroya görə, yalnız mənəvi saflığa və keyfiyyətlərə malik insanlar təbiətlə vəhdətə daxil ola bilərlər. Deməli, transsendentalizmin ictimai fəallıq kimi iki əsas ideyasından biri burada müəllifin özünün şəxsi həyat təcrübəsinin materialları nümunəsində nə qədər mühüm rol oynayırsa, ikinci tərəf - mənəviyyat problemləri də arxa plana keçmir. Amerika transsendentalistləri tənhalığa insanın dünyadərkinin spesifik forması kimi yanaşaraq onu "tədric olunma" anlamına gətirmirlər. R.U.Emersona görə, tənhalıq fiziki yox, mənəvi cəhətdən olmalı və o, kamilliyə aparmalıdır (11, 150). R.U.Emersonun 1870-ci ildə yazdığı "Cəmiyyət və tənhalıq" əsəri də həmin mövqedən müəllif fikrini ifadə edirdi.

"Bhaqavad-qita"nın birinci fəslinin 28-ci mətnində deyilir: "Allah-Ali-Şəxsə mətanətlə xidmət edən insan tanrıçaların bütün məziyyətlərinə malikdir. Lakin Allah fədaisi olmayan adamın keyfiyyətləri maddi olub, bir o qədər də dəyərli deyildir. Çünki o, maddi enerjinin parıltısına aludə olduğu üçün əqli səviyyədə hərəkət edir" (10, 65).

Fəlsəfi nöqteyi-nəzərdən kainatın təbiət və ruhdan ibarət olduğunu söyləyən R.U.Emerson heç bir şübhə etmədən yaradılışın kamilliyinə inanmaq zəruriliyini qeyd

edir. R.U.Emersona görə, dünyanın mahiyyətini düşünən hər bir insan onun özü üçün faydasını görməyə bilməz. Yazıçı təbiəti Rahatlıq, Gözəllik, Dil və Nizam prizmalarından dəyərləndirir: "İnsana bütün xidmətlərində təbiət təkcə material deyil, həm də proses və onun nəticəsidir" (11, 28) deyən R.U.Emerson rahatlığına görə insanın təbiətə borclu olduğunu əsaslandırır. Təbiət, R.U.Emersona görə, insanın daha ali istəyini – gözəlliyə olan sevgisini təmin edir. "Göz rəssamların ən gözəlidir" deyən R.U.Emerson təbiətin - səma, dağ, ağaclar və heyvanların doğurduğu gözəl təəssüratlardan bəhs edir. Təbii elementlərdən duyulan gözəl hisslərlə yanaşı, Amerika yazıçısı gözəllikdə ilahiliyə xüsusi önəm verir: "Gözəlliyin daha kamil olması üçün ali elementlərin, başqa sözlə, ilahiliyin olması vacibdir... Gözəllik yaxşılıqlardakı Allah möhürüdür" (11, 32). Təsadüfi deyil ki, "Bhaqavad-qita"da deyilir: "Maddi təbiət üzərində hökmranlıq etmək meylinizə baxmayaraq bilməliyik ki, biz Ali nəzarətçi deyilik" (10, 25).

R.U.Emersona görə, gözəllik ən geniş, ən dərin mənasında kainatın yeganə təzahürüdür: "Allah böyükdür. Həqiqət, Xeyir, Gözəllik - bütün bunlar yalnız bir tamın müxtəlif təzahürləridir. Təbiət ruhun simvoludur" (11, 35). Təbiət bütün romantik şairlərin yaradıcılığında özünəməxsus formada müşahidə olunur. U.Uitmenə görə, "insan təbiətin qanuni və sevimli övladıdır..." (12, 31). M.Mendelson U.Uitmeni "peyzajın çox gözəl ustası, əzəmətli təbiətin nəhəng nəğməkarı" adlandırırdı (13, 159).

Ümumiyyətlə, romantiklərin yaradıcılığında təbiət bəzən sivilizasiyalı cəmiyyətə qarşı qoyulur, insan cəmiyyəti tərk edib təbiətin qoynuna sığınır. Bu zaman təbiətin saflığı, şərdən uzaq olması, günahsız məkan simvolu daha qabarıq şəkildə ön plana çıxarılır. V.V.Vanslov göstərir ki, romantiklər real həyatdan ruhi aləmə qaçmağa meyl edirlər və bu zaman təbiət əsas rol oynayır: "Belə qaçışın ən məşhur və geniş yayılmış forması təbiətə çıxışdır ki, romantiklərin yaradıcılığında ideal məna kəsb edir" (14, 121).

Gördüyümüz kimi, Amerika romantik ədiblərinin əsərlərində təbiət qoynuna çəkilmək, tərkidünyalıq mövzusu ideya baxımından romantik ənənələrdən gəlirsə, eyni zamanda, hind dini-fəlsəfi təlimi ilə də səsləşir.

Amerika transsendentalistləri insanın ruhu, mənəvi dünyasına daha çox önəm verdikləri üçün həyatın maddi tərəfləri ilə az maraqlanır, "zahiri yaranma görünməz dünyanın sonuncu dayanacağıdır" prizmasından çıxış edirdilər. Ruhun materiyadan yüksək olduğunu qəbul edən idealist filosoflar kimi Amerika transsendentalistləri həyata da həmin ikilikdən baxırdılar. R.U.Emerson "Təcrübələr" kitabına daxil olan "Sevgi" essesində həmin mövqedən yazırdı: "Bizim həyatın şərtləri kədərlidir, ideya isə gözəl və nəcibdir. Real həyatda - zaman və məkanın zülmət hökmranlığında həyəcan, dərd və qorxu sakindir. Yalnız düşüncələr, yalnız arzularda tapırıq əbədi şövqü, bu Muzaların oxuduğu ən ali sevincdir" (11, 184). Yazıcı ruh haqqında yazırdı: "Bu orqan deyil... lakin işıqdır... bizim vücudumuzun iç üzü... Daxildən üzərimizə işıq saçır və bizi agah edir ki, biz heç nəyik, yalnız işıq hər şeydir" (15, 57). H.Toroda da anoloji düşüncəni müşahidə edirik. "Uolden, yaxud meşədə həyat" əsərində H.Toro yazırdı: "Ruhun oyanması – deməli yaşamaqdır. Mən hələ də tamamilə ayılan insana təsadüf etməmişəm. Və əgər rastlaşsaydım, onun gözlərinə necə baxardım" (3, 107).

Yaradıcılığı "İnsan kimdir?" "Mən kiməm?" sualları əsasında qurulan Amerika şairi U.Uitmen Qərb ədəbiyyatında ənənəvi olaraq panteist kimi qəbul olunmuşdur. "Özüm haqqında nəğmə"də şair yazır: "And içirəm, mən əminəm ki, hər bir əşya, istisnasız olaraq əbədi ruh ilə yaradılıb, Hər şeydə

mən Allahı görürəm" (6, 41). Ruhun əbədiliyi "Bhaqavad-qita"nın əsasında dayanır. İkinci fəslin 16-cı mətnində deyilir: "Həqiqəti bilənlər bu nəticəyə gəlmişlər ki, müvəqqəti olan (maddi bədən) fanidir, əbədi olan (can) isə dəyişməzdir" (10, 97). 17-ci mətində də "bil və agah ol, bütün bədənə nüfuz edən dağılmazdır, ölməz canı heç kəs məhv edə bilməz" (10, 98). 24-cü mətndə deyilir: "O, əbədidir, hər yerdə mövcud olandır, dəyişməzdir, hərəkətsizdir və həmişə eynidir" (10, 107). Ruhun əbədiliyi ideyası Amerika transsendentalistlərinin digər fikir mənbəyi olan sufizm fəlsəfəsi və Şərq sufi ədəbiyyatı üçün də çox xarakterikdir.

U.Uitmen insanı ilahi ruhun daşıyıcısı hesab etmiş və bütün insanların bərabərliyi ideyasını irəli sürmüşdür. Şair özünü "şəxsiyyətin nəğməkarı" adlandırmış, bütün yer üzünün insanlarına müraciət etmişdir:

Və mən bilirəm ki, ilahi ruh var
Və bütün insanlar, onlar nə vaxt anadan olsalar da
Mənim qardaşlarımdır və qadınlar – mənim bacım və sevgililərimdir.
Bizim hər birimiz özündə yer üzünün böyük məqsədini daşıyırıq,
Bizim hər birimiz bərabər dərəcədə ilahiyik (6, 130).

Amerika transsendentalistlərinin əsərlərində təbiət mövzusu daxilində dənizlə bağlı fikirlər xüsusi olaraq nəzəri cəlb edir. V.V.Vanslov romantiklərin azad mühit kimi "sonsuz genişliyi və gücü" ilə dəniz obrazının yaradılmasına böyük diqqət yetirdiklərini qeyd edir (14, 125). "Təsadüfi deyil ki, Bayrondan Hüqoya qədər romantiklərin əksəriyyətində dəniz – poetik peyzajın xarakterik hissəsidir" (12, 31).

Maraqlıdır ki iudaizmdən gələn dənizin insanları əhatə edən həyatın ölməzliyi simvolu olması ideyası U.Uitmenin dəniz haqqındakı fikirlərinə də təsir göstərmişdi.

U.Uitmen yazırdı:

Dəniz, sən genişsən və nəfəs alırsan
Dəniz, sən duzun həyatısan, lakin
Sənin qəbirlərin əbədi açıqdır (12, 310).

"Duzun həyatısan" və "qəbirlərin açıqdır" ifadələri dənizin mahiyyətini müəyyən edir, həyat və ölüm dənizdə birləşir.

Şairin "Ot yarpaqları" əsərində dəniz obrazı da ayrıca seçilir. "Onun ruhu sonsuz okeana, onun əbədi hərəkəti və dövranına analoqdur. Lakin şer özü də, onun ritmik quruluşu, səsləri dənizin təbii ritmini təkrar edir, onun hər bir misrası dalğalara bənzəyir. Axıcılıq, okeanın hərəkəti U.Uitmen tərəfindən işlənmiş sərbəst şer prinsipinə bənzədilir" (1, 26). Poemadan bir nümunə qeyd olunan fikirləri təsdiq edir:

Lap uzağa üz və bütün dənizə oxu.
Sonsuz mavilikdən
Mənim nəğməmi apar
Matroslara və onların gəmisinə (6, 33).

Gördüyümüz kimi, Amerika transsendentalistlərinin yaradıcılığında Qərb romantizminin xüsusiyyətlərilə yanaşı, Şərq elmi-fəlsəfi təlimlərindən qaynaqlanan ideyalar da mühüm yer tutur. Bu da Amerika romantiklərinin ədəbi-fəlsəfi irsinə özünəməxsus çalar vermişdir.

Ədəbiyyat

1. Американская литература XIX в. М., «Высшая школа», 1964.
2. Покровский Н.Е. Генри Торо. М., Мысль, 1983.
3. Торо Г. Уолден или жизнь в лесу. М., Наука, 1979.
4. Babayev M. Con Steynbek Azərbaycan ədəbiyyatı ilə müqayisəli kontekstdə. Bakı, Elm və Təhsil, 2009.
5. Чуковский К. Мой Уитмен. Его жизнь и творчество. М., Прогресс, 1969.
6. Уитмен У. Избранные произведения. Листья травы. Проза, М., Художественная литература, 1970.
7. Раджабов М.А. Абдурахман Джами и таджикская философия XVв, Душанбе, Ирфон, 1968.
8. Ateş S. İslam Tasavvüfi, İstanbul, Yeni ufuklar neşriyat, 1992.
9. Писатели США о литературе. Т. 1, М., Прогресс, 1982.
10. Bhaqavad-qita olduğu kimi, Bhaktivedanta Buk Trast, 1991.
11. Эмерсон Р. Эссе, Торо Г. Уолден или жизнь в лесу. М., Художественная литература, 1986.
12. Бенедиктова Т.Д. Поезия Уитмена У., М., Издательство МГУ, 1982.
13. Мендельсон М. Жизнь и творчество Уитмена, М., Наука, 1969.
14. Ванслов В.В. Эстетика романтизма, М., Искусство, 1966.
15. Dunnavent III W.E. Rihani, Emerson and Thoreau, Rihani Ameen. Bridging East and West. A pioneering Call for Arab-American Understanding (Edited by Nathan C.Funk, Betty J.Sitka). New York, University press of America, 2004.

Basira Azizaliyeva

Eastern philosophy in the American transcendentalists' creative works

Summary

One of the major idea sources of the American transcendentalism emerging in the thirties of 19th century was Eastern philosophical or religious-philosophical teachings. In the literary-philosophical works of Ralph Waldo Emerson, Henry David Thoreau, and Walt Whitman, there are ideas which are in sync with the ideas talked about in the ancient Indian scripture Bhagavat-Gita and Sufi teachings, especially in the Eastern Sufi literature. The works of the American transcendentalists dedicated to the subjects such as religious unity, eternal soul, seclusion are in sync with the Eastern philosophy.

Басира Азизалиева

Восточная философия в творчества американских трансценденталистов

Резюме

Один из идейных истоков американского трансцендентализма, формированная в начале 30-х годов XIX века, является восточная философия и религиозно-философические направления. В литературно-философических произведениях Р.Эмерсона, Г.Торо и У.Уитмена встречаются мысли, перекликающиеся с древнеиндийским памятником «Бхагавад-гита», суфиским направлением, в особеннами восточной суфийской литературой. Такие темы, как религиозное объединение, вечность духа, загробный мир, в американских трансценденталистических произведениях перекликаются с восточной философией.

Rəyçi: Şahbaz Musayev
filologiya üzrə fəlsəfə doktoru

CAVİDƏ MƏMMƏDOVA
Filologiya üzrə fəlsəfə doktoru
cavi_e@yahoo.com

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İNGİLİS DRAMATURGİYASINDA SOSİAL-İCTİMAİ PROBLEMLƏR MÖVZUSU

Açar sözlər: fəlsəfə, dramaturq, Pinero, Şou
Ключевые слова: философия, драматург, пинеро, шоу
Keywords: philosophy, playwright, Pinero, Shaw

Böyük tarixə, mürəkkəb məzmun və ideyaya malik ingilis dramaturgiyası XIX əsrin əvvəllərində bir qədər fərqli mahiyyət kəsb etməkdə idi. Bu dövrün dramaturgiyası üçün daha çox yüngül süjet xəttinə malik, ictimai problemlərdən uzaq əsərlər xarakterik idi. İngiltərədə daha çox əyləncə xarakterli dram əsərləri populyarlıq qazandığından, istər şəhər, istərsə də əyalət teatrlarında əyləncəli tamaşaların səhnələşdirilməsinə üstünlük verildiyindən yeni yaranan dram əsərləri süjet və ideya mahiyyəti baxımından o qədər də ciddi məzmun daşımırdı. Demək olar ki, XIX əsrin sonlarına qədər böyük əhəmiyyət qazana bilməyən, zəif süjet və yüngül konfliktlərdən ibarət dram janrı mühüm problemlərin bədii həllinə maraq göstərməyərək, bir qədər real həyatdan uzaqlaşır. Həmin dövrdə B.Şou (George Bernard Shaw) (1856-1950), O.Uayld (Oscar Wilde) (1854-1900) kimi çox istedadlı dramaturqların imzalarına təsadüf edilməsinə baxmayaraq, bədii ədəbiyyatın bu sahəsi hələ ki böyük uğur nümayiş etdirə bilmir. Qeyd olunduğu kimi, I Dünya Müharibəsinə qədər "İngiltərədə əyləncəli dramaturgiyanın mövqeyi güclü idi. XIX-XX əsrin qovuşuğunda bir sıra uğurlu dramaturqlar yetişir ki, onların da önündə H.Cons və A.Pinero dayanırdı. İbsenin yaradıcılığından bəhrələnərək H.Cons "ağıllı dramaturgiya", "ədəbi dramaturgiya" uğrunda mübarizə aparır" (1, 39).

Görkəmli yazar, aktyor və rejissor A.Pinero ciddi sosial dramlar yaradıcısı kimi ingilis ədəbiyyatının əsas səhifələrindən birinə imza ata bilir. Əlli doqquz dram əsərinin müəllifi olan A.Pinero pyeslərinin bir qismində ictimai mühitdə insana, xüsusən qadına qarşı riyakar münasibətləri ifşa edir, cəmiyyətdə humanist dəyərlərin tədricən məhv olmaq təhlükəsinə diqqəti cəlb edir. A.Pineronun yaradıcılığı XX əsrin əvvəllərində ingilis dramaturgiyasının mövzu və məzmun baxımından yeni istiqamət əldə etməsində təsirsiz qalmır.

Məlumdur ki, XIX yüzilin sonları, XX yüzilin əvvəllərində Uilyam Batler Yits (1865-1939) (William Butler Yeats) başda olmaqla digər ünlü yazarlar tərəfindən əsası qoyulan İrland Ədəbi Dirçəlişi təkcə İrland ədəbiyyatnın inkişafına təkan vermədi, eyni zamanda, milli ədəbiyyatın ənənəvi dəyərlərinin müasir yaradıcılığa tətbiqini təmin etmiş oldu. Həmin dövr İrland ədəbiyyatı daha çox milli ruhu ilə Britaniya ədəbiyyatının fərqli səhifəsini təşkil edir. Beləliklə də XX əsrdə Britaniya teatrları, o cümlədən, teatrın özəyini təşkil edən dram yaradıcılığı yeni həyata İrlandiyada U.B.Yits, L.Gregori (L. Gregory), C.M.Sinq (J.M.Synge) tərəfindən əsası qoyulan İrland Teatrı sayəsində qədəm qoyur. Bu da digər tərəfdən dramaturgiyanın inkişafına təkan verir. Çünki bu zamandan başlayaraq artıq İngiltərədə də yüngül məzmunlu və konfliktli əsərlərdən imtina edilir, teatrlara yeni reformalar tət-

biq edə, ciddi tamaşaçı kütləsi toplaya biləcək rejissor və aktyorlar cəlb edilir. B.Şou (George Bernard Shaw), H.G.Barker (Harley Granville Barker), U.S.Moem (William Somerset Maugham), C.Qolsuorsinin (John Galsworthy) pyeslərində siyasi proseslərə münasibət yer alır, ictimai şüurun formalaşdırılmasına xidmət göstərən məqamlar dərinləşdirilir, dramaturgiyanın imkanlarının genişləndirilməsi, dramatik janrların təkmilləşdirilməsi üçün yeni yaradıcılıq yollarının müəyyənləşdirilməsinə cəhd edilir.

Ümumiyyətlə, XX əsrin əvvəllərində ingilis dramaturgiyasında formalaşmaqda olan yeni istiqamət daha çox siyasi, üsyançı ruha malik etiraz motivləri ilə zəngin və eyni dərəcədə də satira ilə xarakterikdir. Həmin dövrdə sosial-ictimai problemlərlə zəngin mövzular hansı üslubda yazılmasından asılı olmayaraq çox ciddi məsələləri ehtiva edir. Bu dövrün dramaturgiyası üçün "sosial drama" xarakterikdir. "Sosial" sözü burada terminoloji məna daşıyır. Çünki istənilən pyes bu və ya digər dərəcədə ictimai (sosial) münasibətləri əks etdirir... Əgər müasir ədəbiyyatşünaslıqda "sosial" dramdan xüsusi janr kimi bəhs edilirsə, demək, İbsen və Şoudan sonra aktual problemlərlə çıxış edən dramaturgiya nəzərdə tutulur" (2, 41).

Dövrün tanınmış yazarlarından olan C.B.Şou (1856-1950) öz əsərlərində müasir ictimai mühitin mənzərəsini yaradır, oxucuların diqqətini narahatlığa əsas verən sosial-ictimai problemlərə cəlb edir. Eyni zamanda, B.Şounu yeni məzmunlu dramaturgiyanın yaradılması uğrunda fəaliyyəti onun yaradıcılığının ən mürəkkəb və əhəmiyyətli məqamlarından birini təşkil edir. "Yeni dramaturgiya uğrunda mübarizəyə B.Şou ilk əvvəl bir nəzəriyyəçi olaraq başlayır və hər şeydən əvvəl, o, İbsenin yaradıcılığını nümunə gətirərək təbliğ edir. 1890-cı ildə Fabian cəmiyyəti müasir yazarlar barədə silsilə mühazirələr təşkil etmək qərarına gəlir. Zolya, İbsen, Turgenev və Tolstoyun yaradıcılığı barədə mühazirələrin oxunması nəzərdə tutulur. B.Şou İbsenin yaradıcılığı barədə mühazirə oxuyur" (3, 260). B.Şou İbsenin yaradıcılıq ənənələrindən yeni tipli dramaturgiyanın yaradılmasında əsas dayaqlardan biri kimi istifadə edilməsini məqsədəuyğun hesab edir. İngilis dramaturqunun "İbsenizmin kvintessensiyası" adlı kitabı son dərəcə maraqlı elmitənqidi mülahizələrlə zəngin olmaqla, dövrün dramatik növünün yaranma yolları barədə təsəvvür yaratmaqla yanaşı, həm də İbsen yaradıcılığı haqqında geniş məlumat vermək baxımından da maraqlı və əhmiyyətlidir. Çox maraqlıdır ki, İbsen dramaturgiyasına yüksək dəyər verən B.Şou öz dram yaradıcılığında İbsenin bədii üslubundan, sosial-ictimai məsələlərə münasibətindən, müasir insan və həyatla bağlı görüşlərindən faydalansa da tamamilə yeni səpkili, özünəməxsus bədii nümunələrlə dünya ədəbiyyatını zənginləşdirir.

Həmin dövrdə ingilis dramaturgiyasında maraqlı qadın obrazları da yaradılmaqda idi. Qadın obrazları artıq artıq əzilən, hüququ tapdanan, cəmiyyətdə ikinci dərəcəli, zəif insan obrazları olaraq yox, hüquqlu, azad insan surətləri kimi bədii ədəbiyyata daxil olur. Bu qadın surətləri, hər şeydən əvvəl, bir sıra sosial-ictimai qaydalara qarşı etiraz ifadə etmək üçün müəllifin yaratdığı bədii obrazlar kimi xüsusi maraq doğurur. Eyni zamanda, bu obrazlar müəllifin qadınlara, onların cəmiyyətdəki mövqe və roluna münasibətini əks etdirir. Yaradıcılığında qadın probleminə toxunan ilk ingilis yazarlarından biri də C.B.Şou olmuşdur. Tədqiqatçılar onun bu məsələdə də İbsenin yaradıcılığından bəhrələndiyini qeyd edirlər. C.B.Şounun qa-

dın qəhrəmanları real həyatdan alınmış insan obrazlarıdır. Xanım Varren, Barbara və digərləri güclü xarakterə malik qadınlardır.

Cəmiyyətin ümumi mənzərəsinə, pozulmaqda olan bir sıra mənəvi-əxlaqi dəyərlərə satirik, daha çox yumoristik üslubda toxunan C.B.Şou ictimai mühitdə baş verən xoşagəlməz dəyişikliklərin mahiyyətini oxucularına anlatmağa çalışır, insanlar arasında sağlam münasibətləri qorumağa, adamların qəlbində yaranan inamsızlıq, ümidsizlik kimi hissləri islah etməyə səy göstərir. Məqsədinə nail olmaq üçün müəllifin seçdiyi mövzular cəmiyyətdəki qeyri-əxlaqi hallara kəskin tənqidi münasibət ifadə etməkdədir. Eləcə də dinlə, daha doğrusu, dinin yanlış mənimsənilməsi və əsl mahiyyətini itirmiş dini inanclarla bağlı bir sıra məsələlər də dramaturqun yaradıcılığından kənar qalmır.

H.Barkerin (1877-1946) aktyor, rejissor və yazar kimi fəaliyyəti XX əsrin əvvəllərində dramaturgiyanın yeni istiqamətdə inkişafına bir qədər təkan vermiş olur. Belə ki, H.Barker U.Şeksprin əsərlərini yeni qurulşda təqdim etməklə təkcə teatr aləminə deyil, dramaturgiyaya da yeni yaradıcılıq üsulları gətirir.

O cümlədən, C.Qolsuorsinin və U.S.Moemin və bir çox yazarların əsərləri ingilis dramaturgiyasında sosial-ictimai problemlər mövzusunun ideya baxımından dərinləşməsinə, daha geniş məzmun əldə etməsinə imkan yaradır.

Həmin dövrdə ciddi maraq doğuran dram əsərlərinin bir qismi də modernizm ədəbi cərəyanının nümayəndələrinin yaradıcılığına məxsusdur. Çox maraqlıdır ki, siyasi olayların doğurduğu dəyişikliklər nəticəsində cəmiyyətdə baş verən fəsadlar, bütün bunların insan ruhuna və şüuruna təsiri məsələləri, cəmiyyətdə və fərdlərin mənəvi aləmində harmoniyanın pozulması kimi hallar bütün ziyalıları narahat etdiyi kimi, modernist yazarların da yaradıcılığının maraq çevrəsində idi. Baxmayaraq ki, modernist yazarların əsərlərinə mövzu seçdikləri hadisələri təqdim etmə üslubu, ideyanı anlatma yolları fərqli tərzdəydi, lakin qoyulan problem və onun həll yollarının axtarışı bütün yazarların eyni maraqlar ətrafında birləşdiyini sübut edirdi.

Belə maraqlı müəlliflərdən biri böyük ingilis yazarı, modernizm ədəbi cərəyanının ən görkəmli nümayəndələrindən olan C.Coysdur. Dram yaradıcılığında da C.Coys hekayə və romanları üçün xarakterik olan problemlərə toxunur. İnsanın mürəkkəb daxili dünyası, real aləmlə ruhi aləm arasındakı yaxınlıq və ziddiyyətlər, fərdin özünə sona qədər məlum olmayan psixoloji yaşantılar, düşüncə və hisslərdəki xaotik vəziyyət, ətrafda baş verən hadisənin obrazın biri digərini ardıcıl olaraq əvəzləyən hissləri zəminində təqdimatı müəllifin dram əsərlərinin də əsas problem və xüsusiyyətinə çevrilir. Müəllifin maraq doğuran əsərlərindən biri də "Sürgün edilmişlər" dramıdır. C.Coys bu əsəri yazmazdan "bir il öncə qeydlər halında qələmə alır" (4, 80) və sonra üzərində çalışaraq tamamlayır. İngilis tədqiqatçıları əsərin C.Coysun şəxsi həyatından alındığını, əsərin qəhrəmanı Riçard Rovanın C.Coysun özü, Bertanın isə yazıçının həyat yoldaşı Noranın, digər obraz Robert Həndin isə C.Coysun eyni yaşda olan yaxın dostları Oliver və Vinçentin hər ikisinin obrazı olduğunu qeyd edirlər. Əsərdə təsvir olunan olaylarla C.Coysun həyatında baş verən mühüm hadisələrin uyğunluğu da bunu təsdiq edir. Ümumiyyətlə, məlumdur ki, C.Coysun digər əsərlərində də avtobioqrafik məqamlar mövcuddur və yazıçı özü də bunu etiraf etmişdir. C.Coys haqqında monoqrafiyanın müəllifi Riçard Ellman "Sənətkarın gənclik portreti" romanındakı qəhrəmanların prototipi haqqında bəhs edərkən yazır ki, əsərin baş qəhrəmanında müəllif öz həyatından və xarakterindən ciz-

gilər əks etdirsə də, bir neçə dublinli C.Coysa bu obrazı tamamlamağa yardım etmişdir (5, 385). Ona görə də C.Coysun əsərlərinin ideyasının ana xəttində və obrazlar aləmində bir yaxınlıq, daxili, həm də harmonik bir əlaqə var. Digər tərəfdən də yazarın əsərlərində əks olunan sosial-ictimai problemlərin, olayların təqdimatındakı təbiiliyi bu amil də şərtləndirir.

C.Coysun "Sürgün edilmişlər" dramı insanların psixi və daxili yaşantılarını əks etdirməklə bərabər, həm də cəmiyyətdə fərdlər arasında zahirən davamedici görunən, lakin, əslində, humanist mahiyyətini itirməkdə olan, məhvə sürüklənən münasibətlərə işıq salır.

Həmin fikirləri modernizim ədəbi cərəyanının digər böyük nümayəndəsi D.H.Lorensin dram əsərlərinə də aid etmək olar. Onun "Gəlin", "Deyvid", "Karusel" və digər dram əsərləri inglis dramaturgiyasının ən qiymətli səhifələrindən birini təşkil edir.

D.H.Lorens də ciddi sosial problemlərə obrazların hissləri, coxcəhətli duyğuları zəminidə izah verməyə çalışır. Dramaturqun "Cürətli iş" əsəri bu baxımdan xüsusilə diqqəti cəlb edir. D.H.Lorensi bu dram əsərində insanlığın həm ictimai, həm də mənəvi azadlığı problemini qoyur. Məlumdur ki, yazarın yaradıcılığı üçün şaxtaçıların həyatından alınan mövzular xarakterikdir. Bu da təbii ki, onun "şaxtalar şəhəri" adlandırdığı İstvudda dünyaya gəlməsindən, kiçik yaşlarından, həyat haqqında düşüncələrinin formalaşmağa başladığı ilkin dövrlərdən həmin mühitlə yaxından tanış olmasından irəli gəlirdi. Həmin mühitdə D.H.Lorensin diqqətini cəlb edən, onu ağrıdan və bütün yaradıcılığı boyu əsərlərində qələmə aldığı ciddi problemlərdən biri son dərəcə ağır, məşəqqətli zəhmətin, aramsız gərgin fiziki əməyin insan varlığında yaratdığı heyrətamiz dəyişiklik, insanı qabalaşdıraraq mənən məhv edə bilməsi məsələsi olmuşdur. Həmin dram əsərində də müəllif bu və ya digər mətləblərə fərqli istiqamətdən toxunur və bu problemlərə əsas məsələlərə nisbətən daha açıq münasibət ifadə edir. D.H.Lorens qəhrəmanının dilindən Şekspirin "Ah, bu insanlar necə də kölə olmağa cəhd edir!" (6) ifadəsini misal gətirərək, əslində, əsərin iç qatdakı mənasına işıq salır. Pyesin ruhuna müəllifin fiziki və mənəvi azadlığa çağırışı hakimdir.

XX əsrin əvvəllərində ingilis dramaturgiyasında U.Arçer, U.Pol, B.Şou, H.Barker yaradıcılığı ilə təşəkkül tapan yeni səhifə təzahür edən yeni inkişaf istiqaməti azad cəmiyyət, sağlam ictimai münasibətlər, insanların mənəvi azadlığı, hər bir fərdin özünədəyər hissinə, düşüncə sərbəstliyinə sahiblənməsi ideyalarını təbliğ etməsi baxımından son dərəcə böyük əhəmiyyətini və aktuallığını bu gün də qoruyub saxlamaqdadır.

Ədəbiyyat

1. Бабенко В.Г. Драматические жанры и их взаимодействия. Иркутск, 1988.
2. Бабенко В.Г. Драматургия современной Англии. Москва, Высшая школа, 1981.
3. История зарубежной литературы XX века; 1871-1917. Москва, «Просвещение», 1989.
4. Anderson Ch. G. James Joyce. London: Thames and Hudson LTD, 1967.

5. Ellmann R. James Joyce. New York: Oxford University Press, 1959.
6. http://www.online-literature.com/dh_lawrence/touch-and-go

Javida Mammadova

The theme of social problems in the English drama in the early 20th century

Summary

Drama did not achieve importance as a genre in the 19th century until the end of the century in Great Britain. But in the early 20th century British drama was developed by great playwrights as A.Pinero, H.G.Barker, B.Shaw, O.Wilde, J.Joyce, D.H.Lawrence and so on.

This article is devoted to the theme of social problems in the English drama in the early 20th century. In this article were explained the characteristic features of British drama and were analysed social themes in the creative works of B.Shaw, J.Joyce, D.H.Lawrence.

Джавида Мамедова

Тема социолого-общественных проблем в английской драматургии в начале XX века

Резюме

Имевшая богатую историю английская драматургия в XIX веке серьезно не развивалась.

Несмотря на это, в начале XX века, благодаря произведениям таких выдающихся писателей, как А.Пинеро, Г.Баркер, Б.Шоу, О.Уайлд, Дж.Джойс и Д.Г.Лоуренс, английская драматургия начала развиваться в новых направлениях.

Это статья посвящена теме социолого-общественных проблем в английской драматургии в начале XX века. В ней раскрываются характерные особенности, присущие английской драматургии этого времени и аннализируется тема социолого-общественных проблем в драматических произведениях Б.Шоу, Дж.Джойса и Д.Г.Лоуренса.

Rəyçi: Bəsirə Əzizəliyeva
filologiya üzrə fəlsəfə doktoru

KÖNÜL NƏHMƏTOVA
Filologiya üzrə fəlsəfə doktoru

ABBASQULU AĞA BAKIXANOVUN "KİTABİ-ƏSGƏRİYYƏ" HEKAYƏSİNİN NƏSR TEXNİKASI

Açar sözlər: Könül Nehmətova, Abbasqulu ağa Bakıxanov, Kitabi-əsgəriyyə, xronotop, nəsr texnikası, təhkiyənin tipi
Ключевые слова: Абаскулу ага Бакиханов, Китаби-Аскерия, Кенуль Нахметова, хронотоп, техника прозы, тип повествования
Key words: A.Bakikhanov, Kitabi-asgariyya, Konul Nehmetova, chronotope technique of prose

Yazıçının həyati-estetik mövqeyi öz əksini bədii əsərin obrazlar sistemində, insan həyatının konkret şəkillərinin təsvirində, tipik xarakterlərin, müsbət qəhrəmanın obrazında, təsvirlərdə, nəhayət, müəllif obrazında tapır. Bütün bu xüsusiyyətlər yazıçının həyati-estetik mövqeyi, onun yaradıcılıq metodu, fərdi üslubu və onunla yanaşı həqiqətin onun əsərində əksini tapan tərəfləri ilə əsaslandırılır. Epik növün ən kiçik və ən təsirli janrı olan hekayənin ideya ekspressiv təhlilini verərkən ilk növbədə onun nitq stukturunu nəzərdən keçirmək zərurəti duyulur. Epik növün bütün janrları kimi, hekayədə də nitq sistemi, bir tərəfdən , təhkiyəçi obrazı ilə müəyyənləşir, digər tərəfdən isə - qəhramanların daxili aləmindən, onların şüjetdəki vəziyyətləri ilə şərtləndirilmiş vəziyyətindən, onların fərdi psixoloji, mədəni, sosial simalarından asılıdır. Bütün bunlar əsərin leksikasını, frazeologiyasını, hər bir bitmiş epizodun intonasiya düzümünü, səhnələri və bütövlükdə onların strukturunu müəyyənləşdirir. A.Bakıxanovun "Kitabi-Əsgəriyyə" əsəri də ana dilimizdə yazılmış ilk maarifçi-realist əsər kimi lirik intonasiyanın müşaiyət etdiyi satirik üslubu ilə geniş təhlillərə imkan verən bir sənətkarlıq nümunəsi olaraq diqqətəlayiqdir. Hekayə dili, üslubu baxımından, həm də ədəbiyyatımızda təhkiyənin inkişafı nəzər nöqtəsindən yeni nəsrin gələcək inkişafı üçün ümidverici əsərdir. "Kitabi-Əsgəriyyə" yazılma dövrünə görə tarixin elə bir qovşağında meydana gəlmişdir ki, klassik ənənələrlə müasir stereotiplərin qaynaqlanma prosesi başlanmışdır. Mədəni-mənəvi fəaliyyətlərin bütün sahələrində olduğu kimi, ədəbiyyatımızda da mühafizəkar, novator və islahatçı tendensiyalar müşahidə edilməkdə idi. Abbasqulu Ağa Bakıxanovun bütövlükdə bədii yaradıcılığında bu mövqe axtarışlarını müşahidə edirik ki, "Kitabi-Əsgəriyyə" hekayəsini bu yolda yazıçının bədii-estetik konsepsiyası kimi dəyərləndirə bilərik.

Əsərin giriş hissəsi dastan və klassik eposlara xas "Dibaçə" şəklində proloq kimi səslənərək müəllifin qələmə aldığı hadisəyə subyektiv münasibətini ifadə edir. Bununla da əsər boyunca müəllif obrazı aydın görünür və müəllif təhkiyəsi subyektivliyini əsərin sonuna qədər qoruyub saxlayır. Hekayədə təhkiyəçi kimi yazıçı özü çıxış edir və hadisənin şahidi kimi əsərinin qəhramanlarına tərəfdarlıq göstərir ki, bununla da aydın müəllif obrazını da formalaşdırmış olur. Müəllif əsərin əvvəli və sonunda bunu açıq tərzdə bəyan edir:

"Bəsteyi-dami-ələm, pamali-ənduhi-məlal,
Bülbüli-gülzari-möhnət Qüdsiyi-şuridəhal

bu rəsmi-dilaviz ilə firqeyi-ülul-əlbabə bəyani-mafilbal etmiş" (Dərd həbsxanasına bağlanmış, qəm-qüssədən üzülmüş, möhnət bağının bülbülü hali-pərişan Qüdsi bu gözəl üslubla ağıl sahibləri dəstəsinə gizli məqsədlərini bəyan etmiş). Göründüyü kimi, yazıçı öz halını da izhar etməklə qəhramanlarının vəziyyətini daha yaxından hiss etməsini də nəzərə çatdırır. Hekayəni nəql edib bitirdikdə isə təhkiyəçi onların sonunun nə ilə bitəcəyini hələ bilmədiyini də izhar edir və bununla da hadisənin gerçək şahidi olduğunu bir daha təsdiq etmiş olur:

"Ümidvaram ki, inşaallah-təala ənqərib peyvəndi-müvasilət aralarında vaqe olub, ədayi-təhniyət qılıb, mübarəkbad edim ol məzmunə nüsxeyi-cədid inşa qılım:

İlahi, bu duamı müstəcab et,

Hüsuli- mətləbi-feyz intisab et".

Müəllif Allah təaladan qəhramanlarının xeyrinə duasının qəbul edilməsini və faydalı istəklərin hasilini nəsib etməsini arzulayır ki, bu məzmunda da yeni bir əsər daha qələmə alsın.

Təhkiyəçinin nitqi yazıçının təhsil və savad dərəcəsinin göstəricisi olaraq klassik nəsr və ədəbi dili üslubundadır və bunu da yuxarıda qeyd etdiyimiz kimi, "gözəl üslub" adlandırır.

Əsərdə təhkiyənin tipi kimi, müəllifin qələmə aldığı mövzuya münasibəti tamamilə subyektivdir. Təhkiyəçi mövqeyini müdafiə etdiyi qəhramanlarının öz mübarizələrində seçdikləri yolu sanki oxucusunun mühakiməsinə buraxır. Amma öz subyektiv münasibətini lirik ricətlərdə yenə də oxucusuna xatırlatmaqdan qalmır. Əsgərin rastlaşdığı maneələri yeri gəldikcə hiylə yolu ilə aşa bilmək cəhdini ilk baxışda öz təhkiyəsində tamamilə münasibətsiz buraxır:

"Dedi:

- Ey yari-mehribanım! On şahi pul sənə verim, amma məni rədd etmə, hər vaxt gəlib ol məbləği mütalibə etsəm, bir bəhanə ilə təxir et. Bəlkə bu vəsilə ilə birbirimizi görmək müyəssər ola.

Cümləsi bu rəyi dürüst qəbul edib bir müddət dəxi ovqat keçirdilər."

Bir beytlə isə verilmiş qərara özü bir müşahidəçi kimi yanaşaraq qəhrəmanlarının öz düşüncələri tərzində haqq qazandırır:

"Aşiqdə gərək fünuni-hiylə,
Ta eyləyə vəsl üçün vəsilə".

Yazıçı burada yalnız öz fərdi münasibətini deyil, "fünuni-hiylə" ifadəsi altında daha dərin bir mənada münasibəti ifadə edir. Hekayənin əvvəlində də qeyd etdiyi kimi, "bəyani-mafilbal" deyə adlandırdığı bir çox mətləbləri kəlmələr içində gizlədərək "ərbabül-bəsairə" (gizlinləri görən dostlara) çatdırır.

Böyük ehtimalla deyə bilərik ki, "fünuni-hiylə" ifadəsi din tarixində özünə mühüm bir yer qazanmış bir rəvayətə işarədir:

"Malı və mülkü gedən, övladlarının hamısı vəfat edən Həzrət Əyyub sadəcə xanımı Rəhmə qalmaqda, xidmətində o durmaqdadır. Zaman gəlmiş, Rahmə başqalarının ev xidmətini görərək əldə etdiyi ücrətlə keçim sıxıntısını yumşaltma yolunu tutmuşdur və bir gün onun evdə olmadığı məqamda bir neçə dəfə səslənən Həzrəti-Əyyub cavab almadıqda xəstəliyin və çarəsizliyin verdiyi sıxıntı içində "şayət Allah

şəfa verərsə, Rahməyə yüz zopa vurmaq üzərinə" yəmin edir. Halbuki bu vəziyyətdə Rahmənin belə bir cəzaya layiq olacaq işlədiyi günah yox idi.

Həzrəti-Əyyub şəfa tapdıqdan sonra ilk olaraq yəmini yerinə yetirməyi istədi. Fəqət ona illər boyu yorulmadan, şikayətlənmədən şəfqət, mərhəmət və səmimiyyətlə Allah rizası üçün xidmət etmiş bir xanımın mükafatı bu olmamalıydı. ..Bu dəfə Allahü təala özü hakim oldu. Həzrəti-Əyyuba "əlinə bir dəmət al və onunla vur" əmrini verdi.

Həzrəti-Əyyub yüz dənə əkin sapını bir yerə topladı, dəmət düzəltdi, bağladı, yəminini yerinə yetirmək üçün xamımı Rahməyə vurdu. Beləcə məsələ həlledilmiş oldu... Fiqh tarixinə bu höküm "Əyyub Ruhsatı" adıyla daxil olmuşdur". Bu hökmə əsaslanaraq bəzən çıxılmaz məsələləri "hiyleyyi-şəriyyə" kimi həll etmək cəhdləri dində bu günə kimi görünməkdədir.

Hekayənin razvyazkası (Əsgərin yuxuda ustadını görüb onun razılığını alması) da məhz "fünuni-hiylə" yolu ilə həll edilmişdir ki, burada da müəllif olub bitənlərə zamin deyil, o, sadəcə, nağıl olunanları oxucusuna olduğu kimi söyləməkdə məsuldur. Bütün bunları o, Əsgərin özündən eşitdiyini hadisənin davamında diqqətə çatdırmaqla gerçəkçiliyini sanki zəmanət altına almağa çalışır:

"Nagah bir ğəmmazi-süxənçin bu surəti-macəranı əla macəra varıb ol məhəllə rəisinə mə`lum etdi. Ol rəis dəxi müvəkkillər təyin etdi ki, hər yerdə ol aşiqi – dilxuni görsələr tutub işgəncəyi-siyasətə yetirsinlər. Əsgəri-müztərdən nəqldir ki:

- Çün rahi-çarə hər tərəfdən məsdud oldu və rəis ilə saziş etməkdən başqa çarə görmədim və dedim:

Zülmü gör kim, ayrılıqdan canə yetdim aqibət,
Çarəsiz qaldım varıb əğyarə könlüm bağladım.

Axirül-əmr bir gün əlimə bir parə nan alıb üstündə rövğəni-kərə tışrə çıxdım. Rəisi-məzkur mənə düçar olduqda təarif ilə ona verib dedim:

- Əgər həqqi-ne`məti fəramuş edib, mənə təərrüz qılsan, bu nan gözlərini tutsun və səmumi-küfrani-ne`mət gülşəni-ömrünü xəzan etsin."

Nümunələrdən göründüyü kimi, əsərin təhkiyə dili ilə personajların dili ədəbi quruluşuna görə fərqlənir və həmçinin şəraitdən asılı olaraq həm müəllif təhkiyəsi, həm də personajların nitqi dəyişir. Müəllif dili lirik-publisistik ricətlərdə ibarəlidir, amma hadisələrin təsvirində daha sadədir. Əsgər Ahəngərzadə bir ruhani nümayəndəsi olduğu üçün onun nitqi pafosu ilə digər personajlardan fərqlidir və hər kəslə onun mənsub olduğu zümrənin dili ilə danışır. Əsərdəki qadın obrazı da xarakter və nitq etibarilə real və səmimidir. Öz narahatlığını və qəzəbini ifadə edəndə daha sadə və millidir:

" – Ya əkəllüləvat! Ey atacan! Bir baş qəbirdən götür! Biz pərişanrüzgar, tirəbəxtlərə nəzər qıl! Bivəfa ərdəbillilər əlində necə zarü sərgərdan qalmışıq!"

" - Ah ! Qardaş, kaş sənin kimi naxələf ölə idi, bu günləri görməyə idi" .

Lakin daha mühüm məsələlər sevgilililər arasında da yüksək ədəbi dil səviyyəsində aydınlaşdırılır. Ayrılıq məqamından sonrakı görüşdə söhbətləri də lirik xarakterə malik olduğu üçün patetikdir. Abbasqulu Ağa Bakıxanov daha çox kiçik səhnələr vasitəsilə qurduğu süjetdə obrazların danışıq psixologiyasının incəliklərinə vararaq dolğun xarakterlər yaratmağa müvəffəq olmuşdur.

Bədii nəsrin janrını şərtləndirən əsas amillərdən biri kimi xronotop "Kitabi-Əsgəriyyə" hekayəsinin həm də realizmini şərtləndirir. Hekayədə zaman ünsürü iki aspektdə görünür. Ümumi zaman aspekti yazıçının yaşadığı dövrdür, konkret zaman kəsiyi kimi bahar fəslini görürük: "Bir gecə kim, dünyanı bəzəyən gəlin mehri-ənvari—zülməti-şamdan zülfi-mişkin rüxsarinə hideyi-rübdə aram buldu və qəmər ay qonaqlıq məclisi tərtib edib ki, gecə qaranlığını günün qeyrəti və Leylinin çöhrəsi kimi bəzəkli edib fələklər səyyarında qızıl-gümüşdən təbəqlər doldurub dağıtmaq üçün hazır elədi:

Mehr oldu büsati-çərxdən dur,
Mah aldı əlinə şəmi-kafur.
Bir türfə şəbü xücəstəfərcam
Onun kimi görməmişdi əyyam.
Novruz günündən ol füzun qədr,
İzzətlə misali-leylətül-Qədr.

Göründüyü kimi, hadisənin zamanı bir az daha konkretləşdirilərək onun Novruz bayramından bir qədər keçmiş, yəni Ramazan ayında Qədr gecəsinə qədər olan bir müddətdən sonraya aid edilir. Məlum olduğu kimi, Qədr gecəsi Ramazan ayının son on gününün içində olan bir gecədir ki, bununla da Novruz bayramından təxminən on gün sonra nəzərdə tutulmuşdur. Eyni zamanda, zamanın təsvirində Bakıxanovun astronomik bilikləri də öz əksini tapmışdır: Günəş yer kürəsindən uzaqlaşdı – "Mehr oldu büsati-çərxdən dur", ay ekvatora yaxınlaşdı -"Mah aldı əlinə şəmi-kafur "(kafur – ekvatordakı ölkələrdə bitən bir ağac, çox işıq verən şam).

"Kitabi-Əsgəriyyə" hekayəsinin realizmini şərtləndirən amillərdən biri də konkret məkan ünsürüdür. Əsərdə təsvir olunan hadisə Quba şəhərində, daha konkret olaraq isə, "ərdəbillilər" məhəlləsində baş verir. Əsgərin ustadı olan mərsiyəxan "ərdəbillilər" məhəlləsində yaşayır və bu məhəllənin məscidində mərsiyəxanlıq edir. Əsgər isə bu məhəllədən kənarda yaşayır. Əsərdə məhəllənin real təsvirini də görə bilirik: "Bilmərrə səbr ətəyindən əlini üzüb ayrılığa tab etmədi və görüş xoşbəxtliyinə ərizəçi olub bir müddət sonra yenə müraciət edib cananın məhəlləsinə qonşu olmaq istədi. Şəhərin kənarına yetdikdə aşiqi-məhcur ah çəkməkdən gül üzü xəzan yarpaqlarıtək saralmışdı və müsibət yükünün ağırlığından yaraşıqlı qaməti bükülmüşdü". Tarixi faktlar da Quba şəhərində "ərdəbillilər" məhəlləsindən və bu məhəllənin məhz şəhərin girəcəyində yerləşməsindən xəbər verir: "Yadigar qalmış vərəqparələrdən və təvarixdə görünən müxtəsər əhvallardan belə məlum olur ki, Quba şəhərini Nadir şah tarixi-hicriyyənin 1147-ci sənəsində - ki, miladın 1734-cü sənəsinə mütabiqdir, - bina etdirmişdir. Müşarileyh Şabrandan (Quba uyezsdində Dəvəçi mahalıdır) gəlib keçdikdə Dərbənd ilə Şabranın arasında "Gülüstani-İrəm" adında basəfa bağlıqda istirahət üçün sakin olmuşdur.

Buranın abü havası şaha xoş gəldiyindən Mirzə Mehdi xan Münşi təvəssütü ilə əmr etmişdir ki, burada şəhər binası qoyulsun. Bu əmri icra etmək üçün bir neçə nəfər öz qoşunundan – ki, Ərdəbil şəhərindən var imişlər, - o məkanda qoyur. O cəhətə şəhərin əvvəlinci məhəlləsi indilikdə də "Ərdəbil məhəlləsi" adı ilə məşhurdur"[1]. Hekayədə adı çəkilən məscid və qəbirstanlıq məkan ünsürünün detallarıdır.

[1] Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı tarixi. I c., Bakı, 1978, səh. 287

Abbasqulu ağa Bakıxanovun "Kitabi-Əsgəriyyə" əsərinin yuxarıda sadaladığımız ciddi sənətkarlıq məziyyətlərinə baxmayaraq, ana dilimizdə ilk müasir hekayə kimi nəsrimizin bədii inkişafına təsirindən danışmaq üçün hələ ki əlimizdə tutarlı dəlillər yoxdur. Bunun üçün hekayənin öyrənilməsi istiqamətində işlər davam etdirilməli, əsərin əlyazma nüsxələri və dərc olunduğu məcmuələr üzə çıxarılmalıdır ki, bəlkə bu işlər sayəsində də təsir dairəsini müəyyənləşdirmək mümükün olsun.

Ədəbiyyat

1.Abbasqulu ağa Bakıxanov. Seçilmiş əsərləri. Bakı, 1987.
2.Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı tarixi. I c., Bakı, 1978.

Кенуль Нахметова

Техника прозы рассказа «Китаби-Аскерия»Абаскулу аги Бакиханова

Резюме

В данной статье объектом исследование является прозаическая техника рассказа А.Бакиханова «Китаби-Аскерия». Как и в других жанрах эпического вида, система речи в рассказе тоже определяется с образом повествователя, но и так же оно определяется с внутренними мирами персонажей, их обусловленными обстоятельствами внутри сюжета, их индивидуально-психологическими, культурными и социальными лицами. «Китаби-Аскерия» А.Бакиханова как первая реалистично-просветительская литературная работа написанная на родном языке, в сопровождении лирической интонации отличается со своим сатирическим стилем, которое позволяет широким расследованиям как полноценное произведение искусства.

Konul Nehmetova

The prose technology of "Kitabi-Asgariyya" of Abbasgulu aga Bakikhanov

Summary

In her article Konul Nehmetova includes the research of the mastership characteristics of the story "Kitabi-Askeriyya" written by Abbasgulu aga Bakikhanov. As in common epic genres in narration the speech system is also forms with prose writer's image on one hand, on the other hand by different aspects of characters such as: inner world; the situations bordered by the plot; individual-physiologic, cultural and social masks. All of these features commensurate the story's lexicon, its phraseology and intonation order of the concluded episodes, the scenes and the whole structure. "Kitabi-Askeriyya" of A.Bakikhanov as the first enlightenment realistic literature work written in Azerbaijani is noteworthy for its satiric style dictated by lyric intonation which is open to interpretations in detail.

Rəyçi: Güldəniz Qocayeva
filologiya üzrə fəlsəfə doktoru

HİLALƏ AXUNDOVA
Azərbaycan Müəllimlər
İnstitutunun Sumqayıt filialı

AZƏRBAYCAN FOLKLORUNDA DAĞ KULTU

Açar sözlər: Dağ kultu, Sarkal, Mif, Folklor, Kosmoqoniya, Göy tanrısı.
Ключевые слова: культ гор, соркал, миф, фольклор, космогония, бог неба
Key words: orolatiya, sorkal, mif, folklor, komoqoniya, the god of the sky.

Türk xalqlarının qədim mifik inanclarında dağ kultu önəmli yer tutur. Bu xalqların mifik təsəvvürlərində müqəddəs üçlük-dağ-torpaq-günəş-ilkin başlanğıc, bütün canlıların anası və atası kimi interpretasiya olunur. Qədim mifik təsəvvürlərə aid ilk mənbələri araşdırarkən astral kosmoqonik komponentlər ata başıalnğıcı, dağ-yer komponenti isə ana başlanğıcı anlamındadır. Təbiətlə sıx təmasda olan ilk insanlar həyatlarının asanlaşdırmaq üçün özlərindən xaric olan qüvvələrə inanc gətirir, sitayiş edir, onların kultunu yaradırdılar. Belə kultlar çoxluğu qədim insanların təsəvvürlərinə görə onların yaşam uğurlarmı gücləndirir, onları ümumən təbiyyətlə, mövhumi qüvvələrlə qovuşdururdu. Qədim insanların ən çox diqqəti çəkən kultlardan biri də dağ kultu idi. Türk xalqlarının inanc faktorunu, mərasimlərini araşdırarkən dağ kultunun müxtəlif növ forma təzahürlərinin ideya və materiallarının ilk görüntülərinin şahidi oluruq. Dağ kultu müxtəlif zaman məkanlarda müxtəlif aspektlərdə çıxış edir.

Bəzi məqamlar və təsəvvürlərdə, təbiət hadisəsi, dağ özünü qorxunc qüvvə kimi özünü göstərir. Böyük sosial təqiblərdən qorunmaq üçün sığınacaq axtaran insan, heç də əvvəlkilərdən az olmayan çətinliklər və təhlükələrlə qarşılaşır. Ona görə də insanlarda qorxunc dağ ruhları haqqında mifik təsəvvürlər yaranır.

Bir sıra ciddi tədqiqatlar göstərir ki, türk xalqlarının qədim mifik inanclarında dağ kultu çox önəmli anlamlardandır. Bu xalqların mifik təfəkküründə dağ həm də müqəddəs başlanğıc hesab olunur. Hətta müqəddəs üçlük şəklində - dağ-torpaq-günəşlə birlikdə müqəddəs başlanğıc hesab olunur.

Belə inteprpretasiyada kosmqonik komponent ata, dağ-yer komponenti isə ana hesab olunur. "Oğuz Xaqan" eposunda Oğuz xanın oğullarından biri Dağ xan adlanır. Dağ Xan oğuzların 24 oğullarından biridir.

Şaman mərasimlərində dağ insanlarını pis ruhlardan qoruyan totemik mövcudluq, varlıq, mahiyyətidir. Belə dağlardan Altay, Boqa dağlarmı, Alatay və Qaratay və başqaları türk inanclar ilə bağlıdır.

Qədim oğuzlarm ən qədim dastlarından olan, "Kitabi Dədə Qorqud" dastanında mövzu üçün əhəmiyyətli olan istiqamətlər diqqəti cəlb edir. Oradakı mövcud dağlar yalnız sıldırım qayalarla əhatə olunmur. Onun enişi-yoxuşu keçidləri, baharı günəşli günləri var. Bütün bunları müşahidə edən insan bu vəziyyətin sahibinə təşəkkür kultunu yaradır.

Böyük ərazilərdə, müxtəlif təbii şəraitdə yaşayan türk xalqlarının mifik təsəvvürləri dağ ruhunun özlərinə məxsus obrazlarını yaratmışlar. Həmin obrazlar yaxşı insanlara kömək edir, pis insanlara isə cəza verir. Illər ötdükcə, dağ kultu, zaman dəyişdikcə ilk görünüşü ilə yaranışını dəyişir. İnsanların inanclarından, təbiət hadi-

sələrini təzahür formasından asılı olaraq pis və yaxşı dağ ruhu və onu mifləşmiş obrazı yaranır. Bəzən tarixən yaranmış dağ ruhuna sitayişin ilk forması elə dəyişir ki, müəyyən kateqoriya və mənşəyi aydınlaşdırmaq çətin olur. Məsələn, bəzən məlum olmur ki, insanlar "dağ yüksəlkiyinə" nəyə görə sitayiş edirlər. Yalnız mərasim keçirdikləri yer kimi, yaxud müqəddəsJərə qurban gətirdikləri üçünmü, yaxud da ənənəvi olaraq, bəlkə də Allahların güman olunduğu məkan kimi (Sinay, Parfenon, Olimp, Tayşan, Qaf, Altay və b)

Qədim inanclarda bəzi dağlar xalq təsəvvürlərində şər qüvvələrin yığıncağı kimi pis şöhrət tapmışdır. Türk xalqları aralarında "xöşbəxt dağ" təsvirləri mövcuddur.

Dağ kultuna, sitayiş edilən mifləşmiş dağlar aiddir. Bu dağlar mifaloji obrazlar kimi tərənnüm edilirlər. (Olimp, Ossa Pelion, Parnas, Kiferon, İda, sinay, Baqda-ola, Tibet, Fudzima, Altay, Qafqaz və b).

Təmiz mifoloji dağların özəlliyi hələ öyrənilməyib, çünki o miflər xalq mifoloji fantaziyası deyil, müəyyən mənada, professional kahinlərin və fılosofların spekuliyasiyasına bənzəyir. Ona görə də dağ kultundan danışarkən bəzən o, öz forma və mahiyyəti etibarı ilə bir etnik qurum, hər hansı bir inama görə hansısa bir dağa görə mərasim icra edir. Bu zamandağ kultu təbii ki, ümumi idari-mifik ümumilik qazanmır. Konkret olaraq deyə bilərik ki, dağ kultu müxtəlif aspektlərindən biri də din-mifoloji təsəvvürlərindən, tarixi, ekoloji, həmçinin regiondakı əhalinin təsərrüfat fəaliyyətindən asılıdır. Çünki o zaman dini mifoloji ideyaların memorial kökləri açılır. Tarixi-etnoqrafik və müqayisəli etnoqrafik metod vasitəsi ilə dinin tarixində dağ kultunun ayrıca konkret formasını dağ kultunu-orolatriyanın dərkinə kömək edir. Etno – genetik cəhətdən türk xalqları ilə kök bağlılığı olan monqollar da dağlara sitayiş budda kultunun tərkib hissəsinə daxil olub.

Dağa ehtiram qədim və geniş yayılmış hadisədir. Qədim müqəddəs dağlara ehtiram, dağ kultunun qədim dünya dinlərində rolu böyükdür. Dağ kultu-Yunanıstanda Olimp, Yəhudilərdə Sinay, Hindlərdə Himalay, Türk xalqlarmda Altay-Bodırn-inli, Burxan-xaldun. və s. Manqollarda Oçir - vanı, Burxun-ola, Burxan – butay, ya Kuku-sepke,-dağlarını yada salmaq olar. o regionda yaşayan türk xalqları və monqollarda Baytak-Qirgizistanda, Burul -boqda-Urumçi Altay,Ten-Şan dağ kultuna aid edilən zirvə və keçidlərdə dağın və onun sahibinin şərəfinə daş yığımı düzəldilir. Bu daş yığınına "oba" deyilir və parça ilə bəzəyirlər.)

Altay türkleri də Bobonqan ve Kızıl dere dağların zirvəsində illərlə düzəldilmiş olan daş yığnağının ortasına dik ağac keçirir mərasim vaxtı və başqa vaxta zirvəyə qalxan ziyarətçilər tərəfindən həmi ağaca niyyət parçası bağlanır və yığnağın yanından keçərkən daş parçası atılır. C.A.Tokaryevin yazdığı kimi Altaylara görə "Hər bir soyun qəbilə Allahından başqa öz müqəddəs dağları da vardır" doğurdan da Altay, Sibir türklərin folklor və inanclarında dağ ruhu, dağ sahibi mühüm yer tutur, həmçinin dağ sibir türklərin təfəkkürlərinə görə canlı kimi xizəkdə gəzir, nəğmə oxuyur, rəqs edir, danışır və ov edir. Sibir türklərinin mühüm hadisələrdən əvvəl (ov mövsümündən əvvəl) müqəddəs dağ ruhunun şərəfinə mərasimlər təşkil edirlər. Onunla danışır, onu köməyə çağırırlar. İbtidai mifik təsəvvürləri və dinlər haqqında danışan. L.Y.Şternberq yazırdı: “Dağların uca zirvəsi göylərə söykəndiyi üçün buludların toplaşdığı, ildırımların çaxnaşdığı yerdir. Ildırımların çaxnaşması yağışların yağması, məhsulun əmələ gəlməsi ilə insanın

əlverişli həyatı başlanır. Elə bu dövrdə də dağ kultu meydana gəlir.” Sibir türklərinin qəbilə ərazisini, ov yerlrəini cavan kişi və qadın şəklində qəbilə dağ ruhu qoruyur. Ov mövsümü vaxtı cavan qızlar "dağın sahibəsi" kimi ov ərazisinə gedir, cavan oğlanlara uğur diləyir, onlarla sahibə və gəlin kimi münasibətdə olurdular.

Altay və Sibir türklərinin qəbilə dağ kultunun çox qədim olduğunu, hələ təbiət və stixıyanın antroporfik obrazlarda təsəvvür etdiklərini hələ ruhların əşyalaşdırılmış mərhələsinin başlamadağını göstərir”.

Biz yuxarıda sosial antropoloji cəhətdən qədim qəbilənin mifik, ibtidai dini təsəvvür və inanclarının bu günlərimizədə də yaşadıqığın qədim Altay və Sibir türklərinin dağ ruhu, dağ kultu haqqında bilgilərini araşdırdıq. Bu mövzu ilə bağlı iki mərhələ araşdırılması daha böyük elmi əhəmiyyət daşıyır.

Birinci mərhələ daha çox ümumi türk mənşəli mifik təsəvvürlərin və tarixi abidələrin yazıya alınmuş nümunələrini araşdırmaq ilk başlanğıc olaraq mühüm istiqamətdir. Ümumiyyətlə, dağ ruhu, dağ kultu nəinki türk xalqlarında bütün bəşər sivilizasiyanın insanların diqqətini cəlb edən ilk başlanğıc kimi mühüm yer tutur. Bütün bəşəriyyətin ilk mifik görüşlərinin, ibtidai dinlərin, hətta dini idelogi yaşının, Peyğəmbərlik statusunun yaranmasında dağ kultu əsas kompanentlərdən biridir. Təsadüfi deyil ki, müqəddəs peyğəmbərlər Tanrı ilə ilk təmasların dağ kultu məkanında etmişlər. Musa peyğəmbər Sinay dağında, İsa peyğəmbər Qaliliya yüksəkliyində, Məhəmməd peyğəmbər Həra, dağında. Tək tanrıçılıq dinlərin yaranmasına qədər insanlar dağlara güvənir, ona sığınır, eyni zamanda ondan qorxur, onun könlünü almaq üçün şəninə nəğmələr qoşur, mərasimlər təşkil edir, qurbanlar, hədiyyələr verirdilər.

Türk xalqlarının mifik təsəvvürləri, inancları və dini görüşləri haqqında araşdırma aparmış tədqiqatçılar başqa xalqlara nisbətdə dağ kultunun türk xalqlarının həyatında daha önəmli yer tutduqlarını deyirlər. Onların yazdıqlarma görə sarkal, kosmoqomik komponentlər göy elementləri ata yer, onun ən uca zirvəsi olan dağ isə ana demiqurucusudur. Elə ona görədir ki, türk xalqlarının təsəvvürlərində dağlar ulu yaradacı, ilk başlanğıcdırlar - xan Tanrı, Buzdağ Ata, Bayın ulu və sair bu mifik təsəvvürlər real dağların coğrafi leksik-semantik mənalarından çox-çox geniş anlam daşıyır. Türk xalqlarının böyük qolu olan və əsrlərin qaranlıqlarından öz mifik inanclarının müasir dünyamıza gətirmiş oğuz türklərinin "Oğuz Xaqan” və “Dədə Qorqud" dastanı bu cəhətdən çox xarakterikdir. Dağ və Yer kultu "Oğuz Xalqa”nın nəslinin ilk başlanğıc kimi yaranması, mövcudluğunun, davamının mifik əsaslarıdır. “Dədə Oprqud" dastanı dağ kultu ilə, ümumiyyətlə oğuz tayfalarının astral kosmoqomik görüşlərinin araşdırılması üçün böyük mənbədir. “Dədə Qorqud" dastanını araşdırarkən qədim türklərin mifik alqış və qarğış təsəvvürlərinin bütün dastan boyu özünü göstərdiyinin şahidi oluruq. “Dircə xan oğlu Buğac boyunda” Xainlər Buğacın guya qanunsuz ova çıxmasını, anası ilə birləşib Dirsə xanı öldürəcəkləri ilə bağlı yalan uydururlar, köksügözəl ala dağa və Buağaca xəyanət edirlər. Dastanda oğuzların güvənc yeri olan dağ ruhuna, igidlik şərəfinə xəyanət edirlər.

Buğac köksü gözəl böyük dağa ova çıxır. O, igiddir, gəncdir, cəsarətlidir, mənəviyyatca təmizdir. "Köksü gözəl böyük dağla” birlikdə saf və yenilməzdir. “Köksü gözəl böyük dağlara gün düşəndə" qırx döyüşçüsü ilə doğma atası ona xəyanət edir. Oğlunun gəlmədiyini görən Burla xatun güvən qaynağı olan köksü gözəl böyük dağa inam gətirərək Dirsə xandan oğlunu soruşur:

Köküsü gözəl böyük dağa çıxdın.
İki getdin bir gəlirsən, balam hanı?
Qarşıdakı Ala dağdan bir oğul uçurdunsa de mənə.

Burla xatun Qazlıq dağında oğlunu yaralı gördüyündə isə dağa qarğış edir.

Niyə axır sənin suların, qazlıq dağı
Belə axmaqdansa heç axmasın
Niyə bitir sənin otların,
Belə bitməkdənsə, heç bitməsin!
Keyiklərin qaçır sənin, Qazlıq dağı,
Qaçar ikən, qaçmaz olsun, daşa dönsün!

Dağ ruhu, dağ kultu mifik təsəvvürlərinə və günahsızlıq anlamına görə bu qarğış cavabını almalıdır. Dağ ruhuna haqsız olaraq qarğayan ananın cavabını Buğac verir:

Bəri gəl, ağ südünü əmdiyim, xanım ana!
Ağ birçəkli hörmətli, canım ana!
Axar sular deyib qarğama,
Qazlıq dağının sularının günahı yoxdur.
Qaçan keyiklərini qarğama,
Qazlıq dağının günahı yoxdur.
Aslanını, qaplanını qarğama,
Qazlıq dağının günahı yoxdur.
Qarğayırsan atamı qarğa,
Bu suç, bu günah atamındır-dedi.

Buğacın cavabında qədim dövrlərdən, əsrlərdən gələn dağ kultu, qəbilə tayfa tabuları, harmoniyası pozulmuşdur. Buğac dağ ruhunun, axar suların, keyiklərin, aslanların, qaplanların bu məqamda mənafeyini qoruyur, ata başlanğıcına, ata kultunu günahlandırır. Dağ çiçəyi ilə ana südü başlanğıcnı müqəddəsləşdirilir. Iki yaradıcı başlanğıc - dağ və Ana - günah işlətmiş, nahaqdan qan tökmüş Ata başlanğıcına qarşı qoyulur. Pozulmaz harmoniya bərpa olunur. "Yerli böyük dağların yıxılmasın!" alqışı dağ kultunun şərəfinə səsləndirilir.

Dastanda ölkənin düşmənlər tərəfindən işğal olunması zamanı-dağ ruhu köməyə çağırılır, ilk başlanğıcın fəlakəti göstərilir:

Qarşu yatan qarlı dağlar
Qarıyıbdır otu bitməz
Qanlı- qanlı irmaqlar
Quruyubdur, suyu gəlməz

Qədim Oğuz mifik təfəkkürünə görə çətin sual yaranardısa ilk öncə dağ ruhuna tapınar, sorğunu ondan sorardılar. "Qarşı dağdan sorar olsam yay yaylaq kimin?"

Elə-obaya fəlakət gələndə yenə dağ kultunu yada salaraq –

Qarşı yatan qara dağım yıxılıbdır - deyirlər.

Bamsı Beyrəyin yarışlarda qalıb gələrək Selcan xatuna qovuşduğu zamana qaynatasını bu sözlərlə qutlayır:

Sıra dağların yıxılmışdı, ucaldı axır"

Sonda isə Dədəm Qorqud "bu oğuznamə Beyrəyin olsun! Deyərək sözlərini bu alqışla tamamlayır" "Uca dağların yıxılmasın"'

Dastanda oğuzlar igidin uca şərəfini bu alqışlarla mənalandırırlar:

"Qarşı yatan qara dağım yüksəyi oğul!" '

"Basatın Təpəgözü öldürdüyü boyu"nda və başqa xalqlardada da dağ kultunun yayılmış variantları var.

Tədqiqatçılar bu boyu Homerin "Odiseya"sındakı Siklopla müqayisə

edirlər. Təpəgözün də Siklon kimi tək gözü var, o dağlarda yaşayır, hanibal xarakterlidir. "Təpəgöz Oğuzdan çıxdı, bir uca dağa vardı, Yol kəsdi, adam aldı, böyük hərami oldu." Bu boyda dağ kultu insanla zərər verən Təpəgözün sığınacağıdır. Burada artıq insanlar dağa güvənmirlər, əksinə ondan fəlakət gözləyirlər, lakin bu fəlakət keçəridir. Basat kimi igidin sayəsində dəf olunur. Artıq "Qara dağ" fəlakət yeri deyil Basat kimi igidlərə "keçid verən" uğur məkanıdır. Ona görə də

Dədəm Qorqud Basatın bu qələbəsini belə qutlama ilə alqışladı.

-Qara Dağa yetəndə sənə keçid versin!

Aşqın- daşqın sular sənə keçid versin!

Uca dağlar Oğuz oğullarının, igidlərinin güvəndiyi məkan olmaqla yanaşı, həm də təbiətə qovuşmaq, təbiətlə, ucalıqla təmasda olmaq yeri idi. Bəkilin xanımı ərini incik görəndə deyir." Sən gedəli, xanım, arquru yatan ala dağların olvalnmamışdır. Ata bingil, könlüm açılsın" (203)

"İç Oğuzun Daş Oğuza dönük çıxması və Beyrəyin öldürülməsi boyu"nda da belə məqam özünü göstərir.

-Qazan xan yerindən durub gəldi.

Ala dağda çadır-otaq tiklədi. Üç yüz altmış altı igid söhbətinə yığıldı.

İgidlik göstərmənin əsas yeri də uca dağlardır. Qazan xan düşmənlərinə deyir:

-"Hündür yerdə yumru başı top kimi kəsdim"

Onda belə "ərəm, bəyəm" deyə öyünmədim (215)

Yüksək-yüksək böyük dağdan daş yuvarlansa, öz dizimi – oynağımı qarşısına tutan mənəm.

O başqa bir məqamda isə - uca dağda dolu yağsa, qara qatı duman dursa Qaracıq atın qulaqları çovqunluqda görünməsə,

-Bələdçisiz qorxu çəkən igidlər də yol yanılsa,

Bələdçisiz yol tanıyan, yol bacaran Qazan mənəm -deyir.

(Salur Qazanın dustaq olduğu və oğlu Uruzun onu xilas etdiyi boy)

Mövzu ilə bağlı araşdırmalar göstəriri ki, bəşər tarixində bütün xalqların mifik görüşləri, inanclarında, dini, ruhu təxəyyüllərində məişət və həyat tərzlərində dağ kultu ilkin bağlanğıc kimi mühüm yer tutduğu üçün həmişə çağdaş elmi istiqamətlərdən biri kimi yeni münasibətlər, yeni axtarışlar tələb edir.

Ədəbiyyat

1) Potapov L.P Kult qor na altaye Moskva "Sovetskaya etnoqrafıya №2 1946

2) Kozin S.A. "Sokrovennoye skazaniye Yuançuo -bı-şi»' "sbornik" 1 c M-l 1941

3) Patonin Q.N. oçerki severo – zapadnoy Monqolii c. II. M. 1988
4) Tokayeyev S.A. Ranniyeye formı reliqii
5) Tokaryev problema proisxojdenii reliqii
6) Kızlasov İ.L. "Qora proroditelnitsa v folklore Xakasov" Sovetxkaya etnoqrafıya № 2 1982
7) Unan Ke "Mifi drevnoqo Kitaya" M. 1965
8) Rövşən Əlizadə "Azərbaycan folklorunda təbiət kultları" "Nurlan" 208. Bakı
9) Toporov V.P. Qora mifi norodov mira M. 1989.
10) "Kitabi Dədəqorqud" dastanı Bakı Yazıçı, 1988

Х.Ахундов

По «Культ гор в Азербайджанской фольклоре »

Резюме

Исследование опирается на факты верований и обрядов тюркских народов и основном Азербайджанских. Ознакомлением фактами замечается каков разнообразие явлений кроется под этим терминами. В стати старается показать, разнообразное не только виды, формы, и проявления культ горном его идейные и материальные корны. В фольклоре весьма разнообразных материальных аспектах и тем самым в разных социальной функциях.

H.Akhundov

On "The Cult of the mountains in the Azerbaijan folklore"

Summary

The study is based on the facts of beliefs and practices of the Turkic peoples of Azerbaijan and mainly. Becoming familiar facts seen what lies variety of events this term. In the article tries to show not only the diverse types, forms and manifestations of the cult of the mountain its ideological and material roots. In the folklore of a wide variety of material aspects, and thus in different social functions

Rəyçi: Bədirxan Əhmədov
filologiya elmləri doktoru, professor

TAHİRƏ ƏLİYEVA
Əlyazmalar İnstitutu

ƏHDİ BAĞDADİ VƏ SADİQ BƏY ƏFŞAR

Açar sözlər: Təzkirə, divan, qəzəl, qəsidə, Füzuli
Key words: Tazkira, divan, gazal, qasida, Fuzuly
Ключевые слова: Тазкире, диван, газель, касыда, Физули

XVI əsr Azərbaycanda, bütövlükdə Səfəvilər dövlətində, eləcə də Osmanlı dövlətində türkdilli ədəbiyyatın, poeziyanın çiçəkləndiyi bir dövr olmuşdur. Bu iki ölkədə ədəbiyyatın inkişafının ən önəmli göstəricisi, heç şübhəsiz, şüəra təzkirələridir. Həmin dövrdə Osmanlı ədəbiyyatında Səhi bəyin "Həşt behişt" (1538), Lətifinin "Təzkirətüş-şüəra" (1546), Aşiq Çələbinin "Məşairüş-şüəra" (1568), Kınalızadənin "Təzkirətüş-şüəra" (1586), Bəyaninin "Təzkirətüş-şüəra" (1597), Azərbaycan ədəbiyyatında Sam Mirzənin "Töhfeyi-Sami" (1550-1560), Sadiq bəy Əfşarın "Məcməül-xəvas" (1607-1608) və s. təzkirələrin adını çəkmək olar. Tədqiqatçılar "Gülşəni-şüəra" təzkirəsi (1564) müəllifi Əhdi Bağdadinin (?-1594) böyük müasiri və həmyerlisi Məhəmməd Füzuli kimi Osmanlı dövlətinin ərazisinə daxil olan Bağdadda yaşamasına baxmayaraq Azərbaycan türkü olduğunu xüsusi olaraq qeyd etmişlər. Görkəmli türk alimi İsmayıl Hikmət "Azərbaycan ədəbiyyatı tarixi" adlı kitabında yazır: "Hicri onuncu əsrin yetişdirdiyi klassik türk şairlərindən biri də Əhdidir. Əhdi uzun müddət seyr və səyahətdə bulunmuş, Türkiyədə və İstanbulda yaşamış olmasına rəğmən ləhcə etibarilə Azərbaycana mənsubdur" (1, s. 157-158). İsmayıl Hikmət, həmçinin, bağdadlı olan Şəmsi, Hüsni, Rindi, Zehni və Elmini də Azərbaycan şairləri kimi təqdim edərək araşdırmışdır. "Bağdadda yaranan Azərbaycan ədəbiyyatı və Ruhi Bağdadi divanı" adlı kitabında Əhdi Bağdadini Füzulidən sonra XVI yüzillikdə Bağdadda Azərbaycanı təmsil edən ikinci sənətkar (2, s. 15) adlandıran professor Azadə Musabəyli onun əsasən Osmanlı şairlərinə həsr edilmiş təzkirəsində həmvətənlərinə yer ayırmasını xüsusi qeyd etmişdir. C.S.Robinson Əhdinin təzkirəsinə həsr etdiyi məqaləsində Osmanlı müəlliflərinin onun bu əsərinə layiq olduğu qədər önəm vermədiklərini deyir, bunun səbəbini isə Bağdadın Osmanlı imperatorluğunun əyalət şəhəri olmasında görür: "Osmanlı imperiyasının əsas mədəniyyət mərkəzlərindən nisbətən aralıda yerləşən Bağdadda doğulmuş Əhdini bəziləri xüsusi diqqətə layiq olmayan əyalət əhli kimi də qəbul edə bilər" (3, s. 174).

Əhdinin 1563-cü ildə tamamladığı təzkirəsi müqəddimə, dörd rövzə (hissə) və xatimədən ibarətdir. Ə.Bağdadinin həyat və yaradıcılığı, "Gülşəni-şüəra"sı barədə iri həcmli tədqiqat əsəri yazmış, müxtəlif əlyazma nüsxələri əsasında əsərin elmitənqidi mətnini tərtib etmiş türk alimi Süleyman Solmaz 381 şairi əhatə edən təzkirədə digər mənbələrdə adı çəkilməyən 149 şairdən danışıldığını bildirmişdir (4, s.X). Alim həmçinin göstərir ki, 1563-1564-cü illərdə tamamlanmış əsər Osmanlı şairləri ilə yanaşı geniş bir coğrafiyanın – İraqla bərabər Azərbaycan, Buxara, Suriya və Misirin qələm sahibləri barədə də məlumat verir. Füzulinin ölümünə səbəb olan xəstəlik barədə, onun şair oğlu Fəzli barədə də biz ilk dəfə Əhdidən öyrənirik (4, s. X). Onun haqqında məlumat verdiyi Azərbaycan şairlərindən Füzuli, Fəzli, Şəmsi, Hüsni, Rindi, Zöhdi, Muradi, Hüsni, Elmi, Kəlayi, Həsiri, Məhvi, Nadiri,

Natiqi, Valehi, Zəmiri, Fərdi və başqalarını göstərmək olar. Çoxsaylı şairlər barədə məlumat əldə etmək üçün yazıçı 10 il səfərlərdə olmuş, Anadoluda, İstanbulda yaşamış, bir sıra sənətkarlarla görüşmüş, bəzən əsərlərini şairlərin özündən, bəzən də başqalarının vasitəsilə almışdır.

Ətraflı nəzərdən keçirdikdə görürük ki, görkəmli Azərbaycan şairi, ədəbiyyatşünası və rəssamı Sadiq bəy Əfşar (1533-1610) özünün "Məcməül-xəvas" adlı təzkirəsini araya-ərsəyə gətirərkən eyni üsullardan istifadə etmişdir. Məhəmmədəli Tərbiyət Əlişir Nəvainin "Məcalisün-nəfais" əsərinin təsiri ilə cığatay türkcəsində yazılmış təzkirədə 480 söz ustadından danışıldığını qeyd edir (5, s. 281). Sadiq bəy Əfşar da təzkirəsini yazmadan öncə çoxlu səyahətlər etmiş, bir sıra sənətkarlarla görüşərək onlardan əsərlərini almışdır. Sadiqinin də təzkirəsi geniş bir coğrafiyanı – bugünkü İran, Azərbaycan, Orta Asiya, Əfqanıstan, Pakistan və Hindistanın ədəbi mühitini əhatə edir. 1607-ci ildə tamamlanmış bu əsərdən müəllifin dövrünün Əbdülbaqi əfəndi, Məhəmməd Əmami kimi sənətkarlarını şəxsən tanıdığını görürük. Səfərləri zamanı Osmanlı imperatorluğunun bir sıra yerlərində olmuş Sadiqi haqqında danışdığımız Əhdi Bağdadi ilə uzun illər dostluq əlaqəsi saxladığını bildirir: "Mövlana Əhdi Bağdaddandır. Xoşrəftar və xoştəbiət insandır. İllərlə ünsiyyətdə olmuşuq. Hər cür şeir deyir. Divan bağlayır" (6, s. 322). Sadiq bəy əsərində Əhdinin atası Şəmsinin də adını çəkmiş, onun bağdadlı, təəssübkeş şiə olduğunu bildirmişdir (6, s. 338). Əhdi kimi Sadiqi də təzkirəsində bütün türk dünyasının sənətkarlarını əhatə etməyə çalışmış, öz müasirlərinə xüsusi diqqət vermişdir. Əhdi I Sultan Süleyman Qanuni (1520-1566), Sadiqi isə I Şah Abbas (1587-1629) dövrünün sənətkarlarından daha çox bəhs etmişdir.

Hər iki müəllifin əsərinin fəsilləri cəmiyyətin müxtəlif təbəqələrinə məxsus olan şairlər barədə məlumat və şeirlərindən nümunələrdən ibarətdir. Daha doğrusu, bu təzkirələrin fəsilləri ayrı-ayrı zümrələrin nümayəndələrini əhatə edir. Ə.Bağdadi təzkirəsinin 1-ci rövzəsi I Sultan Süleymana, 2-ci rövzəsi onun dövrünün görkəmli alim və sənətkarlarına, 3-cü rövzə sancaq bəyləri və dəftərdarlara, sonradan əlavə edilmiş 4-cü rövzə isə II Sultan Səlim dövrünün şairlərinə həsr edilmidir. Sadiqi təzkirəsinin 1-ci məcməsi hökmdarları, 2-ci məcməsi şahzadələri, 3-cü məcməsi səltənət sütunu olan türkləri, 4-cü məcməsi səltənət sütunu olan tazikləri [iranlıları], 5-ci məcməsi səltənət sütunu olan türklərin və taziklərin [iranlıların] böyük övladlarını, 6-cı məcməsi Peyğəmbər nəslindən olan şairləri, 7-ci məcməsi türk, fars və ərəb dillərində söz demək qüdrətinə malik olan şairləri, 8-ci məcməsi Əcəmin müasir fəsahət və bəlağət sahiblərini əhatə edir.

Hər iki təzkirə müəllifini dahi Azərbaycan şairi Məhəmməd Füzuliyə böyük hörmət və məhəbbət birləşdirir. Qeyd etmək istərdik ki, Əhdi də, Sadiqi də eyni zamanda şair olmuşlar və onların şairlikləri arasında da müəyyən uyğunluqlar vardır. Əhdi doğma dili ilə bərabər sonralar, Türkiyə səfərində Anadolu türkcəsini də şeir yazacaq səviyyədə öyrənmiş (4, s. 3), S.Solmazın təsbitinə görə, 94 Osmanlı şairinin türkcə, 4 Osmanlı şairinin farsca yazdığı şeirə nəzirə yazmışdır (4, s. 6). Şeirlərindən görünür ki, o, həmişə dahi həmyerlisinin poeziyasının təsiri altında olmuş, Füzulinin türkcə və farsca şeirlərinə cavablar yazmışdır. O digər şairlərin də, məsələn, bağdadlı Xürrəminin Mövlana Füzulinin şeirlərini dilində əzbər edib şeir-sənət aləminə gəldiyini xüsusi olaraq qeyd etmişdir (4, s. 281). Ə.Bağdadi təzkirəsinin Füzuli maddəsində onun bağdadlı, fazil, şuxtəb və şirinsöhbət olduğunu, həndəsə,

heyət (astronomiya), hikmət, hədis, təfsir elmində, müəmma yazmaqda kamilliyini, "Leyli və Məcnun" poeması, türkcə və farsca risalələr, "Hədiqətüs-süəda" adlı əsər yazdığını, əsərlərinin ərəb dünyasında, Orta Asiyada, farslar arasında, Rumda (Osmanlı dövlətində) geniş yayıldığını qeyd etmiş, bir sıra farsca və türkcə qəzəllərinin mətlələrini vermişdir (4, s. 460-463).

Qeyd edildiyi kimi, Füzulinin oğlu Fəzli barədə ilk məlumata Əhdi təzkirəsində rast gəldik. Buradan Fəzlinin dərin zəkalı, istedadlı, müəmma yazmaqda məharətli şair olduğunu, zahiri elmləri gözəl bildiyini, qənaətlə guşənişin həyat sürdüyünü, türk, fars, ərəb dillərində əsər yazdığını öyrənirik. Fəzlinin 3 dildə şeirlərindən nümunələr verən müəllif onun türkcə aşağıdakı beytini misal gətirir:

Künci-fərağətimdür meyxanələr bucağı,
Başım kəsilsə kəsməm ol guşədən ayağı (4, s. 477).

Sadiq bəy Əfşar da bir neçə dildə – Azərbaycan, cığatay və fars dillərində şeirlər yazmışdır. Filologiya elmləri doktoru Paşa Kərimov nəşr etdirdiyi Sadiqinin türkcə divanına yazdığı ön sözdə şairin iki böyük türk şairindən – Nəvai və Füzulidən təsirləndiyini qeyd etmiş, onun Füzulinin "Sübh", "Görüb" rədifli qəzəllərinə, "Mənəm ki, qafiləsalari-karivani-qəməm" misrası ilə başlanan 9 bəndlik tərkibbəndinə yazdığı nəzirələrini təhlil etmişdir. Tədqiqatçı göstərmişdir ki, Sadiqi bu əsərlərində tamamilə Füzuli poeziyasının, onun bədii məntiqinin təsiri altında olsa da, özünün orijinal fikirlərini də ifadə etməyə çalışmışdır (7, s. 18-20).

Sadiq bəyin də təzkirəsində Füzulinin həyat və yaradıcılığına dair dəyərli fikirlərə rast gəlirik. İlk dəfə burada onun Bayat elindən olduğu barədə məlumat verilir. Füzuli haqqında məlumat "Məcməül-xəvas" təzkirəsinin "Türk, fars və ərəb dillərində söz demək qüdrətinə malik olub, ərəb və əcəmdə şöhrət tapmış türk şairləri haqqında" adlı 7-ci məcməsinin əvvəlində yerləşdirilmişdir. Burada Füzuli barədə oxuyuruq: "Bayatdır. İbrahim xanın xidmətinə Bağdada gedib. Xani-mərhum Sultan Süleyman Xongarın yanından köçüb İraqa gəldiyindən Mövlana Füzuli Hillədə sakin olur. Zahiri elmləri öyrənməyə başlayır və az bir vaxtda böyük uğur qazanır. Həqiqətən heç bir kəsə belə bir istedad səadəti üz verməyib ki, türk, fars və ərəb kəlamını bu səviyyədə bilsin. Türkcə "Qəzəl və qəsidələr divanı", "Şah və Gəda", "Leyli və Məcnun", "Bəngü Badə" münazirəsi və "Rövzə" əsərlərini yazıb. Farsca "Qəzəl və qəsidələr divanı", "Rindü Zahid", "Səhhət və Mərəz", ərəbcə "Qəzəl və qəsidələr divanı"nı yazmışdır. Təxminən otuz min beyt şeiri var ki, onun öz xətti ilə mütaliə etmişəm..." (6, s. 131). Göründüyü kimi, Sadiqi də Əhdi kimi, Füzulinin 3 dildə gözəl əsərlər yazdığını, zahiri elmləri mükəmməl bildiyini qeyd etmişdir. Sadiqi də Əhdi kimi məlumatının sonunda şairin bir sıra türkcə qəzəllərinin mətlələrini əlifba sırası ilə düzmüşdür. Bunun səbəbi odur ki, hər iki müəllif təzkirənin məhdud imkanları daxilində Füzuli poeziyası barədə mümkün qədər geniş məlumat vermək istəmişlər. Sadiqi daha da irəli gedərək Füzuli mətlələrindən ibarət kiçik bir divan tərtib etdiyini bildirmişdir.

Əhdi Bağdadinin təzkirəsi türk alimi Süleyman Solmaz tərəfindən ətraflı tədqiq edilmiş, o, müxtəlif nüsxələr əsasında əsərin elmi-tənqidi mətnini hazırlamışdır. S. Solmazın tədqiqatı dörd bölümdən ibarətdir. Birinci bölümdə "Gülşəni-şüəra" nın dil və üslubu, Əhdidən öncəki türk təzkirəçiliyi nəzərdən keçirilmişdir. İkinci bölümdə "Gülşəni-şüəra"nın əldə olan nüsxələri, buradakı ayrı-ayrı şairlər barədə məlumatlar nəzərdən keçirilmişdir. Üçüncü bölümdə təzkirənin mətni müasir türk

əlifbası ilə verilmişdir. Nüsxə fərqləri hər bir səhifənin aşağısında verilmiş, mətndən sonra şəxs, yer və əsər adlarının indeksləri verilmişdir.

Sadiq bəy Əfşarın "Məcməül-xəvas" təzkirəsi əvvəllər Qafar Kəndli, Məntiqə Muradova tərəfindən araşdırılmış, 2008-ci ildə filologiya üzrə fəlsəfə doktoru Əkrəm Bağırov onun mətnini tərcümə edərək ön söz, şərh və indekslərlə çap etdirmişdir. Təzkirəni çapa hazırlayarkən Ə. Bağırov iki mənbədən istifadə etmişdir. Əsərin doktor Əbdurrəsul Xəyyampur tərəfindən fars dilinə çevrilərək 1948-ci ilə çap edilmiş nüsxəsi, Təbriz Mərkəzi Kitabxanasında saxlanan əlyazması. Tədqiqatçı qeyd etmişdir ki, təzkirə Ə. Nəvainin üslubuna və təzkirəçilik ənənəsinə uyğun bir şəkildə yaradılsa da, öz orijinallığı və elmi-bədii dəyəri ilə bu janrda yazılmış orta əsr təzkirələri içərisində xüsusi çəkiyə malikdir (6, s. 5).

Əhdi Bağdadi və Sadiq bəy Sadiqi Əfşar öz dövrlərinin görkəmli şair və ədəbiyyatşünas alimləri olmuşlar. Onların haqqında danışdığımız təzkirələri Azərbaycan və Osmanlı ədəbiyyatı tarixinin öyrənilməsində əvəzsiz mənbə kimi yüksək qiymətləndirilir.

Ədəbiyyat

1. Hikmət İsmayıl. Azərbaycan ədəbiyyatı tarixi. II cild. Bakı: Azərnəşr, 1928.
2. Musabəyli Azadə. Bağdadda yaranan Azərbaycan ədəbiyyatı və Ruhi Bağdadi divanı (Əlyazma qaynaqları üzərində araşdırmalar, müqayisəli mətnin transfoneliterasiyası). 2 cilddə. I cild. Bakı: Elm və təhsil, 2011.
3. Robinson C.S. Əhdi Bağdadinin "Gülşəni-şüəra" təzkirəsi / "Şərq" tərcümə toplusu, № 3. Bakı, 2006, s. 174-182.
4. Solmaz Süleyman. Ahdi ve Gülşen-i şu'arası (inceleme-metin). Ankara, 2005.
5. Tərbiyət Məhəmmədəli. Danişməndani-Azərbaycan. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1987.
6. Əfşar Sadiq bəy. Məcməül-xəvas. Bakı: Elm, 2008.
7. Əfşar Sadiq bəy. Şeirlər / Nəşrə hazırlayan və ön söz müəllifi Paşa Kərimov. Bakı: Elm və təhsil, 2010.

Таира Алиева

Ахди Багдади и Садиг бек Афшар

Резюме

Ахди Багдади и Садиг бек Афшар являются выдающимися азербайджанскими поэтами и литературоведами XVI века. Написанные ими тазкире являются очень важными и ценными источниками нашей литературы того периода. Оба автора в своих тазкире освещают азербайджанскую и турецкую литературу. Особенно уважительно они отнеслись к творчеству великого азербайджанского поэта Мухаммеда Физули. Наряду с разницами в тазкирах Ахди и Садиг бека, наблюдается ряд общих черт.

Tahira Aliyeva

Akhdy Bagdhdady and Sadeeg bek Afshar

Summary

Akhdy Baghdady and Sadeeg bek Afshar are outstanding Azeri poets and specialists in literature of the XVI century. Tazkires written by them are very important and valuable sources of our literature of that period. Both authors are covering Azeri and Turkish literature. They approached specially to the oeuvre of the great Azeri poet Mohammad Fuzuli. Among differences there are some common features in tazkires of Akhdy and Sadeeg bek.

Rəyçi: Paşa Kərimov
filologiya üzrə elmlər doktoru

ƏFSANƏ ƏLƏSGƏRLİ
efsanebayram@gmail.com

TÜRK DÜNYASI MEDİASINDA VAHİD İNFORMASİYA SİSTEMİ VƏ ONUN GƏLƏCƏK PERSPEKTİVLƏRİ

Açar sözlər: türk mediası, KİV, vahid informasiya məkanı.
Key words: turkic media, mass media, a single information space.
Ключевые слова: тюркская медиа, СМИ, единое информационное пространство.

Son dövrlər türksoylu xalqlar arasında iqtisadi, siyasi və mədəni əlaqələr genişləndikcə, əməkdaşlıq artdıqca, bu, həmin prosesləri işıqlandıran media qurumlarını da bir-birinə yaxınlaşdırır. Odur ki, media qurumları arasında fikir mübadiləsi aparılır, əməkdaşlığın genişlənməsi üçün zəmin yaranır. Bütün bu amillərin fonunda xarici proseslər və daxili ictimai proseslərdən asılı olaraq, türk dünyası vahid media şəbəkəsi – vahid türk dünyası informasiya sistemi anlayışı ortaya çıxır. Bu anlayış tarixi zərurətdən meydana gəlmişdir. Vahid informasiya məkanı termini yeni olsa da, əslində ideya məzmun baxımından yeni deyil. Belə ki, ümumtürk mətbuat tarixinə nəzər yetirdikdə, Çar Rusiyası tərkibində yaşayan türk-müsəlman əhalinin hamısına doğma olan, onların oxuya biləcəyi qəzet yaradılması ideyası mütərəqqi ziyalılar tərəfindən hələ XIX əsrdə ortaya atılmış, onun reallaşdırılması üçün cəhdlər edilmişdir. Böyük türk ziyalısı, əslən Krım tatarı İsmayıl bəy Qaspıralının çıxardığı "Tərcüman" qəzeti bu baxımdan ümumtürk nəşri rolunu oynaya bilmişdir. Qəzetin təkcə Krımda deyil, imperiyanın ucqarlarında bir çox şəhərlərdə yayımlanması və oxunması bunu sübut edir. 1925-ci ildə Bakıda düzənlənmiş I Türkoloji qurultayda Əhməd Baytursınulının təşəbbüsü ilə sovet türkləri üçün ortaq bir qəzetin çıxarılması məsələsi gündəmə gəldi. Lakin bu dəyərli təşəbbüs SSRİ-də milli düşüncəli ziyalılara qarşı "pantürkizm" damğası ilə başlanan repressiya hərəkatı nəticəsində gerçəkləşə bilmədi.Bu gün beynəlxalq aləmdə baş verən ictimai-siyasi proseslərin idarəedilməsi və ona təsir edərək istənilən istiqamətə yönəldilməsində məhz media, informasiya texnologiyalarının imkanları birinci yerdə dayanır. Artıq regional və beynəlxalq müstəvidə müharibə və mübarizələrin media vasitəsi ilə psixoloji təsir və "informasiya hücumu" şəklində aparılması medianın nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. Bu baxımdan türk dövlətləri və toplumlarına qarşı bəzi hallarda beynəlxalq səviyyədə olan qərəzli mövqe, türk coğrafiyasında baş verən proeslərə ikili standartlarla yanaşma, hadisələri obyektiv deyil, yalnız Qərb maraqlarından dünyaya tanıdılması qeyri-obyektivlik və türk coğrafiyasının səsinin dünya səviyyəsində yetərincə eşidilməməsi türk dünyası vahid media şəbəkəsi anlayışını ortaya çıxarır.

Əvvəlcə vahid informasiya məkanının yaranmasının zəruriliyi və üstünlüklərini sadalayaq. Bu birlik nə üçün lazımdır?

─ Türk xalqları arasında xəbər mübadiləsinin artırılması və informasiyanın vahid coğrafi məkanda dövr etməsi;

─ Türk xalqlarının mənəvi, siyasi və iqtisadi birliyinin təmin olunması;

─ Türk xalqlarının vahid etnik və milli kimlik baxımından ortaq dəyərlər ətrafında birləşməsi;

─ Türk toplumlarına xaricdən olan zərərli informasiya təzyiqi və hücumunun qarşısının alınması;

─ Bu coğrafiyada baş verən hadisə və proseslər barədə beynəlxalq ictimaiyyətə obyektiv, tərəfsiz və doğru xəbərlərin çatdırılması və s.

─ Beynəlxalq aləmdə Türk birliyi və gücünün formalaşdırılması;

Yuxarıda qeyd edilən şərtlər həqiqətən vahid türk mediası şəbəkəsinin yaranması və formalaşmasını zəruri edir. Lakin qloballaşan dünyada və mürəkkəb ictimai-siyasi inkişafın fonunda buna necə nail olmaq mümkündür? Bu suala cavab verməzdən öncə digər maraqlara görə beynəlxalq jurnalistikada formalaşmış vahid informasiya məkanlarını analiz edilməsi daha vacibdir. Dünya jurnalistika tarixinə fikir versək, görərik ki, bir-birinə qonşuluq, tarixi kök, qohumluq baxımından yaxın olan xalqların mediaları artıq demək olar ki, vahid informasiya siyasəti strategiyasını həll edə bilmişlər. Artıq beynəlxalq mediada bu cür ölkələri özündə birləşdirən və həmin xalqların KİV-ləri arasında əlaqə yaradan regional və beynəlxalq informasiya təşkilatları müəyyən olunmuş arealda informasiya şəbəkəsi quraraq qarşılıqlı informasiya mübadiləsinə nəzarət edir. Bu daha çox özünü əsasən informasiya agentliyi sahəsində göstərir. "Ümumafrika Xəbər Agentliyi-PANA, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatı--OANA, Ərəb Xəbər Agentlikləri Federasiyası--FANA, Latın Amerikası Xüsusi Xəbər Agentliyi--ALASEL, Latın Amerikası Milli Xəbər Xidmətləri Təşkilatı--ASİN kimi təşkilatlar dünyada tanınmış və uğurla fəaliyyət göstərən qurumlardandır. (Həmid Vəliyev, "Xarici ölkələrin jurnalistikası tarixi", Bakı, 2012) SSRİ-nin süquta uğramasından 20 ildən çox vaxt keçsə də, bu gün keçmiş SSRİ-ni əhatə edən MDB siyasi və iqtisadi maraqlardan asılı olaraq, vahid informasiya məkanının yaradılmasına böyük önəm verir, bunun nəticəsi kimi, 1992-ci ildə "Mir" dövlətlərarası teleradioyayım şirkəti meydana gəldi. Şirkətin hazırladığı teleməhsullar xəbərlər başda olmaqla, MDB-ə üzv dövlətlərdə rusdilli əhali tərəfindən maraqla qarşılanmaqdadır. 2006-cı ildə yaradılmış MDB-yə daxil olan iştirakçı dövlətlərin Humanitar Əməkdaşlıq Üzrə Şurasının əsas məqsədlərindən biri kimi informasiya və kommunikasiya sahəsində çoxtərəfli koordinasiyası məsələsi ortaya qoyması, fondun 2009-cu ildə Moskvada keçirilmiş MDB və Baltikyanı ölkələrin Milli KİV-lərinin forumunda "vahid informasiya məkanı olmadan digər bütün digər birliyi saxlamaq real deyil" - kimi fikirlərin səsləndirilməsi, Dövlətlərarası Fondun təşkilatçılığı ilə 2010-cu ilin oktyabrında MDB dövlətlərinin ziyalılarının V forumda MDB-yə üzv dövlətlərinin KİV-ləri arasında daimi əlaqələrin sistemli şəklə salınması MDB üzrə vahid informasiya sisteminin formalaşmasına və gələcəkdə güclü şəbəkəyə çevrilməsinə hesablanıb. (Б.Л.Залесский, масс-медиа и развитие единого информационного пространства.

1. http://elib.bsu.by/bitstream/123456789/26852/1/85-89.pdf)

Türkdilli dövlətlərin bir çoxlarının MDB-nin üzvü olmasını nəzərə alsaq, bu faktor türk dünyası vahid informasiya məkanının yaradılmasına öz təsir və maneəsini göstərmək imkanları real məsələdir.

Ən əvvəl o qeyd olunmalıdır ki, türk ölkələri medialları arasında sıx əməkdaşlığın yaradılması ilk növbədə türk dövlətləri və toplumları arasında qarşılıqlı si-

yasi-iqtisadi münasibət və maraqlardan asılıdır. Bu maraq və münasibətlər siyasi müstəvidə tam üst-üstə düşərsə, digər sahələrdə olduğu kimi, media sahəsində də əlaqələr daha da genişlənər. Bu sözsüz ki, media vasitəsi ilə xalqlar arasında yaxınlaşmanı təmin edə bilər. Odur ki, hər bir türk xalqına məxsus medianın üzərinə bir sıra vəzifələr düşür. Bunları aşağıdakı kimi ümumiləşdirib qeyd etmək olar;

─ Hər bir dövlət və toplumun digər türk ölkələrində baş verən vacib siyasi, ictimai və mədəni hadisələri izləməsi və yetərincə işıqlandırması;

─ Mətbuatda və elektron resurslarda "Türk dünyası" adlı ayrıca rubrika təşkil edilməsi;

─ Türk xalqlarının mədəni irsi, musiqisi və s. mövzulara aid ümumi verilişlərin, dərgi və resursların hazırlanması;

─ Türk xalqlarının manəfe və maraqlarına zidd məqamlardan qaçınılması;

─ Jurnalist materiallarında yeri gəldikcə türk xalqlarını birləşdirən ortaq dəyər və keçmişə, mədəni irsə istinad edilməsi;

─ Jurnalistlərin digər eyni kökdən olan xalqlara yazılarında bərabər və tolerant yanaşılması, ayrıseçkilik və üstünlük mövqeyi bildirən ifadələrdən qaçınılması;

─ Türk cəmiyyətlərində baş verən gərgin münaqişə və proseslərdən informasiya hazırlayarkən mənbəyə diqqət edilməsi və informasiya hazırlayarkən mövzuya həssas və diqqətlə yanaşılması;

─ Jurnalistlərin ölkələr və xalqlar arasında sülhü, dostluğu və həmrəyliyi əsas tutması;

─ Jurnalistlərin qarşılıqlı səfərlərinin təşkili, fikir və təcrübə mübadiləsi;

─ Türk dünyası jurnalistlər birliyinin yaradılması və onların fəaliyyətini tənzimləyən ümumi fəaliyyət planı və davranış kodeksinin qəbul edilməsi;

─ Türk Dünyası Jurnalistika Mərkəzinin yaradılması, burada jurnalistlərin peşə vərdişləri ilə yanaşı, türk dünyası ədəbiyyatı, mədəniyyəti, tarixi və digər zəruri mövzularda bilgi və dünyagörüşlərinin artırılması;

■ Türk dünyası mətbuat tarixini, müasir jurnalistika problemləri və inkişaf istiqamətlərini araşdıran elmi işlərin, kitabların, dərs vəsaitlərinin yazılması, müxtəlif türk ləhcələrində çapı;

■ Türk dövlətlərində fəaliyyət göstərən jurnalistika fakültələrində tədris planına "Türk xalqları jurnalistikası" adlı fənnin daxil edilməsi və tədrisi;

■ Türk dövlətləri və toplumlarında fəaliyyət göstərən media holdinqlərin iş prinsipinin təhlili və beynəlxalq təcrübənin öyrənilməsi; ölkələrin media holdinqləri arasında əməkdaşlıq ənənələrinin qurulması; gələcəkdə türk dünyasını əhatə edə biləcək beynəlxalq arenada nüfuz sahibi olan güclü media holdinqlərin yaranması uğrunda çalışmaların aparılması;

Hələlik vahid informasiya şəbəkəsi tam formalaşmasa da, müxtəlif bölgələrdə ümumtürk xarakerli media nümunələri yaranmaqdadır. Sözsüz ki, onların gələcəkdə türk mediası vahid informasiya məkanının formalaşması üçün "zəncirin halqaları" funksiyasında çıxış etməsi şübhəsizdir.

Yaxın gələcəkdə türk coğrafiyasında vahid informasiya məkanının qurulması aşağıdakı mərhələlərdən keçə bilər;

– Hər bir toplum və dövlətdə medianın türk coğrafiyasına geniş yer ayırması;

– Hər bir toplum və dövlətdə türk dünyasına yönəlik, eləcə də regional nəşrlərin, saytların, verilişlərin fəaliyyətinə stimul verilməsi;

– Türk dövlətləri və toplumlarının aparıcı media qurumları arasında informasiya mübadiləsi barədə əməkdaşlıq, müxbir postlarının genişləndirilməsi;

– Aparıcı media qurumlarının vahid bir platformada birləşməsi; (məsələn; Türkdilli dövlət və toplumların Media Forumu), vahid informasiya siyasətinin memorandumunun, jurnalist şəbəkəsi üçün qaydalar toplusunun hazırlanması və mütəmadi işlək quruma çevrilməsi;

– Vahid informasiya şəbəkəsinin müəyyən müddətdən bir, forum keçirməsi və hesabat verməsi SSRİ-nin dağılması və 7 müstəqil türk dövlətinin dünya xəritəsində meydana gəlməsi türk dünyası mediası yeni mərhələyə qədəm qoydu. Türk coğrafiyasında fəaliyyət göstərən media qurumlarının qarşılıqlı əlaqəsi və əməkdaşlıqları baxımından bir sıra vacib addımlar atıldı.

1992-ci ilin noyabrında Ankarada yaradılan Türkdilli Ölkələrin İnformasiya Agentlikləri Birliyi türk dünyası ilə bağlı xəbərlərin qərəzsiz və obyektiv dünyaya çatdırılması və habelə qurumun üzvləri arasında əməkdaşlıq əlaqələri, qarşılıqlı təcrübə mübadiləsi imkanlarının genişləndirilməsi üçün yaradılması təqdirəlayiqdir. Qurum türk dövlətləri və toplumları arasında xəbər əlaqələrinin qopuqluğu ucbatından və və digər obyektiv səbəblərin nəticəsi kimi meydana gəlib. Birliyin yaradıcı üzvləri, Türkiyədən Anadolu agentliyi, Azərbaycandan AzərTac, Qazaxıstandan KazTag, Qırğızıstandan Kabar, Türkmənistandan TürkmenPress, Şimali Kipr Türk Cümhuriyyətindən (ŞKTC) TAKdır. Qurumun baş katibliyi funksiyasını Anadolu agentliyi həyata keçirir.

(http://www.tkaonline.org/index.php?
option=com_content&view=article&id=47&Itemid=56Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA) üzvlərinə) 2008-ci il aprelin 29-dan mayın 3-dək Bakıda TKA Baş Məclisinin "Türkdilli ölkələrin əlaqələrinin inkişafında xəbər agentliklərinin əməkdaşlığının rolu" mövzusunda VII iclasında media sahəsində müzakirələr faydalı oldu. Yekunda Bakı forumunun qərarı ilə "Başinform", "Tatar-inform" və "Krım xəbərləri" agentliklərinin Birliyə üzv qəbul edilməsi qurumun əhatə dairəsini genişləndirmiş oldu. 2010-cu il dekabrın 21-22-də Türkiyənin Ankara şəhərində düzənlənən Türkdilli Ölkələrin I Media Forumu və 2011-ci ilin oktyabrın 28-30-da Bakıda reallaşan Türkdilli Ölkə və Toplumların II Media Forumu türk soyundan olan ölkə və xalqların, toplumların bir araya gəlməsi və ortaq problemləri müzakirə edib vahid əməkdaşlıq perspektivləri baxımından tarixi hadisə oldu. Son illər Türkiyənin təşəbbüsü ilə türk dünyasını əhatə edən ortaq media quruluşlarının meydana gəlməkdədir. 2009-cu ildə yeni televiziya kanalı—TMB yayıma başladı. Türk dünyası musiqisini tanıtmaq və türk xalqları arasında mədəni körpü olmağı qarşısına məqsəd qoyan "Turkish Music Box"—"Türk Musiqi Qutusu" qısa zamanda müxtəlif coğrafi məkanlarda yaşayan türk xalqlarının maraqla izlədiyi populyar kanala çevrilmişdir. 2009-cu il martın 29-undan yayım həyatına başlayan və bütün türk coğrafiyasını salamlayan "TRT AVAZ" qısa müddətdə türk ellərinin ortaq səsi olmağı bacarmışdır. (http://www.trt.net.tr/trtavaz/iletisim.aspx) Bu gün media konsernlərinin inkişafı və iqtisadi üstünlüklərinin nəticəsidir ki, onların nüfuz dairəsi getdikcə ölkə sərhədlərindən çıxmaqda, böyük bir regionu əhatə etməkdədir. Daha böyük kütləyə təsir etmə mexanizminə malik transmilli media holdinqləri bu gün vahid informasiya sisteminin formalaşmasında həlledici rola malikdir. Məs; Məşhur media maqnatı əslən avstraliyalı olan Rupert Merdok təkcə ABŞ-a 8 kanala

nəzarət edir, 10-a yaxın ingilis qəzet, Avstraliyada isə 21 qəzet ona məxsusdur. XX əsrin sonlarında başda Türkiyə olmaqla, müstəqil türk dövlətlərində yeni yeni formalaşan media holdinqləri gələcəkdə vahid türk coğrafiyası media şəbəkəsinin strukturunun güclənməsinə müsbət təsir edəcəyi şübhəsizdir. 2010-cu il dekabrın 21-22-i Ankarada düzənlənən Media Forumunda Türkiyənin Xarici İşlər naziri Əhməd Davudoğlunun "Dünyada ən nüfuzlu 100 media quruluşu arasına türk dünyasından neçə media quruluşunun girdiyi dünyadakı təsirini göstərən bəlkə də ən önəmli göstəricilərdən biridir."—söyləməsi həqiqətən bir fakt və reallıqdır. (Türk dili konuşan ülkelermedya forumu, Basın Yayın ve Enformasyon Genel Müdürlüğü, Ankara, 2010) Bu fikrin reallığa çevrilməsi həm də gələcəkdə dünya mediasında təmsil olunan nüfuzlu türk media orqanlarının türk dünyası vahid media şəbəkəsinin inkişafına təsir göstərməsi deməkdir. Müasir dövrdə beynəlxalq arenada başda Azərbaycan olmaqla, müstəqil türk dövlətlərinin ictimai-siyasi nüfuzu yüksəlməsi, iqtisadi göstəricilərinin artması, informasiyalı cəmiyyətdə söz və mətbuat azadlığı təmin edilməsi müstəqil və demokratik, iqtisadi cəhətdən güclü, nüfuzlu medianın formalaşmasında əhəmiyyətli rol oynayır. Qazax jurnalist, tədqiqatçı Askar Umarov türk dünyası mediasının vahid informasiya məkanının formalaşdırılması məsələsiylə bağlı müxtəlif səpgili işlərin görülməsini; əsas dillərdə resurs onlayn mərkəzi kimi türkdilli KİV portalı hazırlanması, AZSAT, KazSat 2, TurkSat3 peyklərində türk dillərində olan kanalların siqnallarının pulsuz yerləşdirilməsi barədə dövlətlərarası səviyyədə qərar qəbul edilməsini və s. zəruri sayır. (Askar Umarov, "Türkdilli Medya Forum gerekmektedir", "Birlik" jurnalı, iyun 2013, səh 20 www.atxem.az\\birlik\\)

Türk coğrafiyası mediasında vahid informasiya sisteminin gələcək imkanları olduqca böyükdür. Bu sistemin zamanla tam formalaşacağı təqdirdə, türk dünyası coğrafiyası daxilində regionlar arasında qarşılıqlı informasiya paylaşımı güclənəcək, informasiyanın sistem daxilində dolğun və operativ yayımı təmin ediləcək, üstəlik türk dünyası coğrafiyası ilə bağlı yeniliklər beynəlxalq mediaya məhz birinci mənbədən (türk mediasından) təqdim ediləcək. Bunların reallaşması isə türkəsilli dövlətlər və muxtar qurumların, elcə də azsaylı digər türk xalqlarının əsas media qurumlarının mütəmadi bir araya gəlməsi, qarşılıqlı əməkdaşlıqdan və yuxarıda qeyd edilən təkliflərin həyata keçirilməsindən asılıdır.

Ədəbiyyat

1 "Azərbaycan jurnalistikası: qloballaşma dövründə: qaynaqlar və perspektivə baxış" (Nəsir İmanquliyevin 100 illik yubileyinə həsr edilmiş respublika elmi-praktiki konfransının materialları) Bakı, 2011

2. Türkdilli agentliklərin Bakı görüşü: Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 85 illiyi ilə əlaqədar Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyi (TKA) Baş Məclisinin "Türkdilli ölkələrin əlaqələrinin inkişafında xəbər agentliklərinin əməkdaşlığının rolu" mövzusunda VII iclası: Bakı, 29 aprel-3 may 2008-ci il AzərTAc, Anadolu Agentliyi ; layihənin müəllifi: A. Ə. Aslanov, H. Bengi ; tərc.: N. Xıdırov, C. Səfərov, O. Məmmədov ; red. V. Musayev [et al.]. - Bakı : Şərq-Qərb, 2009. - 168 s., [16] s

3. Həmid Vəliyev, "Xarici ölkələrin jurnalistikası tarixi", Bakı, 2012

4. Türk dili konuşan ülkelermedya forumu, Basın Yayın ve Enformasyon Genel Müdürlüğü, Ankara, 2010
5. Askar Umarov, "Türkdilli Medya Forum gerekmektedir", "Birlik" jurnalı, iyun 2013, səh 20 www.atxem.az\\birlik\\
6. Аскар Умаров, КОЕ-ЧТО ОБ ИНФОРМАЦИОННОЙ ИНТЕГРАЦИИ ТЮРОК, Координатор Оргкомитета «Тюркская миссия информационной интеграции «TURK-MEDIA», http://vesti.az/news/63108
7. б.л.залесский, масс-медиа и развитие единого информационного пространства, http://elib.bsu.by/bitstream/123456789/26852/1/85-89.pdf
8. А.САРСЕНБАЕВ, СТРАТЕГИЯ ФОРМИРОВАНИЯЕДИНОГО ИНФОРМАЦИОННОГО ПРОСТРАНСТВА В РЕСПУБЛИКЕ КАЗАХСТАН, 2000 г. http://ecsocman.hse.ru/data/877/013/1220/014.SARSSENBAEV.pdf
9. Залесский, Б.Л. Средства массовой информации и формирование единого информационного пространства Содружества Независимых Государств (2011)
10. http://www.businessnews.by/index.php/journalism/articles/198-zalesskij-bl-sredstva-massovoj-informatsii-i-formirovanie-edinogo-informatsionnogo-prostranstva-sodruzhestva-nezavisimykh-gosudarstv2011
11. развитие единого информационного пространства Союзного Государства, http://www.belarus.mid.ru/doc/inf_prostranstvo.pdf
12. http://www.tkaonline.org/index.php?option=com_content&view=article&id=47&Itemid=56Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA) üzvlərinə)

А.Алескерли

Единое информационное пространство в тюркских
СМИ и ее перспективы на будущее
Резюме

Данная статья посвящена текущему состоянию средств массовой информации в современном тюркском мас-медиа, важности создания единой общетюркской информационной системы в сфере СМИ и ее возможностям. В статье указаны предложения о перспективах единой общетюркской информационной системы и соответственно по ее созданию.

E.Elesgerli

Common information space in Turkic mass media
and its future perspectives
Summary

This article is devoted to current situation of turkic media, importance of creating common turkic information system in mass media, and its opportunities which can be given to Turkic peoples. In this article is shown proposals about future perspectives of common turkic information system, as well as creation of this system.

Rəyçi: Vüqar Əliyev
Bakı Dövlət Universitetinin
jurnalistika fakültəsinin dosenti

LEYLA ABASOVA
Bakı Dövlət Universitetinin "Kitabşünaslıq
və nəşriyyat işi" kafedrasının dissertantı
sg.leyla@gmail.com

AZƏRBAYCAN TƏRCÜMƏ KİTABI VƏ "AZƏRNƏŞR"

Açar sözlər: "Azərnəşr", tərcümə ədəbiyyatı, kitab, bədii ədəbiyyat.
Key words: "Azerneshr", translation literature, book, fiction.
Ключевые слова: "Азернешр", перевод литературы, книга, художественная литература.

Azərbaycan Dövlət Nəşriyyatı – "Azərnəşr" müxtəlif dillərdən, xüsusilə rus dilindən Azərbaycan dilinə ədəbiyyatın tərcüməsinə də öz fəaliyyətində xüsusi yer vermişdir. Təsadüfi deyildir ki, 1925-1933-cü illərdə Azərbaycan Dövlət Nəşriyyatının 12 nəfər tərcüməçi ştatı olmuşdur. Bu tərcüməçilər - 1) Qəmər Əliyeva; 2) Zülfüqar Abdullayev; 3) Adil Əfəndiyev; 4) N.Xanım Ağayeva; 5) Talıb Talıbzadə; 6) Ş.Mürsəlov; 7) Fazil Seyidov; 8) Təzəxanım Haşımova; 9) Rəşid Yusifzadə; 10) Yusif Yusifli; 11) Qasımxanlı; 12) Qasım Yüzbaşov [1, 23]. ("Azərnəşr"də işləyən bu tərcüməçilərdən yalnız bir nəfəri ali təhsilli (Əfəndiyev Adil), qalanları isə orta təhsilli olmuşdur).

Bədii ədəbiyyatın nəşrindən söhbət gedərkən qeyd etməliyik ki, 1920-1940-cı illərdə Azərbaycan bədii ədəbiyyatı ilə yanaşı rus klassik yazıçılarının əsərlərinin tərcüməsinə və nəşrinə də diqqət yetirilmişdir. Məsələn, görkəmli rus yazıçısı M.Qorkinin "Həyatın dibində", "Konovalov", "9 Yanvar", "Tunel", "Molva", "İzergil qarı", "Çelkaş", "Makarçudra", "Arxip baba və Lyonka", "Uşaqlıq", "Mənim darülfununlarım", "Məhbəs" və s. əsərləri 1924-1928-ci illərdə Azərbaycan dilinə tərcümə və nəşr edilmişdir. Əsasən M.Qorkinin, A.S.Puşkinin, L.N.Tolstoyun, SSRİ Xalqları Ədəbiyyatından xeyli maraqlı əsərlər "Azərnəşr" tərəfindən çap edilmişdir.

1920-1940-cı illərdə Azərbaycan Dövlət Nəşriyyatının fəaliyyətinin təşkilində, inkişafında dövrün ziyalıları, alimləri, tərcüməçiləri və digər sənət sahibləri böyük rol oynamışdı. Belə ki, bu nailiyyətlərin əldə edilməsində 1920-1940-cı illərdə "Azərnəşr"də fəaliyyət göstərən bir sıra tərcüməçilərin və redaktorların: Əhməd Hacızadə, Məhərrəm Kamil, Xəlil İbrahim, İbrahimbəyli, Ə.Kəmiyev, Sami Kamal, M.Babayev, Ə.Rüstəmzadə, T.Talıbzadə, D.Cavadlı, S.Quliyeva, A.K.Turani, Ə.Fətəliyev, H.Ağazadə, S.Kazım, A.Yusifzadə, Ə.Əbdürrəhimzadə, M.Kamil, Süleyman Hüri, S.Məlikov, Y.Rzaquluzadə, M.İ.Əfəndiyev, H.Qasımov, M.Rzaquliyev, M.Babaxanov, A.Vəzirzədə, S.Abbasov, A.Gülməhəmmədov, M.Əfəndi, H.H.Şahbazlı, A.Vəzirzadə, M.Babaxanov, H.Şahmalıyev, H.Səlimov, R.Q.Mövsümzadə, M.Ə.Balaxanov, K.Zəri, H.Əsədov, A.Bədəlov, A.S.Əlizadə, İ.Nəfisi, İ.Səfərov, H.Şahsuvarov, M.S.Məmmədzadə, Y.Yusifli, M.Kərimov, Azad Əfəndizadə, X.Əzizbəyli, F.İbrahimbəyli, Y.Məmmədəli və başqalarının fəaliyyəti diqqətəlayiq olmuşdur.

1938-ci ildə "Azərnəşr"in bədii ədəbiyyat şöbəsi fransız şairi P.J.de Beranjenin "Seçilmiş şeirlər" toplusunu kitabça şəklində çapdan buraxmışdır. Şeirləri fran-

sız dilindən tərcümə edən B.Behbud, kitabın redaktoru isə N.Rəhimdir. Əslində P.J.de Beranjenin şeirlərini Azərbaycan dilinə tərcümə edən Səlim adlı şəxs olmuşdur. Yazıldığına görə, Səlim fransız, rus, ərəb və fars dillərini mükəmməl bilən şair imiş. P.J.de Beranjenin 1938-ci ildə "Seçilmiş şeirlər"ini Səlim Behbudov fransız dilindən tərcümə etmişdir. Səlim bəy 1910-cu ildə Parisdə Diplomatik fakültəni bitirmişdir. Sovet vaxtında Səlim bəy Bakı məktəblərində fransız dilindən dərs demişdir. "Azsənaye" birliyində iqtisadçı işləmişdir. 1937-ci ildə müqavilə ilə "Azərnəşr"dən iş götürmüşdür. Hətta belə bir məlumat vardır ki, o, bir qadınla "Azərbaycanca-fransızca-rusca" lüğət kitabı hazırlayırmış. Folklorşünas Əbülqasim Hüseynzadənin Səlim bəy haqqında söylədiyi xatirələr, onun həyatı barədə bəzi məsələləri daha açıq şəkildə işıqlandırır: 1937-ci ildə "Azərnəşr"in mütərcimləri sırasında Səlim bəyin də adı var idi. P.J.de Beranjenin şeirlərinin qonorarını o, mənim yanımda kassadan alıb getdi. O, başqa dillərdən də tərcümələr edir, folklor nümunələri: tapmacalar, atalar sözləri, zərb-məsəllər, kiçik nağıllar toplayırdı. Şeir yaradıcılığı da olubdur. O, 1882-ci ildə anadan olmuş, 1943-cü ilin payızında vəfat etmişdir. Şeirlərini "Bəy Behbud" təxəllüsü ilə imzaladığı da aydınlaşır. Deməli, 1938-ci ildə P.J.de Beranjenin "Seçilmiş şeirləri"ni tərcümə edən B.Behbud elə Səlim Bəy Behbudun özüdür [2].

Görkəmli Azərbaycan şairi Ə.Cavadın da tərcüməçilik fəaliyyəti diqqəti cəlb edir. Əhməd Cavad görkəmli Azərbaycan şairi olmaqla bərabər, o zamanlar Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda türk (Azərbaycan) – rus dilləri kafedrasında müdir, habelə dosent və professor vəzifələrində çalışdığı zaman dil problemləri ilə də məşğul olmuşdur. Hələ, 1919-cu ildə Bakı Darülfünununda tədris olunmaq üçün yazdığı və çap etdirdiyi "Azərbaycan dilinin sərf və nəhvi" dərsliyi nəzəri və təcrübi əhəmiyyətinə görə rəğbət qazanmışdır.

Ə.Cavad 1935-1937-ci illərdə Azərbaycan Dövlət Nəşriyyatında "Tərcümə" şöbəsində redaktor vəzifəsində işləmişdir. Ə.Cavad rus ədəbiyyatından ən çox A.S.Puşkin və M.Y.Lermantovdan tərcümə etmişdir. O, M.Qorkinin "Mənim darülfünunlarım", "Mən necə oxumuşam", İ.Turgenevin "Atalar və oğullar", V.Kininin "O tayda" və s. əsərlərini də dilimizə tərcümə etmişdir. O, oxucular arasında geniş yayılmış R.Roninin "Od uğrunda mübarizə", F.Rablenin "Qarqantua və Pantakrüel", V.Şekspirin "Yuli Sezar", "On ikinci gecə" və s. əsərlərini dilimizə çevirmişdir [1, 24].

Hökumət müsabiqəsində Ə.Cavadın tərcümə etdiyi "Pələng dərisi geymiş pəhləvan" poemasının tərcüməsi birinci mükafata layiq görülmüşdür. Ə.Cavad 1928-1937-ci illər arasında 15-dən artıq tərcümə kitabı hazırlamış və çap etdirmişdir. Beləliklə də Ə.Cavad Azərbaycanda Sovet dövründə ilk tərcümə məktəbi yaratmışdır. "Azərnəşr"də tərcümə şöbəsində çalışdığı illərdə onun orijinal şeir kitabı çıxmadı. Bunu o dövrdə kitaba repressiyanın tətbiqi kimi qiymətləndirmək lazımdır.

Tərcüməçilik sahəsində xüsusi yeri olan C.Cabbarlının da adını xüsusilə qeyd etmək lazımdır. C.Cabbarlının tərcüməçilik fəaliyyəti, Tolstoydan, Şekspirdən, Şillerdən və b. etdiyi tərcümələr də onun sənətkarlıqda irəli getməsinə az kömək etməmişdir: Məsələn, V.Şekspir "Hamlet": Pyes. /Tərcümə edəni: C.Cabbarlı, ("Azərnəşr", 1926, 128 s.); C.Uels "Yeraltı dünya": Roman. /Tərcümə edəni: C.Cabbarlı, ("Azərnəşr", 1927, 160 s.); F.Şiller "Qaçaqlar": Pyes. /Tərcümə edəni: C.Cabbarlı, ("Azərnəşr", 1935, 102 s.); "Hamlet": Pyes. ("Azərnəşr", 1935, 167 s.);

P.K.Bomarşe "Fiqaronun toyu" /Tərcümə edəni: C.Cabbarlı, ("Azərnəşr", 1935, 120 s.); "Yeraltı dünya": Roman. ("Azərnəşr", 1935, 232 s.) və s.

Sahəvi kitab nəşri problemləri ayrı-ayrı elm sahələrini, elm sahələrinin aktual problemlərini əhatə edirdi. Bu mənada siyasi-iqtisad, iqtisadi nəzəriyyələr tarixi, ayrı-ayrı nəzəriyyələr tarixi, dünya iqtisadiyyatı, xalq təsərrüfatının mühüm sahələri, planlaşdırma, xalq təsərrüfatı planları, statistika, uçot məsələləri, əmək, maliyyə mövzuları üzrə müxtəlif növlərdə, tiplərdə kitab nəşri 1940-1950-ci illərdə Azərbaycan Dövlət Nəşriyyatının fəaliyyətində mühüm yerlərdən birini tuturdu. Bu ədəbiyyat iki istiqamətdə inkişaf edirdi. Həm rus dilindən tərcümə edilən iqtisadi ədəbiyyat, həm də azərbaycanlı müəlliflərin, iqtsadiyyat, iqtisadi nəzəriyyə, əmək və maliyyə məsələlərinə aid orijinal əsərləri meydana gəlir, nəşr edilib yayılırdı. Məsələn, 1940-1950-ci illərdə "Azərnəşr"də çap edilən siyasi-iqtisad, iqtisadi nəzəriyyələr tarixi, dünya iqtisadiyyatı üzrə nəşr edilən kitablara nümunə olaraq: "Kolxoz hesabdarlığının əsasları" (II hissə. 1940), Q.A.Kozlov "Kapitalist əmtəə istehsalı və kapitalizmdə pulun rolu" (1946), Q.A.Kozlov "Kapitalist istehsal üsulunun hazırlanması" (1946), Q.Vaşinski "Kolxozlarda mühasibat uçotu" (1947) və s. göstərə bilərik.

Sahəvi kitab nəşri üzrə "Azərnəşr"in fəaliyyətinin müəyyən hissəsi təbiət elmləri, texnika, nəqliyyat və rabitə və digər sahələrə və aktual mövzulara həsr edilən nəşrləri əhatə edir. Fizika, riyaziyyat, geologiya-coğrafiya, kimya, biologiya və s. təbiət elmlərinə aid əhəmiyyətli kitablar "Azərnəşr" tərəfindən çap edilmişdir. Bu ədəbiyyatın da müəyyən hissəsi tərcümə kitablarından ibarət idi. Məsələn, M.B.Ulitski "Əldə qayırma meterologiya stansiyası" (1940), V.N.Lvov "Yer necə əmələ gəlmişdir" (1941), K.Posse və İ.Privalov "Differensial hesabı kursu" (1944), P.Şorokov "Yer nəyin üzərində dayanır" (1947), V.A.Dorfman "Canlılar və cansızlar aləmi" (1948), B.L.Dzerdzeevski "Hava okeanı" (1949) və s.

1940-cı illərdə orta məktəb dərsliklərinin böyük əksəriyyəti rus dilindən tərcümə edilir və "Azərnəşr"də çapdan buraxılırdı. Bu dövrdə "Azərnəşr"də V.N.Verxovski və Y.D.Qoldfarbın və b. "Üzvi kimya" (1946), V.N.Verxovskinin "Üzvi kimya (orta məktəbin 10-cu sinfi üçün)" (1947), V.N.Verxovskinin "Qeyri-üzvi kimya" (1949) və s. bu kimi kitablar çap olunmuşdur.

Bu dövrdə tərcümə ədəbiyyatının xeyli hissəsini ictimai-siyasi kitablar, daha çox hissəsini isə bədii ədəbiyyat təşkil etmişdir. "Azərnəşr" görkəmli Azərbaycan, rus və dünya yazıçılarının ayrı-ayrı əsərlərini, seçilmiş əsərlərini, əsərlər külliyyatlarını çapdan buraxmışdır. Məsələn, nəşriyyat M.A.Şoloxovun, R.Taqorun, S.A.Şirvaninin, M.Ə.Sabirin, N.Nərimanovun seçilmiş əsərlərini çapdan buraxmışdır. Nəşriyyat A.S.Puşkinin, M.Y.Lermontovun, N.V.Qoqolun 6 cildlik əsərlərini, M.Qorkinin 15 cildlik əsərlərini çapdan buraxmışdır. "Azərnəşr" İ.S.Turgenevin, L.N.Tolstoyun, A.P.Çexovun, V.Mayakovskinin və b. görkəmli rus yazıçılarının əsərlərini müxtəlif nəşr tiplərində: ayrı-ayrı əsərlər, seçilmiş əsərlər, əsərlər külliyyatı və s. şəklində çap etmişdir. Dünya ədəbiyyatı klassiklərindən Servantesin, Hüqonun, Bayronun, Götenin, Balzakın və b. əsərlərini də çapdan buraxmışdır. Ümumiyyətlə, "Azərnəşr" 1920-1957-ci illərdə, yəni 47 il ərzində 21992 adda 209870 min nüsxə ümumi tirajla kitab çap etmişdir.

Hələ, 1960-cı illərə qədər Azərbaycan Dövlət Nəşriyyatı bədii ədəbiyyatın nəşrinə, dünya ədəbiyyatının klassik yazıçılarına M.A.Şoloxovun, R.Taqorun,

A.S.Puşkinin, M.Lermontovun, N.V.Qoqolun, M.Qorkinin, İ.S.Turgenevin, L.N.Tolstoyun, A.P.Çexovun, V.Mayakovskinin və b. ayrı-ayrı əsərlərini, külliyyatlarını, əsərlərini çapdan buraxmışdır.

Qeyd etdiyimiz kimi, bədii ədəbiyyatın xeyli hissəsini tərcümə kitabları təşkil edirdi. Dünya, xüsusilə rus klassik yazıçılarının əsərlərinin ana dilimizə tərcümə edilməsində, nəşrə hazırlanmasında görkəmli Azərbaycan ədəbiyyatşünaslarının, tərcüməçilərinin, tənqidçilərinin rolunu da qeyd etmək lazımdır. Bu mənada Ə.Haqverdiyevin, A.Şaiqin, M.A.Dadaşzadənin, M.Hüseynin, Ə.Cəmilin, S.Rəhmanın, Ə.Məmmədxanlının və b. bu sahədəki fəaliyyəti xüsusilə diqqətəlayiqdir.

Həmçinin bu illərdə rus ədəbiyyatının nəşrinə də xüsusi diqqət yetirilmişdir. Məsələn, M.Qorki "Əsərləri" (15 cilddə) (redaksiya heyəti M.Arif və b.) (1962), A.İ.Kuprin "Seçilmiş əsərləri" (K.Paustovskinin müqəddiməsi ilə; tərcümə edəni İ.Yaqubov, redaktoru İ.Mehdiyeva) (1962), "Kəlilə və Dimnə" (Hind nağılları) (M.İbrahimovun müqəddiməsi ilə; farscadan tərcümə edəni: R.Sultanov; redaktoru: M.Müştaq) (1962), V.Şekspir "Seçilmiş əsərləri" (C.Cəfərovun müqəddiməsi ilə; redaktoru M.Rzaquluzadə) (1962), V.Aradamatski "Əks əməliyyat": povest (tərcümə edəni: Y.Məmmədov), M.Qorki "Əsərələri" (15 cilddə. –XIII cild: Klim Samkinin həyatı (Qırx il) Povest 2-ci hissə. Tərcümə edəni: H.Şərifov) (1963), M.Qorki "Günəş övladları": pyes (Tərcümə edəni: M.Əfəndiyev) (1963), D.Bedni "Mən xalqıma inanıram": şeirlər (1963), V.V.Mayakovski "Vladimir İliç Lenin": poema (tərcümə edəni: Rəsul Rza. 2-ci çapı) (1963), K.Q.Paustovski "Qayalar arasında qəsəbə": hekayələr (tərcümə edəni: R.Şıxəmirova) (1963), İ.S.Turgenev "Tüstü": roman (tərcümə edəni: C.Məcnunbəyov) (1963), M.Şoloxov "Əsərləri" (8 cilddə. I cild: hekayələr, tərcümə edəni: Ə.Abbasov) (1963) və s.

Bu illərdə "Azərnəşr"də uşaqlar üçün də maraqlı kitablar çap olunaraq balaca oxuculara töhfə edilmişdir. Məsələn, H.Andersen "Qar kraliça": nağıl (Tərcümə edəni: M.Rzaquluzadə) (1963), A.Qaydar "Təbilçinin taleyi": povest (Tərcümə edəni: Ə.Əhmədova) (1963), X.Əlibəyli "Ağ çəmən": şeirlər (1963), A.S.Puşkin "Nağıllar" (tərcümə edəni: M.Seyidzadə) (1963), C.Cəbrayılbəyli "Təbiət haqqında hekayələr" (1963) və s.

Azərbaycan Dövlət Nəşriyyatı ildən-ilə öz çap məhsulunu artırmışdır. Nəşriyyat 1920-1925-ci illərdə 396 adda 2785 min nüsxə kitab çap etmişdisə, 1946-1950-ci illərdə 1815 adda 22484 min nüsxə 1951-1957-ci illərdə 2282 adda, 35190 min nüsxə kitab çap etmişdir. 1956-1960-cı illərdə "Azərnəşr" 2969 adda 29214 min nüsxə ümumi tirajla kitab çapdan buraxmışdır.

Elmin, texnikanın inkişafı və bunların sayəsində ictimai şüurun artması nəticəsində hər bir xalq özünə lazım olan ədəbi materialı özü tərcümə edərək nəşr etmək istəyir. Hər hansı bir kitab dilimizə çevrilərkən bunu zəruri edən səbəblər geniş oxucu kütləsi üçün, ədəbi, elmi və s. ictimaiyyət üçün açılmalı, əsaslandırılmalıdır. Xalqın mədəniyyəti hər bir tərcümə əsərini öz içərisinə alır, onu mənimsəyir, öz malına çevirir, nəticə etibarı ilə ondan yüksəkdə durur. Nəşriyyat oxucuya tərcümə əsəri təqdim edərkən bütün bunları nəzərdə tutmalı və nəzərə çatdırmalıdır. Təəssüf ki, çox vaxt tamamilə əks mənzərə ilə rastlaşırıq. Çoxlu kitab göstərmək olar ki, bunların orijinal deyil, tərcümə olduğunu yalnız "tərcümə edəni filankəs" sözlərindən bilmək və ya onu yazanın əcnəbi ad-soyadından fəhm etmək olar. Məsələn, N.A.Nekrasov "Seçilmiş əsərləri" ("Azərnəşr" -1971), O.İoseliani "Dul arvadın göz

yaşları" ("Azərnəşr" -1968), "İspan hekayələri" ("Azərnəşr" -1972), Jorji Amadu "Su Kinkasın qeyri-adi ölümü" ("Azərnəşr" -1964) və s.

"Azərnəşr"in tərcümə ədəbiyyatı sahəsindəki uğurları bu nəşriyyata müxtəlif vaxtlarda direktorluq etmiş naşirlərin də fəaliyyətində prioritet olmuşdur. Bu mənada Adil Əfəndiyevin tərcümə sahəsində əməli xidmətləri təqdirəlayiqdir.

Adil Əfəndiyev tərcümənin prinsiplərini araşdıran və ümumiləşdirən, nəzəriyyəçi-alim kimi də tanınmışdır. 1957-ci ilin qışında Alma-Atada Orta Asiya, Qazaxıstan və Azərbaycan tərcüməçilərinin regional müşavirəsi keçirildi. Bu böyük müşavirədə Cümşüd Əzimov tərcümənin ümumi prinsipləri haqqında, Süleyman Məlikov siyasi-ictimai ədəbiyyat tərcüməsi haqqında, Adil Əfəndiyev dərsliklərin və pedaqoji kitabların tərcüməsi haqqında məruzə etdilər. Adil Əfəndiyev zəngin təcrübəsinə, eyni zamanda dərin nəzəri biliyinə əsaslanaraq dərsliklərin və pedaqoji kitabların tərcüməsindəki səciyyəvi nöqsanları göstərir, bunların nədən irəli gəldiyini araşdırır, yüksək keyfiyyətli tərcümə etməyin yollarını, üsullarını özünəməxsus sadə və müdrik mülahizələrlə şərh edirdi [3].

Müharibədən sonrakı illərdə "Azərnəşr"in diroktoru olmuş İsrafil Nəzərovun tərcümə işi sahəsində də böyük xidmətləri vardır. O, siyasi-ictimai, bədii ədəbiyyat tərcüməsi və redaktəsində fəal iştirak etmişdir.

İ.Nəzərov N.S.Leskovun, D.N.Mamin – Sibryakın hekayələrini, S.Ayninin povestlərini, Q.Seventsun "Tehran" romanını və s. Azərbaycan dilinə tərcümə etmişdir. O, kitab nəşri işinin görkəmli mütəxəssislərindən biridir, nəşriyyat, poliqrafiya və kitab ticarəti işinin tərəqqisində, Bakıda və respublikamızın digər şəhərlərində yeni, müasir mətbəələr və kitab bazalarının tikilməsində fəal rol oynamış, "Kitablar aləmində" jurnalının ilk nömrəsindən onun redaksiya heyətinə başçılıq etmiş, burada və ölkəmizin digər jurnallarında dərc olunan bir sıra məqalə və müsahibələrində kitab nəşrinin nəzəri və əməli məsələlərini şərh etmişdir [4].

Ağalarov Əlövsət İbrahim oğlu təyinatla Azərbaycan Dövlət Nəşriyyatına göndərilib. Əməksevərliyi, yüksək savadı və bacarığı hesabına respublikanın ən böyük nəşriyyatında "Azərnəşr"də kiçik redaktorluqdan baş redaktor vəzifəsinəcən yüksəlib. O, bir neçə sanballı tərcümə kitabının, yüzlərlə elmi, publisistik məqalənin müəllifi, onlarla kitabın tərtibatçısıdır.

Azərbaycan Dövlət Nəşriyyatının inkişafında, ölkənin ictimai-siyasi və mədəni həyatında rolunun genişlənməsində və dövrün tələbləri səviyyəsində təşkilində nəşriyyatın direktoru Azər Abdulla oğlu Mustafazadənin fəaliyyəti xüsusi qeyd olunmalıdır.

O, 1960-cı ildə Moskvada M.Qorki adına Ədəbiyyat institutuna daxil olur və 1964-cü ildə oranı müvəffəqiyyətlə bitirir. "Bakinski raboçi" qəzeti və "Literaturnı Azərbaycan" jurnalı ilə əməkdaşlıq etmiş, "Literaturnaya qazeta"nın Azərbaycan üzrə xüsusi müxbiri, Asiya və Afrika ölkələrinin yazıçıları ilə əlaqələr üzrə Azərbaycan Komitəsinin məsul katibi, SSRİ Yazıçılar İttifaqının Azərbaycan Ədəbiyyatı Şurasının müavini vəzifələrində işləmişdir.

Azər Mustafazadənin Azərbaycan və rus dilini gözəl bilməsi onun tərcüməçi kimi formalaşmasında xüsusi əhəmiyyət kəsb etmişdir. O, Azərbaycan ədəbiyyatının klassiklərindən S.Rəhimov, M.Cəfər, A.Məmmədov, S.Əhmədov, F.Kərimzadə, Elçin, Anar, K.Abdullazadə, S.Rüstəmxanlı və s. kimi Azərbaycan yazıçılarının əsərlərini rus dilinə tərcümə etmişdir.

İlyas Tapdıq özünün ədəbi yaradıcılığında bir neçə istiqamətdə müvəffəqiyyət əldə etmişdir. Xüsusilə uşaq ədəbiyyatı və tərcümə ədəbiyyatı sahəsində onun nailiyyətləri olduqca böyükdür. O, respublikamızda edilən uşaq dövri mətbuatı ilə sıx əlaqədə olması onun ədəbi yaradıcılığına daha da güclü təsir etmiş və müxtəlif xalqların görkəmli uşaq ədəbiyyatı yazıçılarının əsərlərini ana dilimizə tərcümə etmiş və çapdan buraxmışdır. Bu mənada İlyas Tapdıq özünü peşəkar uşaq ədəbiyyatı tərcüməçisi kimi tanıda bilmişdir. Robert Bernis, Yan Raynis, Fyodor Tutçev, Abay Kunanbayev, Lesya Ukrainka, Mixail Stelmax, Mixail Zoşşenko, E.Mejelaytis, Aybek, Uyğun, Zülfiyyə, Valentin Berestov, Kayum Tanrıquliyev və başqa görkəmli şair və yazıçılardan etdiyi tərcümələr Azərbaycan oxucusunun, xüsusilə uşaq və gənclərin sevimli kitablarıdır.

Araşdırmalar göstərir ki, İlyas Tapdıq öz ədəbi yaradıcılığı və tərcüməçilik fəaliyyəti ilə Azərbaycan kitabını zənginləşdirmiş, kitab nəşri mədəniyyətinin inkişafında böyük rol oynamışdır. Onun redaktə etdiyi kitabları əsasən üç qrupa bölmək olar: 1) Tərcümə ədəbiyyatı; 2) Uşaq ədəbiyyatı; 3) Şeirlər və nəsr əsərləri.

Həmçinin, Azərbaycanda redaktor fəaliyyəti araşdırılarkən məlum olur ki, İlyas Tapdıq ən məhsuldar redaktorlardan biridir və o, fəaliyyəti dövründə çox sayda əsərləri tərcümə etmiş və kitablar, kitabçalar şəklində çapdan buraxmışdır.

1983-cü ilin aprelində Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi "Respublikada tərcümə işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" xüsusi qərar qəbul etdi. Qərarda tərcümə işi sahəsindəki nöqsanlar ciddi şəkildə tənqid olundu və bu işin günün tələbləri səviyyəsinə qaldırılması, xüsusilə, mütəxəssis tərcüməçi kadrların hazırlanması sahəsində mühüm vəzifələr irəli sürüldü. Qərarda "Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Respublika Ali və Orta İxtisas Təhsil Nazirliyinə, Elmlər Akademiyasına, Dövlətnəşrkoma, Azərinforma, Yazıçılar İttifaqına, Jurnalistlər İttifaqına, Azərbaycan KP MK Yanında Partiya Tarixi İnstitutuna bir vəzifə olaraq tapşırmışdır ki, tərcümə işinə çox mühüm ictimai-siyasi iş kimi baxaraq respublikada onun yenidən qurulması və yaxşılaşdırılması üçün təsirli tədbirlər görsünlər" [5, 94].

Qərardan sonra Dövlətnəşrkomda Tərcümə Ədəbiyyatı İdarəsi yaradıldı. Dövlətnəşrkomun həmin sahə üzrə həyata keçirdiyi bir çox tədbirlər respublikamızda Azərbaycan ədəbiyyatının başqa dillərə, xüsusilə rus dilinə və dünya xalqları ədəbiyyatı nümunələrinin dilimizə tərcümə edilib nəşr olunmasına geniş imkan yaratmışdır. Bu qərarlardan sonra Azərbaycan Dövlət Nəşriyyatının fəaliyyətində ayrı-ayrı sahələr üzrə kitab nəşrində müəyyən nailiyyətlər əldə edildi.

Ədəbiyyat

1. Allahverdiyev B.V. Azərbaycan kitab nəşri problemləri (1920-1940) // Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və təcrübi jurnal, 2010, №1, s.18-38.
2. Zaman Ş. "Bəy Behbud" kimdir? //Azərbaycan gəncləri, 1985, 14 fevral.
3. Cəfərova X. Mötəbər tərcüməçi, jurnalist, unudulmaz ziyalı: Adil Əfəndiyev – 100. //Ədəbiyyat qəz., 2007, 26 oktyabr.
4. Qasımov Ə. Qocaman jurnalist və müəllim // Kitablar aləmində, 1981, №4, s.52-53

5. Актуальные вопросы пропагандисткой, массово – политической работы в документах Компартии Азербайджана. Баку: Азернешр, 1984, 134 с.

Л.Абасова

Переводные книги Азербайджана и "Азернешр"

Резюме

Азербайджанское Государственное Издательство - "Азернешр", так как первый период своей деятельности уделяет особое внимание на перевод литературы на азербайджанский язык из разных языков, особенно с русского среди печатной продукции.

Организационные вопросы переводческой работы и деятельность переводчиков на разные годы в Азербайджанском Государственном Издательстве подробно изучается в статье.

Интеллектуалов, ученых, переводчиков и других специалистов 1920-1940-х годов сыграли значительную роль в организации и развитии деятельности Азербайджанского Государственного Издательства.

Особое место перевода произведения русской классики среди репертуара книг освещаеться в статье.

L.Abasova

Translated books in Azerbaijan and “Azerneshr”

Summary

Azerbaijan State Publishing House – “Azerneshr” since the first period its activities has paid particular attention to translation of literature into Azerbaijani from different languages, especially from Russian among its printed products.

The organizational issues of translation work and the activity of translators by different years at the Azerbaijan State Publishing House are broadly studied in the article.

The intellectuals, scientists, translators and the other professionals of the period of 1920-1940s played a significant role in organizing and developing of activity of the Azerbaijan State Publishing House.

The special place of translation of the work of the Russian classics among book repertoire is highlighted in the article.

Rəyçi: Bayram Allahverdiyev
tarix üzrə elmlər doktoru, professor

F.ü.f.d. SEVİNC XUDİYEVA
Tərcümə nəzəriyyəsi və praktikası kafedrası
Azərbaycanşünaslıq tədris-mədəniyyət mərkəzi
Bakı Slavyan Universiteti

LEV TOLSTOY NƏSRİNİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİ TARİXİ HAQQINDA

Açar sözlər: bədii tərcümə, maarifçi, tolstoyşünas, tədqiqatçı, ədəbi əlaqələr.
Ключевые слова: художественный перевод, исследователь, просветитель, литературные связи.
Key words: literary translation, educationist, investigator, Literary relations.

XIX əsr rus ədəbiyyatının dahi nümayəndələrindən biri Lev Tolstoyun əsərlərinin tərcümələri Azərbaycan oxucuları arasında həmişə böyük marağa səbəb olub və hələ də olmaqdadır. Yazıçının Azərbaycanla sıx əlaqələri olduğu üçün burada onun yaradıcılığına böyük əhəmiyyət verilirdi. Buna sübut olaraq XX əsrin əvvəllərində yazıçının Azərbaycan mədəniyyətinin bir çox xadimləri (H.Zərdabi, S.M.Qənizadə, S.S.Axundov, H.Abbasov və s.) ilə yazışmasını, respublika qəzetlərində Azərbaycan ədəbiyyatşünasların məqalələrinin dərc olunmasını, yazıçının əsərlərinin tərcüməsi və Azərbaycan dilində nəşr olunmasını, onun dram əsərlərinin tamaşaya qoyulmasını göstərmək olar. Tolstoyun əsərlərinin tərcümələri ilə inqilabdan əvvəlki dövrün ən yaxşı müəllimləri və ədibləri (A.O.Çernyayevski, F.Köçərli, C.Məmmədquluzadə, A.Şaiq və s.) məşğul olmuşdur.

Azərbaycan dilinə L.Tolstoyun əsərlərinin ilk tərcümələri XIX əsrin sonunda edilmişdir. Tanınmış müəllim və maarifçi A.O.Çernyayevski Tolstoy yaradıcılığından dörd hekayə ("Şir dərisi geymiş eşşək", "İki dost", "Bağban və oğulları", "Şir və siçan") tərcümə etmiş və 1882-ci ildə Tiflisdə çap olunan "Vətən dili" dərsliyinə əlavə etmişdir. Çernyayevskidən sonra məşhur Azərbaycan maarifçisi R.Əfəndizadə Tolstoyun bir neçə hekayəsini tərcümə edir və ozünün tərtib etdiyi dərsliklərə əlavə edir. 1894-cü ildə Əfəndizadə "İnsana çoxmu torpaq lazımdır?" hekayəsini tərcümə edir. Eyni ildə S.M.Qənizadə Azərbaycan dilində həvəskar səhnədə tamaşaya qoyulan "Əvvəlinci şərabçı" komediyasını tərcümə edir (Ганизаде 1965). 1896-cı ildə Tolstoyun razılığı alınandan sonra bu əsər kitab şəklində nəşr olunmuşdur. Bu kitabın tərcümə və nəşr olunma tarixi tanınmış Azərbaycan alimi S.Əsədullayev tərəfindən "Rus klassikası və Azərbaycan ədəbiyyatı" adlı kitabında təfərrüatı ilə tədqiq edilmişdir (Асадуллаев 1998). Burada o, qeyd edir ki, Moskvada L.N.Tolstoy adına muzeyin əlyazma arxivində S.M.Qənizadənin məktubu (27 mart 1895-ci il tarixli) saxlanılmışdır. Bu məktubda o, yazırdı:

"Hörmətli Lev Nikolayeviç! Bu məktubumla sizi narahat etdiyim üçün üzr istəyirəm. Keçən il sizin "Əvvəlinci şərabçı" komediyasını tərcümə etmişdim və həmin il bu komediya Bakıda Azərbaycan səhnəsində tamaşaya qoyulmuşdur. Müsəlman dininin ənənələrinə olduqca uyğun olan... bu əsər əhaliyə güclü təsir bağışladı və bu vaxta kimi əsərin kitab şəklində nəşr olunmasını bir çoxları arzu edir. Mən öz tərcüməmi çap etdirmək istəyirəm. Komediyanın müəllifi olduğunuz

üçün Sizdən bunun üçün yazılı icazə verməyinizi istəyirəm ki, sonra onu bir sənəd olaraq senzuraya təqdim edim...

Hörmətlə
Müəllim S.M.Qəniyev.”

S.M.Qəniyevin məktubu olan zərfin üzərində Lev Tolstoyun əli ilə yazılmış qeyd vardır: “Cavab vermək: hamıya icazə verirəm”.

“L.N.Tolstoy və Azərbaycan” kitabında tədqiqatçı A.Bağırov qeyd edir ki, “Əvvəlinci şərabçı” yazıçının yeganə pyesidir ki, inqilabdan əvvəl Azərbaycan dilinə tərcümə olunmuşdur (Багиров 1974).

Lakin daha sonralar ədəbiyyatşünas Ş.Qurbanov qeyd etmişdir ki, inqilabdan əvvəl həmçinin azərbaycanlı ədəbiyyatçı İsmayıl Mustafayev yazıçının “Canlı meyit” əsərini tərcümə etmişdir (Гурбанов 1969). Qənizadədən sonra N.Nərimanov, Ə.Haqverdiyev, N.Vəzirov, A.Səhhət və başqaları rus dram əsərlərini tərcümə etmiş və bununla Azərbaycan teatrının repertuarını zənginləşdirmişlər. “Əvvəlinci şərabçı”nın uğuru Azərbaycanda Tolstoyun başqa pyeslərinə qarşı maraq oyatmışdır. Bu pyesin ardınca Bakı səhnəsində “Maarifciliyin bəhrəsi” (1894) və "Qaranlıqların gücü" (1895) pyesləri tamaşaya qoyulmuş, 1900-cü ildə antreprinör Krasovun truppası Bakıda “Dirilmə” romanının səhnələşdirilmiş interpretasiyasını göstərmiş, 1910-cu ildə isə yenidən "Qaranlıqların gücü" və ilk dəfə olaraq “Canlı meyit” tamaşaya qoyulmuşdur.

XIX əsrin 80-ci illərdən başlayaraq filosof Tolstoya qarşı böyük maraq yaranır. Bu təsadüfi hal deyil. Tolstoyun həmişə Şərqə qarşı xüsusi meyli var idi. XIX əsrin 90-cı illərində Azərbaycanda uşaq hekayələrindən əlavə daha yaşlı nəsil üçün nəzərdə tutulmuş Tolstoyun bir sıra əsərləri tərcümə olunmuşdur. Bura “Üç sual” (A.S.Qasımovun tərcüməsi), “Etiraflarım” (M.Ə.Rəsulzadənin tərcüməsi), “Bir-birinizi sevin” (Q.R.Mirzəzadənin tərcüməsi) və s. aiddir. XX əsrin əvvəllərində (1900-cü il) Tolstoy yaradıcılığına artıq müntəzəm şəkildə müraciət etməyə başlanılmışdır.

A.Qəmərlinski, A.Mollazadə, A.Məhəmmədzadə, A.Mahmudbəyzadə və başqa bu kimi xadimlərin səyləri nəticəsində Tolstoy ölkəmizdə çox tanınırdı. Tolstoyun istedadının saysız-hesabsız azərbaycanlı pərəstişkarları, onun əsərlərini tərcümə edən və məşhurlaşdıran şəxslər arasında şair Abbas Qaibovu da qeyd etmək lazımdır.O, rus klassikasını yaxşı bilir və Tolstoyun yaradıcılığına xüsusi rəğbət bəsləyirdi.

1909-cu ildə o, “İnsana çoxmu torpaq lazımdır?” hekayəsinin bədii tərcüməsini etmişdir. Tolstoyun cazibəsi o qədər güclü idi ki, ötən əsrin əvvəlində yaşayıb-yaratmış bir çox Azərbaycan yazıçılarının yaradıcılığına da böyük təsir göstərmişdir.

Onun əsərlərini doğma dilə tərcümə edərkən yazıçı-təcüməçilər tez-tez Tolstoyun əsərlərinin, xüsusilə uşaq hekayələrinin motivləri əsasında çoxlu orijinal əsərlər yazırdılar. Azərbaycanın görkəmli maarifçiləri S.M.Qənizadə, Abbasağa Qaibov (Nazir), A.Haqverdiyev, A.Şaiq və başqaları Tolstoyun bilavasitə təsiri altında yazırdılar. Azərbaycanda XIX əsrin 80-ci illərinin ortasından başlamış Tolstoy yaradıcılığının öyrənilməsi və mənimsənilməsi prosesi ilk onillikdə obyektiv səbəblərə görə dayandırılmışdır.

Yalnız 20-ci illərin sonundan başlayaraq Tolstoyun əsərlərinin Azərbaycan dilinə tərcüməsi və çap etdirilməsi işi yenidən başlamışdır. Məlumdur ki, inqilabdan

əvvəlki dövrdə Azərbaycanda Tolstoyun əsərlərinin tərcüməsi və nəşri təsadüfi hal olaraq ayrı-ayrı yazıçıların və Tolstoy pərəstişkarlarının təşəbbüsü ilə həyata keçirilirdi. Əsasən uşaq hekayələri, təmsillər və görkəmli yazıçının dini baxışlarını açıq-aşkar göstərən əsərləri tərcümə olunurdu. Sovet illərində isə Tostoyun yaradıcılığının öyrənilməsi, onun əsərlərinin nəşri müntəzəm bir hala çevrilmişdir və Tolstoya dünyada şöhrət qazandıran demək olar ki, bütün böyük əsərlər Azərbaycan dilinə tərcümə olunmuşdur – "Hərb və sülh", "Anna Karenina", "Dirilmə", "Hacı Murat", "Kazaklar" və s. Sözün dahi sənətkarı olan Tolstoyun yaradıcılığı ilə Azərbaycan oxucusu da artıq tanış ola bilərdi (Алмамедов 1972).

Bildiyimiz kimi, L.N.Tolstoyun əsərlərinin tərcüməsi üzərində bir çox Azərbaycan yazıçıları və tərcüməçiləri işləmişlər: C.Məcnunbəyov, Məmməd Arif, Beydulla Musayev, B.Mustafayev, Qılman İlkin, Ə.Məmmədxanlı, M.Rəfili və s. tərcüməçilər doğma dilin yeni imkanlarını üzə çıxardaraq, yeni yollar və vasitələr, tərcümə olunan əsərin tərcümə dilində verilməsinin orijinal üsullarını taparaq Tolstoyun fərqli dünyasını çatdırmağa çalışırdılar. Yazıçının əsərlərinin çap olunması onun bədii irsinin tənqidi və nəzəri nöqteyi-nəzərdən mənimsənilməsi, Azərbaycan dilindəki tərcümələrin güclü və zəif tərəflərinin təhlili ilə müşayiət olunurdu. L.N.Tolstoyun əsərlərinin tərcümələrinin Azərbaycanda geniş şəkildə yayılması və bir çox Azərbaycan yazıçılarının yaradıcılığına təsiri haqqında Məmməd Arif, Q.Babayev, Ş.K.Qurbanov və s. tədqiqatçıların işlərində söhbət açılır. Azərbaycan Respublika Kitabxanasının kataloqları təsdiq edir ki, Azərbaycanda ilk dəfə Tolstoyun böyük əsərləri ilə tanışlıq 1929-cu ildə müəllifin dörd kitabı nəşr olunduğu zaman baş vermişdir. Bu, "İlk gənclik " (tərcümə edəni S.Məlikov), "Kazaklar" (tərcümə edəni T.Məmmədov), "Hacı Murad" (tərcümə edəni A.B.Talıblı) povestləri və "Dirilmə" (tərcümə edən Y.V.Çəmənzəminli) romanı idi.

Göründüyü kimi, yazıçının kitablarının tərcüməsində və nəşr olunmasında müəyyən bir məqsəd var idi – bir dəfəyə Azərbaycan oxucusuna Tolstoy yaradıcılığının inkişafının müxtəlif dövrləri təqdim olunmuşdur.

Fikrət Rzayevin rus dilində yazdığı "L.N.Tolstoyun nəsri Azərbaycan dilinə tərcümələrdə" (2009) monoqrafiyasında verilən məlumatdan görünür ki, 1928-ci ildə Cəfər Cabbarlı "Hacı Murad" povestini tərcümə etmiş və səhnəyə qoymaq məqsədi ilə pyes şəklinə salmışdır (Рзаев 2009).

Lakin naməlum səbəblərdən C.Cabbarlı bu əsərin səhnəyə qoyulmasını həyata keçirə bilməmişdir. Burda onu da qeyd etmək yerinə düşərdi – "Hacı Murad" povestini sonralar Mustafa Əfəndiyev Azərbaycan dilinə tərcümə etmişdir və bu da ən mükəmməl tərcümə hesab olunur. XX əsrin 30-40-cı illərində Tolstoyun bir neçə əsəri tərcümə edilmiş, bəziləri isə yenidən nəşr olunmuşdur. Lev Tolstoyun anadan olmasının 120 ili münasibəti ilə 1948-ci ildə Y.Əzimzadənin tərcüməsində "Saxta kupon", M.Arifin tərcüməsində "Hərb və sülh" romanının birinci cildi nəşr olunmuşdu.

Bununla belə "Anna Karenina" romanının 1950-ci ildə dörd cild şəklində nəşri xüsusi bir hadisə idi. Birinci cildi Ə.Məmmədxanlı, ikinci cildi isə C.Məcnunbəyov tərcümə etmişdir. 1951-ci ildə isə "Dirilmə" romanı M.Rəfili, C.Məcnunbəyov və M.Rzaquluzadənin tərcüməsində yenidən nəşr olundu. "Hərb və sülh" romanı üzərində xüsusi dayanaraq, qeyd etmək vacibdir ki, bu əsərin tərcüməsinə 15 il vaxt sərf olunmuşdur. Romanın B.Musayev və M.Arif tərəfindən olu-

nan tam tərcümə mətni, nəhayət, 1953-cü ildə nəşr edildi (Магеррамова 1997). 60-cı illərdə Lev Tolstoyun uşaq hekayələrinə yenidən maraq canlandı və bunun nəticəsidir ki, 1965-ci ildə "Maarif" nəşriyyatı M.Əfəndiyev tərəfindən tərtib olunmuş "Uşaq hekayələri" adlı kitabını nəşr edir.

Tolstoy yaradıcılığı ilə məşğul olan tədqiqatçıların araşdırmaları nəticəsində məlum olur ki, Lev Tolstoy XIX əsr rus ədəbiyyatından Azərbaycan dilinə ən çox tərcümə olunan yazıçılardan biridir. Demək olar ki, onun bir çox kiçik əsərləri ilə yanaşı, bütün iri əsərləri də Azərbaycan dilinə tərcümə olunmuşdu.

Литература

1. Ализаде А. Л.Н.Толстой в азербайджанском литературоведении. Автореф. дисс. канд. филол. наук. Баку 1990.
2. Алмамедов А. Толстой и азербайджанская литература. Баку 1972, 210с.
3. Асадуллаев С.Г. Русская классика и азербайджанская литература. Баку. 1998.
4. Багиров А. Л.Н.Толстой и Азербайджан. Баку. 1974.
5. Курбанов Ш.К. Этапы развития азербайджанско-русских литературных связей в XIX веке. Баку. 1969.
6. Султанмеджид Ганизаде. Избранные произведения. Баку. 1965, 296 с.
7. Магеррамова М.М. Роман Л.Н.Толстого «Война и мир» в переводе на азербайджанский язык. Автореф. дисс. канд. филол. наук. Баку. 1997.
8. Рзаев Фикрет. Проза Л.Н.Толстого в азербайджанских переводах. Баку. 2009. 268 с.

С.Худиева

Об истории перевода произведений Льва Толстого
на азербайджанский язык

Резюме

В статье говорится о переводах произведений одного из великих представителей русской литературы XIX века Л.Толстого. Автор отмечает, что до Октябрьской революции произведения Л.Толстого на азербайджанский язык переводили известные педагоги и просветители того периода – А.Черняевский, Р.Эфендиев, С.М.Ганизаде, А.С.Гасымов, М.Э.Расулзаде, Г.Р.Мирзазаде и другие.

Опираясь на результаты наших исследователей, ученых-толстоведов, можно с уверенностью отметить, что наряду со многими маленькими произведениями Л.Н.Толстого также были переведены и крупные произведения

S.Xudiyeva

The history of translation LevTolstoy works

Summary

The article described about the translations one of the Great Russian literature of nineteenth century, Leo Tolstoy's works. The author notes that the publication of the October revolution of Tolstoy in prior periods have been translated into the most prominent teachers and writers. After Cernyayevski, R.Efendizade, Sh.M.Ganizadeh, A.S.Qasımov, M.A.Rasulzade, Q.R.Mirzəzade and others have translated Lev Tolstoy's works into Azerbaijani. As a result of investigations it is known that Lev Tolstoy one of the most translated writers of XIX century into the Russian literature.

Along with many of his smaller works, all major works have been translated into Azerbaijani.

Rəyçi: Almaz Hacıyeva
filologiya elmləri namizədi, dosent

ИНАГАМОВА ДИЛДОРА АБДУРАШИДОВНА
Старший научный сотрудник-соискателькафедры
классической литературы факультета узбекской филологии
Национального университета Узбекистана имени Мирзо Улугбека

ИЗУЧЕНИЕ «ХАМСЫ» В 20-30-Е ГОДЫ XX ВЕКА

Açar sözlər: Nəvaişünaslıq, 1926-cı il Bakı konfransı, Xəmsəşünaslıq, tipoloji təhlil.
Ключевые слова: Навоиведение, этапы развития, навоийская конференция, типологический анализ.
Key words: Navoiguiding , stage of development, conference devoted to Navoiy, typological analysis.

Изучение Навои, интерес к его произведениям начался еще при его жизни. В прозаических произведениях Мирханда, Давлатшоха Самарканди, Гиесиддина Хондамира, Захириддина Мухаммада Бабура, Зайниддина Васифи, в переводе Фахри и Казвини произведения «Мажолис ун-нафоис» дается оценка жизнедятельности Навои. Отношение Абдурахмана Жами, Ахли Шерози и десятка других писателей к классику Востока также выразилось в их произведениях. Посвященное Мир Алишеру произведение Хондамира «Макорим ул ахлок» на протяжении веков служит ключом к познанию гения Навои (1,с.9).

Второй этап развития навоиведения связан с важными политическими изменениями в мире. Начиная со второй половины XIX века гонка колонизации Востока Великобритании и России вызвала рост интереса к географии, геологии и природе Центральной Азии и Индийского континента. Этот интерес по ряду причин не угас и после революции и установления господства «Красной империи» на территории Средней Азии.

Научная информация «Алишер Навои», подготовленная работником посольства Венгрии в Турции М. Беленом, снова стала актуальной. К ряду исследований того времени также можно отнести статью французского ученого Люсйена Бува «Записки о цивилизации эпохи Темуридов», опубликованную в журнале «Азия» в 1926 году, записи Эдгара Блошена о «Каталоге тюркских рукописей, хранящихся в Национальной библиотеке» и разделы в «Истории иранской литературы» английского ученого Эдуарда Брауна, посвященные Навои.

В целях широкого празднования 500-летия Навои по восточному календарю в 1926 году в Баку под лозунгом «Алишер Навои — великий тюрский поэт» состоялся «Первый тюркологический курултай» (2).

На нем основное внимание уделялось вкладу Навои в развитие тюркских языков, его роли как государственного деятеля, национальным идеям. Доклады «Жизнь и литературный статус Навои» Исмаила Хикмата, «О Навои» Мирзо Джалала Юсуфзаде, «Навои — языковед» Бакра Чубанзаде и «Влияние Навои на персидскую литературу» вызвали интерес не только участников конференции, но и многих литературоведов тюркских народов. Эти материалы вдохновили на изучение творчества Навои. Также в опубликованных в журнале «Маориф ва укитувчи» («Просвещение и учитель») статьях Абдурау-

фа Фитрата и Вадуда Махмуди об Алишере Навои сильно чувствовалось влияние идей курултая (3, с.38-39).

Идеи, озвученные на курултае, несомненно, создали неожиданные проблемы для блюстителей идеологии коммунистического строя. Все русские литературоведы ринулись на исправление ситуации. Интерпретация жизни и творчества Навои, отраженная в материалах курултая, была признана несоответствующей идеологии того времени; было оказано серьезное сотпротивление ее пропаганде. Об этом в частности востоковед Е.Э. Бертельс пишет следующее: «В качестве отличительного свойства того периода навоиведения следует отметить то, что с докладами о Навои выступали лишь представители национальной буржуазии, которые пытались тем самым добиться своих целей. Вот почему вышедшие в то время научные труда бесполезны, псевдонаучны и вредны. Сборник «Навои», изданный в Баку, состоит из статей, написанных на основе устаревших данных, и неправильно освещает важные вопросы. Однако Академия наук СССР незамедлительно дала ответ на этот неудачный юбилей» (4, с.67).

В Ташкенте срочно созвали Навоийскую конференцию на «социалистической платформе». Цель — помешать распространению «пантюркистских идей» Бакинского курултая, показать величие Навои через образ представителя простого народа, выступавшего против господствующего феодального класса. Для того чтобы на идеи материалов курултая навешать ярлыки «пантюркизма», «идеализации прошлого» им необходимы были сильные и серьезные исследования. Одним из лучших примеров таких исследований стал труд «Мир Али Шер и политическая жизнь» В.В. Бартольда. В нем создается образ, существенно отличавшийся от традиционной интерпретации жизни и творчества Навои: Навои вычурно представлен в качестве представителя народа, выступавшего против эксплуататорского класса в целом; его ненависть к шахскому строю была безгранична, и из-за этого он испытывал много издевательств со стороны султана.

В 40-х годах XX столетия в связи с празднованием 500-летия Алишера Навои началась работа по обобщению данных, накопленных за предыдущие годы. В канун празднования следующей знаменательной даты Алишера Навои в 1948 году также появляется ряд новых исследований. Среди самых высоко научных работ того времени следует отметить исследования Е.Э.Бертельса, О. Шарафиддинова, А.Н. Кононова, С. Айни, А.К. Боровкова, А. Семенова, М.А. Салье, А.Ю. Якубовского, А. Саъди, М. Ойбека, М.Шайхзаде, И. Султона, А. Болдырева, В. Зохидова, В. Абдуллаева. В условиях пролеткульта главной целью узбекской интеллигенции было сохранение статуса гениальной личности и творческого человека Алишера Навои, посредством чего обеспечить вечность национальных ценостей. Труды узбекских ученных и солидарных им некоторых русских востоковедов позволили заложить основу навоиведения как отдельного, независимого направления узбекского литературоведения (4, с.16).

Одностороннее изучение, подстроенное под интересы политического строя, не вызывало одобрения многих узбекских литературоведов, интелигенции. Несмотря на то, что они не могли открыто выступать против, они пос-

редством идей своих русских коллег давали им отпор. Например, можно отметить важные научные исследования, не выступающие против концепций Бертельса и Бартольда, однако направленные на их разрушение и развенчание (1, с.17-18). В своей статье « Взаимоотношения Алишера Навои и Султона Хусейн Мирзы» А. Семенов серьезно хулит попытки провести аналогии между сложившимися в средние века в восточных странах отношениями правителей и поэтов с отношениями, описанными в известном русском произведении «Царь и Пушкин» (5, 238).

Таким образом, началось движение по обеспечению исторической объективности, при этом не задевая, правящей идеологии. Большой вклад в навоиведение внесли в тот период такие навоиведы, как Ойбек, В.Абдуллаев, В. Зохидов, Иззат Султон, А.Каюмов,С. Ганиева, А. Хайитметов, А.Абдугафуров, Б. Валихужаев, И. Хаккулов, Н. Комилов, Р. Вохидов, М.Хакимов, М. Хамидова, С. Эркинов, А. Эркинов и другие. Из таджикских исследователей стоит отметить А. Мирзоева, Р. Мусулмонкулова, А.Афсахзаде, Э. Шодиева, из туркменских — Б. Карриева, М. Косаева, К.Боржакову, К. Огалиева, из азербайджанских — Х. Орасли, Ж. Нагиева, Н.Орасли, из русских — И.В. Стеблеву, С. Иванова многих других.

Историю интерпретацию жизни и творчества Навои можно поделить на два этапа (1,22). Сирожиддинов считает, что до сих пор полностью не изучена биобиблиография великого классика.

Профессор Фитрат высказывает новые размышления в своих статьях и материалах о творчестве Навои, в частности о дастане «Фархад и Ширин». Фитрат также проводит широкий анализ дастана «Хосров и Ширин» Низами.

После анализа дастана «Хосров и Ширин» он переходит к изучению произведения Хосрова Дехлеви. Не сложно проследить, что Навои не любит Хосрова. Ведь, Хосров путем подлостей устраивает гибель Фархада. Хосров — духовно бедный человек. Он использует власть правителя на пути к любви. Такой тип не нравится Навои. «Хотя Низами и Хосров Дехлеви восхваляют такого человека. Этому уделяется много места. Вот почему Навои решается написать новый дастан и называет его не «Хосров и Ширин», «Ширин и Хосров», а «Фархад и Ширин».

Главный герой произведения Фархад предстает в качестве совершенного человека. Для того чтобы написать новый дастан Навои в отличие от Низами больше опирался не на исторические труды, а на фантазию. «У нас нет данных о том, насколько популярно было это произведение среди среднеазиатских тюрков до Навои» (6, 128).

Фитрат пишет следующее, «Хосров и Ширин», являясь иранским народным дастаном, появился в VII-X веках. Фитрат пишет: 1) Фархад ранее был второстепенным героем в дастане; 2) в «Шахнаме» Фирдауси нет Фархода где в кругу отличных друзей. «Дастан формоизменен, произведение разработано под названием «Фархад и Ширин». Настоящей Родиной героев произведения Навои считает местность где-то рядом с Арменией. Более того, он пишет, что Ширин – это армянская девушка» (6, 132-133).

Навоивед О. Шарафиддинов — внесший огромный вклад в развитие узбекского литературы, многогранный ученый. В статье под заголовком «Против неверной интерпретации творчества Навои» Саъди анализирует книу «О символизме». Он пытается показать символ «божественной любви».

О. Шарафиддинов считал, что на основе собранных данных создано первое объективное серьезное научно-популярное произведение проивзедение.

Литература

1. Сирожиддинов Ш. Алишер Навои. Сравнительно-типологический, текстологический анализ источников. — Т., 2011.
2. Великий тюркский поэт Мир Алишер: Материалы конференции Тюркологического курултая. – Баку, 1926.
3. Фитрат А. Навоийнинг форсий шоирлиги ҳам унинг форсий девони тўғрисида — Т., 1926.
4. Бертельс Е.Э. Навои и Джами: Избр. труды. – М., 1965.
5. Семёнов. А.А. Взаимоотношения Алишера Навои и Султона Хусейн Мирзы // Сб. исследований по истории народов Востока. – М.-Л., 1960.
6. Фитрат А. Избранные произведения. II том. — Т., 2000.

Inagamova Dildora Abdurashidovna

XX əsrin 20-30- cu illərində “Xəmsə”nin tədqiqi məsələsi

Xülasə

Təqdim olunan məqalədə, 20-ci əsrin əvvəllərində - keçmiş Sovetlər birliyində nəvaişünaslıq elminin inkişafından bəhs edilir. Burada daha çox Əlişir Nəvai haqqında yazılmış monoqrafiya və məqalələrin təhlilinə xüsusi önəm verilir. 1926-cı il Bakı konfransının materiallarında Nəvai haqqında olan düşüncələr, o cümlədən özbək nəvaişünaslığının əsas mərhələləri, XX əsrin I yarısında özbək nəvaişünaslığında, XX əsrin III onilliyində Xəmsəşünaslığın elmi-nəzəri kontekstdə öyrənilməsi diqqətə yetirilir. Məqalənin yekun hissəsində isə nəvai yaradıcılığnın tipoloji analizi əsas mərhələləri tətqiq edilir. Təqdim olunan məqalədə, 20-ci əsrin əvvəllərində - keçmiş Sovetlər birliyində nəvaişünaslıq elminin inkişafından bəhs edilir. Burada daha çox Əlişir Nəvai haqqında yazılmış monoqrafiya və məqalələrin təhlilinə xüsusi önəm verilir. 1926-cı il Bakı konfransının materiallarında Nəvai haqqında olan düşüncələr, o cümlədən özbək nəvaişünaslığının əsas mərhələləri, XX əsrin I yarısında özbək nəvaişünaslığında, XX əsrin III onilliyində Xəmsəşünaslığın elmi-nəzəri kontekstdə öyrənilməsi diqqətə yetirilir. Məqalənin yekun hissəsində isə nəvai yaradıcılığnın tipoloji analizi əsas mərhələləri tətqiq edilir.

Dildora Abduraşidovna Inagamova

Studuing "Xamsa" in 20th and 30th of XX century

Summary

It `s told about navoiyguiding in former Soviet Unioun at the beginning of 20th century, in this article. Analysis of monography and articles devoted to "Xamsa" of Alisher Navoiy are given in this article. Thoughts about Navoiy in materials of Baku conference of 1926 year. The main stages of development of Uzbek navoiguiding. Hamsaguiding in the first third of 20th centure. The main results of studying of works of Navoiy in the typological direction. It `s told about navoiyguiding in former Soviet Unioun at the beginning of 20th century, in this article. Analysis of monography and articles devoted to "Xamsa" of Alisher Navoiy are given in this article. Thoughts about Navoiy in materials of Baku conference of 1926 year. The main stages of development of Uzbek navoiguiding. Hamsaguiding in the first third of 20th centure. The main results of studying of works of Navoiy in the typological direction.

Rəyçi: Almaz Ülvi (Binnətova)
filologiya elmləri doktoru

KÖNÜL VƏLİYEVA
Azərbaycan Müəllimlər İnstitunun Sumqayıt Filialı

BÖYÜK İNGİLİS KLASSİKI BERNARD ŞOU

Açar sözlər: Obraz, Satira, Yumor, Sarkazm, Drama
Ключевые слова: Образ,сатира, юмор, сарказм, драма
Key words: Image, satire, humor, sarcasm, drama

Corc Bernard Şou İrland əsilli Böyük Britaniyanın V.Şekspirdən sonra ən məşhur dramaturqudur. Dünya ədəbi ictimayyəti onun yaradıcılığını yüksək qiymətləndirmişdir. Ona görə də o, 1925-ci ildə Nobel mükafatı laureratı adını almışdır. B. Şou nəyinki yaradıcılıq etibarı ilə məşhur olmuş, hətta sağlığında onun haqqında hekayələr, rəvayətlər yaranmışdır. Müəllif öz obrazları, dramaturgiyasındakı kəskin satiric obrazlardan daha satiric təfəkkürə malik idi. Onun kəskin ağlı qarşısında hər şey sanki mənasını itirirdi.

Şounun ailəsi əsl-nəcabətli sayılsa da, ehtiyac onlardan yan keçməmişdi. Nəticədə Bernard kilsə məktəbini bitirəndən sonra - 15 yaşından işləməyə başlamışdı. Əslində təhsil ona heç nə verməmişdi. Özünün də etiraf etdiyi kimi daha çox oxuduğu kitabların –Şekspirin, Dikkensin əsərlərinin, "Min bir gecə" nağıllarının, İncilin təsiri altında formalaşmışdı. Anasının və ailənin dostu, dirijor Con Linin təşviqi ilə erkən yaşlarından musiqi ilə maraqlanmış, fortepiano ifaçılığı sənətinə yiyələnmişdi.

Onun atası ailəsini ataraq Londona köçdüyü üçün oğlu Şou da Londona köçür. Ailəsinin vəziyyətinin ağırlığı və cəmiyyətdəki qeyri-bərabərlik Şounun sosializm ideyaları ilə maraqlanmasına zəmin yaratmışdı. 1884-cü ildə o, ingilis sosialistlərinin Fabian cəmiyyətinə üzv olmuşdu. 27 il bu cəmiyyətin sıralarında çalışan məşhur dramaturq sosial məsələlərlə bağlı bir neçə broşüra yazmış və dəfələrlə Londonun fəhlə rayonlarında mühazirələrlə çıxış etmişdi.

B. Şou özünü ədəbiyyatdan ayrı görə bilmirdi. O yazıçı olmağı qarşısına məqsəd qoymuşdur və pedant dəqiqliyi ilə hər gün mütləq beş səhifə yazırdı. Həm də qəzetlərdə musiqi tənqidçisi kimi məqalələri çap olunurdu. Lakin ilk beş romanından heç birini nəşr etdirə bilmədiyindən çox vaxt anasının cüzi gəlirlərindən asılı qalırdı.

Dram yaradıcılığına başlamamışdan əvvəl Bernard Şou 1885-1890-cı illərdə Londonun "Uorld", "Star" kimi populyar qəzetlərinin teatr və musiqi tənqidçisi olmuşdu. İngilis şairi U.Oden onu "bəlkə də bütün zamanların ən yaxşı musiqi tənqidçisi" adlandırmışdı.

Teatrşünas kimi guşə apardığı "Saterdey revyu" qəzetində Şou realist dramlar və İbsen yaradıcılığı haqqında məqalələrlə çıxış edirdi. Onun "İbsenizmin mahiyyəti" kitabçası (1891) həmin dövrdə Avropada populyar olan Norveç sənətkarı haqqında ingilis dilində ilk ciddi tədqiqat əsəri idi.

Məhz bu əsərin təsiri ilə İbseni ingilis səhnəsində tamaşaya qoyan rejissor T.Qreyn Şounun özünü pyes yazmağa təşviq etmişdi. Lakin müəllifin ilk dram əsərinin – "Dul qadının evi" (1892) pyesinin səhnə taleyi uğurlu olmamışdı. İkinci tamaşadan sonra əsər repertuardan çıxarılmışdı. Sonrakı altı ildə Şou 9 pyes yazsa da,

onlara yaxın duran tapılmadı. İngilis fahişələri haqqındakı "Missis Uorrenin peşəsi" pyesi isə, ümumən, senzura qadağası ilə üzləşmişdi.

Şounu dramaturq kimi tanıdan ilk əsəri 1897-ci ildə ABŞ-da tamaşaya qoyulan "Şeytanın şagirdi" pyesi oldu. Müəllif vətəni Britaniyadan əvvəl Amerikada şöhrət qazandı. 1898 -ci ildə o, əsərlərinin iki cildliyini "Xoşa gələn və xoşa gəlməyən pyeslər" adı altında çap etdirmişdi. Bernard Şou Fabian cəmiyyətinin üzvü olan irland sosialisti Şarlotta Peyn Tausendlə ailə qurmuşdu. Onlar yarım əsr birlikdə yaşamışdılar. Ancaq övladları olmamışdı.

"Şeytanın şagirdi"nin ardınca müəllifin 1903-cü ildə "Kandid" pyesi də ABŞ səhnəsində göstərilmişdi. Növbəti ildə isə Londonun Kort teatrında oynanılan "Con Bullun başqa adası" pyesi böyük rəğbətlə qarşılandı. Deyilənə görə tamaşaçıların arasında olan ingilis kralı VII Edvard o qədər gülmüşdü ki, altındakı kreslo sınmışdı. 1904-1907-ci illərdə Kort teatrında göstərilən 988 tamaşanın 701-i Bernard Şounun pyesləri əsasında hazırlanmışdı. Bu əsərlərin sırasına müəllifin "Kandid", "Yaşayarıq, görərik", "İnsan və fövqəlinsan", "Mayor Barbara", "Həkim dilemma qarşısında" kimi biri-birindən fərqli pyesləri daxildi. O, həqiqətən də, qısa müddətdə ürəklərə və beyinlərə hakim kəsilməyi bacarmışdı.

Məhz bu əsərin təsiri ilə İbseni ingilis səhnəsində tamaşaya qoyan rejissor T.Qreyn Şounun özünü pyes yazmağa təşviq etmişdi. Lakin müəllifin ilk dram əsərinin – "Dul qadının evi" (1892) pyesinin səhnə taleyi uğurlu olmamışdı. İkinci tamaşadan sonra əsər repertuardan çıxarılmışdı. Sonrakı altı ildə Şou 9 pyes yazsa da, onlara yaxın duran tapılmadı. İngilis fahişələri haqqındakı "Missis Uorrenin peşəsi" pyesi isə, ümumən, senzura qadağası ilə üzləşmişdi.

Şounu dramaturq kimi tanıdan ilk əsəri 1897-ci ildə ABŞ-da tamaşaya qoyulan "Şeytanın şagirdi" pyesi oldu. Müəllif vətəni Britaniyadan əvvəl Amerikada şöhrət qazandı. 1898 -ci ildə o, əsərlərinin iki cildliyini "Xoşa gələn və xoşa gəlməyən pyeslər" adı altında çap etdirmişdi. Bernard Şou Fabian cəmiyyətinin üzvü olan irland sosialisti Şarlotta Peyn Tausendlə ailə qurmuşdu. Onlar yarım əsr birlikdə yaşamışdılar. Ancaq övladları olmamışdı.

"Şeytanın şagirdi"nin ardınca müəllifin 1903-cü ildə "Kandid" pyesi də ABŞ səhnəsində göstərilmişdi. Növbəti ildə isə Londonun Kort teatrında oynanılan Birinci Dünya müharibəsinin başlanması ilə Şou populyarlığını sürətlə itirdi. Buna yazıçının "Nyu steytsmen" jurnalındakı "Müharibə sağlam ağıl baxımından" adlı böyük oçerki səbəb olmuşdu. Həmin yazıda Şou münasibətləri hərbi yolla aydınlaşdırmağa çağıran İngiltərə və Almaniyanı kəskin tənqid etmiş, beyinləri dumanlanan vətənpərvərləri ələ salmışdı. 1916-cı ildə İrlandiya üsyanını dəstəkləməsi də onu istəməyənlərin sayını artırmışdı. Şounu Dramaturgiya klubunun üzvlüyündən çıxarmışdılar, mətbuatda haqqında kəskin, təhqiramiz yazılar dərc edilirdi.

Şou isə heç nə olmamış kimi yaradıcılığı ilə məşğul idi. Müharibə ərəfəsində yazdığı populyar səhnə əsərlərindən olan "Piqmalion" (1914) pyesində o, zəngin təbəqənin davranış və ədalarını amansızlıqla ələ salmışdı. Sonralar bu pyesin motivləri əsasında bu gün də ABŞ və Avropa səhnələrindən düşməyən "Mənim gözəl ledim" müzikli (1956) hazırlanmışdı.

Bütün təzyiqlərə baxmayaraq, Şou müharibəyə münasibətdə barışmaz mövqeyindən geri çəkilməmişdi. "Ürəklərin qırıldığı ev" (1921)tragikomediyasında müəllif günahsız insan qanı axıdılması üçün məsuliyyət daşıyan nəslin mənəvi cəhətdən

necə miskinləşdiyini,tənəzzülə uğradığını ustalıqla açıb göstərilmişdi. "Mafusailə doğru" (1922) əsərini isə Şou pyes-diskussiya kimi qələmə almışdı. Ümumiyyətlə, yaradıcılıq həyatının son illərində Şou ənənəvi realizmdən müəyyən qədər uzaqlaşmış, bədii forma və mətn üzərində bir sıra cəsarətli eksperimentlər aparmaqdan çəkinməmişdi.

Şou yaradıcılığının mühüm hissəsini müəllifin epistolyar irsi təşkil edir. O, uzun və məhsuldar həyatı boyu 250 mindən çox məktub yazmışdı. Bu məktublarda ciddi ictimai-siyasi məsələlərə, ölkə və dünya miqyasında gedən proseslərə, ədəbiyyat, teatr və sənət məsələlərinə münasibət öz əksini tapmışdı.

Bernard Şou yalnız fiziki deyil, əqli uzunömürlülüyü ilə də özünəməxsus rekord qazanmışdı. O, son səhnə əsərini – "Bayandın milyardları" pyesini 92 yaşında tamamlamışdı. Həyatının sonuna qədər bu yorulmaz irlandiyalı, bəzən əndazəsini aşan yumor hissini, iti ağlını, ən gözlənilməz fikir və mülahizələrə dərhal və hazırcavablıqla reaksiya vermək bacarığını qoruyub saxlamışdı.

Bernard Şounun İslama ciddi rəğbəti olub. O, yazılarında həm İslam dini barədə, həm də İslam Peyğəmbəri (s) barədə dəyərli sözlər deyib. Onlardan bəziləri: "Mən həmişə Muhəmmədin (s) dininə, onun həyatiliyinə görə böyük hörmət hissi ilə yanaşmışam. Mənə elə gəlir ki, o, hər zaman və hər yerdə cazibəli ola bilən və həyatın ən müxtəlif sahələrində məişət üçün yararlı olan yeganə dindir...

...Orta əsrlər xristian ruhaniləri ya öz nadanlığı, ya da ki, təəssübkeşliyi üzündən İslamı ən tutqun boyalarla təsvir etmişlər. Mən Muhəmmədi (s) dahi bir şəxsiyyət kimi öyrəndim, əmin oldum ki, o, Məsih İsa ilə düşmənçilikdən uzaqdır. Biz onu mütləq "Bəşəriyyətin xilaskarı" adlandırmalıyıq. Mən inanıram ki, onun kimi bir adam müasir dünyanın başında dursa, onda dünya ən çox ehtiyacı olduğu sülh və səadəti bərqərar etməklə bütün problemlərini uğurla həll edər! Mənim millətimin nümayəndələri olan avropalılar Muhəmmədin (s) dinini qəbul edirlər, biz hətta deyə bilərik ki, Avropanın İslama keçidi başlanmışdır. XXI əsr başa çatmamış Avropa öz problemlərinin həlli üçün İslamdan kömək diləməyə başlayacaqdır.

...Mən Məhəmmədin (s) dini ilə bağlı öncədən xəbər verirəm. Bu din, bugünkü avropalılar tərəfindən məqbul hesab olunduğu kimi, sabahın Avropası tərəfindən də qəbul ediləcək".

Bernard Şou həmçinin çox hazırcavab olub. Tarixdə onunla bağlı maraqlı bir hadisə qeyd edilir: Həddindən artıq kök olan bir nəfər Bernard Şounun arıqlığına işarə edir: “Sizə baxanda adama elə gəlir ki, İngiltərə aclıq çəkir”. Bernard Şou kefini pozmadan deyir: “Sizə baxanda isə elə fikirləşmək olar ki, İngiltərənin aclıq çəkməsinə səbəb sizsiniz”.

Siyasi və sosial-mənəvi həyatın satirik mənzərələrini yaradan, dilinin itiliyi və acılığı ilə şöhrət tapan Şou yalnız bir dəfə ədəbi ənənəsinə xilaf çıxmışdı. O, Fransa milli qəhrəmanı Janna d`Arkın simasında yeni mövzu və qəhrəman tapmış, ilk və son faciə əsərini –"Müqəddəs İonna" dramını (1924) yazmışdı.

1925-ci ildə Bernard Şou "idealizm və humanizmlə səciyyələnən yaradıcılığına, əksər hallarda müstəsna poetik gözəlliklə müşayiət olunan sirayətedici satirasına görə" Nobel mükafatı laureatı olmuşdu. Şou həyatdakı bir çox hallar kimi Nobel mükafatına da müəyyən istehza ilə yanaşırdı. Hətta bir dəfə demişdi ki, "dinamiti kəşf etdiyinə görə bəlkə də Alfred Nobelin təqsirindən keçmək olardı. Amma Nobel mükafatını yalnız bəşəriyyətin düşməni olan bir adam təsis edə bilərdi". İstənilən

halda, İsveç Akademiyası seçimini etmiş, qərarını vermişdi. İsveç ədəbiyyatşünası Per Halsterm pyeslərinə yazdığı dərin məzmunlu müqəddimələrə görə Bernard Şounu "bizim günlərin Volteri" adlandırmışdı.

B. Şou ilk vaxtlar Nobel mükafatından imtina etmək istəyirdi. Lakin xanımı Nobel ödülünün onun şəxsində İrlandiyaya verildiyinə inandırandan sonra qərarını dəyişmişdi. Bernard Şou hər cür təmtərağın əleyhdarı olduğundan təqdimat mərasimində iştirakdan boyun qaçırmışdı. Mükafatın pul hissəsini isə İsveç ədəbiyyatını ingilis dilinə tərcümə etmək üçün fondun yaradılmasına ayırmışdı.

1938-ci ildə "Piqmalion" pyesinin motivləri əsasında çəkilən filmə görə Şou həm də Oskar mükafatı almışdı. Beləliklə indiyə qədər o, ədəbiyyat və incəsənət sahəsində hər iki məşhur mükafata layiq görülən yeganə sənət adamı olaraq qalmaqdadır.

Bernard Şou yalnız fiziki deyil, əqli uzunömürlülüyü ilə də özünəməxsus rekord qazanmışdı. O, son səhnə əsərini – "Bayandın milyardları" pyesini 92 yaşında tamamlamışdı. Həyatının sonuna qədər bu yorulmaz irlandiyalı bəzən əndazəsini aşan yumor hissini, iti ağlını, ən gözlənilməz fikir və mülahizələrə dərhal və hazırcavablıqla reaksiya vermək bacarığını qoruyub saxlamışdı.

Irlan əsilli Böyük Britaniyanın hətta Avropanın və Amerikanın ən məşhur simalarından olan Bernard Şou dramaturgiyası və ümumən yaradıcılığı elmi məqalələri və şəxsiyyəti XX əsrin ən dəyri sərvəti hesab olunur. Onun yaradıcılığı keçəri deyil əbədidir. Onun şəxsiyyəti gələcək nəsillərə nümunədir. Belə şəxsiyyətlər ölmürlər daimi yaşayırlar.

Ədəbiyyat

1. (A. R. Williams, Lenin. The Man and His Work. N. Y., Scott and Seltzer, 1919, p. 173—174).
2. «Афоризмы Бернарда Шоу» («Литературная газета», 1931, № 40, 25 июля).
3. С. Динамова «Бернард Шоу», стр. 75.
4. Bernard Şou "Bayandın milyardları"
5. Bernard Şou "Dul qadının evi" (1892)

Konul Veliyeva

Of the topic of a great British classic Bernard Shaw
Bernard Shaw
Summary

As creativity has been popular, even in the lifetime of his stories and legends were created. Bernard Shaw to the literature, not in the show itself. It aims to be a writer, and a five-page writing every day with pedantic accuracy.The author's characters, a sharp satiric images was thinking more satiric. His personality is an example to future generations. Permanent residents of such personalities.

Кенуль Велиева

Тему великий британский классический Бернард Шоу

Резюме

В творчестве был популярен, даже при жизни его рассказы и легенды были созданы. Бернард Шоу в литературе, а не в само шоу. Она стремится быть писателем, и на пяти страницах написания каждый день с символами педантичный accuracy.The автора, резко сатирическое изображение больше думал сатирической. Его личность является примером для будущих поколений. Постоянные жители таких личностей.

Rəyçi: Qurban Bayramov
fəlsəfə elmləri doktoru

REYHAN QULİYEVA
ADU

BAYRON POEMALARINDA ŞƏRQİN BƏDİİ TƏSVİRİ

Açar sözlər Çirkin sima, Lırık romantık tıplı, Nöqteyi-nəzər, Nifrət və intiqam hissi, Onun xeyrinə.
Key Words: Ugly face, Lirical-romantik style, Point of view, Hatred and revenge feelings, In his favour
Ключевые слова: Уродливое лицо, Романтическая стиль, Точка зрения, Себе впользу.

"Şərq Poemaları"nda Bayron Şərqi doğru və düzgün təsvir etmişdir. Bu sahədə onun yaradıcı fantaziyası ona çox kömək etmişdir. Bayron hər şeyi öz şəxsi təcrübəsinə arxalanaraq yazmışdır. Öz poemasında Bayron Şərqin təsvirini gördüyü kimi, şahid olduğu gözəllikləri ilə təsvir etmişdir.

XIX əsr İngilis poeziyası və Şərq mövzusuna müraciət zamanın tələbindən irəli gəlir. Hazırda Avropaya meylli gənclik tarixən Avropanın da Şərqdən bəhrələndiyindən xəbərdar olmalı, öz tarixi keçmişi ilə fəxr etməlidir. Onlar bilməlidirlər ki, Şərqin dahiləri, Şərqin elmi dərin tərbiyəvi əxlaqi dəyərləri ilə zəngin əfsanələri zaman-zaman Qərbin maraq dairəsində olmuşdur. XIX əsr Avropanın Şərqə meylini məhz Bayronun timsalında araşdırmaqda da bunu nəzərdə tutmuşuq.

Dövrünün bütün çaxnaşmalarının şahidi olan "İş yoxdursa, Kral da, maşınlar da qoy cəhənnəm olsun" deyə küçələrə axışan işsizlərin mövqeyini müdafiə edən həssas qəlbli Bayron bütün yaradıcılığı boyu haqqın tərəfindən çıxış etməyə çalışmışdır. Hətta etiraflarının birində demişdir ki, əgər türklər məhkum, yunanlar onlara əzab verən hakim olsaydılar o, türklərə qoşulub yunanların zülmlərinə qarşı vuruşardı. Daxili və xarici irticaya, haqsızlığa barışmaz olan Bayronun qəhrəmanları da təkbaşına mübarizə aparan romantik qəhrəmanlardır. Bu onun mövzusunu Şərqdən götürdüyü əsərlərində də görünür. Romantik Şərq aləmi onu həmişə özünə cəlb etmiş, Şərqə yaxından bələd olmaq üçün səyahət etmiş, orada Şərq xalqları arasın da yaşamaq, dillərinə bələd olmaq istəmişdir. Bu məqsədlə o, Şərq ölkələrinə səyahət etmiş və bu mövzuda əsərlər yazmışdır.

Bayron XIX əsr dünya ədəbiyyatında insan hüquqları uğrunda mübarizə edən, zülmə, əsarətə qarşı çıxan ilk mübariz şair olmuşdur.

Bayrondan sonra gələn və dünya ədəbiyyatında görkəmli yer tutan müxtəlif xalqların şairləri Bayronun istedadına, onun odlu ehtirasına, coşğun ilhamına pərəstiş etmişlər. Polşada Adam Mitskeviç, Almaniyada Heirix Heyne, Fransada Viktor Huqo, Rusiyada Aleksandr Puşkin onun haqqında yüksək ilhamla danışmışlar.

Bayron romantizm zəmanəsinin ən qabaqcıl ideyalarını əks etdirən romantist idi.

Belinski Bayronun yaradıcılığını xarakterizə edərək deyir: "Heç bir şair öz-özünə, öz əzab və iztirabları üzündən, sevinci üzündən dahi ola bil-

məz. Hər bir şair o zaman dahi olur ki, onun sevinc və kədərinin kökləri cəmiyyətə və tarixə bağlı olsun. O, cəmiyyətin, zəmanəsinin, bəşəriyyətin bir üzvü olsun".

Öz yaradıcılığını istibdad və zülmə qarşı mübarizəyə, insan hissləri və amallarının çiçəklənməsi və qələbəsi işinə həsr edən şair real həyatla mütərəqqi amillər arasında ziddiyyəti dərk etdikcə daha çox mübariz olur, mövcud çirkab mühitini daha çox rüsvay edirdi. Bu cəhət Bayronda daha güclü, daha üsyankar və özünə məxsus bir şəkildə əksini tapmışdır. O, yalnız tənqid etməklə kifayətlənmir, bütün tərəddüdlərinə baxmayaraq, istismardan inqilab yolu ilə azad olmağın lazım gəldiyini hiss edirdi. Bu sahədə Bayronun aydın siyasi idealı olmasa da, o azadlıq və ədaləti geniş mənada anlamağa çalışır, xalqla dostluğunu müdafiə edib qəsbkarlıq müharibələrinə qarşı çıxırdı.

Bayron öz güclü romantik qələmini də ehtirasla sevən qəlbini bu işə həsr etmiş, bu yolda qurban vermişdir.

1809-cu ildə Bayron səyahətə çıxır. O, İspaniyada, Malta adasında, Yunanıstanda və Türkiyədə olur. Bu, Bayronun Yaxın Şərqə ilk səyahəti idi.

Yaxın Şərq ölkələrinə səyahətdən qayıtdıqdan sonra 1813-1815-ci illər ərzində Bayron bir neçə poema yazır. Sonradan bu poemalar ədəbiyyat tarixində "Şərq poemaları" adı ilə məşhur olur.

"Şərq poemaları"ndan danışarkən Bayronun həmin dövr yaradıcılığının iki əsas xüsusiyyəti nəzərə alınmalıdır. Bunlardan biri, Bayronun Şərq ölkələrinə səyahətdən sonra yazdığı əsərlərə Şərq poeziyasının müsbət təsiri, digəri isə, bu poemalarda daxili və xarici irtica qüvvələrinə qarşı kəskin etiraz və üsyan mötivlərinin zəngin olmasıdır.

Bayronun yaşadığı dövr avropalıların Şərq ölkələri ilə ciddi maraqlanmağa başladıqları dövrdür.

Bayron Şərqə səyahətdən sonra, "Şərq poemaları"nı, "Çayld Harold" poemasını məhz bu dövrdə yazmışdır.

"Şərq poemaları"nda Şərqi doğru və düzgün təsvir etmək üçün Bayronun yaradıcı fantaziyası ona az kömək etməmişdir. O, 1818-ci ildə Mura yazdığı bir məktubda deyir: "Mən bir şey haqqında öz şəxsi təcrübəm və müəyyən əsasım olmadan yaza bilməzdim".

Bayronun səyahət zamanı rast gəldiyi elə bir hadisə, elə bir şəxs, seyr etdiyi elə bir mənzərə yoxdur ki, öz əksini "Şərq poemaları"nda tapmasın. "Şərq poemaları" içərisində şərq sözləri və ifadələri ilə daha çox zəngin olan "Kavur" poemasının sujetini Bayronun səyahət zamanı təsadüf etdiyi hadisə təşkil edir. Bayron Şərq ölkələrinə səyahət etdiyi dövrdə Albaniyada hakimlik edən Əli paşanın zülmü hər yeri bürümüşdü. Onun etdiyi zülm haqqında xalqın qoşduğu mahnılar dillərdə dolaşırdı. Bu mahnılardan biri Əli paşanın əmri ilə göldə batırılan günahsız bir alban qızı haqqında idi. Həmin mahnını Bayron da eşitmişdi. Bu günahsız qızın taleyi Bayronu və onun yol yoldaşı Hobhauzu çox maraqlandırırmış və onlar hadisəni müfəssəl öyrənməyə çalışmışdılar. Əli paşanın gəlini, əri Muxtarın son zamanlar onu gözdən saldığından qayınatasına şikayət edir. Əli paşa gəlinindən Muxtarın tanış olduğu qızların adlarının siyahısını tələb edir. Ona təqdim olunan siyahıda bu işə

heç dəxli olmayan Frozina adlı günahsız bir alban qızının da adı var imiş. Paşanın əmri ilə bütün adları siyahıda olan qadınlar, eləcə də Frozina çuvala Salınır və göl də boğdurulur. Bayronun alban bələdçisi Basili də o qızları müşayiət edən əsgərlərdən biri olmuşdur. Bu hadisəni də Bayrona bütün təfərrüatı ilə söyləyən olmuşdur.

Poemanın qəhrəmanı Kavur atəşin məhəbbətlə sevən, qəlbi düşmənə qarşı nifrət və intiqam hissi ilə dolu olan şərqlidir. Bu xüsusiyyət Bayronun-Şərq poemalarının bütün qəhrəmanlarına aiddir.

Şərq poemalarında "Leyli və Məcnun" dastanındakı Leyli obrazını xatırladan əlamətlərə də təsadüf edilir. Professor Əli Sultanlı haqlı olaraq Nizaminin "Leyli və Məcnun" poemasının Avropada ən çox təsirini "Abidos gəlini"ndə görür.

Şərq haqqında yazan başqa ingilis şairlərindən Bayronun üstünlüyü orasındadır ki, o, Şərq adətlərini özünə məxsus bir şəkildə vermişdir. Müsəlman qadınlarının naməhərəmlərə baxmaq hüququndan məhrum olması və s. buna misaldır.

Şərq şerinin ən gözəl xüsusiyyətlərini, ifadə tərzini ingilis poeziyasında ilk dəfə özünə məxsus bir şəkildə işlətməklə yanaşı müəyyən şərq sözlərini də ingilis dilinə ilk dəfə gətirən Bayron olmuşdur.

Bayron istifadə etdiyi bu sözləri mexaniki mənada işlətmir və bəzən onlara yeni məna verir.

Bayronun yeni məna verib işlətdiyi şərq sözlərinə həmin mənada başqa ingilis yazıçılarının da əsərlərində rast gəlirik. Məs: sultanə-xanım mənasında, saray-hərəmxana mənasında və s.

"Şərq poemaları"nda ilk dəfə işlədilən şərq sözlərinin əksəriyyəti türk sözləridir. Bunun da səbəbi, bu poemalarda türk həyatı, adət və ənənələrinin təsvir olunmasıdır.

Bayron öz poemalarında şərqin bədii təsvirini özünəməxsus gözəllikləri ilə vermişdir və bu da bizim həmin gözəllikləri dərk etməyimizə kömək edir.

Corc Qordon Bayronun adı ilə nəinki İngiltərədə, həmçinin ümumdünya ədəbiyyatında yeni dövr inqilabi-romantizm dövrü bağlıdır.

Bayron XIX əsr dünya ədəbiyyatında insan hüquqları uğrunda mübarizə edən, zülmə, əsarətə qarşı çıxan ilk mübariz şair olmuşdur.

Bayrondan sonra gələn və dünya ədəbiyyatında görkəmli yer tutan müxtəlif xalqların şairləri Bayronun istedadına, onun odlu ehtirasına, coşqun ilhamına pərəstiş etmişlər. Polşada Adam Mitskeviç, Almaniyada Henrix Heyne, Fransada Viktor Huqo, Rusiyada Aleksandr Puşkin onun haqqında yüksək ilhamla danışmışlar.

Bayron romantizmi zəmanəsinin ən qabaqcıl ideyallarını əks etdirən romantizm idi.

Bellinski Bayronun yaradıcılığını xarakterizə edərək deyir: "heç bir şair özözünə, öz əzab və iztirabları üzündən, sevinci üzündən dahi ola bilməz. Hər bir şair o zaman dahi olur ki, onun sevinc və kədəri cəmiyyətə və tarixə bağlı olsun, o, cəmiyyətin, zəmanəsinin, bəşəriyyətin bir üzvü olsun ".

Öz yaradıcılığını istibdad və zülmə qarşı mübarizəyə, insan hissləri və amallarının çiçəklənməsi və qələbəsi işinə həsr edən hər iki şair real həyatla mütərəqqi adamlar arasında ziddiyyəti dərk etdikcə daha çox mübariz olur, mövcud çirkab mü-

hitini daha çox rüsvay edirdilər. Bu cəhət Bayronda daha güclü, daha üsyankar və özünə məxsus bir şəkildə əksini tapmışdır. O, yalnız tənqid etməklə kifayətlənmir, bütün tərəddüdlərinə baxmayaraq, istismardan inqilab yolu ilə azad olmağın lazım gəldiyini hiss edirdi. Bu sahədə Bayronun aydın siyasi idealı olmasa da, o azadlıq və ədaləti geniş mənada anlamağa çalışır, xalqlar dostluğunu müdafiə edib qəsbkarlıq müharibələrinə qarşı çıxırdı.

Bayron öz güclü romantik qələmini də, ehtirasla sevən qəlbini də bu işə həsr etmiş, bu yolda qurban vermişdir.

XIX əsrin əvvəllərində yetişmiş məşhur ingilis şairləri içərisində ən görkəmli yerlərdən birini də inqilabçı romantik şair Persi Bişi Şelli tutur. Şelli dünya ədəbiyyatının ən böyük şairlərindən biri, bəşəriyyətin bədii xəzinəsinə gözəl əsərlər vermiş, bütün ömrü boyu xalqın azadlığı uğrunda, ictimai ədalətsizlik əleyhinə fədakarlıqla mübarizə aparmış mədəniyyət xadimlərindəndir.

Şelli 1792-ci ildə qədim bir dvoryan ailəsində anadan olmuşdur. 1810-cu ildə Oksford universitetinə daxil olmuş, lakin öz azad düşüncələri və inqilabi fikirləri üstündə bir ildən sonra həmin universitetdən azad edilmişdir. Bu zaman Şelli İrlandiyaya getmiş və orada başlanan milli-azadlıq hərəkatında böyük fəaliyyət göstərmişdir. 1812-ci ildə Şelli İngiltərəyə qayıtmış və ardıcıl surətdə yaradıcılıq işi ilə məşğul olmağa başlamışdır. İngiltərədə xalq kütlələrinin mənafeni müdafiə edən Şellinin ədəbi və publisistika fəaliyyəti hakim dairələrin xoşuna gəlmirdi. Ona görə də İngiltərənin siyasi dairələrində və hakim təbəqələri arasında Şelliyə qarşı kəskin bir nifrət hissi alovlanırdı. Mürtəce mətbuatın dedi-qodusu ilə təqib olunan Şelli, öz müasir şair Bayron kimi, həmişəlik olaraq doğma vətənindən çıxıb getməyinə (1818) məcbur olur. Bu zaman o İtaliyada yaşayır. Şairin "Çençi" (1819), "Azadedilmiş Prometey" (1819), "Ellada" (1821) və bir sıra başqa bu kimi məşhur əsərləri də İtaliyada yazılmışdır. Şellinin "Britaniyanın oğullarına", "İngiltərə 1819-cu ildə" və s. Bir sıra bu kimi ən yaxşı siyasi şeirləri də həmin vaxta aiddir. Şelli 1822-ci ildə istedadının çiçəkləndiyi bir dövrdə faciəli surətdə vəfat etmişdir.

Karl Marksın dediyinə görə, Şelli "əsl inqilabçı idi və həmişə sosializmin qabaq dəstəsinə mənsub ola bilərdi". Bayron və Şelli kimi ingilis şairlərinin inqilabi poeziyasını Fridrix Engels də yüksək qiymətləndirir və bu şairlərin bədii üsullarının xüsusiyyətini göstərərək, Şellinin gələcəyi çox böyük bir uzaqgörənliklə dərk etdiyini qeyd edirdi. Engels göstərirdi ki, Şelli və Bayronun fəhlələr arasında oxucuları daha çoxdur.

İnqilabçı romantik şair Şellinin yaradıcılığı XIX əsrdə fəhlə hərəkatının inkişafına böyük təsir göstərmişdir. Bu təsir təkcə İngiltərədə deyil, XIX əsrdə Avropa ölkələrinin bir çoxunda özünü göstərmişdir. Şellinin şeirləri XIX əsrin 40-cı illərində Almaniyada fəhlələrin yığıncaqlarında ən yaxşı inqilabçı alman şairlərin əsərləri-lə bir sırada oxunurdu.

Şellinin demokratik ruhlu poeziyası indi də öz təsir gücünü saxlayır və imperialistlərin irticaına qarşı kəskin bir silah olmaq etibarilə bütün ölkələrin xalqlarına xidmət edir.

Şellinin poeziyası Çinin qəhrəman vətənpərvərlərini və Vietnamın igid xalqının öz vətənlərinin azadlığı və istiqlaliyyəti uğrunda mübarizəyə ruhlandırmışdır. Çin Xalq Respublikasının və Hindistanın xalqları bu böyük inqilabçı şairin əsərlərini məhəbbətlə öyrənir və bu əsərləri öz dillərinə tərcümə edirlər.

Böyük proletar ədibi şair Şellinin əsərlərini yüksək qiymətləndirmişdir. Qorki özünün bir sıra məqalələrində Şelli haqqında danışaraq onu böyük sənətkar və xalqla dərindən bağlı olan bir şair hesab etmişdir.

Şellinin bədii yaradıcılığının xüsusiyyəti ondan ibarətdir ki, o, XIX əsrin əvvəllərində poema janrını xüsusilə inkişaf etdirmiş və bu janrdan öz siyasi fikirlərini ifadə etmək üçün məharətlə istifadə etmişdir. Onun romantik poemalarında XVIII əsrin axırı və XIX əsrin əvvəllərindəki ən aktual məsələlər – İngiltərədə başlanmış demokratik hərəkat, Fransada baş vermiş 1789-1793-cü illərin burjua inqilabı, Avropa xalqlarının "Müqəddəs İttifaq" əleyhinə apardığı mübarizə, yunanların milli azadlıq mübarizəsi və başqa bu kimi hadisələr öz bədii əksini tapmışdır.

Şellinin inqilabi romantik poemalarının tarixi-bədii əhəmiyyəti xüsusilə böyükdür. Çünki həmin dövrün azadlıq hərəkatı ilə bağlı olan əsl xalq arzu və idealları bu poemalarda əks etmişdir. Şellinin əsərləri bizim üçün də maraqlıdır. Onun inqilabi poeziyası və ruhu etibarilə müasir zamanın mütərəqqi ədəbiyyatına çox yaxındır.

Ədəbiyyat

1.C.G.Bayron. "Şərq poeması"
2.C.G. Bayron. "Seçilmiş əsərləri"

Рейхан Кулиева

Байрон поеме показыны Восточные традиции

Резюме

В этой статье рассказывается об Английской поэзии и Востоке. В это время великие Английские поэт Байрон писали много стихов.

Он в своих стихах воспевали традиции Восточных народов. В этой поеме показаны Восточные традиции. Эти традиции очень восприимчивы и нравствыенны.

Reyhan Quliyeva

Description of Easten traditions in Byron's poems

Summary

This article is told about English poetry and the East in XIX century. In this period great English poet Bayron wrote a lot of poems.

He showed the East people's traditions in his poems. In this poem he gave the description of Easten traditions. These descriptions are too fantastic, attractive.

Rəyçi: Dosent Fəridə İsmayılova

FATMA AĞAMİROVA
Azərbaycan Dövlət İncəsənət və Mədəniyyət
Universitetinin Xarici dillər kafedrası

MUZEY TƏLƏBƏLİYİN DƏYƏR ORİYENTİRLƏR SİSTEMİNDƏ

Açar sözlər: muzey, tələbə gəncliyi,estetik dəlil,mədəni irs,mənəvi təcrübə.
Key words: museum, young students, aesthetic motive, cultural heritage, experience field of culture.
Ключевые слова: музей, студенческая молодежь, эстетический мотив, культурное наследие, духовный опыт.

Ali təhsil alınan zaman müasir abituriyentlər üçün aparıcı dəlil gənclərin müəyyən ixtisasa meylini ifadə edən peşəkar dəlildir. Bu zaman əməyin maddi mükafatlanmasında, stabil yüksək gəlirin təminatında maraq , peşəkar fəaliyyətinin gələcək sahəsinin seçimində , vəzifəyə tez qalxmada , əhəmiyyətli hakim səlahiyyətlərini və yüksək pul gəlirinə zəmanət verən sosial statusa nail olmasında vasitə kimi ali təhsilin rolunun görünən dərəcədə güclənməsi baş verir. Lakin abituriyentlərin müəyyən hissəsi üçün (son illərin müvafiq sosial sorğu zamanı respondentlərin 1/3 hissəsini təşkil edən) ali təhsil ilk növbədə humanitar funksiyanı həyata keçirtməyə kömək edir, və ali məktəbə qəbul zamanı bu abiturientlər hər şeydən çox öz mədəniyyətlərinin və mənəvi inkişaflarının səviyyələrini qaldırılmasının imkanlarını yüksək qiymətləndirirlər.

Tələbə yaşlarında gənclərə xas olan müasir şəraitdə artan gərginlik, müasir tələbələrin mühitində və dəyər dünyasında müxtəliflik, onların istiqamətlərinin və yaşayış şəraitlərinin ziddiyyatları, təəssüratlarının gərginliyi və emosional dəyişkənliyi, onların şəsxi dəyər oriyentasiyalarının aydınlaşması və stabilləşməsi məqsədi ilə mənəvi axtarışa ehtiyac duyulur. Lakin öz mədəniyyətlərinin səviyyələrindən məmnun olmayan tələbələr,onların mənəvi inkişafına təkan verən müasir sosiomədəni müəssisələr tərəfindən təqdim edilən şəraitdən zəif istifadə edirlər.

Müasir şəraitdə keçmişin mədəni irsinə, vətən və dünya tarixinin bir çox əsrslər ərzində bəşəriyyət tərəfindən toplanmış mənəvi təcrübəsinə müraciət xüsusi əhəmiyyət daşıyır. Tək fəlsəfə və mədəniyyətşünaslıqda deyil, gündəlik təcrübədə də bu gün Azərbaycanın və dünyanın yeni yüzillikdə inkişaf istiqamətini müəyyən edən səmtlərin axtarışı izlənilir. Məhz buna görə,bizim günlərdə tələbə gəncliyi üçün hansının ki, çiyinlərinə yaxın gələcəkdə Azərbaycanın və bütün bəşəriyyətin taleyinə görə məsuliyyət düşəcək,özünə yeni tərzdə cəlb edən, keçmişin dəyərlərinin mühafizəçiləri kimi muzeylər yüksək əhəmiyyət kəsb edirlər.

Tələbə auditoriyası həyatın mənasını və identifikasiya əsaslarını, böhran vəziyyətlərinin aşırılmasında, həssaslığın, qavramanın tərbiyə olunmasında və eyni zamanda davamlı həyat oriyentirlərin yaranmasında, sosial mühitin qeyri-stabillik şəraitində adaptasiyanın yüngülləşməsində, tələbələrə köməklik göstərməyə imkan verən mühüm potensiala malik olan muzey tərəfindən xüsusi diqqət tələb edir. Bununla bərabər tələbələlər tərəfindən deklarasiya edilən muzeylə qarşılıqlı əlaqə məmmuniyyətsiz qalır, çünki onların real davranışları, muzeyə müraciətləri ilə təsdiqlənmir, bu da tələbələrin muzeylərə əlaqəsinin hərtərəfli və dərin təhlilin zə-

ruriyyətini yaradır, hansı ki onların getmələrinin dəlillərində, audotiriyanın konkret muzey arasında maraqların paylanmasında, tələbələrin bu mədəniyyət müəssisəsindən və onun daha çox cazibəyə malik olan tərəfləri və komponentləri haqqında təssəvürlərində daha aydın ifadə olunmalıdır.

Tələbələrin muzeyə olan maraqlarının məzmunlu tamlığını müəyyən edən tələbat-dəlil sahəsinin öyrənilməsi göstərdi ki, onlar üçün muzeyə gedişinin aparıcı dəlilləri bunlardır: 1) estetik dəlil (muzeydə gözəl əşyalarla görüş zamanı xüsusi ləzzət almağ istəyi və muzeyin təkrarolunmaz mühütünə daxil olunma istəyi); 2) hər şeyi bilmək həvəsi və ya öyrənmək həvəsi(dünya görüşülərini genişləndirmək niyyəti, ən müxtəlif xarakterli məlumatları almaq istəyi); 3) peşəkar maraq (muzeylərə səfər tərdis tapşırıqların yerinə yetirilməsi, peşə biliklərin və ya bacarıqlarının inkişafı, ixtisaslaşmanın yüksəldilməsi vasitəsi olanda); 4) rekreasion dəlil (istirahət etmək, yüngülləşmək və güclərini bərpa etmək imkanı).

Bu zaman aparıcı dəlil kimi estetik dəlil çıxış edir , bu isə onu göstərir ki, tələbələr daha çox muzeyi dərin təəssüratlar, aydın emosiyalar, gözəllikdən zövq almaq, gözəlliyə toxunmağın mənbəyi kimi dərk etməyə meyillidirlər.

Muzey vasitələrinin köməyi ilə peşəkar təkmilləşmə dəlilin əhəmiyyəti humanitar ali məktəblərin və incəsənət ali məktəblərinin tələbələri üçün artır.

Muzey kolleksiyalarına müntəzəm və sistematik müraciət edən tələbələr arasında da bu dəlilin təsiri nəzərəçarpan dərəcədə artır və muzeyə rekreasion-əyləncəli yanaşmanı rəhbər tutma meyilliyi aşağı düşür. Bundan əlavə, tələbələr , hansılar ki daha tez-tez (başqaları ilə müqayisədə) muzeylərə gedirlər, həyat təcrübəsinin və mənəvi inkişafın əvəzedilməz mənbələri kimi onlara olan tələbatı daha kəskin duyurlar.

Yuxarıda qeyd olunan dəlillərlə müqayisədə muzeyə gedən zaman şəxsiyyət arası ünsiyyətə tələbat tələbələr üçün o qədər də əhəmiyyətli olmur.

Tələbələrin nöqteyi-nəzərlərindən, bu sosiomədəni instituta müraciətinin təşəbbüskarı olan dəlillərin reallaşmasını təmin edən muzeyin auditoriyaya əsas və aparıcı təsiri kolleksiyadır, hansı ki dəyərlərin, müxtəlifliyin, bolluğun tələblərinə cavab verən əşyaların qeyri-adiliyini təqdim etməlidir.

Cəzbedici muzey kolleksiyalarına və ayrı-ayrı muzey əşyalarına tələbələr verdiyi xüsusiyyətlər arasında onlar üçün daha tez-tez rast gəlinən, daha əhəmiyyətli həmin əşyaların dəyər xüsusiyyətləridir(onların əhəmyyəti). Beləliklə, tələbələrin muzeyə münasibətlərində onun mənası və təxsis edilməsi ifadə edilir, hansılar ki yüksək müsbət sosial əhəmiyyətə(dəyərə) malik olan əşyaların yığılmasında, saxlanmasında, öyrənilməsində, izah edilməsində ifadə olunur, bu da tələbələrin muzeyə marağına tarixi, elmi, memorial, bədii və digər xarakteri verir.

Muzey təsirinin təkrarolunmamasını, xüsusiliyini tələbələr muzey əşyaları ilə bərabər,həmçinin muzey mühütinin müxtəlif komponentlərinin qavranması zamanı hiss edirlər, və onların təssəvürlərinə görə bu komponentlər əşyalarla sıx bağlıdırlar, muzeyə getməkdən təəssüratı gücləndirirlər və gələnlərin diqqətini cəlb edirlər. Bu əlaqədə tələbələr böyük rolu muzeyin binasına və onun ayrı-ayrı xassiyyatnamələrinə (eksteryerin və interyerin bədii üstünlüklərinə, tarixi və memorial əhəmiyətinə, yerləşdiyi yerə və ətraf mühitə) və həmçinin ekspozisiyanın arxitektur-bədii həllinə, onun müxtəlf tərtib edənlərə ayırırlar.

Muzeyin məşhurluğu və tamaşaçılar arasında şöhrəti həmçinin tələbələrin maraqlarını fəallaşdıra bilər, baxmayaraq ki, bu amil onlar üçün ən vacib deyil.

Muzey fəaliyyətinin bütün növləri arasında ən cəzbedici tələbələrə ekspozisiya-sərgi işi sayılır.

Bundan başqa, gəlmə zamanı onlara verilən güzəştlərin təsirinə görə tələbələr muzeyin əlçatmasının vacibliyini qeyd edirlər.

Muzey işinin nəzəriyyəçilərinin və praktiklərinin mövqelərinin araşdırması göstərir ki, muzey tələbələrə təqdim edə biləcəyi bütün müxtəlif imkanların reallaşmasının və bu potensialda tələbə fəallığının inkişafı zəruriyyəti tələbəlik və muzey arasında qarşılıqlı əlaqə təşkil etməsinə və həyata keçirilməsinə bir sıra tələblər irəli sürür.

Hazırkı şəraitdə ən tələb olunan və perspektiv muzey işinin nəzəriyyəçilərinin və praktiklərinin əksəriyyəti ali məktəb proqramların əsasında muzey və tələbəliliyin qarşılıqlı əlaqəsini və tələbələrin peşəkar hazırlıqlarının təkmilləşməsini sayırlar.Bu zaman tələbələrin peşəkar hazırlığı onların mənəvi təcrübəsinin daimi və arasıkəsilməyən zəngilləşdirilməsi ilə uyğunlaşmalıdır. Beləliklə, ali məktəb tələbələrinin mədəniyyətlərinin inkişafı və peşəkar inkişafı muzeyin tələbəliklə işində aparıcı məqsəd kimi müəyyən edilir, bu da aşağıdakı prinsiplərə riayət edilməsini tələb edir:

-ekspozisiyaların quruluşu zamanı, sərgilərin təşkili və onların interpretasiyaları zamanı, müxtəlif formalı muzey-pedaqoji fəalyyətinin mövzusunu müəyyən edilməsi zamanı və muzey materialın seçilməsi zamanı fənnləararsı yanaşmanın həyata keçirilməsi;

- tələbələrlə qarşılıqlı əlaqə zamanı didaktik, humanist yanaşmanın uyğunlaşması, bu da gələcək mütəxəssis şəxsiyyətinin harmonizasiyasına və inteqrasiyasına təkan verir;

-didaktik xarakterli ekspozisiyanın quruluşu və tədris muzey fəaliyyətlərinin fəallaşması;

-tələbələrin məlumat tələbatını daha tam ödəməyə imkan verən müasir texniki vasitələrinin muzeydə istifadəsi ;

- tədris (ali məktəb) və muzey-pedaqoji proqramların dəqiq koordinasiyanın təmini və həmçinin ali məktəb müəllimlərinin və muzey işçilərinin onların həyata keçirilməsində hərəkətlərinin uyğunluğu.

Tələbələrin muzeylərin onlara verə biləcəyi imkanlar haqqında lazımi səviyyədə olmayan bilikləri muzeylərin fəaliyyətləri haqqında ali məktəb tələbələrin məlumatlandırılmasına və həmçinin onun məşhurlanması və şöhrətlənməsinə yönələn sistematik tədbirlərin keçirilməsini tələb edir.

Mütəxxəsislərin əksəriyyəti muzey və tələbələrin qarşılıqlı əlaqəsi zamanı "rekreasion tərtib edənin" gücləndirilməsinin aktuallığını qeyd edirlər, bu da gələnlərin komfort şəraitdə relaksasiyanın təminatını və güclərin bərpasını nəzərdə tutur.

Müasir tələbəliliyin muzey mədəniyyətinin səviyyəsinin nəzərə alınması zəruriyyəti və onun inkişafına kömək bu auditoriyanın muzey abidələrinin qavranmasına əvvəlcədən hazırlıq tələbini irəli sürür, bu da ali məktəb şagirdləri ilə işdə ayrı istiqamətin xarakterini alır.

Tələbələr muzeylərin ekspozisiya-sərgiişinə verdiyi üstünlük (onun fəaliyyətinin digər növləri ilə müqayisədə) onun həyata keçməsinin müəyyən prinsiplərə riayət edilməklə dəstəklənməlidir, hansılara ki, nəzəriyyətçilərin və praktiklərin fikri ilə, bunlar aiddir:

1.Ifadəlilik: müasir tələbələırin maraqlarına toxunan ardıcıl, dəqiq və aydın elmi əsaslanmış konsepsiyanın keçirilməsi;

2.Həqiqilik və əşyalılıq: həqiqi əşyalar ekspozisiyasında maddi abidələrin üstünlüyü ;

3.Arxitektur-bədii həllin ekspozisiyanın mövzusuna və konsepsiyasına uyğunluq;

4.Göstərilən materialların müxtəlifliyi;

5. Yeniliyin və muzey ənənələrinə sadiqliyinin harmonik tənzimlənmiş uyğunluğu , bu da eksperiment aparmaq imkanı verir, hansı ki öz mənəviyyətinə və funksional istiqamətinə və muzeyin məzmunluğuna zidd deyil;

6. Ekspozisiya yaradıcılarının yüksək elmi və peşəkar səviyyəsi;

7.Tələbələrin qavramaqlarına əlçatmazlığı.

Tələbə auditoriyasının və muzeylərin qarşılıqlı əlaqəsinin prioritet məqsədlərinin nail olunmasının zəruri şərti onun fəallığının oyanması və stimullaşdırmasıdır, onun özünü ifadə etməyə olan həvəsi , onun yaradıcı potensialının acılması, bu da aşağıdakıları tələb edir:

-tələbəliklə işin fərdi və differensial formalarını;

- əsas dialoq ünsiyyət metodun istifadəsi və bu formaların strukturlarına teatrallaşma elementləırin daxil edilməsi ;

-pedaqoji formalarının məqsədli ustiqamətinin və mövzunun genişləndirməsi və həmçinin muzey fəaliyyətlərinin prezentasiya hesabına müxtəlif növlərinin muzey materiallarının geniş tarixi-mədəni kontekstdə mədənyyətin inkişafında müasir tendensiyaların nəzərə alınmaqla;

-yuxarıda qeyd edilən istiqamətlərin və tələbələrlə iş prinsipinin reallşmasının effektliyni yüksəltməyə imkan verən müasir texniki vasitələrin tətbiqi.

Muzeylərin konkret tələbə audotoriyası ilə qarşılıqlı əlaqənin prioritet istiqamətlərinin müəyyən edilməsi və bu fəaliyyət çərçivəsində ən aktual məsələlərin həllinə gətirə bilən yolların seçimi əhəmiyyətli dərəcədə muzey əməkdaşlarının gələnlərin kateqoriyasının xarakterik xüsusiyyətlər haqqında təəssüratlarda və onun muzeyə münasibətində əsaslanır.

Muzey işçilərinin bu təsəvvürləriin araşdırılması zamanı və bu məlumatların tələbələrin özləri muzeyə hansı münasibət bəslədiklərini və bu sosial-mədəni institutu necə qavradıqlarını bu məlumatlarla müqayisə zamanı bəzi ziddiyyətlər aşkar olunmuşdur.

Belə ki, adətən muzey işçiləri tələbələrin muzeylərlə ünsiyyətdə bilik tələbatının təsirini həddindən artıq qiymətləndirməyə meyillidirlər. Düşünürlər ki, dünya görüşünün genişləndirilməsi, hər şeyi bilmək həvəsinin artması tələbələr üçün ilk növbəli məna daşıyıcılarıdır. Bununla belə tələbələr üçün muzeyə getdikləri zaman aparıcı dəlil estetik dəlildir, hansı ki, muzey tərərfindən saxlanılan mənəvi təcrübənin qavranması ilə bağlıdır, muzeydə nümayiş edilən əşyaların və muzey mühitinin insanda təkrarolunmaz hisslərin oyada bilən bir amildir (ekspozisiyanın arxitektur

bədii həllini, kolleksiya prezentasiyasının xüsusiyyətlərini, muzey binasının bədii üstünlüklərini və s. daxil edərək).

Bilik tələbatlarının əhəmiyyətinin həddindən artıq çox qiymətləndirilməsi və estetik dəlilin rolunun azalması tələbəliyə ünvanlanan muzey-pedaqoji fəaliyyətinin təşkilinə ancaq məlumat yanaşmasının istifadəsinə gətirə bilər, bu da nadir hallarda ekspozisiya-sərgi, ekskursiya işində və muzey fəaliyyətinin digər istiqamətlərində həddindən artıq çox məlumatlandırılmanın təhlükəsini yaradır.

Muzeyə getmə zamanı hər kiminləsə ünsiyyətdə olmaq tələbatın rolu muzey işçiləri tərəfindən həmçinin bir qədər həddindən artıq çox qiymətləndirilir, çünki, tələbələr belə imkanı onlar üçün muzeylə qarşılıqlı əlaqə zamanı ən az aktual məsələ kimi baxılır. Yəqin ki, bu tələbatın ödənilməsi üçün tələbələr boş vaxtlarının keçirilməsinin digər üsullarına üstünlük verirlər.

Daha çox dərəcədə muzey gəncliyin həyat təcrübəsinin zənginləşməsinə kömək edir, onun mənəvi təkmilləşdirilməsinə və daxili dünyasının harmonizasiyasına kömək edir, o zaman ki, muzey işçiləri hesab edirlər ki, muzeylərə müraciət edərkən tələbələr ən az dərəcədə bu dəlili rəhbər tutmağa meyllidirlər.

Tələbə auditoriyasını muzeyə cəlb edən birinci dərəcəli xüsusiyyətlər arasında muzey işçiləri kolleksiyanın zənginliyini və məzmunluğunu qeyd edirlər. Onların fikrinə görə, tələbə auditoriyasını cəlb edən əsas amil muzey tərəfindən nümayiş etdirilən məlumatın spesifik xüsusiyyətləridir, və məhz bunda onlar muzey kolleksiyasının bütün üstünlük və zənginliyini nümayiş etdirmək imkanlarını görürlər .

Eyni zamanda tələbələrin muzey haqqında təsəvvüründə kolleksiyanın ən əsas xüsusiyyəti onun dəyəri olur. Buna uyğun olaraq muzeydə nümayiş olunan əşyalar tələbə auditoriyasının gözündə xüsusi statusa malikdir, hansı ki, onları məişət gündəlikliyindən və adilikdən qaldırır. Beləliklə, tələbələr muzeydə gördükləri hər bir şey ilk növbədə qeyri-adi olmalıdır, yüksək müsbət sosial əhəmiyyəti etməlidir. Bununla əlaqədar olaraq tələbələr üçün adiliyin və gündəlikliyin çərçivəsindən çıxan dəyərlərin digər qeyri-adi dünyanın açılmasında öz işini daha ardıcıl həyata keçirən muzey dəyişməyən cazibə qüvvəsinə malikdir.

Əgər bundan sonra da tələbələr tərəfindən muzey fəaliyyətinin cəlbedici aspektlərinin qiymətlərini muzey işçilərinin öz qiymətləriylə müqayisə etsək, onda sonuncular tərəfindən muzeyin geniş məshurluğu tələbələrin marağının cəlb edilməsi üçün daha çox əhəmiyyətə malikdir. Lakin bu amil tələbə auditoriyasını tək ekspozisiyasının estetik cəlbediciliyi deyil, həmçinin muzey binasının onun arxitektur simasından daha az əhəmiyyətli olur. Muzeyin şöhrəti və geniş məşhurluğu sözsüz ki, tələbələrin çoxları üçün bu sosial-mədəni institutun müəyyən xarakteristikalardan biridir, onun cazibəsinin mütləq şərtlərindən birinin simasından daha çox onun əhəmiyyətinin ictimai etirafının sübutu qismində çıxış edərək.. Yuxarıda qeyd edilən tələbələr tərəfindən muzeylərin qavranmasının nəzərə almamağı ona gətirib çıxara bilər ki, muzeylərin fəaliyyəti haqqında məlumatlandırma və tələbəlik mühitində onun reklamlaşma lazımi dərəcədə effektli olmayacaq.

Müasir şəraitdə, tələbəliyin sosial-demoqrafik tərkibində, onun dəyər orientasiyaları sistemində, tələbat dəlil mühitində və onun sosiallaşma və özünü realizə şəraitində baş verən əhəmiyyətli dəyişikliklər zamanı, muzey-pedaqoji fəaliyyətinin effektli həyata keçirilməsi onun baza əsaslarının, praktiki yanaşma prinsiplərinin bu

auditoriyanın tələbatlarının sorğu iş metodlarının və formalarının müəyyən edən daima müqayisə zamanı mümkündür.

Muzey mədəniyyət mərkəzlərinin gəncliyin keçmişin bilikləri ilə zənginləşdirilməsində, onun dəyər düşüncəsini və mənəvi kamilliyin inkişafına imkan yaradmasında mühüm rolu olmalıdır .Müasir tarixin ziddiyatları tələbələrin tələbat və sorğularının mənasını dəyişdirir, onların yeni idealların və mənəvi istiqamətlərinin axtarışlarında xüsusi maneələr yaradırlar. Müasir şəaritdə tələbələrin dəyişən maraqların və tələbatların öyrənilməsi aktual məsələdir, hansı ki, cox hallarda təlim-maarif və elmi müəssisələrin Azərbaycanın yeni nəslin yaranmasına müsbət təsir göstərmək bacarığını müəyyən edir. Tələbə gəncliyin dünyagörüşünün genişlənməsi işinə, mədəni səviyyəsinin artırılması işinə daxil edilən muzeylər üçün bu məsələlərin həll edilməsi xüsusi əhəmiyyət daşıyır.Tələbələrin mədəniyyətinin inkişafı və dərinləşməsi ilə bağlı muzeylərin və ali tədris müəssisələrin birqə səyləri Azərbaycanın XXI əsrin mənəvi kamil, yaxşı təhsil almış və yüksəkmədəni , yeni nəslinin hazırlanmasının vacib hissələrindən biridir.

Ədəbiyyat

1. Boqaçeva İ.A.” Bədii muzeyin tələbəliyin mədəniyyətinin formalaşmasında rolu”
2. İ.A. Boqaçeva .“SSSR bədii muzeylərində elmi- tədqiqat işi: tez. və məruzələr toplusu. M. **İ N E U M,** 1991
3. Burlikina M. İ. “Muzey və tələbə : muzeyin tələbə həyatında rolu”
4. M. İ. Burlikina “Muzey və elm: elmi konfransının materialları, 1997 (ölkənin ali məktəb muzeylərinin tarixi”
5. Muzey tikintisinin aktual məsələləri : Muzey və müştəri, M.: **N İ İ K**, 1979”
6. Yureneva T.Yu. “Muzey dünya mədəniyyətində. – M, Rus. slovo, 2003”
7. V.P. Qriskeyeviç, A.A. Qujalovskiy: “Muzey işi və tarixi mədəniyyətinin, irsin mühafizəsi”-Minsk: Belarus Universitetinin nəşri 2003

F.Agamirova

The role of museums in the life of students

Summary

In the current context apply to cultural heritage of the past, experience in the field of culture, collected by the humans along the centuries of the history of the world is of special importance. However, not only in philosophy and culture study, but also in our daily practice search for guides determining development vector of our country in a new century are observed. Just therefore, museums nowadays attracting young students who are safekeepers of the wealth of the past and who are considered to be responsible for the fate of Azerbaijan and the whole world in foreseeable future are of great importance.

Ф.Агамирова

Роль музеев в жизни студентов

Резюме

В современных условиях особую важность приобретает обращение к культурному наследию прошлого, духовному опыту, накопленному человечеством за многие века отечественной и мировой истории. Не только в философии и культурологии, но и в повседневной практике сегодня наблюдается поиск ориентиров, определяющих вектор развития нашей страны и мира в новом столетии. Именно поэтому в наши дни обретают такую высокую значимость музеи как хранители ценностей прошлого, по-новому притягивающие к себе студенческую молодежь, на плечи которой в недалеком будущем ляжет ответственность за судьбы Азербайджана и всего человечества.

Rəyci: Aygün Əbdülova
filologiya elmləri namizədi, dosent

SEVİL İSMAYILOVA
Azərbaycan Müəllimlər İnstitunun
Sumqayit filiali

CONATAN SVİFT VƏ ONUN "QULLİVERİN SƏYAHƏTİ" ROMANI

Açar sözlər: parodiy, sarkazm, fantastika, satira, ironiya
Ключевые слова: Пародия, Сарказм, Фантастика, Сатира, Ирония
Key words: parody, sarcasm, Science fiction, Satire, the irony

Böyük ingilis yazıçısı Conatan Svift "Qulliverin səyahəti" satirik romamı ilə bütün dünyada şöhrət qazanmışdır.

Yazıçı o zamankı İngiltərənin dövlət quruluşunu, ictimai qaydalarını və adətlərini amansız bir surətdə lağa qoyur və qamçılayır. O hakim siniflərin parazitliyini və varlıların riyakarlığını, amansızlığını, öz mənfəətlərini güdəlirini, eqoizmini ifşa edirdi və bu Sviftin xəyal və icad qüdrətinin, doğrudan da, tükənməz olduğunu göstərirdi. Onun Qulliverinin başına nələr gəlmir. Qulliverin səyahətinin az qala hər səhifəsində müəllifin zamanındakı ictimai münasibət və hadisələrə aid eyham və işarələr vardır. Sviftin kitabının başlıca məna və əhəmiyyəti və hər rütbədən olan bütun parazitlərə və müftəxorlara qarşı nifrət, öz əllərilə dünyanın butun maddi nemətlərini yaradan namuslu zəhmətkeşlərə hörmət və məhəbbətdən ibarətdir. Satirik fəlsəfi, - son dərəcə dərin mənalı ciddi roman olan bu əsər, eyni zamanda ən şən, sevimli və geniş yayılmış bir uşaq kitabı olmuşdur.

Conatan Svift əziyyətlər, həyəcanlar, məyusluq və əzablarla dolu uzun və ağır bir həyat keçirmişdir. Sviftin uşaqlığı ağır keçmişdi. Uzun illər boyu ehtiyac içində yaşamış, varlı qohumlarının verdikleri cüzi yardım ilə dolanmışdır. Svift on dörd yaşında məktəbi qurtarıb, Dublin universitetinə daxil olmuşdu ki, həmin universitetdə hələ orta əsr qaydaları hökm sürürdü.

Universitet yooldaşlaları sonradan xatırlayıb göstərirlər ki, hələ o illərdə Svift öz hazırcavablığı, tutarlı söz deməsi müstəqil və qəti bir səciyyəyə malik olması ilə hamıdan seçilirdi. Universitetdə keçilən

Bütün fənlərdən ən çox şeir və tarixlə maraqlanır, əsas fənn olan din dərslərindən isə "səliqəsiz" qiymətlər alırdı.

1688-ci ildə Svift universiteti qurtarmağa imkanı olmadığından, İngiltərəyə gedir. Məhrumiyyetlərlə və yaşamaq uğrunda mübarizə ilə dolu müstəqil həyata başlayır. Svift xeyli əlləşdikdən sonra axırda nüfuzlu bir əyan olan ser Vlyam Templin yanında katiblik vəzifəsinə qəbul olunur.

Boş vaxtlarında O, yazıçılıqla məşğul olur və öz ədəbi əsərlərini çap etditirdi.

Qürurlu və sözgötürməz bir gənc olan Sviftə katib ilə nökər arasında qalan bu vəziyyətiə öyrəşmək çətin idi və bu qulluqdan xoşu gəlmirdi. O, öz "havadarını" atıb, daha az həqarətli olan bir qulluq tapmaq ümidilə yenidən İrlandiyaya gedir. Bu təşəbbüs də boşa çıxdıqda, Svift yenidən öz əvvəlki ağasının yanına qayıtmalı olur. Sonralar Templ onun qabiliyyətini qiymətləndirib, ona daha diqqətli münasibət göstərməyə başlayır, Sviftlə uzun-uzadı söhbətlər edir və zəngin kitabxanasından ona kitablar tövsiyə edir, onu öz dostları ilə tanış edir və ona məsul tapşırıqlar etibar edir.

1692-ci ildə Svift magistr elmi dərəcəsinə dissertasiya müdafiə edir və bu, ona kilsədə vəzifə sahibi olmaq hüququ verir. Ancaq o Mur-Parkda qalmağı üstün tutub, 1699-cu ildə Templ ölənə qədər, anacaq fasilələrlə burada yaşayır, sonra isə ehtiyac onu yoxsul bir İrlanidiya kəndi olan Larakörda ruhäni vəzifəsində işləməyə vadar edir.

Taleyin Svifti yenidən aparıb çıxartdığı İrlandiya o zamanlar geri qalmış, yoxsul və tamamilə İngiltərədən asılı olan bir ölkə idi. İngilislər orada zahirən muxtariyyət olduğunu göstərməyə çalışırdılar, lakin əslində İrlandiya qanunlarının təsirini heçə endirmişdilər.

İrlandiyada yaşadığı müddət Svift üçün səmərəsiz keçmədi. O, ölkəni başdan-başa gəzib, ehtiyacları və arzuları ilə tanış oldu, məzlum İrlandiya xalqına rəğbət hissi duymağa başladı

İngilterədə sənaye və ticarət çiçəklənməkdə idi. Tacirlər və sahibkarlar xalq kütlələrini talamaq və müstəmləkələrdə aparılan qırğınlar sayəsində, misli görünməmiş dərəcədə varlamrşdılar. İti gedən ingilis gəmiləri Yer kürəsinin dənizlərini seyr etməkdə idi. Tacirlər və fırıldaqçılar az məlum olan torpaqlara soxulub yerliləri qırır, əsarət altına alır, uzaq ölkələrin təbii sərvətlərini "mənimsəyirdilər" və bu yerlər İngilis müstəmləkələrinə çevrilirdi.

1704-cü ildə Svift imzasız olaraq "İnsan cinsinin ümumi təkmilləşməsi üçün yazılmış çəllək nağılı" adlı çox gözəl kitabını nəşr etdirdi.

"Çəllək nağılı" - ingilis xalq ifadəsi olub, mənası boş-boşuna danışmaq, çərənçilik etmək deməkdir. Amma "Çəllək nağılı"nın başlıca mövzusu İngiltərədə ən çox yayılmış olan hər üç dini cərəyanın: anqlikan, katolik və protestant kilsələrinin kəskin satira atəşinə tutulmasından ibarətdir. Svift bu üç kilsənin rəqabətini üç qardaş: Martin (anqlikan kilsəsi), Pyotr (katolisizm) və Cek (protestantizm) surətində təsvir edir.

Conatan Svift son dərəcə möhkəm sirr saxlayan bir adam idi. Öz daxili aləminin və yaradıcılığının sirlərini ən yaxşı dostlarına da açmazdı. Onun tərcümeyi-halında indiyə qədər bir çox sirli və aydın olmayan cəhətlər qalmışdır.

Üzərində altı ildən artıq işlədiyi və həyatının ən başlıca məhsulu olan "Bir neçə gəminin əvvəlcə cərrahı, sonra kapitanı olmuş Lemyuel Qulliverin bəzi uzaq ölkələrə səyahəti" romanının yaranmasını xüsusilə gizlin saxlamışdı. Sviftin bütün başqa əsərləri kimi, bu kitab da imzasız nəşr edilmişdi. Hətta 1726-cı ildə romanın əlyazmasını "naməlum şəxsdən" almış olan naşir özü də bunun müəllifinin kim olduğunu bilmirdi.

"Qulliver" oxucuları hər şeydən əvvəl öz qeyri-adi süjetilə, qəhrəmanın liliputlar və nəhənglər, laputalılar və quiqnqnmlar arasında olduğu zaman aldığı təəssüratın heyrətverici dərəcədə dürüst düşünülmüş təsvirlərilə cəlb etmişdir. Bir çoxları "Qulliveri" əyləncəli, gülməli bir nağıl kimi başa düşüb, bu fantastik əhvalatda dərin bir məna olduğunu, İngiltərənin qayda-qanunlarının adət və siyasətinin amansız satira atəşinə tutulduğunu dərk etməmişlər.

Sviftin yaşının keçmiş olduğu bir vaxtda yaratdığı "Qulliverin səyahəti" yazıçının həyat haqda uzun illər boyu düşüncələrinin məhsuludur.

Çox qəribə fantastika hələ romanın birinci səhifələrindən, Qulliverin gəmi batdıqdan sonra, altı düymə boyda xırdaca adamlara əsir düşməsi ilə başlanır.

Həqiqətə əsla bənzəri olmayan şeylər barədə Svift elə soyuqqanlı, sakit, elə doğruçu bir əda ilə danışır ki, guya söhbət həyatda hər bir addımda rast gələn ən adi hadisəbr barədə gedir. Bu zaman Qulliverin rəvayətləri o qədər əsaslandırılmış və

inandırıcı görünür ki, biz qeyri-ixtiyari olaraq bu xırdaca adamcığazlan və onlan əhatə edən şeyləri Qulliverin özü kimi gözümüzün önündə görməyə başlayırıq.

Həqiqətə uyğunluq duyğusu tənasüb və ölçülərə ən dəqiq surətdə riayət edilməsi, ən diqqətli hesablama və faktik məlumatın bolluğu sayəsində əldə edilir. Belə ki, məsələn, Svift Liliputstanı təsvir etdikdə, belə bir təsəvvürə əsaslanır ki, liliputların boyu Qulliverin boyundan on iki dəfə kiçikdir, buna görə də, onların bədənlərinin səthi təxminən 150 dəfə (12X12), həcmi isə təxminən 1700 dəfə (12X12X12) bizim bədənimizdən kiçikdir. Buradan da bir çox qəribə epizod və anlaşılmazlıqlar əmələ gəlir. Müəllif liliput dərzilərinə Qulliver üçün yeni kostyum hazırlamağın nə dərəcədə böyük bir zəhmətlə başa gəldiyini, buna nə qədər parça sərf edildiyini, Qulliverin saxlanılmasının baha oturduğunu onun üçün əlverişli bir ev tapılmasının və s. nə qədər çətin olduğunu ətraflı surətdə nəql edir.

Eyni zamanda "Qulliverin səyahəti"ndə hər bir cizgi və ştrixdə bir çox eyham və işarələr vardır ki, bunlar əfsanəvi Liliputstan ilə Sviftin zamanındakı İngiltərə arasında bir çox müştərək cəhətlərin olduğunu görməyə məcbur edir. Həqiqətdə insanlara mühüm və hətta əzəmətli görünən ictimai hadisələr və qarşılıqlı insan münasibəti gözlənmədən mikroskopik dərəcədə kiçilir, onun sayəsində xırdaca və gülünc görünür.

Qulliver görür ki, liliputların arasında da, demək olar ki, onun öz vətənində olan eyni adət və ənənələr mövcuddur. Belə məlum olur ki, bu xırdaca cırtdanlar da böyüklük, şöhrətpərəstlik, xudbinlik iddiasına düşür, sərvəti, mənsəbi hər şeydən artıq qiymətləndirir, öz xırdaca krallarını dünyanın ən qadir hökmdarı sayır, bir-birilə mübahisə edir, dedi-qodu yayır, intriqa aparır və daxili müharibələrə girişirlər. Bənzəyiş daha irəli gedir, bir-birilə düşmənlik edən liliput siyasi partiyaları – hündürdaban tərəfdarları və alçaqdaban tərəfdarları, ingilislərin tori və viqlər partiyalarına bənzəyir; yumurtanın iti ucu və küt ucu tərəfdarları məzhəbləri isə, yumurtanın hansı başından sındırmaq barədə qəti bir qərara gələ bilmirlər ki, bu da o zamanın dini mübahisələrinin satirik bir təsviridir. Liliputstandan dar bir körfəzlə ayrılan düşmən Blefüsku dövləti, əlbəttə, İngiltərə ilə uzun müharibə aparan Fransadır. Dartılmış ipin üzərində başqa saray adamlarından daha məharətlə oynamağı yə padşahın tutduğu ağacın üstündən yaxşı hoppanmağı bacaran liliput maliyyə naziri bir çox cəhətdən İngiltərənin baş naziri Uolpola liliputların xəsis, hamıdan şübhələnən və qorxaq padşahları isə, şübhəsiz ki, kral I Georqa bənzəyir.

Bu misallardan aydındır ki, "Qulliverin səyahəti"ndəki hər bir epizodda Svift zamanındakı ictimai və siyasi həyata işarələr vardır.

Romanın ikinci hissəsində, Qulliverin nəhənglər ölkəsindəki macəraları təsvir edildikdə, Svift Ingiltərənin siyasi və ictimai həyatının daha ayrı-ayrı nöqsanlarını və hökmdarlarının deyil, bütünlüklə idarə sistemini və dövlət quruluşunu tənqid edir. Qulliver özü indi raiskin bir liliputa dönüb, bu nəhənglər aləmində bir çox əzab və əziyyətlər çəkir.

"Səyahətin" ikinci hissəsində mərkəzi yeri, Qulliverin nəhənglər kralı ilə söhbəti tutur ki, burada Qulliver İngiltərənin qanun və adətlərindən ətraflı danışır. Liliputların həyatı Qulliverə nə qədər miskin görünürdüsə, nəhənglər kralına da insanların həyatı o qədər miskin görünür.

Bu ağıllı, məlumatlı padşahın dililə Svift dövlət və siyasi xadimlərin satqınlığını, mənfəətpərəstliyini ifşa edir; seçicilərin rəyini satın almaq və hər cür sui-istifadələr üçün geniş imkan verən ingilis seçki qanunlarını pisləyir; onun fikrin-

cə, nöqsanlı olan İngiltərənin parlament quruluşunu tənqid edir ki, burada palata üzvləri azad seçki yolu ilə deyil, irsiyyət qaydasılə təyin edilirlər; məhkəmə süründürüçülüyü və hoqqabazlıqlarınını, ölkə üçün ağır yük olan qanlı müharibələri, gənclərdə eqoist meyllər və pis adətlərin inkişafına geniş imkan verən tərbiyə, təlim üsullarını və sairəni qamçılayır.

Romanın üçüncü hissəsində Qulliverin cürbəcür uydurma ölkələrə - Laputaya, Balnibarbiyə, Laqqneqqə, Qlabbdobdribə, eləcə də Yaponiyaya səyahətini təsvir edən fəsillərdə də biz həmin fikirlərə daha kəskin bir şəkildə rast gəlirik. Qulliver Balnibarbidə olduğu zaman, yerli füosoflarla görüşür. Qulliver söyləyir. "Bədbəxtlər elə üsullar axtarırlar ki, onların vasitəsilə padşahları inandırsınlar, onlar da öz nədimlərini ağıllı, qabiliyyətli və xeyirxah adamların içərisindən seçsinlər, nazirləri ümumi rifahın qayğısına qalmağa öyrətsinlər, yalnız cəmiyyətə görkəmli xidmətlər göstərən adamları mükafatlandırsınlar; padşahları inandırsınlar ki, onların həqiqi mənfəətləri yaqətli adamlara tapşırılmalıdır".

Svift bu xəyalpərəstlərin baş tuta bilməyəcək planlarını kinayəli bir surətdə sayasaya, sətirlərarası özünün insan həyatının və dövlətin qurulması barədə müsbət görüşlərini söyləyir. O istəyir ki, vətəndaşlar cəmiyyət qarşısında borclarını qorxu və zorla deyil, yüksək şüurluluq və öz yaxın adamlarına qarşı duyduqları məsuliyyət hissilə yerinə yetirsinlər.

O, arzu edir ki, insanın ləyaqəti onun sərvəti və rütbəsilə deyil, ağlı və mənəvi keyfiyyətlərilə, öz fəaliyyəti sayəsində insanlara verdiyi həqiqi fayda ilə ölçülsün.

Svift bütün kitab boyu mütləqiyyət və zorakılığın cürbəcür təzahürlərini ifşa edə-edə xəyalları növbə ilə Qulliverin qarşısından gəlib-keçən, Roma respublikası qəhrəmanları haqqında heyranlıqla danışır. "Mən hər şeydən artıq zalım və cəllad hökmdarları tələf etmiş, azadlığı və məzlum xalqların tapdanmış hüququnu bərpa etmiş adamların simalarına baxmaqdan ləzzət alırdım". Sviftin rəyinə görə, zəhmətkeş xalq - netmətlər yaradan adamlar ən dərin hörmətə layiqdirlər: "Eyni tarlada bir sünbül və ya bir ot əvəzinə ikisini bitirməyi bacaran hər kəs insanlığa və öz vətəninə bütün siyasətçilərin bir yerdə etdiklərindən daha artıq xidmət etmiş olur".

Öz müasirlərindən yüksəkdə durmasına və onlardan uzağı görməsinə baxmayaraq, Svift dünyada hökm sürən şəri necə aradan qaldırmaq və ictimai adətləri necə yaxşılaşdırmaq sualına tam aydın bir cavab tapa bilməmişdir.

Xalqın iztirab və bədbəxtliklərində o öz mənfəətlərini güdən hökmdarları, saray adamlarını və acgöz varlıları taqsırlandırır. "Hər varlının müqabilində mindən artıq yoxsul var, Açıq-aşkar söyləmək olar ki, bizim xalqın çox böyük əksəriyyəti miskin həyat keçirir". Svift Qulliverin dililə məsləhət görür ki: "padşahların və nazirlərin köməyi olmadan da keçinmək mümkün ikən, onlara etibar edilməməlidir".

Svift istehzalı bir tövrlə Laqadodakı Böyük akademiyanın alimlərini, mənasız layihələrin hazırlanması ilə məşğul olan boş xəyalbazlan ustalıqla təsvir edir. Onlar hörümçək torundan qumaş hazırlamaq, buzu yandırıb barıt qayırmaq, xiyardan günəş enerjisi almaq, evi özüldən deyil, damından başlayaraq inşa etmək və s. ilə məşğul olurlar. O zamanlar elmi işlər arasında, doğrudan da, orta əsr sxolastik qalıqlarının xeyli tör-töküntülərinə rast gəlmək olurdu. Öz zəmanəsinin ən elmi adamlarından biri olan Svift, əlbəttə, ümumiyyətlə elmə qarşı deyil, heç bir əməli fayda verməyən, zamanın və həyatın tələbatından ayrılmış olan elmə qarşı çıxır, öz

biliklərilə şəxsən varlanmaq və xalqı kobud bir surətdə aldatmaq məqsədilə möhtəkirlik edən alimlərə nifrət bəsləyirdi.

Conatan Svift yalnız orta əsr alimlərinə, dvoryanlıq və ruhaniliyin tüfeyliliyinə, saray adamlarının padşahlar qarşısında pərəstişkarlığına, sxolastik saxta elmə istehza etməklə kifayətlənməyib, xalq üçün yeni istismar növləri və yeni məhrumiyyətlər, iztirablar və fəlakətlər gətirən burjua münasibətinə də istehza edirdi. Svifti xüsusən mənfəətpərəst adamların şərəfsizcəsinə qazanc güdmələri, müstəmləkə qarətlərinin, sənaye və ticarətin onlar üçün yaratdığı bütün imkanlardan pulçıxarmaq cəhdləri həddən çox qəzəbləndirirdi.

Svift Laqadodakı xəyalbazlar akademiyasını təsvir edərkən, göstərir ki, "akademiyalar" insanlığı "xoşbəxt etmək üçün" onlarca üsullar təklif edirlər. Müəllif əlavə edir: "ancaq təəssüf ki, hələ bu layihələrdən heç biri başa çatdmlmamışdır; hələlik isə ölkə gələcək firavanlığı gözləyə-gözləyə xarabaya çevrilmişləri, evlər uçulur, əhali isə aclıq və cır-cındır içində gəzir".

Romanın dördüncü hissəsində qəhrəman xəyali quiqnqnmlar ölkəsinə düşür. Qulliverin atlar ölkəsində olmasını təsvir edərək, məyus olmuş və yorulmuş Svift öz hazırcavablığına tam sərbəstlik verir, həmvətənlərinə sübut etməyə çalışır ki, onların həyatı qeyri-insani, çox pis, çox haqsız və amansız qurulmuşdur.

Çirkin, acgöz ikiayaqlı vəhşilər olan yexular get-gedə daha artıq Qulliverin yadına onun "mədəni" həmvətənlərini salır; əksinə, sadəlövh atlar ona "insani" adamlardan daha mehriban görünürlər, onların dillərində hətta "yalan" anlayışı da yoxdur: Qulliver bu nəticəyə gəlir ki, insanlıq kökündən xarab olmuşdur və insanlar insanlıq simasını itirib, iyrənc yexulara çevrilirlər.

Sviftin qəzəbli və acı satirasında insan həyatının əsaslarını köklü danmaqdan başqa heç nə görməyən tənqidçilər Svifti bir səslə insan-sevməz adlandırıb bu qondarma insansevməzliyi müəllifin xasiyyətinin pisliyilə izah etməyə çalışırlar. Lakin bütün kəskinliyinə baxmayaraq, Svift satirası içərisində həyatı təsdiq edən bir əsas vardır. Zira o, ümidini itirmir ki, "nəhayət, ağıl kobud qüvvəyə qalib gələcəkdir".

Svift öz zəmanəsini, bütün özbaşınalıqları və sərtliklərilə dünyanı dəyişdirəcək və islah edəcək olan daha yaxşı gələcək naminə inkar etmişdir.

Sviftin satirası yayınmaadan qarşıdakı hədəfi düz vurur və bu hədəf müəllifm özünə olduğu kimi, oxucuya da açıq-aydın görünür. Svift öz mühakimə və nəticələrində heyrətverici dərəcədə ardıcıl və məntiqidir. Onun bütün eyham və işarələri asanlıqla şərh edilir; XVIII əsr İngiltərəsinin ictimai-siyasi həyatının tamamilə müəyyən və konkret hadisələri şəklində göz önündə canlanır. "Qulliverin səyahəti" dünya ədəbiyyatında on gözəl satirik əsərlərdən biridir.

Öz zamanındakı İngiltərənin bütün nöqsanlarını qorxmadan açıb göstərən, "qüdrətli azadlığın coşqun mübarizi", ağlın, ədalətin tərəfdarı və parlaq satirik olan Conatan Svift qabaqcıl insanlıq üçün bu gün də əzizdir. Onun qəzəbli və coşqun kitabı, indi də milyonlarla oxucuların qəlbində xalqa zülm edənlərə, zorakılığa və şərə qarşı qəzəb hissi oyadır.

С.Исмаилов

По роману великого Английского классика Джонатана Свифта о «путешествия Гуливера»

Резюме

Вершина творчество Свифта «Путишествия Гуливера» (1726) Пародия и одновременно совершенствуя литературы путешествий, с «открывает» фантастические страны, сатирические комментария, реальные перективы и идеалы европейского общественного устройства. Его комичные, сближающим отражением предстает мирок лилипутов; здравый и свободный рассудок выносит приговор новейшим свершениям истории. В «Путишествия Луливера» осмеяно безумие «чистого» научного прогресса, не состоятельность буржуазная просветительная гуманияма. Демонстрируется, выдвинута ироническая диллема «разум» социально извращенным человеческом существованием.

S.Ismailov

on the novel by the great English classic Jonathan Swift on the "journey Guliver"

Summary

The top of Swift's work "Guliver Trips" (1726), a parody, and improving travel literature, with "opens" a fantastic country, satirical commentary, real and ideals of the European social order. His comedic, bringing together the reflection appears little world of Lilliput, robust and free mind adjudicates the latest achievements of history. In "Trips Gulivera" ridiculed the madness of "pure" scientific progress, not solvency bourgeois educational gumaniyama. Demonstrates launched an ironic dilemma "mind" socially perverse human existence.

Rəyçi: Firuz Mustafa
fəlsəfə elmləri doktoru

Mündəricat

DİLÇİLİK

Nigar Veliyeva
History of the transnational processes and their's influence on the enrichment of word-stock of english 3
Məhəbbət Əsədova
Bəzi dillərdə müşahidə edilən işarə və şəxs əvəzlikləri kontominasiyası hallarının psixolinqvistik aspektdən təhlilinə dair 12
Pərvanə Mövsümova
Games - motivation in teaching english 18
Hashimhudjayeva Mohirukh Muzaffarovna
The ways of plant nomination in english, russian and uzbek languages..... 23
Jurayev Elbek Sadullayevich
The types of dictionaries..... 28
Sənubər Zeynalova
Bədii nitqin üslubiyyatında metaforanın rolu 33
Sevda Kazımova
Перевод юридических текстов 38
Мехти Рагимов
Самира Касумова
Проблемы перевода английских пословиц и поговорок..... 43
Yaşar Məmmədli
Leksik yolla intensivliyin ifadə yolları 49
Şirməmməd Qulubəyli
Təklik anlayışı müasir Azərbaycan dilində kəmiyyət funksional – semantik kateqoriyasının tərkib hissəsi kimi 54
Nuriyyə Rzayeva
Azərbaycan dilində ingilis dili mənşəli terminlərin leksik və semantik xüsusiyyətləri 60
Dilarə Həmidova
Müasir ingilis ədəbi dilində felin şəxssiz formaları sistemində məsdərin yeri 65
Ülkər Musayeva
Azərbaycan ədəbi dilində kəmiyyət bildirən əlamətlər 69
Eldar Ağayev
Slenq – dilçilik termini kimi 75
Lalə Rzayeva
Bədii mətndə personaj nitqinin leksik xüsusiyyətləri 80
Səbinə Quliyeva
Müasir təhsilin məzmunu və onun həyata keçirilməsi 86
Гюльшен Аббасова
Развитие речи студентов при обучении русскому языку как иностранному 91
Rövşanə Əsgərova
Feli sifətin səciyyəvi xüsusiyyətləri 97

Л. Илдрымзаде
Понятие фразеологического сочетания слов 103
Г.Мамедова,
Э. Рустамова
Английское произношение фонетика английского языка 108
Э. Рустамова
Понятие о фразеологической системе 115
Лала Масимова
Фразеологические средства оценки интеллектуальных способностей
человека на английском языке 121
Şəhla Namazova
Dilçilikdə model və koqnitiv modelləşdirmə 126
Хатира Сулейманова
Семантическая валентность и падежная грамматика Ч. Филмора 131
Məlahət Məhərrəmova
Söz yaradıcılığı prosesində kişi cinsinə aid yarımsuffikslərin rolu 137
Nigar Həsənova,
Xalidə Zamanova
İngilis və Azərbaycan dillərində elliptik cümlələrin təsnifatı 144
Məsmə Mütəllimova
Şekspir sonetlərində işlənmiş bəzi sintaktik üslubi priyomlar və onların
tərcümədə qorunub saxlanılması 149
Əzizə Məmmədova
Reklam mətninin leksik aspekti 154
Nazlı Aslan
Bilinqvizmin növləri 159
Mehriban Təhməzova
İngilis dili fellərinin analitik formalarının orta dövrdə inkişafı 166
Gülnar Nağıyeva
"İn" sözönü tələb edən fellərlə düzələn razeoloji
Birləşmələr və onlarin azərbaycan dilində qarşılığı 172
Хавер Гаджиева
Функции устойчивых словосочетаний фразеологизированного и
нефразеологизированного характера 177
Aysu Hüseynova
Müasir Azərbaycan və ingilis dillərində sadə cümlə tərkibində
əvəzliklərin rolu 182
Sevinc Bağırova
İngilis dilində məcazi mənalı sözlər 187
Şəlalə Quliyeva
"Radio dili" "audionitq" mədəniyyətinin əsasıdır 192
Şəfiqə Heydərova,
Ellada Hacıyeva
İngilis dilinin söz yaradıcıığında ön şəkilçilərin rolu və əhəmiyyəti 199
Sevinc Məmmədova
Müasir alman dilində implisit inkarlığın islənmə xüsusiyyətləri 204
İradə Seyidova
Söz bütövləri və cümlədə sözlər 209

Məsud Məmmədov,
Vəfa Məlikova
Azərbaycan və rus dillərinin bəzi sözlərinin tipoloji təhlili 215
Dilbər İbrahimova
İngilis dilində ideomatik ifadələrin dilin lügət tərkibinin zənginləşməsində rolu və əhəmiyyəti 220
İradə Məhərrəmova
Leksik vahidlərin distributiv imkanları..... 225
Gülümsər Abbasova
Morfoloji sistemdə kateqoriya məsələsi 230
Nigar Haciyeva,
Xanim Manafli
Mürəkkəb cümlənin və mətnin ekspressivliyi 236

ƏDƏBİYYATŞÜNASLIQ

Hüseyn Həşimli
Səid Səlmasinin publisistikası 242
Şakir Cəfərov
H.Cavidin qadın qəhrəmanları
(«İblis», «Səyavuş» və b. əsərləri əsasında) 250
Нармин Султанлы
Основные литературные течения в современной Иракской прозе 258
Nəziymə Axundova
Ədəbi şəxsiyyət və tarixi həqiqət 264
Anar Səfərli
Azərbaycan miniatür sənətində Nizami ənənələri 274
Буробия Ражабова
Навоий ва “занд” китоби ҳақида 279
Nadir İsmayılov
Məmməd Araz və uşaq ədəbiyyatı 288
Təranə Rəhimli
İsmayil Şıxlının «Dəli Kür» romanının bədii qəhrəman konsepsiyası
ədəbi tənqiddə 294
Sakibə Ələsgərova
Xalq şairi Hökumə Billurinin “Səriyyə” poeması fars şovinizminin
törətdiyi dəhşətlərin bədii ifadəsi kimi 301
Şəbnəm Haqverdiyeva
El şairi Nayib Şirvani 307
Yaşar Qasimov
Yeni poetik konfliktin rəmzi ifadəsi 312
Gülşən Ağabəy
Cümhuriyyət dövrü poeziyasında Azərbaycançılıq idealları 317
Əl-Abbasi Nəval Xeyri
Henri Heyne poziyasının XIX əsrdə rus dilinə tərcüməsinə dair 324
Səltənət Əliyeva
Anadilli ədəbiyyatın öyrənilməsində və təbliğində Əlyar Səfərlinin rolu 330

Aqşin Dadaşzadə
Azərbaycan dramaturgiyasının janr spesifikasının tədqiqinin bəzi problemləri 335
Ayşən Kazımlı
Cəlil Məmmədquluzadənin hekayələrində "Kiçik adam" obrazları 343
Sevinc Qasımova
"Azərbaycanda novruz ənənələri və inancları" probleminin əsasları 348
Sofiya Mirzəyeva
"Kitabi-Dədə Qorqud" dastanında mifologiya 355
Bəsirə Əzizəliyeva
Amerika transsendentalistlərinin yaradıcılığında Şərq fəlsəfəsi 360
Cavidə Məmmədova
XX əsrin əvvəllərində ingilis dramaturgiyasinda sosial-ictimai problemlər mövzusu 367
Könül Nəhmətova
Abbasqulu Ağa Bakıxanovun "Kitabi-Əsgəriyyə" hekayəsinin nəsr texnikası 372
Hilalə Axundova
Azərbaycan folklorunda dağ kultu 377
Tahirə Əliyeva
Əhdi Bağdadi və Sadiq Bəy Əfşar 383
Əfsanə Ələsgərli
Türk dünyasi mediasında vahid informasiya sistemi və onun gələcək perspektivləri 388
Leyla Abasova
Azərbaycan tərcümə kitabi və "Azərnəşr" 394
Sevinc Xudiyeva
Lev Tolstoy nəsrinin Azərbaycan dilinə tərcüməsi tarixi haqqında 401
Инагамова Дилдора Абдурашидовна
Изучение «Хамсы» в 20 –30-е годы XX века 406
Könül Vəliyeva
Böyük ingilis klassiki Bernard Şou 411
Reyhan Quliyeva
Bayron poemalarında şərqin bədii təsviri 416
Fatma Ağamirova
Muzey tələbəliyin dəyər oriyentirlər sistemində 421
Sevil İsmayılova
Conatan Svift və onun "Qulliverin səyahəti" romanı 428

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ
Yığılmağa verilmiş **29.07.2013.**
Çapa imzalanmış **28.08.2013.**
Şərti çap vərəqi 52. Sifariş **№ 200.**
Kağız formatı 6**0x108 1/8.** Tiraj **500.**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.